AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NAXÇIVAN BÖLMƏSİ

ISSN 2218-4783

# HEYDƏR ƏLİYEV İDEYALARI VƏ MÜASİR DÖVR

## (17-18 aprel 2023-cü ildə keçirilmiş respublika konfransının materialları)

## II hissə

Naxçıvan, “Tusi” – 2023

**REDAKSİYA HEYƏTİ**

Baş redaktor
**İ.M.Hacıyev**

İ.Ə.Həbibbəyli, Y.M.Mahmudov, N.M.Vəlixanlı, Ə.B.Ərcilasun, M.Z.Nağısoylu, M.K.İmanov, Ə.Ə.Salamzadə, C.Ə.Qiyasi, İ.E.Atnur, F.Y.Səfərli (baş redaktorun müavini), Ə.A.Quliyev (baş redaktorun müavini), V.B.Baxşəliyev (məsul katib), Ş.T.Bünyadova, F.Y.Xəlilov, R.Z.Rəhimli

**EDITORIAL BOARD**

Chief editor
**I.M.Hajiyev**

I.A.Habibbeyli, Y.M.Mahmudov, N.M.Valikhanli, A.B.Argilasun, M.Z.Nagisoylu, M.K.Imanov, A.A.Salamzadeh, G.A.Giyasi, I.E.Atnur, F.Y.Safarli (assistant editor), A.A.Quliyev (assistant editor), V.B.Bakhshaliyev (executive secretary), Sh.T.Bunyadova, F.Y.Khalilov, R.Z.Rahimli

**РЕДАКЦИОННАЯ КОЛЛЕГИЯ**

Главный редактор
**И.М.Гаджиев**

И.А.Габиббейли, Я.М.Махмудов, Н.М.Велиханлы, А.Б.Арджиласун, М.З.Нагисойлу, М.К.Иманов, Э.А.Саламзаде, Дж.А.Гияси, И.Э.Атнур, Ф.Я.Сафарли (зам. главного редактора), А.А.Гулиев (зам. главного редактора), В.Б.Бахшалиев (ответственный секретарь), Ш.Т.Бунядова, Ф.Ю.Халилов, Р.З.Рагимли

**"HEYDƏR ƏLİYEV İDEYALARI VƏ MÜASİR DÖVR" RESPUBLİKA ELMİ KONFRANSININ MATERİALLARI. II HİSSƏ. NAXÇIVAN: TUSİ, 2023, 192 s.**

Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, 35, tel.: 544-69-84
Address: Nakhchivan, Haydar Aliyev av., 35, phone: 544-69-84
Адрес: Нахчыван, пр. Гейдар Алиева, 35, тел.: 544-69-84

© "Tusi" nəşriyyatı, 2023

# AZƏRBAYCAN RESPUBLİKASINDA 2023-CÜ İLİN "HEYDƏR ƏLİYEV İLİ" ELAN EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

# S Ə R Ə N C A M I

2023-cü il mayın 10-da Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur.

Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Uu öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir.

Böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan Heydər Əliyevin tükənməz dövlət idarəçiliyi istedadı onun SSRİ-nin rəhbərlərindən biri kimi çalışdığı və irimiqyaslı layihələr həyata keçirdiyi illərdə özünü bir daha parlaq surətdə təzahür etdirmişdir. Heydər Əliyev bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə çəkmiş və respublikamızın inkişafı üçün malik olduğu bütün imkanlardan istifadə etmişdir.

Zamanın hökmü ilə ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycan Ermənistanın təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən dünyanın siyasi xəritəsindən silinmək və dövlətçiliyini itirmək təhlükəsi ilə qarşılaşmışdır. Taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarmış, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir. Heydər Əliyevin ölkəmizə rəhbərliyi illəri xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir.

Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur. Geniş bilik və dərin təfəkkür sahibi olan Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, bütün dövrlərdə

Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll etmişdir. Ulu öndər cəmiyyət həyatının müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görərək, müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirmişdir. Heydər Əliyevin milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin tam sahibinə çevrilmiş və qısa müddətdə ölkəmizin inkişafına güclü təkan verən resurslar əldə edilmişdir. Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu, nizami ordunun yaradılması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir. Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur.

Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli ulu öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir.

Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı – Milli Qurtuluş Günü kimi qeyd edir.

Müstəqil Azərbaycan ulu öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasında 2023-cü il "Heydər Əliyev İli" elan edilsin.
2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 29 sentyabr 2022-ci il**

## MÜNDƏRİCAT

**AMEA Naxçıvan Bölməsinin təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibəti ilə "Heydər Əliyev ideyaları və müasir dövr" mövzusunda keçirilmiş respublika konfransı**

**Üçüncü bölmə**

### HEYDƏR ƏLİYEV VƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR

**Fərman Xəlilov.** Ulu öndər Heydər Əliyevin ədəbiyyat siyasətinə həsr olunan dissertasiya....................8
**Firudin Rzayev.** Azərbaycan xalqının rifahı, elmi, mədəniyyəti və dilinin özünə qayıdışında Heydər Əliyev qətiyyəti.......................................................................................................................13
**Rəşad Zülfüqarov.** Ümummilli lider Heydər Əliyev və dilimizin saflığı uğrunda mübarizə.................20
**Adil Əsədov.** Heydər Əliyev şəxsiyyəti etnogenezin personalist konsepsiyası kontekstində..................24
**Yusif Hüseynov.** Azərbaycanın klassik bədii-fəlsəfi irsi ümummilli lider Heydər Əliyevin ideyaları müstəvisində.........................................................................................................................28
**Radif Mustafayev.** II Qarabağ qənimət ədəbiyyatında ümummilli lider Heydər Əliyevə münasibət......36
**Anar Zamanbəyli**. Böyük müəllim..........................................................................................43
**Səbuhi İbrahimov**. Heydər Əliyev və islami dəyərlər.....................................................................46
**Zülfiyyə İsmayil.** Heydər Əliyev və Azərbaycan dili məsələləri........................................................51
**Fəxriyyə Cəfərova.** Heydər Əliyev – hər bir xalq öz dili ilə yaranır...................................................59
**Fəxrəddin Eylazov.** Ulu öndər Heydər Əliyevin milli-mənəvi dəyərlərimizə qayğısı............................66
**Gülsüm Kərimova.** Ümummilli lider Heydər Əliyevin nitqində atalar sözləri dəyərində müdrik kəlamları...............................................................................................................................72
**Ələkbər Cabbarlı.** Tükənməz xəzinə – Heydər Əliyev irsi..................................................................78
**Toğrul Cəfərli.** Azərbaycan heykəltəraşlığında Heydər Əliyev dühası..................................................85
**Aysel Behbudlu.** Heydər Əliyevin dil siyasəti...................................................................................90
**Səbinə Dünyamalıyeva.** Cavidi vətəni ilə bütövləşdirən dahi şəxsiyyət...............................................95
**Günel Əsgərova.** Ümummilli lider Heydər Əliyevin Azərbaycan satirik mətbuatının şah əsəri – "Molla Nəsrəddin" jurnalı haqqında mülahizələri..........................................................................100

**Dördüncü bölmə**

### HEYDƏR ƏLİYEV VƏ NAXÇIVAN

**Asəf Orucov.** Heydər Əliyev və Naxçıvanda milli-mənəvi dəyərlərin qorunması................................106
**Toğrul Xəlilov.** Heydər Əliyev və Naxçıvan arxeologiyası...............................................................111
**Nurlana Əliyeva.** Naxçıvan ədəbi mühitində Heydər Əliyev obrazı......................................................115
**Yaşar Rəhimov.** Ulu öndər Heydər Əliyevin hakimiyyətinin I dövründə (1969-1982-ci illər) Şərur rayonunun sosial-iqtisadi inkişafı................................................................................................121
**Ələkbər Qasımov.** Heydər Əliyev və Azərbaycan teatrları...............................................................128
**Əli Qəhrəmanov.** Milli və mənəvi varlığımızın böyük himayədarı......................................................137
**Nuray Əliyeva.** Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz.............................................................145
**Aytən Cəfərova.** Heydər Əliyev və milli folklorumuz......................................................................152
**Aygün Orucova.** Ümummilli lider Heydər Əliyevin təhlillərində Cəlil Məmmədquluzadə.................159
**Tehranə Xudaverdiyeva.** Ulu öndər Heydər Əliyev və Naxçıvan (1990-1993)...................................164
**Rəsul Bağırov.** Heydər Əliyev və Naxçıvanın müdafiəsi...................................................................173
**Amil Əsgərov.** Ulu öndər Heydər Əliyev Naxçıvanın maddi və mənəvi mədəniyyəti haqqında...........178
**Mirsəlim Eminov.** Heydər Əliyev və Naxçıvanda təsviri incəsənət......................................................185

# CONTENTS

## In honor of the 100th anniversary of the national leader Heydar Aliyev, on the initiative of the Nakhchivan branch of ANAS, a republican conference on the theme "Heydar Aliyev's ideas and modernity" has been carried out

### Third section

### HEYDAR ALIYEV AND NATIONAL SPIRITUAL VALUES

**Farman Khalilov.** Dissertation on the literary policyof the great leader Heydar Aliyev..........................8
**Firudin Rzayev.** Heydar Aliyev's determination to return prosperity, science, culture and language to the Azerbaijani people.......................................................................................................13
**Rashad Zulfugarov.** The national leader Heydar Aliyev and struggle for purity of our language...........20
**Adil Asadov.** The personality of Heydar Aliyev in the context of the personalist ethnogenesis concept.....24
**Yusif Husseinov.** The classical artistic and philosophical heritage of Azerbaijan at the level of the ideas of the national leader Heydar Aliyev.........................................................................................28
**Radif Mustafayev.** Attitude towards Heydar Aliyev in the trophy literature of the II Karabakh war......36
**Anar Zamanbeyli.** A great teacher..........................................................................................................43
**Sabuhi Ibrahimov**. Heydar Aliyev and Islamic values.............................................................................46
**Zulfia Ismayil.** Heydar Aliyev and Azerbaijani language issues............................................................51
**Fakhria Jafarova.** Heydar Aliyev – every nation is created by its language..........................................59
**Fakhraddin Eylazov.** The great leader Heydar Aliyev's care for our national and spiritual value..........66
**Gulsum Karimova.** Wise sayings equivalent to proverbs in the speechof the national leader Heydar Aliyev.............................................................................................................................................72
**Alakbar Jabbarly.** Inexhaustible treasury – the heritage of Heydar Aliyev............................................78
**Toghrul Jafarli.** The genius of Heydar Aliyev in Azerbaijani sculpture.................................................85
**Aisel Behbudlu.** Heydar Aliyev and language policy..............................................................................90
**Sabina Dunyamalieva.** Genius who reunited Javid with his Homeland.................................................95
**Gunel Asgarova.** The attitude of the national leader Heydar Aliyev to the masterpiece of the Azerbaijani satirical press –the "Molla Nasreddin" journal..................................................................100

### Fourth section

### HEYDAR ALIYEV AND NAKHCHIVAN

**Asef Orujov.** Heydar Aliyev and the protection of nationaland moral values in Nakhchivan..............106
**Togrul Khalilov.** Heydar Aliyev and archaeology of Nakhchivan.........................................................111
**Nurlana Aliyeva.** Image of Heydar Aliyev in the literary environment of Nakhchivan........................115
**Yashar Rahimov.** Socioeconomic development of the Sharur district duringthe first period of the great Heydar Aliyev's rule (1969-1982)..................................................................................................121
**Alakbar Gasimov.** Heydar Aliyev and Azerbaijan's theaters................................................................128
**Ali Gahramanov.** The great patron of our national and spiritual being................................................137
**Nuray Aliyeva.** Heydar Aliyev and our national and spiritual values...................................................145
**Aytan Jafarova.** Heydar Aliyev and our national folklore.....................................................................152
**Aygun Orujova.** Jalil Mammadguluzadeh in consideration of the national leader Heydar Aliyev........159
**Tehrana Khudaverdiyeva.** Great leader Heydar Aliyev and Nakhchivan (1990-1993)......................164
**Rasul Bagirov.** Heydar Aliyev and the defense of Nakhchivan............................................................173
**Amil Asgarov.** Great leader Heydar Aliyev about the materialand spiritual culture of Nakhchivan......178
**Mirsalim Eminov.** Heydar Aliyev and fine arts in Nakhchivan............................................................185

## СОДЕРЖАНИЕ

**В честь 100-летия со дня рождения общенационального лидера Гейдара Алиева по инициативе Нахчыванского отделения НАНА проведена республиканская конференция на тему «Идеи Гейдара Алиева и современность»**

### Третий раздел

### ГЕЙДАР АЛИЕВ И НАЦИОНАЛЬНЫЕ ДУХОВНЫЕ ЦЕННОСТИ

**Фарман Халилов.** Диссертация, посвященная литературной политике великого лидера Гейдара Алиева........................................8
**Фирудин Рзаев.** Решимость Гейдара Алиева в возвращении благополучия, науки, культуры и языка азербайджанскому народу........................................13
**Рашад Зульфугаров.** Национальный лидер Гейдар Алиев иборьба за чистоту нашего языка.......20
**Адиль Асадов.** Личность Гейдара Алиева в контексте персоналистской концепции этногенеза........................................24
**Юсиф Гусейнов.** Классическое художественно-философское наследие Азербайджана в плоскости идей общенационального лидера Гейдара Алиева........................................28
**Радиф Мустафаев.** Отношение к Гейдару Алиеву в трофейной литературе II Карабахской войны........................................36
**Анар Заманбейли.** Великий учитель........................................43
**Сабухи Ибрагимов.** Гейдар Алиев и исламские ценности........................................46
**Зульфия Исмаил.** Гейдар Алиев и вопросы азербайджанского языка........................................51
**Фахрия Джафарова.** Гейдар Алиев – каждый народ создан своим языком........................................59
**Фахреддин Эйлазов.** Забота великого лидера Гейдара Алиева о национальных и духовных ценностях........................................66
**Гюльсум Каримова.** Мудрые изречения, равноценные пословицам, в речи национального лидера Гейдара Алиева........................................72
**Алекпер Джаббарлы.** Неисчерпаемая сокровищница – наследие Гейдара Алиева........................................78
**Тогрул Джафарли.** Гений Гейдара Алиева в азербайджанской скульптуре........................................85
**Айсель Бехбудлу.** Гейдар Алиев и языковая политика........................................90
**Сабина Дунямалиева.** Гений, который воссоединил Джавида с его родиной........................................95
**Гюнель Аскерова.** Отношение общенационального лидера Гейдара Алиева к шедевру азербайджанской сатирической прессы – журналу «Молла Насреддин»........................................100

### Четвертый раздел

### ГЕЙДАР АЛИЕВ И НАХЧЫВАН

**Асеф Оруджов.** Гейдар Алиев и защита национально-нравственныхценностей в Нахчыване.....106
**Тогрул Халилов.** Гейдар Алиев и археология Нахчывана........................................111
**Нурлана Алиева.** Образ Гейдара Алиева в литературной среде Нахчывана........................................115
**Яшар Рагимов.** Социально-экономическое развитие Шарурского района в I период правления великого лидера Гейдара Алиева (1969-1982 гг.)........................................121
**Алекпер Гасымов.** Гейдар Алиев и театры Азербайджана........................................128
**Али Гахраманов.** Великий покровитель нашего национального идуховного бытия....................137
**Нурай Алиева.** Гейдар Алиев и наши национально-духовные ценности........................................145
**Айтен Джафарова.** Гейдар Алиев и наш национальный фольклор........................................152
**Айгюн Оруджева.** Анализ творчества Джалила Мамедкулизаде общенациональным лидером Гейдаром Алиевым........................................159
**Теране Худавердиева.** Великий лидер Гейдар Алиев и Нахчыван (1990-1993)............................164
**Расул Багиров.** Гейдар Алиев и оборона Нахчывана........................................173
**Амил Аскеров.** Великий лидер Гейдар Алиев о материальной и духовной культуре Нахчывана...178
**Мирсалим Эминов.** Гейдар Алиев и изобразительное искусство в Нахчыване...........................185

# ÜÇÜNCÜ BÖLMƏ

## HEYDƏR ƏLİYEV VƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR

FƏRMAN XƏLİLOV

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ƏDƏBİYYAT SİYASƏTİNƏ HƏSR OLUNAN DİSSERTASİYA

*Məqalə gənc tədqiqatçı Ş.Məmmədovanın "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı məsələləri" mövzusunda yazdığı fəlsəfə doktorluğu dissertasiyasının təhlilinə həsr olunub.*

*Məqalədə dissertasiyanın ayrı-ayrı fəsillərində H.Əliyevin ədəbiyyat siyasətinin mahiyyəti və səciyyəvi xüsusiyyətlərinin aşkara çıxarılması, həmçinin elmi baxımdan dəyərləndirilməsi məsələlərinin üzərində dayanılır. Bu məsələlərlə bağlı dissertasiya müəllifinin fikir və mülahizələrinin obyektivliyi, yeniliyi və konkret faktlara istinadən elmi cəhətdən əsaslandırılması diqqətə çatdırılır.*

*Müəllif nəticə olaraq belə qənaətə gəlir ki, Ş.Məmmədovanın dissertasiyası ulu öndər H.Əliyevin ədəbiyyat siyasətinin müxtəlif aspektlərdən araşdırılmasına həsr olunan əhəmiyyətli tədqiqat işidir.*

**Açar sözlər:** *Heydər Əliyev, ədəbiyyat siyasəti, dissertasiya, Şərəbanı Məmmədova, folklor, klassik ədəbiyyat.*

Ədəbiyyat həm sovet dönəmində, həm də müstəqillik illərində Azərbaycan dövlətinə rəhbərlik edən ulu öndər Heydər Əliyevin fəaliyyətinin və siyasətinin ən mühüm tərkib hissələrindən biri idi. Onun ədəbiyyat siyasəti bir tərəfdən Azərbaycanda ədəbi prosesin və ədəbiyyatşünaslığın inkişafına təkan vermişdirsə, digər tərəfdən insanların düşüncə və həyat tərzini işıqlandıran mənəvi enerji mənbəyi olmuşdur. O, Azərbaycana rəhbərlik etdiyi illərdə həmişə folklordan başlamış müasir ədəbi proses də daxil olmaqla ədəbiyyatımızın bütün mərhələlərinə aid fikir və mülahizələr söyləmişdir. Bu fikir və mülahizələr onun müxtəlif ədəbi məclislərdə, yubiley tədbirlərində, şair və ədiblərlə görüşlərində, Azərbaycan yazıçılarının qurultaylarında rəsmi qərar və sərəncamlarında öz əksini tapmışdır. Ümumiləşdirilmiş şəkildə diqqətə çatdırdığımız bu faktlar **"Heydər Əliyev və Azərbaycan ədəbiyyatı məsələləri"** mövzusunun aktuallığını şərtləndirməklə bərabər, belə bir mövzu ətrafında araşdırmalar aparılması zərurətini də ortaya çıxarmışdır. Bu baxımdan gənc tədqiqatçı Şərəbanı Məmmədovanın fəlsəfə doktorluğu dissertasiyasında H.Əliyevin ədəbiyyat siyasətini ədəbi prosesin inkişafı fonunda milli siyasət kursunun tərkib hissəsi kimi öyrənməyi məqsəd kimi qarşıya qoyması əsaslı, məntiqli və xüsusi elmi əhəmiyyətə malikdir.

"Giriş"də mövzunun aktuallığı, nəzəri və təcrübi əhəmiyyəti kifayət qədər əsaslandırılmışdır.

I fəsil **("Heydər Əliyevin ədəbiyyat siyasəti və onun mahiyyəti")** iki yarımfəsildən ibarətdir. **"Heydər Əliyevin ədəbiyyat siyasəti milli siyasətin tərkib hissəsi kimi (sovet dövründə və müstəqillik illərində)"** adlı ilk yarımfəsildə müəllif H.Əliyevin "ədəbiyyat millətin özünüifadə və özünütəsdiqinin bir formasıdır" qənaətində olduğunu vurğulayır və araşdırmalarını məhz həmin tezisin şərhinə yönəldərək maraqlı elmi mülahizələr irəli sürür. O, inandırıcı şəkildə əsaslandıra bilir ki, "milli-tarixi yaddaşımızı özündə yaşadan çoxəsrlik ədəbiyyatımız və folklorumuz məhz H.Əliyevin simasında öz himayədarını tapmışdır" [1, s. 11]; "ulu öndərin ədəbiyyata olan münasibəti vətənə və xalqa olan sevginin əsas ifadə formalarından biridir" [1, s. 13]; H.Əliyevin milli siyasət konsepsiyasında

ədəbiyyat "milli və bəşəri dəyərlərə sadiq qalan və tariximizi düzgün əks etdirən", həm də "millətlərin inteqrasiyası şəraitində xalqın özünüqoruma və özünütəsdiq formasıdır" [1, s. 13].

Müəllifin H.Əliyevin ədəbiyyat siyasətini sovet ideologiyası mövqeyindən yox, kompromis şəraitdə şablonlaşmış hökmlər çərçivəsindən kənara çıxmaqla aparmasına diqqəti cəlb etməsi və bunu tutarlı faktlarla əsaslandırması da razılıq doğurur. Bu istiqamətdə geniş təhlillər aparan müəllifin irəli sürdüyü mülahizələrin özünəməxsusluğu və yeniliyi H.Əliyevin niyyəti "beynəlmiləl ədəbiyyat adı altında milli ədəbiyyatın inkişaf etdirilməsi idi" [1, s. 14]; Onun üçün "sovet ədəbiyyatşünaslarının əsaslandığı sosial sifariş üsulundan istifadə formal xarakter daşıyırdı" [1, s. 15]; "ümummilli lider milli təfəkkürlə bəşəri düşüncəni birləşdirərək millilik, tarixilik və müasirlik prizmasından yanaşmışdır" [1, s. 17] kimi hökmlərdə öz təsdiqini tapır.

I fəslin ikinci yarımfəslində **("Ədəbiyyat Heydər Əliyevin yaratdığı ideologiyanın əsası kimi – Heydər Əliyev və azərbaycançılıq")** əvvəlcə azərbaycançılıq ideologiyasının təşəkkülü və tarixi inkişaf yolu nəzərdən keçirilir, H.Əliyevin bu ideologiyanı dövlət ideologiyası səviyyəsinə qaldırmaqla həmin şərəfli yolu başa vurması diqqət mərkəzinə çəkilir. Sonra müəllif H.Əliyevin milli ideologiyaya dil və ədəbiyyat prizmasından yanaşmasını onun azərbaycançılıq təliminin əsas təməllərindən biri kimi dəyərləndirir. H.Əliyevin Azərbaycan dili və ədəbiyyatının azərbaycançılıq ideologiyası mövqeyindən öyrənilməsi və inkişaf etdirilməsinə dair fikir və mülahizələri, bu istiqamətdə atdığı əməli addımlar təhlil olunur, onun elmi qiyməti verilir və ictimai-siyasi əhəmiyyəti müəyyənləşdirilir.

Müəllifin H.Əliyevin Azərbaycan Xalq Cümhuriyyəti dövrünə və bu dövrdə yaşayan ziyalıların fəaliyyətinə və yazıçıların yaradıcılığına obyektiv yanaşma tələbinin azərbaycançılığa güclü təkan verməsi haqqındakı mülahizələri isə maraqlı elmi müşahidənin nəticəsi olmaqla yanaşı, tarixi gerçəkliyə tam uyğundur: "H.Əliyev çox gözəl bilirdi ki, Şərqin, türk-islam dünyasının, xüsusən Azərbaycanın bütün fəlsəfi təlimləri əsasən bədii ədəbiyyatla bağlı olub onun bətnindən boy atmışdır"[1, s. 38].

Dissertasiyanın dörd yarımfəsildən ibarət olan II fəslində **("Heydər Əliyev irsində Azərbaycan folkloruna və klassik ədəbiyyatına münasibət")** H.Əliyevin Azərbaycan şifahi xalq ədəbiyyatı, "Kitabi-Dədə Qorqud" dastanı, orta əsrlər, həmçinin XIX əsr və XX əsrin əvvəllərinin Azərbaycan ədəbiyyatına münasibəti məsələləri araşdırılır.

Folklor irsinin azərbaycançılıq ideologiyasının tarixi qaynaqlarından olması mütəxəssislər tərəfindən qəbul olunmuş bir həqiqətdir. H.Əliyevin 1969-cu ildə Azərbaycanın siyasi rəhbəri vəzifəsinə təyin olunandan sonra məhz bu həqiqəti nəzərə alaraq folklorumuzla bağlı elmi-mədəni və təşkilati fəaliyyətin canlandırılması üçün xüsusi diqqət və qayğı göstərməsi bu fəslin birinci yarımfəslində öz obyektiv elmi şərhini tapmışdır. Belə ki, folklor materiallarının toplanılması və nəşri, xalq ədəbiyyatına aid bir sıra monoqrafik əsərlərin, xüsusilə A.Nəbiyevin ikicildlik "Azərbaycan xalq ədəbiyyatı" dərsliyinin çap olunması, sovet dövründə qadağalara məruz qalan milli və dini bayramların, adət və mərasimlərin xalqa qaytarılması, radio və televiziya verilişlərində xalq ədəbiyyatına aid müxtəlif verilişlərin dinləyicilərə və tamaşaçılara çatdırılması, "Dədə Qorqud" dastanının 1300 illik yubileyinin keçirilməsi, aşıq ədəbiyyatının tədqiqi və təbliği, "Ədəbiyyat və incəsənət", "Azərbaycan gəncləri" qəzetləri, "Qobustan", "Ulduz", "Azərbaycan" jurnalları və s. dövri mətbuat orqanlarında xalq yaradıcılığı ilə bağlı materialların dərc olunması və nəhayət, Azərbaycan Folklor Nümunələrinin Hüquqi Qorunması və Milli Reyestrinin Aparılması Strategiyasının hazırlanması kimi faktlar müəllif tərəfindən diqqətlə nəzərdən keçirilmiş və onların hər birinin mahiyyəti və əhəmiyyəti şərh olunmuşdur. Beləliklə, folklora yetirilən bu cür diqqətin xalqın milli ruhunun gücləndirilməsi, həmçinin vətənpərvərlik və azərbaycançılıq ideyalarının gücləndirilməsinə təkan verməsi H.Əliyevin bu sahədə apardığı siyasətinin uğurlu nəticəsi kimi qiymətləndirilmişdir. Müəllifin o qənaəti ilə də razılaşmaq lazımdır ki, həmin siyasət Azərbaycan folklorunun milli və strateji hədəflərini müəyyənləşdirmək baxımından xüsusi əhəmiyyət daşıyır.

H.Əliyevin folklora göstərdiyi qayğı Azərbaycanda qorqudşünaslığın inkişafına da çox ciddi təsir göstərmişdir. Vaxtilə yasaq edilən, XX əsrin 60-70-ci illərində isə haqqında çox ehtiyatla danışılan "Kitabi-Dədə Qorqud" məhz H.Əliyevin yaratdığı imkan sayəsində müəllifin təbiri ilə desək "Azərbaycan xalqının milli-etnik təfəkkürünün məhsulu kimi təsdiqlənmişdir" [1, s. 49].

İkinci yarımfəsildə **("Heydər Əliyev və "Kitabi-Dədə Qorqud" dastanı")** H.Əliyevin "Kitabi-Dədə Qorqud" dastanına münasibəti və bu yüksək münasibətin nəticəsində Azərbaycanın qorqudşünaslığın elmi mərkəzinə çevrilməsi şərh olunmaqla yanaşı, onun bu dastanın elmi-bədii yöndən qiymətləndirməsi məsələsi üzərində də dayanılır. Müəllif H.Əliyevin "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinə həsr olunan yubiley mərasimindəki nitqi və "Kitabi-Dədə Qorqud ensiklopediyası"na yazdığı "Ön söz"ü təhlil edərək ulu öndərin həmin dastan haqqında irəli sürdüyü mülahizələri 12 bənddən ibarət olan tezis şəklində ümumiləşdirir. Tədqiqatçının bu tezislərin sayının dastandakı boyların sayı ilə uyğun gəlməsi haqqındakı iddiası da maraq doğurur.

H.Əliyevin ədəbiyyat siyasətində keyfiyyət və miqyasca daha çox özünü göstərən onun klassik ədəbiyyata münasibəti məsələsidir. Bu, ulu öndərin bir sıra çıxış və nitqlərində, qərar və sərəncamlarında öz əksini tapmışdır. Tədqiqatçı II fəslin üçüncü yarımfəslində **("Heydər Əliyev irsində orta əsrlər klassik Azərbaycan ədəbiyyatı nümayəndələrinə münasibət")** öz araşdırmalarını məhz bu istiqamətdə aparmış və bir sıra maraqlı, yeni və orijinal elmi nəticələrə gəlmişdir. Bu yarımfəsildə məhz H.Əliyevin qayğısı sayəsində Nizami, Nəsimi, Xətayi, Füzuli, M.Ş.Vazeh, M.F.Axundov və başqa klassiklərin ədəbi irsinin təbliği və nəşri, yubileylərinin keçirilməsi, İ.Nəsimi, M.Füzuli və H.Cavidin məzarları ilə bağlı həyata keçirilən tədbirlər haqqında müfəssəl məlumatlar verilir və onların elmi-siyasi əhəmiyyəti müəyyənləşdirilir. Həmin fəsildə H.Əliyevin klassik Azərbaycan ədəbiyyatının təhlilində diqqət yetirdiyi əsas məqamların araşdırılıb üzə çıxarması da müəllifin uğuru hesab edilməlidir.

Müəllifin nəticə olaraq H.Əliyevin klassik ədəbiyyata münasibəti ilə bağlı olan fəaliyyətinin Azərbaycanı dünyaya tanıtmağın bir vasitəsi olması qənaətinə gəlməsi isə obyektivliyi ilə diqqəti cəlb edir.

II fəslin dördüncü yarımfəsli **("Heydər Əliyevin irsində XIX əsr və XX əsrin əvvəllərinin Azərbaycan ədəbiyyatına münasibət")** belə bir cümlə ilə başlayır: "Ümummilli lider H.Əliyevin təlimində ədəbiyyatımızın XIX və XX əsr nümayəndələrinin yaradıcılığı ümumazərbaycan millilik və müstəqillik ideyalarının daşıyıcıları olması fikri mühüm yer tutur" [1, s.74]. Tədqiqatçının bu mülahizəsi tarixi həqiqətə tam uyğundur və o, bu yarımfəsildə məhz həmin cümlənin ehtiva etdiyi məzmunu və mahiyyəti açmağa səy göstərmişdir.

Müəllifin H.Əliyevin M.F.Axundov, C.Məmmədquluzadə və N.Nərimanovun çoxcəhətli fəaliyyəti, yaradıcılığı və Azərbaycan ictimai fikir tarixindəki rolunu sistemli və elmi şəkildə aydınlaşdırması, onların müxtəlif əsərlərini tarixilik və müasirlik prizmasından yanaşaraq təhlil etməsi haqqındakı mülahizələri fikrimizi tam təsdiq edir.

H.Əliyevin XIX əsr və XX əsrin əvvəllərində yaşayıb yaradan və Azərbaycanda milli ideologiyanın yaradılmasında bu və ya digər dərəcədə xidmətləri olan M.Ş.Vazeh, M.S.Ordubadi, Ə.Haqverdiyev, Ü.Hacıbəyov, A.Şaiq, Y.V.Çəmənzəminli, M.Hadi, Ə.Qəmküsar, H.Cavid, C.Cabbarlı, Mir Cəlal və başqalarının yubileylərinin keçirilməsi, əsərlərinin təbliği və nəşri sahəsindəki fəaliyyəti də müəllif tərəfindən konkret faktlara söykənməklə dəyərləndirilmişdir.

III fəsildə **("Heydər Əliyev və müasir ədəbi proses")** tədqiqatçı araşdırmalarını üç istiqamətə yönəltmişdir. O, ilk növbədə H.Əliyevin sovet dövründə ədəbiyyat sahəsindəki siyasətinin başqa bir istiqamətinə diqqət yetirir, xeyli mənbə və faktlara istinad edərək onun sovet dönəmində Azərbaycanda ədəbi fikri istiqamətləndirməsinin ümumi elmi mənzərəsini yarada bilir və belə qənaətə gəlir ki, ulu öndərin sovet dönəmindəki ədəbiyyat siyasəti müstəqillik dövrü üçün zəmin hazırlayan bir mərhələ olmuşdur. Müəllifin fikrincə, bu mərhələdə yazıçılara yaradıcılıq sərbəstliyinin verilməsi, dissidentləri

gözlənilən təhlükədən xilas etmək üçün onlara tövsiyələri, yaradıcı şəxslərə öz sələflərinin işini davam etdirməyə dair məsləhətləri, vətənpərvərlik və milli iftixar hisslərinin tərənnümünü ön plana çəkməyin zəruriliyi haqqındakı istəkləri, yaşlı yazıçılarla gənc yazarların yaradıcılıq əlaqələrinin möhkəmləndirilməsi tələbini irəli sürməsi, dünya klassiklərinin əsərlərinin Azərbaycan dilinə tərcümə olunmasının vacibliyini vurğulaması, tarixi mövzuda əsərlərin yazılmasının zəruriliyinin ön plana çəkməsi, Cənubi Azərbaycan ədəbi qüvvələri ilə əlaqələrin genişləndirilməsinə diqqət yetirməsi H.Əliyevin ədəbi fikri istiqamətləndirməsini səciyyələndirən əsas xüsusiyyətlərdir. Bütün bu faktorlar sovet dövründə Azərbaycanda ədəbi mühitin canlanması və inkişafına təkan verməsi, həmçinin yaradıcı qüvvələr qarşısında geniş üfüqlər açması baxımından müəllifin iddialarını və mülahizələrini tam şəkildə əsaslandırır.

III fəslin ikinci yarımfəsli **("Heydər Əliyev və müstəqillik dövründə Azərbaycanda ədəbi proses")** H.Əliyevin Azərbaycanın müstəqillik illərində ədəbi prosesə marağı, diqqəti və mənəvi dəstəyi məsələlərinin araşdırılmasına həsr olunub. Bu dövrdə ayrı-ayrı sənətkarların yubileylərinin keçirilməsi, görkəmli şəxsiyyətlərin dünyada tanıdılması, tədqiqatların yeni ideoloji metodologiyaya – azərbaycançılığa istinad edilməklə aparılması, sənət adamlarının orden və medallarla təltif olunması, yeni mükafatların təsis edilməsi, ədəbiyyat və incəsənət xadimlərinə prezident təqaüdü verilməsini "sovet dövründəki proseslərin davamı kimi H.Əliyevin yürütdüyü ədəbi-mədəni siyasətin tərkib hissəsi" [1, s. 123] kimi mənalandırması tədqiqatçının gərgin elmi araşdırmalarının obyektivliyindən xəbər verir.

Deyilənlərdən belə qənaətə gəlmək olar ki, Ş.Məmmədovanın **"Heydər Əliyev və Azərbaycan ədəbiyyatı məsələləri"** mövzusunda yazdığı fəlsəfə doktorluğu dissertasiyası ulu öndər H.Əliyevin ədəbiyyat siyasətinin müxtəlif aspektlərdən araşdırılmasına həsr olunan əhəmiyyətli tədqiqat işidir.

## ƏDƏBİYYAT

1. Məmmədova Ş. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı məsələləri: Filol. üzrə f. d. … diss. Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanası, inventar № 120, 2014, 135 s.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: fermanhalilov@yahoo.com***

**Farman Khalilov**

## DISSERTATION ON THE LITERARY POLICY OF THE GREAT LEADER HEYDAR ALIYEV

The article is devoted to the analysis of the doctoral dissertation of the young researcher Sh.Mammadova on the topic "Heydar Aliyev and the issues of Azerbaijani literature".

In the article, in separate chapters of the dissertation, the essence and characteristic features of H.Aliyev's literary policy, as well as issues of evaluation from a scientific point of view, are revealed. On these issues, attention is drawn to the objectivity, novelty and scientific validity of the dissertator's thoughts and opinions in relation to specific facts.

As a result, the author concludes that the dissertation of Sh.Mammadova is an important research work devoted to the study of the literary policy of the great leader H. Aliyev from various sides.

**Keywords:** *Heydar Aliyev, literary policy, dissertation, Sharabani Mammadova, folklore, classical literature.*

**Фарман Халилов**

## ДИССЕРТАЦИЯ, ПОСВЯЩЕННАЯ ЛИТЕРАТУРНОЙ ПОЛИТИКЕ ВЕЛИКОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА

Статья посвящена анализу докторской диссертации молодого исследователя Ш.Мамедовой на тему «Гейдар Алиев и проблемы азербайджанской литературы».

В статье в отдельных главах диссертации раскрываются сущность и характерные черты литературной политики Г.Алиева, а также вопросы оценки с научной точки зрения. По этим вопросам обращается внимание на объективность, новизну и научную обоснованность мыслей и мнений диссертанта применительно к конкретным фактам.

В результате автор делает вывод, что диссертация Ш.Мамедовой является важной исследовательской работой, посвященной исследованию с различных сторон литературной политики великого лидера Г.Алиева.

**Ключевые слова:** *Гейдар Алиев, литературная политика, диссертация, Шарабани Мамедова, фольклор, классическая литература.*

**FİRUDİN RZAYEV**

# AZƏRBAYCAN XALQININ RİFAHI, ELMİ, MƏDƏNİYYƏTİ VƏ DİLİNİN ÖZÜNƏ QAYIDIŞINDA HEYDƏR ƏLİYEV QƏTİYYƏTİ

*Məqalədə Azərbaycanın ümummilli lideri, görkəmli siyasi xadimi Heydər Əliyevin Azərbaycan dili və mədəniyyətinin özünə qayıdışındakı rolundan bəhs edilir. Bu mövzu bəzi tədqiqatlarda yer alsa da, biz də bu istiqamətdə öz fikrimizi bildirmək istəyirik.*

*Bildiyimiz kimi sovetlər siyasətində milli xalq mədəniyyətimizə güclü təsirlər olmuş, idarə rəhbərləri bir çoxu yad millətlərlə ailə qurmuşdur. Qədim yazılarımız, dil, ədəbiyyat və tariximiz, yaxın dövrlərə çəkilmişdir. Bu siyasətdə geyim formalarımız da mədəni irsimizdən uzaqlaşdırılmış, şəxsi adlarımız da təsirlərə məruz qalmışdır.*

*Bununla yanaşı dilimiz də təzyiqlərlə üzləşmiş, rus dili Bakı şəhərində ailələrin, idarələrin və dükanların ümumişlək dilinə çevrilmişdir. İdarəçilik sistemində sənədləşmələr rus dilində aparılmaqla, danışıq dili də rus dili olmuşdur.*

*Tədqiqatda Ümummilli liderimiz Heydər Əliyevin 2 dəfə hakimiyyətə gəlişində, onun bütün bu siyasi oyunlara sədd olması, böyük siyasi xadimin milli kökümüzə qayıdışımızdakı rolu da tədqiqatda yer almışdır. Burada dilimizə olan diqqət və qayğısı da, elmi istiqamətdən sübut edilmişdir.*

**Açar sözlər:** *Heydər Əliyev, ümummilli lider, siyasi xadim, mədəniyyətimiz, dilimiz, tariximiz.*

Hər hansı bir xalqın formalaşması onun geniş arealda tanınması, üzün müddətli dövrlərin tarixi prosesi olmuş, bu prosesdə işğal altına düşmüş xalqlar assimilyasiya olunmaqla, bəzi hallarda tarix səhnəsindən silinmişlər. Bu tarixi proseslərdə işğalçı dövlətlərin işğal etdiyi ərazilərdəki xalqların dili, tarixi və mədəniyyətini məhv etmək qəsdi, ən əsas şərtlərdən biri olmuşdur.

Azərbaycan xalqının xanlıqlara parçalanması, nəticədə vahid dövlətçilik sistemindən uzaqlaşmaqla, işğal altına düşməsi ilə nəticələnmişdir. XIX əsrin sonları XX əsrin əvvəllərindən Rusiyanın işğalı altına düşmüş Azərbaycan dövləti də bu siyasi oyunlara məruz qalmış, xalqımızın mədəniyyəti, adət-ənənəsi yazılı dastanlarımız da güclü təzyiq və təsirlərlə məruz qalmışdır. Bununla bərabər bu tarixi prosesdə rus dili evlərimizə, müəssisələr və idarə təşkilatlarımıza güclü təsir etmiş, az qala ümum danışıq dilimizə keçməsinə səbəb olmuşdur. Azərbaycan idarəçilik sistemində bütün sənədləşmələr rus dilində aparılmaqla 8 min ildən artıq bir tarixlə səsləşən dilimiz belə Azərbaycan SSR-in konstitusiyasında dövlət dili kimi yer almamışdır.

Bir sıra obyektiv və subyektiv səbəblər üzündən Azərbaycan xalqının 60-cı illərdə iqtisadiyyatı da həm sənaye, həm də kənd təsərrüfatında digər müttəfiq respublikalardan fərqli olaraq, tədricən zəifləməyə doğru getmişdir. Bu siyasi oyunun ağır nəticələri, əhalinin sosial vəziyyətinə güclü təsir göstərməklə, istər sənaye məhsullarının istehsalı inkişafı, istərsə də milli gəlirin həcmi və əmək məhsuldarlığı baxımından Azərbaycan ittifaq səviyyəsində bütün respublikalardan geri qalmışdır. Bu şəraitdə əhalinin rifah halı xeyli ağır vəziyyətlərə düşmüş, aclıq və səfalətlə üzləşmişdir ki, o dövr rəhbər vəzifədə olan qeyri-millət nümayəndələri bunu müharibənin nəticələri kimi əhaliyə təbliğ edirdi.

Bütün bu vəziyyətə baxmayaraq, xüsusi olaraq qeyd edək ki, istənilən bu cür tarixi proseslərdə öz milli kökünə bağlı, milli dəyərlərinə, dili və mədəniyyətinə bağlı hər hansı bir şəxsiyyətin ölkə rəhbərliyinə gəlişi, onun yenidən dirçəlişi və özünə qayıdışı ilə nəticələnə bilir.

Məhz belə bir siyasi tarixi prosesdə Azərbaycan Respublikasının düşdüyü bu ağır vəziyyətdə 1969-cu ildə Azərbaycan Respublikasına rəhbərliyə gələn Ümummilli Lider deyirdi: "**Qətiyyətlə bildirmək olar ki, 60-cı illərdə respublika iqtisadiyyatı bütövlükdə və uzunmüddətli böhran mərhələsinə qədəm qoymuşdur. Yaranmış ağır vəziyyətdən çıxış yolu tapılmalı, iqtisadiyyatın**

**inkişafı üçün prinsipial cəhətdən yeni konseptual yanaşma yolları işlənib hazırlanmalı, millətimin sosial vəziyyəti, rifah halı irəli aparılmalıdır**" [**12**].

Görkəmli Siyasi Xadim Heydər Əliyevin sovetlər siyasətinə baxmadan ölkəmizin inkişafına xidməti sayəsində Azərbaycan xalqının rifah halı bu səfalətdən qurtula bildi. Xüsusi olaraq qeyd edək ki, doğma xalqının böyük təəssübkeşi olan ulu öndər Heydər Əliyev totalitar rejimin hökmranlıq etdiyi o mürəkkəb tarixi şəraitdə Azərbaycanı Sovet İttifaqının ən qabaqcıl respublikalarından birinə çevirdi. O, bu yolda öz xalqı üçün həyatın bütün sahələrində geniş islahatlar proqramı həyata keçirməyə başladı.

Hakimiyyətdə olduğu dövrün yazılı məlumatlarında 1970-ci ildə milli gəlirin artım sürətinin 1966-1969-cu illərlə müqayisədə iki dəfə artıq olduğu, sənaye məhsullarının istehsal vaxtından əvvəl yerinə yetirildiyi, kənd təsərrüfatı istehsalının 18 faiz artdığı, əhalinin maddi rifahının irəliləyişi xüsusi qeyd edilirdi. Bu uğurlara görə ulu öndərin xüsusi səyi nəticəsində 1321 nəfər SSRİ-nin orden və medalları ilə təltif olunmaqla, 15 nəfər Sosialist əməyi qəhrəmanı adına layiq görülmüşdür [7, s. 25-26]. Bu isə artıq xalqımızın 15 müttəfiq respublikalar içərisində sosial və mədəni inkişafına əvəzsiz töhfə idi.

Bunun davamı olaraq 1970-1985-ci illərdə, Azərbaycanda yüzlərlə zavod, fabrik, istehsalat sahələri yaradılmış, 213 iri sənaye müəssisəsi işə salınaraq xalqın xidmətinə verilmişdir. Əsasən xalçaçılıq fabrikalarında milli naxışların yer alıb dünya dövlətlərinə inteqrasiyası xalq mədəniyyətinin dirçəlişi və dünyaya özünü tanıtma mərhələsi idi. Xeyli sayda təsərrüfatla bağlı zavodların işə başlaması isə, burada işsizliyi tam olaraq ortalıqdan qaldırılmaqla bərabər, əhalinin sosial-rifahı məsələləri yüksək səviyyədə öz həllini tapmışdır. Azərbaycanda istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu [5, s. 82-93] ki, bu bir daha xalqın beynəlxalq aləmdə tanınmasını reallaşdırırdı. Bütün bu sosial inkişaflar istər şəhər əhalisinin, istərsə də kənd zəhmətkeşlərinin sosial-iqtisadi vəziyyətinin əsaslı surətdə yaxşılaşdırılması, ölkədə misilsiz tikinti, abadlıq və mədəni quruculuq işləri, artıq digər müttəfiq respublikalardan önə keçməyə başlamışdır.

1970-1985-ci illər ərzində ulu öndər Heydər Əliyevin siyasi baxımdan ən mühüm tarixi nailiyyətlərindən biri də, Azərbaycanın gələcəyi üçün güclü kadr potensialının və nadir ixtisaslar üzrə mütəxəssislər ordusunun yaradılması xidməti ilə bağlı idi. Bu artıq milli dirçəlişin də təməlinin atılması prosesi idi. Məhz göstərilən illərdə bu tarixi şəxsiyyət iqtisadiyyatın sürətli və çoxşaxəli inkişafına uyğun olaraq respublikanın ali və orta ixtisas təhsili şəbəkəsini genişləndirməklə, SSRİ-nin 170 qabaqcıl ali məktəblərinə 3500 azərbaycanlı gənc göndərmişdir. Hər il təhsil almaq üçün Azərbaycandan kənara 800 tələbə yola salınmaqla, hərbi təhsilin inkişafına xüsusi diqqət yetirmişdir. SSRİ-nin kosmik uçuşlara hazırlıq mərkəzində azərbaycanlı gənclərin olmamasından narahatlıq keçirən ulu öndər, gənclərin ali təyyarəçilik məktəblərinə göndərilməsini öz nəzarətinə götürmüşdü. Məhz bunun nəticəsində respublikanın xalq təsərrüfatında artıq 175 min ali təhsilli çalışmağa başlamışdır [4, s. 31-35]. Azərbaycan Respublikanın yazı mədəniyyətinin dirçəlişi, bu istiqamətdə milli dəyərlərə ləkə gətirən rəhbər işçilərin təmizlənməsi prosesi də ulu öndərin əsas ideyalarından biri idi. Bu baxımdan "Kirpi" jurnalı qəzet, televiziya və radio verilişlərində milli dəyərlərimizə istiqamətlənmiş mənfi meyllərin tənqid edilməsi, bürokrat, rüşvətxor, fırıldaqçı və qənimətçilər haqqında kəskin satirik yazı və felyetonların olmadığı da ulu öndər tərəfindən kəskin tənqid edilmişdir. O, "Kirpi" satirik jurnalında ikinci dərəcəlilərin tənqid edilməsinə sərt təpki göstərərək, ciddi pozuntuların əsl müqəssirlərini üzə çıxarılmasını tələb edirdi [1, s. 79; 5, s. 89-90].

Bütün bu siyasi gedişlərlə bərabər, görkəmli siyasi xadim Heydər Əliyev yaxşı bilirdi ki, müasir milli hərbi kadrlar olmadan milli dirçəliş də mövcud ola bilməz. Bununla bağlı 1970-1980-ci illərdə 15 müttəfiq respublikadan hərbi ali məktəblərə göndərilən 2750 gəncdən 1079 nəfəri Azərbaycanlı idi, onlar SSRİ-nin 69 şəhərinin Ali hərbi məktəbində təhsil alırdı ki, bu gənclərin xeyli hissəsi C.Naxçıvani adına internat məktəbinin məzunları idi [2, s. 185].

Xüsusi olaraq qeyd edək ki, ulu öndərin əsas siyasi gedişlərindən biri də tarixi keçmişimiz, milli, ədəbi mədəniyyətimizin, sovetlər siyasətində ləkələnmiş görkəmli siyasi xadim və şairlərinin, musiqi və ədəbiyyatımızın görkəmli nümayəndələrinin SSSR-i respublikaları və xarici dövlətlərə tanıdılması səyi idi. Demək olar ki, bu görkəmli Siyasi Xadim, beynəlxalq və respublika səviyyəli yüksək tədbirlərində bütün bu ideyaların həyata keçirilməsinə nail olmuşdur. Ulu **öndər qeyd edirdi: "1970-1985-ci illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur. Baş verən dəyişikliklərin miqyasına, iqtisadi və sosial sahələrdə aparılan dərin struktur islahatlarının xarakterinə, xalqın maddi rifah halının keyfiyyətcə yeni mərhələyə keçirilməsinə görə doqquz, on və on birinci beşilliklər Azərbaycanın yeni tarixində ən mühüm yerləri tutur"**[12].

Bir çox yazılarda da ulu öndərin rəhbərliyi dövründə xalqımızın görkəmli mədəniyyət xadimləri Nizami Gəncəvi, Əcəmi Naxçıvani, Nəsrəddin Tusinin, millətçi kimi ləkələnmiş Nəriman Nərimanovu yubileylərini keçirməklə, bu dahi şəxsiyyətləri əbədiləşdirdiyinə dair faktlarla qarşılaşırıq. Bu yazılarda Üzeyir Hacıbəyov, Müslim Maqomayev, Hüseyn Cavid, Cəfər Cabbarlı, Aşıq Ələsgər kimi böyük şəxsiyyətlərə də yubileylər keçirilməklə, onların SSRİ və beynəlxalq aləmə tanıdılmasında da Heydər Əliyev qətiyyəti xüsusi rol oynamışdır [8, s. 26-32].

Biz həmin dövr şahidi olduğumuz bir məsələni də xüsusi qeyd etmək istərdik ki, ümumən göstərilən dahi şəxsiyyətlərə abidələr qoyuluşu, onların əbədiləşdirilməsi ulu öndər dövrünə qədər heç bir rəhbər şəxsiyyətin düşüncəsində yer almamışdır. Hüseyn Cavidin cənazəsinin Sibirdən gətirilərək, ana yurdu Naxçıvanda torpağa tapşırılıb, üzərində türbə ucaldılması isə, ulu öndərin öz xalqı və mədəniyyətinin dünyaya təqdimatı istiqamətində əsl milliyyətçilik və vətənpərvərlik qeyrətinin danılmaz təcəssümü idi (F.R.).

Qeyd edək ki, ulu öndərin Respublika sənayesinin digər sahələrinin inkişafındakı xidmətləri də, qeyri-adi yüksəkliklə ortalığa çıxır ki, bu SSRİ-da yeganə Respublika idi. 1960-1985-ci illərdə 100-dən yuxarı sənaye müəssisələrinin işə düşməsi, 41 min ton neft, 37 milyon kubmetr qaz, 2200 ton polad, 69 min metr boru kəməri, 4900 avtotəkər, 2700 mədən gübrələri, 468 məişət kondisioneri və s. bu kimi sənaye istehsalları, SSRİ respublikalarının heç birinə mənsub olmamışdır. Bununla bərabər nəqliyyat, informasiya, rabitə, kənd təsərrüfatı və respublika əhəmiyyətli tikinti, xarici əlaqələr o dövrün danılmaz yüksəliş göstəriciləri idi. Bütün bunlar ulu öndər H.Ə.Əliyevin yüksək təşkilatçılıq bacarığının danılmaz sübutları idi ki, bu istiqamətdə əldə edilən milyardlarla gəlir xalqımızın rifah halının yüksəlişi üçün əvəzsiz mənbə olmuşdur [5, s. 132-147, 196-205].

Bütün bunlarla bərabər ulu öndər Heydər Əliyevin milli dilin inkişafı və ziyalı sayının artırılması yönündən apardığı işlər də tarixdə bir ulu öndər möhürü kimi əbədi yaşamaqdadır. Onun 1969-cu il ADU-nun yaranmasının 50 illik yubileyində Azərbaycan dilində çıxış etməsi, rus dilində çıxışlar mifini tam qıraraq, həm daxilimizdə, həm də Ukrayna, Belorusiya, RSFSR və digər müttəfiq respublikaların MK katibləri tərəfindən etirazla qarşılanmışdır. Lakin böyük siyasi xadim "**yəqin siz öz dilinizi sevmirsiniz"** cavabı ilə onları susdurmuş və dilimizin dövlət dili olması tələbi ilə, ziyalılarımızın Siyasi Büro qarşısında məsələ qaldırmasına nail olmuşdur.

Bu gedişdə ulu öndər öz dilinə sevgisi ilə hakim rus dili "böyüklüyünü" tamamilə alt-üst etməklə, hakimiyyətinin ilk illərində Azərbaycanın böyük yazıçılarının öz əsərlərini ana dilində yazdırmasına nail olur. Bununla bərabər, Azərbaycan Yazıçılar İttifaqının aparıcı mətbuat orqanları - "Azərbaycan", "Ulduz" jurnalları, "Ədəbiyyat və incəsənət" qəzetləri Azərbaycan dilində nəşr olunur. Beləliklə, Azərbaycan dilini sevən, ona hörmətlə yanaşan Ümummilli Lider Heydər Əliyev doğma dilə münasibətiylə hər kəsə örnək olur. 1969-1982-ci illərdə sovet Azərbaycanına rəhbərlik edən ulu öndər, rusdilli məktəblərdə də Azərbaycan dilində dərsliklərin daha çox istifadəsinə dair göstərişlər verməklə, öz dilinə olan sevgisini tam qətiyyətlə nümayiş etdirir.

Nəticədə ümummilli lideri Heydər Əliyevin hazırlayıb həyata keçirdiyi Azərbaycan dili siyasəti Onun dövlət quruculuğu siyasətinin tərkib hissəsi olduğunu da göstərir. Bununla bərabər ulu öndərin təşəbbüsü ilə Ali məktəblər üçün yazılmış "Müasir Azərbaycan dili" dərsliklərinin Respublika Dövlət mükafatına layiq görülməsi, anadilli ədəbiyyatın inkişafı üçün hər cür şəraitin yaradılması, Azərbaycan ədəbiyyatı klassiklərinin təbliği, Ana dilimizə olan məhəbbətin parlaq nümunəsi idi. Sonda ulu öndər 1978-ci ildə daha bir tarixi uğura imza atmaqla, həmin ildə qəbul olunan Azərbaycan SSR-in növbəti Konstitusiyasında ilk dəfə olaraq, rus dili ilə yanaşı, Azərbaycan dili Konstitusiyamızın 73-cü maddəsində öz əksini tapır [3, s. 17-18, 184 s. ]. Bu Moskvaya, SSSR birliyinə meydan oxumaq və dilimizi yaşatmaq zərurətində, Heydər Əliyev qətiyyətinin bariz nümunəsi idi.

Xüsusi olaraq qeyd edək ki, ümummilli lider Heydər Əliyevin 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildiyi dövrdə, Azərbaycanda baş verən özbaşınalıqlar və parçalanma amillərinə qarşı onun apardığı mübarizədə həm də dilimizin "Türk dili" kimi irəli sürülməsini aradan qaldırması, onun "Azərbaycan dili" kimi özümüzə qaytarmağı əsl vətəndaşlıq qeyrəti idi. İyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən ulu öndərin dilimizə bu qədər bağlılığının bir səbəbi də onun məhz dilimizin tarixi haqqında yetərincə məlumatlı olması idi. Onun "Kitabi-Dədə Qorqud", "Azərbaycan dastanları" nəşrlərinə ayrıca diqqəti və bu tarixi dilimizin qədimlik nümunələrini xüsusi qiymətləndirməsi, bu istiqamətdə xüsusi təşəbbüskarlıq tədbirlərinin təşkili, onun dil tariximizi də mükəmməl biliyindən irəli gəlirdi [5, s. 309].

Bildiyimiz kimi Xətib Təbrizinin həmyerlisi ilə danışığına maraq göstərən Əbül Ülanın "Siz hansı dildə danışırdınız" sualına "Azərbaycan dilində" cavab ifadəsi, rus siyasəti ilə xalqımızın XI əsrdə formalaşdığını kitablara daxil etmişdir. Lakin xüsusi olaraq qeyd edək ki, ulu öndər istər xalqımızın dili, istərsə tarixi haqqında mükəmməl biliyə sahib olmuş, 1950-ci ildə SSRİ Dövlət Təhlükəsizliyi Nazirliyinin Bakı Diyarlararası Məktəbində mühazirələr oxumuş, əldə etdiyi elmi nəzəri bilikləri və tarixi, dil təcrübələrini təhlükəsizlik orqanları əməkdaşlarına da aşılamışdır [5, s. 31].

Sovetlər siyasəti ilə IX, XI əsrlərə aid edilmiş "Kitabi-Dədə Qorqud" dastanımız heç də bu dövrlərə aid deyildi və ulu öndər istər dastanın şer üslubunda yazılışı, buradakı çoban və mələk izdivacından (şər və xeyir) Təpəgözün doğulması, Dəli Domrulla Əzrailin güləşi və insanın qalibiyyəti kimi tarixi faktlara çox yaxından bələd idi. Bu faktlarla bərabər, şifahi xalq ədəbiyyatında

Vermə Xəzərə məni,
Çəkər bazara məni,
Yada kölə olunca,
Salla məzara məni..

eləcə də bu istiqamətdəki başqa bir bayatıda

Hun dağına...
Lənət bu hun dağına
Balam əlimdən getdi
Dərd yığdım qundağına... [9, s. 127]

kimi ifadələr şübhəsiz bayatıların xəzərlərin güc olduğu bir dövrü, hunların ərazilərimizə yürüşü dövrlərini əhatə edir. Əgər biz heç bir tərcümə və tədqiqat aparmadan bu bayatılarda quldarlıq dövrünün əlamətlərini, hun işğallarının nəticələrini görür [11, s. 379-382] və tərcüməsiz anlayırıqsa, deməli Ana dilimizin şifahi xalq ədəbiyyatı hələ m.ö. IV əsrdən də xeyli qabaq mükəmməl bir dil böyüklüyündə bugünkü dilimizin ifadə imkanları ilə eyni idi.

Bütün bunları və dilimizin qədimliyini sübut edən bir tarixi faktı da qeyd edək ki, Strabon və K.Ptolemeyin yazılarında Araz çayı boyunda As türklərinin adını daşıyan Azar, Azər adlı ölkənin adının olması və Araz çayının sağ sahilində göstərilir. Bu istiqamətdə antik salnamə yazıları araşdıran

İohannes Fridrixin yazılarında o, Herodot və Strabona istinadən Turdetan sözünün izahı zamanı, bu sözü *Tört As*(dörd As) kimi göstərir və onların əlifba tarixini m.ö. VI minilliyə aid edir [6, s. 119]. Bu və digər mənbələrə diqqət etdikdə, burada daha bir tarixi məlumata rast gəlirik. Strabon öz yazılarında turdiləri As birliyinə daxil edir və turdiləri asların varisləri hesab edir [10, s. 137-138]. Bütün bu mövcud fikirlər Strabona görə xalqımızın qədim As-Asər tayfasının mövcudluğu və İohannes Fridrixə görə xalqımızın əlifbaya sahibliyi, onun çox qədim bir tarixə mənsubluğunu bir daha sübut edirdi ki, ulu öndərimiz Heydər Əliyev bu dil tariximizə yaxında bələd idi. Onun məhz "Türk dili" ifadəsini dilimizdən götürüb, "Azərbaycan dili"mizi geri qaytarması bu tarixi faktlarla bağlı olmuşdur ki, bu dilimiz uğrunda aparılan siyasi prosesdə Heydər Əliyev qətiyyəti və qələbəsi idi (F.R.).

Beləliklə dilimizin quldarlıq dövrü və ondan əvvəllər də ümumişlək şəkildə olması, əlifbaya sahibliyi, ədəbiyyatımızın o dövrlərdə janr xüsusiyyətləri daşıması, onun ən azı m.ö. VI minilliklərdən tam formalaşdığını sübut edir. Azərbaycan dilinin Bəsrə-Kəngər körfəzindən Dəmirqapı Dərbəndə qədər yayılması, eləcə də Rafael Dü Man, Adam Alyari, Ungelberq Kekberq, Öjen Flanden, Paskal Kost kimi Fransız və Avropa səyyahlarının "Azərbaycan türkcəsi Osmanlı imperiyası İran, Gürcüstan və Rusiyada ticarətdə mühüm bir vasitə" olduğunu "Səyahət" adlı kitabda göstərməsi, onun əhatə dairəsinə canlı sübutdur. Kitabda: "Səfəvilər sarayında Azərbaycan türkcəsi hakim sülalənin ana dilidir. Bu dil saray vasitəsilə ailələr arasında elə geniş yayılıb ki, imtiyazlı təbəqədən olan hər hansı şəxsin onu bilməməsi utanc gətirən haldır" ifadəsi xüsusi vurğulanır [13].

Böyük siyasi xadim Heydər Əliyevin Azərbaycan dövlətinin rəhbəri seçilməsi də Tanrının millətimizə bir lütfü idi. Dilimizin saflığı və yaşaması uğrunda mübarizə XIX əsrin əvvəllərindən XX əsrin ortalarına qədər davam etsə də, onun dövlət dili səviyyəsinə qaldırılması mümkün olmamışdır. Hakimiyyətə ikinci dəfə qayıdışından sonra ulu öndərin 1995-ci ilin 12 noyabrında qəbul edilmiş Konstitusiyasının 21-ci maddəsi dövlət dili statusunun yerinə yetirilməsini qəti şəkildə tələb edirdi. Dilimizin "Azərbaycan dili" şəklində Milli Məclis səviyyəsində qəbulu, ağlasığmaz tarixi təkamülün, Böyük Siyasi Xadim Heydər Əliyev fenomeninin təntənəsi idi.

Bu Dahi Şəxsiyyətin 18 iyul 2001-ci il tarixli fərmanında da Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi, 9 avqust 2001-ci il tarixli fərmanında Azərbaycan əlifbası və Azərbaycan Dili Gününün qeyd edilməsi, 2 yanvar 2003-cü il tarixli fərmanında Azərbaycan Respublikasında Dövlət Dili qanununun tətbiq edilməsi məsələləri tam qətiyyətlə tələb olunurdu. 2001-ci il avqustun 1-dən Azərbaycanın latın qrafikalı əlifbaya keçməsi, 30 sentyabr 2002, 2 yanvar 2003, 4 iyul 2004-cü ildə Azərbaycan Respublikası Dövlət Dil Komissiyasının tərkibinin yaradılması, 12 yanvar 2004-cü illər Dövlət Dili haqqında Azərbaycan Respublikasının Qanunu, 9 avqust fərmanı ilə "Azərbaycan Dili və Əlifbası Günü"nün təsis edilməsi və hər il avqustun 1-də "Azərbaycan Dili və Əlifbası Günü"nün qeyd olunması ulu öndər Heydər Əliyev qətiyyətinin nəticəsi kimi əbədiləşdi.

Təbii ki, müxalif qüvvələrin dilimizi "Türk dili" adlandırma cəhdləri dil tariximizi və xalqımızı öz tarixi kökündən uzaqlaşdırmaqdan özgə bir şey deyildi. Qədim dil tariximiz haqqında yetərincə məlumatlı olan ulu, dahi şəxsiyyətin faktlara istinadən qətiyyəti növbəti uğursuzluqlarımızın qarşısına əsl vətəndaş səddi idi.

Ümummilli lider Heydər Əliyev tərəfindən imzalanan bu fərmanlar əsl milli təəssübkeşlik olmaqla, gələcəkdə Azərbaycan Respublikası vətəndaşlarının bu dili bilmək, qorumaq və inkişaf etdirmək, dilçilik elminin nəzəriyyəsi və praktikasının inkişafını təmin etmək, onun ümumxalq dili kimi televiziya və radio kanalları ilə təbliğ etməklə, səlis danışıq dövlət dilini bütün xalqa aşılamaq kimi amilləri həyata keçirirdi. Bu qətiyyətli gedişlər dilimizin gələcəkdə başqa dillərə yamanmaq təhlükəsini də aradan qaldırırdı ki, xalqımız bu dil qətiyyətində ümummilli Lider Heydər Əliyevə həmişə borcludur və bu tarix xalqımızın yaddaşından heç vaxt silinməyəcəkdir!

## ƏDƏBİYYAT

1. Əliyev H.Ə. Azərbaycan KP MK plenumunda məruzə. 20 oktyabr, 1978-ci il. Bakı, 1978, 104 s.
2. Əliyev H.Ə. Azərbaycan Kommunist Partiyasının XXX qurultayında Azərbaycan KP MK-nin hesabatı: Məruzə. 28 yanvar, 1981. Bakı: Azərnəşr, 1981, 232 s.
3. Əliyev H.Ə. Azərbaycan SSR Konstitusiyasının (Əsas Qanununun) müzakirəsinin yekunları haqqında IX çağırış Azərbaycan SSR Ali Sovetinin növbədənkənar yeddinci sessiyasında məruzə və çıxışlar. 20 və 21 aprel 1978-ci il. Bakı: Azərnəşr, 1978, 184 s.
4. Əliyev H.Ə. "Sov.İKP XXIV qurultayının tələbləri ilə əlaqədar olaraq kadrların seçilməsini, yerləşdirilməsini və tərbiyə edilməsini daha da yaxşılaşdırmaq sahəsində Azərbaycan partiya təşkilatının vəzifələri haqqında" 1975-ci il iyulun 30-da Azərbaycan KP MK plenumunda Azərbaycan KP MK-nın birinci katibi H.Əliyevin məruzəsi. Bakı: Azərnəşr, 1975, 88 s.
5. Heydər Əliyev: 2 cilddə. I c., Bakı: Turxan NPB, 2013, 500 s.
6. Фридрих И. История письма. Москва: Наука, 1979.
7. Qəndilov S.T. Coşqun yüksəliş illəri. Bakı: Azərnəşr, 1984, 180 s.
8. Mehdiyev R.Ə. Əsl vətəndaş, böyük şəxsiyyət və qüdrətli lider haqqında düşüncələr / Dünyanı heyran qoyan insan. Bakı: Azər-TAC, 2004, s. 26-32, 374 s.
9. Seyidov Y.Ə. Azərbaycan ədəbi dilində söz birləşmələri. Bakı: Maarif, 1966, 340 s.
10. Страбон. География: в 17 книгах / Пер. статья и комментарий Г.А.Стратановского. Москва: Наука, 1964, 941 с.
11. Yusifov Y.B. Qədim şərq tarixi. Bakı: Bakı Universiteti, 1993, 496 s.
12. https://azerbaijan.az/related-information/146
13. http://senet.az › ... › Tarix

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: firudinrzayev@gmai.com***

**Firudin Rzayev**

## HEYDAR ALIYEV'S DETERMINATION TO RETURN PROSPERITY, SCIENCE, CULTURE AND LANGUAGE TO THE AZERBAIJANI PEOPLE

The article considers the role of the national leader of Azerbaijan, prominent politician Heydar Aliyev in the return of the Azerbaijani language and culture. Although this topic is included in some studies, we also want to express our opinion on this issue.

As you know, the policy of the Soviets had a strong influence on our national folk culture, and many heads of departments married foreigners. Our ancient written monuments, language, literature and history have been transferred to modern times. Under this policy, our dress code was removed from our cultural heritage and our personal names were also affected.

At the same time, our language was also under pressure, Russian became the common language of families, offices and shops in Baku. In the management system, documents were kept in Russian, and the spoken language was also Russian.

The study examines two coming to power of our national leader Heydar Aliyev, blocking all these political games by him, the role of a great politician in our return to national roots. Here, attention and care for our language are also proved from a scientific point of view.

**Keywords:** *Heydar Aliyev, national leader, politician, our culture, language, history.*

**Фирудин Рзаев**

## РЕШИМОСТЬ ГЕЙДАРА АЛИЕВА В ВОЗВРАЩЕНИИ БЛАГОПОЛУЧИЯ, НАУКИ, КУЛЬТУРЫ И ЯЗЫКА АЗЕРБАЙДЖАНСКОМУ НАРОДУ

В статье говорится о роли общенационального лидера Азербайджана, видного политического деятеля Гейдара Алиева в возвращении азербайджанского языка и культуры. Хотя эта тема включена в некоторые исследования, мы также хотим высказать свое мнение по этому вопросу.

Как известно, политика Советов оказала сильное влияние на нашу национальную народную культуру, и многие заведующие ведомствами женились на иностранках. Наши древние письменные памятники, язык, литература и история перенесены в новейшее время. В соответствии с этой политикой наша форма одежды была исключена из нашего культурного наследия, а также были затронуты наши личные имена.

В то же время наш язык также подвергался давлению, русский язык стал общим языком семей, офисов и магазинов в Баку. В системе управления документы велись на русском языке, и разговорный язык тоже был русским.

В исследовании рассмотрены два прихода к власти нашего общенационального лидера Гейдара Алиева, блокирование им всех этих политических игр, роль великого политического деятеля в нашем возвращении к национальным корням. Здесь внимание и забота о нашем языке доказываются и с научной точки зрения.

**Ключевые слова:** *Гейдар Алиев, общенациональный лидер, политический деятель, наша культура, язык, история.*

**RƏŞAD ZÜLFÜQAROV**

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV VƏ DİLİMİZİN SAFLIĞI UĞRUNDA MÜBARİZƏ

*Məqalədə ümummilli lider Heydər Əliyevin doğma dilimiz olan Azərbaycan dilinin saflığının qorunması, zənginləşməsi və inkişafı sahəsində gördüyü işlərə qısa nəzər salınır. Bildiyimiz kimi, tarixin sınaqlarından çıxan Azərbaycan dili dünya dilləri içərisində zəngin leksik fonda malik olması ilə seçilir. Dilimizin inkişafının mühüm bir dövrü isə Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə ümummilli lider dilimizə qayğı ilə yanaşmışdır. Onun inkişafı və saflığının qorunması ilə bağlı mühüm qərarlar qəbul etmişdir. Öz nitqində dilimizin zənginliklərindən məharətlə istifadə etmişdir. Məqalədə bu kimi məsələlər müəllif tərəfindən geniş təhlil edilmişdir.*

**Açar sözlər:** *ümummilli lider, Heydər Əliyev, Azərbaycan dili, leksika, qərar.*

Dil bir xalqın kimliyi, milli sərvəti, onun mövcudluğu və varlığını şərtləndirən ən vacib atributlardan biridir. Keçmişə nəzər saldıqda görürük ki, öz dilini, milli adət və ənənələrini, etik davranış və azadlığını mühafizə edən bilən xalqlar tarix səhnəsində qala bilmiş, milli kimliyini günümüzədək daşımışdır. Bir çox mütəfəkkirlər dilin insan həyatındakı ən vacib ünsür olması ilə bağlı olduqca maraqlı fikir və mülahizələr irəli sürmüşlər. Həzrəti Məhəmməd deyirdi: "Mömінin nicatı dilini saxlamaqdadır" və ya "Əgər sağlam qalmaq istəyirsənsə, gərək sükut edəsən". Həzrəti Əli isə buyururdu: "Danışın ki, tanınasınız. Çünki insan öz dilinin altında gizlənmişdir" [4]. Sokratsa deyirdi: "Səsini çıxart kim olduğunu deyim". Dilimizin müqəddəsliyinin, zənginliyinin, aliliyinin qorunmasını həyatının bütün dövrlərində daim ön planda saxlayan, onun zənginliklərindən nitqində olduqca maraqlı formalarda istifadə edən ümummilli liderimiz Heydər Əliyev isə deyirdi: "*İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalan bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir*".

Öz həyat və fəaliyyətini Azərbaycan xalqının və dövlətinin hərtərəfli və daimi inkişafına, bütün dünyada tanıdılmasına həsr edən, bu yolda istənilən çətinliyə sinə gərən ümummilli lider Heydər Əliyev deyirdi: "Mən həmişə fəxr eləmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam". Söz yox ki, xalqını dərin məhəbbətlə sevən bu böyük insan onun dilinin inkişaf etdirilməsi, hərtərəfli dövlət qayğısı ilə əhatə olunması, saflığının qorunması istiqamətində də yorulmaz fəaliyyət göstərmiş, əməli addımlar atmışdır. Xalqımızın böyük oğlu, görkəmli ictimai-siyasi xadim Heydər Əliyevin Azərbaycan dilinin inkişaf edib daha da zənginləşməsi, saflaşması istiqamətindəki fəaliyyəti heç nə ilə müqayisə edilə bilməz. Bəs, görəsən, nə idi o dahinin müqayisə edilə bilməyən fəaliyyəti? Hansı amallar uğrunda bütün sərtliklərə mərdliklə sinə gərirdi o rəhbər?!

Bu və ya digər məsələlərə aydınlıq gətirmək üçün Heydər Əliyevin dilimizlə bağlı fəaliyyətinə qısa nəzər salsaq, bizi düşündürən məsələlər bir qədər aydınlaşar. "*Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm*" – deyən ümummilli lider Heydər Əliyev bütün çətinliklərə sinə gərərək keçmiş SSRİ-də ögey münasibət bəslənilən, sıxışdırılan Azərbaycan dilini gözlənilən assimilyasiya adlı təhlükəli bəladan xilas etdi.

Ulu öndər istəyirdi ki, hər bir Azərbaycan gənci müxtəlif xarici dilləri bilsin, lakin öz dilini, öz dilində danışmağı onların hamısından üstün tutsun, dilini mükəmməl öyrənsin, onun keşiyində dayansın. Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə dilimizin inkişafı, saflığının

qorunması, rəsmi dövlət dili kimi Azərbaycan SSR-də istifadə edilməsi sahəsində mühüm işlər gördü. Məhz ümummilli liderimizin zəngin təcrübəsi, yüksək intellekti, milli mədəniyyətimizə və mənəviyyatımıza dərindən bələd olması sayəsində 60-cı illərin sonlarından başlayaraq həyata keçirilən dil siyasəti doğma dilimizin günbəgün saflaşmasına zənginləşməsinə və inkişaf etməsinə şərait yaratdı. 1969-cu ildə hakimiyyətə gəldikdən sonra dilimizin xilaskarı kimi ulu tariximizə əbədi imzasını qoydu. Heç şübhəsiz deyə bilərik ki, ulu öndərin birinci hakimiyyət dövründə yeritdiyi fəal və ardıcıl siyasəti Azərbaycanda milli özünüdərk, milli azadlıq, milli özünəqayıdış ruhunu da xeyli artırmışdır. Heydər Əliyevin Azərbaycan dilinin inkişafı sahəsində ilk ən mühüm addımı bu dili 1978-ci ildə qəbul olunan Azərbaycan SSR Konstitusiyasının 73-cü maddəsində dövlət dili kimi yer almasına nail olmasıdır. "...2 aprel 1978-ci ildə IX çağırış Azərbaycan SSR Ali Sovetinin Azərbaycan SSR-in Konstitusiya layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş sessiyasında məruzə ilə çıxış edən ulu öndər Heydər Əliyevin təklifi ilə 73-cü maddə yeni redaksiyada verilir: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir". Heydər Əliyevin bu təşəbbüsü 21 aprel 1978-ci ildə qəbul edilən Azərbaycan SSR Konstitusiyasında öz əksini tapmışdır. Azərbaycan dilinə dövlət dili statusunun verilməsi Heydər Əliyevin xalq qarşısında ən böyük xidmətlərindən biridir. Bu addımla ulu öndər gələcək milli dövlətçiliyimizin rəmzlərindən birinin əsasını məharətlə qoymuşdur" [1]. Həmin maddəyə görə Azərbaycan dili Azərbaycan SSR-in dövlət dili kimi qəbul olunmuşdu. Bu ciddi müqavimətlərə baxmayaraq post Sovet məkanında atılmış olduqca cürətkar və çətin bir addım idi.

Görkəmli dilçi alim, filologiya elmləri doktoru N.Xudiyev yazır: "Mübaliğəsiz deyə bilərik ki, yaşadığımız yüzilliyin son otuz ili ərzində Azərbaycan dilinin hərtərəfli inkişafı, onun təkcə sözdə deyil gündəlik təcrübədə də ümumişlək dilə, dövlət dilinə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə – diplomatiya aləminə yol alması, zənginləşib nüfuz qazanması və dünyanın mötəbər kürsülərindən eşidilməsi tanınmış dövlət xadimi Heydər Əliyevin yorulmaq bilməyən fəaliyyəti və yürütdüyü müdrik, uzaqgörən dil siyasəti ilə bağlıdır" [2].

Ulu öndər yaxşı bilirdi ki, Azərbaycan Şərqdə sivilizasiyanın ən qədim ocaqlarından biridir. Saysız-hesabsız işğallara, istila və əsarətə baxmayaraq, Azərbaycan xalqı minilliklər boyu öz torpağını, dilinin və mədəniyyətinin zənginliyini, təmizliyini, saflığını qoruyub saxlaya bilmişdir. Xüsusilə, ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etməyə başladığı 1969-cu ildən sonra bu proses daha çox diqqət mərkəzində saxlanılmışdır. Ulu öndər Heydər Əliyev ən mürəkkəb məsələləri həll edərkən xalqın konkret şəraitini, sosial və mənəvi həyatının xüsusiyyətlərini, onun tarixən təşəkkül tapmış ənənələrini, insanların hüquq və vəzifələrini, azad fikirlərini nəzərə alırdı.

Xalqının mədəniyyətinə, dilinə, ədəbiyyat və incəsənətinə ürəkdən bağlı olan ulu öndər Heydər Əliyevin respublikamıza rəhbərliyi dövründə "Kitabi-Dədə Qorqud", "Koroğlu" kimi epik dastanlar, Nizaminin əsərləri, Xaqaninin poemaları, Nəsiminin dərin fəlsəfi poeziyası, Füzulinin insanpərvərlik ruhu ilə aşılanmış müdrik misraları, Vidadinin və Vaqifin xalq yaradıcılığı çeşməsindən qidalanan zərif lirikası, A.Bakıxanovun, M.Ə.Sabirin, C.Məmmədquluzadənin yaradıcılıqları daha böyük həvəslə öyrənildi, dünyanın bir çox ölkələrində təbliğ olundu. Xalq şairləri Səməd Vurğunun, Süleyman Rüstəmin, Rəsul Rzanın, Mirvarid Dilbazinin, Osman Sarıvəllinin, Nigar Rəfibəylinin, Bəxtiyar Vahabzadənin, xalq yazıçıları Süleyman Rəhimovun, Mehdi Hüseynin, Mirzə İbrahimovun, Əbülhəsənin, Əli Vəliyevin yaradıcılıqlarına dövlət səviyyəsində diqqət yetirildi, onlara fəxri adlar verildi, dünyalarını dəyişənlərin xatirəsi əbədiləşdirildi. Şair və yazıçılara göstərilən Heydər Əliyev qayğısının nəticəsidir ki, Anarın, Elçinin, Fikrət Qocanın, Məmməd Arazın, Nəriman Həsənzadə və adlarını sadalamadığımız bir çox digər tanınmış simaların əsərləri xarici dillərə tərcümə olundu, ən yaxşı əsərlər ədəbiyyatın qızıl fonduna daxil edildi.

Bildiyimiz kimi, 1991-ci ildə Azərbaycan xalqı öz milli müstəqilliyinin yenidən bərpasına nail

oldu. Lakin təəssüflər olsun ki, müstəqilliyin bərpasında ötən ilk bir neçə ildə ölkədə baş verən siyasi qarşıdurma və xaos, bütün sahələrə olduğu kimi, dilimizin inkişafına da mənfi təsir göstərirdi. 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən Azərbaycanda siyasi hakimiyyətə qayıdan ulu öndər ölkə həyatımızın digər sahələrində olduğu kimi, dilimizin inkişafı və saflığının qorunması istiqamətində də mühüm qərarlar qəbul edilməsinə nail oldu. Belə ki, 1995-ci il oktyabrın 31-də Heydər Əliyevin təşəbbüsü və fəal iştirakı ilə Konstitusiyanın dövlət dili haqqında maddəsiylə bağlı keçirilən gərgin və tam demokratik müzakirələr nəticəsində Azərbaycan dilinin qanuni haqqı belə demək mümkünsə, özünə qaytarıldı. Həmin il 12 noyabr tarixində qəbul edilən milli Konstitusiyamızın 21-ci maddəsi ilə Azərbaycan dili Azərbaycan Respublikasının dövlət dili kimi təsbit olundu. Qeyd etmək yerinə düşər ki, məhz bu proses də olduqca çətin şəraitdə həyata keçirildi. Həmin müzakirələri izlədiyimiz zaman görürük ki, dilimizin Azərbaycan dili kimi Konstitusiyamızda təsbitinə nail olmaq üçün ümummilli lider olduqca tutarlı və ağlabatan, ümummilli mənafeyə xidmət edən arqumentlər gətirməklə müşavirə iştirakçılarını inandırmağı bacarmışdır.

Ölkə prezidenti kimi ulu öndərin imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli 506 saylı fərman, "Azərbaycan Respublikası Dövlət Dil Komissiyasının tərkibinin təsdiq edilməsi haqqında" 4 iyul 2001-ci il tarixli 76 nömrəli sərəncam, "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 9 avqust 2001-cil tarixli 552 nömrəli sərəncam, həmçinin 2003-cü ilin 2 yanvar tarixində qüvvəyə minən "Azərbaycan Respublikasının dövlət dili haqqında" qanun ölkəmizdə dil siyasəti və dil quruculuğunun ən mükəmməl konsepsiyası, aydın proqramı və inkişaf strategiyasını özündə əks etdirən qanunvericilik aktlarıdır. Bütün bu sənədlərin hazırlanmasında ümummilli lider Heydər Əliyevin yüksək intellekti, zəngin dövlətçilik təcrübəsi, milli məfkurəyə sadiqliyi, əsl vətənpərvərlik və milli təəssübkeşlik hissi və söz yox ki, dilimizə olan dərin məhəbbəti mühüm əhəmiyyət kəsb etmişdir.

Heç şübhə yoxdur ki, Heydər Əliyevin dilimiz haqqında söylədiyi bir çox fikirlər günümüzdə artıq belə demək mümkünsə, aforizmə çevrilmiş, xalq ruhuna hopmuşdur. Həmin nümunələrdən bəzilərinin təhlilinə diqqət yetirsək, fikirlərimiz bir qədər də aydın olar.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin nitqindən götürdüyümüz *"Dil hər bir millətin milliliyinin əsasıdır. Ona görə də hər bir gənc öz ana dilini, müasir Azərbaycan dilini ən incəliklərinə qədər bilsin və bu dildən istifadə etsin..."* sitatda istifadə olunan, sadə geniş cümlə şəklində formalaşan birinci cümlə "*Dil hər bir millətin milliliyinin əsasıdır*" bu gün artıq aforizmə çevrilərək geniş dairədə işlənməyə başlamışdır. Cümlədə "dil" isimlə ifadə edilən quruluşca sadə mübtəda, "hər bir" birinci növ ismi birləşmə ilə ifadə edilmiş mürəkkəb təyin, "millətin milliliyinin əsasıdır" üçüncü növ ismi birləşmə şəklində formalaşan mürəkkəb ismi xəbərdir. Cümlələrin hər bir komponentinin izahlı təhlilində məqsəd dilimizin sintaktik konstruksiyalarının nə qədər əhatəli və zəngin olduğunu əyani göstərməkdir.

Zamanın keşməkeşlərindən, ağır sınaqlarından çıxan dilimizin zənginliyi, ifadə imkanları, qədimliyi və tarixiliyini ön plana çəkən Heydər Əliyev demişdir: *"Mən fəxr edirəm ki, türk dillərinə mənsub olan Azərbaycan dili bu qədər zəngindir, bu qədər bədii ifadələrlə doludur və biz həyatın bütün sahələrinə aid olan fikirlərimizi öz ana dilimizlə ifadə edə bilərik"*. Aforizmin linqvistik təhlilinə diqqət yetirsək görərik ki, səbəb budaq cümləli tabeli mürəkkəb cümlə şəklində formalaşmış ifadə də baş cümlə əvvəldə, budaq cümlə isə ondan sonra işlənmiş və cümlələr tabelilik bağlayıcısı ilə əlaqələnmişdir. "...Dilin sintaktik quruluşu sözlərin söz birləşməsi və cümlə şəklində, cümlələrin mətn şəklində əlaqələnməsi qaydalarının məcmusu və sistemidir" [3, s. 67].

Dilimizin inkişafı, sürətli tərəqqisi və həm də təbliği istiqamətində dünya şöhrətli siyasətçi, Heydər Əliyevin həyata keçirdiyi işləri sadalamaqla bitməz. Ümummilli lider Heydər Əliyevin yerit-

diyi siyasət, o cümlədən dil siyasəti bu gün Ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən çox uğurla davam və inkişaf etdirilir. Dilimizin saflığının qorunması və təbliği sahəsində son iyirmi ildə görülmüş uğurlu işlər də bunu sübut edir. Söz yox ki, ulu öndər Heydər Əliyevin Azərbaycan dilinin inkişafı, saflığının qorunması, milli leksika ilə zənginləşdirilməsi sahəsində yorulmaz fəaliyyətini bir məqalədə əhatə etmək bir qədər çətindir. Düşünürük ki, bu istiqamətdə xeyli sayda tədqiqatlar aparılmasına baxmayaraq, yenə də yeni araşdırmalara ehtiyac vardır.

## ƏDƏBİYYAT

1. "Azərbaycan" qəz., 2022, 21 aprel.
2. Xudiyev N. Heydər Əliyev və Azərbaycan dili. Bakı: Elm və təhsil, 2014, 542 s.
3. Kazımov Q.Ş. Müasir Azərbaycan dili. Sintaksis. Bakı: Təhsil, 2007, 496 s.
4. https://news.milli.az

***AMEA Naxçıvan Bölməsi,***
***E-mail: zulfuqarov_1981@mail.ru***

**Rashad Zulfugarov**

## THE NATIONAL LEADER HEYDAR ALIYEV AND STRUGGLE FOR PURITY OF OUR LANGUAGE

The article gives a brief overview of the work done by the national leader Heydar Aliyev in the field of protection, enrichment, development, and keeping purity of our native language, the Azerbaijani language. As we know, the Azerbaijani language, emerging from the tests of history, stands out among world languages for having a rich lexical background. An important period in the development of our language is connected with the name of Heydar Aliyev. During all the periods of Azerbaijan's leadership, the national leader took care of our language. He made important decisions regarding its development and preservation of its purity. He skillfully used the riches of our language in his speech. In the article, such issues are extensively analyzed by the author.

**Keywords:** *national leader, Heydar Aliyev, Azerbaijani language, lexicon, decision.*

**Рашад Зульфугаров**

## НАЦИОНАЛЬНЫЙ ЛИДЕР ГЕЙДАР АЛИЕВ ИБОРЬБА ЗА ЧИСТОТУ НАШЕГО ЯЗЫКА

В статье дается краткий обзор работы, проделанной общенациональным лидером Гейдаром Алиевым в области защиты, обогащения и сохранения чистоты нашего родного азербайджанского языка. Как известно, азербайджанский язык, вышедший из испытаний истории, выделяется среди мировых языков богатым лексическим фоном. Важный период в развитии нашего языка связан с именем Гейдара Алиева. Во все периоды правления Азербайджана общенациональный лидер заботился о нашем языке. Он принял важные решения относительно его развития и сохранения его чистоты. Он умело использовал богатство нашего языка в своей речи. В статье подобные вопросы подробно анализируются автором.

**Ключевые слова:** *общенациональный лидер, Гейдар Алиев, азербайджанский язык, лексика, решение.*

**ADİL ƏSƏDOV**

# HEYDƏR ƏLİYEV ŞƏXSİYYƏTİ ETNOGENEZİN PERSONALİST KONSEPSİYASI KONTEKSTİNDƏ

*Müəllif irəli sürdüyü və etnogenezin personalist konsepsiyası adlandırdığı doktrinadan çıxış etməklə Heydər Əliyev şəxsiyyətin tarixi rolunun fəlsəfi mənalandırılması istiqamətində təhlil aparır.*

*Müəllif belə hesab edir ki, həm xalqın, həm də millətin formalaşmasının aydın personalist başlanğıcı var, çünki insanları bir xalqa, millətə birləşdirən başlıca qüvvə – dövlət yaradıcısı olan şəxsiyyətdir. Əgər dövlət xalqın iradəsinin ifadəçisi olaraq yaradılmışsa, bu xalq – millətdir. Yox, əgər əksinə, xalq dövlətin iradəsinin ifadəsidirsə, o, sadəcə olaraq xalqdır.*

**Açar sözlər**: *Heydər Əliyev, şəxsiyyət, personalizm, etnogenez, xalq, millət.*

Heydər Əliyevin Azərbaycançılıq ideologiyasının fəlsəfi rakursda anlaşılma mexanizmlərindən biri kimi personalist konsepsiyaya əsaslanan etnogenez nəzəriyyəsi çıxış edə bilər. Personalist konsepsiya daxilində ümumiyyətlə dövlət siyasi fəlsəfənin idraki obyekti olmaqdan daha çox, onun mücəssəməsi kimi çıxış edir, əlbəttə ki, güclü iradə sahibinin – şəxsiyyətin – tarix meydanına çıxdığı halda.

Şəxsiyyətin personalizm mövqeyindən anlaşılması isə onun marksizm mövqeyindən anlaşılmasından köklü surətdə fərqlənir. Dünya elmində bir əsrdən artıq bir tarixi olsa da, Azərbaycan elmində təzəcə cücərməkdə olan bu cərəyan şəxsiyyəti substansial bir başlanğıc hesab edir və dünyanı məhz bu başlanğıcdan çıxış edərək izah edir. Personalizm nöqteyi-nəzərindən, fərd özünü cəmiyyətin bir üzvü kimi, geniş kontekstdə götürüldükdə, dünyanın bir hissəsi kimi tanıdığı halda, şəxsiyyət özünü çoxsaylı adamlardan biri kimi deyil, təkrarolunmaz, unikal bir mahiyyət olaraq qavrayır. Fərd ona verilmiş dünyada yaşayır, şəxsiyyət isə özü öz dünyasını qurur. Fərd zəmanəyə uyğunlaşır, zamanın nəbzini tutur, şəxsiyyət isə zamana məna verir, zamanın necə olmalı olduğunu və necə olacağını müəyyənləşdirir. Fərd – sosial məkanın sakini, şəxsiyyət isə sosial məkanın qurucusudur. Fərd dünyada insanlar üçün artıq yaradılmış yerlərdən birinə yerləşdirilir, şəxsiyyət isə bu yerləri yaradır və bölüşdürür. Bütün bunlar – personalist nəzəriyyənin ümumbəşəri prinsipləridir. Belə bir nəzəriyyənin Azərbaycanda inkişaf etdirilməsi üçün isə artıq çoxdan həm tarixi bir zəmin, həm də tarixi bir ehtiyac yaranmışdır. Bu ehtiyacın varlığı ilk dəfə ötən əsrin sonuncu onilliyinin ortalarında dilə gətirildi. Bu o vaxtlar idi ki, dağılmaqda olan etnik varlığımız yenidən qurulurdu, artıq aşkar olaraq, şəxsiyyət zəmini üzərində, Heydər Əliyev şəxsiyyəti zəminində. Bu elə bir vaxt idi ki, "Azərbaycan xalqı" və "azərbaycanlı" anlayışları artıq gerçəklikdən uzaqlaşdırılaraq, tarixin arxivi astanasında idilər. Heydər Əliyevin Azərbaycan xalqının heç bir xalqa, hətta doğma bildiyimiz xalqlara nəsə bir əlavə olmadığını, özlüyündə bir xalq olduğunu, Azərbaycan dilinin heç bir dilə şivə olmadığını, müstəqil bir dil olduğunu birmənalı olaraq vurğuladı və gerçəklikdə də təsdiq etdi. Özünün onillik hakimiyyəti dövründə isə Azərbaycan xalqını sözün böyük və həqiqi mənasında Azərbaycan milləti etdi.

Əgər dövlət öz xalqının iradəsinin ifadəçisidirsə, bu xalq – millətdir. Millət öz iradəsinin bir aləti olaraq dövlətə malikdir. Yox, əgər, əksinə, xalq dövlətin iradəsinin ifadəçisidirsə, bu, sadəcə olaraq, xalqdır.

Heydər Əliyevin hakimiyyəti ərəfəsində Azərbaycanda elə bir hakimiyyət yox idi ki, xalqı öz iradəsinin icraçısı edə bilsin. Bu, elə bir dövlət də deyil ki, xalq bunda öz iradəsininin ifadəçisini görsün. SSRİ-nin dağılma ərəfəsində və SSRİ dağıldıqdan sonra da xalq, bir qayda olaraq, dövlətin əleyhinə çıxış edirdi, Heydər Əliyev hakimiyyətinə kimi. Çünki xalq dövləti özü üzərində yad bir

qüvvə hesab edirdi. Başqa cür ola da bilməzdi. Çünki dövlət hələ ki, xalqınkı deyildi. Heydər Əliyev hakimiyyətə gəldikdən sonra isə xalq bir toplum halında dövlətin lehinə və müdafiəsinə çıxış etməyə başladı. Çünki dövləti getdikcə daha çox özününkü hesab edirdi. Heydər Əliyev dövləti xalqınkı etdi və bununla da Azərbaycan millətini, əslində, O yaratdı. Xaos, anarxiya, azğınlıq, ədalətsizlik, aclıq içərisində inləyən və boğulan bir kütlədən nizamı olan, iradəsi olan, dövləti olan, firavanlıq yolunda ilk kövrək addımlarını atmağa başlayan bir milləti törətdi.

Öncəki tarixə kiçik bir ekskurs etmək istərdim: Azərbaycan müstəqillik əldə etmə ərəfəsində və müstəqillik əldə etdikdən sonra dünya birliyinə suveren bir dövlət olaraq inteqrasiya etməyə başladıqdan sonra sosial həyatın, demək olar ki, bütün sahələrində əsaslı dəyişikliklər baş verdi. Ənənəvi ideologiya bir tarixi yanlışlıq hesab edilərək inkar edildi. Tarixi proses tərəfindən inkar edilən, arxa plana atılan dünyagörüşü srereotipləri isə özlərindən sonra ideya vakuumu saxladılar. Bu vakuum gözlənildiyi kimi digər dəyər yönümlərinin məzmunu ilə doldurulmağa başladı. Kommunist dünyagörüşünün və ideologiyasının hökmran olduğu cəmiyyətdən düşüncə plüralizmə yol verən cəmiyyətə döndükcə ən müxtəlif təfəkkür mexanizmlərinin dirçəldiyini müşahidə etdik. Dini təfəkkürün və həmçinin turanizm forması almış cəngavər düşüncə tərzinin intibahı diqqəti daha çox cəlb etdi. Qərbin həyat və düşüncə tərzinin təqlidi də cəmiyyətdə geniş yer tutmağa başladı. Sosial həyatın əksər sahələrində – idarəetmədə, iqtisadiyyatda, mənəvi istehsalda, sosial qarşılıqlı təsirin bütün formalarında duyulan əsaslı dəyişikliklər müəyyən mənada düşüncə azadlığı ilə bağlı idi. Amma maraqlıdır ki, siyasi fəlsəfədə belə bir düşüncə azadlığı demək olar ki, müşahidə olunmadı, kommunizm idealı qarşısında heyranlıq və kölәlikdən, demokratik ideya qarşısında heyranlığa və köləliyə total bir sıçrayış müşahidə olundu. Bu sıçrayış nəticəsində cəmiyyətin özünüdərk meyarları başqalaşdı, onun tərəfindən bu günə, keçmişə və gələcəyə verilən səciyyələr köklü dəyişiklərə uğradı. Artıq həll olunduğu qəbul edilən bir çox problemlər aktuallıq xarakteri kəsb etdi, aktual hesab edilən digər problemlər isə reallıq statusunu itirərək illüziya formasını aldı. Sosial və siyasi fəaliyyət motivləri demokratizmin mütləqləşdirilməsi zəminində yenidən mənalandırıldı. Lakin öncə bütövlükdə həm cəmiyyət tərəfindən tam səmimiyyətlə, həm də dövlət hakimiyyəti tərəfindən rəsmən qəbul edilən, demokratizm pərdəsinə bürünən yeni sosial və siyasi fəaliyyət motivləri cəmiyyət həyatına nə mənəvi rahatlıq, nə əmin-amanlıq, nə də firavanlıq gətirmədi. Əksinə, cəmiyyət özünü ədalətsizlik, səfalət, aclıq, təhdidlər içərisində hiss etdi. Cəmiyyət bütöv, monolit bir millət olaraq möhkəmlənmədi, əksinə parçalanmağa doğru üz tutdu, zəiflədi və hətta müstəqilliyin itirilmə təhlükəsi də yarandı. Aşkar bir şəkildə hiss olunmağa başladı ki, demokratizmin üstünlüyünün etiraf və bəyan edilməsi nə qədər zəruri olsa da, kifayət deyildir. Cəmiyyəti bu təhdidlərdən – ədalətsizlikdən, səfalətdən, aclıqdan, parçalanma və müstəqilliyin itirilmə təhlükəsindən xilas edə biləcək bir qüvvəyə ehtiyac yarandı, cəmiyyət bir ixtiyar sahibini, fövqəlqüdrət sahibi olan bir qüvvəni, bir şəxsiyyəti arzuladı. Bu arzu bir tərəfdən cəmiyyətdə dini hissləri gücləndirdi, digər bir tərəfdən isə cəmiyyəti ədalətsizlikdən, səfalətdən, aclıqdan xilas edə biləcək bir şəxsiyyət olaraq diqqəti Heydər Əliyevə yönəltdi.

Heydər Əliyev hakimiyyətə gəldi və cəmiyyəti, əslində, sözün həqiqi mənasında aclıqdan və səfalətdən xilas etdi, parçalanma və müstəqilliyin itirilmə təhlükəsini aradan qaldırdı və bütün bunları O Azərbaycançılıq ideologiyasını irəli sürərək və gerçəkləşdirərək etdi. Azərbaycanın yeni siyasi fəlsəfəsinin əsası o zaman qoyuldu.

Hər bir siyasi fəlsəfənin və ya siyasi fəlsəfi doktrinanın həqiqiliyi onun öz tarixi təyinatını nə dərəcədə gerçəkləşdirə bilməsi ilə müəyyənləşir. Məhz elə buna görə də dövlət əslində siyasi fəlsəfənin idraki obyekti olmaqdan daha çox, onun mücəssəməsi kimi çıxış edir, əlbəttə ki, güclü iradə sahibinin – şəxsiyyətin – tarix meydanına çıxdığı halda.

Heydər Əliyev Azərbaycan etnogenezinə Sovet dövlətlərinin verdiyi töhfəni qoruyub saxladı.

Artıq yuxarıda qeyd olunduğu kimi, Heydər Əliyev Azərbaycan xalqının heç bir xalqa əlavə olmadığını, özlüyündə bir xalq olduğunu, Azərbaycan dilinin heç bir dilə şivə olmadığını, müstəqil bir dil olduğunu birmənalı olaraq vurğulamış və gerçəklikdə də təsdiq etmişdir, özünün onillik hakimiyyəti dövründə isə Azərbaycan xalqını sözün böyük və həqiqi mənasında Azərbaycan milləti etmişdir. Sual yaranır: Bəs, millət və xalq bir-birindən nə ilə və nə qədər fərqlənir? Burada marksist izahın təqdimatına elə bir ehtiyac görmürəm. Yalnız onu xatırlatmaqla kifayətlənirəm ki, marksist izah milləti xalqdan ancaq iqtisadi əlamət əsasında fərqləndirir. Müasir siyasi təfəkkürdə hakim olan anlam çərçivəsində isə millət xalqdan və digər etnik birliklərdən iqtisadi və ya marksizmdə sadalanan digər əlamətlər əsasında deyil, siyasi əlamət əsasında fərqləndirilir. Bu halda millət və dövlət anlayışları, əslində, eyniləşdirilir. Hətta dövlət mənasını ifadə etmək üçün millət sözü dövlət sözündən daha münasib hesab edilir. Fikir verilsə, məsələn, amerikanlar öz dövlətlərinə *state* demirlər, *nation* deyirlər. Burada *nation* həm *millət* və həm də *dövlət* mənalarını verir. Mən hadisələrə amerikan baxışını, ümumiyyətlə, Qərb anlamını mütləqləşdirməkdən nə qədər uzaq olsam da, millətin məhz müasir anlamda, müasir siyasi təfəkkür kontekstində anlaşılmasına üstünlük verirəm, lakin bir əlavə ilə: xalq yalnız o halda millət statusunu kəsb etmiş olur ki, iradəsinin ifadəçisi olan dövlətə malik olmuş olsun.

Elə bu səbəbdən də, düşünürəm ki, Heydər Əliyevi Azərbaycan millətinin mənəvi atası kimi tanımaq daha doğru və düzgün olardı. Məhz buna görədir ki, Heydər Əliyevin vəfatından sonra onun məzarını qırx gün ərzində fasiləsiz olaraq ziyarət edən və onun ulu xatirəsi qarşısında baş əyən xalq ata itkisinin doğurduğu hissə bənzər bir hissiyyatı yaşadı. Heydər Əliyevlə vidalaşma mərasimi Azərbaycan millətinin bir siyasi millət olaraq etnogenezində son nöqtəni qoydu.

Etnogenezin personalist konsepsiyası ilə bağlı təbii ki, belə bir qorxu da baş qaldıra bilər ki, əgər millət bir tarixi şəxsiyyətin yaradıcılıq məhsuludursa, onda, bir zaman keçdikdən sonra öz milli varlığını itirə də bilər. Təəssüf ki, belə bir qorxu üçün əsas həqiqətən də vardır. Millət şəxsiyyətdən axıb gələn qüdrətlə qüdrətlənir, bu axının zəiflədiyi hallarda isə millət öz qüdrətini və əlbəttə ki, hətta müstəqilliyini, deməli, həm də öz varlığını itirə bilir.

Etnogenezin personalist konsepsiyası ilə bağlı həmçinin belə bir sual da yarana bilər ki, Azərbaycan milləti əsrlər boyu mövcud olmayıbmı? Qobustandan, Mannadan, Midiyadan üzü bəri olan mədəniyyət bizimki deyilmi? Təbii ki, bizimdir. Lakin millət əsrlər boyu davam edən, necə deyərlər, obyektiv bir prosesin nəticəsi olmaqdan daha çox, konkret bir şəxsiyyətdə daşınan hakimiyyət resurslarının təyinatı üzrə istifadəsinin nəticəsidir, cəmiyyəti bir daha yenidən təşkilatlandırma resurslarının reallaşdırılmasının nəticəsidir, siyasi yaradıcılıq potensialının geniş sosial məkanda gerçəkləşdirilməsi ilə ifadə olunan konkret bir tarixi hadisənin nəticəsidir.

Eyni zamanda onu da qeyd etmək lazım gəlir ki, millət anlayışını siyasi kontekstdən nəzərdən keçirən baxışlar, əlbəttə ki, indi də və demək olar ki, tam hüquqlu öz mövcudluqlarını davam etdirməkdədirlər. Bu baxışların bəzilərinə görə, millət müstəqil olmaya da bilər, söhbət siyasi və siyasi olmayan millətlərdən gedə bilər. Amma bu baxışlara qarşı sadə, lakin təkzibedilməz əks arqumentlər qoyula bilər. *United Nations* ifadəsinə analitik təfəkkür baxımından diqqət yetirilsə, asanlıqla görmək olar ki, dövləti olmayan xalq millət deyil. Digər bir nümunə: *milliləşdirmə* sözü öz mənası və mahiyyəti etibarı ilə *dövlətinkiləşdirmə* demək deyilmi? [1, s. 415-416]

Bununla yanaşı belə bir sual da meydana çıxa bilər ki, bəs millətin təşəkkülündə digər faktorların, deyək ki, təbiətin, təbii mühitin, təbii amillərin, ümumiyyətlə rolu yoxdumu? Düşünürəm ki, bu sualın cavabı belədir: Millətin təşəkkülündə təbii amillərin və təbii şəraitin rolu əlbəttə ki, vardır və çox böyükdür. Lakin yeganə deyildir. Təbii mühitin xüsusiyyətləri və həmçinin də, əsasında millətin formalaşdığı kütlənin özünəməxsusluğu, tarixi, qan yaddaşı milli təşəkkül prosesində müəyyənedici olmasa da, müəyyən və mühüm rol oynayır, lakin bu prosesin passiv tərəfi olaraq. Təbii mühit və

insani kütlə milli etnogenezin, əslində, feminin başlanğıcıdır. Millətin formalaşdırılmasının maskulin başlanğıcı isə şəxsiyyətdir. Mən bu şəxsiyyətin, Heydər Əliyevin öz sözlərini xatırlatmaq istərdim: "*Mən şəxsiyyətə pərəstişin əleyhinəyəm, ancaq heç bir cəmiyyət şəxsiyyətsiz yaşaya bilməz*". Heydər Əliyevə məxsus olan bu sözlər həm də şəxsiyyətlilik şüurundan doğulan qürur hissini də ifadə edir.

## ƏDƏBİYYAT

1. Əsədov A. Siyasətin fəlsəfəsi: mahiyyətin gerçəkləşdirilməsinə yönələn insani iradə və onun tarixi taleyi üzərində düşüncələr (insan, cəmiyyət, hakimiyyət və siyasət spiritualist aristokratizm fəlsəfəsi kontekstində). Bakı: Təknur, 2013, 464 s.

***AMEA Fəlsəfə və Sosiologiya İnstitutu***

**Adil Asadov**

## THE PERSONALITY OF HEYDAR ALIYEV IN THE CONTEXT OF THE PERSONALIST ETHNOGENESIS CONCEPT

The author attempts to philosophically comprehend the historical role of Heydar Aliyev based on the personalistic concept of ethnogenesis put forward by him.

He believes that the formation of both the people and the nation has a clear personalistic beginning, since it is the person who is at the head of the creation of a particular state that unites people into a people and a nation.

If the state is the expression of the will of the people, then this people is the nation. The nation has the state as an instrument of its will. No, if, on the contrary, the people are an expression of the will of the state, then this is just the people.

**Keywords:** *Heydar Aliyev, personality, personalism, ethnogenesis, people, nation.*

**Адиль Асадов**

## ЛИЧНОСТЬ ГЕЙДАРА АЛИЕВА В КОНТЕКСТЕ ПЕРСОНАЛИСТСКОЙ КОНЦЕПЦИИ ЭТНОГЕНЕЗА

Автор предпринимает попытку философского осмысления исторической роли Гейдара Алиева исходя из выдвинутой им персоналистской концепции этногенеза.

Он считает, что формирование как народа, так и нации имеет явное персоналистское начало, так как именно личность, стоящая во главе создания того или иного государства является объединяющим началом людей в народ и нацию.

Если государство есть выражение воли народа, то этот народ есть нация. Нация имеет государство как инструмент своей воли. Нет, если, наоборот, народ является выражением воли государства, то это, просто народ.

**Ключевые слова:** *Гейдар Алиев, личность, персонализм, этногенез, народ, нация.*

**YUSİF HÜSEYNOV**

# AZƏRBAYCANIN KLASSİK BƏDİİ-FƏLSƏFİ İRSİ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN İDEYALARI MÜSTƏVİSİNDƏ

*Məqalədə xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi fəaliyyətinin və ölkəyə rəhbərliyinin bütün dövrlərində Azərbaycanın zəngin məfkurə qaynağı olan klassik bədii-fəlsəfi irsinə verdiyi yüksək dəyər ətraflı təhlil olunmuşdur. Ulu öndər Azərbaycanın ictimai-fəlsəfi fikrini zənginləşdirən bu irs sahiblərinə həmişə yüksək qiymət vermiş, onların qiymətli irsinin və bəşəri ideyalarının Azərbaycanın mənəvi sərvətinə çevrilməsinə hərtərəfli diqqət və qayğı göstərmişdir. Azərbaycanın klassik bədii-fəlsəfi irsi xalqımızın milli ruhunun oyanmasında, milli əhval-ruhiyyəni canlandırmasında, milli dirçəliş prosesini gücləndirməsində, milli psixologiya və milli ideologiyanın formalaşmağa başlamasında mühüm rol oynamışdır. Ümummilli lider Heydər Əliyev müstəqilliyin mədəni-fəlsəfi ideologiyası və milli-psixoloji sərvətinin yaranmasında da klassik fəlsəfi-bədii irsin baza rolu oynadığını dönə-dönə vurğulamış, bu zəngin xəzinədən yaradıcı istifadə üçün zəruri tədbirləri ardıcıl olaraq gerçəkləşdirmişdir. Bu baxımdan ulu öndərin klassik mədəni irsə, milli fəlsəfi düşüncəyə, demokratik dəyərlərə və sivil ənənələrə həssas, qayğıkeş münasibəti mükəmməl bir sistem təşkil edir.*

**Açar sözlər:** *ümummilli lider Heydər Əliyev, klassik bədii-fəlsəfi irs, Azərbaycançılıq, ideologiya, milli oyanış, mollanəsrəddinçilər.*

Azərbaycan xalqının ümummilli lideri, ulu öndər Heydər Əliyev özünün siyasi fəaliyyətinin və ölkəyə rəhbərliyinin bütün dövrlərində – istər sovet dövründə, istərsə də müstəqillik illərində klassik bədii-fəlsəfi irsə daim qayğı göstərmiş, xalqımızın ictimai-fəlsəfi fikrini zənginləşdirən mütəfəkkir yazıçı və şairlərinin ədəbi-bədii yaradıcılığına yüksək qiymət vermiş, onların fəlsəfi irsinin və bəşəri ideyalarının bütün xalqın mənəvi sərvətinə çevrilməsi üçün fədakarlıqla çalışmışdır.

Hələ XX əsrin 80-ci illərində Azərbaycana rəhbərlik edən ulu öndər Heydər Əliyev “Xalqların dostluğu ədəbiyyatların dostluğudur” adlı məruzəsində demişdir: “Azərbaycan poeziyası, bədii ədəbiyyatı uzaq keçmişə dərin köklərlə bağlıdır. Onun tarixi xalqın bədii şüurunun yaranması və inkişafı tarixidir. İstibdadın və əsarətin, qatı islamın və dini fanatizmin tam hökmran olduğu bir şəraitdə öz dahi yaradıcılarının şəxsində ədəbiyyat xalqın istək və arzularının ən mühüm ifadə forması, azadlıq və istiqlaliyyət uğrunda, sosial ədalət və hüquq bərabərliyi uğrunda açıq və “üstüörtülü” mübarizənin başlıca vasitələrindən biri idi. Xalqın həyatının bədii salnaməsi olan, öz dövrünün mütərəqqi və humanist ideallarından qidalanan Azərbaycan klassikası həmişə nəcib və pak mənəvi ideallar, ideya-fəlsəfi axtarışlar ədəbiyyatı olmuşdur” [1, s. 27-28].

Ulu öndər H.Əliyev hələ sovet dövründə “ideya-fəlsəfi axtarışlar ədəbiyyatı” kimi səciyyələndirdiyi bədii irsin intibah dövrünün humanist ideyalarından, maarifçilik fəlsəfəsindən bəhrələndiyini və gənc nəslin milli vətənpərvərlik ruhunda tərbiyəsində misilsiz rol oynadığını xüsusi vurğulamışdır. H.Əliyev Azərbaycan yazıçılarının X qurultayındakı nitqində qeyd etmişdir ki, bizim ədəbiyyatımız, mədəniyyətimiz intellektual potensialımızın əsasını təşkil edir. Bunu yaradanlar bizim xalqın dahi insanlarıdır. Onlar bəşər mədəniyyətini əsrlərdən-əsrlərə zənginləşdirən əsərləri ilə Azərbaycanın böyük intellektual potensialını, mülkiyyətini yaradıblar. Nizami, Xaqani, Tusi, Füzuli, Nəsimi, Natəvan, Vaqif, M.F.Axundzadə, Sabir, S.Ə.Şirvani, Nəcəf bəy Vəzirov bunlar hamısı XX əsrə qədər yaşayıb-yaradıblar. Amma XX əsrdə bizim böyük şəxsiyyətlərimiz olubdur. XIX əsrin sonu, XX əsrin əvvəli Azərbaycan ədəbiyyatının çox böyük zəngin bir dövrü olubdur. Bu gün ədəbiyyatımız haqqında danışarkən bu dövrü çox yüksək qiymətləndirməliyik” [2, s. 202]. Ulu öndər daha sonra deyirdi ki, biz öz tariximizlə, mədəniyyətimizlə, ədəbiyyatımızla fəxr edirik və fəxr etməyə haqqımız vardır.

Hələ sovet dövründə ulu öndər Heydər Əliyev XX əsrin əvvəllərindən fəaliyyətə başlayan "Molla Nəsrəddin" və onun ətrafında toplaşan mollanəsrəddinçilərin fəlsəfi irsinə də müasirlik baxımından yanaşaraq onun milli mədəniyyətimizdəki yerini və rolunu göstərmişdir.

H.Əliyevin sədrliyi ilə Azərbaycan KP MK-nin Bürosunun 1981-ci il 28 aprel tarixli iclasında Azərbaycanın milli-demokratik mətbuatı hesab olunan "Molla Nəsrəddin" jurnalının çapdan çıxmasının 75 illiyi və C.Məmmədquluzadənin ev-muzeyinin yaradılması haqqında qərar qəbul edildi" [3, s. 225]. H.Əliyev Azərbaycan xalqının milli oyanışında, milli dirçəlişində, milli özünüdərkinin formalaşmasında əvəzsiz və misilsiz rol oynayan "Molla Nəsrəddin" jurnalı haqqında demişdir: *"Mütərəqqi ideyaların carçısı olan "Molla Nəsrəddin" xalq və demokratiya cəbhəsində duraraq azadlıq düşmənlərini-çar mütləqiyyətini, müstəmləkəçilik siyasətini, geriliyi, mövhumatı, millətçiliyi amansız satira atəşinə tuturdu. "Molla Nəsrəddin"in haqq səsi Qafqazın hüdudlarını aşıb Rusiyada, bütün Yaxın və Orta Şərqdə eşidilmişdi. "Molla Nəsrəddin"in yalnız Azərbaycanın deyil, eləcə də Yaxın Şərq ölkələrinin ictimai və ədəbi-bədii fikir tarixində oynadığı müstəsna rolu əbədidir"* [4, s. 175]. Jurnalın ümum Şərq hadisəsi olduğunu göstərən ulu öndər, onun təkcə milli deyil, bütün Şərq fəlsəfi fikrinə təsir etdiyini göstərir.

Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev cənablarının "Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 85 illik yubileyi haqqında" verdiyi 11 mart 2008-ci il tarixli sərəncamında deyilir: "Azərbaycan tarixində taleyüklü hadisələrlə dolu otuz ildən artıq bir dövr Heydər Əliyevin adı ilə bağlıdır. Bu dövr ərzində Heydər Əliyev Azərbaycan dövlətini və millətini zamanın ən çətin sınaqlarından çıxararaq ölkənin ictimai-siyasi, iqtisadi və mədəni-mənəvi tərəqqisinə nail olmuş qüdrətli şəxsiyyətdir. Qısa müddətdə mədəniyyətin yüksəlişi və milli-mənəvi dəyərlərin dirçəlişi istiqamətində mühüm addımlar atılmış, Heydər Əliyev idarəetmə fəlsəfəsinin başlıca ideya istiqamətini milli özünüdərkin güclənməsinə imkan verən sürətli inkişaf strategiyası təşkil etmişdir" [5, s. 5].

Ulu öndərin ölkə rəhbərliyinə gəldiyi 1969-cu ildən 1982-ci ilə qədər və 1993-2003-cü illər Azərbaycan mədəniyyətinə, ədəbiyyatına və s. göstərdiyi böyük qayğısı ilə səciyyələnir. Heydər Əliyevin ədəbiyyat təlimi sözün həqiqi mənasında əsl peşəkarlığa əsaslanır: Görkəmli dövlət xadiminin ayrı-ayrı sənətkarlar, konkret bədii əsərlər, teatr tamaşaları haqqındakı baxışları və mülahizələri ədəbiyyatşünaslıq və sənətşünaslıq elmlərinin ən yüksək tələbləri və prinsiplərindən ucada dayanır. O, yazıçılara və əsərlərə qiymət verərkən ədəbiyyatşünaslığın, yəni elmin tələblərindən deyil, ədəbiyyatdan və həyatdan çıxış etmişdir. Heydər Əliyevin ədəbiyyat təlimi ədəbiyyatşünaslıq və sənətşünaslıq, tarix və dilşünaslıq... elmlərini də zənginləşdirmiş və inkişaf etdirmişdir. Azərbaycan professional milli dövlətçilik siyasətinin banisi olan Heydər Əliyev ədəbiyyat haqqında elmdə də professionallıq siyasətinin böyük müdafiəçisidir. Bədii ədəbiyyatla bir sırada ədəbiyyatşünaslıq, sənətşünaslıq, dilşünaslıq kimi elmlər də Heydər Əliyevin ədəbiyyat siyasətinin zəminində yeni inkişaf səviyyəsinə yüksələ bilmişdir.

Bu illərdə Heydər Əliyevin fəaliyyəti ilə sıx bağlı olan həmin dövrün ictimai həyatında, dahi şəxsiyyətin mədəni irsə və ənənəyə münasibəti, bədii-fəlsəfi irsin müasirliklə əlaqələndirilməsi onun çıxışlarında, nitqlərində öz dolğun əksini tapmışdır. Azərbaycan ədəbi-fəlsəfi irsinin mənəvi sərvərinin zənginliyindən bəhs edən ulu öndər demişdir: "Azərbaycan ədəbiyyatının çox zəngin tarixi vardır. Nadir xalq tapıla bilər ki, onun bizim qədər nəhəng ədəbi irsi, bizim qədər görkəmli yazıçısı və şairi olsun. XX əsrdə yazıb-yaradan Mirzə Ələkbər Sabir, C.Məmmədquluzadə, Y.V.Çəmənzəmənli, H.Cavid, C.Cabbarlı, M.S.Ordubadi, M.İbrahimov, S.Rüstəm, M.Rahim, S.Vurğun, S.Rəhimov, R.Rza və digərləri kimi söz sənəti korifeylərimiz Azərbaycan xalqının iftixarıdır. Onlar xalqa öz sənətləri ilə borclarını veriblər" [6, s. 34]. Ulu öndər Azərbaycan xalqının parlaq və orijinal mədəniyyətindən danışarkən bir sıra dahi şəxsiyyətlərlə yanaşı... "Mirzə Ələkbər Sabirin, Cəlil Məmmədquluzadənin və

bir çox başqalarının adlarını da çəkmiş və bildirilmişdir ki, onlar bu mədəniyyətin çoxəsrlik tarixinin bəzəyidir" [7, s. 12] demişdir.

Mollanəsrəddinçilərdən Sabir haqqında yüksək pafosla danışan H.Əliyev demişdir: *"Sabir Azərbaycan ədəbiyyatı, ictimai və bədii fikrinin ən qabaqcıl simalarındandır. O, Azərbaycan mədəniyyətində tənqidi realizmin, satirik poeziyanın qüdrətli nümayəndəsidir"* [8, s. 175]. Bununla da ulu öndər mollanəsrəddinçilərin bədii-fəlsəfi fikir tarixində tutduqları yeri və oynadıqları rolu dəqiq müəyyənləşdirmişdir.

H.Əliyev Azərbaycan yazıçılarının qurultayındakı çıxışında demişdir: *"Rus xalqının mədəniyyətinə yaxınlıq və onun təsiri, rus mədəniyyətinin vasitəsilə dünya mədəniyyətinə qovuşmaq Azərbaycan ədəbiyyatını zənginləşdirmişdir. Qabaqcıl demokratik dünyagörüşlü, nəcib humanist ideyalar, yüksək vətəndaşlıq duyğuları rus ictimai fikri, rus mədəniyyəti ədəbiyyatımıza birinci növbədə bax bunları bəxş etmişdir. XX əsr Azərbaycan ədəbiyyatının tarixinə Sabir, C.Məmmədquluzadə və inqilabi-demokratik "Molla Nəsrəddin" jurnalı ətrafında birləşərək Rusiyanın ictimai-siyasi, mədəni həyatının səmərəli təsiri altında doğulmuş maarifçilik və demokratik ənənələri davam və inkişaf etdirən digər yazıçıların adlarını yazmışdır"* [7, s. 63].

Ulu öndər Avropa və Rusiya maarifçilik fəlsəfəsini Azərbaycanın milli maarifçilərinin, o cümlədən mollanəsrəddinçilərin elmi dünyagörüşünə təsir edən əsas ideya mənbələrdən biri olduğunu göstərirdi. Həm doğma Azərbaycan xalqının, həm də başqa xalqların mənəvi dəyərlərinə hörmətlə yanaşan Heydər Əliyev müxtəlif illərdə ədəbiyyat və mədəniyyətlə bağlı fikir və mülahizələr söyləmişdir. Azərbaycana rəhbərlik etdiyi illərdə Heydər Əliyev respublika yazıçılarının bütün qurultaylarının iştirakçısı olmuş, yüksək elmi-nəzəri səviyyəli çıxışları və ədəbi prosesə dair bir-birindən maraqlı təhlilləri ilə iştirakçıların ictimai şüurunda dərin izlər qoymuşdur.

Müstəqillik dövründə Azərbaycanın böyük şəxsiyyətlərinin, milli mədəniyyətin görkəmli nümayəndələrinin zəngin irsinin azərbaycançılıq fəlsəfəsi baxımından yenidən öyrənilməsi və təbliği ön plana çəkilmişdir. Heydər Əliyevin xalqımızın bir çox mütəfəkkirlərinin yubileylərinin qeyd olunması münasibətilə imzaladığı fərman və sərəncamlar, o cümlədən Cəlil Məmmədquluzadənin 125 illik yubileyinin qeyd olunması bu sahədə aparılan siyasətin aydın təzahürləridir.

Azərbaycanın intellektual potensialının bünövrəsində milli ədəbiyyatı və mədəniyyəti görən H.Əliyevdən ötrü bu milli-mənəvi sərvət, eyni zamanda müstəqil dövlətimizin əsasını təşkil etmişdir. Çıxışlarının birində H.Əliyev qeyd etmişdir ki, "insanlara ədəbiyyat qədər, mədəniyyət nümunələri qədər güclü təsir edən, yəni insanların mənəviyyatına, əxlaqına, tərbiyəsinə, fikirlərinin formalaşmasına bu qədər güclü təsir göstərən başqa bir vasitə yoxdur... Bizim ədəbiyyatımız, doğrudan da, xalqımızda, millətimizdə milli ruhu oyadıbdır, milli əhval-ruhiyyəni canlandırıbdır, milli dirçəliş prosesini gücləndiribdir. Məhz bunların nəticəsində bizdə milli psixologiya, milli ideologiya formalaşmağa başlayıbdır. Bəlkə bu, milli psixologiya, milli ideologiya indi böyük bir sistem şəklində deyil... Ancaq indi bunları toplayıb sistemləşdirib formalaşdırmaq üçün bizim böyük sərvətimiz var. O sərvət də bizim mədəniyyətimizdə olan fikirlər, çox dəyərli sözlərdir" [9]. Ulu öndər müstəqilliyin mədəni-fəlsəfi, ideologiyası və milli-psixoloji sərvətinin yaranmasında klassik fəlsəfi irsin baza rolu oynadığını qeyd edir.

H.Əliyev deyirdi ki, Azərbaycan klassiklərinin fəlsəfi irsi bizim tarixi ənənəmiz, əcdadlarımızdan bizə gəlib çatmış gözəl bir mənəvi xəzinədir: "Bu da təsadüfi deyil... Biz tariximizin qədim dövrlərini xatırlayarkən, yaxud onları dünyaya geniş çatdırmaq istəyərkən, birinci növbədə və bəzən də yalnız mədəniyyətimizə, mədəniyyət, ədəbiyyat xadimlərinin yaratdığı əsərlərə..., böyük şairlərimizin, mütəfəkkirlərimizin yazdığı əsərlərə istinad edirik... Eyni zamanda dünya, bəşər qarşısında bunlarla fəxr edirik, öyünürük... Çünki bu böyük insanlar nəinki bizim xalqımızı, bütün bəşəriyyəti, bəşər tarixini zənginləşdirən əsərlər yazmışlar" [9].

H.Əliyevin şəxsiyyətinə və yaradıcılığına böyük diqqətlə yanaşdığı klassik Azərbaycan yazıçılarından biri, mollanəsrəddinçilərin ideya rəhbəri Cəlil Məmmədquluzadədir. Hələ 1981-ci ildə, H.Əliyev Azərbaycan KP MK-nin birinci katibi olarkən onun təşəbbüsü ilə Bakıda böyük sənətkarın ev-muzeyinin yaradılması haqqında qərar qəbul edilmişdi. Əlamətdar haldır ki, ev-muzeyini açmaq şərəfi aradan 13 il keçəndən sonra yenə də H.Əliyevə nəsib olmuşdur.

H.Əliyev Mirzə Cəlil şəxsiyyətinə və yaradıcılığına, ümumiyyətlə, klassik Azərbaycan ədəbiyyatının və mədəniyyətinin görkəmli nümayəndələri mollanəsrəddinçilərin fəlsəfi irsinədair dəyərli nitqlər söyləmişdir.

C.Məmmədquluzadənin ev-muzeyinin fəxri qonaqlar kitabına yazdığı ürək sözlərində H.Əliyev bu yeni mədəniyyət ocağını yalnız böyük yazıçının xatirəsinə göstərilən ehtiram kimi deyil, həm də xalqımızın gələcək mədəni-mənəvi yüksəlişinə təkan verən bir mədəniyyət və mənəviyyat mərkəzi kimi dəyərləndirərək demişdir: “Bu gün Azərbaycanın həyatında böyük bir hadisə baş verir. Azərbaycan xalqının böyük yazıçısı, maarifçisi, ictimai xadimi Cəlil Məmmədquluzadənin ev-muzeyi açılır. Bakı şəhərində yeni mədəniyyət ocağı, Mirzə Cəlil ocağı fəaliyyətə başlayır. Bu, Cəlil Məmmədquluzadənin yaradıcılığına, onun ədəbi-mədəni irsinə, xalqımızın tarixinə əvəzsiz xidmətlərinə verilən yüksək qiymətin rəmzidir. Şübhə yoxdur ki, muzey Mirzə Cəlil dühasının təbliğinə faydalı xidmət edəcəkdir. Xalqımızın mənəvi saflaşmaq yolunda, müstəqillik yolunda mübarizəsinə kömək edəcəkdir” [10, s. 271].

Ulu öndər Heydər Əliyev “Molla Nəsrəddin” jurnalının yubiley gecəsindəki çıxışında jurnalın cəmiyyətin sosial-mədəni həyatına təsirindən bəhs edərək demişdir: “Molla Nəsrəddin” jurnalı dünyada məşhurdur. O vaxtlar rabitənin çox zəif olduğuna baxmayaraq, “Molla Nəsrəddin” jurnalı dünyanın bir çox ölkələrində yayılırdı, hörmətlə qarşılanırdı, oxunurdu və hər yerdə öz təsirini göstərirdi. Azərbaycanın həyatında “Molla Nəsrəddin” jurnalının xüsusi yeri var. O vaxtın şəraitinə uyğun olaraq Cəlil Məmmədquluzadə “Molla Nəsrəddin” jurnalı xalqın əksər təbəqələri üçün oxuna bilən, anlaşıqlı səviyyədə nəşr edirdi. Təsadüfi deyildir ki, tanınmış rəssamlar Şmerlinqin, Rotterin, Azərbaycanın böyük rəssamı Əzim Əzimzadənin və başqalarının istedadından istifadə edərək, demək olar ki, yazılarla bərabər həm də şəkillər, karikaturalar da verilirdi. Mən bunu belə anlayıram ki, o vaxt xalqımızın əksəriyyəti savadsız olduğuna görə, çoxunun oxumaq imkanı olmadığına görə karikaturalar və şəkillər savadsız adamlara da çox təsir bağışlayırdı, sözləri oxumadan da fikirləri çatdıra bilirdi. Jurnal Azərbaycan dilində nəşr olunduğundan o vaxt onu oxuyanların vasitəsilə xalq arasında geniş yayılırdı və çox güclü təsir göstərirdi” [10, s. 273].

Cəlil Məmmədquluzadə hətta Azərbaycanda ilk müstəqil milli respublikanın qurulduğu 1918-ci ildə ifrat ideallaşdırma yolu tutmamış, əksinə, hadisələrə açıq nəzərlə yanaşmışdır. Azərbaycan xalqının milli şüurunun formalaşdırılması və qorunmasında ədəbiyyat və mədəniyyət nümayəndələrinin bir çox mərhələlərdə həm də siyasi xadimlərin vəzifələrini öz üzərlərinə götürmələri baxımdan istisna təşkil etməyən C.Məmmədquluzadə və digər mollanəsrəddinçilər Azərbaycan Xalq Cümhuriyyətinin rəhbər xadimləri sırasında yer almasalar da, müstəqillik ideyalarının formalaşmasında, bu ideyaların beyinlərdə və şüurlarda özünə yer tapmasında müstəsna xidmətlər göstərmişlər. H.Əliyev haqlı olaraq qeyd edir ki, “...ona görə də biz Cəlil Məmmədquluzadəyə, sadəcə, bir ədəbiyyatçı kimi, yazıçı kimi, publisist kimi yox, böyük siyasətçi kimi yanaşmalıyıq. Cəlil Məmmədquluzadə öz yaradıcılığı ilə Azərbaycanın ictimai-siyasi həyatının inkişafında, milli ruhun yüksəlməsində böyük rol oynamışdır. Bu, təkcə ədəbiyyat deyil, təkcə mədəniyyət deyil, bu, siyasətdə böyük xidmətdir, ictimai həyatımızda böyük xidmətdir” [10, s. 274].

Ulu öndər mollanəsrəddinçilərin fədakar fəaliyyətləri arasında onların dilin saflığı, azərbaycançılıq uğrunda apardıqları mübarizəni xüsusi qeyd edir. Azərbaycan dili məsələsinə həmişə xüsusi

həssaslıqla yanaşan, müstəqillik dövründə isə onun dövlət dili kimi inkişaf etdirilməsini və tətbiq dairəsinin genişləndirilməsini milli ideologiya səviyyəsinə qaldıran Heydər Əliyev ana dilinin inkişafında mollanəsrəddinçilərin fəaliyyətini, ən dəyərli cəhətlərdən biri kimi diqqətə çatdırır: "Azərbaycan xalqının dilinin inkişafı üçün göstərdikləri xidmətləri, onların ana dilinə – Azərbaycan dilinə böyük diqqəti, ana dilini təbliğ etməsi və ana dilinin, Azərbaycan dilinin hər yerdə hökm sürməsinə dair fikirləri, yazıları o vaxt üçün çox vacib idi, bu gün üçün də çox aktualdır", – deyən H.Əliyevin Mirzə Cəlilin dili barəsindəki bu mülahizələri, eyni zamanda ölkə prezidentinin özünün də ana dilinə münasibəti üzərinə işıq salır. Təsadüfi deyil ki, digər klassik yazıçı və şairlərimizlə bir sırada Məmmədquluzadə irsi də Azərbaycan dili anlayışına yenidən vətəndaşlıq hüququ qazandırmaq prosesində H.Əliyevin arxalandığı mənbələrdən biri olmuşdur.

Ulu öndər özünün müxtəlif məruzə və nitqlərində, müsahibə və söhbətlərində gənc, müstəqil Azərbaycan Respublikasının milli ideologiyasını yaratmağın zəruriliyi barəsində danışmışdır. H.Əliyevin fikrincə, bu ideologiya, ilk növbədə, Azərbaycan xalqının əsrlər boyu yaratdığı mənəvi sərvətlərə əsaslanmalı, xalqın mədəniyyət və mənəviyyatını, dini, etik və estetik dəyərlərini, keçdiyi tarixi inkişaf yolunu özündə əks etdirməlidir.

H.Əliyev klassik yazıçılarımızın yaradıcılığını milli ideologiyanın bünövrəsi hesab etmiş və yeni dövlət quruculuğunda, xüsusən mədəni quruculuqda onların irsindən yaradıcı şəkildə istifadəni zəruri saymışdır. Bu baxımdan H.Əliyevin fikrincə, yeni milli ideologiyanın yaradıcıları, ilk növbədə, dahi sənətkar C.Məmmədquluzadənin ədəbi-ictimai irsinə müraciət edilməlidir. Bununla bağlı Heydər Əliyev demişdir: *"Cəlil Məmmədquluzadənin yaradıcılığında Azərbaycanın bütün milli xüsusiyyətləri, eyni zamanda ümumbəşəri dəyərləri əks etdirən fikirlər bizim milli ideologiyanın əsasıdır və həmin ideologiyanın yaranması üçün böyük bir vasitədir, böyük bir sərvətdir".*

O dövrdə həm milliliyə bağlı olmaq, həm də dünyəvi, ümumbəşəri dəyərləri qiymətləndirmək, onları öz yaradıcılığında əks etdirmək və xalqımızın ümumi səviyyəsini qaldırmaq cəhdləri böyük vətəndaşlıq cəsarəti idi, böyük xidmətdir və bunu biz daim qiymətləndirməliyik. Ona görə də, Cəlil Məmmədquluzadənin yaradıcılığı, əsərləri bu gün bizim milli ideologiyanın formalaşmasında, yaranmasında və onun konsepsiyasının elmi şəkildə hazırlanmasında çox kömək edə bilər və çox kömək edəcəkdir" [10].

Ümummilli liderin başqa bir diqqətəlayiq fikri də mollanəsrəddinçilərin uzun illər ədəbiyyatşünaslıqda və ictimai fəlsəfədə yalnız din əleyhinə təbliğat apardıqları fikrinə qarşı çıxmasıdır. Bununla bağlı Heydər Əliyev qeyd edirdi ki, *"biz indi öz dinimizə qayıtmışıq. Din mənəvi mənbələrimizdən biridir. İslam dininin, Qurani-Kərimin Azərbaycan xalqı üçün açdığı yol davam edəcək və biz get-gedə dinimizin hər yerdə özünə layiq yer tutmasına imkan yaradacağıq... Çünki bu gün də dini təhrif edənlər, dindən öz məqsədləri üçün istifadə edənlər, dindən istifadə edərək xalqımızı cəhalətə uğratmağa çalışanlar az deyil"* [10]. Məhz mollanəsrəddinçilər də "dini təhrif edənlərə, dindən öz məqsədləri üçün istifadə edənlərə qarşı amansız mübarizə edirdilər.

İndiki mərhələdə mənəvi tərbiyə baxımından mollanəsrəddinçilərin fəlsəfi irsinə müraciət edilməsinin müasir dövr üçün əhəmiyyəti üzərində ayrıca dayanan Heydər Əliyev müasir yazıçılardan öz böyük sələflərinin ənənələrini davam etdirməyi, cəmiyyətdə baş verən proseslərə vətəndaşlıq və millət təəssübkeşliyi mövqeyindən yanaşmağı tələb edirdi. Ulu öndər H.Əliyev "Molla Nəsrəddin" jurnalının fəaliyyət göstərdiyi coğrafi arealı – Gürcüstanı (Tiflisi), İranı (Təbrizi), Azərbaycanı (Bakını) qeyd edərək, onun öz fəaliyyətini dayandırdığına görə təəssüflənirdi. XX əsrin 50-ci illərində "Molla Nəsrəddin" məktəbini davam etdirməyə cəhd edildiyini göstərən H.Əliyev deyir: *"Ancaq o gün etiraf etməliyəm ki, buna nail ola bilmədik"* [10, s. 273].

Azərbaycan cəmiyyətində milli-mənəvi dəyərlərin qorunub saxlanmasına xidmət edən, sosial

mühitdəki nöqsanları tənqid edən “Molla Nəsrəddin” ənənələrindən danışan H.Əliyev bu lazımlı ənənələrin sovet hakimiyyəti illərində davam etdirilmədiyini təəssüf hissi ilə xatırlatmışdır. O, xüsusən “Molla Nəsrəddin”in xələfi və davamçısı kimi düşünülmüş “Kirpi” satirik jurnalının öz böyük müəllimini işini layiqincə davam etdirə bilmədiyini, mövzu xırdaçılığına, ifrat məişətçiliyə yuvarlandığını qeyd etmişdir.

Mollanəsrəddinçilərə, onların ideya rəhbəri Mirzə Cəlillə birlikdə yazıçı, publisist, filosof, mütəfəkkirlər, müasirlərimiz kimi bu gün də müstəqillik dövrünün mənəviyyat mənbəyi, mənəvi dayağı olaraq dəyərləndirən H.Əliyevin onları xalqı çətinliklərdən çıxarmağa kömək edən fəlsəfi irs sahibləri hesab edir. V.Quliyev H.Əliyevin bu mülahizələrini bir tərəfdən mollanəsrəddinçilərin fəlsəfi irsinin böyük əhəmiyyətini aşkar etdiyini, “o biri tərəfdən isə, onun həmin ədəbi-mənəvi xəzinəyə yüksək professionallıqla, xalqın və dövlətin mövqeyindən yanaşdığını göstərir” [11, s. 87].

Heydər Əliyev mollanəsrəddinçilərin fəlsəfi irsinin yeni şəraitdə öyrənilməsi zərurətini irəli sürərək demişdir: “Doğrudan da, Azərbaycan ədəbiyyatının digər klassikləri ilə müqayisədə ölməz Molla Nəsrəddinin irsi daha çox müstəqillik əqidəsi və təfəkkürü ilə öyrənilməyə möhtacdır. Çünki sovet rejimi şəraitində onun bir çox əsərləri öz həqiqi qiymətini almamış, yaxud toxunduğu bir sıra vacib mətləblər məhz hakim ideologiyanın şərtlərinə uyğun gəlmədiyindən diqqət mərkəzindən kənarda qalmışdır” [9]. Bu mənada soydaşlarımızın, böyüməkdə olan gənc nəslin indiki və gələcək dövrlər üçün mollanəsrəddinçilərin fəlsəfi irsindən bəhrələnməsi zərurəti daha da aktuallaşır.

H.Əliyev özünün C.Məmmədquluzadə haqqında mülahizələrində milli mətbuatımızın korifeyi olan “Molla Nəsrəddin” jurnalına xüsusi yer ayırmışdır. Böyük demokrat ədibi H.Əliyevə yaxınlaşdıran, doğmalaşdıran başqa bir cəhət yazıçının həm də görkəmli ictimai xadim olması, heç vaxt ictimai-siyasi proseslərdən, xalqın taleyi ilə bağlı məsələlərdən kənarda qalmaması idi. Ulu öndərdən ötrü Azərbaycan mədəniyyətinin bütün klassikləri kimi, C.Məmmədquluzadə də, ilk növbədə, məhz vətənə, torpağa bağlılığı, milli-azadlıq və müstəqillik ideallarına sonsuz sədaqəti ilə qiymətli və əzizdir.

Ulu öndər dövlət quruculuğu fəlsəfəsində də mollanəsrəddinçilərin siyasi və hüquqi ideyalarından bəhrələnməyi tövsiyə edirdi. Dahi şəxsiyyət mollanəsrəddinçilərin demokratik, hüquqi dövlət quruculuğu ilə bağlı siyasi ideyalarından bəhrlənmək üçün onların sosial-fəlsəfi irsinə yenidən müraciət etməyi tövsiyə edərək yazmışdır: “Biz bu gün bu prinsiplər əsasında demokratik hüquqi dövlət yaratmaq istəyirik, demokratik hüquqi cəmiyyət yaratmaq istəyirik. Cəlil Məmmədquluzadə böyük demokrat olubdur, Azərbaycanın dövlətçiliyi üçün səylər göstəribdir. Bizə böyük miras, irs qoyub gedibdir. Bunların hamısını biz yüksək qiymətləndirməliyik. Bax, bunlara görə də Cəlil Məmmədquluzadə daim bizimlədir. Cəlil Məmmədquluzadədən, onun yaradıcılığından biz daha faydalı istifadə etməliyik. Doğrudur, Cəlil Məmmədquluzadənin yaradıcılığının tədqiqinə həsr olunan çox əsərlər yaranıbdır. Onlar haqqında bu gün deyildi. Hesab edirəm ki, bunlar yetərli deyil və hesab edirəm ki, Cəlil Məmmədquluzadənin yaradıcılığı, onun əsərləri haqqında elmi əsərlər, fundamental monoqrafiyalar yaratmaqla yanaşı, onun yaradıcılığını, əsərlərini populyar şəkildə geniş kütlələrə, camaata, xalqa çatdırmaq lazımdır. Bugünkü nəsli, gənc nəsli onunla yaxından tanış etmək lazımdır. Bizim bu gənc nəslimiz, indi yeni dövlətimizi, yeni cəmiyyətimizi formalaşdıran nəslimiz Cəlil Məmmədquluzadənin əsərləri ilə, yaradıcılığı ilə nə qədər yaxından tanış olsa, o qədər bizim dövlətçilik işimiz asan gedər” [10, s. 277].

Müdrik ulu öndər Heydər Əliyev mollanəsrəddinçilərin fəaliyyətindən bəhs edərək demişdir: “Cəlil Məmmədquluzadə dühası “Molla Nəsrəddin” jurnalında öz əksini tapdı. “Molla Nəsrəddin”, onun vasitəsilə Cəlil Məmmədquluzadə və jurnalın işinə cəlb olunmuş Azərbaycanın başqa mütəfəkkir adamları xalqımızın milli şüurunun formalaşmasında, milli ruhunun yüksəldilməsində, milli oyanışında böyük rol oynamışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Molla Nəsrəddin" jurnalının 100 illik yubileyi haqqında 23 yanvar 2006-cı il (№ 1234) tarixli Sərəncamında göstərir: *"2006-cı ilin aprel ayında ilk Azərbaycan satirik jurnalı "Molla Nəsrəddin"in birinci nömrəsinin işıq üzü görməsinin 100 illiyi tamam olur. Görkəmli yazıçı Cəlil Məmmədquluzadənin təşəbbüsü, redaktorluğu və naşirliyi ilə fəaliyyətə başlayan "Molla Nəsrəddin" xüsusi ədəbi məktəb yaratmış, milli mətbuatımızın inkişafının qızıl səhifələrini yazmışdır. Xalq yumorundan, klassik Azərbaycan ədəbi və dünya bədii-publisist irsinin ənənələrindən məharətlə bəhrələnərək publisistikamızı janr, üslub baxımından zənginləşdirən jurnal yalnız Azərbaycanın deyil, eləcə də Yaxın Şərq ölkələrinin ədəbiyyatlarında demokratik meyllərin güclənməsinə misilsiz təsir göstərmişdir"* [12].

## ƏDƏBİYYAT

1. Əliyev H. Xalqların dostluğu ədəbiyyatların dostluğudur: Yazıçıların ümumittifaq yaradıcılıq konfransında məruzə, 1980, 27 oktyabr. Bakı: Azərnəşr, 1980, 54 s.
2. Əlibəyzadə E. Ədəbi şəxsiyyət və dil. Bakı: Yazıçı, 1988, 56 s.
3. Hacıyeva A.Ə. Akademik Heydər Hüseynov. Bakı: Elm, 2015, 240 s.
4. Əliyev H. Azərbaycan yazıçılarının X qurultayında nitqi, 1997, 30 oktyabr / Heydər Əliyev və mədəniyyət. Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar: 3 cilddə / Layihənin rəhbəri və ön sözün müəllifi Əbülfəz Qarayev. Tərtib edənlər Sevda Məmmədəliyeva, Teymur Əhmədov. Redaktor Lətifə Məmmədova. II c.: 1997-1998-ci illər, Bakı: Nurlar, 2008, 202 s., s. 195-215.
5. Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin "Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 85-illik yubileyi haqqında" 11 mart 2008-ci il tarixli Sərəncamı / Heydər Əliyev və mədəniyyət. Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar: 3 cilddə / Layihənin rəhbəri və ön sözün müəllifi Əbülfəz Qarayev. Tərtib edənlər Sevda Məmmədəliyeva, Teymur Əhmədov. Redaktor Lətifə Məmmədova. I c.: 1969-1982-ci illər, 1993-1996-cı illər, Bakı: Nurlar, 2008, s. 5-8.
6. Hacıyeva A.Ə. Mədəni-tarixi irsin tədqiqində hermenevtikanın fəlsəfi və metodoloji əhəmiyyəti. Bakı: Adiloğlu, 2004, 167 s.
7. Əliyev H. Elm və mədəniyyətin böyük bayramı – ADU-nun 50-illiyinə həsr olunmuş təntənəli yığıncaqda H.Əliyevin nitqi / Heydər Əliyev və mədəniyyət. Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar: 3 cilddə / Layihənin rəhbəri və ön sözün müəllifi Əbülfəz Qarayev. Tərtib edənlər Sevda Məmmədəliyeva, Teymur Əhmədov. Redaktor Lətifə Məmmədova. I c.: 1969-1982-ci illər, 1993-1996-cı illər, Bakı: Nurlar, 2008, s. 11-12.
8. Hacıyeva A.Ə. Hermenevtika Şərqdə: Fəlsəfi tarixi kontekstində. Bakı: Adiloğlu, 2006, 208 s.
9. Əliyev H. Azərbaycan yazıçılarının VII qurultayında nitqi. "Kommunist" qəz., 1981, 19 iyun, № 139.
10. Əliyev H. Böyük Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadənin anadan olmasının 125-illiyinə həsr olunmuş gecədəki nitqindən, 1994, 28 dekabr / Heydər Əliyev və mədəniyyət. Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar: 3 cilddə / Layihənin rəhbəri və ön sözün müəllifi Əbülfəz Qarayev. Tərtib edənlər Sevda Məmmədəliyeva, Teymur Əhmədov. Redaktor Lətifə Məmmədova. I c.: 1969-1982-ci illər, 1993-1996-cı illər, Bakı: Nurlar, 2008, s. 272-279.
11. Quliyev V. Heydər Əliyev və klassik ədəbi irsimiz / Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı: Elm, 1998, s. 39-125.
12. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Molla Nəsrəddin" jurnalının 100-illik yubileyi haqqında 23 yanvar 2006-cı il (№ 1234) Sərəncamı. "Respublika" qəz., 2006, 24 yanvar.

***Naxçıvan Dövlət Universiteti***
***E-mail: y.h.huseynov@mail.ru***

**Yusif Husseinov**

## THE CLASSICAL ARTISTIC AND PHILOSOPHICAL HERITAGE OF AZERBAIJAN AT THE LEVEL OF THE IDEAS OF THE NATIONAL LEADER HEYDAR ALIYEV

The article analyzes in detail the high value attached by the national leader Heydar Aliyev to the classical artistic and philosophical heritage of Azerbaijan, which is a rich source of ideology, during all periods of his political activity and leadership of the country. The great leader has always highly appreciated the creators of this heritage, who enriched the socio-philosophical thought of Azerbaijan, paid attention and care to turning their priceless heritage and human ideas into the spiritual wealth of Azerbaijan. The classical artistic and philosophical heritage of Azerbaijan played an important role in the awakening of the national spirit of our people, the revival of national self-consciousness, the strengthening of the process of national revival, the beginning of the formation of national psychology and national ideology. National leader Heydar Aliyev has repeatedly emphasized that the classical philosophical and artistic heritage plays a fundamental role in creating the cultural and philosophical ideology of independence and national psychological wealth, and has consistently taken the necessary measures for the creative use of this rich treasure. From this point of view, the sensitive and careful attitude of the great leader to the classical cultural heritage, national philosophical thought, democratic values and civilized traditions constitutes a perfect system.

**Keywords:** *national leader Heydar Aliyev, classical artistic and philosophical heritage, Azerbaijanism, ideology, national awakening, Mollanasreddinians.*

**Юсиф Гусейнов**

## КЛАССИЧЕСКОЕ ХУДОЖЕСТВЕННО-ФИЛОСОФСКОЕ НАСЛЕДИЕ АЗЕРБАЙДЖАНА В ПЛОСКОСТИ ИДЕЙ ОБЩЕНАЦИОНАЛЬНОГО ЛИДЕРА ГАЙДЕРА АЛИЕВА

В статье подробно анализируется высокая ценность, придаваемая общенациональным лидером Гейдаром Алиевым классическому художественно-философскому наследию Азербайджана, являющемуся богатым источником идеологии, во все периоды его политической деятельности и руководства страной. Великий лидер всегда высоко ценил создателей этого наследия, обогативших общественно-философскую мысль Азербайджана, уделял внимание и заботу превращению их бесценного наследия и человеческих идей в духовное богатство Азербайджана.Классическое художественно-философское наследие Азербайджана сыграло важную роль в пробуждении национального духа нашего народа, возрождении национального самосознания, усилении процесса национального возрождения, начале формирования национальной психологии и национальной идеологии.Общенациональный лидер Гейдар Алиев неоднократно подчеркивал, что классическое философско-художественное наследие играет основополагающую роль в создании культурно-философской идеологии независимости и национально-психологического богатства, и последовательно осуществлял необходимые меры для творческого использования этого богатого сокровища. С этой точки зрения чуткое и бережное отношение великого вождя к классическому культурному наследию, национальной философской мысли, демократическим ценностям и цивилизованным традициям составляет совершенную систему.

**Ключевые слова:** *общенациональный лидер Гейдар Алиев, Классическое художественно-философское наследие, азербайджанство, идеология, национальное пробуждение, молланасреддинцы.*

**RADİF MUSTAFAYEV**

# II QARABAĞ MÜHARİBƏSİNDƏ ƏLDƏ EDİLMİŞ QƏNİMƏT ƏDƏBİYYATINDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVƏ MÜNASİBƏT

*Məqalədə ölkəmizin qədim və müasir tarixi Azərbaycan və dünya ədəbiyyatı üzrə bildiklərimizlə yanaşı erməni mənbələri əsasında da müqayisəli şəkildə nəzərdən keçirilmişdir. Bunu əldə rəhbər tutaraq Azərbaycan həqiqətlərinin aşkarlanması və təbliği həyata keçirilmişdir. Bu məqsədlə ulu öndər, ümummilli lider Heydər Əliyevin həm Sovet, həm də müstəqillik dövrünə aid fəaliyyətinə II Qarabağ – Vətən müharibəsi qənimətlərində başlıca məqamlara diqqət yetirərək, buradakı yanlış, qərəzli, düşmən mövqeləri tutarlı sübut və dəlillərlə ifşa edilmişdir.*

**Açar sözlər:** *Azərbaycan Respublikası, II Qarabağ Vətən müharibəsi, H.Əliyev, Dağlıq Qarabağ, milliyyətçilik.*

**Giriş.** Ümummilli lider Heydər Əliyevin layiqli davamçısı Müzəffər Ali Baş Komandan, cənab prezident İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində Azərbaycan Respublikasının ərazi bütövlüyü tam təmin edilmişdir. Bu Vətən müharibəsinin iştirakçısı kimi işğalçılardan azad edilmiş Xocavənd rayonu Böyük Tağlar kəndində qərargah rəisim mayor Samiq Əliyevin, batareya komandirim Zaur Gülüyevin, özümün və digər əsgər döyüş yoldaşlarımın vasitəsilə əldə etdiyim ədəbiyyat və sənədlər hərbi qənimətlərimiz olub, fikrimizcə bunların prizmasından Azərbaycan həqiqətlərinə diqqət yetirmək baxımından olduqca lazımlı materiallardır. Belə ki, ölkəmizin qədim və müasir tarixini Azərbaycan və dünya ədəbiyyatı üzrə bildiklərimizlə yanaşı erməni mənbələri əsasında da müqayisəli şəkildə nəzərdən keçirməyimiz hər şeydən əvvəl bir tədqiqatçı vəzifə borcumuz olub Azərbaycan həqiqətlərinin aşkarlanması və təbliği baxımından da böyük önəm kəsb etməkdədir. Buna görə də biz ulu öndər Heydər Əliyevə həsr edilmiş məqaləmizdə elə sözügedən qənimətlərdə əbədiyaşar liderlə bağlı məqamlara diqqət yetirmək, buradakı yanlış, qərəzli, düşmən mövqelərini tutarlı sübut və dəlillərlə ifşa etmək niyyətindəyik.

**Ulu öndər Heydər Əliyevin fəaliyyətinin Sovet dövrünə münasibət.** Əldə etdiyimiz qənimətlər sırasında ulu öndər Heydər Əliyevin fəaliyyətinə geniş toxunulmuş ədəbiyyat kimi 2015-ci ildə nəşr edilmiş tarix elmləri doktoru, Rusiya Elmlər Akademiyasının N.N.Mikluxa-Maklay adına Etnologiya və Antropologiya İnstitutunun baş elmi işçisi, Rusiya akademiyasının təbiət elmləri üzrə həqiqi üzvü və etnoqrafik ermənişünaslıq sahəsində dünyada tanınmış mütəxəssis kimi təqdim edilən Alla Ervandovna Ter-Sarkisyansın "Dağlıq Qarabağ erməniləri (Tarix. Mədəniyyət. Ənənələr)" adlı iri həcmli (918 səhifə + 40 s. rəngli illüstrasiyalar, xəritələr) kitabı səciyyəvidir. Belə ki, bütün səyləri ilə Qarabağın (Arsaxın), o cümlədən də Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycan SSR-nin (Azərbaycan Respublikasının) tərkibində olduğunu inkar edib, bunu böyük ədalətsizlik hesab etmiş müəllif, Sovet dövründən bəhs edərkən başqa şəxslərlə yanaşı o zamanlar Azərbaycan SSR DTK-nin rəhbərliyindən başlayaraq ümummilli lider Heydər Əliyev barəsində çoxlu qeydlər etmişdir. A.Ter-Sarkisyans yazır ki, hələ 1969-cu ilin aprelində Heydər Əliyev Sov İKP MK-nin nəzdində partiya nəzarəti Komitəsinə Dağlıq Qarabağla əlaqədar qeydlərini ünvanlamışdır. Belə ki, ümummilli lider H.Əliyevin qeydində deyilir ki, "Dağlıq Qarabağ Muxtar Vilayətində milliyyətçi səciyyə daşıyan təzahürlər baş verir. Son illərdə bu vilayətdə yaşayan milliyyətçi elementlər, eləcə də Ermənistan SSR-nin bəzi sakinləri əhali arasında vilayətin Azərbaycanın tərkibindən çıxaraq Ermənistana birləşdirilməsi cəhdlərini alovlandırmağa səy göstərməkdədirlər. Bəzi gənclər, o cümlədə də komsomolçular bu milliyyətçi ünsürlərin təsiri altına düşür... DQMV-də gənclərin milliyyətçi hərəkətləri 1968-ci ildə də baş vermişdir" [1, s. 338-339]. Həmişə Sovet İttifaqının yuxarı rəhbərliyinə müraciət edildiyini müx-

təlif faktlarla göstərmiş müəllif hətta o vaxtlar SovİKP MK-nin katibi M.Suslov və digər nüfuzlu şəxslər tərəfindən bu cəhdlərin qarşısı alındığı təqdirdə, bütövlükdə Azərbaycan və xüsusilə də ulu öndər Heydər Əliyev tərəfindən Dağlıq Qarabağdakı ermənilərin oxşar müraciətlərinin "milliyyətçi ünsürlər"in səyləritək qiymətləndirilməsini vurğulamışdır. Hətta o, 1977-ci ildə SSRİ-nin yeni konstitusiyasının müzakirələri zamanı da ölkənin rəhbər orqanlarına Qarabağ problemi ilə əlaqədar çoxsaylı məktublar göndərildiyini yazır. Guya ən yüksək səviyyədə belə bu problemin olduğunu qəbul etsələr də həllinin qeyri-müəyyən vaxta təxirə salındığını yazmış müəllif bu baxımdan SSRİ NŞ Prezidiumunun 23 noyabr 1977-ci il iclasının protokolunu misal gətirir. Burada deyilir ki, "Bəzi tarixi şərtlər nəticəsində bir neçə onilliklər əvvəl Dağlıq Qarabağ süni şəkildə Azərbaycana birləşdirilmişdir. Bu zaman vilayətin tarixi keçmişi, onun milli tərkibi, xalqın istəyi və iqtisadi maraqları nəzərə alınmamışdır. Onilliklər keçsə də Qarabağ məsələsi qalır və əsrlər boyu dostluqla bağlı olan iki xalq arasında narahatçılıq və arzuolunmaz məqamlar doğurmaqdadır. Dağlıq Qarabağı (ermənicə "Arsax") Ermənistan SSR-iyə birləşdirmək lazımdır. Onda hər şey qanuni yerini tutacaqdır". Amma buna baxmayaraq müəllif təəssüf hissi ilə qeyd edir ki, "Halbuki, SovİKP MK-nin Siyasi Bürosu bu təklifi kənara qoymuşdur. Dövriyyədə "mürəkkəb", "çətin", "vaxtı deyil", "belə problemlər çoxdur" kimi fikirlər yer almışdır" [1, s. 339].

A.Ter-Sarkisyans kitabın bir çox yerlərində Dağlıq Qarabağ Muxtar Vilayətində guya acınacaqlı şərait ucbatından əhalinin, xüsusən də gənclərin buradan köçüb getdiklərini vurğulayır. Halbuki, özü də etiraf edir ki, o dövrlərdə baş vermiş şəhərləşmə prosesi kəndlərə və əhali arasında qocaların sayının artmasına təsir etməyə bilməzdi. Amma bütün bunların Azərbaycan hakimiyyəti tərəfindən qərəzli şəkildə həyata keçirildiyini iddia edən müəllifə görə "Halbuki Azərbaycan rəhbərliyinin fikrincə, [DQMV-ə] iqtisadi təzyiq faktorları vilayətin milli (əslində etnik olmalıdır – R.M.) tərkibini daha tez dəyişdirməni həyata keçirməyə kifayət etmirdi" [1, s. 341]. Guya Dağlıq Qarabağda azərbaycanlı əhalinin (burada etnik baxımdan qeyri-hay, etnik erməni olmayan əhali nəzərdə tutulur – R.M.) 1970-ci illərə qədər baş vermiş kortəbii mexaniki artımı da hakimiyyət tərəfindən uzun və qeyri-effektiv hesab edilərək "Qarabağ ermənilərinin mənəvi və mədəni həyat sahələrində sıxışdırılmalarını artırmaq qərara alınmışdı" [1, s. 341]. Bu əsassız müddəasına "sübut" kimi baş vermişləri təsvir edərkən müəllif yazır ki, "1975-ci ilin martında muxtar vilayətin yaranma tarixinin və sosial-iqtisadi inkişaf proseslərinin yanlış şəkildə işıqlandırılmış Sov.İKP Ümumi Şurasının plenumu çağırılmışdır" [1, s. 341]. Hər baş vermişdə erməniliyə, xüsusən də Qarabağ ermənilərinə qarşı ədalətsizlik olduğunu aşılamağa çalışan müəllif yazır ki, sözügedən "Plenumda vətənpərvərlik tərbiyəsi məsələlərinə baxılıb milliyyətçiliyə qarşı mübarizədən bəhs edilərək bununla da ermənilərin narazılıqları və onların milli hərəkatı, erməni milliyyətçiliyi nəzərdə tutulurdu" [1, s. 341-342]. Hətta plenumun qəbul etdiyi qərarda vilayətin məsul vəzifələrinə fəal şəkildə "bütün milliyyətlərin nümayəndələri"ndən seçilmələrini A.Ter-Sarkisyans təhrif edərək bildirir ki, "bu əslində o demək idi ki, söhbət azərbaycanlılardan/azərbaycanlıların məsul vəzifələrə təyin edilməsindən gedirdi" [1, s. 342]. Belə ki, müəllifə görə "Bu plenumdan sonra Dağlıq Qarabağ ermənilərinin mənəvi və mədəni həyatlarına Azərbaycanın hakim orqanlarının /dairələrinin müdaxilələri kəskin şəkildə artdı" [1, s. 342]. Bəlkə də A.Ter-Sarkisyansı qəzəbləndirən başlıca fakt özünün qeyd etdiyi kimi, hər yerdə "DQMV-i haqqında yazarkən vilayətin yerli əhalisi (o burada Qarabağdakı haylaşdırılmış albanları, Qarabağ ermənilərini nəzərdə tutur – R.M.) azərbaycanlı adlandırılmağa başlandı" [1, s. 342]. Sanki Sovet İttifaqının dağıldığı təəssüratını oyadan müəllifdən oxuyuruq ki, "Tamamilə [DQMV-nin] Ermənistanla bütün mədəni əlaqələri, hətta radioverilişlərinin qəbulu da kəsildi" [1, s. 342]. Beləliklə də DQMV-də milli tərkibin və kadr siyasətinin kəskin şəkildə dəyişdiyini bildirən müəllif əlavə edir ki, "Qarabağ erməniləri Yerevandan radioverilişlərə qulaq asmaq qadağasından başqa Yerevandan yayımlanan televiziya verilişlərinə, əksər

yerlərdə isə Moskvadan yayımlananlara baxmaq imkanından məhrum olmuşdular" [1, s. 343]. Görünür yalanlarını bir qədər inandırıcı etmək üçün A.Ter-Sarkisyans davam edir ki, "...Mərkəzi teleyayım proqramlarının birtəhər baxıla bilindiyi yerlərdə görüntünün keyfiyyəti olduqca aşağı idi" [1, s. 343]. Bəlkə də nifrətinin ifadəsini gizlədə bilməyən müəllif gileylənir ki, "Əslində yalnız Bakıdan yayımlanan bir proqram və son illərdə İrandan (o da səssiz) yayımlananlar işləyirdi" [1, s. 343]. Halbuki, həqiqəti dana bilməyən (amma bacardığı qədər qərəzli vermiş) müəllifdən oxuyuruq ki, "Bakıdan yayımlanan verilişlərin əksər hissəsi Azərbaycan dilində getsə də yalnız həftədə iki dəfə iş vaxtı yarım saat Bakı televiziyası respublikada yaşayan ermənilər üçün erməni dilində proqram yayımlasa da, bunlar Azərbaycanda baş vermiş xəbərlərə həsr edildiyindən, təbii ki, erməniləri təmin edə bilməzdi" [1, s. 343]. 80-ci illərdə DQMV-dəki təhsil vəziyyətindən də şikayətlənən A.Ter-Sarkisyans bəlkə də ürək ağrısı ilə vurğulayır ki, "O vaxtlardan Azərbaycan dilinin də öyrənilməsi məktəb proqramlarına məcburi fənn kimi daxil edildi" [1, s. 343]. Həqiqətən də, yuxarıda qeyd etdiyimiz qənimətlər arasında məsələn, o zamanlar Hadrut rayonunun Böyük Tağlar kənd sakini Mosiyan Bəylər Apsenoniçə 1978-ci ilin 7 iyul tarixində verilmiş səkkizillik təhsil haqqında şəhadətnamədə və həmkəndlisi Çakmazyan Zaven Hambarsumoviçə aid Orta təhsil haqqında Azərbaycan SSR Təhsil Nazirliyinin 1981-ci ilin 10 iyul tarixində verilmiş Attestatda Azərbaycan dili qrafasının önündə azərbaycanca və rusca müvafiq olaraq "keçirilməyib", "не изуч." və "öyrənilməyib", "не обучался" yazılmışdır. Görünür belə bir durum A.Ter-Sarkisyansa daha xoş olduğundan o təəssüf hissi ilə yazır ki, "Əgər Qarabağ ermənilərinin ana dili kimi erməni dilini (xüsusən də, əksəriyyəti üçün bu Qarabağ dialekti idi) hesab etdiklərini nəzərə alsaq onda uşaqların tədrisində əldə rəhbər tutulan Bakıdan göndərilmiş məktəb təhsil sisteminin hansı əlavə çətinliklər törətdiyi aydın olurdu" [1, s. 343]. Əslində 1980-ci illərdə Azərbaycan dövlətinin Mərkəzi Komitənin Birinci Katibi Heydər Əliyevin başçılığı ilə vətəndaşlarına sahib çıxdığı addımlardan narahat olmuş müəllif yazır ki, "Müəllimlər həmçinin son illərdə Yerevandan göndərilmiş tədris proqramları əvəzində onların əksəriyyəti üçün anlaşılmaz dildə olan Bakıdan göndərilmiş proqramların onlara yollanmasından narazı idilər" [1, s. 343-344]. Yenə də müəllif vurğulayır ki, "Bu faktlar erməni mühitində, xüsusən də məlum olduğu kimi, istənilən sosial təhriflərə daha çox həssas olan gənclər arasında güclü emosional əks-səda doğururdu" [1, s. 344].

A.Ter-Sarkisyans hələ 1960-cı illərdə meydana çıxmış Azərbaycan tarixçiləri və arxitektorlarının da erməni xalqına dostcasına deyil, daha çox düşmənçilik mövqeyindən yanaşdıqlarını iddia edərək onların guya erməni xristian mədəniyyəti abidələrini "əvvəlcə alban, daha sonra isə Azərbaycan mənbələri elan edib, xalqlarını qədim xristian albanların və onların mədəniyyətlərinin varisləri olduqlarını bildir"mələrinə qarşı etiraz edir [1, s. 346, 347, 348, 349, 350, 351, 352, 353]. Uzaq keçmişlə yanaşı, 1948-1953-cü illərdə Ermənistan Respublikasından azərbaycanlıların deportasiya edildiyini də təhrif edən müəllif, əksinə ermənilərin Azərbaycandan köçdüklərinin əsasən məcburiyyətdən doğduğunu iddia edərək guya 1976, 1980, 1985-ci illərdə aparılmış etnososioloji sorğuların nəticəsində "Azərbaycandan miqrasiyaların motivləri arasında daha çox sosial-iqtisadi və mədəni diskriminasiyanın hiss edildiyinin vurğulandığı"nı aşkarlayır [1, s. 355]. Hətta A.Ter-Sarkisyansın "...1979-cu il siyahıya alınmasına görə irandilli talışlar (1926-cı ildə onlar 77,3 min nəfər idi), kürdlər (41,2 min), dağ yəhudiləri (10,3 min), farslar (?) (9,4 min) tamamilə yox olmuş; digər xalqların nümayəndələri qismən assimilyasiyaya uğramış, xüsusən də tatlar ("görkəmli etnoqraf"ın tatları irandilli, daha doğrusu Hind-Avropa dillərinin Ari qolu, Hind-İran alt qolu, İran qrupu, Cənub-qərb alt-qrupu hesab etmədiyi maraq doğurur – R.M.)(onların sayı 1926-cı ildə 22,4 mindən 1979-cu ildə 8,7 minə qədər azalmışdır), saxurlar (müvafiq olaraq 15,6 mindən 8,5 minə qədər) [azalmışdır]" gülüş doğurmaya bilməz [1, s. 355]. Bir sözlə, Dağlıq Qarabağın Azərbaycan Respublikası tərkibində muxtar vilayət kimi qalmasını tarixi ədalətsizlik hesab edən müəllifə görə buradakı etnodemoqrafik inkişafdakı

qeyri-təbiiliyə səbəb guya "ilk növbədə Azərbaycan hakimiyyətinin həyata keçirdiyi ayrı-seçkilik siyasəti ilə şərtlənən ermənilərin regiondan köçmə səviyyələrinin yüksək olması və eyni zamanda da, xüsusilə də 1960-cı illərdən başlayaraq azərbaycanlıların bu regiona məqsədyönlü şəkildə axın etmələri ilə əlaqədar olmuşdur" [1, s. 356]. Bu sayaq iddialarını davam etdirən A.Ter-Sarkisyans yazır ki, "Nəticədə DQMV-nin Qarabağ ermənilərinin sosial-iqtisadi, mədəni və demoqrafik inkişafı Ermənistan SSR-in həmin parametrləri ilə müqayisədə olduqca geri qalırdı" [1, s. 357]. Guya "Qarabağ ermənilərinə münasibətdə bütün bu qeyd edilmişlər son nəticədə Dağlıq Qarabağ ermənilərinin onlara qarşı edilmiş tarixi ədalətsizliyi aradan qaldırmaq üçün 1980-ci illərin ikinci yarısındakı milli-azadlıq hərəkatının hissediləcək şəkildə fəallaşmasına gətirib çıxartmışdır" [1, s. 358].

1980-ci illərin ortalarında SSRİ-də M.S.Qorbaçov tərəfindən həyat keçirilmiş "Yenidənqurma" siyasətinin erməni cəmiyyəti tərəfindən dəstəkləndiyini bildirən A.Ter-Sarkisyans, Sovet rəhbərliyinin elan etdiyinin əksinə olaraq milli məsələnin heç də həll edilmədiyini xatırladır. Bir sıra milli ziddiyyətlər fonunda müəllif bildirir ki, "Sovet İttifaqındakı ilk və daha ciddi və uzun sürən millətlərarası münaqişələrdən biri kimi Azərbaycanın başçılığı ilə Dağlıq Qarabağ ermənilərinin münaqişəsi oldu" [1, s. 359]. Halbuki, A.Ter-Sarkisyans özü etiraf edir ki, hələ "...1987-ci ilin ikinci yarısında DQMV-də vilayətin Ermənistan SSR-yə birləşdirilməsi üçün imza toplanılması kampaniyasına çevrilən özünəməxsus referendum keçirilmişdir" [1, s. 379]. Və yaxud da ulu öndər Heydər Əliyevin 1993-cü ilin 15 iyununda hakimiyyətə qayıtması ilə əlaqədar hadisəyə qeyd yerində müəllif yazır ki, "1980-ci illərin sonlarında, artıq H.Əliyev [Sovet rəhbərliyində] iş başında olmadığı vaxtlarda M.S.Qorbaçov ətrafındakılarla Azərbaycanın keçmiş başçısına (Heydər Əliyevə – R.M.) qarşı "rəşidov işindən də təmiz iş aparıldığını" bölüşürdü" [1, s. 466]. Hətta Rusiyanın keçmiş prezidenti B.N.Yeltsinin xatirələrinə istinad etmiş A.Ter-Sarkisyans bir daha ümummilli lider Heydər Əliyevə qarşı aparılmış çirkin kampaniyanı ifşa etmiş olur.

**Ümummilli lider Heydər Əliyevin müstəqillik dönəmindəki fəaliyyətinə münasibət.** Məlum olduğu kimi, artıq dövlət müstəqilliyini elan etmiş Azərbaycan Respublikasında ikinci dəfə hakimiyyətə qayıtmış ulu öndər Heydər Əliyev bütün maneələrin öhdəsindən uğurla gələ bildi. Bunlardan birinin etirafı kimi, müəllifdən Heydər Əliyevin, məsələn, 1993-cü ilin 20 iyulunda Rusiya emissarı V.N.Kazimirovla görüşərkən özünün və dövlətimizin qətiyyətini necə nümayiş etdirdiyini oxuya bilərik. Belə ki, V.N.Kazimirovun "Qarabağa sülh" kitabında bu görüş haqqında parçadan müəllif yazır ki, o (V.N.Kazimirov – R.M.) Heydər Əliyevlə aparılmış danışıqları "kifayət qədər çətin, əvvəlcə sətiraltı mübahisəli, daha sonra isə birbaşa inadkar, gərgin [şəkildə keçirildiyini]" vurğulamışdır [1, s. 466].

Bütövlükdə ümummilli lider Heydər Əliyevin hakimiyyətinin əvvəlki iqtidarlardan fərqli olduğunu vurğulamış müəllif, dərhal 23 iyul 1993-cü ildə Ağdam şəhər mərkəzinin işğal edilməsi ilə guya H.Əliyevin nüfuzuna hissediləcək dərəcədə zərbə vurulduğunu iddia edir [1, s. 474]. Halbuki, özü də etiraf etməli olur ki, bu hadisə ilə əlaqədar BMT-nin Təhlükəsizlik Şurasının 29 iyul tarixli 853 saylı qətnaməsi qəbul edilmişdir. 822 saylı qətnaməni isə o, Dağlıq Qarabağın tərəf kimi tanınmasına görə ermənilər tərəfindən qəbul edildiyini vurğulayır [1, s. 475].

Daha sonra Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarının işğallarına görə 14 oktyabr 1993-cü ildə 874 saylı qətnamənin, 12 noyabrda isə 884 saylı qətnamənin qəbul edilərək Minsk Qrupunun qrafikinə əsasən erməni silahlı qüvvələrinin Azərbaycan ərazilərindən çıxarılmasının tələb edildiyini də etiraf etməli olur [1, s. 475].

Erməni müəllif adını çəkməsə də, məhz ümummilli lider Heydər Əliyevin sayəsində, qeyd edir ki, Azərbaycan yeni vasitə və qüvvələr əldə edib 1993-cü ilin dekabrında əks hücuma keçməklə yanaşı İslam dünyası və Qərblə əlaqələri genişləndirməyə başladı [1, s. 476]. A.Ter-Sarkisyans o zaman erməni separatçıların başında durmuş R.Köçəryanın Rusiyanın vasitəçiliyi ilə 16 dekabrda atəşkəs

əldə etmək istədiyini xatırladır [1, s. 476]. Bütün bunları qəbul etməyən Azərbaycan tərəfini isə o, özünün əks-hücuma keçməsi ilə xatırlayır. Xüsusilə də Qərb şirkətləri ilə Xəzərin neft yataqları ilə əlaqədar yenə də adını qeyd etməsə də, ümummilli liderin aktiv danışıqlar apardığını vurğulayır.

Müəllif, guya, 1994-cü ilin fevralında cəbhədəki vəziyyətin Azərbaycanın xeyrinə olmadığını bildirərək Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin 8-12 fevral tarixlərində Türkiyə Respublikasına səfər edib orada dövlət və hökumət rəhbərləri ilə görüşdüyünü qeyd edir. Ümummilli lider Heydər Əliyevin Türkiyə rəhbərliyi ilə müxtəlif məsələlər üzrə 16 razılığa gəlindiyini bildirən müəllif, bundan sonra hər iki tərəfin Rusiya Müdafiə Naziri P.S.Qraçova müraciət etdiklərini bildirir [1, s. 477].

A.Ter-Sarkisyans artıq fevralın sonunda ümummilli lider Heydər Əliyevin Londonda aralarında "Dostluq və əməkdaşlıq" haqqında müqavilə olmuş səkkiz müqavilə bağlandığını və olduqca uğurlu olduğunu qeyd və etiraf edir [1, s. 477].

Müəllif Bişkek görüş öncəsi 3-4 may tarixində Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Brüsselə səfər etdiyini və Azərbaycanın NATO-nun "Sülh naminə əməkdaşlıq" proqramına qoşulması üçün razılıq verdiyini və bununla da Rusiya və MDB sülhməramlı səylərini zəiflətdiyini bildirir [1, s. 479]. Halbuki, özü də qeyd etdiyi kimi, 4-5 may 1994-cü ildə "Bişkek Protokolu" qəbul edilmişdir.

Bir daha erməni işğalının təsdiqi kimi, müəllifdən oxuyuruq ki, o "Qarabağ ordusu" adı altında Gəncə şəhərini də işğal etmək niyyətində olduqlarını etiraf edir [1, s. 482].

Müəllif 12 may 1994-cü ildə "Atəşkəs haqqında razılaşma" imzalandığını qeyd edir. Və vurğuayır ki, o zaman H.Əliyev münaqişə ərazisinə rusiyalı sülhməramlı qüvvələrin yerləşdirilməsinə etiraz etmişdir [1, s. 483].

A.Ter-Sarkisyans 20 sentyabr 1994-cü ildə, yenə də adını çəkmədiyi ümummilli lider Heydər Əliyev tərəfindən, "Əsrin müqaviləsi"nin imzalandığını qeyd edir.

O, 1996-cı ildə Minsk Qrupunun Rusiya və Finlandiyanın həmsədrliyi ilə danışıqların 8-ci raundunun baş verdiyini qeyd edərək, artıq burada Azərbaycan tərəfi (sözsüz ümummilli lider Heydər Əliyev başda olmaqla) ərazi bütövlüyü məsələsini, işğal olunmuş torpaqların boşaldılması, o cümlədən də Şuşa və Laçının azad edilməsi məsələlərində israr etmişlər (1, s.488). Müəllif qeyd edir ki, həmçinin Dağlıq Qarabağın demilitarizasiyası təqdirində geniş muxtariyyət və əhalisinin təhlükəsizliyinə söz verilmişdir.

Müəllif etiraf edir ki, 24 noyabr 1996-cı il Dağlıq Qarabağda keçirilmiş prezident seçkiləri "Aparıcı Qərb ölkələri və Rusiya tərəfindən "qeyri-qanuni" hesab edilmişdir" [1, s. 489].

Yenə də müəllifdən, ümummilli lider Heydər Əliyevin adı xatırlanmadan, oxuyuruq ki, 1996-cı ildə Lissabondakı ATƏT-in sessiyasında yekun razılıq Azərbaycanın ərazi bütövlüyü dəstəklənməklə erməni nümayəndə heyətinin narazılığına səbəb olmuşdur [1, s. 490]. Çünki, erməni tərəfinin "xalqların öz müqəddəratını müəyyən etmək" prinsipi qəbul edilməmişdi. A.Ter-Sarkisyans 11 fevral 1997-ci ildə Finlandiyanın xarici işlər naziri cənab T.Halonendən sitat gətirir ki, "Lissabon sammitindəki dramatik çevriliş danışıqlar prosesinə öz damğasını qoydu...Rollar dəyişdi; vasitəçilərin mövqeləri ilə razılaşan Azərbaycan tərəfi tamamilə Ermənistanın fəaliyyət azadlığının olmadığını ortaya çıxartdı...Azərbaycan beynəlxalq ictimaiyyətin gözü önündə Ermənistanı küncə sıxışdırdı. Hətta həllin olmaması belə Azərbaycanın qələbəsi oldu. Ermənistan qınına girən ilbiz kimi ortalığa çıxan vəziyyəti müzakirə etməyə özünə çəkildi" [1, s. 491].

Bir sözlə, fikrimizcə bu və digər məqamlarda görünən ümummilli lider Heydər Əliyevin prinsipiallığını və Azərbaycanın haqlı mövqelərinin necə qoruduğu barədə bəhs edərək A.Ter-Sarkisyansın adı çəkilmiş kitabında nə qədər təhrif edilmiş, saxta məqamlar yer alsa da, ölkəmizin olduqca mürək-

kəb, çətin və eyni zamanda da milli maraqlarımızın heç zaman güzəşt edilmədiyi ulu öndər və Müzəffər Ali Baş komandan İlham Əliyevin hakimiyyət illərində baş vermişlərin bu prizmadan da araşdırılması olduqca vacibdir.

**Nəticə.** II Qarabağ-Vətən müharibəsində qənimət kimi əldə etdiyimiz 2015-ci ildə nəşr edilmiş Alla Ervandovna Ter-Sarkisyansın "Dağlıq Qarabağ ermənilәri (Tarix. Mədəniyyət. Ənənələr)" adlı irihəcmli kitabında XX əsr tariximiz və xüsusən də ümummilli lider Heydər Əliyev haqqında baxışlarını aşağıdakı şəkildə ümumiləşdirə bilərik:

– XX əsr Sovetlər dönəmində Azərbaycan SSR-i Dağlıq Qarabağ Muxtar Vilayətində baş vermiş milliyyətçi, separatist cəhdlər guya Qarabağ ermənilərinin milli-azadlıq hərəkatı olmuşdur. Halbuki, bütün bunların əsl qiymətini, müəllifin qeyd etdiyi kimi, hələ 60-cı illərdə ulu öndər Heydər Əliyev olduqca dəqiq müəyyən etmişdir.

– Guya Sovet rəhbərliyinin laqeydliyi, Azərbaycanın məqsədyönlü siyasəti nəticəsində Qarabağ ermənilərinə qarşı ədalətsizlik edilərək onlar həmişə etno-mədəni, sosial, iqtisadi diskriminasiyaya məruz qalmışlar. Lakin istənilən bir əsaslı tədqiqat bütün bunların yanlış və qərəzli olduğunu deməyə əsas verir.

– Ötən əsrib 80-ci illərin sonu 90-cı illərin əvvəllərində baş vermiş hadisələrdə Qarabağ ermənilərinin milliyyətçi, separatist, ekstremist fəaliyyəti deyil, guya DQMV-nin Azərbaycandan ayrılaraq qondarma Arsax respublikasının müstəqilliyi istiqamətində addımlar atılmışdır.

– Müəllifin də qeyd etdiyi kimi, məhz ümummilli lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra Ermənistan, Azərbaycan və Dağlıq Qarabağ münaqişəsinin həllində köklü dəyişikliklər baş vermış, Azərbaycanın haqlı mövqeləri daha da prinsipial şəkildə qorunmuşdur.

## ƏDƏBİYYAT


1. Тер-Саркисянц А.Е. Армяне Нагорного Карабаха: История. Культура. Традиции. Институт политических и социальных исследований Черноморско-Каспийского региона. Москва: НП ИД Русская панорама, 2015, 918 с. + 40 с. цв. ил., карты.
2. Əlizadə A. Cənubi Qafqazda "Qazqarşıdurmaları" (1962-1967) / Həyat sosiologiyası (tarix və müasirlik prizmasından) toplusu, 2021, s. 63-73.
3. Кулизаде З. "Концептуальные проблемы исследования социокультурного развития (конец XX – начало XXI вв.). Ч. I, Баку: Текнур, 2009, 396 с.
4. MustafayevR. Vətən müharibəsi qənimətlərində Azərbaycan həqiqətlərinə baxış / Azərbaycanın strateji hədəfləri və Cənubi Qafqazda yeni reallıqlar. Bakı, 2021, s. 195-202.
5. Mustafayev R. II Qarabağ-Vətən müharibəsi qənimətlərində Azərbaycan həqiqətlərinə baxış / Cənubi Qafqazda ərazi-sərhəd problemləri: Qars müqaviləsindən Şuşa bəyannaməsinə: Respub lika Elmi Konfransının tezisləri. Bakı, 2021, s. 55-56.


***AMEA Fəlsəfə və Sosiologiya İnstitutu***
***E-mail: hradif@mail.ru***

**Radif Mustafayev**

## ATTITUDE TOWARDS HEYDAR ALIYEV IN THE TROPHY LITERATURE OF THE II KARABAKH WAR

The article examines the modern history of Azerbaijan with reference to the trophy literature of the second Karabakh war, and presents ideas about the discovery and dissemination of truths. This study focuses on the activities of the great national leader Heydar Aliyev both in the Soviet period and in the period of independence, highlights the main points covered in military trophy literature, and also exposes the erroneous and biased conclusions of enemy propaganda.

**Keywords:** *Republic of Azerbaijan, II Karabakh Patriotic War, H.Aliyev, Nagorno-Karabakh, nationalism.*

**Радиф Мустафаев**

## ОТНОШЕНИЕ К ГЕЙДАРУ АЛИЕВУ В ТРОФЕЙНОЙ ЛИТЕРАТУРЕ II КАРАБАХСКОЙ ВОЙНЫ

В статье рассматривается современная история Азербайджана со ссылкой на трофейную литературу второй карабахской войны, и представлены идеи об открытии и распространении истин. В данном исследовании уделяется внимания деятельности великого общенационального лидера Гейдара Алиева как в советский период, так и в период независимости, выделены основные моменты, освещенные в военной трофейной литературе, а также разоблачены ошибочные и предвзятые выводы вражеской пропаганды.

**Ключевые слова:** *Азербайджанская Республика, II Карабахская Отечественная война, Г.Алиев, Нагорный Карабах, национализм.*

ANAR ZAMANBƏYLİ

# BÖYÜK MÜƏLLİM

*Məqalə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ilk müəllimlərindən olan Xürşud və Qafar Zamanovlar, onların atası Mirzə Məhəmməd Zamanbəylinin həyat yolu, təhsil sahəsindəki fəaliyyətindən bəhs edir. Müəllif qeyd edir ki, adları qeyd edilən müəllimlər ulu öndər Heydər Əliyevə təhsil verən ilk ziyalılardan olmuşdur. Məqalədə adları çəkilən müəllimlərin ulu öndər Heydər Əliyevin ailəsi və özünün həyatındakı yeri və rolundan danışılır. Göstərilir ki, məhz Qafar müəllimin təkidi və tərtib etdiyi xasiyyətnamə ilə Heydər Əliyev o dövrdə təhlükəsizlik orqanlarında işə başlamışdır.*

**Açar sözlər:** *ümummilli lider Heydər Əliyev, Qafar və Xürşud müəllim, təhsil, ziyalı.*

Ümummilli lider Heydər Əliyevin keçdiyi həyat yolu hamımız üçün böyük bir məktəbdir. Və bu böyük məktəbin Böyük Müəllimi məhz Heydər Əliyevdir. Ümummilli liderin həyatında Müəllim rolunun nə qədər böyük və ali olduğunu o öz kəlamları ilə belə deyib: *"Mən dünyada müəllim adından yüksək, şərəfli bir ad tanımıram"*.

Ümummilli lider öz müəllimlərini daim böyük hörmət və ehtiramla yad edib. Gəlin nəzər salaq o çətin dövrə. Ümummilli liderin ilk təhsil aldığı dövrə ki, onun ilk müəllimləri Xürşud və Qafar Zamanovlar olub [2]. Xürşud xanım Naxçıvan şəhəri 2 saylı orta məktəbdə, Qafar müəllim isə Naxçıvan Pedaqoji Müəllimlər İnstitutunda (1938-1939-cu il buraxılışı). Məhz Qafar Müəllimin təkidi və tərtib etdiyi xasiyyətnamə əsasında ümummilli lider sonradan təhlükəsizlik orqanlarında çalışmağa başlayıb.

Bu iki insan müəllimlik ənənələrini özündə daşıyıb qoruyan böyük bir ailədə həyata göz açıblar. Belə ki, onların atası Mesenat və müəllim Mirzə Məhəmməd Zamanbəyli Azərbaycan Respublikası Tarix Arxivinin kameral siyahıya əsasən 1 avqust 1860 ildə Naxçıvanın Şahbuz rayonunda (Şahbuzkənddə) anadan olub. Ümummilli liderin ailəsi İrəvan Mahalının Comərdli kəndindən Şahbuza köçəndə ilk olaraq Mirzə Məhəmməd Zamanbəylinin evində qonaq olublar. Mirzə Məhəmməd Zamanbəyli – Naxçıvan hakimi Kərim Xan Kəngərlinin nəticəsidir. 18 əsrin sonlarında Zaqafqaziyada yeganə peşəkar təhsil işçiləri yetişdirən Qori Müəllimlər Seminariyasının ilk məzunlarındandır [1]. 1876-cı ildən fəaliyyətə başlayan seminariyanın seminaristi və ilk məzunlarından biri olan M.M.Zamanbəyli fəaliyyətinin bütün dövrlərini Azərbaycan xalqının maariflənməsinə həsr edib. Onun nüfuzu və göstərdiyi fədakarlığın sahəsində Qori Müəllimlər Seminariyasında Azərbaycan dilində tədris bölməsi fəaliyyətə başlayır. Seminariyanı bitirdikdən sonra o bir müddət İrəvan Müəllimlər Seminariyasında müəllim kimi çalışır (Памятная Книга Эриванской губернии 1914), sonra Naxçıvana qayıdır və doğma Şahbuz rayonunda (Şahbuzkənd) öz vəsaiti hesabına orta məktəb tikdirir. Həmin illərdə Naxçıvan şəhərində Axund Qazi-zadə ilə birlikdə "Xeyriyyə" cəmiyyəti təsis edir. Yüzlərlə kəndli və fəhlə övladlarının təhsil almasına yardımçı olan, aztəminatlı ailələrə maliyyə yardımı edən Mirzə Məhəmməd Zamanbəyli öz dövrünün görkəmli simalarından olub.

Mirzə Məhəmməd Zamanbəyli Azərbaycan Xalq Cümhuriyyətini yaradılması üçün mübarizə aparan ziyalılardan biri olmuşdur [2]. Cümhuriyyətin Gəncədə fəaliyyəti dövründə Mirzə Məhəmməd Zamanbəyli Nəsib bəy Yusifbəylinin rəhbərlik etdiyi maliyyə və xalq maarif şurasının üzvü kimi fəaliyyətə göstərib. 1920-ci ildə Paris sülh konfransının, 1906-cı ildə isə keçirilən ilk müəllimlər qurultayının iştirakçısı olub. Cümhuriyyətin qurulmasına şəxsi vəsaiti hesabına yardımlar edib. Onun siyasi baxışları bir çox fraksiya üzvlərindən fərqli olaraq Zəngəzurun mahalının Ermənistan vilayətinin

tərkibinə verilməsinin qatı əleyhdarı olub. Mirzə Məhəmməd Zamanbəylinin elmi biliyi və pedaqoji təcrübəsini nəzərə alaraq ona təklif olunan bir sıra vəzifələrdən imtina etmiş, yalnız təhsil sahəsində fəaliyyət göstərmişdir. Xalq Cümhuriyyətinin Gəncə və Bakıda fəaliyyəti zamanı təhsil sistemində, eləcə də ali təhsil sisteminin yaradılmasında Mirzə Məhəmməd Zamanbəylinin pedaqoji təcrübəsindən istifadə olunmuşdur. O həmçinin 1919-cu ildə fəaliyyətə başlayan Bakı Dövlət Universitetinin təsis edilməsinin iştirakçılarından biridir. Mirzə Məhəmməd Zamanbəyli kimi ziyalıların işıqlı təfəkkürü və təşəbbüsü sayəsində Naxçıvanda (Qafqazda ilk dəfə) 19-cu əsrin sonlarında "Müsəlman dram və sənət cəmiyyəti" yaradıldı. Cəmiyyətin məramı ilk növbədə kitabxana açmaq, sonra tamaşa yaratmaq idi. Maarifçi ziyalılardan Eynəli bəy Sultanov, Qurbanəli Şərifzadə, Məmmədtağı Sidqi, Mirzə Əliməmməd Xəlilov, Nəsrulla Şeyxov, Cümşüd Paşa ağa Sultanov, Mirzə Ələkbər Süleymanov, Baxşəli ağa Şahtaxtı bir yerdə cəm olaraq bu işə başlayırlar. O zaman xüsusi teatr binası olmadığından bu millət fədailəri hazırladıqları tamaşaları Mirzə Məhəmməd Zamanbəylinin təsis etdiyi "Xeyriyyə" Cəmiyyətinin binasında və tərəqqipərvər insanların evində gizli olaraq göstərirdilər. Bu səbəbdən bir çoxları bu insanları o dövrdə hətta frankmasonluqda ittiham edirdilər. Mirzə Məhəmməd Zamanbəylinin portreti Azərbaycan İncəsənətinin portret janrının banisi Bəhruz Kəngərli tərəfindən 1907-ci ildə qələmə alınıb və 1968-ci ildə ailəmiz tərəfindən Rüstəmov adına İncəsənət Tarixi Muzeyinə hədiyyə edilib və hal-hazırda orada saxlanılır. Söz yox ki, ümummilli lider Heydər Əliyev müəllimləri əsl fədakar insanlar adlandırır və deyirdi: *"Həyatını müəllimliyə həsr edən insanlar fədakar, xalqına, millətinə və eyni zamanda qəhrəmanlıq göstərən insanlardır"*. Zamanbəyovlar ailəsi hər zaman ümummilli lider Heydər Əliyevin diqqət və qayğısını hiss edib. Bununla bağlı həmin ailənin nümayəndələrindən olan Anar Zamanbəyov öz xatirələrində qeyd edir: "Özümü xoşbəxt insan hiss edirəm ki 7 oktyabr 2001 il tarixdə mənə ümummilli lider Heydər Əliyev ilə görüşmək nəsib oldu və görüş zamanı o öz ilk müəllimlərini nə qədər böyük hörmət və ehtiram ilə yad etdiyinin şahidi oldum".

Məqalədə ulu öndər Heydər Əliyevin ilk müəllimlərindən olan Xürşud və Qafar Zamanbəyovlar, onların dahi siyasətçinin təhsili və gələcək uğurlarındakı yeri və rolundan qısaca bəhs edildi. Aparılan tədqiqatlara, əldə olunan arxiv materialları və sənədlərə, xatirələr istinadən deyə bilərik ki, ümummilli lider Heydər Əliyev müəllimlik sənətini və öz müəllimlərin dərin məhəbbətlə sevmiş, bu sahədə çalışan insanlara xüsusi diqqət və qayğı ilə yanaşmışdır.

## ƏDƏBİYYAT

1. bizimyol.info/az/news/186640.html
2. ednews.net/az/news/society/521437-cumhuriyyetin-xeyriyyeci-tehsil-xadimi
3. hafta.az/bu-unutqanli-bizi-hara-aparir-11926-xeber.html
4. wikiwand.com/az/Paris_Sulh_Konfransi
5. medeniyyet.nakhchivan.az/metbuat-xidmeti/xbrlr/2082-2022-07-13-13-49-15.html

***Azərsu Səhmdar Cəmiyyəti,***
***E-mail: anarzamanbayli@gmail.com***

**Anar Zamanbeyli**

## GREAT TEACHER

The article discusses the life path and educational activities of Khurshud and Gafar Zamanov, who were the first teachers of the national leader of the Azerbaijani people, Heydar Aliyev, and their

father, Mirza Muhammad Zamanbeyli. The author notes that the mentioned teachers were among the first intellectuals who educated the great leader Heydar Aliyev. The article discusses the place and role of the teachers named in the life of the great leader Heydar Aliyev and his family. It is shown that Heydar Aliyev started working in the security agencies at that time precisely at the insistence of Mr.Gafar and with the letter of character drawn up by him.

**Keywords:** *national leader Heydar Aliyev, Gafar and Khurshud teachers, education, intellectual.*

**Анар Заманбейли**

## ВЕЛИКИЙ УЧИТЕЛЬ

В статье рассказывается о жизненном пути и просветительской деятельности Хуршуда и Гафара Замановых, которые были первыми учителями общенационального лидера азербайджанского народа Гейдара Алиева, и их отца Мирзы Мухаммада Заманбейли. Автор отмечает, что упомянутые учителя были одними из первых интеллектуалов, воспитавших великого лидера Гейдара Алиева. В статье говорится о месте и роли названных учителей в жизни великого лидера Гейдара Алиева и его семьи. Показано, что именно в это время Гейдар Алиев начал работать в органах безопасности и именно по настоянию г-на Гафара и с составленной им грамотой.

**Ключевые слова:** *общенациональный лидер Гейдар Алиев, учителя Гафар и Хуршуд, образование, интеллектуал.*

SƏBUHİ İBRAHİMOV

# HEYDƏR ƏLİYEV VƏ İSLAMİ DƏYƏRLƏR

*Məqalədə, Heydər Əliyevin İslami dəyərlərə verdiyi önəm, müqəddəs Qurani-Kərimin qanun-qaydaları, İlahi qaydaların zəruriliyi, ayin və mərasimlərə, islami dəyərlərin irəli sürdüyü müasir elmi-fəlsəfi düşüncələrə və əxlaqi dəyərlərə yüksək qiymət verməsi istiqamətində araşdırmalar aparılmışdır. Həmçinin ümummilli lider Azərbaycan xalqının digər dinlərə olan müsbət münasibətini ön sıraya çəkərək bunun ümumbəşər kontekstində bir həqiqət olmasını qeyd etmişdir.*

*İslami dəyərlər hakim və məhkumlara bölünmüş cəmiyyəti, zəngin olanların mövqeyini, məzlumların müti vəziyyətini araşdırmağa cəhd etməklə bərabər, hər hansı bir ədalətsizliyə qarşı öz mövqeyini bəyan etmişdir. İslami dəyərlərin və onun əxlaq qaydalarının ictimai həyatda son dərəcə zəruri olduğunu görən ulu öndər Heydər Əliyev onun mənimsənilməsi üçün müəyyən etmək prinsipini əsas vəzifə kimi qarşıya qoyur.*

**Açar sözlər:** *Heydər Əliyev, islami dəyərlər, əxlaq, zəruri, fəlsəfə.*

Ulu öndər Heydər Əliyev deyirdi: *"Qafqazda İslamın yayılması və inkişaf etməsi Azərbaycandan başlayır. İslam Qafqaz xalqlarına səadət, xoşbəxtlik gətiribdir, inkişaf, İslami dəyərlər gətiribdir. Bu dəyərlər – müqəddəs kitabımız Qurani-Kərimdən gələn İslami dəyərlər Qafqaz xalqlarının milli-mənəvi dəyərlərinin əsasını təşkil edir"* [10, s. 106].

Həmçinin Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyev müqəddəs dinimizin fəlsəfi mahiyyətini qeyd edərək deyirdi: *"Ulu Peyğəmbərimiz Məhəmməd əleyhissalamın yaydığı İslam dini və onun bütün müsəlman aləminə qoyduğu yadigar – Qurani-Kərim əsrlər boyudur ki, müsəlman dininə məxsus olan insanların həyatında çox böyük rol oynayır. Onların həyatı, yaşayışı, bu günü və gələcəyi, bu dünyada, o dünyada xoşbəxt olması üçün zəmin yaratdı"* [2, s. 3].

Ulu öndər Heydər Əliyev bütün həyatını Azərbaycan xalqının siyasi və mənəvi cəhətdən azadlığına, dövlətçilik prinsiplərinə, milli-mənəvi dəyərləri qorumaq və həyata keçirmək kimi nəcib bir məqsədə sərf etmişdir. Onun dəyərli kəlamları mahiyyət etibarilə İslami dəyərlərin müqəddəs hökmlərinə və onlardan irəli gələn əxlaqi vəzifələrə kömək etmişdir. Belə ki, ulu öndər Heydər Əliyevin islami dəyərlərə verdiyi yüksək fəlsəfi qiymət, İslam dininin, onun əxlaq davranışları ilə ibrətamiz qaydaları mühüm yer tutur. *"Mən imanımı heç vaxt itirməmişəm, mənsub olduğum millətin İslam dini ilə həmişə fəxr etmişəm"* [10, s. 113] deyən ulu öndər bir daha öz fikrini açıq şəkildə izhar etmişdir.

İslami dəyərlər Azərbaycan xalqını uzun illər ərzində əxlaqi kamillik pilləsində saxlamış, onun mütərəqqi inkişafına kömək edən mədəniyyət formalaşdırmışdır. Eyni zamanda Azərbaycanın İslam mədəniyyəti ilə sıx bağlılığını göstərmişdir. Ulu öndər Heydər Əliyev deyirdi: *"Azərbaycanın İslam mədəniyyəti, dini ilə bağlı olan dahi insanları – Nizami, Füzuli, Nəsimi, Tusi, Qətran Təbrizi və bir çox digər böyük şəxsiyyətləri dünya sivilizasiyasına böyük töhfələr vermiş və İslam mədəniyyətini zənginləşdirmişlər. Biz bunlarla fəxr edirik"* [10, s. 108].

Ulu öndər Heydər Əliyevin islami dəyərlərin əxlaq qaydalarını dəyərləndirməklə bilavasitə əvvəl onun fəlsəfi mahiyyətini bilməyin olduqca zəruriliyini bəyan etmişdir.

Ümummilli lider Heydər Əliyev İslami dəyərlərə, müqəddəs Qurani-Kərimin ayrı-ayrı hökmlərinə, şəriət qaydalarına, müxtəlif İlahi göstərişlərə, müqəddəslərə, ayin və mərasimlərə, peyğəmbərlərə və onların varislərinin elmi-fəlsəfi fikirlərinə böyük əhəmiyyət vermişdir. *"Dini etiqad Allahın varlığı ilə əlaqədardır. Ona görə Allahın insanlar tərəfindən qəbul edilməsi ilə müxtəlif dini inanclar, o cümlədən tövhid məsələsi də qəbul edilir. Bununla belə Allahın varlığına inanmaq hər bir şeyin mövcudluğuna inanmaq deməkdir"* [6, s. 2]. Həmçinino deyirdi: *"İslam dini başqa dinlərə qarşı heç*

*vaxt düşmən olmamışdır. Çünki bu dinlərin hamısı Allahdan gəlir”* [6, s. 2].

İslami dəyərlər insanları maarifləndirərək, həyatı dərk etməyi anladır və yalnız Yaradan qarşısında azad insan əməyini təbliğ etmək prinsipini göstərir. *“Hər bir şəxs hürrdür, azaddır, öz amallarını, öz fikirlərini həyata keçirə bilər”* [10, s. 39]. Heydər Əliyev deyirdi: *“Bizim ənənələrimiz, mənəvi, dini dəyərlərimiz ölməzdir və bundan sonra da yaşayacaqdır. Biz, bizim nəsil, hamımız birlikdə-indi yaşayan insanlar xoşbəxtdirlər ki, bu günə gəlib çatmışıq, bizim müstəqil ölkəmiz, müstəqil dövlətimiz var, öz taleyimizin sahibiyik, dini, mənəvi, milli adət-ənənələrimizi bərpa etmişik və daha da geniş təbliğ edirik” (10, s. 5).* Bu da insanların hər bir tərəqqi və onun inkişafından bəhrələnməsinə səbəb olur, nəticədə kamillik və ariflik bilgisinə nail olunur. İslami dəyərlərdə olan ayrı-ayrı dini ayin və mərasimlərin icrasını, Məkkə, Mədinə, Hacc, Kərbəla və Məşhəd ziyarətlərini, müqəddəslərə inamın xeyirli və insan mənəviyyatı üçün arzu olunmaz dərəcədə çox dəyərli və gərəkli olduğunu, həmçinin insanların həyatı üçün xoşbəxtlik və sevinc gətirməsini bütün varlığı ilə qeyd edən ulu öndər deyirdi: *“İslamın müqəddəs abidələrini, Həzrəti Məhəmməd (s) Peyğəmbərin məscidini ziyarət etdiyim üçün bir müsəlman kimi özümü xoşbəxt hesab edirəm”* [8, s. 1].

İslami dəyərlərdə bir mənalı olaraq qeyd edilir ki, əxlaq və din ayrılmazdır, əxlaq ayrıca olaraq dindən kənarda mövcud ola bilməz. Dünyada dinsiz məxluq yoxdur. Hər bir insanın dini-inancı var ki, istər təkallahlılıq, istərsə də qeyri fövqəl-təbii qüvvələrə inam. Mahiyyət etibarilə hər hansı dinlə dərindən maraqlanmaqla dini elmləri hərtərəfli öyrənmək vasitəsilə “kamil insan” dərəcəsinə çata bilmək dərəcəsinə və öz xoş əxlaqi dəyərlərini qoruyub saxlamağına nail olursan. “Dindən ayrı düşmək” isə insanın kamilləşməsinə, insani ünsiyyətin yaranmasına mane olur və onu başqa əhval-ruhiyəyə salaraq mənəviyyatını korlayır. Hikməti – İlahidə bilmək insanı kamil edər. İnsanların ”gözəl əxlaqa” sahib olması ancaq mədəniyyət və dini etiqad vasitəsilə mümkündür.

İslami dəyərlərdə gözəl əxlaq əsas götürülür, dini etiqad və adətlər adamları pis işlərdən çəkindirir. Deməli, islami dəyərlərin yerinə yetirilməsi, adət-ənənələri yerinə yetirmək, milli-mənəvi dəyərlərin qorunub saxlanılması günün tələbinə uyğun ibadət və itaətlə, halal əməklə keçirən bəşər övladı gözəl əxlaqi davranış qaydaları etməkdən qürur duymaqla bu nemətlərdən səmərəli istifadə etmiş olur. *“İslam dininin bəşəriyyətə bəxş etdiyi bütün nemətlərdən hər bir azərbaycanlı səmərəli istifadə etməli və xüsusən, cəmiyyətdə davranışda islam dininin tələblərinə uyğun olaraq özünü göstərməlidir”* deyən ümummilli lider Heydər Əliyev bir daha xalqımızın yüksək əxlaq sahibi olmaq imkanlarını vurğulamışdır.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev deyirdi: *“Biz Azərbaycanda öz milli-mənəvi dəyərlərimizə söykənərək, eyni zamanda xalqımızın elminin, mədəniyyətinin inkişafına, milli-mənəvi dəyərlərin ümumbəşəri dəyərlərlə zənginləşməsinə və vəhdətinə xüsusi əhəmiyyət veririk”* [5, s. 2].

Həmçinin ümummilli lider Heydər Əliyev Azərbaycan xalqının digər dinlərə olan münasibətini belə bir həqiqət anlamında qeyd edirdi: *“Azərbaycanda qədim dövrlərdən müxtəlif xalqların nümayəndələri yaşamış, bir çox xalqların dinləri mövcud olmuşdur. Azərbaycan və onun xalqı həmişə dini dözümlülüyü ilə fərqlənmişdir”* [4, s. 1].

Belə ki, insanlar İslami dəyərlərin ayin və mərasimlərini öz qaydası ilə yerinə yetirir, digər tərəfdən “dostluq və qardaşlıq” prinsipləri, humanizm, tolerantlıq ənənələrini, bərabərlik və yoldaşlıq münasibətlərin nümayiş etdirirlər.

İslami dəyərlərdə dini etiqad nəinki insanları xoş əxlaqlı hərəkət etməyə sövq edir, həmçinin pis işlərdən çəkindirir, daha da onların mənəviyyatını işıqlandırır. İslami dəyərlər həqiqətən də deyildiyi kimi insanlar arasındakı münasibətləri yaxşılaşdırır, ailənin səmimi və mehriban olmasına səbəb olur. İslami dəyərlərdə din insanların mənəviyyatını saflaşdıran, onları yüksək əxlaq ruhunda tərbiyə edən bir vasitə olmuşdur. Əksər gənclərimizin təlim-tərbiyə obyekti olan təhsil ocaqlarında milli-

mənəvi dəyərlərin mənimsənilməsi, cəmiyyətin sağlam və saf insanların inkişafına gətirib çıxarır. Ulu öndər Heydər Əliyev deyirdi: *"Təhsil ocaqlarında gənclərimizi xalqımızın mənəvi dəyərləri əsasında tərbiyələndirmək, mənəvi cəhətdən sağlam və saf insanlar tərbiyə etmək məsələsi mühüm yer tutmalıdır".* Belə ki, insanlar dini elmlərlə yanaşı, müasir dünya elmlərinin sirrini öyrənmək vasitəsilə həyat hadisələrini, özlərinin hərəkət və rəftarlarının düzgünlüyünü dərk edir, elm, təhsil, maarif yolu ilə kamilləşərək mənəviyyatca yüksək əxlaq sahibi olmalarını nümayiş etdirirlər.

İslami dəyərlərin məntiqi mahiyyəti bundan ibarətdir ki, ilk növbədə mənəvi paklığa sahib olmaq, eyni zamanda insanlar öz hərəkət və davranışlarında sərbəst və azad olsunlar. *"Allahın iradəsi xaricində heç bir hadisə baş verə bilməz"* [1, s. 134], bütün hadisələr, o cümlədən adamların adi hərəkətləri də qabaqcadan İlahi qüvvə tərəfindən müəyyən edilir. Hətta yarpaqların ağacın gövdəsindən düşməsi. El arasında *"əzəldən nə yazılıbsa o olacaqdır"*, *"qismət" və "tale"* kimi süzülüb gəlmiş ifadələr, bəşəriyyətin bütün inanc varlığına bir təsəllidir.

Allahın vahid varlığına inam anlayışı insanların hərəkətlərində sərbəst fikir azadlığını qəbul etməyə gətirib çıxarır. Allahın vahid varlığına inam insanların istək və arzularının məsuliyyətli və olduqca əhəmiyyətli olduğunu irəli sürərək onlarda öz gücünə inamı yaradır, çətin vəziyyətdən çıxmaq üçün çıxış yolu axtarmaq, mübarizə etmək əzmini gücləndirir.

İslami dəyərlərin təsiri nəticəsində insanlar *"qorxmaz", "mübariz"* və olduqca fədakar olurlar. Bu baxımdan insanların hər bir hərəkət və davranışlarında inamın nə qədər böyük rol oynadığının şahidi olursan. Mənəvi kamilliyə yetişən bəşər övladı, demək olar ki, sərbəst olmaq imkanlarını görür və getdikcə daha geniş mənada başa düşürlər ki, Allah insanları nə qədər dəyərli və gözəl xilqətdə xəlq etmiş, onlarda dostluğa, həmrəyliyə, birliyə çağıran düşüncə qabiliyyəti qoymuşdur. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev deyirdi: *"İnsanların mənəvi sərvətlərinin hamısından dinin fərqi ondadır ki, o, dini mənsubiyyətindən asılı olmayaraq həmişə insanları dostluğa, həmrəyliyə, birliyə dəvət etmişdir"* [7, s. 1].

İslami dəyərlər insanların azad və firavan yaşaması üçün vacibi hökmlərin yerinə yetirilməsini əsas xüsusiyyətlərdən biri kimi hesab edir. İslami dəyərlərin əsasını təşkil edən vacib hökmlər cəmiyyət üzvlərinin oxumasına, bilik və bacarıq əldə etməsinə, savad qazanmasına, şəxsiyyətin intellektual inkişafına böyük əhəmiyyət verir. Onun hökmlərinə görə, insanlar ancaq bu yol ilə öz hərəkət və əməllərində sərbəst olar, müstəqil fəaliyyət göstərə bilərlər. İslami dəyərlər belə bir nəzəriyyəni də əsaslandırır ki, insanların iradə azadlığı dinlə bağlıdır, Allahın iradə azadlı çərçivəsində insanların hamısı elmə və biliyə nail ola bilərlər. XV əsrin görkəmli ilahiyyatçı alimi və filosofu Baba Nemətullah Naxçıvani deyirdi: "Söyləyənə deyil, söylədənə bax" [9, s. 130]. Həqiqətən islami dəyərlərin təbirincə desək, insanların əqli inkişafı, savad dərəcəsi nə qədər yüksək olarsa, onlar öz hərəkətlərində bir o qədər azad və firavan olarlar.

Zəngin və qədim keçmişə malik olan İslami dəyərlərin əhəmiyyəti bəşəriyyətin aktual problemlərinin həllini bəyan edərək göstərir ki, insanların iradəsi, Allahın iradə azadlığı daxilində mümkündür. İnsanlar öz hərəkət və davranışlarında Allahı düşünməklə, əqlə müraciət etməli, bu zaman isə etdikləri davranış və hərəkətlər onları gözəlləşdirər, mənəvi cəhətdən yüksəldə bilər. *"Biz Azərbaycanlılar – bu, sonralar gələcək bütün nəsillərə də tövsiyə olunur heç vaxt inamımızdan, dinimizdən uzaqlaşmayacaq və bu mənəvi mənbələrimizdən istifadə edərək gələcəyimizi quracağıq"* [3, s. 81] deyən ümummilli lider Heydər Əliyev bir daha öz yüksək fəlsəfi dəyər bilgisini bəyan etmişdir.

Araşdırmaların məntiqi nəticəsi olaraq, bütün dünyada olduğu kimi, müasir Azərbaycanda da inanc mənbəyi olan dini etiqad və yanaşdığımız Heydər Əliyev və İslami dəyərlər mövzusu onu deməyə əsas verir ki, insanları dünya həyatı ilə yanaşı, axirət həyatını da xoş əxlaq normalarına əməl etməklə qazanılması mümkündür.

Sonda isə belə bir nəticəyə gəlmək olar ki, real gerçəklik baxımından ümummilli lider Heydər Əliyev və onun İslami dəyərlərə verdiyi yüksək önəm, fəlsəfi dəyərləri nəzərə almaqla mövcud olan hər hansı bir varlığa, o cümlədən insan əxlaqının nizamlanmasına səy göstərilməsi gələcək nəslin saf və sağlam yetişməsi üçün əhəmiyyətlidir.

## ƏDƏBİYYAT


1. Qurani-Kərim / Tərcümə edənlər: Z.Bünyadov, V.Məmmədəliyev. Bakı, 1992, 714 s.
2. Əliyev H. Allahın yolunda hamımız bir olaq. Bakı: Azərnəşr, 1993, 31 s.
3. Əliyev H. Müstəqillik yolu. Bakı: 1997, 250 s.
4. Dövlət və Din (ictimai fikir toplusu jurnalı), Bakı, 2010, sentyabr-oktyabr, № 5 (19), 255 s.
5. Dövlət və Din (ictimai fikir toplusu jurnalı), Bakı, 2010, may-iyun, № 3 (17), 255 s.
6. Dövlət və Din (ictimai fikir toplusu jurnalı), Bakı, 2011, yanvar-fevral, № 1 (21), 255 s.
7. Dövlət və Din (ictimai fikir toplusu jurnalı), Bakı, 2009, aprel, № 2 (10), 255 s.
8. Dövlət və Din (ictimai fikir toplusu jurnalı), Bakı, 2008.
9. İbrahimov S.M. Naxçıvan mühitinin yaratdığı kitab və kitabxana mədəniyyəti: Dərs vəsaiti. Naxçıvan: Əcəmi, 2019, 254 s.
10. Ümummilli lider Heydər Əliyevin milli-mənəvi dəyərlərimizlə bağlı fikirləri. Bakı: Şərq-Qərb, 2018, 118 s.



***AMEA Naxçıvan Bölməsi***
***E-mail: s.ibrahimov71@mail.ru***

**Sabuhi Ibrahimov**


## HEYDAR ALIYEV AND ISLAMIC VALUES


In the article, Heydar Aliyev's importance to Islamic values, the laws and rules of the Holy Quran, the necessity of divine rules, rites and ceremonies, modern scientific and philosophical thoughts and moral values put forward by religion are explained. Also, the national leader highlighted the positive attitude of the Azerbaijani people towards other religions and noted that this is a fact in the universal context.

Islam has declared its position against any injustice by trying to examine the society divided into judges and convicts, the position of the rich, and the meek condition of the oppressed. Seeing that Islamic values and moral rules are extremely necessary in public life, the great leader Heydar Aliyev puts forward the principle of defining them as the main task for their assimilation.



**Keywords:** *Heydar Aliyev, Islamic values, morality, necessity, philosophy.*



**Сабухи Ибрагимов**


## ГЕЙДАР АЛИЕВ И ИСЛАМСКИЕ ЦЕННОСТИ


В статье разъясняется значение Гейдара Алиева для исламских ценностей, законов и правил Священного Корана, необходимость божественных правил, обрядов и церемоний,

современной научной и философской мысли и нравственных ценностей, выдвигаемых религией. Также общенациональный лидер подчеркнул положительное отношение азербайджанского народа к другим религиям и отметил, что это факт в общечеловеческом контексте.

Ислам заявил о своей позиции против любой несправедливости, пытаясь исследовать общество, разделенное на судей и осужденных, положение богатых и подчиненное положение угнетенных. Видя, что исламские ценности и нравственные правила крайне необходимы в общественной жизни, великий лидер Гейдар Алиев выдвигает принцип их определения в качестве основной задачи по их усвоению.

**Ключевые слова:** *Гейдар Алиев, исламские ценности, нравственность, необходимость, философия.*

ZÜLFİYYƏ İSMAYIL

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN DİLİ MƏSƏLƏLƏRİ

*Ümummilli liderimiz Heydər Əliyevin fəaliyyətində ana dili məsələsi həmişə əsas, birinci yeri tutmuşdur. Məqalədə Heydər Əliyevin hakimiyyətinin birinci və ikinci dönəmində Azərbaycan dilinin dövlət dili kimi işlədilməsi, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi istiqamətində gördüyü işlərdən geniş şəkildə bəhs olunur. Dahi öndərimizin dövlət dilimizlə bağlı müxtəlif illərdə imzaladığı fərmanlar, qəbul edilmiş qanunlar, silsilə təşkil edən dövlət sənədlərinin mahiyyəti izaha cəlb edilmişdir. Məqalədən o qənaət hasil olur ki, Azərbaycan dili – ana dilimiz özünün çiçəklənmə dövrünə Heydər Əliyevin milli dil siyasəti və bu dilə qayğısı ilə başlayıb. Ulu öndərimizin milli dil siyasəti onun dərin zəkasının, xalqına sevgisinin, milli qürurunun, uzaqgörən düşüncələrinin nəticəsidir.*

**Açar sözlər:** *ümummilli lider, Heydər Əliyev, Azərbaycan dili.*

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin genişmiqyaslı siyasi-ideoloji fəaliyyətində dil siyasəti çox mühüm yer tutur. Ümummilli lider Heydər Əliyevin dil quruculuğu siyasəti onun milli dövlət quruculuğu siyasətinin tərkib hissəsi olaraq bütöv bir sistem təşkil edib. Azərbaycan Respublikasında dil siyasətinin möhkəm əsaslar üzərində formalaşdırılması, Azərbaycan dilinin dövlət dili olaraq tətbiqi işinin təkmilləşdirilməsi və dünya azərbaycanlılarının ünsiyyət vasitəsinə çevrilərək beynəlxalq aləmdə nüfuzunun artması bilavasitə ulu öndərin adı ilə bağlıdır.

Azərbaycan dilinin həm ümumxalq dili, həm də dövlət dili kimi inkişafında ulu öndər Heydər Əliyevin misilsiz xidmətləri olub. Ulu öndər Azərbaycan dilinə yalnız adi ünsiyyət vasitəsi kimi deyil, qədim tarixi, zəngin mədəniyyəti, müasir dünyada müəyyən ictimai-mədəni mövqeyi olan bir xalqın milli sərvəti kimi yanaşırdı. Hələ 1970-ci illərdən başlayaraq ulu öndər ana dilimizin qayğısına qalıb, Azərbaycan dilinin inkişafı üçün öz səyini əsirgəməyib. Ana dilinə böyük məhəbbət, onun incəliklərini dərindən bilmək, sadə, səmimi cümlələrlə insanlarda möhkəm nikbin əhval-ruhiyyə yaratmaq Heydər Əliyevin nitq və çıxışlarının əsas xüsusiyyətlərindən idi.

Ana dili bir millətin ən böyük milli dəyəri, onun mənəvi varlığı, sehri, sirri, mövcudluğudur. Deməli, dil möcüzədir, möcüzə yaradandır. Məşhur Azərbaycan ədibi, böyük pedaqoq, görkəmli ziyalı Firudin bəy Köçərli ana dili haqqında deyirdi: "Hər millətin özünəməxsus ana dili var ki, onun məxsusi malıdır. Ana dili millətin mənəvi diriliyidir, həyatının mayəsi mənziləsindədir. Ananın südü bədənin mayəsi olduğu kimi, ananın dili də ruhun qidasıdır. Hər kəs öz anasını və vətənini sevdiyi kimi, ana dilini də sevir. Bu, Allah-taalanın gözəl nemətlərindən biridir, onu əziz və möhtərəm tutmaq hər kəsə borcdur". Hətta görkəmli ədibimiz məşhur rus ədibi və pedaqoqu Uşinskidən də misal gətirirdi ki, "bir millətin malını, dövlətini və hətta vətənini əlindən alsan ölüb-itməz, amma dilini alsan fövt olar və ondan bir nişan qalmaz" [5, s. 3]. Bu baxımdan zaman-zaman ana dilimizə qarşı yad təsirlər olunub, məhv edilməyə, unutdurulmağa səy edilib. Bu deyilən problemlər bizim üçün bir də sovet dövründə yaranıb. Belə ki, rus imperiyasının siyasi-mənəvi varisi olan sovet imperiyası ucqarlarda manqurtlaşma siyasəti apararaq öncə ana dilini məhv etmək və milli-mənəvi dəyərləri şikəst etmək məqsədini güdürdü. Bu məqsəddən irəli gələrək Azərbaycanda da bu xain, mənfur siyasətin nəticəsində ana dilimiz unutdurulmağa çalışılmış, adı dəfələrlə yad ünsürlərlə adlandırılaraq dəyişdirilmiş, əlifbası tez-tez dəyişmələrə məruz qalmış və "rus dili ikinci ana dilidir" təlqini ilə milli dilə məhvedici plan həyata keçirilmişdir. Elə bunun nəticəsi idi ki, SSRİ dönəmində Azərbaycanın paytaxtında – Bakı şəhərində milli azlıqlar milli genefondumuzu üstələmiş, rus dili ana dilini passivləşdirərək ön plana keçmiş, hər sahədə fəallıq qazanmış, əsas yeri tutmuşdur. Bu mənada bütün yazışmaların, reklam yazıları və sosial

ünsiyyətin əsas dili rus dili olduğuna görə Bakı milli regiondan daha çox "Yəcuc-Məcuc" (Cəlil Məmmədquluzadə) şəhərinə oxşadılmışdı. O dönəmdə ziyalılarımız, xüsusilə də şair və yazıçılarımız Azərbaycan dilinin saflığı uğrunda qətiyyətlə mübarizə aparırdılar. Lüğət tərkibinin məna çalarlarının zənginliyinə görə, dünyanın ən mədəni xalqlarının dil səviyyəsinə yüksəlmiş ana dilimizin mühafizəsi ilə əlaqədar milli ruhlu ziyalılar əllərindən gələni əsirgəmədilər. Səməd Vurğun, Mirzə İbrahimov, Bəxtiyar Vahabzadə, Əli Tudə, Anar, Xəlil Rza Ulutürk, Məmməd Araz və b. dillə bağlı möhtəşəm əsərlər yaratdılar. Xalq yazıçısı Mirzə İbrahimov dil uğrunda mübarizədə dövrün ziddiyyətləri, təzyiqləri ilə üzləşərək vəzifəsindən azad edildi, sərt münasibətlərlə üzləşdi, amma əqidəsindən dönmədi. Zaman böyük yazıçının arzularını təsdiqlədi. Ümummilli lider Heydər Əliyev hələ sovet dövründə quruluşun müəyyən təzyiqlərinə, diktələrinə baxmayaraq, Azərbaycan dilinin ölkəmizdə dövlət dilinə çevrilməsində böyük xidmətlər göstərdi. Dilin inkişafı ilə bağlı ulu öndərin müntəzəm olaraq verdiyi fərman və sərəncamlarda, eləcə də tövsiyələrdə, çıxış və məruzələrdə vaxtaşırı bu məsələdə ortaya çıxan ciddi problemlərin həlli vacib sayılırdı. O ziddiyyətli dövrdə yenə də Azərbaycanın yazıçı və şairləri dilimizin keşikçisi olmaq missiyasını ləyaqətlə yerinə yetirdilər. Onlar ana dilində yazıb-yaratdılar. Bunun da nəticəsində dilin şirinliyi, təbiiliyi qorunub saxlandı. Əlbəttə, bizim milli varlığımızın əks-sədası ana dilimizdir. Onun başının üstünü almış təhlükəni də millətdən uzaqlaşdıran, dilin statusunu özünə qaytaran, ona yeni həyat verən məhz ümummilli lider Heydər Əliyev oldu. Ədəbiyyat və mədəniyyət xadimlərinin uzun illər sətiraltı mənalarda, bədii əsərlərdə, nitq və çıxışlarında ifadə etdikləri arzuları yenə də ulu öndər reallaşdırdı.

Hər bir milli dəyər, ələlxüsus da, ana dili nə qədər xalqın keçmişini, qədimliyini özündə əxz etdirsə də, dövlət və rəhbərlik qayğısı olmadan ikinci planda durur və məişət dili səddini keçə bilmir, ali məqamlarda təmsil olunma iqtidarından məhrum olur. Milli dəyərlərimizə fəaliyyəti boyu himayədarlıq edən böyük rəhbərimiz hakimiyyətə gəldiyi elə ilk gündən ana dilimizə layiq olduğu statusu verdi və bunu bütün fəaliyyəti boyu ən yüksək səviyyədə davam etdirdi. Bəhs etdiyimiz məsələ ilə bağlı bütün dövlət sənədləri, elə bil ki, biri digərinin davamı oldu. Doğru deyilib: "Hər bir dili yaşadan və inkişaf etdirən onun mənsub olduğu xalqdır. Dilin hərtərəfli inkişafı, zənginləşməsi, yüksək zirvələrə qalxaraq beynəlxalq nüfuz qazanması xalqın böyük övladlarının adı ilə bağlıdır" [4, s. 5].

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1969-cu ilin iyul ayında hakimiyyətə gələndən sonra bu məsələlərə çox diqqətlə yanaşılmış, onların milli mənafedən həlli məsələləri ön planda dayanmışdır. Heydər Əliyev ağıl və cəsarətlə ilk növbədə Azərbaycan dilinin dövlət dili olmasını qanuniləşdirdi.

Müstəqillik illərində bu siyasət açıq, kompleks şəkildə, ardıcıl yürüdülməyə başladı. Azərbaycan xalqının daha mütəşəkkil millət kimi formalaşdırmağa imkan qazanıldı. Milli olan, millət üçün vacib olan hər şey millətin formalaşması və özünəqayıdışı üçün daha açıq planda sərbəst milli inkişaf məhsuluna çevrildi. Ana dili, din, milli-mənəvi dəyərlər, tarix, ədəbiyyat, mədəniyyət və s. millətə yeni, lüzumlu şəkildə təqdim edilməyə, fərdlərin münasibətlərinin, milli mənlik şüurunun formalaşması, tənzimlənməsi və yaranması istiqamətinə yönləndirildi. Hər şeydən öncə müstəqil Azərbaycan Respublikasında milli dil siyasəti yürüdülməyə başlandı. Çünki ulu öndər ana dilinin milli-tərbiyəvi əhəmiyyətini həmişə üstün tutur və vacib olduğunu bildirirdi. Ümummilli lider deyirdi: "Öz dilini bilməyən, öz dilini sevməyən adam öz tarixini yaxşı bilə bilməz. ...Doğma Azərbaycan dilimizi mənimsəyəcək və bunlar hamısı hər bir gənc Azərbaycan övladında yüksək vətənpərvərlik hissləri yaradacaqdır" [2, s. 422]. Ulu öndərin bilavasitə uzaqgörən fəaliyyəti ilə milli dil siyasətini həyata keçirə biləcək tarixi əhəmiyyətli dövlət qərarları verildi.

Əgər nəzərə alsaq ki, bu gün planetimizdə yaşayan minlərlə millət və etnik qrup sayı heç iki yüzə çatmayan dövlətlərin bayrağı altında cəmləşib və sayı 200-ə yaxın olan bu dövlətlərin rəsmi

dövlət dillərinin sayı 70-i keçmir, onda hər hansı bir millətin öz dilinin öz dövlətində dövlət dili olmasının əhəmiyyətini dərk etmək o qədər də çətin olmaz. Bu mənada, dilin dövlət dili statusu qazanması, həqiqətən, qürur gətirən tarixi hadisədir. Azərbaycan dili bu tarixi hadisəni yaşayıb. Bu gün dilimizin dövlət statuslu dillər arasında olmasına görə dilimizin mənəvi dirilik atributuna çevrilməsi yolunda böyük fədakarlıqlar göstərmiş, "Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm" deyən ümummilli lider Heydər Əliyevə minnətdar olmalıyıq. Ölkəmizdə ana dilinin hərtərəfli inkişafı, işlək dilə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə yol tapması ana dilimizin gözəl bilicisi, mahir natiq ulu öndər Heydər Əliyevin dilin qorunmasına yönələn düşünülmüş siyasətinin nəticəsidir. Bu siyasətin əsası hələ 1970-ci ildə qoyulub. Heydər Əliyev həmin il Bakı Dövlət Universitetinin 50 illik yubiley tədbirində rus dilində deyil, doğma ana dilində çıxış edib. Respublikanın birinci şəxsi bu cəsarətli addımı ilə həm ziyalılarımızın böyük rəğbətini qazanıb, həm də onlara mənəvi dəstək verib.Az keçməmiş bu dil dövlət əhəmiyyətli tədbirlərə yol açır və kürsü dili səviyyəsinə qalxır. Həmin tarixi günü Heydər Əliyev tam 25 ildən sonra, BDU-nun 75 illiyinə həsr edilən iclasda artıq müstəqil Azərbaycan Respublikasının Prezidenti kimi belə xatırlayırdı: "Xatirimdədir, universitetin 50 illik yubileyində çıxış edərkən, şübhəsiz ki, ana dilimdə, Azərbaycan dilində danışdım. Bu böyük sensasiya kimi qarşılandı. Nə cür olur ki, respublikanın rəhbəri, Azərbaycan dilində çıxış edir və bu dildə heç də pis danışmır. Bəziləri məni bu hadisə münasibəti ilə təbrik etdilər. Minnətdarlıqlarını bildirdilər. Dilini sevən, milli ruhla yaşayan insanlar doğrudan da bunu böyük bir hadisə kimi qəbul etdilər" [4, s. 56].

Böyük öndər yenə həmin dövrdə ölkədə keçirilən bütün tədbirlərdə doğma dilində danışmaqdan çəkinmirdi. Uzun illər boyu sıxışdırılan dilimizin sabahına işıq salır, cəsarəti, şəxsi nümunəsi ilə milyonlarla insanın ürəyindən keçənlərin ifadəçisinə çevrilir, haqq sözünü deyir, dilimizin ən ali mərtəbəyə layiq olduğunu bəyan edirdi.

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1973-cü ildə İmadəddin Nəsiminin 600 illik yubileyi beynəlxalq miqyasda qeyd edilib. Həmin illərdən başlayaraq Nəsiminin dilinə aid xeyli sayda tədqiqat işi aparılıb. Məhz o vaxtdan etibarən Nəsimi yaradıcılığı Azərbaycan və dünya mədəniyyəti miqyasında bir daha tanıdılıb. Tarixi şəxsiyyətlərin yubileylərinin keçirilməsi, bir tərəfdən onların xalq qarşısında, millət qarşısında xidmətlərinə verilən qiymətdir. Digər tərəfdən isə, belə yubileylərin keçirilməsi xalqın, millətin zənginliyini nümayiş etdirir. Eyni zamanda bu yubileylər xalqın, millətin daha da yüksəlməsinə kömək edir. Yubileylər vasitəsilə xalqa yenidən bütün böyüklüyü, əzəməti ilə, olduğu kimi qaytarılan İmadəddin Nəsimilər, Molla Pənah Vaqiflər, Həsən bəy Zərdabilər... Onların heykəlləri Azərbaycan dilinin tarixi uğurlarını, sənət zirvələrini milli mühitin daimi, əbədi enerji mənbəyinə çevirir, ümummilli intibahda "gizli" iş görürdü.

70-ci illər Azərbaycan dili və milli dilçilik elmimizlə bağlı itirilənlərin bərpası, səhvlərin, saxtakarlıqların düzəlişi dövrü oldu. Milli-mənəvi mühitin, elmi, ədəbi, mədəni iqlimin dərin zəkalı, ideoloq, analitik qüdrəti ilə, Heydər Əliyevə məxsus müdrik uzaqgörənliklə proqnozlaşdırılması, əsas inkişaf meyillərinin müəyyənləşdirilib səfərbər edilməsi ciddi yüksəlişə təkan verdi. Əslində, 30-cu illərdə Azərbaycanda qadağan edilən, arzu olunmaz "qara sahə" adlandırılan türkologiya 70-ci illərdə əsaslı inkişaf dövrünə qədəm qoydu. Əsrin əvvəllərində olduğu kimi, Bakı yenidən dünya türkologiya elminin mərkəzinə çevrildi. Heydər Əliyev bunu sonralar yüksək qiymətləndirərək deyəcəkdi: "Azərbaycanda türkologiya da çox inkişaf edibdir... Təsadüfi deyildir ki, Sovetlər İttifaqında buraxılan yeganə "Türkologiya" jurnalı Azərbaycanda nəşr edilirdi" [4, s. 76]. 70-ci illərin sonlarında Heydər Əliyevin təşəbbüsü ilə dördcildlik "Müasir Azərbaycan dili" dərsliyinə Dövlət mükafatı verilməsi Azərbaycan dilinə böyük qayğının, əsl rəhbər diqqətinin, övlad məhəbbətinin nəticəsi idi. Bu yolda qazanılan uğurlar həm dövlət səviyyəsində qiymətləndirilir, həm də Azərbaycan dilçilik elminin bütün

potensial imkanları səfərbər edilir, daha sanballı, fundamental tədqiqatlara istiqamətləndirilir, ruhlandırılırdı.

Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi qəbul edilməsi isə həmin dövr üçün əhəmiyyətli hadisə idi. Həmin dövrdə respublika rəhbəri siyasi taleyini riskə qoyaraq əsas qanunumuzda Azərbaycan dilinin dövlət dili olması barədə müddəanın varlığını təmin etmək üçün təşkilati işlər aparmış, elmi və ziyalı qruplarını da bu işə cəlb etmişdir. Sovet imperiyası şəraitində belə bir davranış əsl vətənpərvərlik, vətəndaşlıq nümunəsi idi. Uzaqgörən rəhbərin qətiyyəti və iradəsi sayəsində Azərbaycan dilinin dövlət dili olması barədə müddəa Konstitusiyanın 73-cü maddəsində öz təsdiqini tapmışdı.

Ulu öndərə məxsus fikirdir: "Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir". Bir faktı da xatırlatmaq yerinə düşər ki, Azərbaycana rəhbərlik etdiyi birinci dövrdə Heydər Əliyevin təşəbbüsü ilə dövlət mükafatı verilən ilk kitablardan biri məhz 1974-cü ildə çap edilmiş "Müasir Azərbaycan dili" dərsliyidir. Bu, adi fakt deyildir. O dövrdə uzun illər Azərbaycan dilinin tədqiqi ilə məşğul olan Ə.Dəmirçizadəyə, S.Cəfərova, M.Hüseynzadəyə, Ə.Abdullayevə, Y.Seyidova və A.Həsənova dövlət mükafatı verildi. Azərbaycan dilinə, dilçiliyinə, azərbaycandilli təhsilə sovet dövründə dövlət qayğısı göstərmək asan məsələ deyildi. Dilşünas-alim Yusif Seyidov sonralar haqlı olaraq yazırdı ki, "Müasir Azərbaycan dili" dərsliyinin və M.Şirəliyevin "Azərbaycan dilinin dialektologiyasının əsasları" dərs vəsaitinin belə yüksək səviyyədə qiymətləndirilməsi, əslində, rus şovinizminə meydan oxumaq idi. Bunun təkcə əməli əhəmiyyəti yox, həm də böyük siyasi əhəmiyyəti var idi. Heydər Əliyevin zəkasının və uzaqgörənliyinin məhsulu olan bu tədbir adi mükafatla məhdudlaşmırdı. Bu, hələ o zaman ölkə rəhbərinin elmə, təhsilə, ali məktəblərdə Azərbaycan dilinin tədrisinə göstərdiyi yüksək dövlət qayğısı idi. Bu, alimə, müəllimə, Azərbaycan dilinin tədqiqatçılarına, Azərbaycan dilini gənc nəsillərə öyrədən müəllimlərə qayğı idi. Bu mükafatdan sonra Azərbaycan dilçilərinin nüfuzu qalxdı, Azərbaycan dilçiliyi daha sürətlə inkişafa başladı, orta və ali məktəblərdə Azərbaycan dilinin tədrisi xeyli yaxşılaşdı, Azərbaycan dilli məktəblərin sayı artdı, ali məktəblərin Azərbaycan bölmələrinə tələb nəzərə çarpacaq dərəcədə çoxaldı, təhsil müəssisələrində ana dilinin tədrisinə ayrılan saatların miqdarı artırıldı, Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə ali məktəblərə qəbul planları əhəmiyyətli dərəcədə artırıldı. Heydər Əliyev yalnız bununla kifayətlənmir, əvvəlki illərdə müəyyən təzyiqlərə məruz qalmış alimlərə qayğı göstərirdi. Azərbaycanın rəhbərinin ana dilinə diqqət və qayğısı nəticəsində respublikada ana dilində nəşr edilən kitabların tirajı artırılırdı. Məsələn, 1979-cu ildə Azərbaycanda nəşr edilən 1300 adda 13 milyon 800 min nüsxə kitabın 11 milyon 100 min nüsxəsi ana dilində idi.

Azərbaycan dilinin inkişafından, qorunmasından danışarkən Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişindən sonra müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi zamanı dil məsələsinə necə həssaslıqla yanaşmasının bir daha şahidi olduq. Məhz Konstitusiyanın dillə bağlı maddəsinin televiziya ekranlarından canlı yayımda ziyalıların iştirakı ilə müzakirə edilməsi də bunun bariz nümunəsi idi. Demokratik düşüncəyə malik böyük dövlət adamı Heydər Əliyev Konstitusiyanın həmin maddəsini müzakirə edərkən öz fikrini sonda deyəcəyini, heç kimi təsir altına salmaq istəmədiyini bildirir və ziyalılara öz düşüncələrini müstəqil ifadə etmək üçün şərait yaratdı. Müzakirələr zamanı dövlət dilinin necə adlandırılması ilə bağlı müxtəlif təkliflər irəli sürüldü. Müstəqillik ərəfəsi və onun ilk illərində dilin adının dəyişdirilməsi, onunla bağlı ənənələrin nəzərə alınmaması indi də təəssüf doğurur. 1995-ci ildə qəbul edilən Konstitusiya ilə dövlət dilinin adı bərpa olundu. Bundan sonra hökumət səviyyəsində ana dilinin inkişafı və qorunması istiqamətində əhəmiyyətli sənədlər qəbul edildi. Azərbaycan Konstitusiyasının 45-ci maddəsi ilə hər kəsin ana dilindən istifadə etmək, istədiyi dildə tərbiyə və təhsil almaq, yaradıcılıqla məşğul olmaq hüququ təsbit olunur. Konstitusiyamıza görə, heç kəs ana dilindən istifadə hüququndan məhrum edilə bilməz.

Heydər Əliyevin bəşəri ideyalar carçısı, dahi söz ustadı M.Füzulinin 500 illiyinə həsr edilmiş təntənəli yubiley gecəsində (08 noyabr 1996-cı il) dediyi müdrik bir kəlam olduqca dəyərlidir: "...M.Füzuli əsərlərinin çox hissəsini türk dilində, bugünkü Azərbaycan dilində yazmışdır. Bu, M.Füzulini ondan əvvəl, sonra yaşamış, yaratmış və xalqımıza məxsus olan bir sıra şairlərdən, alimlərdən fərqləndirən amildir. Biz Füzulinin "Leyli və Məcnun" poemasını, onun türk dilində yazdığı divanını bu gün də dilimizdə rahat oxuyur, anlayırıq. ...M.Füzulinin ən böyük xidmətlərindən biri də öz dövrünün və ondan sonrakı dövrün mürəkkəb proseslərinə baxmayaraq, türk dilini, ana dilini yaşatmasından, onu yüksəklərə qaldırmasından ibarətdir" [3, s. 348-349].

2001-ci il iyunun 18-də Heydər Əliyev "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərman imzaladı. Fərmanında deyilir: "... Dilimiz xalqın keçdiyi bütün tarixi mərhələlərdə onunla birgə olmuş, onun taleyini yaşamış, üzləşdiyi problemlərlə qarşılaşmışdır. O, xalqın ən ağır günlərində belə onun milli mənliyini, xoşbəxt gələcəyə olan inamını qoruyub möhkəmləndirmişdir. İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalan bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir. Bu, onun müqəddəs vətəndaşlıq borcudur" [1]. Bu vətəndaşlıq borcunun necə, hansı miqyasda həyata keçirilməsinin ən gözəl nümunəsini ümummilli liderimiz Heydər Əliyev göstərib. Ana dilimizin inkişafı üçün böyük imkanlar yaradan bu sənəddə ulu öndər dilin gələcəyini xalqa əmanət edirdi. Bu fərmanın qüvvəyə minməsindən bir neçə gün sonra Nazirlər Kabinetinin 25 iyun 2001-ci il tarixli 113 saylı sərəncamı ölkənin təhsil sistemində dövlət dilinin – Azərbaycan dilinin tədrisi və latın qrafikasının tətbiqi sahəsində icra üçün direktiv hüquqlu normativ sənəd kimi qəbul edilmişdir.

Azərbaycan dilinin dövlət dili kimi işlədilməsi, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünümüdafiə ehtiyaclarının ödənilməsi istiqamətində daha bir addım oldu. Bu sənəd ümummilli lider Heydər Əliyevin xalqımıza və onun dilinə tükənməz məhəbbətinin, qayğısının parlaq nümunələrindən birinə çevrildi. Dövlət dilinin tətbiqi işinin əməli şəkildə həyata keçirilməsini təmin etmək məqsədi ilə verilmiş bu fərman ölkə daxilində milli dil siyasətini qanuni şəkildə hərtərəfli həyata keçirməyə imkan verən ən mühüm sənəd olaraq yadda qaldı. Əlbəttə, elə ulu öndərimizin bu milli dil siyasəti onun dərin zəkasının, xalqına sevgisinin, milli qürurunun, uzaqgörən düşüncələrinin nəticəsidir. Elə Azərbaycanda latın qrafikalı əlifbaya keçidlə bağlı aparılan işlər, görülən zəruri tədbirlər və qazanılan uğurlar da ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, ulu öndər özü bu əlifbanın əhəmiyyətini nəzərə alaraq deyirdi: "Bizim bu günümüz, gələcəyimiz məhz latın əlifbası ilə bağlıdır". Ümummilli liderin məhz diqqəti sayəsində latın qrafikalı Azərbaycan əlifbasına keçid sürətlə həyata keçirilməyə başlandı və 2001-ci il avqustun 9-da "Azərbaycan əlifbası və Azərbaycan dili günü"nün təsis edilməsi haqqında fərmandan sonra hər il avqustun 1-i Azərbaycanda Ana Dili və Əlifba Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd edilmə ənənəsi yarandı.

Ana dilinin daha da inkişaf etdirilməsi, işlənməsi və saflığının qorunması ilə əlaqədar müxtəlif illərdə ulu öndər tərəfindən fərmanlar imzalanmış və Milli Məclis tərəfindən qanunlar qəbul edilmişdir. 2002-ci il sentyabr ayının 30-da 3 fəsil 20 maddədən ibarət "Dövlət dili haqqında" Qanunun qəbul edilməsi, 2003-cü ilin yanvarın 2-də isə "Azərbaycan Respublikasında Dövlət dili haqqında" fərmanın imzalanması dahi Öndərimizin dilimizə, milli dəyərlərimizə göstərdiyi qayğının, ehtiramın həssas münasibətin əsl sübutu idi. Bununla da Azərbaycan dili – ana dilimiz özünün çiçəklənmə dövrünə qədəm qoydu. Azərbaycan dilinin dövlət dili kimi işlədilməsi, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünümüdafiə ehtiyaclarının ödənilməsi istiqamətində daha bir addım oldu. Bu sənəd ümummilli lider Heydər Əliyevin xalqımıza

və onun dilinə tükənməz məhəbbətinin, qayğısının parlaq nümunələrindən biridir. Ana dilimizin şərəfinə ölkəmizin böyük şəhərlərindən birində abidə ucaldıldı. Azərbaycan dövlət müstəqilliyinin rəmzlərindən sayılan Azərbaycan dili ulu öndər H.Əliyevin əvəzsiz xidmətləri sayəsində xalqın milli mənəvi sərvətinə çevrilərək kamillik zirvəsini yaşamaqdadır. Vilayət Əliyev "Bu nailiyyət özlüyündə bizlərə nəyi verdi?" sualını aşağıdakı şəkildə cavablayır: "Birinci növbədə latın qrafikalı əlifbaya keçməklə xalqımız bütövlükdə latın qrafikası əsasında müəyyənləşən əlifbalarla fəaliyyət göstərən Avropa ailəsinin bir üzvünə çevrilməyə haqq qazandı, dünya vahid yazı sisteminə inteqrasiya etdi. İkinci, dilimizin səslərinin, fonetik sisteminin özünə uyğun mükəmməl əlifba sisteminə nail olundu. Yəni dilimizin bütün səs sistemini, onun ayrı-ayrı fonemlərini ifadə edəcək qrafik işarələr tapıldı və latın qrafikası bu fonetik sistemi işarə etməyə mükəmməl surətdə imkan verdi" [10].

Latın qrafikalı əlifbaya keçid türk milli mənsubiyyətinə aid olan Azərbaycan xalqının qardaş türk xalqlarına və dövlətlərinə daha da yaxınlaşmasına, zəruri ünsiyyətə daxil olmasına, habelə türk həmrəyliyində aparıcı yer tutmasına imkan verdi.

Ümummilli liderimiz Heydər Əliyevin fəaliyyətində ana dili məsələsi həmişə əsas, birinci yeri tutmuşdur. Çünki ana dili millətin ruhu, mənəviyyatı, milli varlığı dərəcəsindədir, onsuz milli mövcudluq yoxdur.

Bu ənənələri ölkə Prezidenti İlham Əliyev uğurla davam etdirməkdədir.

Bu əsnada onu bir daha vurğulamaq lazımdır ki, dil hər şeydən əvvəl ünsiyyət vasitəsidir, bununla bahəm, dil millətin simasını səciyyələndirən amillərdən biri, bəlkə də, birincisidir. O, hər hansı bir xalqın varlığının təzahürü, onun milli sərvəti, qan yaddaşıdır. Bu qənaət tarixin bütün dövrlərində bəşər övladlarının qeyd-şərtsiz qəbul etdiyi, sübuta ehtiyac duyulmayan aksiomudur. Xalqın taleyi, onun mənliyi, mənəviyyatı və mədəniyyəti olan dil cəmiyyətin təşəkkülü və inkişafı ilə birgə yaranmış, tərəqqi etmişdir. İnsanın təkamülündə ana dilinin rolu böyükdür. Millətin milli dilinin dövlət statusuna yüksəlməsi isə tarixi hadisə, milli dövlətçilik tarixinin qızıl səhifəsidir. Bu məqam millətin millət olaraq təsdiqidir. Çünki dilin dövlət dili statusuna yüksəlməsi millətin öz taleyinə sahibliyinin, dövlət qurmaq və qorumaq qüdrətinin, eyni zamanda dilinin zənginliyinin sübutudur.

Ana dilimizin, dövlət dilimizin inkişafı sahəsində əvəzolunmaz xidmətlər göstərmiş, çoxcəhətli fəaliyyət sahəsinə malik ümummilli liderimiz Heydər Əliyev həm də ana dilimizi sevmək, onu bilmək və yaşatmaq, inkişaf etdirmək və təbliğ etmək məsuliyyətini də bir vəzifə kimi müəyyənləşdirərək hər bir azərbaycanlıya, gələcək nəsillərə əbədiyaşar sözlərilə səslənirdi: "...Biz dünyada öz dilimizlə tək yaşayırıq. Bizim birinci nailiyyətimiz o olmalıdır ki, öz dilimizi Azərbaycanda hakim dil etməliyik. Hər bir azərbaycanlı öz ana dilini bilməlidir, bu dildə səlis danışmalıdır və bu dili sevməlidir... Azərbaycan dilini daha da zənginləşdirmək, daha da inkişaf etdirmək sizin ən müqəddəs borcunuzdur" [2, s. 423].

Ulu öndər Heydər Əliyev dilimizin saflığını, mənəvi zənginliyini qorumağın vacibliyini çıxışlarında hər zaman vurğulayır.Azərbaycanda siyasi natiqliyin formalaşmasında ümummilli lider Heydər Əliyevin əvəzsiz xidmətləri olub. Ulu öndərin nitqi öz səmimiliyi, zənginliyi, orijinallığı ilə dünyanın siyasi xadimlərinin nitqləri ilə müqayisə oluna bilər. Görkəmli dövlət xadimi Heydər Əliyev çıxışlarında şifahi nitqə üstünlük verib, yazılı məruzə və ya çıxışlardan, demək olar ki, imtina edirdi.

Ümummilli liderin çıxış etdiyi auditoriyalar öz zənginliyi ilə seçilirdi. O, həm də əzəmətli görkəmi, baxışı, səsi ilə auditoriyanın diqqətini özünə çəkə bilirdi. Böyük natiq auditoriya ilə ünsiyyətə girir, sual verib, cavab alırdı. Bu dahi şəxsiyyətin nitqindəki sistemlilik, ardıcıllıq və məntiqilik bütün çıxışlarında özünü göstərirdi. Heydər Əliyev çıxış edərkən bütün varlığı və inamı ilə danışırdı. Xalq danışıq dilindən gələn ifadələri məharətlə işlədirdi.

Ana dilini ürəkdən sevən, bu dildə danışmağı ilə fəxr edən ümummilli lider bənzərsiz nitqlərində,

dərin məzmunlu çıxışlarında dilimizin rəngarəng ifadə vasitələrindən ustalıqla istifadə edirdi. Ümummilli lider Heydər Əliyevin natiqlik məharətini ana dilini gözəl bilməsi, bu dildən mənəvi zövq alması şərtləndirir. Heydər Əliyev Azərbaycan dilinin bütün sahələrdə yayılması ilə bağlı ciddi işlər görüb.

Ulu öndər Heydər Əliyev əzəmətli görkəmi, gur, məzmunlu səsi ilə şifahi danışığındakı məntiqi, emosiyanı bir qədər də gücləndirir və dinləyicilərdə, onların hisslərində dərin iz qoyur - eyni zamanda şifahi nitq hər hansı natiqi auditoriya üçün daha anlaşıqlı, daha çox dərk olunan edir. Heydər Əliyev nitqinin emotiv intonasiyası çox zəngindir. Heydər Əliyev danışarkən bütün varlığı, düşüncəsi, emosiyası və daxili inamı ilə danışır.

Heydər Əliyev nitqimizin inkişafında mətbuatın da rolunu qeyd etmiş, bu istiqamətdə öz tövsiyələrini vermişdir. Heydər Əliyev göstərir ki, televiziya verilişlərinin aparıcıları sözləri, ifadələri elə düzgün tələffüz etməlidirlər ki, danışığımız, nitqimiz aydın, cazibədar olsun.

Ulu öndər Heydər Əliyevin çıxışlarında ədəbi dilin bütün funksional üslubları bir vəhdətdə götürülür. O, öz nitqində bütün üslublardan istifadə edirdi.

Heydər Əliyevin nitqi zənginliyi, emosionallığı, mükəmməlliyi ilə bir örnək, onun ictimai-siyasi natiqlik sahəsindəki təcrübəsi, istedadı isə bir məktəbdir.

1972-ci illərin ortalarında yazıçılardan biri ona "yoldaş Əliyev, Siz Azərbaycanca nə gözəl danışırsınız!" deyəndə, Heydər Əliyev gülümsəyərək belə cavab vermişdir: "Sən niyə mənim rusca gözəl danışmağıma deyil, azərbaycanca danışmağıma təəccüb edirsən? Bu dil mənim ana dilimdir, mən bu dili bilməliyəm! Eləcə də hamımız". Bunlar adi sözlər deyildi. Bu sözlərin Azərbaycan ziyalılarının milli tərbiyəsinə təsirinin gücü ana dilinə uzun müddətdən bəri davam edən çox soyuq münasibətə son qoya bildi.

Ulu öndərimiz 1994-cü ilin 14 sentyabrında birinci kurs tələbələri ilə görüşdə demişdir: "Xalqımız, cəmiyyətimiz üçün gərəkli olmaq gənclər üçün böyük şərəfdir. Bizim hamımızın bir vətəni var, bu, Azərbaycan dövlətidir. Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, dinini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır". Heydər Əliyev xalqın formalaşmasında, yaşamasında ana dilinin rolunu yüksək qiymətləndirmişdir. "Hər bir xalq öz dili ilə yaranır. Ancaq bu dili yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur".

## ƏDƏBİYYAT


1. Əliyev H.Ə. "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. "Azərbaycan" qəz., 2001, 18 iyun.
2. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. 36-cı kitab, Bakı: Azərnəşr, 2011, 512 s.
3. Əliyev H.Ə. Ədəbiyyatın yüksək borcu və amalı. Bakı, 1999, s. 348-349.
4. Xudiyev N.M. Heydər Əliyev və Azərbaycan dili. Bakı: Təhsil, 1997, 288 s.
5. Hacıyev T., Quliyev Ə., Cəfərov N. Türk dili: Dərslik. Bakı: Öyrətmən, 1994, 144 s.
6. Kamiloğlu Q. Heydər Əliyev ideallığı. Bakı: Nurlan, 2001, 100 s.
7. Maqsudov E.S. Poetik-praktik Azərbaycan dili: Dərs vəsaiti. Bakı: Nurlan, 2011, 196 s.
8. Paşayev Q.M. Dilimiz – varlığımız. Bakı: Ozan, 2011, 208 s.
9. Səfərov M.H. Azərbaycan dili anamın, dövlətimin dilidir: Metodik vəsait. Naxçıvan: İdeya, 2012, 124 s.
10. http://www.google.com/search//mudrik+kelemlar&sourceid=opera&ie=utf-8


***AMEA Naxçıvan Bölməsi***
***E-mail: ismayilzulfiyye@yahoo.com***

**Zulfia Ismayil**

## HEYDAR ALIYEV AND AZERBAIJANI LANGUAGE ISSUES

The issue of the mother language had always occupied the main and first place in the activity of our national leader Heydar Aliyev. The article discusses the work done in the first and second periods of Heydar Aliyev's rule in the direction of using the Azerbaijani language as the state language, its application, protection, and development. The decrees signed by our great leader in different years regarding our state language, the adopted laws, and the nature of the series of state documents were included in the explanation. It follows from the article that the Azerbaijani language, our mother tongue, began its prosperity with Heydar Aliyev's national language policy and care. The national language policy of our great leader was the result of his deep intelligence, love for his people, national pride and far-sighted thoughts.

**Keywords:** *national leader, Heydar Aliyev, Azerbaijani language.*

**Зульфия Исмаил**

## ГЕЙДАР АЛИЕВ И ВОПРОСЫ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА

В деятельности нашего общенационального лидера Гейдара Алиева вопрос родного языка всегда занимал первое место. В статье подробно рассматривается работа, проделанная Гейдаром Алиевым в первый и второй периоды его правления в направлении использования азербайджанского языка в качестве государственного, его применения, защиты и развития. В разъяснение включены указы, подписанные нашим гениальным руководителем в разные годы относительно нашего государственного языка, принятые законы, характер ряда государственных документов. Из статьи делается вывод о том, что наш родной азербайджанский язык начал свой период расцвета с национальной языковой политики Гейдара Алиева и заботы об этом языке. Национальная языковая политика нашего великого лидера – результат его глубокого ума, любви к народу, национальной гордости, дальновидности мысли.

**Ключевые слова:** *общенациональный лидер, Гейдар Алиев, азербайджанский язык.*

FƏXRİYYƏ CƏFƏROVA

# HEYDƏR ƏLİYEV – HƏR BİR XALQ ÖZ DİLİ İLƏ YARANIR

*Məqalədə ulu öndərin dilimizin inkişafı ilə bağlı fəaliyyəti geniş şəkildə şərh edilmişdir. Azərbaycan tarixində parlaq və silinməz iz qoymuş böyük şəxsiyyətlərdən biri və birincisi məhz Heydər Əliyevdir. Belə ki, ümummilli liderimiz Heydər Əliyevin ötən əsrin 70-ci illərinin əvvəllərindən başlayaraq xalqımızın milli-mənəvi dəyərlərinin qorunması, tariximizin düzgün istiqamətdə öyrənilməsi, ana dilimizin rolunun artırılması yönündə apardığı məqsədyönlü siyasət cəmiyyətdə milli ruhun oyanışına təkan verdi. Öz dilini-Azərbaycan dilini sevən, ona hörmətlə yanaşan, ümummilli liderimiz hər kəsə örnək oldu. 1969-1982-ci illərdə sovet Azərbaycanına rəhbərlik edən ulu öndər bir çox ziyalıların cəsarət etmədiyi halda, müxtəlif tədbirlərdə Azərbaycan dilində çıxış etməklə dilimizə verdiyi dəyəri göstərdi.*

*İlk dəfə 1970-ci ildə Heydər Əliyevin o zamankı Azərbaycan Dövlət Universitetinin yaranmasının 50 illiyi münasibətilə keçirilmiş geniş partiya konfransında doğma ana dilində məruzə etməsi insanların böyük heyrətinə səbəb oldu.*

*Hələ ölkəmizdə güclü ruslaşdırma siyasətinin yeridildiyi bir vaxtda da ana dilimizə münasibət müsbət olmuş, Azərbaycan dili dövlət dili statusunu almışdır. Heydər Əliyevin fədakarlığı sayəsində 1978-ci il konstitusiyasında ilk dəfə Azərbaycan dili dövlət dili kimi zənginləşdirildi. Məhz Heydər Əliyevin sayəsində Konstitusiyanın 73-cü maddəsində Azərbaycan SSR-də dövlət dili olaraq Azərbaycan dili təsdiq edildi. Azərbaycan dilinə dövlət dili statusunun verilməsi Heydər Əliyevin öz xalqı qarşısında misilsiz xidməti idi.*

*Ümummilli liderimiz Heydər Əliyev 1993-cü ildə ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra bütün sahələrdə tərəqqi və inkişaf özünü göstərdi. Bütün məsələlərdə olduğu kimi, doğma ana dilimizə münasibətdə də Heydər Əliyev mövqeyi aydın idi.*

*Müstəqillik illərində Heydər Əliyevin hərtərəfli qayğısı sayəsində Azərbaycan dilinin bütün hüquqları özünə qaytarıldı. Müstəqil Azərbaycan Respublikasının 1995-ci il noyabrın 12-də ümumxalq referendumu əsasında qəbul olunmuş ilk konstitusiyasında təsbit olundu ki, "Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir".*

*Beləcə, tarixin ağır sınaqlarından çıxıb bu günümüzə yetişən Azərbaycan dili artıq milli dövlətçiliyimizin əsas göstəricilərindən biri kimi layiq olduğu ali məqama yüksəldilmişdir.*

**Açar sözlər:** *Heydər Əliyev, Azərbaycan dili, dilimizin inkişafı, tərəqqi və inkişaf, ana dilimizə münasibət, dövlət dili.*

Heydər Əliyev öz zəngin dövlətçilik təcrübəsi və bənzərsiz liderlik keyfiyyətləri ilə Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə – müstəqilliyi daimi, dönməz və əbədi etməyə müvəffəq olmuş, xalqımıza qürur və iftixar mənbəyi olan çoxsaylı tarixi nailiyyətlər qazandırmış, yeni, müasir və müstəqil Azərbaycan reallığını yaratmış müdrik dövlət xadimidir.

Heydər Əliyev həm də Azərbaycan tarixində parlaq və silinməz iz qoymuş böyük şəxsiyyət, qeyri-adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi idi. Heydər Əliyevi rəhbərliyi illərində Azərbaycan xalqı misilsiz inkişaf yolu keçmiş, demokratik, müstəqil, dünyəvi və hüquqi Azərbaycan dövləti bərqərar olmuşdur.

Ümummilli lider bütün zəngin və mənalı həyatı boyu həmişə xalqını, vətənini düşünmüş, Azərbaycanın ən çətin məqamlarında onu üzləşdiyi faciələrdən xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmişdir. Qəlbi həmişə xalqı ilə bir vurmuş, Azərbaycan üçün böyük işlər görmüşdür.

14 iyul 1969-cu il. Azərbaycan tarixində yaddaqalan gün. Tariximizin şanlı səhifəsi. Ulu öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəldiyi gün. Ümummilli liderimiz Heydər Əliyev 1969-cu il iyulun 14-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi seçilir. Bununla da, Azərbaycan xalqının tarixində Heydər Əliyev dövrü başlayır. Onun Azərbaycana rəhbər seçilməsi ilə respublikamızın həyatında yeni inkişaf mərhələsinin əsası qoyulur.

Azərbaycanda hakimiyyətə gələn ulu öndər müxtəlif sahələrdə öz Vətəninin, xalqının inkişafı üçün zəruri olan ən vacib məsələlər barədə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosu, Mərkəzi Komitənin plenumları, Kommunist partiyasının qurultayları səviyyəsində əlverişli qərarlar qəbul edilməsinə nail olur. Bütün xalqımızı həmin qərarların icrasına səfərbər etməklə doğma Azərbaycanın tərəqqisi uğrunda yorulmadan, gecəli-gündüzlü mübarizəyə başlayır.

Ümummilli liderin Azərbaycanda hakimiyyətinin hər iki dönəmində ölkə həyatının bütün sahələrində köklü islahatlar aparılmağa başlandı, geniş islahatlar proqramının hazırlanaraq reallaşdırılması bir vəzifə olaraq qarşıya qoyuldu. Azərbaycanın maraqlarını həmişə yüksək səviyyədə qoruyan ulu öndər Heydər Əliyev müdrikliyi və uzaqgörənliyi ilə ölkəmizin sürətli inkişafına nail oldu.

Uzaqgörən dövlət xadimi Heydər Əliyev kommunist rejiminin ağalığı dövründə doğma xalqına qarşı baş vermiş haqsızlıqlara qarşı kəsin mübarizə aparır, Azərbaycanın gələcəyi naminə çox cəsarətli addımlar atırdı. Vətənin bütün guşələrində Azərbaycanın haqqı tapdalanmış böyük şəxsiyyətlərinin heykəllərini ucaltdırır, repressiya qurbanı olmuş böyük Cavidi ölümündən illər keçdikdən sonra Vətənə qaytarır. 1982-ci ildə Heydər Əliyevin böyük səyləri nəticəsində H.Cavidin cənazəsi Sibirdən Azərbaycana gətirilərək şairin doğulduğu Naxçıvan şəhərində torpağa tapşırılır.

Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə xalqımızda milli qürur, milli mənlik şüuru oyandı, azadlıq, müstəqillik duyğuları baş qaldırdı.

Belə ki, məhz ümummilli liderimiz Heydər Əliyevin ötən əsrin 70-ci illərinin əvvəllərindən başlayaraq xalqımızın milli-mənəvi dəyərlərinin qorunması, tariximizin düzgün istiqamətdə öyrənilməsi, ana dilimizin rolunun artırılması yönündə apardığı məqsədyönlü siyasət cəmiyyətdə milli ruhun oyanışına təkan verdi. Öz dilini-Azərbaycan dilini sevən, ona hörmətlə yanaşan, ümummilli liderimiz hər kəsə örnək oldu. 1969-1982-ci illərdə sovet Azərbaycanına rəhbərlik edən ulu öndər bir çox ziyalıların cəsarət etmədiyi halda, müxtəlif tədbirlərdə Azərbaycan dilində çıxış etməklə dilimizə verdiyi dəyəri göstərdi.

Azərbaycan dilinin dövlət dili statusuna yüksəlməsi məhz Heydər Əliyevin adı ilə bağlıdır. Milli tariximizə Heydər Əliyev epoxası kimi daxil olmuş 1969-2003-cü illərdə Azərbaycan dilinin hərtərəfli inkişafı yalnız rəsmi sənədlərdə deyil, sözün həqiqi mənasında, gündəlik həyatda, təcrübədə ümumişlək dilə, dövlət dilinə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə, dünya diplomatiyasına yol tapması, beynəlxalq aləmin çox mötəbər məclislərinin kürsülərindən eşidilməsi ulu öndərimizin ana dilimizin inkişafına göstərdiyi qayğı və diqqətin nəticəsidir.

Bu şərəfli tarixi yolun başlanğıcı hələ 1970-ci ildə Bakı Dövlət Universitetinin 50 illik yubileyində respublika rəhbərinin Azərbaycan dilində çıxışı ilə başladı.

Bu tarixi çıxış sonralar milli özünüdərkdə müstəsna rol oynadı. Bu çıxışdan sonra Azərbaycan dili nüfuzlu məclislərə, dövlət əhəmiyyətli tədbirlərə yol açdı. Bütün bunlar məhz Heydər Əliyevin qayğısı sayəsində mümkün oldu.

Belə ki, ilk dəfə 1970-ci ildə Heydər Əliyevin o zamankı Azərbaycan Dövlət Universitetinin yaranmasının 50 illiyi münasibətilə keçirilmiş geniş partiya konfransında doğma ana dilində məruzə etməsi insanların böyük heyrətinə səbəb oldu. Çünki əvvəlki respublika rəhbərləri adətən rus dilində məruzə etsələr də, Heydər Əliyev yalnız doğma ana dilində çıxış etməyə üstünlük verirdi. Hətta ulu öndər bu hadisəni belə qiymətləndirirdi: "Xatirimdədir, universitetin 50 illik yubileyində çıxış edərkən, şübhəsiz ki, öz ana dilində, Azərbaycan dilində danışdım. Bu, böyük bir sensasiya kimi qəbul olundu, təəccüb doğurdu, nə cür olur ki, respublikanın rəhbəri Azərbaycan dilində çıxış edir və bu dildə heç də pis danışmır. Bəziləri məni bu hadisə münasibətilə təbrik edirdilər, minnətdarlığını bildirirdilər. Dilini sevən, milli ruhla yaşayan insanlar doğrudan da bunu böyük bir hadisə kimi qəbul etdilər. Mən isə onlara dedim ki, burada bir qeyri-adilik yoxdur, nahaq təəccüb edirsiniz, bu mənim ana dilimdir

və ana dilində çıxış etmək elə böyük bir qəhrəmanlıq da deyildir. Ana dilini bilməmək isə, ana dilini qiymətləndirməmək isə, şübhəsiz ki, xalq qarşısında qəbahətdir" [7, s. 304].

Bu dövrdə ən mühüm hadisələrdən biri ana dili dərsliklərin yazılması, ana dilinin tədrisinə verilən saatların artırılması idi.

Ali məktəblər üçün dörd cildlik "Müasir Azərbaycan dili" dərsliyinə, "Azərbaycan dilinin dialektologiyasının əsasları" dərs vəsaitinə Dövlət mükafatları verildi. Təhsil müəssisələrində ana dilinin tədrisinə ayrılan saatların miqdarı artırıldı. Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə ali məktəblərə qəbul planları əhəmiyyətli dərəcədə artırıldı.

Hələ ölkəmizdə güclü ruslaşdırma siyasətinin yeridildiyi bir vaxtda da ana dilimizə münasibət müsbət olmuş, Azərbaycan dili dövlət dili statusunu almışdır. Təbii ki, bu tədbirlərin həyata keçirilməsi birbaşa ulu öndərimiz Heydər Əliyevin davamlı fəaliyyəti ilə əlaqədar idi. Kommunist ideologiyasının hakim olduğu bir şəraitdə dahi öndər Heydər Əliyev dilimizin statusu uğrunda mübarizədən çəkinmədi. 1978-ci il martın 14-də Azərbaycan Konstitusiyasını hazırlayan komissiyanın iclası keçirildi. Bu iclasın sədri Heydər Əliyev idi. Amma bu Konstitusiya layihəsində Azərbaycan dilinin hansı status daşıması məsələsi yer almamışdı. Lakin ümumxalq müzakirəsinə verilən Azərbaycan Konstitusiyası layihəsinin 73-cü maddəsində yazılmışdı: "SSRİ qanunları Azərbaycan SSR ərazisində məcburidir". Bu məsələ o dövrün dövlət rəhbərlərini narahat etməsə də, milli ruhlu ziyalıları narahat etməyə başladı. Xüsusilə, Heydər Əliyev bu məsələdən narahat olaraq sovet rəhbərləri ilə danışıqlar apardı. Nəticədə, ulu öndər ana dili məsələsini həll etməklə bərabər, eyni zamanda, layihədəki 73-cü maddənin ləğv edilməsinə də nail oldu. Məhz Heydər Əliyevin sayəsində Konstitusiyanın 73-cü maddəsində Azərbaycan SSR-də dövlət dili olaraq Azərbaycan dili təsdiq edildi.

Beləliklə, Heydər Əliyevin fədakarlığı sayəsində 1978-ci il Konstitusiyasında ilk dəfə Azərbaycan dili dövlət dili kimi yüksək statusa nail oldu.

1978-ci ildə qəbul edilmiş Konstitusiya haqqında danışarkən ulu öndər o günləri belə xatırlayırdı: "Xatirimdədir, o vaxt başqa respublikaların rəhbərləri ilə kəskin danışıqlarımız oldu. Ukraynanın rəhbəri Şerbitski ilə mənim kəskin danışıqlarım xatirimdədir. O, buna çox etiraz edirdi, belə əsaslandırırdı ki, siz belə yazdığınız halda, gərək biz də yazaq ki, Ukraynanın dövlət dili Ukrayna dilidir. Mən ona dedim ki, heç kəs sizə mane olmur. Siz bizdən də böyük respublikasınız və Sovetlər İttifaqında sizin xüsusi çəkiniz bizimkindən qat-qat artıqdır. Siz istəsəniz, bunu yaza bilərsiniz. Ancaq siz nə üçün bizə mane olursunuz?... Ancaq biz buna nail olduq. Hesab edirəm ki, bu, o dövrdə, o zamanın şəraitində respublikamızda, ümumiyyətlə, ölkəmizin tarixində böyük hadisə oldu" [1].

Dilə sevgi, məhəbbət Heydər Əliyev ideologiyasının tərkib hissəsi idi. Dilimizi dövlət dili səviyyəsinə qaldıran ulu öndər bu sahədə fəaliyyətini daha da genişləndirir.

Heydər Əliyev çox gözəl bilirdi ki, dil də, tarix də, mədəniyyət də millətsiz mövcud ola bilməz və hər hansı bir milləti yer üzündən izsiz olaraq silmək üçün onun dilini, mədəniyyətini, tarixini əlindən almaq kifayətdir.

Ümummilli liderimiz Heydər Əliyev 1993-cü ildə ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra bütün sahələrdə tərəqqi və inkişaf özünü göstərdi. Bütün məsələlərdə olduğu kimi, doğma ana dilimizə münasibətdə də Heydər Əliyev mövqeyi aydın idi.

Şübhəsiz ki, müstəqilliyin ən mühüm atributlarından biri dil məsələsidir. Müstəqilliyin ilk illərində dövlət dili ilə bağlı fərqli mövqelər ortaya qoyulurdu. Məsələnin ciddiliyini nəzərə alan ümummilli lider Heydər Əliyev bununla bağlı müzakirələr keçirir. 1990-cı il sentyabrın 11-də əlifba komissiyası yaradılır. Təklif olunan əlifba Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının 25 dekabr 1991-ci ildə keçirilən iclasında müzakirəyə çıxarılır və "Latın əlifbası əsaslı Azərbaycan əlifbasının islah edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilir. Yeni əlifbanın

təsdiqindən sonra da müzakirələr səngimir. Lakin müxtəlif səbəblərdən 10 il latın qrafikalı yeni əlifba kiril əlifbası ilə paralel işlənir. Bu mövzudan bəhs edən Heydər Əliyev vurğulayırdı ki: "Bizim bu günümüz, gələcəyimiz məhz latın əlifbası ilə bağlıdır. Nəşriyyatlara da bu gün müraciət edirəm ki, kitabların hamısı latın əlifbası ilə çap olunsun" [2].

Yeni – latın qrafikalı əlifbaya keçidi ulu öndər alqışlasa da, kiril əlifbasının da əhəmiyyətini unutmur, yüksək qiymətləndirirdi: "1939-cu ildən indiyə qədər yazılan kitabların hamısı kiril əlifbası ilə buraxılıb. Bu illərdə bizim ədəbiyyatımızda, mədəniyyətimizdə, tariximizdə, elmimizdə çox böyük nailiyyətlər, ixtiralar əldə olunubdur. Bunların hamısı öz əksini kitablarda tapıbdır. Bizim kitabxanalar belə kitablarla doludur. Şübhəsiz ki, bunlardan bu gün də, on illər sonralar da istifadə etməli olacaqlar" [2].

30 oktyabr 1997-ci ildə Azərbaycan yazıçılarının X Qurultayı keçirilir. Qurultayda çıxış edən ulu öndər Heydər Əliyev üzünü qurultay nümayəndələrinə tutaraq deyirdi: "Biz indi latın əlifbasına keçirik. Görürsünüz ki, keçmək də çətindir. Bu barədə qərar qəbul edilərkən nə qədər müzakirələr gedirdi. Kimi deyirdi keçək, kimi deyirdi keçməyək. Hətta bəziləri deyirdi ki, gəlin ərəb əlifbasına qayıdaq. Xatirinizdədir, 1990-91-ci illərdə belə söhbətlər gedirdi. Qərar qəbul olunub, ancaq biz latın əlifbasına keçə bilmirik. Mən göstəriş vermişəm və bütün dövlət sənədləri latın əlifbası ilə yazılır. Ancaq onları başqa yerlərə göndərəndə çoxları oxumaqda çətinlik çəkirlər. Nə üçün belə olubdur?

Bu, təbiidir, çünki bir əlifbadan başqasına keçmək asan deyil. Mənim xatirimdədir, 1939-cu ildə latın əlifbasından kiril əlifbasına keçəndə nə qədər böyük çətinliklər yarandı. Bilmirəm, burada oturanların bəlkə də bir çoxu onu xatırlamır, amma mənim xatirimdədir. Bəli, mən orta məktəbi Azərbaycan dilində latın əlifbası ilə bitirmişəm, indi də bu həm təbii, həm də çətin prosesdir. Amma biz bu yolu keçəcəyik" [3, s. 421-422].

Azərbaycan dilinə qayğı, onu qorumaq, inkişaf etdirmək, dilimizin keşiyini çəkmək H.ƏIiyevin apardığı dövlət siyasətinin ən mühüm tərkib hissəsinə çevrilmişdi. Ulu öndərin "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 2001-ci il 9 avqust tarixli Fərmanı isə iki əlifbadan istifadəyə birdəfəlik son qoyur. Latın qrafikalı Azərbaycan əlifbasına keçidin ölkəmizdə 2001-ci il avqust ayında bütövlükdə təmin edilməsi və yeni əlifbadan istifadə müstəqil Azərbaycan Respublikasının ictimai-siyasi həyatında, yazı mədəniyyətimizin tarixində mühüm hadisə oldu.

1992-ci il dekabr ayının 22-də isə Milli Məclisdə dövlət dili məsələsi müzakirə olunmuş və Azərbaycanın dövlət dilinin türk dili adlandırılması barədə qərar qəbul edilmişdi. Ulu öndər Heydər Əliyev də sonralar bu məsələyə münasibət bildirərkən Milli Məclisin qəbul etdiyi bu qərarı kəskin pisləyərək demişdi: "Bu böyüklükdə tarixi bir qərar Azərbaycan xalqının iradəsi nəzərə alınmadan 26 nəfər tərəfindən qəbul olunubdur. Burada da böyük bir səhv buraxılıbdır".

Ulu öndər onu da qeyd etmişdir ki: "1992-ci ilin dekabrında Azərbaycanın Milli Məclisində dövlət dili haqqında məsələ müzakirə edilmişdir. Bu müzakirə nəticəsində qərar qəbul olunub ki, Azərbaycanın dövlət dili türk dilidir. O vaxt mən Bakıda yaşamırdım. Naxçıvanda idim. Eşitdiklərimdən, bildiklərimdən belə hiss etdim ki, bu qərar respublikada birmənalı qarşılanmayıb. Bu qərardan çox narazı olanlar da var idi, onu çox bəyənənlər də var idi. Mən bunu şəxsən özüm üçün araşdırdım və məlum oldu ki, bildiyiniz kimi, burada özbaşınalığa, volyuntarizmə yol verilibdir" [1].

Müstəqillik illərində Heydər Əliyevin hərtərəfli qayğısı sayəsində Azərbaycan dilinin bütün hüquqları özünə qaytarıldı. Müstəqil Azərbaycan Respublikasının 1995-ci il noyabrın 12-də ümumxalq referendumu əsasında qəbul olunmuş ilk Konstitusiyasında təsbit olundu ki, "Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir".

Bu məsələdən bəhs edən ulu öndər çox gözəl qeyd edirdi ki:"Biz ən doğru, düzgün və ən əsaslı bir qərar qəbul etdik ki, Azərbaycanın dövlət dili Azərbaycan dilidir. Bu, Azərbaycan xalqı üçün, onun mənəviyyatı, dilinin inkişafı üçün çox əhəmiyyətli qərardır. Bu, Azərbaycanda bütün Azərbaycan

xalqının tərkibini təşkil edən xalqların hamısının özlərinə bu dili qəbul etməsi üçün çox əsaslı bir qərardır və hesab edirəm ki, həm keçmişimizə böyük hörmət, həm də gələcək nəsillər üçün böyük bir sənəddir" [8, s. 271-272].

2001-ci il iyunun 18-də isə ümummilli lider Heydər Əliyev "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi barədə" fərman imzaladı. Bu fərman Azərbaycan dilinin inkişafı, tədqiqi, tətbiqi və təbliği barəsində bu günədək misli görünməmiş ən dəyərli tarixi sənəddir. Bu fərmanda eyni zamanda, latın qrafikalı Azərbaycan əlifbasına keçmək üçün hazırlıq işlərinin avqustun 1-i tarixinə qədər başa çatdırılması müvafiq təşkilatlar qarşısında bir vəzifə olaraq qoyuldu. Məlumdur ki, latın əlifbası da milli müstəqilliyimizi genişləndirən, respublikamızı Sovet imperiyasından uzaqlaşdıran amillərdən biridir.

2003-cü il yanvarın 2-də isə ulu öndərin fərmanı ilə "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə mindi. Öz doğma ana dilini sevən lider deyirdi: "Biz indi müstəqil dövlət kimi, azad xalq kimi öz dilimizlə, Azərbaycan dili ilə fəxr edirik. Hər bir xalq öz dili ilə yaranır. Ancaq xalqının dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur" [6, s. 34].

Ulu öndər Heydər Əliyev dövlət dilimiz olan ana dilimizə böyük üstünlük verir və tövsiyə edirdi ki, hər bir azərbaycanlı başqa dilləri də mükəmməl öyrənsin, onlardan yeri gəldikcə istifadə etsin. Lakin heç kəs öz doğma Azərbaycan dilinə diqqət, hörmət və məhəbbəti azaltmamalıdır.

Beləcə, tarixin ağır sınaqlarından çıxıb bu günümüzə yetişən Azərbaycan dili artıq milli dövlətçiliyimizin əsas göstəricilərindən biri kimi layiq olduğu ali məqama yüksəldilmişdir. Azərbaycan dili ölkəmizin dövlət dili səviyyəsində qərarlaşaraq xalqımızın milli kimliyini bütün dünyaya təqdim edir. Ana dilinin dövlət dili statusuna yüksəlməsi, haqlı olaraq, tarixi hadisə, milli dövlətçiliyimizin tarixinin önəmli səhifəsi sayılır. Bu, milli yetkinliyin təsdiqi, xalqın öz taleyinə sahibliyinin, dövlət qurmaq və qorumaq qüdrətinin parlaq ifadəsidir.

Heydər Əliyev dilin inkişafında dilçi alimlərin də rolunu həmişə qeyd edirdi: "...Dilimizin böyük qrammatikası yaranıbdır. Böyük dərsliklər, əsərlər var. Respublikamızda böyük dilçilik institutu mövcuddur. Bizim böyük dilçilərimiz var, -yadımdadır, akademik Şirəliyev, Dəmirçizadə, – mən o vaxtkı adamları deyirəm, indi yaşayan alimlər adlarını demədiyimə görə məndən inciməsinlər. Bəli, bizim böyük alimlərimiz vardır" [1].

Ulu öndər ana dilini mükəmməl öyrənməyi gənc nəsillərə tövsiyə edərək deyirdi: "Ana dilini bilməyən gənc Nizamini oxuya bilməz, Füzulini oxuya bilməz, Nəsimini oxuya bilməz, Vaqifi oxuya bilməz, Sabiri oxuya bilməz, C. Məmmədquluzadəni oxuya bilməz və digərlərini oxuya bilməz. Əgər onları oxuya bilməsə, o, tarixi bilməyəcək, onları oxuya bilməsə, bizim mədəniyyətimizi bilməyəcək, mədəni köklərimizi bilməyəcək, milli-mədəni ənənələrimizi bilməyəcək, onları bilməsə, o, vətənpərvər olmayacaq, onda milli vətənpərvərlik duyğuları olmayacaqdır" [5].

Heydər Əliyev gəncləri öz doğma ana dilində danışmağa dəvət edir və deyirdi: "İnkişaf etmiş zəngin dil mədəniyyətinə malik olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalmış bu ən qiymətli milli sənəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir. Bu, onun müqəddəs vətəndaşlıq borcudur" [4, s. 121].

Azərbaycan dilinin inkişafı, zənginləşməsi, istifadə dairəsinin genişlənməsi, onun nüfuzunun ucaldılması Heydər Əliyevin fəaliyyətinin əsasını təşkil etmiş, davamlı işlər görülmüşdür.

Ulu öndərimiz Heydər Əliyevin də qeyd etdiyi kimi, biz indi müstəqil dövlət kimi, azad xalq kimi öz dilimizlə, Azərbaycan dili ilə fəxr edirik.

## ƏDƏBİYYAT

1.“Azarbaycan” qəz., 1995, 2, 4 noyabr.
2.“Azərbaycan müəllimi” qəz., 1997, 4 sentyabr.
3. Əliyev H. Ədəbiyyatın yüksək borcu və amalı. Bakı: Ozan, 1999.
4. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: Təhsil, 2004, 472 s.
5.“Xalq” qəz., 1996, 6 fevral.
6. Quliyev V. Heydər Əliyevin dil siyasəti. Bakı: Nurlan, 2003, s. 34.
7. Müstəqillik yollarında: sentyabr 1994-dekabr 1994 / Heydər Əliyev / Bur. məsul F.Abdullazadə. II c., Bakı: Azərbaycan, 1997, 446 s.
8. Müstəqillik yollarında: iyul 1995-dekabr 1995 / Heydər Əliyev / Bur. məsul F.Abdullazadə. IV c., Bakı: Azərbaycan, 1997, 534 s.

***Naxçıvan Müəllimlər İnstitutu***
***E-mail: ceferova.fexriyye@mail.ru***

**Fakhria Jafarova**

## HEYDAR ALIYEV – EVERY NATION IS CREATED BY ITS LANGUAGE

Heydar Aliyev is one of the great personalities who left a bright and indelible mark on the history of Azerbaijan, and the first one. Hence, the deliberate course of action taken by our national leader Heydar Aliyev in safeguarding the national and moral principles of our people, conducting a thorough study of our history, and enhancing the significance of our indigenous language resulted in the resurgence of the national spirit within society. Our national leader, who loves and respects his native language, the Azerbaijani language, has become an example for everyone. The great leader who led Soviet Azerbaijan in 1969-1982 showed the value he attached to our language by speaking in Azerbaijani at various events, although many intellectuals did not dare.

For the first time in 1970, Heydar Aliyev delivered a speech in his native language at a large party conference held on the occasion of the 50th anniversary of the establishment of the Azerbaijan State University, which caused great surprise among people.

At a time when a strong policy of Russification was carried out in our country, the attitude towards the native language was positive and the Azerbaijani language received the status of the state language. Thanks to the dedication of Heydar Aliyev, the Azerbaijani language was first mentioned as the state language in the 1978 Constitution. Thanks to Heydar Aliyev, the Azerbaijani language was approved as the state language in the Azerbaijan SSR in Article 73 of the Constitution. Granting the status of the state language to the Azerbaijani language was an unparalleled merit of Heydar Aliyev to his people.

After our national leader Heydar Aliyev came to power for the second time in 1993, progress and development appeared in all areas. As in all matters, Heydar Aliyev’s position regarding our native language was clear.

Thanks to the comprehensive care of Heydar Aliyev, during the years of independence, all the rights of the Azerbaijani language were returned to the first constitution of the independent Azerbaijan Republic, adopted based on a national referendum on November 12, 1995. It was established that the state language of the Republic of Azerbaijan is the Azerbaijani language. The Republic of Azerbaijan ensures the development of the Azerbaijani language.

Thus, the Azerbaijani language, which emerged from the severe trials of history, has already been elevated to the high place it deserves today as one of the main indicators of our national statehood.

The article broadly interprets the activities of the great leader related to the development of our language.

**Keywords:** *Heydar Aliyev, Azerbaijani language, development of our language, progress, and development of attitude towards the native language, state language.*

**Фахрия Джафарова**

## ГЕЙДАР АЛИЕВ – КАЖДЫЙ НАРОД СОЗДАН СВОИМ ЯЗЫКОМ

Гейдар Алиев – одна из великих личностей, оставивших яркий и неизгладимый след в истории Азербайджана, причем первая. Таким образом, целенаправленная политика нашего общенационального лидера Гейдара Алиева в направлении защиты национально-нравственных ценностей нашего народа, изучения нашей истории в правильном направлении, повышения роли нашего родного языка стимулировала пробуждение национального духа в обществе. Примером для всех стал наш общенациональный лидер, любящий и уважающий свой родной язык – азербайджанский язык. Великий лидер, руководивший советским Азербайджаном в 1969-1982 годах, показал ценность, которую он придавал нашему языку, выступая на азербайджанском языке на различных мероприятиях, хотя многие представители интеллигенции не осмеливались.

Впервые в 1970 году Гейдар Алиев выступил с речью на родном языке на большой партийной конференции, проведенной по случаю 50-летия создания Азербайджанского государственного университета, что вызвало большое удивление у людей.

В то время, когда в нашей стране проводилась сильная политика русификации, отношение к родному языку было положительным и азербайджанский язык получил статус государственного. Благодаря самоотверженности Гейдара Алиева азербайджанский язык впервые был упомянут в качестве государственного языка в Конституции 1978 года. Благодаря Гейдару Алиеву азербайджанский язык был утвержден в качестве государственного языка в Азербайджанской ССР в статье 73 Конституции. Предоставление азербайджанскому языку статуса государственного было является беспримерной заслугой Гейдара Алиева перед своим народом.

После того как в 1993 году наш общенациональный лидер Гейдар Алиев во второй раз пришел к власти, прогресс и развитие проявились во всех сферах. Как и во всех вопросах, позиция Гейдара Алиева в отношении нашего родного языка была четкой.

Благодаря всесторонней заботе Гейдара Алиева в годы независимости были возвращены все права азербайджанского языка в первой конституции независимой Азербайджанской Республики, принятой на основе всенародного референдума 12 ноября 1995 года. Было установлено, что государственным языком Азербайджанской Республики является азербайджанский язык. Азербайджанская Республика обеспечивает развитие азербайджанского языка.

Таким образом, азербайджанский язык, вышедший из суровых испытаний истории, в наши дни уже возведен на то высокое место, которого он заслуживает, как один из главных показателей нашей национальной государственности.

В статье широко интерпретируется деятельность великого лидера, связанная с развитием нашего языка.

**Ключевые слова:** *Гейдар Алиев, азербайджанский язык, развитие нашего языка, прогресс и развитие отношения к родному языку, государственный язык.*

**FƏXRƏDDİN EYLAZOV**

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZƏ QAYĞISI

*Milli-mənəvi dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması keçmişdə olduğu kimi bu gün də öz aktuallığını qoruyub saxlayır. Çünki milli-mənəvi dəyərlərimizin Azərbaycan xalqının formalaşmasına təsiri ilə yanaşı, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu vardır. Milli-mənəvi, o cümlədən dini dəyərlərimizin, adət-ənənələrimizin dərindən öyrənilməsi və araşdırılması müasir cəmiyyətimizin prioritet istiqamətlərindən biridir. Tarixi təcrübə göstərir ki, öz soykökündən, tarixindən, milli-mənəvi dəyərlərindən uzaq düşən millətlər və dövlətlər müəyyən zaman kəsiyində yox olmaq, tarix səhnəsindən birdəfəlik silinmək təhlükəsi ilə üz-üzə qalmışlar. Milli-mənəvi dəyərlər deyəndə Milli ideologiya, mənəvi yaddaş, milli tarix, milli dil, ənənəvi dini dəyərlər, milli mədəniyyət və incəsənət, milli ədəbiyyat, milli özünüdərk, ailə sistemi, dahi şəxsiyyətlərimiz, milli musiqimiz və s. Bir sözlə, milli və mənəvi olan bütün nailiyyət və keyfiyyətlərimiz milli-mənəvi dəyərlər sisteminə aiddir. Müasir Azərbaycan tarixinə nəzər saldıqda milli-mənəvi dəyərlərimizin qorunması və inkişafı prinsiplərinin banisi kimi ulu öndər Heydər Əliyevi görürük. Müstəqillik dövrünün təməl daşları üzərində tarixi imzası olan ulu öndər Azərbaycançılıq ideologiyasının əsasını qoyaraq milli-mənəvi dəyərlər sistemimizi daha da gücləndirmiş, aşınmadan xilas etmişdir.*

**Açar sözlər:** *milli-mənəvi dəyərlər, mənəvi yaddaş, milli tarix, milli dil.*

Müasir Azərbaycan tarixinə nəzər saldıqda milli-mənəvi dəyərlərimizin qorunması və inkişafı prinsiplərinin banisi kimi ulu öndər Heydər Əliyevi görürük. Müstəqillik dövrünün təməl daşları üzərində tarixi imzası olan ulu öndər Azərbaycançılıq ideologiyasının əsasını qoyaraq milli-mənəvi dəyərlər sistemimizi daha da gücləndirmiş, aşınmadan xilas etmişdir. Milli-mənəvi dəyərlərimizə qayıdışın və milli oyanışın xalqımız üçün gərəkliliyini nəzərə alan, hər zaman bu məsələni diqqət mərkəzində saxlayan ümummilli Liderimiz Heydər Əliyev bu sahədə inqilabi addımların atılmasına zəmin yaratmışdır. Ulu öndər milli-mənəvi dəyərlərimizi təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın – dövlət quruculuğu prosesinin mühüm atributu hesab edirdi. Mənsub olduğu xalqın tarixi keçmişinə, mənəvi irsinə və milli dəyərlər sisteminə sönməz məhəbbət duyğularıyla yanaşan ulu öndər deyirdi: "Hər xalqın özünə, öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Biz də indi dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək, xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirərək, gənc nəsli daha da sağlam əhval-ruhiyyədə, saf əxlaqi əhval-ruhiyyədə tərbiyələndirməliyik".

Heydər Əliyev bütün mənalı həyatını Azərbaycana, xalqın milli mənəvi varlığının, irsinin qorunması və inkişafına, onun firavan həyatının təmin edilməsinə, dünya xalqları sırasında layiqli yer tutmağına həsr etmişdir.

Azərbaycan çoxminillik tarixi boyu dünyaya bir çox korifeylər və mütəfəkkirlər bəxş etmişdir. Lakin bir-birini əvəz edən hadisələrin baş verməsi xalqımızın milli mənlik şüurunun yüksəlişi və onun intellektual potensialının daşıyıcıları olan qeyri-adi şəxsiyyətlərin yetişməsi baxımından XX yüzillik əvvəlki əsrlərlə müqayisə edilməzdir. Belə şəxsiyyətlərdən biri və ən görkəmlisi Azərbaycana 30 ildən artıq rəhbərlik etmiş Heydər Əliyevdir.

1969-cu ildən respublika rəhbərliyində olan Heydər Əliyev hakimiyyətinin ilk günlərindən Azərbaycan cəmiyyətinin yenidən qurulması sahəsində geniş miqyaslı işlər həyata keçirməyə başladı. Tezliklə Azərbaycan Respublikası sosial-iqtisadi göstəricilərə görə, keçmiş İttifaqın qabaqcıl respublikaları cərgəsinə çıxdı, onların çoxunu ötüb keçdi. Onun təşəbbüsü və birbaşa nəzarəti altında keçən əsrin 70-ci illərində gələcək müstəqil Azərbaycanın iqtisadi, sosial və ən başlıcası isə elmi-texniki

potensialının hazırlanması böyük uzaqgörənliklə həyata keçirildi. Bütün bunların nəticəsində yüksək inkişaf səviyyəsinə çatan ölkəmiz "Heydər Əliyev Azərbaycanı" kimi tanındı.

Bunun məntiqi davamı kimi, bu illərdə Azərbaycanda gedən milli oyanış, siyasi-ideoloji dirçəliş prosesinin nəticələri özünü 80-ci illərin sonu 90-cı illərin əvvəllərindəki xalq hərəkatında göstərdi.

Milli oyanış tarixinin yeni və sistemli mərhələsini yaşayan Azərbaycan cəmiyyəti 1993-cü ildə ölkəni hərc-mərclikdən, şəxsi ambisiyalardan xilas etmək uğrunda mübarizədə özündə güc və qüdrət tapdı. Azərbaycanın xilası və dirçəlişinin yeni tarixi başlandı. Milli Məclisin 1993-cü il 15 iyun tarixli iclasında müdrik siyasətçi Heydər Əliyev öz tarixi nitqində demişdir: "Azərbaycan Respublikası, bundan sonra onun başına nə gəlirsə gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir başqa dövlətin əsarəti altına düşməyəcəkdir" [1].

Diqqətəlayiq haldır ki, yüksək intellektə malik şəxsiyyət olan Heydər Əliyev öz fəaliyyəti və siyasi təcrübəsində hər zaman elmi fikrin ən yeni nailiyyətlərindən faydalanmışdır. O, elm və texnikanın, mədəniyyət və maarifin, ədəbiyyat və incəsənətin inkişaf məsələlərinin həlli məqamlarında yüksək peşəkarlıq göstərmiş, cəmiyyətin, xalqın inkişafını elmdə və milli irsə bağlılıqda görmüşdür.

Azərbaycan xalqının formalaşmasında və bir xalq kimi yaşamasında mühüm amil olan əcdadlarımızdan bizə miras qalmış maddi və mənəvi hər nə varsa varis olaraq sahib çıxmaq, onları qoruyub saxlamaq və xalqın özünə qaytarmaq ulu öndərin strategiyasında başlıca məsələlərdən biri idi. İstər ulu öndərin hakimiyyətinin birinci dövründə, istərsə də müstəqillik dövründə biz bunları müxtəlif qərar və sərəncamların, dövlət proqramlarının qəbul edilməsində, tarixi abidələrimizin bərpasında, müxtəlif yubiley tədbirlərinin keçirilməsində və sair məsələlərdə müşahidə edirik. Onlardan bir neçəsini xatırlatmaq yerinə düşərdi.

Ümummilli liderin dil siyasəti, Azərbaycan dilinə qayğı, babalarımızdan qalan bu mirasa sahib çıxmaq və gələcək nəsillərə çatdırmaq istiqamətində öz tövsiyə və tapşırıqlarını verirdi. 1995-ci il noyabrın 5-də keçirilən Konstitusiya Komissiyasının iclasında ulu öndər dövlət dilimizin adı barədə öz qəti fikrini bildirərək demişdir: "Tarixi köklərimizə, tarixi keçmişimizə böyük hörmət və ehtiramımızı bildirərək, eyni zamanda bu gün deməliyik və haqqımız var deyək ki, XX əsrdə bizim dilimiz öz inkişaf dövrünü keçib, formalaşıb, özünəməxsus adını götürüb və gəlib dövlət dili səviyyəsinə çatıb. İndi bunun adını dəyişdirib başqa ad qoymaq heç bir nöqteyi-nəzərdən düzgün deyil. Həm tarixi nöqteyinəzərdən, həm fəlsəfi-nöqteyi nəzərdən, ölkəmizin bu günü və gələcəyi nöqteyi-nəzərindən" [2].

Müstəqillik qazanandan sonra da bir çoxları hələ də öz dilinin imkanlarını düzgün qiymətləndirə bilmirdi. Hələ də düşünürdülər ki, Azərbaycan dili dərin, fəlsəfi fikirləri ifadə etməkdə tələbatı ödəmir. Ən böyük azərbaycanlı dedi və sübut etdi ki, "Azərbaycan dili bu gün dərin fikirləri ən incə çalarlarınadək olduqca aydın bir şəkildə ifadə etmək qüdrətinə malik dillərindəndir. Düşüncələrdəki dərinliyi, hisslərdəki incəlikləri bütünlüklə ifadə etmək kamilliyinə yetişə bilməsi üçün hər hansı xalqa bir neçə minillik yaşaması lazım gəlir. Azərbaycan dilinin bugünkü inkişaf səviyyəsi göstərir ki, Azərbaycan xalqı dünyanın ən qədim xalqlarındandır". Ümummilli lider Heydər Əliyev xalqın milli irsini qorumaq məqsədilə müxtəlif dövlət səviyyəli tədbirlərin təşkil olunması və həyata keçirilməsini zəruri hesab edərək Məhəmməd Füzulinin 500 illik, folklorumuzun nadir incisi "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinin keçirilməsi münasibəti imzaladığı fərmanları xatırlamamaq mümkün deyil.

Keçmişin miraslarını çağdaş dünyagörüşlərinə və təsəvvüflərinə uyğunlaşdırmaq, yaxud bunun əksini etmək, əslində siyasi iradədən çox mənəvi məsuliyyət tələb edən işdir. Lakin öz xalqını yetərincə tanıyan, onun mənəvi-etik parametrlərinə dərindən bələd olan böyük öndər bütün hallarda xalqın mənafeyini hər hansı ictimai prinsipdən, siyasi gedişdən üstün tuturdu. Onun söylədiyi bu fikirlərə diqqətlə nəzər yetirək. "Demokratiyanın hüdudları genişdir. O, hər bir xalqın milli-mənəvi dəyərlərinə, mentalitetinə, hər bir cəmiyyətin, hər bir dövrün tələblərinə uyğun olaraq inkişaf edir". Bir çoxları

bunları keçmişin qalığı gördüyü halda ulu öndər keçmişlə bu günün sintezini yaradaraq, dövrün tələblərinə uyğunlaşdıraraq onları yaşatmaq və yaşamaq tələbini ortaya qoyurdu.

Milli-mənəvi dəyərlərimizin qorunmasına böyük diqqət və qayğı göstərən ümummilli liderimiz dönə-dönə xatırladırdı ki, "həyatda uğur qazanmaq üçün xalqımızın, millətimizin milli-mənəvi dəyərlərinə sadiq olmaq lazımdır, bu milli-mənəvi dəyərləri ümumbəşəri dəyərlərlə birləşdirib, müasir həyat tərzi keçirmək lazımdır". Ümummilli liderimiz Azərbaycan xalqının mənəvi dünyasının mühüm həlqəsi olan islami dəyərlərə böyük ehtiram bəsləyirdi. Böyük öndər deyirdi: "Azərbaycanda islamşünaslıq sahəsində XX əsr, demək olar ki, tamam itirilmişdir. Bu işləri görmək üçün Azərbaycanda islamşünaslıq elmini inkişaf etdirmək lazımdır". Təfəkkür sahibləri üçün bu cümlələr böyük strateji xəttin mühüm bağlarından biri kimi qavranılır. Çünki, bu fikirləri adi insan, adi vətəndaş deyil, dövlət başçısı rəsmən bəyan edir. Bununla da ümummilli liderimiz keçmişdən bizlərə miras qalmış mənəvi dəyərlərin daha da möhkəmləndirilib yaşarlığının daimiliyi üçün əməli fəaliyyət göstərən şəxsiyyət kimi daim yaddaşlarda qalacaq [1].

Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, milli-mənəvi dəyərlərimizdən biri də xalqa xidmətdə təmənnasız, qətiyyətli, ümumi mənafeyi şəxsi mənafedən uca tutmaqdır. Müstəqilliyimizin ilk illərində qorxulu kabus kimi bizi təhdid edən mənəviyyatsızlığa Heydər Əliyev son qoydu.

Ulu öndər milli-mənəvi, əxlaqi dəyərlərimizi özümüzə qaytardı və bu dəyərlər üzərində də milli ideologiyamız formalaşdırıldı. "Milli-mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz" və bu dəyərlərin ən əsaslarının müqəddəs Qurani-Şərifdə əks olunduğunu vurğulayırdı. Onları qorumağı, inkişaf etdirməyi tapşırır və göstərirdi ki, bunlar olmayacaqsa, millət də, xalq da olmayacaq: "Milli-mənəvi dəyərlərimiz bizim ana dilimizdir. Azərbaycan dilidir, bizim adət-ənənələrimizdir, mənəvi-əxlaqi mentalitetimizdir. Bunların hamısı ilə fəxr etməliyik. Çünki bunlar yoxdursa azərbaycançılıq da olmayacaq və Azərbaycan xalqı da olmayacaq. Ən azı digər xalqların içində əriməli olacaq". Odur ki, ümummilli liderimiz bütün bu dəyərləri, milli ideologiyamızın əsasının azərbaycançılıq olduğunu deyirdi: "Azərbaycan dövlətinin milli ideologiyasının özəyini, əsasını təşkil edən azərbaycançılıqdır. Dövlətçilik, milli-mənəvi dəyərlər – bunlar hamısı azərbaycançılıq anlayışının tərkib hissələridir".

Heydər Əliyev 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına 29 dekabr 2000-ci il tarixli müraciətində həmvətənlərini yüksək qiymətləndirərək demişdir: "İkinci minilliyin tarixi əyani surətdə göstərir ki, Azərbaycan xalqı dünya mədəniyyətində öz dəst-xətti ilə seçilən xalqlarındandır. Keçən iki min il ərzində bəşər sivilizasiyasının ayrılmaz hissəsi kimi azərbaycanlılar dünya mədəniyyəti xəzinəsinə sanballı töhfələr vermişlər. Bizim əcdadlarımız ibtidai insanın mədəniyyət sahəsində əldə etdiyi bütün nailiyyətlərdən faydalanaraq, özünəməxsus zəngin mədəni-mənəvi irs yaratmışdır. Bunu istər Azərbaycan ərazisində arxeoloji qazıntılar nəticəsində tapılmış abidələr, istərsə də bu günümüzə qədər gəlib çatmış şifahi xalq ədəbiyyatı və yazılı ədəbi irsimiz sübut edir. Xalqımızın dünya elminə bəxş etdiyi töhfələrlə fəxr etməyə haqqı var. Nəsrəddin Tusinin, Əbdülhəsən Bəhmənyarın, Şihabəddin Sührəverdinin və digər mütəfəkkirlərin adları dünya elm aləminə yaxşı tanışdır. Şərqdə, o cümlədən Azərbaycanda təşəkkül tapmış intibah dünya mədəniyyəti tarixinin ən parlaq səhifələrindən biridir. Bu intibah Azərbaycan xalqının həyatın müxtəlif sahələrində qazandığı böyük uğurlarının məntiqi nəticəsi idi" [3].

Ümumiyyətlə, ilk Azərbaycan-müsəlman kitablarının bütün orta əsrlər ərzində yaradılmasında, eləcə də yeni tarixi epoxada milli yazılı abidələrimizin yaradılmasında, qorunub-saxlanılmasında, dünyanın müxtəlif elm və mədəniyyət mərkəzlərindən Azərbaycana zəngin kitab kolleksiyalarının daşınmasında, ilk növbədə, Azərbaycan alimlərinin rolu əvəzsiz olmuşdur. Bununla yanaşı, tarix göstərir ki, Azərbaycan elm və mədəniyyəti, eləcə də yazılı-mənəvi irsimiz tarixin bütün çağlarında öz xalqını sevən, onun yaratdığı unikal səviyyələri yüksək qiymətləndirməyi bacaran, bu sərvətin

qorunmasının və xalqın istifadəsinə verilməsinin bütün təşkilati işlərinin ağırlığını öz üzərinə götürməyə hazır olan mərd, ağıllı və qüdrətli hamilərə, dövlət xadimlərinə ehtiyac vardır. Orta əsrlər boyu millətini sevən, onun gələcəyini düşünən, xalqın ulu əcdadlarının irsini zənginləşdirməyə və gələcək nəsillərə çatdırmağa coşqun maraq göstərən Ağqoyunlu, Qaraqoyunlu, Səfəvi, Əfşar, Qacar şahlarının, ümumiyyətlə, kübar cəmiyyətin nümayəndələrinin adları Azərbaycan tarixində fərəhlə çəkilir.

Azərbaycan elm və mədəniyyəti XX əsrdə yazılı-mənəvi irsin qorunması və xalqa təqdim edilməsi istiqamətində qüdrətli himayədarların qayğısına bəlkə də, əvvəlki epoxalardan daha çox ehtiyac hiss etmişdir.

Azərbaycan əlyazmalarının və qədim çap kitablarının əsrin kəşməkəşli illərində qorunub zəmanəmizə çatdırılmasında Azərbaycan ziyalıları mühüm rol oyanmışdır. XX əsrin 20-30-cu illərindən başlayaraq, əlyazmalar və ərəb qrafikasında yazılmış başqa mənbələr feodalizmin, kapitalizmin, ümumiyyətlə keçmişin qalığı adı altında məhv edilirdi. 13-14 əsr ərzində yazılmış və toplanmış abidələrin mütləq əksər hissəsi vulqar sosiologizm şüarları altında tar-mar edilirdi.

XX əsr Azərbaycan elmi, eləcə də əlyazmaşünaslıq sahəsi ona hər cür qayğı göstərən, güclü tərəqqisinə yol açan bir şəxsiyyətin yolunu gözləyirdi. Bu məsələ 70-ci illərdən başlayaraq, Heydər Əliyevin timsalında öz həllini tapmış oldu. Əlyazmalar İnstitutunun son 40 ildə elmi-tədqiqat mərkəzi kimi təşəkkül tapması da müasir Azərbaycan cəmiyyətinin ən böyük ziyalısı, görkəmli xadimi, ulu öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır.

1981-ci ildə məhz H.Əliyevin birbaşa təşəbbüsü ilə qəbul edilən “Azərbaycan Elmlər Akademiyası Respublika Əlyazmalar Fondunun fəaliyyətinin daha da yaxşılaşdırılması haqqında” qərarı əsasında RƏF-in maddi-texniki bazasının gücləndirilməsi, əlyazmaların daha intensiv toplanması, öyrənilib nəşr etdirilməsi və yüksək ixtisaslı kadr potensialının yaradılması sahəsində bir sıra sanballı tədbirlər həyata keçirilmişdir. Düz bir il sonra, 1982-ci ilin oktyabrında Respublika Əlyazmalar Fondu gözəl bir tarixi binaya köçürülmüşdür və indi də həmin binada yerləşir.

Beləliklə, 1986-cı ildə Moskvada SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsində işləyən cənab Heydər Əliyevin yaxından iştirakı və köməyi sayəsində SSRİ Nazirlər Sovetinin 28 oktyabr 1968-ci il tarixli 2162 q №-li Sərəncamı, bir müddət sonra Azərbaycan SSR Nazirlər Sovetinin 11 noyabr 1986-cı il tarixli 398 q №-li Qərarı və Azərbaycan SSR EA Rəyasət Heyətinin 4 dekabr 1986-cı il tarixli 22/3 №-li Qərarı ilə Respublika Əlyazmalar Fondunun bazasında Əlyazmalar İnstitutu təsis edildi. 1996-cı ilin oktyabr ayında ulu öndərin sərəncamı ilə Əlyazmalar İnstitutuna dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin adı verildi.

Hazırda Əlyazmalar İnstitutu dünyanın ən zəngin Şərq əlyazmaları və arxiv materialları toplanmış mərkəzlərindən biridir. Yuxarıda göstərilənləri həyatımızın bütün yönlərində zaman-zaman hiss etmişik və şahidi olmuşuq.

Bu qayğı bununla bitmədi. Heydər Əliyev 07 avqust 2002-ci il sərəncamı ilə Naxçıvan Muxtar Respublikasında AMEA Naxçıvan Bölməsini yaradarkən demişdi: “Mən bununla Naxçıvan Muxtar Respublikasının indiyə qədər çox az öyrənilmiş qədim tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının yenidən dərindən araşdırılması və onlar haqqında elmi əsərlərin populyar kitabların yaxud başqa nəşrlərin hazırlanması məqsədi daşıyıram. Eyni zamanda, Naxçıvanın özünə məxsus təbiəti, təbii sərvətləri, torpağı təbii abidələri də təəssüf olsun ki, indiyə qədər lazımi dərəcədə öyrənilməyib. Bəlkə düz olardı deyim ki, heç öyrənilməyibdir. Bunlara, mənim irəli sürdüyüm məsələlərin öyrənilməsinə böyük ehtiyac var”. Ona görə də tariximizin hərtərəfli, dərindən və obyektiv öyrənilməsinə böyük önəm verən, bu sahədə orta əsr əlyazmalarının əhəmiyyətini yüksək qiymətləndirən ulu öndər AMEA Naxçıvan Bölməsinin strukturunu müəyyənləşdirərkən bölməyə daxil olacaq elmi-tədqiqat müəssisələrinin sırasında “Əlyazmalar Fondu”nun olmasını da vacib hesab etmişdir [4].

Göstərilənlər ulu öndərin varisçilik missiyasının çox kiçik bir hissəsidir. Heydər Əliyev həqiqətləri bizə çox zəngin bir irs əmanət qoyub. O, siyasi xadim, böyük şəxsiyyət kimi dünyada məşhurlaşdı. Azərbaycanda natiqlik məktəbi yaratdı. İdarəçilik məharəti, dövlətçilik bacarığı ilə bağlı onun irsini öyrənmək hər bir azərbaycanlı üçün olduqca gərəklidir. Heydər Əliyevin maddi olaraq aramızda olmaması dözülməzdir. Amma onun zəngin irsi və əsəri olan azad Azərbaycan dövləti xalqımızın qürur mənbəyidir.

## ƏDƏBİYYAT


1. 2016-cı ilin Azərbaycan Respublikasında “Multikulturalizm ili” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı, 11.01.2016.
2. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2015.
3. Azərbaycanın dövlət müstəqilliyinin 10-cu ildönümünə həsr olunmuş müşavirədə Azərbaycan Prezidenti Heydər Əliyevin giriş və yekun nitqi. Bakı, 02.10. 2001.
4. Heydər Əliyev 07 avqust 2002-ci il sərəncamı ilə Naxçıvan Muxtar Respublikasında AMEA Naxçıvan Bölməsinin yaradılması. “Azərbaycan” qəz., 2023, 9 avqust.



***AMEA Naxçıvan Bölməsi***
***E-mail: eylazov.f@gmail.com***



**Fakhraddin Eylazov**


## GREAT LEADER HEYDAR ALIYEV’S CARE FOR OUR NATIONAL AND SPIRITUAL VALUES


Protection of our national and spiritual values and passing them on to future generations remains as relevant today as it was in the past. Because along with the influence of our national and spiritual values on the formation of the Azerbaijani people, there is a special role in strengthening our national statehood. The in-depth study and research of our national-spiritual, including religious values and traditions, is one of the priorities of our modern society. Historical experience shows that nations and states that are far from their roots, history, national and spiritual values are in danger of disappearing in a certain period of time and going out of existence once and for all. When we say national-spiritual values, national ideology, moral memory, national history, national language, traditional religious values, national culture and art, national literature, national self-awareness, family system, our geniuses, national music and, in short, all our achievements and qualities, national and spiritual, belong to the system of national-spiritual values. Looking at the history of modern Azerbaijan, we see great leader Heydar Aliyev as the founder of the principles of protection and development of our national and moral values. The Great Leader, who left his historical signature on the foundation stones of the period of independence, laid the foundation of the ideology of Azerbaijanism, further strengthened our national-spiritual value system and saved them from erosion.



**Keywords:** *national-spiritual values, spiritual memory, national history, national language.*

**Фахреддин Эйлазов**

# ЗАБОТА ВЕЛИКОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА О НАЦИОНАЛЬНЫХ И ДУХОВНЫХ ЦЕННОСТЯХ

Защита наших национальных и нравственных ценностей и передача их будущим поколениям сегодня остается столь же актуальной, как и в прошлом. Потому что помимо влияния наших национально-нравственных ценностей на формирование азербайджанского народа, им принадлежит особая роль и в укреплении нашей национальной государственности. Углубленное изучение и исследование наших национально-духовных, в том числе религиозных ценностей и традиций является одним из приоритетных направлений нашего современного общества. Исторический опыт показывает, что нации и государства, далекие от своего происхождения, истории и национально-нравственных ценностей, сталкиваются с опасностью исчезновения в определенный период времени и окончательного стирания с исторической сцены. Когда мы говорим о национальных нравственных ценностях, мы имеем в виду национальную идеологию, духовную память, национальную историю, национальный язык, традиционные религиозные ценности, национальную культуру и искусство, национальную литературу, национальное самосознание, семейный строй, наших гениев, нашу национальную музыку и т. д. Одним словом, все наши национальные и духовные достижения и качества принадлежат системе национальных и нравственных ценностей. Когда мы смотрим на новейшую историю Азербайджана, мы видим великого лидера Гейдара Алиева как основоположника принципов защиты и развития наших национальных и нравственных ценностей. Великий лидер, оставивший свою историческую подпись на краеугольных камнях периода независимости, заложил основы идеологии азербайджанства, еще больше укрепил нашу национально-нравственную систему ценностей и спас ее от эрозии.

**Ключевые слова:** *национально-нравственные ценности, нравственная память, национальная история, национальный язык.*

**GÜLSÜM KƏRİMOVA**

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN NİTQİNDƏ ATALAR SÖZLƏRİ DƏYƏRİNDƏ MÜDRİK KƏLAMLARI

*Bəzi böyük tarixi şəxsiyyətlər zəka və istedadla doğulub. Onlar sadəcə şanslı insanlar deyil. Bu insanlar əslində Allah tərəfindən seçilmişdir. Azərbaycan tarixinin hər dövründə çox böyük şəxsiyyətlər yetişib. 20-ci əsr bir çox böyük şəxsiyyətlərin, o cümlədən Heydər Əliyevin yetişdiyi dövr idi. O, Azərbaycanı bütün dünyada tanıtdı, ölkəmizin beynəlxalq birliyin bir hissəsi olmasına nail oldu.*

*ulu öndərin sosial həyatın müxtəlif sahələrinə aid söylədiyi müdrik kəlamlar, atalar sözləri, nitq və çıxışlarından sitatlar gələcək nəsillərə böyük töhfələr verib və bundan sonra da örnək olacaq. Onun nitq və çıxışlarından toplanmış hər bir sitat dahi şəxsiyyətin, böyük siyasətçinin, əsl vətənpərvər bir insanın müdrikliyindən xəbər verir.*

*Məqalədə ümummilli liderin yüksək səviyyəli beynəlxalq tədbirlərdə, təhsil və mədəniyyət işçiləri ilə görüşlərdə, gənclər forumlarındakı nitqlərdə atalar sözləri dəyərindəki müdrik fikirləri öz əksini tapmışdır.*

**Açar sözlər:** *Azərbaycan, Heydər Əliyev, ümumi lider, dövlət, xalq, vətən, dahi şəxsiyyət.*

**Giriş.** “Mən fəxr edirəm ki, azərbaycanlıyam” ifadəsi ümummilli lider Heydər Əliyevin azərbaycançılıq və azərbaycanlı olmağın sevincini yaşaması, qürur hissinin ən yüksək səviyyədə təzahürü, inikasıdır.

İnsanın şəxsiyyəti tarixin gedişatına böyük təsir göstərir. Ümumiyyətlə, böyük insanlar ətrafdakı dünyaya böyük təsir göstərirlər. Bu xüsusilə siyasətçilər üçün doğrudur. Uğur qazanmaq üçün onlar çox ağıllı, müdrik və yaxşı təşkilatçılıq qabiliyyətinə malik olmalıdırlar. Həm də çox intuisiyaya və çoxlu təbii istedada malik olmalıdırlar.

Bəzi böyük tarixi şəxsiyyətlər zəka və istedadla doğulub. Onlar sadəcə şanslı insanlar deyil. Bu insanlar əslində Allah tərəfindən seçilmişdir. Azərbaycan tarixinin hər dövründə çox böyük şəxsiyyətlər yetişib. 20-ci əsr bir çox böyük şəxsiyyətlərin, o cümlədən Heydər Əliyevin yetişdiyi dövr idi. O, Azərbaycanı bütün dünyada tanıtdı, ölkəmizin beynəlxalq birliyin bir hissəsi olmasına nail oldu. Heydər Əliyev xilaskarlıq missiyasını yerinə yetirərək çətin günlərdən çıxa bildi. Bu, çox təhlükəli və mürəkkəb bir dövr idi və O, ölkəmizin, millətimizin taleyini bununla həll edirdi.

Vətənin ən çətin günlərini görüb, amma hər şeyə rəğmən ürəyi vətən eşqi ilə döyünən, vətən uğrunda mübarizə aparan zəhmətkeş bir ailədə dünyaya göz açan Heydər Əliyevin dilindən deyilən atalar sözləri və kəlamlar bu millətə bəxş etdiyi ən dəyərli mirasdır. Bu kəlamlar Azərbaycanın bu gününü və sabahını təsvir edir. Bizə dövlət və onun siyasəti, təhsili və mədəniyyətini ən yaxşı şəkildə öyrədir.

Heydər Əliyev 60-80-ci illərdə ilk hakimiyyətə gəldiyi dövr Azərbaycanda dönüş, təhsil, mədəniyyət, elm sahəsində və ümumilikdə ölkənin hər tərəfli inkişafında tərəqqi dövrüdür. Sovet rejimi dövründə görkəmli dövlət xadimi Heydər Əliyev heç bir əngəl tanımadan xalqın rifahı naminə fədakarlıqla çalışmışdır. Nəzər salsaq Heydər Əliyev sonralar demişdi: “Biz sovet rejimində yaşayırdıq. Məgər biz bu rejimi dəyişdirə bilərdik? Amma iş ondadır ki, bu rejim altında olsa da sən xalqın, millətin üçün nə edirsən. Əgər bu rejimi dəyişdirə bilmirsənsə, onda onun imkanlarından istifadə edib xalqına kömək göstər. Mən bunu etdim. Azərbaycan o illərdə çox yüksəklərə qalxdı” [1, s. 25].

Təbii ki, sovet hakimiyyəti illərini başdan-başa pisləmək düzgün olmazdı. Heydər Əliyev öz söhbətlərinin birində deyirdi: “...heç bir dövrü, heç bir şəxsi ideallaşdırmaq lazım deyildir. Təəssüf ki, bu ideallaşdırma xəstəliyi 70 ildir beynimizə girmişdir ... tarixin hər bir dövrünü olduğu kimi yazmaq lazımdır. Bu tarixçilərimizin əsas vəzifəsidir” [2, s. 156].

Heydər Əliyev uşaqlıq illərini keçirdiyi doğma yurdu Naxçıvanı "Azərbaycan xalqının qədim tarixini əks etdirən müqəddəs bir torpaq" adlandırırdı. Naxçıvana olan sevgisi, bağlığı hər zaman gözdən qaçılmaz olub. Bunu xüsusilə də, Naxçıvana olan səfərlərində anlamamaq mümkün deyildi.

"Heydər Əliyev Naxçıvan yeməklərini çox sevirdi. Həkimlərin tövsiyələrinin əksinə olaraq, Heydər Əliyev Naxçıvansayağı yeməkləri yeyirdi. Həkimlər dəhşətə gəlirdilər. Bir neçə gündən sonra analizlərin nəticələrini görəndə isə gözlərinə inanmırdılar: Prezidentin sağlamlıq durumu və ürək fəaliyyəti bütün göstəricilər üzrə xeyli yaxşılaşmışdı. "Bu möcüzədir, ancaq biz bu möcüzənin izahını tapa bilmirik" – deyə həkimlər heyrətlərini bildirdilər. Ancaq heç bir möcüzə baş verməmişdi – sadəcə olaraq Heydər Əliyev Vətən torpağının üstündə gəzir, saf dağ havasını udur, büllur bulaqların suyundan içir, uşaq vaxtı anasının bişirdiyi taamlardan yeyir, ona görə də özünü əla hiss edirdi" [3, s. 39].

1991-ci ildə blokada şəraitində olan Naxçıvan ən ağır, ən çətin günlərini yaşayırdı və bu günlərində Heydər Əliyevə pənah gətirdi. 1991-ci il **Ali Məclisin yeni sədrinin seçilməsi məsələsi müzakirə edilirdi. Xalq** Heydər Əliyevin namizədliyini irəli sürdü.

O vaxt **Heydər Əliyev həmyerlilərinə dedi: "Biz ya birlikdə öləcəyik, ya da birlikdə salamat qalacağıq". Elə ikinci yolu özü də, xalqı da üstün tutdular. Onlar sağ-salamat qaldılar və torpaqların bir zərrəsini də işğalçı erməni düşməninə vermədilər.**

**Ümummilli lider Heydər Əliyev 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildi və həmin sessiyada xalqa belə çıxış etdi:**

"...Azərbaycanın, Naxçıvanın belə vəziyyətində, çətin günündə, dövründə mənim üzərimə nəinki deputatların, binanın qarşısında, ətrafına toplaşmış naxçıvanlıların qoyduqları vəzifənin icrasından geri çəkilsəm, bu xalqın ağır günündə qaçmaq deməkdir. Ona görə belə bir ziddiyyətli vəziyyətdəyəm və bu vəziyyətdə də qalıram... Mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini yəqin ki, indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm" [4, s. 259].

Ümumiyyətlə, Ümummilli lider Heydər Əliyevin xalqımız qarşısındakı ən böyük xidmətlərindən biri, şübhəsiz ki, Azərbaycan dövlətçiliyinin xilası və bunun sayəsində ölkənin siyasi tarixində yeni bir mərhələnin açılmasıdır. O, xalqımızın birliyini, bütövlüyünü təmin edən xalqımızın ideologiyasının memarı idi.

Hələ ulu öndər Heydər Əliyev çətin şəraitə baxmayaraq, 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlib cəsarətlə çıxış edərək 20 Yanvarda baş vermiş faciəli hadisələrə görə məsuliyyət daşıyan şəxsləri sərt tənqid etməsi ictimaiyyət tərəfindən böyük dəstək görmüş və ölkədə mübarizlik əhval-ruhiyyəsi yaratmışdır. Bu mühüm çıxışı Azərbaycanın öz müstəqilliyi uğrunda apardığı mübarizədə Heydər Əliyevin bəyannaməsi adını vermək olar. Heydər Əliyevin Moskvadakı daimi nümayəndəliyindəki çıxışından sonra onu Azərbaycanın azadlığı uğrunda mübarizədə lider kimi qəbul etməyə başladılar. Düzdür, məsələnin bu tərəfi Heydər Əliyev üçün ciddi çətinliklər yaratmışdı. Amma doğma yurduna və xalqına bütün qəlbi ilə bağlı olan, onun azadlığı və müstəqilliyi uğrunda gedən mübarizədə kənarda dayanmağı ağlına belə gətirməyən Heydər Əliyevin vətənində baş vermiş bu qanlı faciələrə etinasız yanaşması qeyri-mümkün idi. Bəyanatda deyilən ağır və sərt fikirlər Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq üçün böyük rol oynadı və bu, xalqımızın mübarizəni davam etdirmək əzmini daha da artırdı:

"Azərbaycanda baş verən hadisələrə gəlincə mən onları hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm... Hesab edirəm ki, Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin (SSRİ-nin – İ.H.) ali partiya rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsəydi gərginlik indiki həddə çatmaz, ...1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün zəmin yaranmazdı... Bütün vəziyyətlərdə... məsələni siyasi cəhətdən tənzimləmək, xalqla mükaliməyə girmək

üçün əlverişli imkanlar olmuşdur. Lakin onlardan səmərəli istifadə edilməmişdir... Nəticəsi isə göz qabağındadır. Bəli, kobud siyasi səhv buraxılmışdır. Onlar sadəcə olaraq respublikadakı əsl vəziyyəti qiymətləndirə bilməmiş, Azərbaycan xalqının psixologiyasını anlamamış, əhalinin müxtəlif tərəfləri ilə əlaqələri zəifləmişlər... Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdırlar" [5, s. 157].

Azərbaycan Respublikası Milli Məclisinin 1993-cü il 15 iyun tarixli iclasındakı çıxışında Heydər Əliyev mübarizənin tarixi mahiyyətini ifadə edərək demişdir: "Azərbaycan Respublikasının dövlət müstəqilliyi 1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Respublikasının ənənələri əsasında müasir tələblərlə, dünyada gedən proseslərlə bağlı olaraq təmin olunmalıdır. Bu sahədə mən daim çalışacağam və heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm" [6, s. 2].

Heydər Əliyev 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının Prezidenti seçildi. Oktyabrın 10-da andiçmə mərasimində Heydər Əliyev xalqa müraciət etdi: "Belə bir yüksək və məsuliyyətli vəzifəni üzərimə götürərkən, birinci növbədə, Azərbaycan xalqının zəkasına, müdrikliyinə, qüdrətinə güvənirəm, arxalanıram. Azərbaycan xalqının mənə bəslədiyi ümidlər məni bu vəzifəni üzərimə götürməyə məcbur edib. Əmin etmək istəyirəm ki, bu ümidləri doğrultmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm" [7, s. 69].

"Azərbaycan dünyanın bütün ölkələrində yaşayan azərbaycanlıların vətənidir" deyən ulu öndər Heydər Əliyev sadəcə olaraq Azərbaycanda yox ölkədən kənarda yaşayan azərbaycanlıları da vətən oğlu bilib, onları vətəni unutmamağa səsləyirdi. 9 yanvar 1994-cü il tarixdə xaricdə yaşayan soydaşlarımızın bir qrupu ilə görüşdə çıxışında Heydər Əliyev bunları ifadə etdi:

Ölkənin ağır vaxtında prezident seçiləndə, prezident kürsüsünə qalxanda da, and içəndə də mən təkcə Azərbaycanın ərazisində olan azərbaycanlılara yox, bütün dünyada yaşayan azərbaycanlılara müraciət etdim. Bildirdim ki, respublikanın bu ağır dövründə hər bir azərbaycanlı, damarlarından azərbaycanlı qanı axan hər bir insan gərək Vətənin bu gününə yansın, münasibətini bildirsin, kömək etsin. Çünki azərbaycanlının Azərbaycandan başqa Vətəni yoxdur. Almaniyada yaşaya bilərsiniz, həm də çox firavan yaşaya bilərsiniz, Fransada, Amerikada da yaşaya bilərsiniz, varınız da, dövlətiniz də olar. Amma o ölkələr sizin Vətəniniz ola bilməz. Bunu təkcə azərbaycanlıya aid etmək olmaz. Hər bir millətin, hər bir insanın ana torpağı onun Vətənidir. Azərbaycanlıların da Vətəni Azərbaycandır.

...Mən demirəm ki, dünyada yaşayan bütün azərbaycanlılar köçüb buraya gəlsinlər. Buna ehtiyac da yoxdur. Mən demokratiya tərəfdarıyam, bu yolla getmişəm və yenə də gedəcəyəm. Kimin üçün harada rahatdır, hara onun üçün münasibdir, qoy orada da yaşasın. Amma hər kəs bilməlidir ki, onun Vətəni Azərbaycandır.

...Siz bilirsiniz ki, dekabrın 31-ni Dünya azərbaycanlılarının həmrəylik günü elan etmişik. Həmin gün mən Azərbaycan Respublikasının vətəndaşlarını Yeni il bayramı münasibətilə təbrik edərkən həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlıları həmrəylik günü münasibətilə təbrik etdim. Üzümü bütün dünya azərbaycanlılarına tutub müraciət etdim: bilin ki, sizin Vətəniniz var və hamınız öz Vətəninizlə əlaqədə olun. Xalqa bu müraciətimdən on gün keçir. Sizin bu gəlişinizi o çağırışa cavab kimi qəbul edirəm. Çox sağ olun ki, gəlmisiniz. Arzu edərdim ki, mənim səsim dünyanın hər yerində olan azərbaycanlılara çatsın. Əgər siz bunu çatdıra bilsəniz, mənə elə gəlir ki, bu həm bizim üçün, həm də başqa ölkələrdə yaşayan azərbaycanlılar üçün çox əhəmiyyətli olar" [2, s. 321-322].

Heydər Əliyev elmi prinsiplərə, beynəlxalq normalara, müstəqil dövlət quruculuğu prinsiplərinə əməl edən lider idi.

"Bir millət, iki dövlət" şüarını irəli sürən Heydər Əliyevin uzaqgörənliyi və dahi zəkası ilə Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq əlaqələri daha da möhkəmləndirilmiş, böyük, tarixi

uğurlara imza atılmışdır. 8 fevral 1994-cü il tarixdə Heydər Əliyev Ankarada "Çankaya" Köşkündə Azərbaycan Prezidentinin şərəfinə ziyafətdə Türkiyə ilə Azərbaycan arasındakı əlaqələri yüksək qiymətləndirmişdir.

Ölkədə elm və təhsilin inkişaf etdirilməsində Azərbaycanın ali təhsil müəssisələrinin keyfiyyətinin yüksəldilməsi Heydər Əliyev üçün zəruri idi. Hələ vaxtı ilə görkəmli dövlət xadimi Heydər Əliyev "Təhsil millətin gələcəyidir" deyərək təhsilin cəmiyyət həyatında rolunu yüksək qiymətləndirmişdir.

"Xalq həmişə öz ziyalıları, öz mədəniyyəti, öz elmi ilə tanınır" fikrini irəli sürən Heydər Əliyev Azərbaycanın hərtərəfli inkişafı üçün ixtisaslı mütəxəssislərin olmasını vacib hesab edirdi. Belə ki, o, ölkədə insanların təhsilini və təlimini yaxşılaşdırmaq üçün çalışırdı. Bura ali məktəblərdə təhsil və təlimin gücləndirilməsi, həmçinin yeni ali təhsil müəssisələrinin yaradılması daxildir. Azərbaycan Dillər Universiteti, Slavyan Universiteti, Texnologiya Universiteti, Memarlıq və İnşaat Universiteti, Milli Konservatoriya, Rəssamlıq Akademiyası, Müəllimlər institutu, Hərbi Akademiya, Milli Aviasiya Akademiyası və sair kimi ali təhsil müəssisələri Heydər Əliyevin qayğısı, sərəncamı və fərmanı ilə yaradılmış, inkişaf etmiş və formalaşmışdır. Təkcə Bakı şəhərində deyil, Naxçıvanda, Sumqayıtda, Gəncədə, Mingəçevirdə, Lənkəranda ali məktəblərin yaradılması həmin ərazilərdə təhsil sisteminin təkmilləşdirilməsinə nail olmuş və bu, Heydər Əliyevin təkcə paytaxtı deyil, bütün Azərbaycanı inkişaf etdirmək məqsədinə xidmət etdiyini bir daha doğrultmuşdur. Bununla da, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövr ölkədə təhsilin sürətli inkişafı və genişlənməsi, ölkənin intellektual güc mərkəzinə çevrilməsi ilə yadda qaldı.

Məhz ölkənin görkəmli lideri Heydər Əliyev rəhbər kimi fəaliyyət göstərdiyi ilk dövrdə Naxçıvan Dövlət Universitetində olmuşdur. Bu görüş Naxçıvan Muxtar Respublikasının muxtariyyət statusunun mahiyyətindən və əhəmiyyətindən bəhs etdiyi üçün universitetin tarixində çox mühüm əhəmiyyət kəsb edir. Bu status Naxçıvan Muxtar Respublikasının daha da inkişaf etməsinə və diqqəti dövlət siyasəti məsələsinə yönəltməsinə kömək etmişdir. Bu, statusun zəruriliyini cəmiyyətə çatdırmağa kömək etdi.

Naxçıvan Dövlət Universitetinin xidmətlərini və fəaliyyətini yüksək qiymətləndirən görkəmli dövlət xadimi Heydər Əliyev Naxçıvan Dövlət Universitetinə dair aşağıdakı mülahizələri söyləmişdir:

"Böyük məmnuniyyət hissi ilə deməliyik ki, bu ali məktəbin yaranması və fəaliyyəti Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatında, mədəniyyətində, sosial həyatında, onun inkişaf etməsində böyük rol oynamış və Azərbaycan Respublikasının yüksək təhsilli kadrlarla təmin olunmasına öz töhfəsini vermişdir [5, s. 239].

Heydər Əliyevin Naxçıvan Dövlət Universiteti haqqında dediyi sözlər Azərbaycan ali təhsilinin gələcəyi üçün mühüm əhəmiyyət kəsb edir. Xeyli vaxt keçsə də, onun ehtiva etdiyi ideya və tövsiyələr bu gün də aktuallığını qoruyub saxlayır.

Heydər Əliyev müəllim adını hər zaman uca tutmuşdur. Bunu kəlamlarında, çıxışlarında hər zaman diqqətə çatdırmışdır:

"Mən dünyada müəllimlikdən yüksək ad tanımıram".

"Bizim hər birimiz elmi dərəcəmizdən, biliyimizdən, təhsil səviyyəmizdən asılı olmayaraq, bütün nailiyyətlərimizə görə məktəbə, müəllimə borcluyuq".

"Mən Azərbaycanın sadə vətəndaşıyam. Bu addan yüksək ad yoxdur. Ancaq bundan da yüksək ad müəllimlikdir".

Ötən 30 ildə Azərbaycan Respublikasının uğurları Heydər Əliyevin müdrik rəhbərliyindən asılı olmuşdur. Xalq onun əməyini yüksək qiymətləndirib və bu dövr Azərbaycan tarixində "Heydər Əliyev dövrü" kimi tanınır.

Heydər Əliyev ölkəmizə çox mühüm töhfələr vermiş çox mühüm şəxsiyyət idi. Onun irsini öyrənməyi və gələcəkdə ölkəmizə fayda verməyi ona borcluyuq.

Onun nitq və çıxışlarından toplanmış hər bir sitat dahi şəxsiyyətin, böyük siyasətçinin, əsl vətənpərvər bir insanın müdrikliyindən xəbər verir.

"Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir".

"Bizdə təhsil çox inkişaf edibdir, Azərbaycanda demək olar ki, təhsil almayan adam yoxdur".

"Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir".

"Azərbaycanın dövlət müstəqilliyi bütün Azərbaycan xalqının milli sərvətidir".

"Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır".

"Biz bu çətin günləri keçib gedəcəyik, müstəqil Azərbaycan Respublikası dünya birliyində öz layiqli yerini tutacaq, hər bir Azərbaycan vətəndaşı özünün bu müstəqil dövlətə mənsub olduğunu böyük qürur hissi ilə bəyan edəcəkdir".

**Nəticə.** Bütün bunlar Azərbaycanın tarixində və taleyində böyük yer tutan görkəmli dövlət xadimi Heydər Əliyevin həmişə xalqımızın, o cümlədən də ziyalılarımızın böyük qayğıkeşi və müdafiəçisi olmasını ifadə edən əhəmiyyətli kəlamlardır.

ulu öndərin cəmiyyətin sosial həyatının müxtəlif sahələrində söylədiyi müdrik kəlamlar, atalar sözləri, nitq və çıxışlarından sitatlar gələcək nəsillərə böyük töhfələr verib və bundan sonra da örnək olacaq. Bu dahi şəxsiyyətin çıxışlarını oxuyanda, tədqiq etdikdə dərk edirsən ki, ümummilli liderimiz Heydər Əliyev son bir neçə ildə öz müdrikliyindən və uzaqgörənliyindən istifadə edərək bir çox mühüm məqsədlərə, o cümlədən güclü və sabit ölkə qurmaq, demokratiyanın inkişaf etdirilməsi, təhlükəsizliyin təmin edilməsi, asayiş və sabitlik, qanunun aliliyi, milli-mənəvi dəyərlərin qorunması, elmin inkişafı, əhalinin rifahının yüksəldilməsi, bir sözlə, bütün məsələləri bizim üçün əlçatmaz olan zirvədən böyük müdriklik və uzaqgörənliklə həll etmişdir.

İlham Əliyev Heydər Əliyev siyasət məktəbində formalaşmış və bu məktəb qlobal miqyasda böyük nailiyyətlər əldə edərək uğur qazanmışdır. İlham Əliyev və yuxarıda da qeyd etdiyimiz kimi onun rəhbərliyi ilə Qarabağı düşməndən azad edən, mərd, igid oğullar yetişdirən Azərbaycan xalqı Heydər Əliyev yaradıcı davamlılığının və inkişafının ən bariz nümunəsidir.

Ən sonda onu demək olar ki, böyük sınaqlardan çıxmış Heydər Əliyev siyasi kursunun fəaliyyətindən doğan kəlamların cövhərini AZƏRBAYCANÇILIQ təlimi təşkil edir. Heydər Əliyev kimi nəhəng dövlət xadiminin həyatı və fəaliyyətinin hər anı böyük məktəb, hər səhifəsi qiymətli bir kitabdır.

## ƏDƏBİYYAT


1. Qasımlı M. Heydər Əliyev – istiqlala gedən yol (1969-1987-ci illər). Bakı: Bakı Universiteti, 2006, 608 s.
2. Əliyev H. Müstəqilliyimiz əbədidir: 42 cilddə. I c., Bakı: Azərnəşr, 1997, 608 s.
3. Axundova E. Heydər Əliyev: şəxsiyyət və zaman: 7 cilddə. I c., Bakı: Ozan, 2007, 352 s.
4. Axundova E. Heydər Əliyev: şəxsiyyət və zaman: 7 cilddə. V c., Bakı: CBS Polygraphic Production, 2013, 736 s.
5. Həbibbəyli İ. Heydər Əliyev dövlətçilik təlimi və müasir dövr. Naxçıvan: Əcəmi, 2013, 272 s.
6. Cəfərov N. Ümummilli liderin xilaskarlıq və dövlət quruculuğu missiyası. "Xalq qəzeti", 2020, 15 dekabr, № 263, s. 3.
7. Mahmudov Y., Şükürov K. Naxçıvan: tarixi və abidələri. Bakı: Təhsil, 2007, 216 s.
8. https://www.azerbaijan-news.az/view-203854
9. Vəliyev X. Heydər Əliyev dövlətçilik haqqında (kəlamlar, sitatlar, aforizmlər). Bakı: Adiloğlu, 2008, 168 s.



***Naxçıvan Dövlət Universiteti***

***E-mail: gkarimova371@gmail.com***

**Gulsum Karimova**

## WISE SAYINGS EQUIVALENT TO PROVERBS IN THE SPEECH OF THE NATIONAL LEADER HEYDAR ALIYEV

Some great historical figures were born with intelligence and talent. They are not just lucky. These people are actually chosen by God. In each period of the history of Azerbaijan, great personalities grew up. The 20th century was the time when many great personalities grew up, including Heydar Aliyev. He introduced Azerbaijan to the whole world and made our country a part of the international community.

The wise sayings of the great leader, proverbs, quotations from his speeches relating to various areas of public life have made a great contribution to the life of future generations and will continue to serve as an example. In each quote collected from his speeches and speeches, the wisdom of a genius, a great politician and a true patriot is visible.

The article reflects the wise views of the national leader on the meaning of proverbs in high-level international events, meetings with educators and cultural figures, speeches at youth forums.

**Keywords:** *Azerbaijan, Heydar Aliyev, national leader, state, people, motherland, genius.*

**Гюльсум Каримова**

## МУДРЫЕ ИЗРЕЧЕНИЯ, РАВНОЦЕННЫЕ ПОСЛОВИЦАМ, В РЕЧИ НАЦИОНАЛЬНОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА

Некоторые великие исторические деятели были рождены с умом и талантом. Они не просто счастливчики. Эти люди на самом деле избраны Богом. В каждый период истории Азербайджана вырастали великие личности. XX век был временем, когда выросли многие великие личности, в том числе Гейдар Алиев. Он представил Азербайджан всему миру и сделал нашу страну частью международного сообщества.

Мудрые изречения великого вождя, пословицы, цитаты из его речей, касающихся различных областей общественной жизни, внесли большой вклад в жизнь будущих поколений и будут и впредь служить примером. В каждой цитате, собранной из его речей и выступлений, видна мудрость гения, великого политика и настоящего патриота.

В статье отражены мудрые взгляды общенационального лидера на значение пословиц в международных мероприятиях высокого уровня, встречах с деятелями образования и культуры, выступлениях на молодежных форумах.

**Ключевые слова:** *Азербайджан, Гейдар Алиев, национальный лидер, государство, народ, родина, гений.*

**ƏLƏKBƏR CABBARLI**

# TÜKƏNMƏZ XƏZİNƏ – HEYDƏR ƏLİYEV İRSİ

*Azərbaycan xalqının çoxəsrlik dövlətçilik tarixində öz xidmətləri ilə seçilən nadir, bənzərsiz bir şəxsiyyətlərdən bir Heydər Əliyevdir. Bütün ömrünü Azərbaycan dövlətinin yaranmasına və inkişafına həsr etmiş ulu öndər Heydər Əliyevin xalqı qarşısında xidmətləri misilsizdir. Azərbaycanın müstəqil dövlət kimi tanınması, hüquqi dövlətin yaranması, ilk Milli Konstitusiyamızın qəbul edilməsi məhz ümummilli liderimiz Heydər Əliyevin xidmətidir.*

*Hələ Heydər Əliyevin Azərbaycan birinci rəhbərliyi dövrü Azərbaycan tarixinə siyasi, sosial-iqtisadi və mənəvi yüksəliş dövrü kimi daxil oldu. Bununla da, xalqın milli mənlik şüurunun, müstəqillik ideyalarının oyanışına güclü təkan vermişdir.*

*Hakimiyyətinin ikinci dövründə də Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi yüksəlişi ilə yanaşı, respublikada elm və təhsilin, mədəniyyətin və incəsənətin inkişafı məsələləri də Heydər Əliyevin daim qayğı ilə yanaşdığı sahələr olmuşdur.*

*Heydər Əliyevin zəngin həyatı və fəaliyyətində Naxçıvanın özünəməxsus yeri və rolu vardır. Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə çox mühüm tarixi qərarlar qəbul edildi. Naxçıvanda ictimai-siyasi şəraiti daha da stabilləşdirmək və sağlamlaşdırmaq üçün böyük tədbirlər həyata keçirildi.*

*Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti olduğu 1993-2003-cü illər ölkəmiz, o cümlədən Naxçıvan üçün daha əlamətdar və yaddaqalan oldu. Müstəqillik tarixinin taleyüklü həmin mərhələsində Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi üçün ciddi addımlar atıldı, ölkədə ictimai-siyasi sabitlik, sosial-iqtisadi dirçəliş təmin edildi, nizami milli ordu yaradıldı.*

*Məqalədə məhz bu kimi məsələlər tədqiq edilmişdir.*

**Açar sözlər:** *Heydər Əliyev, Azərbaycan, tükənməz xəzinə, müstəqillik ideyaları, milli şüur, ictimai-siyasi sabitlik.*

Heydər Əliyev Azərbaycan xalqının çoxəsrlik dövlətçilik tarixində öz xidmətləri ilə seçilən nadir, bənzərsiz bir şəxsiyyətdir. Tarixin yaddaşında iz qoymaq, əbədi yaddaşlara yazılmaq hər bir insana nəsib olmur. O insan xoşbəxtdir ki, adı xalqının qəhrəmanlıq tarixinə həmişəlik həkk edilsin. Əlbəttə, Azərbaycan xalqının lideri, Azərbaycan dövlətinin memarı Heydər Əliyev məhz belə bir şəxsiyyətdir.

Bütün ömrünü Azərbaycan dövlətinin yaranmasına və inkişafına həsr etmiş ulu öndər Heydər Əliyevin xalqı qarşısında xidmətləri misilsizdir. Azərbaycanın müstəqil dövlət kimi tanınması, hüquqi dövlətin yaranması, ilk Milli Konstitusiyamızın qəbul edilməsi məhz ümummilli liderimiz Heydər Əliyevin xidmətidir. Ulu öndərin fəaliyyəti öz miqyasına görə o qədər genişdir ki, Azərbaycanın hüdudlarından belə kənara çıxa bilmişdir.

Bu gün ulu öndər Heydər Əliyev bütün dünyada tanınır, sevilir. Azərbaycan və türk dünyasının dahi oğlu Heydər Əliyev dünya miqyasında ən nüfuzlu dövlət başçısı kimi qəbul edilib. Əlbəttə, bu ulu öndər Heydər Əliyev şəxsiyyətinə verilən qiymətdir.

Azərbaycan xalqı üçün etdikləri isə hesaba gəlməz. Xalqımızın yaddaşında qurucu, xilaskar kimi əbədi bir məhəbbət qazanıb. Hələ Heydər Əliyevin Azərbaycan birinci rəhbərliyi dövrü Azərbaycan tarixinə siyasi, sosial-iqtisadi və mənəvi yüksəliş dövrü kimi daxil oldu. Bununla da, xalqın milli mənlik şüurunun, müstəqillik ideyalarının oyanışına güclü təkan vermişdir.

1969-cu il iyulun 14-də Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin (Azərbaycan KP MK) birinci katibi vəzifəsinə seçilməsi tarixi bir hadisə idi. İstər 1982-ci ilədək – Azərbaycanda özünün ilk rəhbərliyi dövründə, istərsə də 1982-1987-ci illərdə SSRİ rəhbərliyində

Nazirlər Soveti sədrinin birinci müavini və Sovet İttifaqı Kommunist Partiyası (Sov.İKP) Siyasi Bürosunun üzvü kimi mühüm hökumət və siyasi (dövlət) vəzifələri tutduğu illərdə Azərbaycanın hərtərəfli inkişafı məsələləri daim Heydər Əliyevin diqqət mərkəzində olmuş, o, bütün imkanlarından istifadə edərək doğma Vətəninin tərəqqisi naminə səylə çalışmışdı.

Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi yüksəlişi ilə yanaşı, respublikada elm və təhsilin, mədəniyyətin və incəsənətin inkişafı məsələləri də Heydər Əliyevin daim qayğı ilə yanaşdığı sahələr olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 21 yanvar 2013-cü il tarixdə "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında" imzaladığı Sərəncamda deyilir: "Azərbaycanda müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə Heydər Əliyevin adı ilə bağlıdır" [2, 2013, 22 yanvar].

Heydər Əliyevin zəngin həyatı və fəaliyyətində Naxçıvanın özünəməxsus yeri və rolu vardır. Bu, xalqımızın ümummilli liderinin yalnız 1923-cü ildə Naxçıvanda dünyaya gəlməsi və uşaqlığını burada keçirməsi ilə bağlı olmayıb, onun həyatının, siyasi və dövlətçilik fəaliyyətinin sonrakı mərhələlərində də Azərbaycanın bu qədim diyarı ilə bağlılığı sübut edən faktlarda, o cümlədən 1990-1993-cü illərdə Naxçıvanda yaşayıb fəaliyyət göstərməsi, muxtar respublikaya rəhbərlik etməsi, ölkəyə rəhbərliyinin hər iki dövründə buraya olan çoxsaylı səfərləri və daimi diqqəti ilə bağlıdır. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2014-cü ilin aprel ayında Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi ilə bağlı təntənəli mərasimdəki nitqində dediyi sözlər ümummilli lider Heydər Əliyevin Naxçıvanla bağlı fəaliyyətinə verilən ən yüksək qiymətdir: "Naxçıvanın inkişafı ulu öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. İlk növbədə ona görə ki, Naxçıvan Azərbaycan xalqına ulu öndər Heydər Əliyevi bəxş etmişdir. Ulu öndər bütün dövrlərdə Naxçıvana böyük diqqət göstərmişdir. 1970-1980-ci illərin əvvəllərində respublikanın sosial-iqtisadi inkişafı üçün çox böyük işlər görmüşdür. O vaxt Azərbaycanın hər bir yerində olduğu kimi, Naxçıvanda da sürətli inkişaf dövrü müşahidə edilirdi. Ulu öndərin rəhbərliyi ilə Azərbaycan 1980-ci illərin əvvəllərində sovet məkanında ən qabaqcıl yerlərdə idi, o cümlədən Naxçıvanda da böyük sosial quruculuq işləri aparılırdı. Naxçıvanın sənaye potensialı formalaşırdı. Bir sözlə, muxtar respublika öz inkişaf dövrünü yaşayırdı" [10, s. 70].

Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə çox mühüm tarixi qərarlar qəbul edildi. Naxçıvanda ictimai-siyasi şəraiti daha da stabilləşdirmək və sağlamlaşdırmaq üçün böyük tədbirlər həyata keçirildi. Getdikcə güclənən erməni təcavüzünün və düşmənin yaratdığı blokadanın ağır nəticələrinin qarşısının alınması üçün düşünülmüş və çevik siyasət yürüdüldü.

Heydər Əliyevin qonşu Türkiyə Cümhuriyyətinə və İran İslam Respublikasına ardıcıl səfərləri, bu səfərlər zamanı imzalanan müqavilələr Naxçıvanın və onun əhalisinin sosial-iqtisadi vəziyyətinin yüngülləşdirilməsində müstəsna rol oynadı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ulu öndər Heydər Əliyevin Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi 1990-1993-cü illəri əsl tarixçi qələmi ilə qiymətləndirərək demişdir: "1990-cı ilin iyul ayında ümummilli lider Heydər Əliyevin Naxçıvana gəlməsi, burada siyasi fəaliyyət göstərməsi muxtar respublikanın ərazisini erməni işğalından, muxtariyyətini isə ləğv olunmaq təhlükəsindən xilas etmişdir. Həmin illərdə ümummilli liderimizin muxtar respublika parlamentində xüsusi bəyanatla çıxış etməsi, Türkiyə Respublikasına səfəri zamanı Moskva və Qars müqavilələrini yenidən gündəliyə gətirərək, dünya ictimaiyyətinin diqqətini Ermənistanın təcavüzkarlıq siyasətinə yönəltməsi Naxçıvanın muxtariyyət statusuna ikinci ömür vermişdir" [11, s. 99].

XX əsrin 90-cı illəri və XXI əsrin ilk illərində Naxçıvanın təhlükəsizliyinin təmin edilməsi, muxtariyyət statusunun möhkəmləndirilməsi, dövlətçilik istiqamətində yeni tarixi qərarların qəbul edilməsi, burada elmin və təhsilin inkişafı, bölgənin tarixinin, arxeoloji abidələrinin öyrənilməsi, əsaslı tədqiqatların aparılması məhz Heydər Əliyevlə, onun müəyyənləşdirdiyi siyasi xətlə bağlıdır.

Beləliklə, Heydər Əliyevin Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında hər bir sahə ilə bağlı həyata keçirdiyi islahat xarakterli tədbirlər, yürütdüyü siyasət həm uğurla nəticələnmiş, həm də bu siyasətin özü daim tədqiqatçıların diqqət mərkəzində olmuş, Heydər Əliyevin çoxşaxəli siyasi və dövlətçilik fəaliyyətinin müxtəlif istiqamətləri ilə bağlı sanballı tədqiqat işləri aparılmışdır.

Belə ki, 1969-1982-ci, 1990-1993-cü və 1993-2003-cü illərdə Naxçıvanda baş verən hadisələr, proseslər, muxtar respublikanın inkişafı məsələləri, muxtariyyət statusunun möhkəmləndirilməsi, bölgənin tarixinin öyrənilməsi, ordu quruculuğu, bölgənin erməni təcavüzündən müdafiəsinin təşkil olunması və xilası, iqtisadiyyatın, elmin və təhsilin inkişafı məsələləri ulu öndərin adı ilə bağlıdır [5]. Ulu öndər Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətdə olduğu bu illər bütövlükdə Azərbaycan tarixinin mühüm bir dövrüdür.

1969-cu ildə Heydər Əliyev hakimiyyətə gəldikdən sonra məhz onun həyata keçirdiyi tədbirlər Naxçıvanın ictimai-siyasi, sosial-iqtisadi, mədəni həyatına öz müsbət təsirini göstərmişdir. Həmin dövrdə Naxçıvanda dövlətçilik istiqamətində mühüm addımlar atılmış, muxtar respublikada sosial-iqtisadi sahə ilə yanaşı, elm, təhsil və mədəniyyət də inkişaf mərhələsinə qədəm qoymuşdur [13, s. 145-263].

1990-cı ildə Heydər Əliyevin Naxçıvana gəlişi ilə bölgə erməni təcavüzündən xilas oldu. Milli dövlətçilik ənənələrinin bərpası və yaradılması istiqamətində tarixi qərarlar qəbul edildi, Naxçıvanın müdafiəsinin hərbi-siyasi və diplomatik yollarla təşkili sayəsində muxtar respublika erməni təcavüzündən qorundu, sosial-iqtisadi sahədə mühüm tədbirlər həyata keçirildi [8; 9; 13, s. 298-363].

Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti olduğu 1993-2003-cü illər ölkəmiz, o cümlədən Naxçıvan üçün daha əlamətdar və yaddaqalan oldu. Müstəqillik tarixinin taleyüklü həmin mərhələsində Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi üçün ciddi addımlar atıldı, ölkədə ictimai-siyasi sabitlik, sosial-iqtisadi dirçəliş təmin edildi, nizami milli ordu yaradıldı. Aparılan uğurlu xarici siyasət sayəsində ölkə beynəlxalq aləmdə öz mövqeyi ilə tanınan və qəbul edilən dövlətə çevrildi, elm, təhsil, mədəniyyət inkişaf etdi. Müstəqil Azərbaycanın 1995-ci il Konstitusiyasında [1] Naxçıvanın muxtar dövlətçiliyinin əsas konstitusion prinsipləri ali hüquqi səviyyədə təsbit edildi. Naxçıvana dövlət qayğısı daha da artdı, onun muxtariyyət statusunu möhkəmləndirmək istiqamətində bir sıra addımlar atıldı, muxtar respublikanın yaradılmasının yubiley ildönümləri dövlət səviyyəsində geniş qeyd edildi. Habelə Naxçıvan tarixinin hərtərəfli araşdırılıb tədqiq edilməsi, yenidən yazılması məsələləri mühüm bir vəzifə kimi qarşıya qoyuldu.

Bu baxımdan ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci, 1993-2003-cü illərdə, eləcə də Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi, Ali Məclisin Sədri vəzifəsində işlədiyi 1990-1993-cü illərdə milli dövlətçiliyin möhkəmləndirilməsi istiqamətində qəbul etdiyi qərarlar, ərazi bütövlüyü uğrunda apardığı mübarizə, Naxçıvanın konstitusion-hüquqi, hərbi-siyasi və diplomatik səviyyədə etibarlı müdafiəsinin təşkili, bölgənin muxtariyyət statusunun möhkəmləndirilməsi, tarixinin öyrənilməsi və tədqiqi məsələləri, elm, təhsil, mədəniyyət, ordu quruculuğu sahəsində həyata keçirilən islahatlar bilavasitə Azərbaycan xalqının ümummilli liderinin adı ilə bağlıdır [8; 9; 13, s. 145-263].

Azərbaycanın dövlət müstəqilliyinin bərpası və ümummilli lider Heydər Əliyevin ölkəmizdə hakimiyyətə qayıdışı yalnız ictimai-siyasi, sosial-iqtisadi və mədəni-mənəvi həyatın bütün sahələrində əsaslı dönüşün yaranmasına, siyasi və dövlətçilik tariximizin obyektiv və dolğun, eyni zamanda doğru-düzgün yazılması üçün zəruri şərait yaratdı. Sovet hakimiyyəti illərində avtoritar rejimin siyasi-psixoloji və yad ideoloji buxovlarının müəyyən etdiyi çərçivədə yazılan, XX əsrin 80-ci illərinin sonu-90-cu illərinin populizm, nihilizm, diletantlıq və s. xoşagəlməz meyllərin təsiri duyulan Azərbaycan tarix elmi çoxminillik tariximizin mürəkkəb problemlərini elmi baxımdan uğurla həll edə bilmirdi. Xüsusən

XIX-XX əsrlər Azərbaycan tarixinin ayrı-ayrı problem-məsələlərinə dair təzadlı fikirlər çoxalmışdı və sürətlə yayılırdı.

Həm dövlətçiliyimiz, həm də tarix elmimiz üçün belə bir mürəkkəb şəraitdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1993-cü il sentyabrın 21-də [2, 1993, 24 sentyabr] və 1997-ci il yanvarın 31-də [2, 1997, 1 fevral] Azərbaycan MEA-da aparıcı ziyalılarla, elmi institutların və ali təhsil müəssisələrinin rəhbərləri ilə, elmi ictimaiyyətin və Azərbaycan tarixçilərinin qabaqcıl nümayəndələri ilə çox mühüm və ciddi dönüş nöqtəsi sayılacaq iki görüş keçirdi. Bu görüşlərdəki elmi proqram xarakterli nitqində Heydər Əliyev Azərbaycan tarixi elmində yaranmış vəziyyəti dərindən təhlil etdi, tarixçi alimlərin təklif və mülahizələrini də dinləyərək ölkəmizin və xalqımızın XIX-XX əsrlər tarixinin yenidən yazılmasına dair konkret göstərişlər və tapşırıqlar verdi, tarix elminin qarşısında mühüm vəzifələr qoydu. Bu görüşlərdə Heydər Əliyev bir tərəfdən sovet hakimiyyəti illərində antimilli ideoloji çərçivədə yazılmış, digər tərəfdən isə son vaxtlarda tarix elmində baş qaldırmış populist və volyuntarist meyllərin aradan qaldırılmasını, Vətən tarixinin, xüsusilə XIX-XX əsrlər tariximizin yeni təfəkkür tərzində, yüksək səviyyədə, obyektiv və ləyaqətlə tədqiq olunmasını əsas vəzifələrdən biri kimi müəyyənləşdirdi: “70 illik sovet dövründə Azərbaycan tarixi təhrif edilib. Tarixçilərin yadındadır ki, mən 70-80-ci illərdə alimlərlə dəfələrlə görüşmüşəm, hər dəfə də narahatçılığımı bildirmişəm… O vaxtlar da demişəm, indi də deyirəm ki, tarixçilərimiz üçün bütün şəraiti yaratmağa hazırıq. Bir şərtlə ki, tarixçilərimizdən bu gün üçün, gələcək nəsillər üçün yaxşı əsərlər ala bilək” [4, s. 93].

Ümummilli liderin mövqeyi Azərbaycanın sovet dövrü tarixinin yeni müstəvidə tədqiq edilməsinin müasir dövrümüzdə olduqca aktual olduğunu sübut edirdi. Məsələn, XX əsrin 20-30-cu illəri, ümummilli lider Heydər Əliyevin dediyi kimi, Azərbaycan tarixşünaslığında ciddi tədqiqata ehtiyacı olan dövrlərdən biri kimi böyük aktuallıq kəsb edirdi. Çünki 1920-30-cu illər “Azərbaycan xalqı üçün, bir tərəfdən çox məşəqqətli olubdur, qurbanlar verilibdir, günahsız repressiyaya uğrayıbdır; ikinci tərəfdən də xalqımız inkişaf edibdir, savadsızlıq tamamilə ləğv olunubdur, ali təhsil müəssisələri, böyük sənaye və iqtisadi potensialı yaranıbdır, mədəniyyətimiz sürətlə inkişaf edibdir”. Bu prizmadan çıxış edən Azərbaycan Prezidenti Heydər Əliyev Azərbaycanın XX əsr tarixinin yenidən obyektiv, doğru-düzgün yazılmasına xüsusi diqqət yetirilməsini vacib sayırdı: “Xalqımız böyük tarixi yol keçibdir. Tariximizin parlaq səhifələri də, qaranlıq səhifələri də var. Tariximizin hər bir səhifəsinə hörmətlə, ehtiramla yanaşaq... Biz qısa vaxtda heç olmasa, XX əsrin tarixini yazmalıyıq” [2, 1996, 23 iyun].

Heydər Əliyev XX əsrin tarixinin müstəqillik dövrünün yaratdığı imkanlar daxilində obyektivcəsinə yazılmasının tərəfdarı idi. O bu dəfə də sovet hakimiyyəti illərində qazanılan bir sıra nailiyyətləri tam inkarçılıq xətti tutan bəzi subyektiv düşüncəli tarixçiləri nəzərdə tutaraq demişdir: “Keçmiş tariximizi yüksək qiymətləndirərək, eyni zamanda XX əsrdə xalqımızın həyatında, tarixində böyük nailiyyətlər əldə olunmasını və böyük dirçəlişi, böyük irəliləməni xüsusi qiymətləndirməliyik. Biz bunu nəinki qeyd etməliyik, biz bununla fəxr edə bilərik və mən, şəxsən özüm, fəxr edirəm. Mən XX əsrin əvvəllərində doğulmuşam, indi XX əsrin sonuna qədər yaşayıram. Mənim həyatım bu dövrdə keçibdir və çox şeylərin şahidiyəm. Ona görə də mən bilirəm, görmüşəm və tarixi də oxumuşam ki, bizim xalqımız bu dövrdə böyük bir inkişaf dövrü keçibdir” [6, s. 449-450]. Xalqımızın tarixinin doğru-düzgün yazılmasına, hadisələrin və tarixi faktların obyektiv tədqiq edilməsinə, tarixi həqiqətlərin üzə çıxarılmasına, zəngin arxiv materiallarının elmi dövriyyəyə cəlb edilməsinə və fundamental tarix kitablarının hazırlanmasına böyük əhəmiyyət verən ümummilli liderimiz deyirdi: “...Tarix hər bir insan üçün yeniyetməlikdən başlayaraq ömrünün sonuna qədər lazımdır, ...hər bir gənc gərək Azərbaycan tarixini yaxşı bilsin, oxusun, öyrənsin” [2, 1997, 1 fevral].

Ulu öndər qətiyyətlə bildirirdi ki: “Biz Azərbaycanın XX əsr tarixini yazmalıyıq, XX əsrdə keçdiyimiz yolu araşdırmalıyıq, tədqiq etməliyik. Bu, bizim alimlərimizin, tədqiqatçılarımızın qarşısında duran vəzifədir. Biz bunu etməliyik” [2, 1996, 9 aprel]. Buna görə də “tarixçilərimiz apardıqları araş-

dırmalarına yüksək tələbkarlıqla yanaşmalıdırlar. Tarixi həqiqətlər aşkar edilməli, ...sovet dövründə qadağa qoyulmuş bütün dövrlər tədqiqat obyektinə çevrilməlidir. Azərbaycan xalqının və onun qurduğu dövlətlərin tarixinin araşdırılmayan bircə səhifəsi belə qalmamalıdır" [7, 2009, 9 dekabr].

Həmin görüşlərdə ulu öndər XIX-XX əsrlər Azərbaycan tarixinin yazılmasını daim nəzarət altında saxlayacağını, ona hərtərəfli kömək və yardım edəcəyini də bildirirdi. Bu, Prezident Heydər Əliyevin Azərbaycan tarixinə dövlət siyasəti səviyyəsində diqqət və qayğının parlaq ifadəsi, tarixçilər qarşısında isə duran dövlət proqramı, fəaliyyət proqramı idi. Ümumiyyətlə, Heydər Əliyev bütün fəaliyyəti boyu Azərbaycan tarix elminin də böyük qayğıkeşi kimi özünü göstərmişdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 2000-ci il dekabrın 29-da "Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına müraciəti" [3]əslində milli ideologiyamızın tarixi-nəzəri konsepsiyasıdır. Bu mühüm sənəd digər tərəfdən ulu öndərin sovet hakimiyyəti süqut etdikdən və müstəqillik dövründə tarix elminin əvvəlki dövrün ziyanlı ideoloji buxovundan yenicə qurtulduğu bir vaxtda tarixçi alimlər üçün Azərbaycan tarixinin yeni, dəqiq və bütün konturları əhatəli şəkildə cızılmış konsepsiyası kimi tarixə yazıldı.

Göründüyü kimi, bütün sahələrdə baş verən inkişaf, tərəqqi ulu öndərin adı və fəaliyyəti ilə bağlıdır. Bu fəaliyyət isə Azərbaycanı möhkəm bünövrə üzərində formalaşdırdı. Azərbaycan özünün yeni inkişaf dövrünə qədəm qoydu.

Heydər Əliyev Azərbaycanın XX əsr tarixinə müdriklik, vətənpərvərlik, insanlıq kimi bəşəri dəyərləri bəxş etdi. Eyni zamanda, xalq-rəhbər birliyinin yenilməzliyini həqiqətə çevirdi.

Bir sözlə, Heydər Əliyev irsi bizim üçün tükənməz bir xəzinədir. Bu irsi öyrəndikcə öyrənməyə çalışırsan. Bu irs elə bir irsdir ki, burdan çox şey öyrənmək mümkündür.

Ümummilli liderimizin Azərbaycanın inkişafı naminə irəli sürdüyü strategiya bu gün dövlət başçısı cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Ölkəmizin davamlı inkişafı təmin edilir, qarşıya qoyulan hədəfə doğru dayanmadan addım atılır.

**ƏDƏBİYYAT**


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2009, 68 s.
2. "Azərbaycan" qəzeti.
3. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti. Naxçıvan: Əcəmi, 2001, 192 s.
4. Bayramov Q. Heydər Əliyev və Azərbaycan tarix elmi. Bakı: Təhsil, 2004, 263 s.
5. Cabbarlı Ə. Heydər Əliyev və Naxçıvan tarixi məsələləri. Naxçıvan: Əcəmi, 2015, 232 s.
6. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. IX kitab, Bakı: Azərnəşr, 2000, 466 s.
7. "Xalq qəzeti".
8. Qayıdış (1990-1993): Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, 780 s.
9. Qayıdış (1990-1993): Sənədlər toplusu. Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr, Bakı: Azərbaycan 2008, 840 s.
10. Naxçıvan Muxtar Respublikası – 90. Naxçıvan: Əcəmi, 2014, 104 s.
11. Naxçıvan Muxtar Respublikasının yubileyləri. Naxçıvan: Əcəmi, 2014, 212 s.
12. Naxçıvan tarixi: 3 cilddə. II c., Naxçıvan: Əcəmi, 2014, 528 s.
13. Naxçıvan tarixi. 3 cilddə. III c., Naxçıvan: Əcəmi, 2015, 560 s.


***Naxçıvan Dövlət Universiteti***
***E-mail: elekber.cabbarli1947@mail.ru***

**Alakbar Jabbarly**

## INEXHAUSTIBLE TREASURY – THE HERITAGE OF HEYDAR ALIYEV

Heydar Aliyev is one of the rare and unique personalities who distinguished themselves by their merits in the centuries-old history of the statehood of the Azerbaijani people. The great leader Heydar Aliyev, who devoted his whole life to the creation and development of the Azerbaijani state, has incomparable services to the people. The recognition of Azerbaijan as an independent state, the creation of a state of law, the adoption of our first National Constitution are the merits of our national leader Heydar Aliyev.

The period of the first leadership of Azerbaijan by Heydar Aliyev entered the history of Azerbaijan as a period of political, socio-economic and spiritual upsurge. By this, he gave a strong impetus to the awakening of the national self-consciousness of the people and the ideas of independence.

In the second period of his reign, in addition to the sociopolitical, socio-economic rise of Azerbaijan, the development of science and education, culture and art in the republic were also areas that Heydar Aliyev always cared about.

Nakhchivan occupies a unique place and role in the rich life and work of Heydar Aliyev. During the period when Heydar Aliyev was the Chairman of the Supreme Assembly of the Nakhchivan Autonomous Republic, significant historical decisions were made. Significant measures were taken to further stabilize and improve the sociopolitical conditions in Nakhchivan.

The 1993-2003 years, when Heydar Aliyev was the President of the Republic of Azerbaijan, became more significant and memorable for our country, including for Nakhchivan. At this fateful stage in the history of independence, serious steps were taken to strengthen the state independence of Azerbaijan, sociopolitical stability, socio-economic revival were ensured in the country, and a regular national army was created.

These issues are explored in the article.

**Keywords:** *Heydar Aliyev, Azerbaijan, inexhaustible treasury, ideas of independence, national identity, social and political stability.*

**Алекпер Джаббарлы**

## НЕИСЧЕРПАЕМАЯ СОКРОВИЩНИЦА – НАСЛЕДИЕ ГЕЙДАРА АЛИЕВА

Гейдар Алиев является одной из редких и уникальных личностей, отличившихся своими заслугами в многовековой истории государственности азербайджанского народа. Великий лидер Гейдар Алиев, посвятивший всю свою жизнь созданию и развитию Азербайджанского государства, имеет несравненные заслуги перед народом. Признание Азербайджана независимым государством, создание правового государства, принятие нашей первой Национальной Конституции – заслуги нашего общенационального лидера Гейдара Алиева.

Период первого руководства Азербайджаном Гейдара Алиева вошел в историю Азербайджана как период политического, социально-экономического и духовного подъема. Этим он дал сильный толчок к пробуждению национального самосознания народа и идей независимости.

Во второй период его правления, помимо общественно-политического, социально-эконо-

мического подъема Азербайджана, вопросы развития науки и образования, культуры и искусства в республике также были сферами, о которых всегда заботился Гейдар Алиев.

Нахчыван занимает уникальное место и роль в богатой жизни и деятельности Гейдара Алиева. В период, когда Гейдар Алиев был Председателем Верховного Собрания Нахчыванской Автономной Республики, были приняты очень важные исторические решения. Были предприняты значимые меры для дальнейшей стабилизации и улучшения социально-политических условий в Нахчыване.

1993-2003 годы, когда Гейдар Алиев был Президентом Азербайджанской Республики, стали более значимыми и памятными для нашей страны, в том числе и для Нахчывана. На этом судьбоносном этапе истории независимости были предприняты серьезные шаги по укреплению государственной независимости Азербайджана, в стране обеспечена общественно-политическая стабильность, социально-экономическое возрождение, создана регулярная национальная армия.

Данные вопросы исследуются в статье.

**Ключевые слова:** *Гейдар Алиев, Азербайджан, неиссякаемая сокровищница, идеи независимости, национальное самосознание, общественно-политическая стабильность.*

**TOĞRUL CƏFƏRLİ**

# AZƏRBAYCAN HEYKƏLTƏRAŞLIĞINDA HEYDƏR ƏLİYEV DÜHASI

*Ümummilli lider Heydər Əliyev ideyaları işığında öz inkişafının zirvəsinə qovuşan təsviri sənət tariximizdə eyni zamanda ulu öndərin ömür və sənət yolunun müxtəlif mərhələlərini əks etdirən sənət əsərləri müstəqillik illəri Azərbaycan təsviri sənətinin ən kamil nümunələridir. Məqalədə Azərbaycan heykəltəraşlığında dahi rəhbərin həyat və fəaliyyətinin müxtəlif məqamlarını əks etdirən sənət nümunələri geniş şəkildə təhlil və tədqiq edilmişdir.*

**Açar sözlər:** *ümummilli lider, düha, təsviri incəsənət, professional heykəltəraşlıq sənəti, heykəltəraşlıq.*

Azərbaycan heykəltəraşlıq məktəbinə nəzər yetirəndə aydın olur ki, bir çox qəhrəmanların, şairlərin, alimlərin, görkəmli şəxsiyyətlərin və dövlət başçılarının obrazları heykəltəraşlıq sənətində öz əksini tapmışdır. Ümummilli lider Heydər Əliyevin obrazı Azərbaycan heykəltəraşlıq məktəbində ən aparıcı mövqelərdən birini tutur. Azərbaycan heykəltəraşlığının tanınmış simalarından biri olan Xalq rəssamı, Rusiya Rəssamlıq Akademiyasının fəxri üzvü, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının professoru Natiq Əliyev dahi öndər, ümummilli lider Heydər Əliyev obrazını bir neçə dəfə yaratmışdır. Onun yaratdığı monumental abidələrdən biri Ukraynanın paytaxtı Kiyev şəhərində ucaldılmışdır. Bu abidənin 2004-cü ildə Kiyevdə açılışı olmuşdur (memar Vladimir Skuliskiy). Heykəlin Ukraynada ucaldılması heç də təsadüfi deyil. Ulu öndər daima xarici siyasətdə Ukraynanın dəstəyinə böyük səylə yanaşmış və onu dost ölkə kimi qeyd etmişdir [1].

Abidə – əsər öz-özlüyündə Heydər Əliyevin şux və məğrur duruşlu tunc heykəlindən ibarətdir. Heykələ baxarkən onun tamaşaçısında oyanan ilk təəssürat müəllifin öhdəsinə götürdüyü bu işi layiqincə yerinə yetirməsidir. Heykəltəraş fiqurun kompozisiyasında qranit kürsü ilə tunc heykəlin uğurlu əlaqəsini əldə etməklə, fiqurun duruşunda, obrazın psixoloji-emosional ifadəsində yenilməz insanlara xas olan nişanələri axtarıb tapmağa və bunları plastik sənətin imkanları daxilində açıb göstərməyə nail olmuşdur. Abidəyə yaxınlaşdıqca tamaşaçı heykəlin detallarına nüfuz edir, onun üzündəki nuranilik nişanələrinin və nüfuzedici baxışlarının sehrinə düşür. Müxtəlif istiqamətlərdən fiqurun siluetinə, xüsusən heykəlin özünə diqqət yetirən hər kəs abidənin yenilməz, mübariz, cəsur siyasətçi olan bir insana həsr olunduğunu hiss edir. Eyni zamanda fiqurun kostyumunda və qalstukda məğrur və şux təsviri qarşımızda iradəli siyasətçi obrazını canlandırır. Kostyumun fakturası və forması çox təbii-inandırıcı şəkildə verilmişdir. Bunu biz paltarın qırışlarından və bu qırışların hərəkətə uyğun olaraq dəyişməsində görürük. Fiqurun bədii cizgilərinin onun təsvir olunduğu ana uyğun olaraq verilməsi də müəllifin abidəni anatomik cəhətdən həll etdiyini göstərir. Abidədə diqqəti cəlb edən elementlərdən biri də onun kürsülüyüdür. Kürsülüklə fiqur bir-biri ilə çox gözəl uzlaşır. Burada kürsülük meydanın təbii davamı kimi görünür. Buna onun meydanın üzlük lövhələri ilə eyni rəngdə olması xeyli kömək edir.

Bununla belə ölkəmizin bir çox şəhər, rayonları ilə birlikdə, xarici dövlətlərdə də Natiq Əliyev müstəqillik dövründən sonra bir çox şairlərin və mütəfəkkirlərin heykəlləri ilə yanaşı, ulu öndər Heydər Əliyevin də monumental abidələrini ucaltmışdır ki, bunlar da şəhər mühiti ilə tam əlaqəli hiss olunurlar.

Heykəltəraş abidənin modeli üzərindəki işində fiqurun kompozisiya həllinin düzgün tapılmasını əsas sayır, bu baxımdan onun məkan fəallığına, ifadəliliyinə nail olmağa çalışır. O, monumental əsəri ideya-obrazlı, plastik, emosional-ifadəli qanunauyğunluqlardan kənar təsəvvür etməyi mümkün saymır. Odur ki, müəllifin bədii vasitə seçimi, eskizdən tutmuş orijinala kimi olan bütün axtarış yolu bir məqsədə, daha artıq emosional və obrazlı həllə nail olmağa tabe edilir.

Çoxsaylı eskiz variantları onu sübuta yetirir ki, heykəltəraş öz qarşısına mürəkkəbliyi ilə bir-birindən seçilən vəzifələr qoyur, yəni, obrazın ifadəli tərzdə açıqlanmasına, görkəmli dövlət xadiminin mənəvi tutumunu və ictimai-siyasi mahiyyətini təsvir etməyə yönəldir.

Ulu öndər bütün həyatı boyu var qüvvəsi ilə xalqına xidmət göstərib, işgüzarlığı və cəsarəti ilə seçilib, çox müdrik və uzaqgörən olub.

Heydər Əliyevin monumentinin və portretinin son variantlarına kimi bütün yaradıcı mərhələni izləyərkən aydın görünür ki, ümummilli liderin obrazı getdikcə mərhələdən-mərhələyə psixoloji baxımdan daha da zənginləşir.

Sənətkar yaratdığı obrazın şəxsiyyətini hərtərəfli öyrənəndən sonra, özünün təsəvvüründə canlandırdığı obrazın plastik şərhini məhz Heydər Əliyevin məqsədyönlü və məntiqli siyasətindən alınan təəssüratla əlaqədə vermişdir. İlkin eskizlərdən tanışlıqdan məlum olur ki, heykəltəraş fiqurun və kürsülüyün ölçüsünü, duruşun, jestin və geyimin plastik şərhini dəfələrlə korrektə etmişdir. O, xeyli vaxt fiqurun və əllərin hərəkətlərini tapa bilməmişdir. Yalnız işin son variantında obrazın ahəngdar addımı, əllərin vəziyyəti daha artıq təbii və arzulanan təsir bağışlamışdır. Eskizdən son – tamamlanmış varianta kimi olan yol bir məqsədə – təfərrüatdan qaçaraq obrazın və plastikanın şərhində ümumiləşməyə və monumentallığın əldə olunmasına tabe edilmişdir.

Natiq Əliyev həmçinin MDB və digər ölkələrin paytaxt şəhərləri üçün ulu öndərin kompozisiya və forma baxımından çox maraqlı abidələrini yaratmışdır.

Rəssamın yaradıcılığının üstün cəhətlərindən biri odur ki, o, bizi həmişə yaradıcı obrazın üzərinə diqqətlə baxmağa vadar edir. O, tipik saydığı səciyyəvi xüsusiyyətləri portretdə cəlbedici tərzdə ifadə etməyə çalışır. Heykəltəraş mənəvi keyfiyyətlərin rəngarəngliyini, fikirlərin ardıcıllığını görməyi, onları bir yerdə toplayıb bir insan simasında cəmləşdirməyi bacarır.

Böyük əminliklə və cəsarətlə deyə bilərik ki, Azərbaycan Respublikasının Xalq rəssamı Natiq Əliyevin yaradıcılığında Heydər Əliyev obrazı dəyərli bədii tutum etibarı ilə kulminasiya zirvəsi təşkil edir. Sumqayıt şəhərinin bədii həyatında son illərdə gedən canlanma təsviri sənətin digər sahələrində olduğu kimi heykəltəraşlıqda, xüsusən monumental heykəltəraşlıqda da hiss olunur. 2005-ci ildə şəhərin mərkəzi küçələrinin kəsişdiyi yerdə xalqımızın böyük oğlu, ümummilli lider Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi məqsədi ilə onun monumental abidəsi ucaldılmışdır [2]. Abidə qırmızı mərmər postament üzərində ucalır. Dahi öndər özünə yalnız ona məxsus olan şux qaməti, iti nəzərləri, simasında təcəssüm olunmuş qətiyyəti ilə diqqəti cəlb edir. Abidədə üzərində Azərbaycanın dövlət gerbi təmsil olunmuş kürsülük üzərində qərarlaşan Heydər Əliyev müstəqil Azərbaycanın konstitusiyasına əl basaraq and içən, zəmanəsinin ən görkəmli siyasi xadimi kimi xalqla bir olaraq, bu çətin və məsuliyyətli vəzifəni öz üzərinə götürərək bütün dünyaya Azərbaycanın müstəqilliyinin əbədi və dönməz olacağına inam və qətiyyət nümayiş etdirməkdədir.

Heykəltəraş Natiq Əliyev bununla tamaşaçının diqqətini zahirdə görünənlərdən daha çox sətiraltı mənalara cəlb etməyə çalışıb. Müəllif Heydər Əliyevi müasir Azərbaycanın əsl vətəndaşı, onun dövlətinin memarı, ilk demokratik konstitusiyasının müəllifi kimi təqdim etmişdir. Bu möhtəşəm əsərdə xalqın gələcək taleyini müdrikcəsinə görən bu böyük dühanın nəzərləri irəliyə dikilmişdir və bu işıqlı gələcəyi heç kəs, heç bir qüvvə şübhə altına ala bilməz. Postamentin düzbucaqlı forması heykəl – abidənin və kompozisiyasının sərtliyi ətrafdakı yaşayış binalarının bədii-konstruktiv quruluşu ilə uyğunlaşır.

Heykəltəraşın Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin şəxsiyyətinə həsr etdiyi əsərlər ilk növbədə bu mövzuda yaradılan abidə və portretlərdən bədii həllin səmimiliyinə görə diqqəti cəlb edir. Heç şübhəsiz o, bu mövzu üzərində çalışarkən qarşısında dayanan yaradıcı vəzifənin məsuliyyətini dərindən dərk edirdi. Təbii ki, bu çətinlik və mürəkkəblik, yəni, görkəmli dövlət xadiminin yaddaqalan obrazını yaratmaq bilavasitə obrazın böyüklüyü, müdrikliyi, aliliyindən irəli gəlirdi.

Heykəltəraş Natiq Əliyevin yaratdığı Heydər Əliyev obrazı (Bakı şəhəri, Prezident Aparatı, 2004-cü il) istifadə olunan bədii vasitələrə görə lakonikdir. Lakin bu sakit və təmkinli obrazda onun daşıdığı ağır məsuliyyətdən qaynaqlanan gərginliyin və özünə inamın ifadəsi hiss olunur. Ulu öndərin portretində onun dərin intellektuallığı, dərin biliyə malik olan insanpərvər şəxsiyyəti yaddaqalan cizgilərlə qeyd edilib [3].

Heykəltəraşın Gürcüstanın paytaxtı Tiflis şəhərində ucaldılan büst-abidəsində fəza-məkan həllindən irəli gələn möhtəşəmliyi duyulur. Elə bunun nəticəsidir ki, şəhərin izdihamlı guşələrindən birində – Kür çayından bir qədər aralıda, kiçik bağçada şaquli kürsü üzərində ucalan büst portret yaddaqalan forma-biçim həllinə, bədii ümumiləşdirmə gücünə görə diqqət çəkən olmaqla, görkəmli dövlət xadiminin özündə müdrikliyi və mübarizliyi birləşdirən obrazını yaşatdığını sərgiləyir. Abidənin uzaqdan müşahidə olunan siluetindəki ifadəlilik də ilk növbədə plastik formaların bir-birinə uyarlığının nəticəsidir, desək, həqiqəti söyləmiş olarıq [4].

Böyük düha Heydər Əliyevin obrazına həmçinin Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının rektoru, Azərbaycan Milli Elmlər Akademiyasının və Rusiya Rəssamlıq Akademiyasının həqiqi üzvü, "Şərəf nişanı", "Qırmızı Əmək bayrağı", "İstiqlal" ordenləri ilə təltif edilmiş, Xalq rəssamı Ömər Eldarovun yaradıcılığında rast gəlirik. Ümummilli lider Heydər Əliyev obrazı Ömər Eldarovun zəngin yaradıcılıq bioqrafiyasının əsasını təşkil edir. Dahi öndər ikinci dəfə Sosialist Əməyi Qəhrəmanı fəxri adına layiq görüləndən sonra 1987-ci ildə Ömər Eldarov onun Naxçıvan şəhərində ucaldılacaq büstünü yaratmışdır. Ömər Eldarov yeganə sənətkardır ki, Heydər Əliyevin portretini birbaşa canlı naturadan işləmişdir. Ümummilli lider Heydər Əliyevlə Ömər Eldarov bir-birini gənclik illərindən tanıyırdılar. Bu səmimi münasibət görkəmli dövlət xadiminin ilk büstünün uğurlu bədii həllinin tapmasına imkan vermişdir. Bu səbəbdən də təsadüfi deyil ki, Ömər Eldarov dahi liderin vəfatından sonra ucaldılmış bir neçə xatirə abidəsinin müəllifidir. Bakıda Ali Hərbi Neft Məktəbinin qarşısında general geyimindəki monumentini, Qobustan rayonunun Heydər Əliyev parkında və Fəxri xiyabanda ucaldılan qəbirüstü abidəni, eləcə də Türkiyənin Qars şəhərində ucaldılmış abidəni xüsusi qeyd etmək lazımdır [5, 6].

Heykəltəraş Ömər Eldarov "Kaspi" qəzetinə verdiyi müsahibəsində qeyd etmişdir: "Heydər Əliyev sağlığında öz heykəlinin ucaldılmasına birmənalı olaraq razılıq vermirdi. Bir hal istisna olmaqla: O, SSRİ-nin Ali sovetin qərarına əsasən ikinci dəfə Sosialist Əməyi Qəhrəmanı fəxri adına layiq görüldüyünə görə Vətənində büstün ucaldılmasına razılıq verməli idi. Çünki II dəfə bu fəxri ada layiq görülənlərin doğulduğu şəhərlərdə abidəsinin qoyulması qərarı dövlət sərəncamına əsaslanırdı. Hər bir məqam öncədən düşünülmüşdü: heykəlin ölçüləri və material.

Heydər Əliyev çox intizamlı dövlət xadimi olduğuna görə, o bu ənənəni yerinə yetirməkdən imtina edə bilməzdi. Bir müddət sonra Heydər Əliyev məni öz kabinetində qəbul etdi və dedi ki, ona Moskvadan heykəlin işlənməsi ilə əlaqədar çoxlu təkliflər gəlib. Amma özünün istəyinə əsasən, bu işi yalnız onu yaxşı tanıyan yerli heykəltəraşlardan biri işləməliydi. Mən təşəkkür edib böyük səylə çalışacağımı bildirdim. Heydər Əliyev həmçinin onu da bilirdi ki, əgər heykəli sağlığında düzəldilirsə onun eskizləri mütləq naturadan çəkilməlidir. Brejnev və Kosıqinin də heykəlləri belə işlənmişdir. Heydər Əliyev yaxşı bilirdi ki, əgər heykəltəraş onu naturadan işləyərsə nəticə daha uğurlu olar. O, Moskvada mənimlə bir neçə görüş təyin etmişdi. Mənim digər heykəltəraşlardan üstünlüyüm Heydər Əliyevin portretini naturadan yaratmağımdır. O Moskvada vaxt tapıb iki saat naturada dayanmışdır. Bu etüd təsvirin plastik və konstruktiv əsası idi. Başqa heykəltəraşlar üçün bəlkə də bu vacib deyil. Elə hallar olurdu ki, məndən Heydər Əliyevin etüdünü istəyiblər və mən də vermişəm. İllər sonra Türkiyənin Qars şəhər bələdiyyəsi rəhbərləri bizə müraciət edərək bildirdilər ki, öz şəhərlərində Heydər Əliyevin büstünü qoymaq istəyirlər. Onda mən ümummilli liderimizdən soruşdum: Necə edək? – axı etüd onun cavanlıq vaxtlarına təsadüf edir hazırkı yaşına uyğun deyil. Heydər Əliyev dedi ki, xeyir

mən elə düşünürəm ki, siz məni əvvəlki görkəmimdə verməlisiniz. Mən indiyə qədər belə edirəm. Hərdən cavanlar deyirlər ki, heykəl Heydər Əliyevə oxşamır. Onlar heykəli cavan vaxtlarının eskizlərinə uyğun düzəltdiyimi nəzərə almırlar. Lakin, mən Heydər Əliyevin bu istəyini yerinə yetirməkdə hələ də davam edirəm".

2004-cü ildə Heydər Əliyevin Fəxri Xiyabandakı qəbirüstü abidəsini yaradan heykəltəraş Ömər Eldarov dostluq borcunu yerinə yetirmişdi. Qranitdən hazırlanmış, hündürlüyü 4 metr olan möhtəşəm abidə əzəməti ilə diqqəti cəlb edir. Heydər Əliyevin statik duruşu heykəli daha da təsirli və monumental göstərir. Heykəltəraş Ömər Eldarov memorial abidəni kompleks halında verməklə dahi öndərin Azərbaycan üçün, Azərbaycan xalqı üçün, milləti üçün etdiyi hər bir xeyirxah əməlini göstərmişdir. Heykəlin arxa fonunda ucaldılan qaya parçasını xatırladan abidədə Azərbaycan Respublikasının xəritəsi qabarıq formada işlənmişdir. Bu, Ömər Eldarovun ziyarətçilərə göstərmək istədiyi ideyanı tamamlayır [7, 8].

Heydər Əliyevin vaxtı ilə yaşadığı evin giriş divarında barelyef xatirə lövhəsi 2008-ci ildə Ömər Eldarov tərəfindən hazırlanmışdır. Barelyefdə bu sözlər həkk olunmuşdur: "Azərbaycan xalqının ümummilli lideri, müasir Azərbaycan dövlətçiliyinin banisi, Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyev 1962 – 1982-ci illərdə bu evdə yaşamışdır" [9].

7 may 2013-cü il tarixdə Milli İncəsənət Muzeyində Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş sərgidə Ömər Eldarovun 2012-ci ildə ağ mərmərdən hazırladığı "Heydər Əliyevin portreti" əsəri sərgilənmişdir. Heykəltəraş bu portretində də ümummilli liderin xarakterini aydın və dolğun göstərmişdir [10].

Ömər Eldarov qeyd edir ki, ümummilli liderimiz Heydər Əliyev barədə "Azərbaycan" qəzetinin nəşri olan "Heydər Əliyev mənim həyatımda" toplusunda xatirələrim də dərc olunmuşdur. Ümummilli lider sözə, sənətə layiqincə qiymət verən şəxsiyyət idi. Onu 1951-ci ildən Leninqradda təhsil aldığım vaxtdan tanıyırdım. Tələbə vaxtlarımda mənə uğurlar arzulayırdı. Yaradıcılığımı mütəmadi olaraq izləyib. 1963-cü ildə "Əməkdar incəsənət xadimi" fəxri ad alanda ünvanıma təbrik teleqramı göndərdi. Orta Asiyada Sədrəddin Ayninin abidəsinə görə keçmiş SSRİ-nin Dövlət mükafatına layiq görüləndə yenə Heydər Əliyevdən teleqram aldım. O, möhkəm yaddaşa malik şəxsiyyət idi. Əməyinə görə sevdiyi, hörmət etdiyi adamları heç vaxt unutmazdı. Dəfələrlə fərdi sərgilərimə baxmış, ürək sözlərini demişdi. Azərbaycan KP MK-nin birinci katibi seçilməsi münasibətilə ona təbrik teleqramı göndərmişdim. İki il sonra tədbirlərin birində məni görüşə dəvət edib dedi: "Ömər, teleqramını almışam, vaxtım olmayıb cavab verməyə". Onun yaddaşının qüdrətinə valeh oldum. 1997-ci ilin bu vədəsində ulu öndər Amerika Birləşmiş Ştatlarında işgüzar səfərdə idi. Təsəvvür edin oradan zəng edib 70 yaşımın tamam olması münasibətilə mənə səmimi arzularını bildirdi. Respublika Rəssamlıq Akademiyasına da məhz onun təşəbbüsü ilə rektor təyin edildim. Ulu öndər Heydər Əliyev bütün azərbaycanlılara, ölkə vətəndaşlarına qayğı, diqqət göstərib. Fəxr edirəm ki, onun şərəfinə, şöhrətinə layiq heykəl yarada bilmişəm. Tez-tez o abidəni ziyarət edirəm [11, 12].

## ƏDƏBİYYAT


1. Əliyev Z. Heykəltəraşın sənət dünyasındakı izləri: Xalq rəssamı Natiq Əliyevin portret cizgiləri. "Mədəniyyət" qəz., 2008, 18 dekabr, s. 8.
2. http://sumqayit-dct.az/index.php?option=com_content&view=article&id=29&Itemid=33&lang=az
3. Hacızadə A. Azərbaycan heykəltəraşı Natiq Əliyev Rusiya Rəssamlıq Akademiyasının akademiki seçilmişdir. "Azərbaycan", 2008, 22 may, s. 5.
4. http://diaspora.gov.az/index.php?options=content&id=348

5. http://anl.az/down/meqale/respublika/2014/may/372944.htm
6. http://www.philosopher.az/Omar_Eldarov_Az.htm
7. http://photo.qip.ru/users/evgeniyaashurli.fotoplenka/140368938/147016612/#mainImageLink
8. http://photo.qip.ru/users/evgeniyaashurli.fotoplenka/140368938/all/?mode=xlarge
9. http://www.philosopher.az/Omar_Eldarov_Az.htm
10. http://www.xalqqazeti.com/az/news/culture/33876
11. http://lib.aliyevheritage.org/az/7774833.html
12. http://anl.az/down/medeniyyet2007/noyabr/medeniyyet2007_noyabr_167.htm

***Naxçıvan Dövlət Universiteti***

**Toghrul Jafarli**

## THE GENIUS OF HEYDAR ALIYEV IN AZERBAIJANI SCULPTURE

In the history of fine arts, which reached the peak of its development in the light of the ideas of the national leader Heydar Aliyev, the most perfect are works of art that reflect the various stages of the life and creative path of the great leader – examples of the fine arts of Azerbaijan during the years of independence. The article broadly analyzes and explores artistic samples that reflect various moments in the life and work of the brilliant figure of Azerbaijani sculpture.

**Keywords:** *national leader, genius, fine arts, professional sculptural art, sculpture.*

**Тогрул Джафарли**

## ГЕНИЙ ГЕЙДАРА АЛИЕВА В АЗЕРБАЙДЖАНСКОЙ СКУЛЬПТУРЕ

В истории изобразительного искусства, достигшего пика своего развития в свете идей общенационального лидера Гейдара Алиева, наиболее совершенными являются произведения искусства, отражающие различные этапы жизни и творческого пути великого лидера – образцы изобразительного искусства Азербайджана за годы независимости. В статье широко анализируются и исследуются художественные образцы, отражающие различные моменты жизни и деятельности гениального деятеля азербайджанской скульптуры.

**Ключевые слова:** *общенациональный лидер, гений, изобразительное искусство, профессиональное скульптурное искусство, скульптура.*

**AYSEL BEHBUDLU**

# HEYDƏR ƏLİYEVİN DİL SİYASƏTİ

*Məqalədə ulu öndərimiz Heydər Əliyevin Azərbaycan dili haqqında yürütdüyü siyasəti araşdırılmışdır. Onun həyata keçirdiyi dil siyasəti bu gün dilimizin təkmilləşməsi, möhkəmlənməsi istiqamətində böyük uğurlardan biri hesab edilir. Bu istiqamətdəki fəaliyyətində ümummilli liderimiz Heydər Əliyev Azərbaycan dilinin inkişafına xüsusi diqqət yetirib. Çünki ana dili hər bir xalqın varlığını, milli dəyərini, təsdiq edən, millətin formalaşmasına ciddi təkan verən başlıca amillərdən biridir. Xalqın keçdiyi tarixi yol, onun mədəni səviyyəsi, ilk növbədə, onun dilində öz əksini tapır. Dil, həm də, çətin tarixi-siyasi dövrlərdə millətin varlığını sürdürməsi üçün əsas vasitədir. Dilini itirən xalq məhvə məhkumdur. Azərbaycan dili də Azərbaycan xalqının milli sərvətidir və xalqımız, millətimiz tarix durduqca bu sərvətin qayğısına qalmalı və dilimizi gələcək nəsillərə ötürməlidir. Azərbaycan dilinin bugünkü inkişaf səviyyəsi xalqımızın dünyanın ən qədim xalqlarından biri olduğunu təsdiqləyir.*

**Açar sözlər:** *Heydər Əliyev, dil siyasəti, Azərbaycan dili, ümummilli lider, ulu öndər*.

Qədim və zəngin tarixə, çoxcəhətli və əhatəli dil üslub xüsusiyyətlərinə, rəngarəng dil faktlarına, inkişaf etmiş fonetik, leksik və qrammatik sistemə malik olan Azərbaycan dili eramızın ilk əsrlərində oğuz-səlcuq dilləri zəminində formalaşmış, məhəlli-qəbilə, tayfa dili səviyyəsindən 50 milyondan çox Azərbaycan türkünün istifadə etdiyi müasir, ümummilli dil səviyyəsinə qədər yüksələ bilmişdir.

Tariximizdən məlumdur ki, XX əsrin ikinci yarısında Azərbaycan dilinin hərtərəfli inkişafı istiqamətində, ümumişlək dilə, dövlət dilinə çevrilməsi, diplomatiya aləminə yol açması, dünyanın böyük dövlətlərinin və beynəlxalq təşkilatların kürsülərində səslənməsi bilavasitə Heydər Əliyevin adı ilə bağlı olmuşdur. Azərbaycan dilinin müdafiəsində durmaq onun bir növ həyat fəaliyyətinə çevrilmişdir [2, s. 37].

Azərbaycan dili müxtəlif dövrlərdə rəsmən dövlət dili kimi elan edilib bir müddət fəaliyyət göstərsə də, dövlət dili statusu uzun müddət davam edə bilməmişdir. Lakin xalqımızın ümummilli lideri Heydər Əliyev hakimiyyətə gəldikdən sonra milli dilimizin xilaskarı kimi tarixə öz əbədi imzasını qoydu. 1978-ci ildə qəbul olunan Azərbaycan SSR Konstitusiyasında ilk dəfə olaraq, Azərbaycan dili rəsmi dil statusu qazandı. Azərbaycandilli məktəbin, təhsilin və maarifin inkişafına xüsusi qayğı göstərildi, bir sıra digər sovet respublikalarından fərqli olaraq, Azərbaycanda ana dilində təhsilə üstünlük verildi.

Belə demək olar ki, ulu öndər Heydər Əliyevin keçən əsrin 70-80-ci illərində yerinə yeritdiyi fəal və ardıcıl dil siyasəti Azərbaycanda milli özünəqayıdış, milli özünüdərk və milli azadlıq ruhunu daha da yüksəltdi. Ulu öndər bir çox ziyalıların cəsarət etmədiyi halda, müxtəlif tədbirlərdə Azərbaycan dilində çıxış etməklə dilimizə verdiyi dəyəri göstərdi. Azərbaycan dilində mətbuatın, teleradio verilişlərinin, elmin tərəqqisi üçün dövlət rəhbərliyi böyük səy göstərdi, Azərbaycanın böyük şair və yazıçıları öz əsərlərini, romanlarını, yalnız ana dilində yaza bildi. Azərbaycan Yazıçılar İttifaqının aparıcı mətbuat orqanları – “Azərbaycan”, “Ulduz” jurnalları, “Ədəbiyyat və incəsənət” (indiki “Ədəbiyyat”) qəzeti Azərbaycan dilində dərc edildi.

Bundan başqa 1980-ci illərin sonu, 90-cı illərin əvvəllərində Azərbaycanda milli azadlıq hərəkatının gedişatında ana dilinin ictimai-siyasi nüfuzunun möhkəmlənməsi də ulu öndərimiz Heydər Əliyevin zamanında həyata keçirdiyi siyasətin bilavasitə nəticəsi idi. Lakin həmin illərdə, başqa sahələrdə olduğu kimi, dil quruculuğu, dil siyasəti, geniş mənada dil mədəniyyəti sahələrində də hədsiz hərc-mərcliyə yol verilirdi. Xüsusilə AXC-Müsavat cütlüyünün hakimiyyətdə olduğu zaman etnik-

kulturoloji məsələlərlə bağlı buraxılan səhvlər milli dilin (dövlət dilinin) nüfuzuna mənfi təsir göstərmişdi. Belə deyə bilərik ki, yaxın dövrün tarixi varisliyi gözlənilmədən ana dilinə (dövlət dilinə) münasibətdə kəskin sıçrayışlarla səciyyələnən, hər cür əsasdan məhrum "tədbirlər" görülməsinə başlanıldı ki, həmin "tədbirlər" nəticə etibarilə idarəolunmaz bir situasiyaya çevrilməklə yanaşı, ana dili bütövlükdə təhlükə altına qoyuldu. Eyni zamanda, geniş, hərtərəfli müzakirələr aparılmadan (ictimaiyyətin, mütəxəssislərin rəyini öyrənmədən) ana dilinin "türk dili" adlandırılması, eləcə də, kiril əlifbasından latın əlifbasına keçidə hazırlıqsız başlanması sonralar bir sıra problemlərə gətirib çıxartdı. Bütün bunlarla yanaşı, normal təhsil görməmiş, mədəniyyətdənuzaq bir sıra "dövlət xadimləri"nin, "siyasi xadimlər"in müxtəlif çıxışları, məntiqsiz mülahizələri Azərbaycan ədəbi dilinin tarixən müəyyənləşmiş normalarına, funksional üslublarına sayğısız, məsuliyyətsiz münasibət yaratmağa başladı [1, s. 173-179].

1993-cü ilin iyun ayında xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan ulu öndərimiz Heydər Əliyev qısa bir zaman ərzində ölkədə iqtisadi, ictimai-siyasi, ideoloji-mənəvi həyatın normallaşmasına, stabilləşməsinə nail oldu. Onun xüsusi diqqətlə yanaşdığı məsələlərdən biri də məhz dil məsələsi idi. Məsələnin vacibliyini nəzərə alan dövlət rəhbəri mütəxəssislərin iştirakı ilə geniş müzakirələr keçirdi və həmin müzakirələr mövcud problemlərin həlli üçün kifayət qədər məhsuldar oldu. Ümumiyyətlə, müstəqil Azərbaycan dövlətinin dil siyasətinin müəyyənləşməsində ulu öndərimizin müstəsna xidmətləri olmuşdur. Azərbaycan dilinin qorunması və inkişafı ilə bağlı uzaqgörən addımlar atmış ümummilli liderin "Millətin milliliyini saxlayan onun dilidir" ifadəsi dərin məna ifadə edir. Azərbaycan müstəqillik əldə etdikdən sonra dövlətə və xalqa yenidən rəhbərlik edən ümummilli lider ana dili məsələsinə yeni səviyyədə – müstəqil dövlət quruculuğunun tələb etdiyi səviyyədə yanaşmağın təcrübəsini verdi [6, s. 324].

Respublika rəhbərinin təşəbbüsü və fəal iştirakı ilə 1995-ci il oktyabrın 31-də AR Konstitusiyasının dövlət dili haqqında maddəsi ilə bağlı keçirilən gərgin və tam demokratik müzakirələr nəticəsində Azərbaycan dilinin qanuni haqqı özünə qaytarılmışdır. Həmin il noyabrın 12-də qəbul olunan Konstitusiyada Azərbaycan dili Azərbaycan Respublikasının Dövlət dili kimi təsdiq (21-ci maddə) olundu. Konstitusiyanın qəbulu ərəfəsində dövlət dilinin adı ilə bağlı keçirilən geniş ictimai müzakirələr Azərbaycan dilinin nüfuzunun artmasına təsir etmiş, dövlət dilinin müstəqil dövlət üçün nə qədər əhəmiyyətli və vacib olduğunu əyani şəkildə göstərmişdir. Məhz həmin müzakirələr sübut etdi ki, yalnız milli ictimai təfəkkür deyil, bilavasitə mütəxəssislər də ana dilinin qeyd-şərtsiz "türk dili" adlandırılmasının əleyhinədir. Hər şeydən əvvəl, onu qeyd edə bilərik ki, iki müstəqil türk mənşəli dilin hər ikisinin eyni bir adla adlandırılması özünü doğrultmur və təcrübədə onları istər-istəməz ayrı-ayrı adlarla (Azərbaycan türkcəsi – Türkiyə türkcəsi) adlandırmaq lazım gəlir; Azərbaycan ərazisində yaşayan qeyri-türk mənşəli müxtəlif xalqlar, etnoslar "Azərbaycan dili"nin "türk dili" adlandırılmasından hər hansı halda narahat olurlar, bir sıra qüvvələr isə bundan istifadə edərək "xırda millətçilik" hisslərini qızışdırırlar; "Azərbaycan dili" adı artıq neçə on illərdir ki, uğurla işlənir, kifayət qədər böyük işlənmə təcrübəsinə malikdir [6].

18 iyun 2001-ci il tarixli 506 nömrəli Fərman, "Azərbaycan Respublikası Dövlət Dil Komissiyasının tərkibinin təsdiq edilməsi haqqında" 4 iyul 2001-ci il tarixli 76 nömrəli Sərəncam, "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 9 avqust 2001-ci il tarixli, 552 nömrəli Sərəncam və sonda, 2003-cü il yanvarın 2-də qüvvəyə minmiş "Azərbaycan Respublikasının dövlət dili haqqında" Qanun ölkəmizdə dil siyasəti və dil quruculuğunun mükəmməl konsepsiyasını, onun uzunmüddətli strategiyasını və aydın proqramını verən tarixi qanunvericilik aktlarıdır. Bu sənədlərin hazırlanmasında böyük tarixi şəxsiyyət Heydər Əliyevin yüksək intellekti, zəngin dövlətçilik təcrübəsi, yenilməz məntiqi, vətəndaşlıq qeyrəti, ana dilinə misilsiz məhəbbəti mühüm rol oynamışdır [3, s. 24-27].

Yeri gəlmişkən, ümummilli liderimiz Heydər Əliyevin 2001-ci il avqustun 9-da imzaladığı Sərəncama əsasən hər il avqustun 1-i respublikamızda "Azərbaycan əlifbası və Azərbaycan dili günü" kimi qeyd edilir. Bu, Azərbaycan dili tarixində əlamətdar, önəmli hadisə kimi hesab edilir. Bununla yanaşı, qəbul edilən digər fərman və sərəncamlar əsasında dilimizin inkişafı, ana dilində təhsilin keyfiyyətinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılmışdır [8].

Respublikamızın çoxminli təcrübəli təhsil işçiləri "Azərbaycan Respublikasının dövlət dili haqqında" qanundan, eləcə də ümummilli liderimiz Heydər Əliyevin dil siyasəti ilə bağlı imzaladığı silsilə fərmanlardan irəli gələn vəzifələrin yerinə yetirilməsində, ulu öndərin dövlət dili ilə əlaqədar verdiyi müdrik göstərişlərin, irəli sürdüyü müddəa və ideyaların həyata keçməsində yaxından iştirak etmişdilər.

Heydər Əliyevin imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərmanı isə yalnız cari bir sənəd kimi göstərmək olmaz, onu xüsusi tarixi əhəmiyyət daşıyan böyük siyasi hadisə kimi göstərə bilərik. Fərmanının tələbləri baxımından "Ümumtəhsil məktəblərində Azərbaycan dili və ədəbiyyatının tədrisi vəziyyəti və onun yaxşılaşdırılması tədbirləri barədə" Respublika Təhsil Nazirliyinin 2002-ci il 11 iyul tarixli 70 nömrəli kollegiya qərarında göstərilir ki, ümumtəhsil məktəbi şagirdlərinin əsl milli vətəndaş kimi yetişdirilməsində, onlara milli mənəvi və ümumbəşəri dəyərlərin aşılanmasında, milli mənliyinin dərk edilməsində Azərbaycan dili və ədəbiyyatı fənlərinin əhəmiyyəti çox böyükdür. Azərbaycan dili ölkəmizin müstəqilliyə qədəm qoyması ilə dünyanın müxtəlif ölkələrində yaşayan milyonlarla azərbaycanlının milli birliyinin yaradılmasında və əlaqələrinin genişləndirilməsində müstəsna rol oynayır, soydaşlarımızın ünsiyyət silahına çevrilir.

30 sentyabr 2002-ci ildə isə ulu öndərimiz Heydər Əliyev tərəfindən "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanun təsdiq olundu. Bu sənəddə göstərilir ki, "Azərbaycan Respublikası Azərbaycan dilinin dövlət dili olaraq işlədilməsini öz müstəqil dövlətçiliyinin başlıca əlamətlərindən biri sayır, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi qayğısına qalır, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünüifadə ehtiyaclarının ödənilməsi üçün zəmin yaradır". Məhz bu qanun, ölkə Konstitusiyasına uyğun olaraq, Azərbaycan Respublikasında Azərbaycan dilinin dövlət dili kimi hüquqi statusunu nizamlayır. Ötən illər ərzində isə həmin qanun xeyli dərəcədə təkmilləşdirilmişdir [9, s. 164].

Azərbaycan dilinin dövlət dili statusuna yüksəlməsi yolunda möhtərəm Prezidentimiz Heydər Əliyevin başladığı müqəddəs milli mübarizənin tarixi bir qərinədən çox davam etmişdir. Milli tariximizə Heydər Əliyev epoxası kimi daxil olmuş 1969-2003-cü illərdə Azərbaycan dilinin hərtərəfli inkişafı yalnız rəsmi sənədlərdə deyil, sözün həqiqi mənasında, gündəlik həyatda, təcrübədə ümumişlək dilə, dövlət dilinə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə, dünya diplomatiyasına yol tapması, beynəlxalq aləmin çox mötəbər məclislərinin kürsülərindən eşidilməsi ulu öndərin ana dilimizin inkişafına, onun sosial-siyasi və mədəni həyatda layiqli yer tutmasına göstərdiyi qayğı və diqqətin, son dərəcə dəqiq, düşünülmüş və uzaqgörən dil siyasətinin nəticəsində apardığı böyük mübarizədə mümkün olmuşdur.

Heydər Əliyevin qayğısı sayəsində ali məktəblər üçün dördcildlik "Müasir Azərbaycan dili" dərsliyinə, "Azərbaycan dilinin dialektologiyasının əsasları" dərs vəsaitinə Respublika Dövlət mükafatı verildi, təhsil müəssisələrində ana dilinin tədrisinə ayrılan saatların miqdarı artırıldı, həmçinin Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə ali məktəblərə qəbul planları əhəmiyyətli dərəcədə artırıldı [5, s. 34].

Ümummilli lider Heydər Əliyevin Azərbaycana uzunmüddətli rəhbərliyinin ən sanballı göstəricisi azərbaycançılıq məfkurəsinin və milli ruhun hədsiz yüksəlişi, milli özünüdərkin keçmişin buxovlarından azad olunması, xalqın qan yaddaşının özünə qaytarılması kimi fundamental prinsiplər əsasında

milli dövlətçilik arzularının və hisslərinin güclənməsinə, real siyasi amilə çevrilməsinə nail olunmasıdır.

O, xalqın formalaşmasında, yaşamasında ana dilinin rolunu yüksək qiymətləndirmişdir: “Hər bir xalq öz dili ilə yaranır. Ancaq bu dili yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur” [1, s. 177].

Ulu öndər gənclərimizə məhz ana dili əsasında dünyanı dərk etməyi məsləhət görürdü. Azərbaycan gənclərinə xarici dilləri – ingilis, alman, fransız, çin və s. dilləri öyrənməklə, ilk növbədə, öz ana dilini daha mükəmməl bilməyi tövsiyə edirdi [7, s. 412].

Heydər Əliyev müxtəlif ölkələrdəki diaspor nümayəndələrimizlə görüşlərində dəfələrlə vurğulayıb ki, hansı ölkədə yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı öz ana dilini, milli adət-ənənələrini unutmamalıdır. “Nə yaxşı ki, Azərbaycan dili bütün tələblərə cavab verir. Daha doğrusu, onun böyük potensialı imkan verib ki, o, artıq dünya dilləri içərisində öz layiqli yerini tutmuşdur” ifadəsi də böyük öndərimizə məxsusdur [8, s. 382].

Azərbaycan dilinin inkişaf etməsi, onun tətbiqi sahəsinin genişləndirilməsi və xarici təsirlərdən qorunması, habelə bu dilin saflığı, təmizliyi istiqamətində ulu öndərimizin yeritdiyi siyasət bu gün onun siyasi kursunun layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Təqdirəlayiq haldır ki, o, doğma dilimizə, milli adət-ənənələrimizə, qədim mədəniyyətimizə də böyük həssaslıqla yanaşır. Həmçinin, Azərbaycan ədəbiyyatını, azərbaycanlı düşüncəsini əks etdirən sanballı əsərlərin latın qrafikasında yenidən nəşr edilməsi məhz dövlət başçısının təşəbbüsü ilə baş tutmuşdur. Prezidentin 2004-cü il yanvarın 12-də imzaladığı “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” Sərəncamı, həm də, əlifba ilə bağlı problemləri tamamilə həll etdi. Bunun da nəticəsində kütləvi nəşrlərin latın qrafikasına keçirilməsi təmin olundu. Dövlət başçısının sonrakı sərəncamları əsasında isə 150 cildlik “Dünya ədəbiyyatı kitabxanası”, 100 cildlik “Dünya uşaq ədəbiyyatı kitabxanası”, 100 cildlik “Azərbaycan ədəbiyyatı kitabxanası” seriyasından olan yeni nəşrlər respublika kitabxana şəbəkəsinin latın qrafikalı ədəbiyyat fondunu zənginləşdirdi.

Beləliklə, minilliklər boyu formalaşan və bu günümüzə gəlib çatan Azərbaycan dili xalqımızın qədimliyinin simvolu, qürur mənbəyidir. Bu gün müstəqil dövlətimizin mövcudluğu dilimizin qorunması, dünya dilləri içərisində layiqli yer tutması baxımından vacib tarixi imkandır. Məhz ulu öndər Heydər Əliyevin əsasını qoyduğu dil siyasəti bu sahədə əldə etdiyimiz uğurların əsasını təşkil edir. Onun dilimizin inkişafı istiqamətində göstərdiyi tarixi xidmətlər əsl ana dili məktəbidir və bu məktəbin təcrübəsindən zaman-zaman istifadə olunacaqdır. Ümummilli liderimizin siyasəti Azərbaycanda ana dilinin – ümumxalq dilinin tərəqqisi üçün elə bir tarixi şərait yaratdı ki, biz həmin siyasətin uzun illər uğurla davam edəcəyinə tam əminik.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Prezidentinin “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi” haqqında fərmanı: Dövlət dili səviyyəsinin mübadiləsi kimi. AMEA-nın Folklor İnstitutu, Bakı: Nurlan, 2008, № 2, s. 173-181.
2. Azərbaycan dilinin Dövlət dili kimi inkişafı uğrunda Heydər Əliyevin mübarizəsi. AMEA-nın Folklor İnstitutu, Bakı: Nurlan 2008, № 4, s. 36-42.
3. Azərbaycanda Dövlət dil siyasətinin formalaşması tarixindən // Dil və Ədəbiyyat Beynəlxalq Elmi-Nəzəri Jurnalı, Bakı: BDU, 2008, № 2 (62), s. 24-27.
4. Cəfərov N. Azərbaycan dövlətçiliyinin dili, yaxud Azərbaycan Prezidentinin dil siyasəti. “Azərbaycan” qəz., 2001, 18 avqust.
5. Əliyev V. Heydər Əliyevin Dil siyasəti. Bakı: Nurlan, 2003, 38 s.

6. Dünya azərbaycanlılarının I qurultayında Azərbaycan Respublikasının Prezidenti H.ƏIiyevin nitqi. “Azərbaycan” qəz., 2001, 10 noyabr.
7. Gənclər siyasəti haqqında Azərbaycan Respublikasının Qanunu. 9 aprel 2002-ci il / Gələcək gənclərindir. Bakı: Azərbaycan, 2004, s. 410-416.
8. Xudiyev N. Seçilmiş əsərləri. X c., Bakı: Elm və Təhsil, 2014, 543 s.
9. Sadıqlı A. Ümummilli lider Heydər Əliyev və Azərbaycan dili. Bakı: Mütərcim, 2011, 180 s.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: aysel.behbudbeyli5@gmail.com***

**Aisel Behbudlu**

**HEYDAR ALIYEV AND LANGUAGE POLICY**

The article deals with the policy of our great leader Heydar Aliyev regarding the Azerbaijani language. The language policy implemented by him today is considered one of the great successes in improving and strengthening our language. In his activities in this direction, our national leader Heydar Aliyev paid special attention to the development of the Azerbaijani language. Because the mother tongue is one of the main factors that confirm the existence and national value of each nation and give a serious impetus to the formation of the nation. The historical path of the people, its cultural level, is reflected, firstly, in its language. Language is also the main tool for the survival of the nation in difficult historical and political times. A nation that loses its language is doomed. The Azerbaijani language is also the national wealth of the Azerbaijani people, and our people, our nation, must take care of this wealth and pass our language on to the future generations. The current level of development of the Azerbaijani language confirms that our nation is one of the oldest nations in the world.

**Keywords:** *Heydar Aliyev, language policy, Azerbaijani language, national leader, great leader.*

**Айсель Бехбудлу**

**ГЕЙДАР АЛИЕВ И ЯЗЫКОВАЯ ПОЛИТИКА**

В статье рассматривается политика нашего великого лидера Гейдара Алиева в отношении азербайджанского языка. Реализуемая им сегодня языковая политика считается одним из больших успехов в совершенствовании и укреплении нашего языка. В своей деятельности в этом направлении наш общенациональный лидер Гейдар Алиев особое внимание уделял развитию азербайджанского языка. Потому что родной язык является одним из основных факторов, подтверждающих существование и национальную ценность каждой нации и дающих серьезный толчок в формировании нации. Исторический путь народа, его культурный уровень отражаются, прежде всего, в его языке. Язык также является основным средством выживания нации в трудные исторические и политические времена. Нация, потерявшая свой язык, обречена. Азербайджанский язык также является национальным достоянием азербайджанского народа, и наш народ, наша нация должны беречь это богатство и передавать наш язык грядущим поколениям. Нынешний уровень развития азербайджанского языка подтверждает, что наш народ является одним из древнейших народов мира.

**Ключевые слова:** *Гейдар Алиев, языковая политика, азербайджанский язык, общенациональный лидер, великий лидер.*

SƏBİNƏ DÜNYAMALIYEVA

# CAVİDİ VƏTƏNİ İLƏ BÜTÖVLƏŞDİRƏN DAHİ ŞƏXSİYYƏT

*XIX əsrin sonu-XX əsrin əvvəllərində Naxçıvan ədəbi-mədəni mühitində xidmətləri ilə seçilən görkəmli filosof şair Hüseyn Cavidin əsərləri təbliğ etdiyi ideyalara görə Sovet hakimiyyəti dövründə qadağan edilmiş və şair Sibirə sürgün edilmişdir. Ümummilli lider Heydər Əliyev Azərbaycan SSR-ə rəhbərlik etməyə başladıqdan sonra sovet sosialist hakimiyyəti və onun yetişdirdiyi ideologiya tərəfindən dağıdılmağa başladılmış milli dəyərlərimizi, mədəni irsimizi, bu dəyərlərə xidmət edən sənətkarları yenidən xalqa qaytarmaq üçün mübarizə aparılmağa başlanmışdır. Ulu öndər Azərbaycan xalqının azadlıq, hürriyyət, inqilab ruhunu qələmə alan, yazdığı tarixi dramlar ilə Şərq ənənələrini, islamı, tolerantlığı, turançılığı ideya ruporuna çevirən Hüseyn Cavid yaradıcılığına yüksək qiymət vermiş, məhz onun xüsusi səyləri nəticəsində Cavidin nəşi vətəninə – doğma Naxçıvana gətirilmişdir. Ulu öndərin Azərbaycan ədəbiyyatına, elminə, incəsənətinə göstərdiyi qayğı sayəsində Cavid həm cismən, həm də ruhən vətəni ilə bütövləşmiş, şairin ədəbi-bədii irsinin nəşri, təbliği və araşdırılması üzrə bir çox işlər görülmüşdür.*

**Açar sözlər:** *Heydər Əliyev, Hüseyn Cavid, ideya ruporu, şərq ənənələri, tolerantlıq.*

Ölkəmizin qədim güşələrindən biri – qədim Nuh yurdu olan Naxçıvan Azərbaycan ədəbiyyatına, siyasətinə unikal şəxsiyyətlər bəxş etmişdir. Belə tarixi şəxsiyyətlər sırasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev və böyük mütəfəkkir-şair Hüseyn Cavid xüsusi mövqelərə sahibdirlər. “Hüseyn Cavid romantik ədəbiyyatımızın nə qədər dahi sənətkarıdırsa, Heydər Əliyev də dövlətçiliyimizdəki romantik vüsətin o qədər böyük memarı və qurucusudur” [2, s. 41].

Ensiklopedik sənətkar olan Heydər Əliyev Turan Cavidlə olan söhbətində bildirmişdir ki, onun Cavid ailəsi ilə tanışlığı uşaqlıq illərinə təsadüf edir. Cavidin böyük qardaşı Şeyx Məhəmməd Naxçıvanda onun ilk ana dili müəllimi olmuşdur və Heydər Əliyev Azərbaycan dilinin incəliklərini Şeyx Məhəmməddən öyrənmişdir. Ulu öndər xatirələrinin birində Ərtoğrul Cavidi və Cavidin həyat yoldaşı Müşkünaz xanımı da gəncliyində gördüyünü qeyd edirdi. Bu faktlar sübut edir ki, Heydər Əliyev Cavid ailəsi və Cavid fəlsəfəsi ilə uşaqlıq, gənclik dövrlərindən tanış idi. Bu tanışlıq və Heydər Əliyevin milli-mənəvi dəyərləri özündə əks etdirən ədəbiyyata bağlılığı Cavid taleyinə təsirsiz ötüşməmişdir. Belə ki, XX əsr Azərbaycan ədəbiyyatının, romantizm ədəbi cərəyanının unikal şəxsiyyətlərindən biri olan Hüseyn Cavid 1882-ci ildə anadan olmuşdur. Ancaq bir sənətkar, şəxsiyyət kimi ruhən vətəni ilə bütövləşməsi, Cavid fəlsəfəsinin “anadan olması” 1993-cü ildə – Heydər Əliyevin ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra baş vermişdir. Çünki milli poeziyamızda fəlsəfi lirikanın təkrarsız nümunələrini yaratmış şair-dramaturq ideya ruporunu “Hübuti-Adəm”, “Şeyx Sənan”, “Topal Teymur”, “Peyğəmbər”, “İblis”, “İblisin intiqamı”, “Azər” və s. kimi əsərləri ilə oxuculara təqdim edirdi. Turançılığın, türkçülüyün qəbul edilmədiyi Sovet dövründə yazıb-yaradan şair-dramaturq 1937-ci ildə “millətçi”, “əksinqilabçı”, “antisovet təbliğatında iştirakı”na görə repressiyanın qurbanı olmuş və uzaq Sibirə sürgün edilmişdir. Cavidin əsərləri tənqid və qadağan edilmiş, ailəsi daim təqiblərə məruz qalmışdır. Hüseyn Cavid ölümündən sonra 1956-cı ildə bəraət almasına baxmayaraq, nə şairin nəşi vətənə gətirilmiş, nə də Cavid yaradıcılığına layiq olduğu qiymət verilmişdir. Yalnız 1981-ci il iyulun 21-də – Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbərlik etdiyi dövrdə (1969-1982-ci illər) ulu öndərin səyi və rəhbərliyi ilə Azərbaycan KPMK, Azərbaycan Nazirlər Soveti Hüseyn Cavidin 100 illiyi haqqında qərar qəbul etdi [1]. Qərarda Cavidin nəşinin vətənə qaytarılması, məqbərəsinin və ev-muzeyinin yaradılması, Naxçıvanda və Bakıda heykəllərinin qoyulması, əsərlərinin dərc olunması nəzərdə tutulurdu. 1982-ci il oktyabrın 26-da Hüseyn Cavidin nəşi Moskvadan Bakıya,

sonra isə Naxçıvana gətirildi və nəşi Naxçıvanda – evinin qarşısında dəfn edildi. Ancaq qərarda nəzərdə tutulan digər müddəalar 1982-ci ildə həyata keçirilmədi. Cavidin məqbərəsi bu əmr imzalanandan yalnız 15 il sonra – 29 oktyabr 1996-cı ildə cavidsevərlərin ixtiyarına verildi. Cavid məqbərəsinin açılışında Yaşar Qarayev demişdir: "Şərqdə türbələri iki cür tikmişlər. Şairlər sözdən məqbərə tikmişlər. Dövlət rəhbərləri, siyasət ərləri həmin məqbərələri sonralar qranitdən, qaya parçasından tikmişlər... Mən bu gün bu məbədə baxıram. Bir məbəd yox, iki məbəd görürəm, bir memar yox, iki memar – böyük mənəvi bir mənada" [7, s. 3]. Bu məbədin əsas memarı ulu öndər Heydər Əliyev idi. Həmin tarixi günü xatırlayan xalq şairi Mirvarid Dilbazi Heydər Əliyevə ithaf etdiyi "Oğul qeyrəti" şeirində yazırdı:

Cavidi vətənə gətirən oğul,
Onu öz xalqına yetirən oğul,
Xalqının misilsiz qayğılarını
Öz çiyni üstünə götürən oğul,
Var olsun bu oğul qeyrətin sənin! [4, s. 56]

Azərbaycan xalqının ümummilli lideri siyasi hakimiyyətinin bünövrəsini milli ideologiya konsepsiyasına söykənən azərbaycançılıq, turançılıq ideyaları üzərində qurmuşdur. Ulu öndər demişdir: "...Cəlil Məmmədquluzadənin yaradıcılığında Azərbaycanın bütün milli xüsusiyyətləri, eyni zamanda ümumbəşəri dəyərləri əks etdirən fikirlər bizim milli ideologiyanın əsasıdır və həmin ideologiyanın yaranması üçün böyük vasitədir, böyük bir sərvətdir. O dövrdə həm milliliyə bağlı olmaq, həm də dünyəvi, ümumbəşəri dəyərləri qiymətləndirmək, onları öz yaradıcılığında əks etdirmək və xalqımızın ümumi səviyyəsini qaldırmaq cəhdləri böyük vətəndaşlıq cəsarəti idi" [8, s. 102]. Heydər Əliyevin Cəlil Məmmədquluzadə haqqında dediyi fikirləri Hüseyn Cavid yaradıcılığına da aid etmək mümkündür. Çünki oxucu C.Məmmədquluzadə yaradıcılığında azərbaycançılıq ideologiyası ilə, H.Cavid əsərlərində turançılığın, türkçülüyün milli ideoloji konsepsiya kimi təbliği ilə rastlaşır. Milli özünüdərk məsələsini siyasi ideologiya səviyyəsinə qaldırmağı bacaran Heydər Əliyev qeyd edirdi ki, milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza birinci növbədə ədəbiyyatdan keçir. Milli "mən" yaddaşına və şüuruna biganə qalmamaq cəmiyyətdə əbədi, sabit müstəqilliyin, suverenliyin taleyinə və gələcəyinə də biganə qalmamağın şərti və zəmini olub [6, s. 125]. Buna görə də, əsərlərinin mövzu və ideyasını bu zəmin üzərində quran Cavid əsərləri hər bir azərbaycanlı üçün dəyərlidir.

Fəlsəfədə idealist filosoflar vurğulayırlar ki, dünyanı ideyalar idarə edir. Böyük ideallar şairi olan Hüseyn Cavid XX əsrin əvvəllərində yaşadığı dövrün stereotiplərindən kənara çıxaraq əsərlərində demokratizmi, azadlığı, hürriyyəti, turançılığı, tolerantlığı, milli əqidəyə söykənən müasirliyi təbliğ edirdi. Şair-dramaturq Şərqin milli mənəvi dəyərlərini, keçmişini, fəlsəfəsini, türklərin cəsurluğunu, anlı-şanlı tarixini, Şərq ənənələrini – zərdüştlik, islami dəyərləri "Hübuti Adəm", "Azər", "Şeyx Sənan", "Siyavüş", "İştə bir divanədən bir xatirə", "Dəniz tamaşası", "Türk əsirləri", "Topal Teymur", "Peyğəmbər" və s. əsərlərində baş qəhrəman kimi təqdim edirdi desək, yanılmarıq. Ancaq ictimai düşüncəyə, maarifçi mühitə təsir göstərən bu əsərləri Sovet hakimiyyəti dövründə bir çox ədəbiyyatşünaslar təhrif edilmiş şəkildə araşdırırdı. Çünki Sovetlər dövründə ədəbiyyatşünaslar hökumətdən qorxduqları üçün bu əsərlərə layiq olduğu dəyəri verə bilmirdilər, şairin şeir, poema və dramlarında ya Şərq izlərini gizlətməyə çalışırdılar, ya da bu izləri tənqid edirdilər. Ümummilli lider Azərbaycan Respublikasında hakimiyyətə gələndən sonra Cavid əsərləri alimlər tərəfindən qorxmadan, düzgün formada təhlil edildi və əsərlərindəki Şərq izləri açıqca nümayiş etdirildi. Turan Cavid qeyd edirdi ki, "Heydər Əliyevin atama münasibəti elə bil insanlara cəsarət verdi. Onun haqqında məqalələr, namizədlik dissertasiyaları yazıldı" [5, s. 50].

Şərq izlərini, islami dəyərləri özündə birləşdirən "Şeyx Sənan" əsəri bu cəhətdən Cavidin dəyərli dram əsəridir. Qeyd etmək lazımdır ki, Cavid yaradıcılığına heyran olan dövlət xadimi məktəbdə

“Şeyx Sənan” tamaşasında Sənan rolunun ifaçısı da olmuşdur. 1914-cü ildə – birinci dünya müharibəsinin başladığı dövrdə yazılan “Şeyx Sənan” əsəri multikulturalizmin təbliği cəhətdən dəyərli əsərlərdəndir. Bu fəlsəfi əsərdə müsəlman Sənanın xristian qızı Xumara olan sevgisi fonunda vahid din ideyasının tərənnümü ilə qarşılaşırıq. Ancaq əsər bir çox ədəbiyyatşünaslar tərəfindən tənqid edilmişdir. Hənəfi Zeynallı “Şeyx Sənan haqqında mülahizələrim” məqaləsində yazırdı: “Sənan ruhu ilə Cavid ruhunda araşdırmaqda olduğumuz müddətdə bir eyniyyət vardı. Daha doğrusu, bir mahiyyətdə idi. Hər ikisində əvvəlcə dindarlıq, sonra şübhələr fırtınası və nəhayət, məhəbbət və eşq yolunda “dini-imanı satmaq” kimi bir fədakarlığa cəsarət etməkdi”[3, s. 138] fikirləri ilə əsəri tənqid edərək Cavidi ateist, milli dəyərləri əxz etdirməyən, “dini-imanı satan” sənətkar kimi dəyərləndirmişdir. Filosof şair faciədə dini-imanı satmırdı. Əksinə, beynəlmiləlçilik ideyasının daşıyıcısı olan Cavid Sənanın dili ilə “Birsə həqq cümlə din də bir” [9, s. 165] söyləyərək dini və milli ayrıseçkiliyə qarşı çıxırdı. İnsani dəyərləri məhəbbətdə görən Hüseyn Cavid “Məhəbbətdir ən böyük din” fikirləri ilə tolerantlığı, multikultural ənənələrin təbliğinə çalışırdı. Ümumbəşəri ideyalara – tolerantlığa önəm verən Heydər Əliyevin siyasi ideologiyasından sonra bu əsər də öz layiqli qiymətini almağı bacardı. Bunu da qeyd etmək lazımdır ki, Azərbaycanda tarixən polietnik və müxtəlif dinli xalqlar yaşamışdır. Ulu öndər də siyasi fəaliyyətində tolerantlığa yüksək qiymət vermişdir. Heydər Əliyev hər zaman islam dininə və bu dinin etik-estetik dəyərlərini yüksək qiymətləndirmişdir. Dövlət xadimi hakimiyyəti dövründə Azərbaycanda çoxlu məscidlər tikdirmiş, Məkkə və Mədinə şəhərlərinə ziyarətə getmiş və vətənində islam dini ənənələrini yaşatmağa çalışmışdır. Elə bu baxımdan da Heydər Əliyev “İslam sivilizasiyası Qafqazda” mövzusunda beynəlxalq simpoziumundakı nitqində deyirdi: “Biz azərbaycanlılar islam dini ilə fəxr edərək, eyni zamanda, heç vaxt başqa dinlərə qarşı mənfi münasibət göstərməmişik, düşmənçilik etməmişik, ədavət aparmamışıq və heç vaxt başqa xalqı da öz dinimizə itaət etməyə məcbur etməmişik. Ümumiyyətlə, başqa dinlərə dözümlülük, başqa dinlərlə yanaşı və qarşılıqlı anlaşma şəraitində yaşamaq islam dəyərlərinin xüsusiyyətidir”[5, s. 352]. Ulu öndərin din mövzusunda göstərdiyi tolerant mövqe Ali qanunumuzda da əks olunmuşdur. Azərbaycan Respublikasının Konstitusiyasının 3-cü fəslinin Milli mənsubiyyət hüququndan bəhs edən 44-cü maddəsində yazılır: “Hər kəsin milli mənsubiyyətini saxlamaq hüququ vardır. Heç kəs milli mənsubiyyətini dəyişdirməyə məcbur edilə bilməz” [10]. Heydər Əliyev siyasətini davam etdirən prezident İlham Əliyev də multikultural ənənələrə önəm vermişdir. 2016-cı ilin Azərbaycanda “Multikulturalizm ili” elan edilməsi buna bariz nümunədir.

Yuxarıda qeyd etdiyimiz fikirlər sübut edir ki, Heydər Əliyev xalqını işıqlı gələcəyə çıxartmaq üçün elmə, ədəbiyyata, sənət və sənətkara yüksək qiymət verirdi. “Heydər Əliyevin ifasında və icrasında həmişə siyasət də sənət, siyasətçidə sənətkar səviyyəsinə qalxa bilir. Məhz siyasət əməldə, hərəkətdə fəlsəfəyə çevriləndə siyasətçidə sənətkara çevrilir” [6, s. 129].

Nəticə olaraq deyə bilərik ki, milliliyə, türkçülüyə və tolerantlığa bağlı olan Hüseyn Cavid sənətkarlığı, bu dəyərləri öz mənliyində yaşadan və dövlətçilik təlimində xalqına təlqin edən ulu öndərimiz Heydər Əliyev siyasəti həm də sənətkar və rəhbər bağlılığının göstəricisinə çevrilmişdir. Ulu öndərimizin Hüseyn Cavid ailəsinə, həmçinin mütəfəkkir şairin birbaşa özünə və yaradıcılığına olan sevgisi onun bu sahədəki qərarlarında da öz əksini tapmış, Cavidlə bağlı dövlət səviyyəsində həyata keçirilən tədbirlərdə bu özünü bir daha nümayiş etdirmişdir. Hətta ulu öndərimizin layiqli davamçısı, ölkə başçısı, cənab İlham Əliyevin də rəhbərliyi dövründə Cavid irsinə və Cavid yaradıcılığına hörmət və ehtiram davam etdirilmişdir. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin sərəncamı ilə 2007-ci ildə Hüseyn Cavidin 125 illik yubileyi, 16 fevral 2012-ci il tarixli sərəncamı ilə 130 illiyi yüksək səviyyədə keçirilmişdir. Keçən il isə Hüseyn Cavidin 140 illik yubileyi ölkə Prezidentinin 24 sentyabr 2022-ci il tarixli sərəncamı ilə dövlət səviyyəsində, geniş miqyasda qeyd edilmişdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan KP Mərkəzi Komitəsində. “Ədəbiyyat və İncəsənət” qəz., 1981, 24 iyul, № 30, 1957.
2. Babaxanlı G. Hüseyn Cavid və Heydər Əliyev. Bakı: Proqres, 2013, 144 s.
3. Cavidi xatırlarkən: Hüseyn Cavid haqqında məqalə və xatirələr toplusu / Tərtib edəni İsgəndər Orucəliyev. Bakı: Zərdabi, 2012, 592 s.
4. Dilbazi M. Seçilmiş əsərləri. Bakı: Lider, 2004, 280 s.
5. Əliyev H. Müstəqilliyimiz əbədidir: 28 cilddə. III c., Bakı: Azərnəşr, 2006, 379 s.
6. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı: Elm, 1998, 177 s.
7. Heydər Əliyev və repressiya ədəbiyyatı // Mədəni maarif, 2009, № 12, s. 15-18.
8. Heydər Əliyev. Müstəqillik yolu (Seçilmiş fikirlər) / Tərtib edənlər: Şahlar Əsgərov və Səlahəddin Xəlilov. Bakı: Azərbaycan Universiteti, 1997, 136 s.
9. Hüseyn Cavid. Əsərləri / Tərtib edəni Turan Cavid: 5 cilddə. II c., Bakı: Lider, 2005, 353 s.
10. https://www.e-qanun.az/framework/897



***AMEA Naxçıvan Bölməsi***
***E-mail: eliyevalparslan@gmail.com***

**Sabina Dunyamalieva**


### GENIUS WHO REUNITED JAVID WITH HIS HOMELAND


In the late 19th-early 20th centuries, the works of prominent philosopher-poet Hussein Javid, distinguished for his services in the Nakhchivan literary and cultural environment, were banned during the Soviet period and the poet was exiled to Siberia for his popularized ideas. Only after national leader Heydar Aliyev began to lead the Azerbaijan SSR, he began to fight to return our national values, cultural heritage, and the artists who served these values to the people, which were destroyed by the Soviet socialist power and its ideology. The great leader highly appreciated the creativity of Hussein Javid, who penned the spirit of freedom, liberty, and revolution of the Azerbaijani people, and turned Eastern traditions, Islam, tolerance, and Turanism into an idea mouthpiece with the historical dramas he wrote. As a result of his special efforts, Javid’s body was brought to his native Nakhchivan. Thanks to the care shown by the great leader to Azerbaijani literature, science and art, Javid was integrated with his homeland both in body and spirit, a lot of work was done on the publication, promotion, and research of the poet’s literary and artistic heritage.



**Keywords:** *Heydar Aliyev, Huseyn Javid, idea mouthpiece, eastern traditions, tolerance.*



**Сабина Дунямалиева**


### ГЕНИЙ, КОТОРЫЙ ВОССОЕДИНИЛ ДЖАВИДА С ЕГО РОДИНОЙ


В конце XIX-начале XX века произведения выдающегося поэта-философа Гусейна Джавида, отличавшегося своими заслугами в литературно-культурной среде Нахчывана, были запрещены при советской власти за пропаганду национальных идей, и поэт был сослан в Сибирь. Только после того, как общенациональный лидер Гейдар Алиев стал руководить Азербайджан-

ской ССР, началась борьба за возвращение народу наших национальных ценностей, культурного наследия, художников, служивших этим ценностям, которые были разрушены Советской социалистической властью и культивируемой ею идеологией. Великий лидер высоко оценивал творчество Гусейна Джавида, который своими историческими драмами превратил в идейный рупор восточные традиции, ислам, толерантность, туранизм азербайджанского народа. Именно благодаря его особым усилиям наш Джавид был привезен на родину, в родной Нахчыван. Благодаря заботе великого лидера об азербайджанской литературе, науке, искусстве, Джавид был физически и духовно связан с родиной, была проделана большая работа по изданию, пропаганде и исследованию литературно-художественного наследия поэта.

**Ключевые слова:** *Гейдар Алиев, Гусейн Джавид, идейный рупор, восточные традиции, толерантность.*

**GÜNEL ƏSGƏROVA**

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN SATİRİK MƏTBUATININ ŞAH ƏSƏRİ – "MOLLA NƏSRƏDDİN" JURNALI HAQQINDA MÜLAHİZƏLƏRİ

*Heydər Əliyev (1923-2003) hakimiyyəti illərində ölkənin nəinki siyasi-iqtisadi cəhətdən dirçəlməsinə, müasiri olduğu Azərbaycan mədəniyyətinin qorunması və inkişafı sahəsində mühüm addımlar atmışdır. Azərbaycanın tanınmış şəxsiyyətlərinin, mədəniyyət klassiklərinin adının uca tutulması və xatirəsinin yad edilməsi üçün müntəzəm tədbirlərin keçirilməsini təşkil edən ulu öndər Azərbaycanın elm və mədəniyyətinin, adət-ənənələrinin, görkəmli dahi şəxsiyyətlərinin dünyada tanıdılması istiqamətində böyük işlər görmüşdür ki, bu da onun uzaqgörən siyasətinin mühüm tərkib hissəsi idi.*

*Məqalədə dahi siyasətçi Heydər Əliyevin məruzə və çıxışlarında, dərin məzmunlu nitqlərində Cəlil Məmmədquluzadənin yaradıcılığında, "Molla Nəsrəddin" jurnalında, eləcə də mollanəsrəddinçilərin geniş ədəbi fəaliyyətində xalqımızın ictimai, mədəni, sosial həyatı ilə bağlı problemlərin ön plana çəkilməsi və aradan qaldırılması yollarını göstərməsi, azərbaycançılıq ideologiyasına sadiq qalması kimi mühüm məsələlərdən söhbət açılır. Eyni zamanda Mirzə Cəlilin geniş fəaliyyətində önəmli yer tutan "Molla Nəsrəddin" jurnalının tarixi əhəmiyyəti diqqət mərkəzində saxlanılır və Azərbaycan ədəbiyyatının inkişafına töhfələr verən Cəlil Məmmədquluzadənin çoxşaxəli yaradıcılığına verdiyi yüksək dəyər geniş şəkildə işıqlandırılır.*

*Məqalədə ümummilli lider Heydər Əliyevin Azərbaycan mətbuatına, xüsusilə də, ilk satirik orqanımız olan "Molla Nəsrəddin" jurnalına və onun ətrafında toplaşan mollanəsrəddinçi şair və yazıçıların zəngin söz xəzinəsinə diqqət və qayğı göstərməsi geniş şəkildə tədqiqata cəlb olunmuş, Cəlil Məmmədquluzadə yaradıcılığına və onun ədəbi-mədəni irsinə verdiyi yüksək dəyərdən bəhs edilmişdir. Qeyd edilmişdir ki, görkəmli dövlət xadimi Heydər Əliyev tərəfindən Azərbaycan ədəbiyyatı, milli mətbuatı və onun yaradıcılarının əməyinə yüksək qiymət verilmişdir.*

**Açar sözlər:** *Heydər Əliyev, Cəlil Məmmədquluzadə, "Molla Nəsrəddin" jurnalı, Naxçıvan elmi mühiti, Azərbaycan ədəbiyyatı, satirik milli mətbuat, ədəbi məktəb.*

Ümummilli lider Heydər Əliyev (1923-2003) böyük dövlət xadimi, azərbaycançılıq ideologiyasının banisi, fenomenal şəxsiyyət kimi adını xalqımızın tarixinə şərəflə yazmışdır. Azərbaycan dövlətinin qurucusu və memarı kimi bütün mənalı ömrünü xalqına, onun tərəqqi və dirçəlişinə, dünya dövlətləri sırasında önəmli yer tutmasına sərf edən ulu öndər Azərbaycan həqiqətlərini bütün dünyaya bəyan etmək, öz haqq səsini bəşəriyyətə çatdırmaq üçün daima ardıcıl və prinsipial mövqedə dayanmışdır. Heydər Əliyev dahi siyasətçi, böyük ictimai-siyasi xadim olmaqla yanaşı, həm də Azərbaycan ədəbiyyatının, milli mətbuatımızın əsl təəssübkeşi kimi də Azərbaycan xalqının, ziyalılarımızın və sənətkarlarımızın qəlbində ən uca zirvədə qərarlaşıb. Bütün həyatını elm, maarif və mədəniyyətimizin inkişafına, yüksəlməsinə həsr edən görkəmli maarifpərvər insan Azərbaycan xalqının xoşbəxt gələcəyini digər sahələrlə yanaşı, həm də çoxəsrlik və zəngin ədəbiyyatımızda, milli mətbuatımızın tərəqqisində görürdü. Ümummilli lider böyük realist ədibimiz Cəlil Məmmədquluzadənin redaktorluğu ilə nəşrə başlayan "Molla Nəsrəddin" jurnalına, mollanəsrəddinçi şair və yazıçılara, onların zəngin yaradıcılığına çox böyük diqqət və qayğı ilə yanaşmışdır. Heydər Əliyev ədəbiyyatla, sənətlə, mətbuatla bağlı məruzə və çıxışlarında, şair, yazıçı və sənət adamları ilə görüşlərində xalqımızın taleyində, azadlıq və müstəqillik ideallarının reallaşmasında bu fədakar insanların təmənnasız xidmətlərini ön plana çəkmiş və onların əməyini yüksək dəyərləndirmişdir.

Heydər Əliyev Azərbaycan Respublikasına rəhbərlik etdiyi yarım əsrə yaxın bir dövrdə Şərq ədəbiyyatının tərkib hissəsi olan Azərbaycan ədəbiyyatına, onun yaradıcılarına, 140 ildən artıq inkişaf yolu keçən mətbuatımıza, obyektiv, həqiqi və realist yazıları ilə xalqına xidmət göstərən jurnalist,

yazıçı və şairlərin vətənimizin istiqlalı, azadlığı yolunda cəfakeşliklərinə xüsusi diqqət yetirmişdir. Ulu öndər çoxsaylı mətbuat orqanları sırasında Türk dünyasında ilk satirik jurnal kimi tarixləşən, böyük bir ədəbi hərəkatın-mollanəsrəddinçilərin ətrafında cəmləşən söz sənətkarlarının qoyub getdiyi zəngin irsə böyük dəyər vermişdir. "Molla Nəsrəddin" jurnalının 25 illik fəaliyyəti dövründə öz səhifələrində yer verdiyi satirik hekayələr, felyetonlar, satirik poeziya nümunələri, görkəmli karikatura ustalarının yaratdığı ölməz sənət əsərləri, çoxsaylı rəsmləri Heydər Əliyevin diqqətini cəlb etmişdir. Hətta ulu öndər Heydər Əliyev müsahibələrinin birində ona ünvanlanan "ən çox sevdiyiniz jurnal?" sualına da "Molla Nəsrəddin" deyə cavab verərək jurnala olan rəğbətini bildirmişdi.

Ümummilli lider "Molla Nəsrəddin" ədəbi hərəkatının nəsr, publisistika və poeziya qolunun əsas yaradıcıları-Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, Məmməd Səid Ordubadi, Mirzə Ələkbər Sabir, Əli Nəsmi, Əli Razi və başqalarının yaradıcılığında qaldırılan problemlərin vacibliyinə diqqət çəkərək həmin məsələlərin bir çoxunun yaşadığımız cəmiyyət üçün də aktual olduğunu vurğulamışdır. Heydər Əliyev Cəlil Məmmədquluzadə və Mirzə Ələkbər Sabir yaradıcılığının timsalında mollanəsrəddinçilər ədəbi cəbhəsinin ümumbəşəri xarakterini açıqlayaraq demişdir: *"XX əsr Azərbaycan ədəbiyyatının tarixinə Sabir, Cəlil Məmmədquluzadə və inqilabi-demokratik "Molla Nəsrəddin" jurnalı ətrafında birləşərək maarifçilik və demokratik ənənələri davam və inkişaf etdirən digər yazıçıların parlaq adlarını yazmışdır"* [3, s. 79].

Heydər Əliyev Cəlil Məmmədquluzadənin 125 illiyi ilə bağlı keçirilən tədbirdə böyük realist ədibin Azərbaycan xalqının ictimai-siyasi və ədəbi-mədəni həyatındakı müstəsna rolunu yüksək qiymətləndirmiş, yazıçının milli dəyərləri özündə ehtiva edən yaradıcılığının yeni aspektdən, müstəqillik dövrünün prizmasından araşdırılmasının zəruriliyini gündəmə gətirmişdir.

Ümummilli lider Cəlil Məmmədquluzadə haqqında fikir yürüdərkən realist sənətkarın ədəbi fəaliyyətində xüsusi bir mərhələ təşkil edən, keçən əsrin ilk onilliyində "Sizi deyib gəlmişəm" ricası ilə bütün müsəlman Şərqinə xitab edən, milli mətbuatımızın qızıl səhifələrini yazan "Molla Nəsrəddin" jurnalını və ədibin buradakı 25 illik fədakarlığını diqqət mərkəzində saxlayır. Ulu öndər Azərbaycan mətbuatının keçdiyi şərəfli, çətin və məsuliyyətli yola nəzər salır. Xüsusilə, XX əsrin əvvəllərində, 1906-cı ilin 7 aprelində nəşrə başlayan "Molla Nəsrəddin" jurnalının mübarizələrlə dolu fəaliyyətindən bəhs edərkən biz Heydər Əliyevin mətbuat tariximizə yaxından bələdliyini, zəngin təfəkkürə, dünyagörüşünə, dərin mütaliəyə mənsub bir mütəfəkkir olduğunu görürük. Nəşrə başladığı gündən xalqın problemlərini, ictimai-siyasi, ədəbi-mədəni, sosial məsələləri özünün əsas fəaliyyət proqramına çevirən "Molla Nəsrəddin" jurnalı nəşri boyunca əqidəsinə sadiq qalıb, millətin dərdinin tərcümanına çevrilərək onların qayğılarını, həyat və məişət tərzini səhifələrində işıqlandırıb, üzləşdiyi bəlalardan qurtulmağın yollarını göstərib. Xalqın anlaya biləcəyi bir dildə, açıq, sadə, aydın bir şəkildə yazaraq həmvətənlərini qəflətdən oyandırmağa, elmə, təhsilə, maarifə tərəqqiyə səsləyib. Jurnalın xalq qarşısındakı bu böyük missiyasını dərindən duyan və fikir süzgəcindən keçirən Heydər Əliyev "Molla Nəsrəddin" jurnalının Azərbaycan satirik mətbuatının ilk cığırdaşı kimi müstəsna rolunu, xüsusi bir mərhələ təşkil etdiyini, ədəbi məktəb yaratmağa qədər yüksəldiyini, dünya arealında məşhurlaşdığını və şöhrət qazandığını nəzərə çarpdırır.

Ulu öndər Heydər Əliyev milli mətbuatın əsas parametrlərini və funksiyasını müəyyənləşdirərək demişdir: *"Mətbuat demokratiyanı dərinləşdirən, siyasi inkişafa təkan verən qüdrətli vasitədir. Bu gün əsas vəzifə onun geniş imkanlarından milli dövlət quruculuğunda, demokratik dəyərlərin bərqərar edilməsində, sivil vətəndaş cəmiyyətinin formalaşmasında, islahatların həyata keçirilməsində, insanların mənəvi saflaşmasında səmərəli istifadə etməkdən ibarətdir. Mətbuat həyatın güzgüsü, həqiqətin carçısı olmalıdır, insanları yüksək ideallar uğrunda mübarizəyə səsləməli və səfərbər etməlidir"* [4, s. 42].

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrdə daim mətbuata, onun dövlətçiliyimizin əsl

təminatçısı kimi obyektiv və qərəzsiz fəaliyyətinə xüsusi diqqət və qayğı göstərmişdir. Eyni zamanda mətbuat xadimlərinin, sənət adamlarının, şair və yazıçıların dövlət səviyyəsində yubileylərinin keçirilməsi ulu öndərin əsas fəaliyyət proqramında ehtiva olunmuşdur. Bu baxımdan Heydər Əliyevin Cəlil Məmmədquluzadəni müstəqil Azərbaycanın əsas qurucularından biri hesab etməsi, onun ideyalarının bu gün də bizim yolumuza işıq saçdığını söyləməsi sənətə, sənətkara, milli mətbuata və Azərbaycan ziyalılarına verilən yüksək qiymətin təzahürüdür: *"Cəlil Məmmədquluzadə Azərbaycan tarixində görkəmli yer tutmuş dahi insan, yazıçı, publisist, filosof, mütəfəkkir, xalqımızın mədəniyyətini çox zənginləşdirmiş bir şəxsiyyətdir. O, ədəbiyyatımızın, mədəniyyətimizin klassikidir. Eyni zamanda o, bizim müasirimizdir, o, bu gün də bizimlədir, bizim sıralarımızdadır. Bizimlə bərabər Azərbaycanın müstəqilliyinə sevinir və bizimlə bərabər Azərbaycan Respublikasının daim müstəqil dövlət olması uğrunda öz yaradıcılığı ilə, qoyduğu mənəvi irslə çalışmaqdadır. Əsrimizin əvvəlində fəaliyyətə başlayan Cəlil Məmmədquluzadə bu gün, əsrimizin sonunda bizim üçün mənəviyyat mənbəyidir, mənəvi dayaqdır. O, bizə ilham verir, bizə güc verir, sürətlə irəli getməkdə, xalqımızı bugünkü vəziyyətdən çıxarmaqda bizə kömək edir"* [3, s. 240].

"Molla Nəsrəddin"in Azərbaycan mətbuatı tarixindəki ən önəmli cəhətlərindən bir Azərbaycan türkcəsi ilə nəşr olunması idi. Heydər Əliyev nitqlərində "Molla Nəsrəddin" jurnalında prioritet mövzu kimi daim diqqət mərkəzində saxlanılan ana dili probleminə geniş yer vermişdir. Ümummilli lider hər bir xalqın varlığını isbat edən mühüm atributlardan olan ana dilinin qorunmasının vaxtilə Azərbaycanın görkəmli ziyalıları, o cümlədən Cəlil Məmmədquluzadə və onun mollanəsrəddinçi həmməslәkləri tərəfindən həyata keçirildiyini göstərməklə yanaşı, həm də Azərbaycan dilinin varlığının qorunub saxlanmasının və gələcək nəsillərə ötürülməsinin çağdaş dövrdə də böyük əhəmiyyət kəsb etdiyini gündəmə gətirmişdir.

C.Məmmədquluzadə jurnalın ana dilində nəşr olunması məsələsində heç vaxt güzəştə getməmiş və öz mövqeyini açıq-aşkar bildirərək jurnalın birinci nömrəsində belə bir məqalə ilə çıxış etmişdi: *"...Ey mənim türk qardaşlarım! Mən sizin ilə türkün açıq ana dili ilə danışıram. Mən onu bilirəm ki, türk dili danışmaq eyibdir və şəxsin elminin azlığına dəlalət edir. Amma hərdən bir keçmiş günləri yad etmək lazımdır: salınız yadınıza o günləri ki, ananız sizi beşikdə yırğalaya-yırğalaya sizə türk dilində lay-lay deyirdi, siz də sakitləşirdiniz"* [6, 1906, № 1, s. 2].

Ana dilinə hər zaman böyük qiymət verən *"millətin milliliyini ən birinci təsdiq edən onun dilidir"* deyən ulu öndərin dövlət quruculuğunda əhəmiyyətli yerdə Azərbaycan dili məsələsi dayanırdı: "*Dil böyük bir aləmdir. Ana dilini bilməmək, ana dilini qiymətləndirməmək şübhəsiz ki, xalq qarşısında böyük qəbahətdir. Hər bir xalq öz dili ilə yaranır. Ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik, xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur"* [5, s. 31].

Dövrünün digər nəşrlərindən fərqli olaraq, öz ana dilində nəşr olunan jurnalın əsas tənqid hədəfində isə dini fanatizm, cəhalət və savadsızlıq dayanırdı.Azərbaycan xalqının milli mənəvi dəyərlərinin inkişaf etdirilməsinə, milli oyanış və dirçəlişinə xidmət edən "Molla Nəsrəddin" jurnalı ən çox dini fanatizm və xurafata qarşı mübarizə aparırdı. Mollanəsrəddinçilər islam dininə qarşı çıxmır, əksinə dini özünə qalxan edib avam xalqı istismar edənləri güclü satira ilə lənətləyirdilər. Mollanəsrəddinçiləri islam dinin düşməni kimi göstərən mərsiyəxanlara, mollalara "Molla Nəsrəddin" imzalı sərlövhəli yazıda belə bir cavab verilir: *"Molla Nəsrəddin"in məqsədi nə dinə sataşmaqdır, nə də təzə bir məzhəb icad etməkdir. "Molla Nəsrəddin"in qəsdi vəhşi adətlərin ortadan götürülməyi yolunda çalışmaqdır"* [6, 1911, № 44, s. 2]. Jurnalın həm satirik yazı və felyetonlarında, həm də karikturalarında ən çox tənqid olunanlar dindən gəlir mənbəyi və öz şəxsi mənafeləri kimi istifadə edən riyakar mollalar və din xadimləri idi. Xalqı cəhalətə, geriliyə, mövhumata sürükləyən yalançı din xadimləri jurnalın nəşri tarixi boyunca satira atəşinə tutulmuşdur.

Heydər Əliyev mollanəsrəddinçilərin xidmətlərini dəyərləndirərkən fikir bildirdiyi diqqətəlayiq məsələlərdən biri də onların cəhalət və xurafat əleyhinə təbliğat apardıqları barədə söylənilən yanlış fikirlərlə bağlı olmuşdur. Ulu öndər həqiqətə uyğun olmayan bu fikirlərə qarşı çıxaraq qeyd etmişdir ki: *"Din mənəvi mənbələrimizdən biridir. İslam dinin, Qurani-Kərimin Azərbaycan xalqı üçün açdığı yol davam edəcək və biz get-gedə dinimizin hər yerdə özünə layiq yer tutmasına imkan yaradacayıq. Çünki bu gün də dini təhrif edənlər, dindən öz məqsədləri üçün istifadə edənlər, dindən istifadə edərək xalqımızı cəhalətə uğratmağa çalışanlar az deyil"*[3, s. 244]. "Molla Nəsrəddin" ədəbi məktəbinin görkəmli nümayəndələri dindən öz məqsədləri üçün istifadə edən, yalançı, ikiüzlü din xadimlərinə qarşı amansız mübarizə aparmış, onları ifşa etmişlər.

Heydər Əliyev "Molla Nəsrəddin" jurnalının Azərbaycan xalqının milli şüurunun formalaşmasında, mətbuatımızın inkişafındakı misilsiz rolunu xüsusi nəzərə çatdıraraq deyir: *"Cəlil Məmmədquluzadə dühası "Molla Nəsrəddin" jurnalında öz əksini tapdı. "Molla Nəsrəddin", onun vasitəsilə Cəlil Məmmədquluzadə və jurnalın işinə cəlb olunmuş Azərbaycanın başqa mütəfəkkir adamları xalqımızın milli şüurunun formalaşmasında, milli ruhunun yüksəldilməsində, milli oyanışında böyük rol oynadılar"* [3, s. 242].

Mətbuat tariximizdə özünəməxsus yeri olan "Molla Nəsrəddin" jurnalının milli-mənəvi dəyərlərimizin qorunması, XX əsr Azərbaycan ədəbiyyatının təkamül prosesi və ideya istiqamətlərinin müəyyənləşməsindəki əvəzsiz xidmətlərindən bəhs edən ulu öndərimizin "Azərbaycanda milli mətbuatın yaradılmasının 125 illiyi haqqında imzaladığı fərmanda deyilir: *"Molla Nəsrəddin"in müasir ədəbiyyat, maariflənmə, demokratikləşmə uğrunda mübarizəsi, onun güclü satirası jurnalla əməkdaşlıq edən şair və yazıçıların yaradıcılıq istiqamətlərini müəyyən etmiş, onların görkəmli sənətkar kimi formalaşmasında həlledici amil olmuş, beləliklə də, "mollanəsrəddinçilik" adlı böyük bir ictimai-ədəbi hərəkat yaranmışdır"* [2].

Heydər Əliyev Cəlil Məmmədquluzadənin ictimai fəaliyyətini də yüksək dəyərləndirir. Çünki yazıçı öz dövründə baş verən bir çox ictimai-siyasi proseslərdə fəal iştirak edir, Azərbaycan xalqının taleyi ilə bağlı önəmli problemlərin həllində mühüm rol oynayır. Ümummilli lider Cəlil Məmmədquluzadənin həyat və fəaliyyətinin bu istiqamətinə diqqət çəkərək qeyd edir: *"Cəlil Məmmədquluzadəyə sadəcə bir ədəbiyyatçı kimi, yazıçı kimi, publisist kimi yox, eyni zamanda, böyük ictimai xadim və böyük siyasətçi kimi yanaşmalıyıq. Cəlil Məmmədquluzadə öz yaradıcılığı ilə Azərbaycanın ictimai-siyasi həyatının inkişafında, milli ruhun yüksəlməsində böyük rol oynamışdır. Bu, təkcə ədəbiyyatda deyil, təkcə mədəniyyətdə deyil, bu, siyasətə böyük xidmətdir, ictimai həyatımızda böyük xidmətdir"* [3, s. 242].

Ulu öndərin mollanəsrəddinçilərin, xüsusilə də Cəlil Məmmədquluzadənin yaradıcılığına bu qədər böyük dəyər verməsinin başlıca səbəbi nədir? Hər şeydən öncə: *"Cəlil Məmmədquluzadəni və onun banisi olduğu mollanəsrəddinçilər ədəbi məktəbini Azərbaycan xalqının Ümummilli Liderinə sevdirən başlıca cəhət böyük satirikin milli oyanış və milli özünüdərk, bunların əsasında dayanan azərbaycançılıq ideyalarına ardıcıl və sədaqətli xidməti olmuşdur. Keçən əsrin əvvəllərində, çar hakim dairələri Azərbaycan türklərinin hüquqlarını hər vasitə ilə tapdalayanda, onlara öz dillərini inkişaf etdirməyə, milli maarif və mətbuatlarını yaratmağa icazə verməyəndə, yaxud hər bəhanə ilə mane olanda Cəlil Məmmədquluzadə bir tərəfdən bu antihumanist, işğalçı və irticaçı rejimi qamçılamış, o biri tərəfdən isə həmin yaramaz rejimin tələblərinə müti şəkildə boyun əyən həmvətənlərini kəskin satira atəşinə tutmuşdu. "Molla Nəsrəddin"in birbaşa hədəfə dəyən tənqid oxları millətin ətalət yuxusundan oyanmasında, inkişaf etmiş xalqların yolu ilə maarif və mədəniyyət ardınca getməsində, öz haqqını tələb etməsində əvəzsiz rol oynamışdı"* [7, s. 166].

Cəlil Məmmədquluzadənin Azərbaycan xalqı qarşısında tarixi xidmətlərini göz önündə canlan-

dıran Heydər Əliyev yazıçının zəngin irsinin hələ kifayət qədər araşdırılmadığına da diqqət çəkir. Çünki hər sözündə, hər cümləsində böyük mətləblər ifadə edən Mirzə Cəlil irsi tükənməz bir xəzinədir, hələ də yazıçının yaradıcılığının bütün detalları, incəlikləri, cahanşümul əhəmiyyəti və sənətkarlıq qüdrəti lazımınca açılmayıb. Doğrudan da, Cəlil Məmmədquluzadə yaradıcılığına müstəqillik illərinin prizmasından yanaşmaq, təfərrüatlara varmaq, onun Şərq aləmində ilk satirik mətbuat orqanı kimi dünyaya səs salan "Molla Nəsrəddin" jurnalındakı dinamik fəaliyyəti və naşir, yazıçı, publisist, dramaturq kimi XX əsr Azərbaycan ədəbiyyatına bəxş etdiyi monumental əsərlər yetərincə təhlil və tədqiqə cəlb edilib açılmamış, qaranlıq səhifələr xalqa çatdırılmamışdır. Ulu öndərin qeyd etdiyi kimi, bu məsələlər öz həllini gözləyir. Sovet dövründə bir çox şair və yazıçıların əsərlərinə birtərəfli yanaşılmış, onları rejimin ideologiyasına xidmət edən sənətkarlar kimi xarakterizə etmişlər.

Ulu öndər Mirzə Cəlil və məşhur mollanəsrəddinçilərin ədəbi yaradıcılıq irsinin yenidən müstəqillik əqidəsi və təfəkkürü ilə öyrənilməsi zərurətini də irəli sürmüşdür: *"Doğrudan da, Azərbaycan ədəbiyyatının digər klassikləri ilə müqayisədə ölməz "Molla Nəsrəddin" irsi daha çox müstəqillik əqidəsi və təfəkkürü ilə öyrənilməyə möhtacdır. Çünki sovet rejimi şəraitində onun bir çox əsərləri öz həqiqi qiymətini almamış, yaxud toxunduğu bir sıra vacib mətləblər məhz hakim ideologiyanın şərtlərinə uyğun gəlmədiyindən diqqət mərkəzindən kənarda qalmışdır"* [1].

Azərbaycan ikinci dəfə müstəqilliyini bərpa etdikdən sonra Molla Nəsrəddin" ədəbi məktəbi və Mirzə Cəlil irsinin öyrənilməsi istiqamətində həm Azərbaycan, həm də Naxçıvan elmi mühitində əhatəli tədqiqatlara başlanılmış, tarixi-elmi faktlar və arxiv sənədləri əsasında jurnalın nəşri, dil və üslubu, mollanəsrəddinçi şairlərin ədəbi irsi ciddi şəkildə tədqiq olunmuş, görkəmli ədəbiyyatşünas alimlər tərəfindən çoxsaylı fundamental elmi tədqiqat əsərləri yazılmış, yazılmaqda davam edir.

Sonda onu deyə bilərik ki, ulu öndər Heydər Əliyev klassik irsimizə, Azərbaycan milli mətbuatına,"Molla Nəsrəddin" satirik jurnalına və Cəlil Məmmədquluzadənin timsalında ədəbi hərəkatın bütün üzvlərinə və onların fəaliyyətinə yüksək qiymət vermiş, dəyərli fikirlər söyləmişdir. Ulu öndərin "Molla Nəsrəddin" ədəbi məktəbi və bu məktəbin yaradıcısı Cəlil Məmmədquluzadənin zəngin ədəbi irsi haqqındakı müdrik fikir və düşüncələri, təhlilləri həyatı və yaradıcılığı boyu azərbaycançılıq ideologiyasına xidmət edən, görkəmli maarifçi Cəlil Məmmədquluzadənin və "Molla Nəsrəddin" ədəbi məktəbinin fəaliyyətinə verilən böyük dəyər kimi xatırlanacaqdır.

## ƏDƏBİYYAT

1. Ağayev İ. Cəlil Məmmədquluzadə və XX əsrin əvvəlləri Azərbaycan ədəbi-ictimai fikri / "Ədəbiyyat" qəz., 2009, 26 iyun, s. 2.
2. Azərbaycanda milli mətbuatın yaradılmasının 125-illiyi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. "Xalq" qəz., 2000, 28 mart, № 64.
3. Əliyev H. Ədəbiyyatın yüksək borcu və amalı. Bakı: Ozan, 1999, 496 s.
4. Əliyev H. Müstəqilliyimiz əbədidir. Bakı: Azərnəşr, 2007, 480 s.
5.Mehdiyev R. Aforizmlər. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışlarından seçilmiş müdrik fikirlər. Bakı: Azərbaycan universiteti, 1997, 40 s.
6. Molla Nəsrəddin" jurnalı.
7. Teymur K., Quliyev V. Heydər Əliyev və klassik ədəbiyyat / Nəbiyev B. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı: Şərq-Qərb, 2009, s. 166.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: gunalasgar1987@gmail.com***

**Gunel Asgarova**

## THE ATTITUDE OF THE NATIONAL LEADER HEYDAR ALIYEV TO THE MASTERPIECE OF THE AZERBAIJANI SATIRICAL PRESS – THE "MOLLA NASREDDIN" JOURNAL

Heydar Aliyev (1923-2003) during the years of his reign made important steps not only in the political and economic revival of the country, but also in the field of preservation and development of Azerbaijani culture, of which he was a contemporary. The great leader made sure to keep the memories of famous people from Azerbaijan alive by having events regularly. This helped spread the word about their great achievements in science and culture, which was a big part of his smart plan. In the article, a wise leader talks about Jalil Mammadguluzadeh and his magazine "Molla Nasreddin," which he edited. He thinks Jalil Mammadguluzadeh's writing and culture are essential to the nation. It was noted that the outstanding statesman Heydar Aliyev highly appreciated the merits of Azerbaijani literature, the national press and its creators.

**Keywords:** *Heydar Aliyev, Jalil Mammadguluzadeh, Molla Nasreddin magazine, Nakhchivan scientific environment, Azerbaijani literature, satirical national press, literary school.*

**Гюнель Аскерова**

## ОТНОШЕНИЕ ОБЩЕНАЦИОНАЛЬНОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА К ШЕДЕВРУ АЗЕРБАЙДЖАНСКОЙ САТИРИЧЕСКОЙ ПРЕССЫ – ЖУРНАЛУ «МОЛЛА НАСРЕДДИН»

Гейдар Алиев (1923-2003) за годы своего правления сделал важные шаги не только в политико-экономическом возрождении страны, но и в области сохранения и развития азербайджанской культуры, современником которой он являлся. Организуя регулярные мероприятия по увековечению памяти известных личностей Азербайджана, классиков культуры, великий лидер проделал большую работу по популяризации в мире науки и культуры традиций, выдающихся гениев Азербайджана, что было важной составляющей его дальновидной политики.

В статье цитируются мудрые мысли великого лидера о Джалиле Мамедкулизаде и журнале «Молла Насреддин», издателем которого он являлся, говорится о высокой ценности, которую он придавал творчеству Джалила Мамедкулизаде и его литературно-культурному наследию.

Отмечено, что выдающийся государственный деятель Гейдар Алиев высоко ценил заслуги азербайджанской литературы, национальной прессы и ее создателей.

**Ключевые слова:** *Гейдар Алиев, Джалил Мамедкулизаде, журнал «Молла Насреддин», нахчыванская научная среда, азербайджанская литература, сатирическая национальная пресса, литературная школа.*

# D Ö R D Ü N C Ü B Ö L M Ə

## HEYDƏR ƏLİYEV VƏ NAXÇIVAN

ASƏF ORUCOV

## HEYDƏR ƏLİYEV VƏ NAXÇIVANDA MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN QORUNMASI

*Məqalədə ulu öndər Heydər Əliyevin Naxçıvanda olduğu dövrdə Milli mənəvi dəyərlərimizin yaşadılması və dövlət dəstəyindən söz açılmışdır. Araşdırmalardan məlum olmuşdur ki, ulu öndər demək olar ki, həyatının bütün dövrlərində milli-mənəvi dəyərlərə qayğı göstərmiş, bu sahələri inkişaf etdirmişdir. Demək olar ki, maddi və mənəvi mədəniyyətin bütün sahələrinə diqqət və qayğı göstərmiş onların qorunub saxlanılması sahəsində ciddi işlər görülmüşdür.*

**Açar sözlər:** *Heydər Əliyev, milli dəyərlər, Naxçıvan, adət-ənənə, millət.*

Ulu öndərimiz milli özünəməxsusluğumuzu daim diqqət mərkəzində saxlamış, onun daha da zənginləşməsinə xüsusi önəm verirdi. Başqa sözlə, ulu öndər xalqımızın milli-mənəvi dəyərlərinin qorunması, azərbaycançılıq ideologiyasının cəmiyyətdə möhkəm sosial dayaqlar taparaq zehinlərdə möhkəmlənməsi, davamlı inkişaf prosesində mənəvi stimula çevrilməsi üçün bütün zəruri tədbirləri həyata keçirmişdir. Heydər Əliyevin Azərbaycançılıq ideologiyası milli-mənəvi inkişafın əsas zəmini olmuşdur. O bu barədə demişdir: *"Azərbaycan dövlətinin milli ideologiyasının özəyini, əsasını təşkil edən azərbaycançılıqdır. Dövlətçilik,milli-mənəvi dəyərlər, ümumbəşəri dəyərlər-bunlar hamısı azərbaycançılıq anlayışının tərkib hissələridir...".*

Hələ Heydər Əliyevin birinci hakimiyyəti dövründə milli-mənəvi dəyərlərə dövlət səviyyəsində arxa duruldu. Müəyyən cəhətdən tədqiqata cəlb edilməsinə baxmayaraq, bir sıra maddi və mənəvi dəyərlərimiz məişət səviyyəsindən yuxarı qaldırıla bilməməklə rəsmi olaraq milli dəyərlər hesab olunmurdu. Milli şüurun bərpasına, adət-ənənələrimizə, milli dəyərlərimizə sahib çıxılmasına 60-cı illərin sonu, 70-ci illərin əvvəllərində başlanıldı. Bu, milli özünəqayıdışın, özünüdərkin yeni mərhələsi, Azərbaycan dilinin dövlət dili səviyyəsinə qaldırılması, milli dəyərlərin dövlət səviyyəsində qorunması idi.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ciddi önəm verilən məsələlərdən biri də milli münasibətlərin, adət-ənənələrin, bütövlükdə milli dəyərlərin hərtərəfli araşdırılması, bərpası, təbliği və qorunub saxlanılması olmuşdur. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da bu sahədə ciddi işlər görülmüşdür. Müstəqillik əldə edildikdən sonra milli-mənəvi sərvətlərimiz azərbaycançılıq ideologiyasının əsası kimi dövlət səviyyəsində dəyərləndirildi. Milli ideologiyamızın əsas hissəsi isə bizim sahib olduğumuz milli-mənəvi sərvətlərimiz götürüldü. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev milli-mənəvi dəyərlərimizin əhəmiyyətindən bəhs edərək deyirdi: "Hər xalqın öz adət-ənənəsi var, öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr etməliyik. Bizim milli-mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında, xalqımızın fəaliyyətində formalaşıbdır. Milli-mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz. Hər bir xalqın özünə, öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir" [2, s. 245]. Milli-mənəvi dəyərlərimiz sözün əsl mənasında bizi biz edən dəyərlərdir.

Ümummilli lider Heydər Əliyev milli dəyərlərimizə böyük önəm vermiş: “Mən fəxr edirəm ki, azərbaycanlıyam” – deyərək böyük öndər Azərbaycan naminə mümkün olan hər şeyi etmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olduğu müddətdə də milli-mənəvi dəyərlərə böyük önəm verilmiş, onların qorunub saxlanılması sahəsində ciddi işlər görülmüşdür.

Hələ siyasi hakimiyyətinin birinci dövründə milli-mənəvi dəyərlərə daim diqqətlə yanaşmış, bu sahəyə böyük önəm vermişdir. Belə ki, Ümummilli liderin 1970-ci ildə ADU-nun (indiki BDU) yubiley yığıncağında doğma Azərbaycan dilində çıxış etməsi nəinki respublikamızda, bütün SSRİ-də böyük əks-səda doğurdu. Bundan sonra Azərbaycan dilinin inkişafı sahəsində bir sıra addımlar atıldı. Məhz ümummilli lider Heydər Əliyevin qətiyyəti sayəsində 1978-ci ildə SSRİ rəhbərliyinin bütün təzyiq və maneələrinə baxmayaraq Azərbaycanın yeni qəbul edilmiş Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi təsbit olunmuşdu.

Dünya azərbaycanlılarının birliyi və həmrəyliyinin yaradılmasında Heydər Əliyevin böyük tarixi xidməti olmuşdur. 1989-cu ildə Naxçıvanda “Sərhəd hərəkatı” başlanan vaxt, yəni tarixi bir ərazidə yaşamış azərbaycanlıların iki yerə parçalanmasına qarşı Araz çayı boyunca bu xalqın əlaqəsini, birliyini qıran sərhədlərin aradan götürülməsi tələbi ilə SSRİ-nin dövlət sərhədi boyunca çəkilmiş sərhəd çəpərlərinin elliklə sökülməsinə başlanmışdı. Heydər Əliyev bu hərəkatı vətənpərvər gənclərin hərəkatı kimi qiymətləndirirdi. Heç də təsadüfi deyildir ki, 1989-cu ildən başlayan “Sərhəd hərəkatı”na qiymət vermək məqsədi ilə 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi sessiyasında xüsusi məsələ – Dünya azərbaycanlıların milli həmrəylik və birlik günü haqqında məsələ müzakirə edilmişdi. İclası Heydər Əliyev aparmışdı. Məsələ geniş müzakirə edildikdən sonra o, müzakirələrə yekun vuraraq, sərhəd hərəkatının böyük əhəmiyyətini göstərmişdi: “...iki il bundan əvvəl vətənpərvər gənclərin bu hərəkatı başlanmış və onlar heç bir təhlükədən qorxmayaraq bu tədbiri həyata keçirmişlər... Mən belə hesab edirəm ki, bu hərəkatın qurbanı olanların xatirəsi əbədiləşdirilməlidir” [3, s. 122-125].

1990-cı ilin sentyabr seçkilərində öz böyük oğlunu Azərbaycan və Naxçıvan parlamentlərinə deputat seçməklə xalq illərdən bəri tapdalanan mənafeyini və taleyini yenidən dahi rəhbər Heydər Əliyevə həvalə etdi. Həmin il noyabrın 17-də Naxçıvan MSSR Ali Sovetinin Heydər Əliyevin sədrliyi ilə keçirilən ilk sessiyasının qəbul etdiyi “Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilməsi haqqında”, “Naxçıvan Muxtar Respublikasının Ali dövlət hakimiyyəti orqanı haqqında”, “Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında”, tarixi qərarlar milli dəyərlərə qayğının bariz nümunəsidir. Elə həmin sessiyada ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı Azərbaycanda dövlət bayrağı kimi qaldırılmaqla muxtar respublika özünün milli dəyərlərinə sadiqliyini bir daha nümayiş etdirmişdi. Ən diqqət çəkən məqam isə millətini, xalqını sevən ulu öndər Heydər Əliyevin rəhbərliyi altında bu tarixi hadisə reallaşmışdır. 2014-cü il noyabrın 17-də Naxçıvanda Dövlət Bayrağı Meydanı və Muzeyinin açılışı, həmin gün Naxçıvan Muxtar Respublikasında 17 noyabrın Naxçıvan Muxtar Respublikasında Dövlət Bayrağı Günü elan edilməsi ulu öndərin ruhuna böyük ehtiramın əlaməti, onun nurlu əməllərinin yaşadılmasının daha bir sübutudur [6].

Xüsusi olaraq qeyd etmək istərdik ki, bu qərarlar qəbul olunarkən hələ Azərbaycan müstəqilliyini bərpa etməmişdi. 18 oktyabr 1991-ci ilə 11 ay qalırdı. SSRİ kimi nəhəng və güclü dövlət hələ tarix səhnəsindən çıxmamışdı. SSRİ-nin süqutuna hələ bir ildən artıq vaxt qalırdı.

Görkəmli dövlət xadimi Heydər Əliyevin 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışı milli-mənəvi dəyərlərin bərpasına, onların itib-batmasının qarşısının alınmasına şərait yaratmışdır. Ulu öndərin müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə Novruz, Ramazan, Qurban kimi milli və dini bayramlarımız dövlət səviyyəsində qeyd olunmağa başlanmışdır. Heydər Əliyevin ədəbiyyat siyasəti ümumdövlət siyasətinin əsas inkişaf istiqamətlərindən birinə çevrilmişdir. Onun ana dili haqqındakı baxışları məhz Azərbaycançılıq kontekstində daha aydın dərk olunur. 18 iyun

2001-ci il tarixli Prezident fərmanında bütün xalqlarda olduğu kimi, Azərbaycan xalqının da dilinin onun milli varlığını müəyyən edən başlıca amillərdən olması və bu ən qiymətli göz bəbəyi kimi qorunması və qayğı ilə əhatə edilməsi bir vətəndaşlıq vəzifəsi kimi qarşıya qoyulmuşdur.

Azərbaycan mədəniyyətinin, incəsənətinin əsl himayəçisi olan Heydər Əliyev hakimiyyətdə olduğu bütün zamanlarda bu sahənin insanlarını həmişə diqqətdə saxlamış, onları yüksək dövlət mükafatları təltif etmiş, təntənəli surətdə yubileylərinin keçirilməsi ilə bağlı sərəncamlar vermişdir. Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Naxçıvan şəhərində 1996-cı ilin oktyabrında Azərbaycan ictimai-siyasi və mədəni həyatında ən əlamətdar hadisələrdən olan, böyük Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin anadan olmasının 114 illiyi münasibəti ilə məzarı üzərində ucaldılmış möhtəşəm memarlıq-xatirə kompleksinin açılışı olmuşdur.

Məscidə girərkən ayaqqabılarını çıxarmaqla, əyləşmək üçün təklif olunan stulu qəbul etməyərək xalça üstündə camaatla yanaşı oturmaqla ümummilli liderimiz milli və dini adət-ənənələrimizə hörmət və ehtiramını bildirir, eyni zamanda məscidə ayaqqabı ilə daxil olan bəzi kiçik məmurları milli-mənəvi dəyərlərimizə hörmətlə yanaşmağa dəvət edirdi. Bütün bunlarla Heydər Əliyev heç də dini təbliğ etmir, öz şəxsi nümunəsi ilə milli-mənəvi dəyərlərə hörmətin və ehtiramın vacibliyini göstərirdi [6, s. 54].

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə muxtar respublikamızda milli dəyərlərin təbliği, yaşadılması, gələcək nəsillərə ötürülməsi istiqamətində geniş həcmli tədbirlər prosesinə başlanılıb. Ötən dövr ərzində görülən işlər bu sahədə uğurlu nəticələrlə xarakterizə edilir. Milli dəyərləri qorumaqla bağlı xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən yaradılmış kurs Naxçıvanda uğurla davam etdirilməklə onların qorunub saxlanılması, hərtərəfli tədqiqi ilə əlaqədar ardıcıl işlər görülməkdədir.

Milli dəyərlərimizin ən zəngin sahələrindən biri tarixi-memarlıq abidələrdir ki, Naxçıvan bölgəsi bu sahədə diqqət çəkən xüsusiyyətə – Naxçıvan memarlıq məktəbinə malikdir. Bu memarlığın özünəməxsusluqlarından biri Türk-İslam düşüncə tərzinin vəhdətində, simmetriya və harmoniya məsələlərindədir. Möminə Xatun türbəsi bunun ən parlaq nümunələrindən biridir. Bütövlükdə tikililər maddini təmsil etsələr də, onlar hər şeydən əvvəl bir düşüncənin, mənəvinin maddi formada təzahürüdür. Bu maddi ayrıca olaraq millini təmsil edə bilməz. Onun milliliyi türbənin tikiliş məqsədində, memarlığında, ornamentlərin simmetriya və harmoniyasında, geniş anlamda türk memarlığının, düşüncə tərzinin İslami dəyərlərlə vəhdətindədir. Burada varislik, ənənəvilik, o dövr üçün müasir sayılan islamçılıq məsələlərinin vəhdətinə əməl edilərək gələcək nəsillərə ötürülərək yaşadılan məktəb yaradılmışdır. Sonralar milli dəyərlərimizi qiymətli nümunələri olan bir sıra tarixi-memarlıq abidələri bu məktəbin təsirindən meydana gəlmişdir. Hazırda da Naxçıvanda bu məktəb milliliyin və müasirliyin vəhdəti halında davam etdirilməkdədir.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ciddi önəm verilən məsələlərdən biri də milli münasibətlərin, adət-ənənələrin, bütövlükdə milli dəyərlərin hərtərəfli araşdırılması, bərpası, təbliği və qorunub saxlanılması olmuşdur. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da bu sahədə son illərdə də ciddi işlər görülmüşdür. Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında sərəncam verilmişdir. Həmin sərəncamda milli-mənəvi dəyərlərimizin digər sahələri ilə yanaşı, milli geyimlərin, milli mətbəxin öyrənilməsinə və təbliğinə də xüsusi diqqət yetirmək əsas vəzifələrdən biri kimi qarşıya qoyulur. Sənəddə göstərilir ki, "...tarixi mədəni və bədii irsimizin daşıyıcısı olan Azərbaycan xalq yaradıcılığı əsrlər boyu formalaşaraq və inkişaf edərək günümüzə gəlib çatmışdır. Xalqımızın həyatında elə bir əlamətdar hadisə yoxdur ki, o, şifahi yaradıcılıqda, aşıq poeziyasında, xalq musiqisində bu və ya digər dərəcədə öz əksini tapmasın. Dünyanın qədim və mədəni xalqlarından olan Azərbaycan xalqı ən qədim dövrlərdən başlayaraq öz tarixini bu və ya digər şəkildə əks etdirmişdir. Xalqımızın mifoloji bədii düşüncəsinin

izləri indi də folklorda özünü büruzə verməkdədir". Sərəncamda hər il "Novruz bayramı" şənliklərində Xalq yaradıcılığı günləri keçirilməsi xüsusi ilə göstərilmişdir. Bundan əlavə Naxçıvan folkloru ilə bağlı yeni materiallar toplanılması və "Naxçıvan folkloru antologiyası"nı hazırlayıb nəşr edilməsi, xalq mahnı və rəqslərinin, Naxçıvanla bağlı saz havalarının tədqiqinə və təbliğinə, qədim çalğı alətlərinin tətbiqinə diqqət artırlması bir sıra təşkilatların qarşısına vəzifə olaraq qoyulmuşdur [5, s. 144-145].

Sərəncamda deyilir ki, "Milli geyim və milli mətbəx xalq yaradıcılığının ən mühüm sahələrindən biridir. Naxçıvanda bu sahələr daha qədim dövrlərdən yaranmış, təbii-coğrafi şəraitə uyğun olaraq formalaşmış, inkişaf etmiş, hər əsrdə özünəməxsus milli cəhətlərlə daha da zənginləşmişdir".

Sərəncama uyğun olaraq Naxçıvan Muxtar Respublikasında xalq yaradıcılığının inkişafı və onun qorunub saxlanması istiqamətində bir sıra işlər görülmüş, folklor kollektivlərinin və xalq teatrlarının fəaliyyəti gücləndirilmiş, onlar milli geyim dəstləri ilə təmin olunmuşlar. Hal-hazırda muxtar respublikada 50 folklor kollektivi mövcuddur. Bu kollektivlərin 600-ə yaxın üzvü xalq yaradıcılığının bu və ya digər sahələrini qoruyub yaşatmaqdadırlar. Bundan əlavə 2009-cu il 7 fevral tarixli Sərəncamına uyğun olaraq, Naxçıvan Aşıqlar Birliyi fəaliyyətə başlayıb. Eyni zamanda "Naxçıvan tikmələri", "Naxçıvan mətbəxi" adlı kitab nəşr edilmiş, bu kitablarda qədim tikmə sənətimiz, tikmə sənətimizin müxtəlif növləri barədə, mətbəx mədəniyyəti, çeşidli milli yeməklərimiz haqqında geniş məlumat verilmişdir.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin birgə layihəsi ilə xalq yaradıcılığının ən qədim nümunələrini özündə əks etdirən Şərur yallılarından ibarət "Yallı" kompakt diski hazırlanmışdır. Bu cür kompakt diskinin hazırlanması yallılarımızın təbliği və gələcək nəsillərə ötürülməsi baxımından mühüm və əlamətdar hadisə olmuşdur. Həmçinin uşaq və gənclər xalq sənəti sahələrinə cəlb olunmuşdur.

Milli dəyərlərə dövlət qayğısının bariz nümunələrindən biri də 2012-ci ilin Naxçıvanda "Milli dəyərlər" ili olduğunu qeyd etməsidir. Bu sərəncama uyğun olaraq Naxçıvan Muxtar Respublikada beynəlxalq konfrans keçirilmişdir. "Milli dəyərlər ili"ndə bir sıra xalq sənətini yaşadan qrup və dərnəklərin fəaliyyəti də bərpa olunmuşdur. Babək Rayon Mədəniyyət və Turizm Şöbəsinin kənd klub və mədəniyyət evlərində şifahi xalq ədəbiyyatı nümunələrini toplayan "Elimizin söz boğçası" adlı maraq klublarının yaradılmasına başlanmışdır. Bundan əlavə Şahbuz rayonunun Qışlaq kənd mədəniyyət evi nəzdində "Toxucular və xalçaçı qızlar" qrupunun fəaliyyəti bərpa olunmuş, Culfa Rayon Mədəniyyət evinin nəzdində "Qızıl əllər" dərnəyi yaradılmışdır. "Milli dəyərlərimizi öyrənək və yaşadaq" rubrikası ilə televiziya və radiolar verilişlərə başlanılmışdır. Aparılan tikinti-quruculuq işlərində milli ornamentlərin tətbiqinə üstünlük verilmiş, qədim milli musiqi alətlərində ifalara və milli geyimlərimizin təbliğinə diqqət artırılmışdır [4].

Dünyanın ən qədim şəhərlərindən olan, 5 min illik tarixə malik Naxçıvan şəhərinin mərkəzində orijinal memarlıq üslubunda Ana dili abidəsinin ucaldılması milli dəyərlərimizin əsasını təşkil edən ana dilinə dövlət səviyyəsində bəslənilən münasibəti, göstərilən qayğını ifadə edən amillərdən biridir.

Milli dəyərlərimizi öyrənmək, qorumaq və təbliğ etmək, hər kəsdən əvvəl, bu sahə ilə məşğul olan araşdırıcıların, digər ziyalıların və geniş oxucu kütləsi olan xalqımızın ümumi işidir. Təbii ki, buna dövlət səviyyəsində qayğı yüksəkdir. Lakin ümumi sərvətimiz olan milli dəyərlərimizin hər kəs tərəfindən, ailələrin fərdi üzvlərindən başlamış məhəllə, kənd, şəhər, nəhayət, ümumrespublika səviyyəsində qorunması gərəkdir.

Sonda vurğulamaq istərdik ki, milli dəyərlərimizin qorunub saxlanılması hər birimizin mühüm vəzifəsi olmalıdır. Biz öz tarixi dəyərlərimizə sahib çıxmalıyıq, əgər sahib çıxmasaq ona sahib çıxacaqlar. Xalqımızın gələcəyini düşünürüksə, bu gələcəyi möhkəm təməllər – milli dəyərlər üzərində qurmalıyıq.

## ƏDƏBİYYAT


1. Əl-Fəlah A.A. Heydər Əliyev və milli-mənəvi dəyərlər. Bakı: Qismət, 2007, 108 s. (şəkilli).
2. Əliyev H. Müstəqilliyimiz əbədidir: 48 cilddə. XVIII c., Bakı: Azərnəşr, 2006, 552 s.
3. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: Təhsil, 2004, 472 s.
4. Məmmədov E. Milli dəyərlər qorunur, yaşadılır. "Azərbaycan" qəz., 2013, 9 yanvar.
5. Orucov A. Müstəqillik illərində Naxçıvanda milli dəyərlərə dövlət qayğısı / Azərbaycan Arxeologiya və Etnoqrafiya elmlərinin inkişafında Naxçıvan məktəbinin rolu: Konfrans materialları. Bakı, 2014, s. 143-146.
6. Səfərli H. Heydər Əliyev irsi – əbədiyaşar təlim. Naxçıvan: Əcəmi, 2014, 200 s.
7. http://www.serqqapisi.az/index.php/ictimai-siaysi/umummilli-lider-heydaer-aeliyev-vae-nakhdzh-van


**Asef Orujov**

## HEYDAR ALIYEV AND THE PROTECTION OF NATIONAL AND MORAL VALUES IN NAKHCHIVAN

The article mentions the preservation of our national moral values and state support during the stay of the great leader Heydar Aliyev in Nakhchivan. The study revealed that the great leader, in almost all periods of his life, took care of national and moral values and developed these areas. It can be said that attention and care were paid to almost all areas of material and spiritual culture, serious work was carried out in the field of their preservation.

**Keywords:** *Heydar Aliyev, national values, Nakhchivan, tradition, nation.*

**Асеф Оруджов**

## ГЕЙДАР АЛИЕВ И ЗАЩИТА НАЦИОНАЛЬНО-НРАВСТВЕННЫХ ЦЕННОСТЕЙ В НАХЧЫВАНЕ

В статье упоминается о сохранении наших национальных нравственных ценностей и государственной поддержке во время нахождения великого лидера Гейдара Алиева в Нахчыване. Исследование выявило, что великий вождь почти во все периоды своей жизни заботился о национальных и нравственных ценностях и развивал эти направления. Можно сказать, что почти всем областям материальной и духовной культуры уделялось внимание и забота, в области их сохранения проводилась серьезная работа.

**Ключевые слова:** *Гейдар Алиев, национальные ценности, Нахчыван, традиция, нация.*

**TOĞRUL XƏLİLOV**

# HEYDƏR ƏLİYEV VƏ NAXÇIVAN ARXEOLOGİYASI

*Bəşər tarixinin ən qədim, xüsusən yazıya qədərki tarixinin öyrənilməsində arxeologiya elmi mühüm yer tutur. Qədim maddi mədəniyyət nümunələri əsasında insanların meydana gəlməsi və inkişaf etməsini öyrənən arxeologiya Azərbaycan milli tarix elminin çox mühüm sahəsidir. 1969-cu ildə ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə gəlməsi ilə əlaqədar olaraq arxeoloji, tarixi və memarlıq abidələrimizin elmi tədqiqi üçün əlverişli şərait yaradılmışdır. Azərbaycanın gənc arxeoloqlarının yüksək səviyyəli mütəxəssis kimi yetişməsinə, abidələrimizin daha dərindən öyrənilməsinə böyük diqqət və qayğı göstərilmişdir. Bu istiqamətdə bir sıra qərarların qəbul olunması Azərbaycanın bütün bölgələrində olduğu kimi, Naxçıvanda da arxeologiya elminin inkişafına mühüm təsir göstərmiş, abidələrimiz dərindən öyrənilmiş, onlara böyük diqqət və qayğı göstərilmişdir.*

**Açar sözlər:** *ümummilli lider, arxeologiya, Azərbaycan, Naxçıvan.*

Bəşər tarixinin ən qədim, xüsusən yazıya qədərki tarixinin öyrənilməsində arxeoloji abidələr yer tutur. Abidələrin tədqiqinin, qədim tayfaların iqtisadi, ictimai və mədəni həyatının öyrənilməsində mühüm əhəmiyyəti vardır. Qədim maddi mədəniyyət nümunələri əsasında tariximizi öyrənən arxeologiya Azərbaycan milli tarix elminin çox mühüm sahəsidir. Respublikamızın ərazisindəki arxeoloji abidələrin öyrənilməsinə XIX yüzilliyin ikinci yarısından başlanılmışdır. Geniş miqyaslı tədqiqatlar isə XX yüzilliyin ikinci yarısından sonra aparılmışdır [5; 6, s. 108-110].

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin siyasi hakimiyyətə gəlməsinə qədər bu sahə respublikamızın bütün bölgələrində olduğu kimi Naxçıvanda da, yaxşı inkişaf etməmiş, tədqiqatları həvəskar və əcnəbi arxeoloqlar aparmışlar. 1969-cu ildə ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə gəlməsindən sonra arxeoloji, tarixi və memarlıq abidələrimizin hərtərəfli elmi tədqiqi üçün əlverişli şərait yaradılmışdır. Ulu öndərin fəaliyyəti zamanı Azərbaycanın digər bölgələrində olduğu kimi, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanda da, bu elmin inkişafı üçün misilsiz işlər görmüş, arxeoloji tədqiqatların aparılmasına diqqət göstərilmişdir. Yerli mütəxəssislər az olduğu üçün bu sahədə görülən ən böyük işlərdən biri 1970-ci ildən başlayaraq azərbaycanlı gənclərin Moskva və Leninqrad şəhərlərində (indiki Sankt-Peterburq) yüksək səviyyədə mütəxəssis kimi yetişmələri üçün həmin ölkələrdəki aspiranturalara qəbul olunmaları və təcrübə keçmələri prosesinə kömək etmişdir. Arxeologiyaya marağı olan gəncləri bu ölkələrə oxumaq və təcrübə keçmək üçün göndərmişdir. 1972-ci ildə ulu öndərin şəxsi təşəbbüsü ilə Azərbaycan Elmlər Akademiyası Rəyasət Heyəti Naxçıvan Regional Elm Mərkəzinin yaradılması haqqında qərarın qəbul edilməsinin mühüm əhəmiyyəti olmuşdur. Ümummilli lider "Bölgənin təbii xammal ehtiyatlarının kompleks şəkildə öyrənilməsini və səmərəli istifadə olunmasını, elmi əsaslarla işlənib hazırlanmasını, muxtar respublikanın sosial-iqtisadi inkişafını, tarixini, arxeoloji, epiqrafik, etnoqrafik və folklor abidələrini öyrənməyi" Naxçıvan Regional Elm Mərkəzinin əsas fəaliyyət istiqaməti olduğunu qeyd etmişdir [2, s. 131]. Naxçıvan Regional Elm Mərkəzinin yaradılmasından sonra ulu öndərin tapşırıqları əsasında bu mərkəzdə fəaliyyət göstərən "Arxeologiya və Etnoqrafiya şöbəsi"nin əməkdaşları tərəfindən Naxçıvanın etnoqrafiyası, epiqrafikası ilə yanaşı arxeologiyası sahəsində də uğurlu elmi tədqiqatlar aparılmışdır. 1974-cü ildə yerli arxeoloji kadrların olması nəzərə alınaraq elmi tədqiqat işlərinin Azərbaycanda keyfiyyətini artırmaq məqsədilə Azərbaycan Elmlər Akademiyası Tarix İnstitutu nəzdində Arxeologiya və Etnoqrafiya Sektoru təşkil olunmuşdur. Arxeologiya və Etnoqrafiya Sektorunun yaradılması ölkəmizin digər bölgələri kimi Naxçıvan Muxtar Respublikasında da, arxeologiyanın inkişafına, abidələrimizin öyrənilməsinə böyük

təsir göstərmişdir. Nəticədə arxeoloji tədqiqatların əhatə dairəsi genişlənməklə yanaşı 1970-1980-ci illərdə Arxeologiya və Etnoqrafiya sektorunda hər il bir neçə doktorluq və namizədlik dissertasiyası müdafiə olunmuş, arxeoloq kadrların sayı artmışdır. Elmi potensialın artması Arxeologiya və Etnoqrafiya sektorunun müstəqil elmi-tədqiqat institutuna çevrilməsinə, arxeoloji bazaların yaradılmasına zəmin yaratmışdır. 1975-ci ildən başlayaraq Şamaxıda, Qəbələdə, Şəkidə, Qubada, Gəncədə və digər bölgələrdə olduğu kimi Naxçıvanda da, arxeoloji baza təşkil olunmuşdur. Ümummilli lider Heydər Əliyevin şəxsi təşəbbüsü ilə 1981-ci ilin sentyabr ayında Azərbaycan KP MK və Nazirlər Sovetinin qəbul etdiyi "Azərbaycan SSR-də memarlıq və arxeoloji abidələrin qorunması, bərpası və istifadəsinin yaxşılaşdırılması tədbirləri haqqında" qərarı [3, s. 5-6] abidələrin öyrənilməsi ilə yanaşı onların qorunmasına, bərpasına diqqəti daha da artırmışdı. Bu qərar Azərbaycan Respublikasının bütün bölgələrində olduğu kimi Naxçıvanda da arxeologiyanın inkişafında mühüm əhəmiyyət daşıyır. Qərar qəbul edildikdən sonra hər il ardıcıl olaraq respublikamızın bütün bölgələrinə arxeoloji ekspedisiyalar təşkil olunmuşdur. Tədqiqat zamanı əldə olunmuş maddi mədəniyyət nümunələri, elmi nəticələr Azərbaycanla yanaşı dünyanın digər yerlərində də, elmi dövriyyəyə çıxmışdır. 1981-ci il dekabrın 8-də Fransanın paytaxtı Paris şəhərində olan "İnsan muzeyi"ndə "Avropanın ilk sakinləri" adlı sərgidə qədim insan düşərgələrindən aşkar olunmuş arxeoloji və paleoantropoloji tapıntıların nümayişi təşkil edilmişdir. Bu zaman orada Azıx və Tağlar Paleolit düşərgələrindən aşkar olunmuş maddi mədəniyyət qalıqları üçün ayrılan guşədə Quruçay, Aşel, Mustye mədəniyyətlərinin maddi-mədəniyyət nümunələri, azıxantropun alt çənəsi də nümayiş etdirilmişdir. Bu dövrdə Naxçıvandakı Paleolit dövrünə aid olan abidəsi Qazma mağarasında da, aparılan arxeoloji tədqiqatlar aparılmış, mühüm elmi nəticələr əldə edilmişdir. Ümummilli lider Heydər Əliyevin XX əsrin 80-ci illərindəki siyasi hakimiyyəti dövründə Naxçıvanda arxeoloji tədqiqatların əhatə dairəsi və əhəmiyyəti daha da artmışdır. Bu dövrdə Qazma ilə yanaşı Xaraba-Gilanda, Haqqıxlıqda, Şahtaxtıda, Ovçulartəpəsində, Xələcdə, Ərəbyengicədə, Qızılburunda, Damlamada, Sarıdərədə I Maxtada və digər abidələrdə arxeoloji tədqiqatlar aparılaraq xeyli maddi mədəniyyət nümunələri aşkar olunmuşdur. Onların tədqiqi nəticəsində Naxçıvan tarixi ilə bağlı bir çox elmi nəticələr əldə edilmişdir.

Ümummilli liderimizin 1993-cü ildən başlayan siyasi hakimiyyətinin ikinci dövründə də, bu sahəyə xüsusi diqqət göstərilmişdir. 1993-ci ilin iyulun 8-də Heydər Əliyevin şəxsi təşəbbüsü və rəhbərliyi ilə Azərbaycan Respublikası Nazirlər Kabineti xüsusi qərar qəbul etmişdir. Qərara əsasən Azərbaycan Elmlər Akademiyası Tarix İnstitutu nəzdində Arxeologiya və Etnoqrafiya Sektoru bazasında Arxeologiya və Etnoqrafiya İnstitutu təşkil olunmuşdur. Arxeologiya və Etnoqrafiya İnstitutu təşkil olunması Azərbaycanın digər bölgələrində olduğu kimi Naxçıvan Muxtar Respublikasında da arxeologiya elminin inkişafında mühüm yer tutmuşdur. Arxeoloji tədqiqatların əhatə dairəsi daha da genişlənmiş, sistemli daha geniş və beynəlxalq miqyasda tədqiqatlar aparılmışdır. Tədqiqatların nəticələri ilə bağlı xeyli sayda monoqrafiya və elmi məqalə nəşr olunmuşdur. 2001-ci ildən başlayaraq respublikamızda Paleolit problemləri üzrə aparılan elmi tədqiqat işləri beynəlxalq xarakter almışdır. Azərbaycan, Fransa, İtaliya, İspaniya, Rusiya, Gürcüstan və Hollandiya alimlərinin birgə iştirakı ilə beynəlxalq İNTAS-2000 adlı proqram hazırlanmışdır (4). Proqrama uyğun olaraq 2002-ci ilin sentyabr ayının 7-dən oktyabrın 1-dək Avropa alimləri Azərbaycana gələrək Azıx, Tağlar abidələri ilə yanaşı Qazmadan tapılmış arxeoloji, paleontoloji və paleoantropoloji materialları tədqiq edərək respublikamızda ibtidai insanların məskunlaşması tarixinin qədim olduğunu, Paleolit (qədim daş dövrü) dövründən etibarən insanların bu ərazidə yaşadığını təsdiq etmişlər [3, s. 7].

2001-2002-ci illərdə ümummilli lider Heydər Əliyevin tövsiyəsi ilə kompleks şəkildə Naxçıvan-Gəmiqaya ekspedisiyası təşkil olunmuşdur. Ekspedisiya nəticəsində bir çox yeni qayaüstü təsvirlər və arxeoloji abidələr aşkar edilərək tədqiq olunmuşdur. 2002-ci ilin avqustunda Azərbaycan Milli

Elmlər Akademiyası Naxçıvan Bölməsinin təsis edilməsi haqqında Sərəncam Naxçıvanda bir çox elm sahələri kimi arxeologiyanın inkişafına mühüm təsir göstərmişdir (1). Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin yaradılmasına həsr olunmuş müşavirədə ümummilli liderimiz çıxış edərək demişdir: "*Azərbaycan haqqında fikirlərimi sizə çatdıraraq, demək istəyirəm ki, bu baxımdan Naxçıvan xüsusi yer tutur. Naxçıvanın qədim, zəngin tarixi Azərbaycan tarixinin çox parlaq səhifələrindəndir. Əgər Azərbaycan tarixi haqqında, ümumiyyətlə, bir çox işlər görülübsə, Naxçıvanın tarixi haqqında, qədim tarixi haqqında və Naxçıvanın bir diyar kimi öyrənilməsi – həm təbiətinin, həm adət-ənənələrinin, etnoqrafiyasının öyrənilməsi barədə çox az işlər görülübdür. Bunları nəzərə alaraq, mən bu sərəncamı vermişəm. Mən bununla Naxçıvan Muxtar Respublikasının indiyə qədər çox az öyrənilmiş qədim tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının yenidən dərindən araşdırılması və onlar haqqında elmi əsərlərin, populyar kitabları, yaxud başqa nəşrlərin hazırlanması məqsədi daşıyıram*" [2, s. 17]. Sərəncama əsasən Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunda bu istiqamətdə üç şöbənin ("Qədim dövr arxeologiyası", "Antik və Orta əsrlər arxeologiyası", "Arxeoloji xidmət" şöbələri) yaradılması Naxçıvanda arxeologiya elminin hərtərəfli inkişafına dövlət tərəfindən göstərilən yüksək diqqət və qayğının ən bariz nümunələrindən biridir. Bölmə fəaliyyətə başladığı dövrdən etibarən aparılan sistemli arxeoloji tədqiqatlar nəticəsində Naxçıvanda arxeologiya elmi daha da, inkişaf edir. Aparılan kompleks elmi tədqiqatlar zamanı bəşər tarixinin müxtəlif inkişaf mərhələlərinə aid zəngin maddi mədəniyyət qalıqları aşkar edilir. Naxçıvandakı arxeoloji abidələrin dünya abidələri arasında özünəməxsus yer tutduğu, bu bölgənin Erkən Əkinçilik, Kür-Araz, Boyalı qablar, Şəhərsalma mədəniyyətlərinin formalaşdığı, qədim mədəniyyət mərkəzlərindən biri olduğu təsdiq olunubdur.

**ƏDƏBİYYAT**


1. "Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, Bakı, 2002, 07 avqust.
2. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi / Tərtibçi İ.Hacıyev. Bakı: Nurlan, 2005, 156 s.
3. Azərbaycan arxeologiyası. I c., Bakı: Şərq-Qərb, 2008, 448 s.
4. Cəfərov Ə. Heydər Əliyev və Azərbaycanda arxeologiya elminin inkişafı. "Xalq qəzeti", 2013, 29 aprel.
5. Xəlilov T.F. Müstəqillik dövründə Naxçıvanda arxeoloji tədqiqatlar // Azərbaycan arxeologiyası, Bakı: Xəzər Universiteti, 2010, c. 13, № 2, s. 108-115.
6. Xəlilov T.F. Naxçıvan arxeologiyası muxtariyyət illərində. "İki sahil" qəz., 2014, 14 may.


***AMEA Naxçıvan Bölməsi***
***E-mail: x.toqrul@gmail.com***

**Togrul Khalilov**

**HEYDAR ALIYEV AND ARCHAEOLOGY OF NAKHCHIVAN**

The science of archaeology occupies an important place in the study of the ancient history of mankind, especially its pre-literate period. Archaeology, which studies the formation and development of people based on samples of ancient material culture, is a very important area of the national history

of Azerbaijan. In connection with the coming to political power of the great leader Heydar Aliyev in 1969, favorable conditions were created for the scientific study of our archaeological, historical and architectural monuments. Much attention and care is paid to the training of young archaeologists of Azerbaijan as high-level specialists, as well as to a deeper study of our monuments. The adoption of a number of decisions in this direction, as in all regions of Azerbaijan, had an important impact on the development of archaeology in Nakhchivan, our monuments were studied in detail, they were given great attention and care.

**Keywords:** *national leader, archaeology, Azerbaijan, Nakhchivan.*

**Тогрул Халилов**

## ГЕЙДАР АЛИЕВ И АРХЕОЛОГИЯ НАХЧЫВАНА

Наука археология занимает важное место в изучении древнейшей истории человечества, в особенности ее дописьменного периода. Археология, изучающая формирование и развитие людей на основе образцов древней материальной культуры, является очень важной областью национальной истории Азербайджана. В связи с приходом к политической власти великого лидера Гейдара Алиева в 1969 году были созданы благоприятные условия для научного исследования наших археологических, исторических и архитектурных памятников. Большое внимание и забота уделяется подготовке молодых археологов Азербайджана как специалистов высокого уровня, а также более глубокому изучению наших памятников. Принятие ряда решений в этом направлении, как и во всех регионах Азербайджана, оказало важное влияние на развитие археологии в Нахчыване, наши памятники были подробно изучены, им уделялось большое внимание и забота.

**Ключевые слова:** *национальный лидер, археология, Азербайджан, Нахчыван.*

**NURLANA ƏLİYEVA**

# NAXÇIVAN ƏDƏBİ MÜHİTİNDƏ HEYDƏR ƏLİYEV OBRAZI

*Məqalədə Naxçıvan ədəbi mühitinin simalarının yaradıcılığında bədii əksini tapan Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev obrazından bəhs olunur. Qeyd edilir ki, Azərbaycanın ən çətin günlərində ictimai-siyasi həyata gələn ulu öndər Heydər Əliyev özünün misilsiz xidmətlərilə tarixi proseslərin bədii salnaməsi olan ədəbi əsərlərdə obrazı yaradılmışdır. Böyük şəxsiyyətə ehtiram bəsləyən, onun Azərbaycanın müstəqilliyi, dövlətçiliyi və inkişafı yolunda göstərdiyi xidmətlərə ümumxalq məhəbbətini ifadə edən sənətkarlar həm poeziyada, həm bədii nəsrdə, həm də dramaturgiyada dahi rəhbərin obrazını, onun həyatı və fəaliyyətini əks etdirməyə çalışmışlar. Poeziyada Kəmalə, Həsən Elsevər, Elman Həbib, Asim Yadigar, Vaqif Məmmədov, İbrahim Yusifoğlu, Elmira Qasımova və digərləri müdrik lider Heydər Əliyevin xilaskar obrazını məharətlə əks etdirmişlər. Həsən Elsevərin "Heydər zirvəsi", "El diləyi", "Üzümüzə gülür dövran", Asim Yadigarın "Bir nurlu heykəl yarat", "Heydər zirvəsi", "Dədə Heydərim mənim", "Azərbaycan dünyaya günəş kimi doğacaq", Ələsgər Nehrəmlinin "Heydər ideyası, Heydər zəkası", "Əbədi yaşayır Heydər", "Sən oldun!", "Prezident vəzifəsi, İlham, mübarək", "Davam edir Heydər yolu", İbrahim Yusifoğlunun "Xalqı bəlalardan qurtardın, baba", Həsənəli Eyvazlının "Ulu Heydərim mənim", "Ulu Heydər" kimi şeirləri öz orijinallığı ilə diqqəti cəlb edir. Həsənəli Eyvazlının "Araz sahilində doğan günəş" və "Qurtuluşa gedən yol" əsərlərində ulu öndər Heydər Əliyevin xilaskarlıq fəaliyyəti ortaya qoyulmuş, dahi rəhbərin möhtəşəm obrazı yaradılmışdır. Adil Babayevin "Koroğlunun Çənlibelə qayıdışı" əsərində dahi lider Heydər Əliyevin Azərbaycana böyük qayıdışı və xilaskarlıq fəaliyyəti mövzu edilmişdir.*

**Açar sözlər**: *Naxçıvan ədəbi mühiti, Heydər Əliyev, obraz, xilaskar.*

Azərbaycan xalqının böyük xilaskarı, milli qurtuluşunun banisi, böyük inkişaf və milli varoluşunun səbəbkarı olan ümummilli lider Heydər Əliyevin bədii ədəbiyyatımızda əzəmətli, möhtəşəm obrazı yaradılmışdır. Xalqımızın yazıçı və şairləri ümumxalq məhəbbətinin bütün gücü ilə sevildiyi bu böyük şəxsiyyətə yüzlərlə əsər həsr etmiş, onun bütün nəsillərə örnək olan həyatı, mübarizəsi və şəxsiyyəti haqqında qiymətli əsərlər yazmışlar. Naxçıvan ədəbi mühitinin yaradıcı simaları da böyük xilaskar Heydər Əliyevə minnətdarlıq nümunəsi olaraq çoxsaylı bədii örnəklər ərsəyə gətirmişlər.

Hər üç ədəbi növdə – poeziya, nəsr və dramaturgiya sahəsində ulu öndər Heydər Əliyevin obrazı yaradılmışdır. Əlbəttə, özünün ədəbi çevikliyi ilə digər ədəbi növlərdən önə keçən poeziyada xalqın müdrik övladı Heydər Əliyevin möhtəşəm obrazı daha çox, daha əzəmətli yaradılmışdır. Ədiblər ya ayrıca, portret və ya tərənnüm, təsvir obyekti olaraq, yaxud da dolayısı, Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsi və möhkəmləndirməsi fonunda bu görkəmli şəxsiyyətin qüdrəti və xilaskarlığından poetik vüsətlə bəhs etmişlər. Xüsusilə qeyd etməliyik ki, Azərbaycanın dövlət müstəqilliyi qazanmasında, milli müstəqillik hərəkatının uğurla tamamlanmasında, Naxçıvanın ən çətin ictimai, iqtisadi və hərbi sınaqlardan çıxmasında, dövlətin möhkəmləndirilməsi, yeni uğurlu quruculuq işlərinin uğurla həyata keçirilməsində aparıcı şəxsiyyət olan Heydər Əliyevə ümumxalq məhəbbəti və onun xilaskar obrazının yaradılması bədii ədəbiyyatın nüvəsini təşkil etmişdir. Bu mövzuda Naxçıvan ədəbi mühiti daha fərqli, əlamətdar və özünəməxsusdur. Xüsusilə, dahi lider olan Heydər Əliyevə Naxçıvan ədəbi mühitində çoxsaylı kiçik lirik şeirlərlə bərabər onlarla irihəcmli poemalar həsr edilmişdir. Bədii ədəbiyyatda şəxsiyyətin möhtəşəm obrazı məsələsi ilə bağlı görkəmli elm xadimi, akademik İsa Həbibbəyli yazmışdır: *"Azərbaycan ədəbiyyatında şəxsiyyət problemi həmişə aktual olmuşdur. Ədəbiyyat və şəxsiyyət məsələsi bütün hallarda böyük ədəbiyyatın taleyi ilə bağlı məsələlərin həllində mühüm amillərdən biri kimi çıxış etmişdir. İlk növbədə ədəbiyyat konkret dövr üçün və ya ümumiyyətlə, ictimai-estetik ideal baxımından xüsusilə fərqlənən, epoxa, məktəb yaratmış görkəmli siyasi və ədəbi şəxsiy-*

*yətləri vəsf və ya təqdim edərək əbədiləşdirmişdir. Böyük ümummilli ideallar şəxsiyyətlərin fonunda, ədəbiyyatın rübabında ilhamla səsləndirilmişdir*" [1, s. 3].

Ümumiyyətlə, qeyd edilən bu mövzu müstəqillik dövrü Naxçıvan ədəbi mühitində daha aparıcı olmuş, ədəbi yaradıcılığın leytmotivini təşkil etmişdir. Məsələ ilə bağlı R.Qasımov yazır ki, "Azərbaycanda dövlət müstəqilliyinin əldə olunmasından sonra ədəbiyyat sahəsində də mövzu və problem məsələsi yeni məsələlərlə zənginləşmişdir. Amma bunu vurğulayaraq demək lazımdır ki, ədəbiyyatımızda bu dövr üçün bir məsələ aparıcı, aktual və ümumi idi ki, ümumiyyətlə, ölkənin düşdüyü ağır hərbi-siyasi durum, müstəqillik ideyaları və xalq hərəkatı, ulu öndər Heydər Əliyevin Naxçıvanda Azərbaycanın müstəqilliyi və dövlətçiliyi naminə apardığı mücadilə başlıca mövzuya çevrilmişdi. Bu mərhələnin əsas, baş qəhrəmanı bir tərəfdən Vətən, bir tərəfdən də özünün Vətənpərvər və güclü liderlik xüsusiyyətləri ilə xalqın ümid yerinə çevrilən xilaskar Heydər Əliyev və Vətən naminə ümumxalq mübarizəsinə qoşulan xalqın özü idi" [12]. Bu mövzuda bütün Naxçıvan ədəbi mühitinin bir çox simaları, o cümlədən Kəmalə, Həsən Elsevər, Elman Həbib, Asim Yadigar, Vaqif Məmmədov, İbrahim Yusifoğlu, Elmira Qasımova və digərləri qiymətli əsərlər yazmış, dahi, müdrik lider Heydər Əliyevin xilaskar obrazını məharətlə əks etdirmişlər. Həsən Elsevərin "Heydər zirvəsi", "El diləyi", "Üzümüzə gülür dövran", Asim Yadigarın "Bir nurlu heykəl yarat", "Heydər zirvəsi", "Dədə Heydərim mənim", "Azərbaycan dünyaya günəş kimi doğacaq", Ələsgər Nehrəmlinin "Heydər ideyası, Heydər zəkası", "Əbədi yaşayır Heydər", "Sən oldun!", "Prezident vəzifəsi, İlham, mübarək", "Davam edir Heydər yolu", "Yeni Azərbaycan Partiyasıdır!", İbrahim Yusifoğlunun "Xalqı bəlalardan qurtardın, baba", Həsənəli Eyvazlının "Ulu Heydərim mənim", "Ulu Heydər" kimi şeirləri öz orijinallığı ilə diqqəti cəlb edir. Bu kimi əsərlər vətənpərvərlik duyğularını tərənnüm etməklə bərabər vətəndaşlıq lirikasının da ən gözəl örnəkləri olmaqla bu ədəbi ənənəni uğurla davam etdirmişdir.

Qeyd etmək yerinə düşər ki, dahi lider Heydər Əliyevə, ölkəmizdə dövlət quruculuğu və müstəqilliyin inkişafına həsr edilən mövzu lirik şeirlərdən başqa poemalarda da davam etdirilmiş, Kəmalənin, Həsən Elsevərin, Elman Həbibin, İbrahim Yusifoğlunun, Ələsgər Nehrəmlinin, Zeyqəm Vüqarın və başqalarının poemaları ərsəyə gəlmişdir. Bu sahədə öncüllüyü götürən şairlərimiz Kəmalə və Elman Həbib olmuşdur. Elman Həbib hətta bu mövzuda daha böyük nailiyyət göstərərək "Böyük insan haqqında poema" başlığı altında ulu öndər Heydər Əliyevə həsr edilən "Həqiqət günəşi", "Heydərnamə", Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə həsr olunan "İLHAM – xalqın İLHAMI" və başqa poemalarını yazmışdır. Bu əsərlərin ardınca Naxçıvan ədəbi mühitində İbrahim Yusifoğlunun ulu öndər Heydər Əliyevə həsr edilən "O, günəş ömrüdür, sönməyəcəkdir" poeması, o cümlədən Ələsgər Nehrəmlinin "Heydərnamə", "Əbədi yaşayır Heydər" poemaları və s. kimi əsərlər bu ənənəni davam etdirmiş, geniş poema yaradıcılığı ərsəyə gəlmişdir. Həsən Elsevərin Azərbaycan xalqının müdrik övladı Heydər Əliyevə həsr edilən "Sənsiz bizim bir günümüz olmasın" poemasında 90-cı illərin əvvəlində Azərbaycandakı ictimai-siyasi böhran, ziddiyyətli dövr, Azərbaycan xalqının yeganə ümid yeri və böyük dayağı olan dahi Heydər Əliyevin siyasi hakimiyyətə gəlişi üçün xalqın təkidli çağırışı və ölkədə Heydər Əliyevin qurub-yaratdığı yeni dövran əks edilmişdir.

Ulu öndər Heydər Əliyevə dramaturgiya sahəsində də əsərlər həsr edilmişdir. Şair-dramaturq Həsənəli Eyvazlının "Araz sahilində doğan günəş" və "Qurtuluşa gedən yol" əsərlərində müəllif 1990-cı illərdə Azərbaycanda yaşanılan ziddiyyətli, böhranlı illərin mühüm tarixi hadisələrini əks etdirmiş, ulu öndər Heydər Əliyevin xilaskarlıq fəaliyyətini ortaya qoymuş, dahi rəhbərin möhtəşəm obrazını yaratmışdır. O cümlədən alim və yazıçı Adil Babayevin "Koroğlunun Çənlibelə qayıdışı" əsərində dahi lider Heydər Əliyevin Azərbaycana böyük qayıdışı və xilaskarlıq fəaliyyəti mövzu edilmişdir.

Azərbaycanın müstəqillik dövrü ilə yaxından bağlı olan Kəmalə xanımın bədii yaradıcılığında müstəqillik dövrü Azərbaycan ictimai-mənəvi mühiti üçün başlıca məsələlər olan insanın mənəvi

aləmi, milli müstəqilliyin möhkəmləndirilməsi mübarizəsi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xilaskar və qurucu siması, Birinci Qarabağ müharibəsi və müharibə ağrısı və başqa məsələlər leytmotiv təşkil etmişdir. Şairə Kəmalə xanımın yaradıcılığında "xalqın xilaskarı kimi çıxış edən elin müdrik və qəhrəman oğlu ulu öndər Heydər Əliyevin möhtəşəm insanlıq obrazı və xidmətlərini, xalqın ona olan dərin rəğbət və ehtiramını, ümumxalq mübarizəsi və qurtuluş salnaməsini və s. əks etdirmişdir. Bu baxımdan Kəmalənin bədii yaradıcılığı Naxçıvan ədəbi mühitində özünəməxsus inkişaf yolu keçmiş vətəndaşlıq lirikasının zənginləşməsinə xidmət edən özünəməxsus örnəklərini təşkil edir. Bütün hallarda onun yaradıcılığı bir vətəndaş-şairənin doğma vətəni və el-obasına bəslədiyi dərin məhəbbətin lirik-bədii əksini təşkil edir" [6, s. 39]. Azərbaycan ədəbiyyatının bu böyük xanım ədəbi şəxsiyyəti öz yaradıcılığında Azərbaycanın inkişafı və güclənməsinə mühüm töhfələr vermiş ictimai xadimlər olan ulu öndər Heydər Əliyevin, həmçinin Heydər Əliyev siyasi məktəbinin davamçıları olan ölkə başçısı, yeni əsrin yeni liderinin – İlham Əliyevin və Heydər Əliyev fondunun rəhbəri, birinci xanım Mehriban Əliyevanın Azərbaycanın inkişafına bəxş edilən fəaliyyətlərini tərənnüm etmişdir. Kəmalənin "Nurun yayılıbdır bütün dünyaya" adlı poeması ulu öndər Heydər Əliyevə dərin məhəbbət duyğuları ilə yazılmışdır.

Bir oğul istədi vətən! Bir oğul!
Elə bir oğul ki, olsun pənahı.
Uğrunda can fəda edən bir oğul,
Hardadır, hardadır, göndər, İlahi! [5, s. 11] –

deyən müəllif 90-cı illərin çətin, mürəkkəb illərində Azərbaycanın məhv olmaq, parçalanmaq təhlükəsində olduğu dönəmindəki ictimai-mənəvi ehtiyacını poetik şəkildə ifadə etmişdir. Şairə dövrün mürəkkəbliyini və fəlakətin müdhişliyini poetik əhval-ruhiyyə və ustalıqla bu cür ifadə etməyə nail olmuş, yerlərin göylərə yalvarışı, göylərin mərhəməti kontekstində ulu öndər Heydər Əliyevin siyasi səhnəyə gəlişini dəyərləndirmiş və ümumxalq arzusu olaraq təqdim etmişdir.

Naxçıvan ədəbi mühitinin istedadlı nümayəndələrindən olan, Naxçıvan Yazıçılar Birliyinin sədri Asim Yadigar "Bir nurlu heykəl yarat", "Heydər zirvəsi", "Dədə Heydərim mənim", "Azərbaycan dünyaya günəş kimi doğacaq" kimi əsərlərində ulu öndər Heydər Əliyevin möhtəşəm, əzəmətli obrazını yaratmış, böyük liderə bəslənilən ümumxalq məhəbbətini poetik ustalıqla əks etdirmişdir. Akademik İsa Həbibbəyli çox doğru qeyd etmişdir ki, "Asim Yadigar xalqımızın ümummilli lideri Heydər Əliyevə həsr edilmiş şeirlərində ulu öndərin Azərbaycan dövlətçiliyi tarixindəki və müasir inkişafımızdakı yerini fərqli şəkildə mənalandırmağı bacarmışdır" [10]. Asim Yadigarın "Heydər zirvəsi" şeirində dahi liderin obrazı və ümumxalq məhəbbəti fonunda yüksəkliyi ali zirvələrlə müqayisələndirilmiş və mənəvi ucalığı səmimi şəkildə etiraf edilmişdir:

Min-min zirvə içində
Heydər zirvəsi də var –
Zirvələrin alisi,
Zirvələrin ucası.
O zirvəylə fəxr edir,
O zirvəylə öyünür
Xalqımın hər uşağı,
Hər cavanı, qocası [9, s. 39].

Şairin "Dədə Heydərim mənim" şeirində də dahi liderin xilaskarlıq fəaliyyətindən doğan ümumxalq qəlbindəki möhtəşəm yeri və əzəmətli mövqeyi poetik məharətlə ümumiləşdirilərək ifadə edilmişdir:

Arzumuz, əməlimiz,
Diləyimizsən bizim.

Hər an qəlbimizdəsən –
Gərəyimizsən bizim!
Sabah eşqiylə coşan
Ürəyimizsən bizim,
ulu öndərim mənim,
Dədə Heydərim mənim! [9, s. 47]

A.Yadigarın yüksək poetik heysiyyətlə yaratdığı “Bir nurlu heykəl yarat” şeirində də şairin yaratmaq istədiyi Heydər Əliyev obrazı özünəməxsus və möhtəşəmdir. Şair dahi, müdrik liderin heykəlini yaratmaq istəyən heykəltəraşa müraciətlə yazdığı şeirində tişə ustasına bu dahi şəxsiyyətin canlı bir obrazını əks etdirmək üçün qəlbinin atəşinə öz alovundan alov, can, sevgi qatmağı və beləliklə, “Sabaha boylanan bir nurlu İNSAN” yaratmağı tövsiyə edir:

O, adi insan deyil, insanlığın tacıydı,
Ürəyi bir millətin yolunda məşəl oldu.
Əməliylə, işiylə xarüqələr yaratdı
Adilikdən çıxaraq o, fövqəlbəşər oldu.

...Heykəltəraş qardaşım, bir nurlu heykəl yarat,
Heydərimin adına yaraşan heykəl olsun!
O, heykəltək ucaltdı anam Azərbaycanı,
Qoy sənin yaratdığın ondan da gözəl olsun! [9, s. 47]

Şair Asim Yadigar bu silsilədən olan şeirlərini davam edtirərək ümummilli liderin ləyaqətli varisi Prezident İlham Əliyevə də “Gəldi ulu Heydərin İlham dühası gəldi”, “Biz ona səs veririk – İlham Heydər oğluna” kimi əsərlərini yazmış və bu görkəmli dövlət xadiminin fəaliyyəti timsalında inkişaf edən ölkəmizi, xalqın bu dahi şəxsiyyətə olan məhəbbətində isə xalq-lider birliyini əks etdirmişdir. Akademik İsa Həbibbəylinin yazdığı kimi, “Asim Yadigar xalqımızın ümummilli lideri Heydər Əliyevə həsr edilmiş şeirlərində ulu öndərin Azərbaycan dövlətçiliyi tarixindəki və müasir inkişafımızdakı yerini fərqli şəkildə mənalandırmağı bacarmışdır” [10].

İbrahim Yusifoğlunun “Xalqı bəlalardan qurtardın, baba”, Həsənəli Eyvazlının “Ulu Heydərim mənim”, “Ulu Heydər” və s. qeyd edilən mövzuda Naxçıvan ədiblərinin yaradıcılığına dair əlamətdar məqamdır. Hətta məxsusi olaraq qeyd etmək lazımdır ki, Azərbaycanın xilaskar oğlu ulu öndər Heydər Əliyevə məhəbbət və Azərbaycanın başı üzərində qara buludlara çevrilən müharibə mövzusu şair Vaqif Məmmədovun yaradıcılığında silsilə yaradıcılıq örnəyi təşkil edir. Şair Vaqif Məmmədov “Böyük insan haqqında kiçik şeirlər” adlanan silsilə şeirlərindən ibarət “Ucalardan uca insan”, “Qayıtdın”, “Hər qarışda izin var”, “Getdi əbədiyyət dünyasına o”, “Qalib gəldi, qalib getdi”, “Böyük xilaskar” kantatası” əsərləri Azərbaycan xalqının xilaskar oğlu Heydər Əliyevin obrazının lirik formada təcəssüm tapdığı ən yaxşı əsərlərdən hesab edilə bilər. V.Məmmədov böyük ustad Hüseyn Cavidin “Kəssə hər kim tökülən qan izini, Qurtaran dahi odur yer üzünü” müdrik kəlamından yola çıxaraq “Ucalardan uca insan” şeirində böyük öndəri “tökülən qan izini kəsən qeybdən göndərilən” şəxsiyyət kimi xarakterizə edir:

Sən ucasan, zəka səndə, nur səndə,
Şimşək səndə, alov səndə, qor səndə,
Xətainin cəsarəti var səndə!
Sən qeybdən göndərilən səsmisən?!
Sən tökülən qan izini kəsmisən... [8, s. 117].

Beləliklə, müdrik və dahi şəxsiyyət olan Heydər Əliyev özünün fövqəl, əzmkar və uzaqgörən

fəaliyyəti ilə yeni əsr və yeni minillikdə Azərbaycan xalqının xilaskarı, onun müstəqil, suveren dövlətinin banisi və qurucusudur. Məhz onun misilsiz xidmətləri, əzmkar, uzaqgörən fəaliyyəti nəticəsində 90-cı illərdə Naxçıvan "itirilmiş illər" böhranını yaşamaqdan qurtularaq varoluş mübarizəsində dimdik dayanmış, böyük imperiyaya meydan sulayaraq milli müstəqilliyin təməlini yaratmışdır. Dahi liderin sayəsində Azərbaycan hərtərəfli inkişafa sahib olduğu kimi, konkret yaradıcılıq ideyasına malik olan Naxçıvan ədəbi mühiti də məhz bu dahi şəxsiyyətin əzəmətli obrazının mehvərində öz missiyasını həyata keçirmiş, dahi liderin möhtəşəm ədəbi obrazını yaratmışdır.

**ƏDƏBİYYAT**

1. Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala / Akad. İ.Həbibbəylinin ümumi redaktəsi ilə: 2 kitabda. I kitab, Bakı: Elm və təhsil, 2018, 400 s.
2. Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala / Akad. İ.Həbibbəylinin ümumi redaktəsi ilə: 2 kitabda. II kitab, Bakı: Elm və təhsil, 2019, 332 s.
3. Əliyeva N. Müstəqillik dövründə Naxçıvanda bədii ədəbiyyatın inkişafı məsələləri / "Naxçıvan: dayanıqlı inkişaf, uğurlar, perspektivlər (1995-2020)" mövzusunda AMEA Naxçıvan bölməsində keçirilmiş beynəlxalq elmi konfransın materialları. Naxçıvan: Əcəmi, 276 s., s. 127-130.
4. Həbibbəyli İ. Nuhçıxandan Naxçıvana. Bakı: Elm və təhsil, 2015, 846 s.
5. Kəmalə. Könül verdiyim ellər. Bakı: MBM, 2006, 236 s.
6. Qasımov R. Ədəbi və əbədi yaddaşın kamala yetən Kəmaləsi // Kəmalə: taleyi və sənəti. Naxçıvan: Əcəmi, 2022, 192 s., s. 36-50.
7. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı / Akademik İ.Həbibbəylinin elmi redaktorluğu ilə: 2 cilddə. I c., Bakı: Elm və təhsil, 2016, 800 s.
8. Məmmədov V. Seçilmiş əsərləri: 3 cilddə. I c., Bakı: Şirvannəşr, 2008, 288 s.
9. Yadigar Asim. O mənim ürəyim deyil. Naxçıvan: Əcəmi, 2020, 464 s.
10. Həbibbəyli İ. Vətəndaşlıq mövqeyi, plyus lirizm // https://525.az/news/64281-vetendasliq-movqeyi-plyus-lirizm
11. Əliyeva N. Müstəqilliyin ilk illəri həm də Naxçıvanda ədəbi inkişaf və təşəkkülün başlanğıc dövrüdür // https://www.serqqapisi.az/xeberler/musteqilliyin-ilk-illeri-hem-de-naxcivanda-edebi-inkisaf-ve-tesekkulun-baslangic-dovrudur
12. Qasımov R. Ulu öndərin möhtəşəm obrazı // https://sabaha-inamla.az/edebiyyat/24442-ulu-ondrn-mohtm-obrazi-ramiz-qasimov.html

***Naxçıvan Universiteti,***
***E-mail: n.aliyeva@nu.edu.az***

**Nurlana Aliyeva**

## IMAGE OF HEYDAR ALIYEV IN THE LITERARY ENVIRONMENT OF NAKHCHIVAN

The article talks about the image of the national leader of the Azerbaijani people Heydar Aliyev, who found artistic reflection in the work of the literary figures of Nakhchivan. It is noted that the great leader Heydar Aliyev, who came into the social and political life in the most difficult days of Azerbaijan, created his image in literary works, which are an artistic chronicle of historical processes, with

his unparalleled merits. The artists, who paid tribute to the great personality and expressed popular love for his services to the independence, statehood and development of Azerbaijan, tried to reflect the image of the brilliant leader, his life and work both in poetry, fiction and drama. In poetry, Kamal, Hasan Elsever, Elman Habib, Asim Yadigar, Vagif Mammadov, Ibrahim Yusifoglu, Elmira Gasymova and others skillfully reflected the saving image of the wise leader Heydar Aliyev. Poems of "Heydar's Peak", "People's Desire", "The Epoch Laughs in Our Face" by Hasan Elsever, "Create a Light Monument", "Heydar's Peak", "My grandfather Heydar", "Azerbaijan will rise like the Sun over the world" by Asim Yadigar, "Heydar's idea, Heydar's mind", "Heydar lives forever", "You have reached!", "Presidential post is blessing for Ilham", "Heydar's path continues" by Alesker Nehramli, "You saved the people from troubles, grandfather" by Ibrahim Yusifoglu, "My great Heydar", "Great Heydar" by Hasanali Eyvazli attract attention with their originality. The works of Hasanali Eyvazli "Sunrise over the Araz's banks" and "The Way to Salvation" reveal the saving activity of the great leader Heydar Aliyev and create a majestic image of a genius. The work of Adil Babayev "The Return of Koroglu to Chenlibel" is dedicated to the return of the great leader Heydar Aliyev to Azerbaijan and his saving activities.

**Keywords:** *literary environment of Nakhchivan, Heydar Aliyev, image, savior.*

**Нурлана Алиева**

## ОБРАЗ ГЕЙДАРА АЛИЕВА В ЛИТЕРАТУРНОЙ СРЕДЕ НАХЧЫВАНА

В статье говорится об образе общенационального лидера азербайджанского народа Гейдара Алиева, который нашел художественное отражение в творчестве деятелей литературной среды Нахчывана. Отмечается, что Великий лидер Гейдар Алиев, пришедший в общественно-политическую жизнь в самые трудные дни Азербайджана, своими беспримерными заслугами создал свой образ в литературных произведениях, являющихся художественной летописью исторических процессов. Художники, отдавшие дань уважения великой личности и выразившие всенародную любовь за его заслуги перед независимостью, государственностью и развитием Азербайджана, постарались отразить образ гениального лидера, его жизнь и деятельность как в поэзии, художественной прозе, так и в драматургии. В поэзии Камал, Гасан Эльсевер, Эльман Габиб, Асим Ядигяр, Вагиф Мамедов, Ибрагим Юсифоглу, Эльмира Гасымова и другие умело отразили спасительный образ мудрого лидера Гейдара Алиева. Стихотворения Гасана Эльсевера «Пик Гейдара», «Желание народа», «Эпоха смеется нам в лицо», Асима Ядигяра «Создай светлый памятник», «Пик Гейдара», «Мой дед Гейдар», «Азербайджан взойдет, как солнце, над миром», Алескера Нехрамли «Идея Гейдара, разум Гейдара», «Гейдар живет вечно», «Ты стал!», «Президентский пост, Ильхам, благословен», «Путь Гейдара продолжается», Ибрагима Юсифоглу «Ты спас народ от бед, дедушка», Гасанали Эйвазли «Мой великий Гейдар», «Великий Гейдар», привлекают внимание своей оригинальностью. Произведения Гасанали Эйвазли «Восход солнца над берегом Араза» и «Путь к спасению» раскрывают спасительную деятельность великого лидера Гейдара Алиева и создают величественный образ гения. Произведение Адиля Бабаева «Возвращение Кероглу в Ченлибель» посвящено возвращению великого лидера Гейдара Алиева в Азербайджан и его спасительной деятельности.

**Ключевые слова:** *литературная среда Нахчывана, Гейдар Алиев, образ, спаситель.*

**YAŞAR RƏHİMOV**

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVIN HAKİMİYYƏTİNİN I DÖVRÜNDƏ (1969-1982-ci İLLƏR) ŞƏRUR RAYONUNUN SOSİAL-İQTİSADİ İNKİŞAFI

*Məqalədə 1969-cu ilin iyuluna qədər respublikanın iqtisadi vəziyyətinin, xüsusən kənd təsərrüfatının vəziyyətinin çox acınacaqlı vəziyyətdə olması, yaranmış sosial-iqtisadi durumun Heydər Əliyevin təşəbbüsü və rəhbərliyilə qısa müddətdə dərindən, hərtərəfli təhlil olunması, respublikanın imkanlarını və mənafeyini nəzərə almaqla geriliyin səbəblərinin aşkara çıxarılması, Naxçıvan MSSR-in Şərur rayonunda 1970-1982-ci illərdə sənaye və kənd təsərrüfatı sahəsinə əldə edilmiş uğur və nailiyyətlər araşdırılmışdır. Azərbaycan Respublikasının bugünkü hərtərəfli və yüksək səviyyəli inkişafının əsasları məhz həmin illərdə yaradılmışdır. Ulu öndərin hakimiyyətə gəlişindən sonra (14 iyul 1969-cu il) Azərbaycanın bütün bölgələrində olduğu kimi, Şərur rayonunda da sənayedə, kənd təsərrüfatında, mədəniyyət sahəsində, incəsənət, kino, teatr, rəssamlıq və b. sahələrdə də intibah dövrü başlandı. Məqalənin sonunda belə nəticəyə gəlinmişdir ki, yeni inkişaf strategiyası üzrə proqramlar işlənib hazırlanması və onların yerinə yetirilməsi yolları müəyyənləşdirildikdən sonra ulu öndər Heydər Əliyevin hakimiyyətinin I dövründə (1969-1982-ci illər) ölkəmizin digər bölgələri ilə yanaşı, Şərur rayonunda da sənaye və kənd təsərrüfatı sahələrində mühüm nailiyyətlər əldə edilmiş, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması sahəsində ciddi irəliləyişlər müşahidə edilmişdir.*

**Açar sözlər:** *Azərbaycan, ulu öndər Heydər Əliyev, sənaye, kənd təsərrüfatı, Şərur rayonu, inkişaf.*

Azərbaycan KP MK-nin 14 iyul 1969-cu il plenumunda Heydər Əliyev Azərbaycan KP MK-nin birinci katibi seçildi. Həmin gündən az sonra – 1969-cu il avqustun 5-də keçirilən Azərbaycan KP MK-nin plenumunda əvvəlki illərdəki nöqsanlar tənqid olundu və bu plenum dönüş plenumu kimi yaddaşlarda qaldı. Çox qısa bir müddətdə yeni inkişaf strategiyası üzrə proqramlar işlənib hazırlandı və onların yerinə yetirilməsi yolları müəyyənləşdirildi.

1970-1985-ci illərdə respublikanın sosial-iqtisadi inkişafını təmin etmək və daha da sürətləndirmək məqsədilə 2 mərhələdə həyata keçiriləcək tədbirlər planı qəbul edildi. İlk növbədə 1970-1975-ci illəri əhatə edən 1-ci mərhələdə iqtisadiyyatın bütün sahələrində mövcud potensialı hərəkətə gətirmək və bütövlükdə sosial-iqtisadi inkişafı sürətləndirmək vəzifəsi qarşıya qoyuldu. 1976-1985-ci illəri əhatə edən 2-ci mərhələdə iqtisadiyyatın bütün sahələrini səmərəli və kompleks inkişaf etdirmək, strukturunda Azərbaycanın ittifaq əmək bölgüsündə geniş iştirakını təmin edəcək sahələrin üstün inkişafı istiqamətində dəyişikliklər edilməsi, neft maşınqayırması və neft emalının yeni texniki baza üzərinə keçirilməsi və istehsal olunan məhsulun keyfiyyətinin yüksəlməsi strateji vəzifə olaraq qarşıya qoyuldu. Tezliklə bu tədbirlər öz bəhrəsini verdi və uğurlu nəticələr əldə edildi. O dövrün statistikasına nəzər salanda bunu aydın görmək olar. Az bir zamanda pambıq, üzüm, taxıl, neft istehsalı sahəsində inkişafa doğru istiqamət götürüldü. Pambıq istehsalı 1981-ci ildə 1 mln. tona, üzüm istehsalı 1 mln. 616 min tona, taxıl istehsalı 1 mln. 150 min tona çatdı. 1971-ci ildə respublikanın neftçıxarma tarixində ilk dəfə olaraq milyardıncı ton neft çıxarılıb.

54 il öncə ulu öndərimiz Heydər Əliyevin hakimiyyətə gəlməsilə respublika iqtisadiyyatında, ictimai-siyasi həyatda köklü dəyişikliklər baş verdi, ölkə öz inkişafında yeni mərhələyə qədəm qoydu. Azərbaycanın inkişafı üçün sovet dövrünün və dövlətinin verdiyi bütün imkanlardan istifadə edildi. Qısa bir müddətdə – 10-12 ildə Azərbaycan kiçik xammal respublikasından böyük sənaye mərkəzinə çevrildi. Milli-mənəvi dəyərlər inkişaf etdi, Azərbaycan vətəndaşı bir şəxsiyyət kimi yetişdi. 1969-1982-ci illərdə Heydər Əliyevin Azərbaycanda siyasi rəhbərlikdə olduğu müddətdə ölkədə 250 yeni müəssisə yaradıldı. Bu isə milyonlarla yeni iş yeri demək idi. Həmin dövrdə Azərbaycanda mənzil

fondu faktiki olaraq 2 dəfə artdı. Ulu öndərin həyata keçirdiyi məqsədyönlü inkişaf strategiyası nəticəsində milli düşüncə, təfəkkür gücləndi, xalqımızın siyasi və dövlətçilik şüuru yüksəldi. Bu dövrdə Azərbaycan rəhbəri Heydər Əliyevin təşəbbüsü və təkidi ilə SSRİ hökuməti respublika xalq təsərrüfatının bütövlükdə və onun ayrı-ayrı sahələrinin inkişafını nəzərdə tutan beş xüsusi qərar qəbul etmişdir. Eyni zamanda bu məsələlərin həlli üçün ittifaq hökuməti tərəfindən əlavə vəsait ayrılmışdır.

1970-1982-ci illərdə kənd təsərrüfatı məhsulu 2,6 dəfə, əmək məhsuldarlığı 2,2 dəfə artmışdır. Pambıq, meyvə, tərəvəz istehsalı 2 dəfədən çox, üzüm, tütün, barama istehsalı 2-5 dəfə artmışdı. Bütün bunlar milli gəlirin sürətlə artmasına səbəb oldu. 1970-1982-ci illərdə milli gəlir 2,5 dəfə, adambaşına isə 2 dəfə artmışdı.

Belə bir fakt maraqlıdır ki, 1985-ci ildə Naxçıvan MR-də sənayedə işləyənlərin 47,1 faizi, tikintidə işləyənlərin 71 faizi kənddə yaşayanlar idi. Bu vəziyyət kənd əhalisinin işlə təminatında və işçi qüvvəsinin şəhərlərə axıcılığının qarşısının alınmasında mühüm rol oynayırdı.

Ulu öndərin hakimiyyətə gəlişindən sonra Azərbaycanda xalq təsərrüfatının bütün sahələrində inkişaf başlandı. Sənayedə, kənd təsərrüfatında, mədəniyyət sahəsində, incəsənət, kino, teatr, rəssamlıq və b. sahələrdə də intibah dövrü başlandı. Bu, əlbəttə, ulu öndərin şəxsiyyəti, işgüzarlığı, dərin məntiqi və yüksək intellektual səviyyəsi ilə bağlı idi. Azərbaycan ulu öndərin rəhbərlik etdiyi 1969-1982-ci illərdə sovet respublikaları içərisində öncül yerə keçdi. Bu isə sovet dövrü üçün böyük bir hadisə idi. Heydər Əliyevin hakimiyyətə gəlməsilə rüşvətxorluğa, korrupsiyaya qarşı mübarizə gücləndirildi. Azərbaycan qısa zaman kəsiyində ittifaq miqyasında sosial-iqtisadi baxımdan özünü tam təmin etməyə qadir olan respublikalar sırasına çıxdı. Məhz həmin illər ərzində respublikanın siyasi və mədəni həyatında böyük əhəmiyyəti olan neçə-neçə binalar tikilib istifadəyə verilmişdir. Heydər Əliyevin tariximizə, mədəniyyətimizə dərin ehtiramı və qayğısı sayəsində Azərbaycanda xalqımızın milli varlığının daşıyıcısı olan böyük insanların əzəmətli heykəlləri ucaldılmış, böyük tarixi şəxsiyyətlərin hər biri üçün mədəniyyət mərkəzinə çevrilən ev-muzeylər yaradılmışdır.

Azərbaycanın gələcəyini düşünən Heydər Əliyevin atdığı addımlardan biri də azərbaycanlı gənclərin gərəkli ixtisaslara yiyələnmək üçün keçmiş Sovet İttifaqının nüfuzlu ali məktəblərinə göndərmək təcrübəsinin əsasını qoyması idi. Bu yolla Azərbaycanımızın elmi və kadr potensialı yüksəldiyi kimi, xalqımızın milli-mənəvi, əxlaqi dəyərlərinin təbliği də həyata keçirilirdi.

Heydər Əliyev bütün sahələrdə olduğu kimi ordu sıralarında da milli kadrların yetişməsinə və yerləşməsinə çalışırdı. Ölkəyə 1-ci rəhbərliyi dövründə ümummilli lider gənclərin hərbi peşəyə yiyələnməsinə çalışmışdır. O dövrdəki Sovetlər Birliyi məkanında bu o qədər də asan məsələ deyildi. Üstəlik o dövrdə gənclərimiz hərbi peşələrə kifayət qədər maraq göstərmirdi. Çox keçmədən uzaqgörən siyasətçi Heydər Əliyevin təşəbbüsü və şəxsi himayəsi altında Cəmşid Naxçıvanski adına hərbi təmayüllü məktəb açıldı. Azərbaycanda milli hərbi kadr hazırlığı üçün baza rolunu oynayacaq məktəbin yaradılmasına o vaxtkı SSRİ rəhbərliyi laqeyd yanaşa bilməzdi. Həmin dövrdə bir-birinin ardınca Moskvadan Bakıya göndərilən komissiyalar Azərbaycanda belə bir hərbi məktəbə ehtiyac olmadığını əsaslandırmağa çalışsalar da, Heydər Əliyevin mahir diplomatiyası və uzaqgörən siyasəti bu cəhdlərin qarşısını almış, həmin məktəbin fəaliyyəti Azərbaycanda hərb sənətinə marağın güclənməsinə, azərbaycanlı zabit kadrların hazırlanmasına gətirib çıxarmışdır. Tezliklə bu məktəb böyük şöhrət qazandı. Bu məktəbi bitirən müdavimlər sonra təhsillərini keçmiş SSRİ-nin müxtəlif ali hərbi məktəblərində davam etdirirdilər.

969-cu ildə Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi ilə ölkəmizin hər yerində olduğu kimi, Şərur rayonunun xalq təsərrüfatının bütün sahələrində, o cümlədən kənd təsərrüfatında da əsaslı dönüş baş verdi. Rayonun tamamilə yenidən qurulan kənd təsərrüfatının maddi-texniki bazası möhkəmləndirildi. Bu sahələr üzrə ixtisaslı mütəxəssislərin sayı artırılmağa başladı. IX beşillik planı təsdiq

edən Sov.İKP XXIV qurultayı ölkənin iqtisadi, siyasi və tərəqqisi sahəsində qarşıya yeni vəzifələr qoydu [1, s. 46]. Respublikanın bütün sakinləri kimi, rayon zəhmətkeşləri də qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi üçün ciddi şəkildə əmək fəaliyyətinə başladılar.

Kommunist rejiminin hökmranlıq etdiyi mürəkkəb tarixi şəraitdə Azərbaycan xalqının böyük təəssübkeşi Heydər Əliyevin həyata keçirməyə başladığı geniş islahatlar proqramı Şərur rayonunu da əhatə etmişdi. Ötən əsrin 70-ci illərində Şərur rayonu iqtisadiyyatının inkişaf etdirilməsində vacib sahələrdən biri tütünçülük olmuşdur. Həmin illərdə burada tütün əkilən sahələr müəyyən qədər genişləndirilsə də, Şərur rayonunun tütünçülüklə məşğul olan təsərrüfatlarının pis işləmələri hesabına burada tütün istehsalı və dövlətə satışı planı 80% yerinə yetirilmiş, dövlətə nəzərdə tutulduğundan 1,387 ton az məhsul satılmışdır [1, s. 52].

Doqquzuncu beşillikdə Şərur rayonunda kənd təsərrüfatının inkişafı öz tərəqqisi ilə diqqəti cəlb edir. Taxıl toplanmasında əldə edilən uğurlar diqqəti xüsusi cəlb edirdi. Həmin illərdəki mətbuat səhifələrində də bu barədə məlumatlar əks olunurdu. “Şərq qapısı” qəzeti yazırdı: “1971-1975-ci illərdə Naxçıvan və Şərur rayonlarının kənd əməkçiləri taxıl istehsalında və dövlətə satışında fərqlənmişdilər” [7, 1976, 15 fevral]. Rəqəmləri müqayisə etdikdə taxılçılıqda muxtar respublika üzrə taxılın hər hektarından məhsuldarlığın ən yüksək səviyyəsinin Şərur rayonunda əldə edildiyi məlum olur. 1980-ci ildə üzrə taxılın hər hektarından məhsuldarlıq Şərur rayonu üzrə 30,7 sentner olmuşdur.

Məlum olduğu kimi, XXIV qurultayın qərarlarında qarşıya qoyulan mühüm vəzifələrdən biri də heyvandarlığın inkişaf etdirilməsi məsələsi idi. Süd istehsalının artırılması və heyvandarlığın inkişafı sahəsində Şərur rayonunun təsərrüfatları xüsusilə fəqrlənmişlər. Buna görə rayonun maldarlığın inkişafına dair planlarının artırılması nəzərdə tutulmuşdur. Şərur rayonunda hər inəkdən 1, 061 kq süd sağılmışdır ki, bu da 1973-cü ilin müvafiq dövrünə nisbətən Şərur rayonu üzrə 157 kq çoxdur [7, 1976, 29 aprel]. Onuncu beşillik illərində rayonda süd istehsalı sahəsində yüksək göstəricilər əldə edən təsərrüfatlar və əmək adamları da olmuşdur. Rayondakı Şəhriyar kənd kolxozunun sağıcısı Qəmər Qasımovanın, Siyaqut kənd sovxozunun sağıcısı Balaxanım Əliyevanın, Yengicə kənd kolxozunun sağıcısı Xatın Mirzəyevanın və b. adlarını böyük iftixarla çəkmək olar.

1970-1974-cü illərdə muxtar respublika əməkçilərinin qazandıqları nailiyyətlərdə Şərur rayonu zəhmətkeşlərinin də böyük payı olmuşdur. Doqquzuncu beşilliyin keçən 4 ilində rayon üçün müəyyən edilmiş tapşırıqların çox hissəsi artıqlaması ilə yerinə yetirilmişdir. Rayonun üzümçüləri 1974-cü ildə üzümçülük sahəsində daha parlaq qələbələr qazanaraq, dövlətə üzüm satışı planlarını artıqlaması ilə yerinə yetirmişdilər. Həmin il Şərur rayonunun kolxoz və sovxozları dövlətə 23624 ton üzüm satmışdılar. Şərur Rayon Partiya təşkilatının rəhbərliyi ilə rayonda üzümçülüyün ixisaslaşdırılması və intensivləşdirilməsi sahəsində geniş miqyasda işlər görülmüşdür. Qeyd edək ki, təkcə 1978-ci ildə Şərur rayonundakı Həzi Aslanov adına və Zeyvə-Düdəngə kolxozlarının bazasında üzümçülük sovxozları təşkil edilmişdir.

Onuncu beşillikdə muxtar respublikanın əksər bölgələrində, o cümlədən Şərur rayonunda da bağçılıq və meyvəçilik sahəsində məhsuldarlığı artırmaq, intensiv bağçılığı inkişaf etdirmək və ixtisaslaşdırmaq üçün 1979-cu ildə Şərur rayonundakı M.Qorki adına, Frunze və S.Vurğun adına kolxozların bazası əsasında 3 yeni meyvəçilik sovxozu təşkil olunmuşdu. Həmin sovxozlarda 725 hektar palmet bağları salınmışdı. Şərur rayonunda bağların hər hektarından 5,5 sentner məhsul əldə edilmişdir [2, s. 167].

XX yüzilliyin 70-80-ci illərində ölkədə mühüm dəyişikliklər edilmiş, iri sənaye sahələri yaradılmış və istifadəyə verilmişdir. Həmin illərdə iri təsərrüfatlar yaranmış, əhalinin həyat səviyyəsi əhəmiyyətli dərəcədə yüksəlmişdir [1, s. 59]. Bütün həyat sahələrini bürüyən bu inkişaf və tərəqqi Şərur rayonundan da yan keçməmişdir. Belə ki, 1978-ci ildə Şərur rayon istehsal damazlıq birliyi yaradılmışdır [6, v. 116].

Onuncu beşillikdə Şərur rayonunda müxtəlif irriqasiya-meliorasiya işlərinin həyata keçirilməsi nəzərdə tutulmuşdu. Həmin illərdə Arpaçay su anbarı tikintisinin, onun sağ və sol sahil kanallarının başa çatdırılması planlaşdırılırdı.

1980-ci ilin mayında Heydər Əliyev növbəti dəfə Arpaçay dəryaçasının vəziyyəti ilə maraqlanmış, Sirab və Batabat dəryaçalarına getmişdir. O, muxtar respublikada kənd təsərrüfatı istehsalının yüksəlişinin həlledici amili olan su təsərrüfatının genişləndirilməsində nöqsanların olduğunu da göstərmiş, su obyektlərinin tikintisini sürətləndirməyi və mühüm su mənbəyi kimi kəhrizlərin, artezianların, çeşmələrin imkanlarından istifadə etməyi tövsiyə etmişdi [1, s. 61].

Ötən əsrin 60-70-ci illərində muxtar respublikanın kolxozlarının torpaqları Şərur rayonu üzrə ümumi ərazinin 55,7%-ni təşkil edirdi. Həmin illərdə muxtar respublikada kənd təsərrüfatına yararlı olan 148-149 hektar torpaq sahəsinin 37699 hektarı Şərurda yerləşmişdi [3, s. 86]. Regionun torpaq sahələri həm də öz münbitliyi və məhsuldarlığı ilə fərqlənirdi.

Rayonun kənd təsərrüfatının su ilə təchiz olunması məsələsini həll etmək məqsədilə Şərqi Arpaçay üzərində 30 milyon kub metr həcmində su tutan "Dəvə ölən" su anbarını inşa etmək, Fərhad-arx baş kanalını uzatmaq, Arazdəyən kanalını çəkmək, Şərur rayonundakı Arxaşan kanalını bərpa etmək və yenidən qurmaq və digər su təsərrüfatı tədbirlərini yaxın gələcəkdə həyata keçirmək nəzərdə tutulmuşdu. Həmin tədbirlərin ən geci 10-12 il müddətində həyata keçirələrək reallaşdırılması planlaşdırılmışdı. Eyni zamanda nəzərdə tutulmuşdu ki, "Qıvraq", "Qarabağlar", "Şahtaxtı" və b. su anbarları tikilsin, tikintisi 1940-cı ildən başlanan Arazdəyən-Şərur kanalı təmir edilsin, Sədərək kəndində artezian quyusu qazılsın və s.

Həmin illərdə Şərur rayonunda da arx və kanalların çəkilişinə, torpaqların meliorasiya cəhətdən yaxşılaşdırılmasına dövlət tərəfindən yönəldilən vəsait yetərincə artırılmışdı. Bunun nəticəsində Şərur rayonunda Yuxarı Sovxoz kanalı çəkildi və bu kanalın suyu ilə yüzlərlə hektar xam torpaq suvarıldı. Sədərək kanalının çəkilməsi ümumilikdə muxtar respublikanın su ehtiyatının artmasını təmin etdi [4, s. 58]. Qeyd edək ki, Sədərək həmin illərdə Şərur rayonunun tərkibinə daxil idi.

1971-1975-ci illərdə suvarma və meliorasiya qurğularının tikintisinə ayrılmış vəsaitdən 14 milyon manata qədər xərclənmişdir. Bunun da 11, 4 milyon manatdan çoxu Arpaçay su tikintisinin payına düşmüşdü [1, s. 80]. Bu tikintinin sürətləndirilməsi və tezliklə başa çatdırılması üçün müxtəlif tədbirlər həyata keçirilmiş, xeyli işçi qüvvəsi səfərbərliyə alınmışdı.

1974-cü ilin oktyabrında Naxçıvan MSSR-in 50 illiyi ilə əlaqədar muxtar respublikada olan Heydər Əliyev Arpaçay su qovşağının tikintisinə baş çəkmiş, tikintinin tezliklə başa çatdırılması üçün tapşırıqlar vermişdi. Araz su qovşağında da olan Heydər Əliyev Naxçıvançay üzərində Vayxır dəryaçasının yaradılması və Əlincəçay suvarma sisteminin qurulması haqqında da planların olduğunu nəzərə çatdırmışdı [7, 1974, 5 oktyabr]. Sonralar məlum olmuşdur ki, Şərur rayonunda arx və kanalların çəkilişi və suvarma sistemi ilə bağlı yaxın gələcəkdə daha geniş kompleks tədbirlər həyata keçirmək nəzərdə tutulmuşdu.

1978-ci ilin oktyabrında yenidən muxtar respublikaya gələn ulu öndər Azərbaycanın müvafiq qurumları qarşısında 1979-cu ilin mayınadək Arpaçay kompleksinin tikintisində yarımçıq qalmış işlərin başa çatdırılması və kompleksin istifadəyə verilməsi, aşağı su buraxıcı qurğunun və sağ sahil kanalının çəkilişinə başlanması kimi yeni vəzifələr qoydu [7, 18 oktyabr 1978]. Heydər Əliyev partiya təsərrüfat fəallarının yığıncağındakı çıxışı ilə kifayətlənməyərək yenidən Arpaçay dəryaçasında olmuş, kompleksin inkişafı ilə bağlı öz tövsiyələrini vermişdi [1, s. 81].

1969-cu ildə Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi ilə ölkəmizin hər yerində olduğu kimi, Şərur rayonunun xalq təsərrüfatının bütün sahələrində, o cümlədən sənayedə də əsaslı dönüş baş verdi. Ötən əsrin 70-ci illərində rayonun tamamilə yenidən qurulan sənayesinin maddi-texniki

bazası möhkəmləndirildi. Həmin illərdə sənaye sahəsi üzrə ixtisaslı mütəxəssislərin sayı artırılmağa başladı.Naxçıvan Muxtar Respublikasında və onun ayrılmaz tərkib hissəsi olan Şərur rayonunda iqtisadi quruculuq fəaliyyəti 70-ci illərin ilk ilindən sürətlə başladı. Bu illərdə Şahtaxtı (Şahtaxtı da o illərdə Şərur rayonunun tərkibinə daxil idi-Y.R.) daş karxanası tikilib istifadəyə verilmiş, Şərur konserv zavodunun yeni dəmir-beton məmulatı müəssisələrinin tikintisinin başa çatdırılması həyata keçirilmişdi.

Gümüşlü qurğuşun-sink dağ-mədən sənaye müəssisəsinin 70-80-ci illərdə də nailiyyətləri olmuşdur. Azərbaycan SSR Nazirlər Sovetinin Əlvan Metallurgiya Birliyinin məlumatına əsasən beş il müddətində 1968-cı ildən 1972-ci illərdə Gümüşlü dağ mədənində təkmilləşdirilmiş texnologiyanın tətbiqi ilə minlərlə ton filiz istehsal edilmişdi. Bu nailiyyətlər sonrakı illərdə də olmuşdur (2, s.74). 70-ci illərdə bu dağ mədəninin istehsal gücü daha artırılmış və xeyli miqdarda filiz keçmiş İttifaq dövlətinin müxtəlif ərazilərinə ixrac olunmuşdur.

Şərur rayonunun çox sahəli sənaye sahələrindən biri də yeyinti emalı sənayesidir. 1970-1985-ci illərdə rayonda şərab zavodları tikilib istifadəyə verilmişdir. 1973-cü ildə Sədərək (Sədərək həmin illərdə Şərur rayonun tərkibinə daxil idi – Y.R.) üzümçülük sovxozunda gücü 10 min ton, İbadulla kəndi Dimitrov adına üzümçülük sovxozunda gücü 10 min ton olan şərab zavodları tikilib istifadəyə verildi, mövcud müəssisələrdə yenidənqurma işləri aparıldı.

Şərur rayonunun Şahtaxtı (Şahtaxtı da o illərdə Şərur rayonunun tərkibinə daxil idi – Y.R) kəndində istehsal olunan yüksək keyfiyyətli travertin üzlük plitələri metro, kinoteatr, inzibati binaların tikintisində və s. yerlərdə işlədilir. Bu keyfiyyətli və qiymətli tikinti sənaye materialı təkcə Azərbaycanda deyil, həm də keçmiş SSRİ-nin başqa rayonlarında və xarici ölkələrdə yüksək qiymətləndirilmişdir. Misal üçün, təkcə 1983-cü ildə istehsal olunmuş 27,6 min kub metr travertinin, 10 min kub metri Moskva, Leninqrad, Minsk, Daşkənd və Soçi şəhərlərinə ixrac olunmuşdu. 1985-ci ildə 47,7 kub metr istehsal olunmaqla, həmin şəhərlərə travertin bloku ixracı daha da artmışdı [5, s. 38]. 80-ci illərin II yarısında bu tikinti materialının istehsalı daha artırılmışdır ki, bu da 70-ci illərdə həyata keçirilən tədbirlərin sayəsində mümkün olmuşdur.

Beləliklə, 1969-1982 bütün respublikada çox böyük quruculuq və tikinti abadlıq işləri aparılmışdır. Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə (1969-1982) həyata keçirdiyi əzəmətli quruculuq işlərinin çox böyük tarixi əhəmiyyəti bundan ibarət idi ki, xalqımızda milli qürur, milli mənlik şüuru oyandı, azadlıq, müstəqillik duyğuları baş qaldırdı. Bu, əslində XX yüzilliyin 70-ci illərində Azərbaycan xalqının milli azadlıq hərəkatının yeni mərhələyə – yüksəliş mərhələsinə daxil olması demək idi.

Ulu öndər Heydər Əliyevin siyasətdə, iqtisadiyyatda və mədəniyyətdə qoyduğu izlər heç vaxt silinməyəcək. Bu gün də mövcud iqtidarın monolit birliyi nəticəsində ümummilli liderimizin qurub-yaratdığı azad, müstəqil, demokratik Azərbaycan onun müəyyən etdiyi strateji xətlə inamla getməkdə, inkişafını davam etdirməkdədir. Bu xətti əzmlə, dəyanətlə irəli aparan isə ulu öndərin layiqli varisi, praqmatik dövlət xadimi, bütün dünya miqyasında böyük hörmətə, nüfuza malik Prezidentimiz İlham Əliyevdir.

## ƏDƏBİYYAT

1. Hüseynov X. Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının inkişafı (1924-2014-cü illər). Naxçıvan: Əcəmi, 2016, 352 s.
2. Hüseynov X. Naxçıvan Muxtar Respublikasında sənayenin inkişafı (1950-2004-cü illər). Bakı: ADPU, 2012, 160 s.

3. Qəhrəmanov R. Naxçıvan MSSR-in kənd təsərrüfatının yerləşdirilməsi və ixtisaslaşdırılması. Bakı: Azərnəşr, 1967, 194 s.
4. Naxçıvan MSSR-50. Lenin milli siyasətinin yetirməsi. Bakı: Azərnəşr, 1974, s. 96
5. Nadirov A., Nuriyev Ə., Muradov Ş. Naxçıvan iqtisadiyyatı XX əsrdə. Bakı: Elm, 2000, 104 s.
6. NMRDA: f. 1, s. 10, iş 12, v. 116.
7. "Şərq qapısı" qəz.

**Yashar Rahimov**

## SOCIOECONOMIC DEVELOPMENT OF THE SHARUR DISTRICT DURING THE FIRST PERIOD OF THE GREAT HEYDAR ALIYEV'S RULE (1969-1982)

The article explores such issues as the economic situation in the republic, especially the state of agriculture, which was in a very deplorable state until July 1969, a deep and comprehensive analysis of the socio-economic situation that has arisen in a short time on the initiative and under the leadership of Heydar Aliyev, identifying the reasons for the backlog considering the possibilities and interests of the Republic of Nakhchivan, successes and achievements in the field of industry and agriculture in 1970-1982. in the Sharur region of the MSSR. In those years, the foundations of today's comprehensive and high level of development of the Republic of Azerbaijan were laid. After the great leader came to power (July 14, 1969) in the Sharur region, as in all regions of Azerbaijan, a period of revival began in industry, agriculture, culture, art, cinema, theater, painting, etc. At the end of the article, it was concluded that after the development of programs for the new development strategy and the identification of ways to implement them, in the first period of the reign of the great leader Heydar Aliyev (1969-1982), in the industrial and agricultural sectors of the Sharur region, as well as in other regions of our country, significant progress has also been made, marked progress in improving the standard of living of the population.

**Keywords:** *Azerbaijan, great leader Heydar Aliyev, industry, agriculture, Sharur district, development.*

**Яшар Рагимов**

## СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОЕ РАЗВИТИЕ ШАРУРСКОГО РАЙОНА В I ПЕРИОД ПРАВЛЕНИЯ ВЕЛИКОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА (1969-1982 гг.)

В статье исследованы такие вопросы, как экономическое положение республики, особенно состояние сельского хозяйства, которое находилось в весьма плачевном состоянии до июля 1969 года, глубокий и всесторонний анализ создавшейся социально-экономической ситуации в короткие сроки по инициативе и под руководством Гейдара Алиева, выявление причин отставания с учетом возможностей и интересов республики Нахчыван, успехи и достижения в области промышленности и сельского хозяйства в 1970-1982 гг. в Шарурском районе МССР. В те годы были заложены основы сегодняшнего всестороннего и высокого уровня развития Азербайджанской Республики. После прихода к власти великого лидера (14 июля 1969 года) в Шарурском районе, как и во всех районах Азербайджана, начался период возрождения в промышленности, сельском хозяйстве, культуре, искусстве, кино, театре, живописи и т.д. В конце статьи сделан вывод о том, что после разработки программ новой стратегии развития и

определения путей их реализации, в первый период правления великого лидера Гейдара Алиева (1969-1982 гг.), в промышленной и сельскохозяйственной сферах Шарурского района, как и в других регионах нашей страны, также были достигнуты значительные успехи, отмечен заметный прогресс в области повышения уровня жизни населения.

**Ключевые слова:** *Азербайджан, великий лидер Гейдар Алиев, промышленность, сельское хозяйство, Шарурский район, развитие.*

**ƏLƏKBƏR QASIMOV**

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN TEATRLARI

*Məqalədə Heydər Əliyevin teatr sənətinə olan maraq və sevgisindən və bunun səbəblərindən söhbət açılır. Burada eləcə də Naxçıvan teatr mühitinin onun formalaşması və dünyagörüşünün genişlənməsində oynadığı rol vurğulanır.*

*Ulu öndərin sovet dövründə respublikaya rəhbərlik etdiyi illərdə milli teatr sənətimizin inkişafı və tərəqqisi, onun ittifaq miqyasında təbliğ olunması, dövlət teatrlarının sayının artırılması və sənətkarlara qarşı qayğısı əhatəli şəkildə tədqiq və təhlil edilir.*

*Ümummilli liderin müstəqilliyin ilk illərində ölkə Prezidenti kimi Azərbaycan teatrlarına, teatr xadimlərinə göstərdiyi diqqət də araşdırılaraq faktlarla öz əksini tapmışdır. Yazıda Heydər Əliyevin teatrların bir sıra tamaşalarının premyeralarında şəxsən iştirakı, hər bir tamaşadan sonra onun yaradıcı heyətilə görüşləri, fikir mübadilələri də geniş işıqlandırılır.*

**Açar sözlər:** *Heydər Əliyev, Prezident, ümummilli lider, ulu öndər, teatr, tamaşa, rejissor, aktyor, premyera.*

Xalqımızın müdrik oğlunun, ümummilli liderimizin teatr və orada çalışan insanlar haqqında dediyi bu qiymətli sözləri oxuyanda istər-istəməz belə bir qənaətə gəlmək mümkündür ki, bu ifadələri yalnız teatrı dərindən duyan, onu yaxından hiss edən, ab-havasına bələd olan, ona daxilən bağlanan bir insan söyləyə bilər. Bəli, bu sözlərin müəllifi olan Heydər Əliyev, həqiqətən də, ömrünün yeniyetməlik çağından teatr aləminin sehrinə düşmüş, həyatının bütün mərhələlərində də, dahi və fenomenal bir şəxsiyyət kimi tanınanda da, ahıllıq dövründə də bu sehrdən xilas olmaq istəməmişdir.

Ulu öndərimizdə teatra sonsuz məhəbbəti yaradan isə ilk əvvəl Naxçıvanın teatr mühiti olmuşdur. Doğma şəhərindəki dram teatrın tamaşalarına xüsusi maraq göstərən gənc Heydər Əliyev, demək olar ki, 14 yaşından bu qədim sənət ocağının daimi tamaşaçısına çevrilir. Teatra vurğunluğu onu 1938-ci ildə Naxçıvan Şəhər Pionerlər Evində yenicə təşkil olunan dram dərnəyinə gətirir. O zaman həmin dərnəyin təşkilatçısı və rəhbəri, Naxçıvan Dövlət Dram Teatrının aktyoru Miribrahim Həmzəyev istiqanlı yeniyetmədə fitri istedadı sezərək ona əvvəlcə əsas rolları, sonrakı tamaşalarda isə baş rolları etibar edir.

“Qayıdış” adlı sənədli televiziya filmində Heydər Əliyev deyir:

“...14-15 yaşlarında Naxçıvan Dövlət Dram Teatrının tamaşalarına çox böyük həvəs və maraqla baxırdım. İbrahim Həmzəyevin ifa etdiyi rolların vurğunu idim. Sonralar eşitdim ki, İ.Həmzəyev dram dərnəyi təşkil edib. Mən o dərnəyə yazıldım və həvəslə iştirak etdim.

Mən teatrla gənc yaşlarımdan məşğul olmuşam. Baş rollarda oynamışam. Mən həmişə teatra yaxın və bağlı adam olmuşam. Bu ötəri hiss deyil, içimdən gələn bir məhəbbətdir. Teatrı çox sevirəm. Teatra məhəbbət mənim içimdə var”.

“Naxçıvan Pedaqoji Məktəbində təhsil aldığı illərdə bu dram dərnəyinin fəal üzvü olan Heydər Əliyev burada hazırlanan “Qaralar ölkəsində” (K.Həsənov), “Lənkəran xanı vəzirinin sərgüzəşti” (M.F.Axundov), “On min manatı kim uddu” (M.S.Ordubadi), “Qanlı döyüş” (İ.Həmzəyev) kimi tamaşalarda oynadığı rollarla tamaşaçıların, xüsusən də müəllimləri və tələbə yoldaşlarının rəğbətini qazanır.

1939-cu ildə Naxçıvanda təhsilini başa vurub Azərbaycan Sənaye İnstitutuna daxil olan Heydər Əliyev teatr aləmindən ayrı düşməsi ilə barışa bilmir və çox keçmədən bu işə maraq göstərən istedadlı tələbələri bir yerə toplayaraq institutda dram dərnəyi yaradılmasına nail olur. Demək olar ki, məhz bu dram dərnəyindəki fəaliyyəti gənc Heydər Əliyevin təşkilatçılıq və rəhbərlik keyfiyyətlərini ilk dəfə üzə çıxarır” [5].

1941-ci ildə Böyük Vətən Müharibəsinin başlanması səbəbindən ali təhsilli memar olmaq arzusu ilə vidalaşmalı olan H.Əliyev müharibənin ilk aylarından Naxçıvanda müxtəlif dövlət idarə və təşkilatlarında məsul vəzifələrdə işləsə də, vaxtaşırı imkan tapıb Naxçıvan Teatrının yeni quruluşlarının premyeralarında iştirak edər, öz sevimli sənət müəllimi İ.Həmzəyevlə, teatrın rejissorları, rəssamları və aktyorları ilə görüşər, onlarla söhbətdən xüsusi zövq alardı.

AMEA-nın müxbir üzvü, sənətşünaslıq doktoru, professor İnqilab Kərimov özünün "Heydər Əliyev sənət, sənətkarlar və sənətkarlıq haqqında" kitabında ulu öndərin Naxçıvan Teatrı ilə bağlı məqamlarından birini belə təsvir edir: "1958-ci ilin əvvəlləri idi. Azərbaycan EA Memarlıq və İncəsənət İnstitutunun aspirantı idim. Respublika Mədəniyyət Nazirliyinin xətti ilə Naxçıvana ezamiyyətə göndərilmişdim. Naxçıvan Dövlət Dram Teatrının iki tamaşasına... baxdıqdan sonra yaradıcı kollektivlə görüşüb fikirlərimi söylədim... Müzakirədən sonra İbrahim Həmzəyev söhbət zamanı "Vaxtı ilə bizdə yaxşı istedadlar, həvəskarlar vardı..." deyərək, Heydər Əliyevin adını çəkdi və onun nəinki istedadlı bir aktyor, hətta qüvvətli bir teatr nəzəriyyəçisi ola biləcəyini vurğuladı və dedi ki, onda teatra, aktyor sənətinə belə aydın münasibət var idi. Mən ilk dəfə Heydər Əliyevin adını o gün orada, İbrahim Həmzəyevin dilindən eşitdim" [1, s. 44].

Burada qeyd etmək yerinə düşər ki, 1941-1942-ci illərdə 402-ci Azərbaycan Diviziyasının nəzdində olan hərbi orkestr də Naxçıvanda yerləşdirilmişdi. Arada vaxt tapıb, bu musiqi kollektivinin də məşqlərini böyük maraqla dinləyən Heydər Əliyevin sonradan respublikanın xalq artistləri olmuş orkestrin rəhbəri, gənc bəstəkar və dirijor Tofiq Quliyevlə və orkestrin üzvü Məlik Dadaşovla dostluğunun təməli də məhz Naxçıvanda qoyulmuşdur. Təsadüfi deyildir ki, sonralar teatr və kino aktyoru kimi məşhurlaşan M.Dadaşov Heydər Əliyev haqqında belə deyirdi: "Bütün qardaşlarında olan ən gözəl keyfiyyətlər Heydər Əliyevdə birləşib. Üstəlik onda Allah vergisi hiss olunur, mədəniyyət fenomenidir".

Müharibədən sonra dövlət təhlükəsizliyi orqanının perspektivli zabiti kimi Leninqrada (Sankt-Peterburqa) ixtisas təhsili almağa göndərilən Heydər Əliyev doğma teatrın kollektivilə bir də təxminən 15 ildən sonra, Naxçıvan Muxtar Respublikasının 40 illik yubileyi günündə – 1964-cü ilin 15 oktyabrında görüşdü. Bu görüş artıq Cəlil Məmmədquluzadənin adını daşıyan və Naxçıvan Dövlət Musiqili Dram Teatrı adlanan qədim sənət ocağının yenicə istifadəyə verilmiş möhtəşəm binasında oldu.

Naxçıvan Teatrının 600 nəfərlik, amfiteatrlı, üçmərtəbəli lojalı tamaşa zalına, hər cür işıq və ştanqet sistemli, səhnəsində fırlanan dairəsi və orkestr xəndəyi olan yeni, əzəmətli bir binaya sahib olmasına həmin gün, bəlkə də hamıdan çox sevinən Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, polkovnik Heydər Əliyev idi. O, fasilə zamanı teatrın yeni baş rejissoru Baxşı Qələndərlilə, Zəroş və İbrahim Həmzəyevlərlə, gənclik dövrünün dostlarından olan teatrın baş rəssamı Məmməd Qasımovla, yaxından tanıdığı aktyorlardan İsa Musayev, Firuzə Əlixanova, Mirhəsən Mirişli, Xədicə Qazıyeva və Əyyub Haqverdiyevlə səmimi görüşərək, onları yeni bina və bayram münasibətilə təbrik etmiş, hazırlanan yeni tamaşalarla maraqlanmış və hamıya uğurlar arzulamışdır.

"Daha bir yeni görüş 1965-ci ilin iyununda Bakıda keçirilən "Naxçıvan MSSR mədəniyyət həftəsi" zamanı olmuşdur. "Mədəniyyət həftəsi"ndə Naxçıvan Teatrı üç tamaşa ilə təmsil olunurdu. Onlardan "Məhsəti" tamaşası daha böyük müvəffəqiyyət qazanaraq müəllifə, teatra uğur və şöhrət gətirdi. Azərbaycan Dövlət Akademik Dram Teatrında həmin tamaşaya baxdıqdan sonra Heydər Əliyev həyat yoldaşı Zərifə xanımla birlikdə səhnəyə keçib müəllif Kəmalə Ağayevaya və baş rolun ifaçısı Zəroş Həmzəyevaya gül dəstəsi təqdim edərək bütün kollektivi təbrik etmişdi" [4].

1969-cu il iyulun 14-də, Azərbaycan KP Mərkəzi Komitəsinin plenumunda Respublika Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin sədri, general-mayor Heydər Əlirza oğlu Əliyevin

MK-nin I katibi və büro üzvü seçilməsilə bir çox sahələr kimi Azərbaycan mədəniyyətində, o cümlədən teatrlarda da bir oyanış, dirçəliş başlandı. Şübhəsiz ki, Naxçıvan Teatrı da bu proseslərdən kənarda qalmadı.

1971-ci ildə Naxçıvan Dövlət Musiqili Dram Teatrı Bakıya qastrol səfərinə dəvət olunur. Qastrol müddətində böyük uğur qazanan və rəğbətlə qarşılanan K.Qoldoninin "Mehmanxana sahibəsi" tamaşasının məhz respublika rəhbərinin tapşırığı əsasında televiziya ilə translyasiya edilərək bütün respublikaya canlı yayımlanması da həyata keçirilir.

1974-cü ilin fevral ayında Heydər Əliyev respublikanın rəhbəri kimi ilk dəfə Naxçıvana gəlmişdi. Muxtar respublikaya "Xalqlar dostluğu" ordeninin təqdim edilməsi münasibətilə Dövlət Musiqili Dram Teatrının binasında keçirilən təntənəli yığıncağın rəsmi hissəsindən sonra, fasilədə MK-nin birinci katibi imkan tapıb xalq artisti İ.Həmzəyevlə görüşmüş və teatrın vəziyyəti, yeni tamaşalar barədə məlumat əldə etmişdi. Həmin ilin oktyabrında isə muxtar respublikanın 50 illiyi münasibətilə yubiley şənliklərində iştirak edən Heydər Əliyev təntənəli yığıncaq zamanı yenidən Naxçıvan Teatrının qonağı olmuş və yubiley münasibətilə respublikanın fəxri adlarına layiq görülmüş sənətkarları şəxsən təbrik etmişdir.

1974-cü il may ayının 31-də Azərbaycan teatrının 100 illik yubileyi münasibətilə Bakıda indiki Heydər Əliyev adına sarayda keçirilən təntənəli yığıncaqda Azərbaycan rəhbərinin teatrımızın tarixi, keçdiyi çətin, mürəkkəb və şərəfli yaradıcılıq yolu haqqında qüdrətli teatrşünas və müdrik siyasətçi baxışı ilə söylədiyi dolğun, mənalı məruzəsi yalnız teatr ictimaiyyəti tərəfindən deyil, teatrsevərlər tərəfindən də məmnunluqla, heyranlıqla qarşılandı: "Teatr müqəddəs yerdir, tərbiyə ocağıdır. Orada çalışanlar fədakardırlar, fədaidirlər... Teatr xadimləri tamaşaçıya bir söz demək üçün, mədəni səviyyəni yüksəltmək üçün, irəliləyişimizə mane olanlara qarşı mübarizəyə qaldırmaq üçün nə qədər çalışırlar. Heç kim bilmir ki, artist səhnəyə çıxıb rolu tamaşaçı qarşısında oynadığı vaxta kimi nə qədər həyəcan, sevinc keçirir...

...Fərəhli haldır ki, respublika teatr tamaşalarının əksəriyyəti müasirlərimizə, həyatımızın ciddi, aktual ictimai və etik problemlərinə həsr olunmuşdur. Müasirlərimizin qaynar həyatını əks etdirən tamaşaların xüsusi cazibə qüvvəsi vardır. Bunlar qoyulmuş problemlərin müasirliyi, aktuallığı ilə tamaşaçı kütlələrini həyəcanlandırır. …Müasir dramaturgiyanın inkişafı, şübhəsiz, bilavasitə teatrın özündən, onun bədii və estetik səviyyəsindən asılıdır. …Ən başlıcası isə budur ki, dramaturqlar həmişə xalq həyatının içərisində, nəhəng quruculuq işlərinin qaynağında olmalı, beşilliyin qabaqcılları ilə canlı ünsiyyət bağlamalı, onların daxili aləmini, psixologiyasını dərindən və hərtərəfli öyrənməli, tədqiq etməlidirlər. Səthi müşahidələr əsasında tərtib edilmiş sxemlər üzrə soyuq ürəklə dərin məzmunlu səhnə əsərləri, müasirlərimizin şüuruna və qəlbinə təsir edə bilən əsərlər yaratmaq mümkün deyildir…" [6].

Böyük dövlət rəhbərinin 100 illik yubileydə tarixi nitqini söylədiyi zamanda görkəmli rejissor Tofiq Kazımov artıq on il idi ki, Azərbaycan Dövlət Akademik Dram Teatrının baş rejissoru idi. Bu on il ərzində Tofiq Kazımov psixobioqrafiyasında gizlədilən "zədə"ləri, demək olar ki, tam sağaltmasa da, ağrı-acılarını xeyli yüngülləşdirmişdi. Amma məhz bu məqamda, onun əleyhinə olan bəzi "kəslər" sənətkarın ətrafında yaradıcılıqla bağlı olmayan "işlər" görməyə başladılar. Bu işlərdə səriştəli olan "intriqaçı"lar T.Kazımovu ruhdan salmaq, onu əsəbiləşdirmək, düşünülməmiş, çılğın, emosional addımlar atmağa təhrik etməkdən ötrü xeyli çalışdılar. Bəzi bədxahların məkrli əlləri o vaxtkı hakimiyyətin ali eşelonlarına belə çatırdı... T.Kazımovun başının üstünü "qara bulud"lar alırdı. Tədricən yaranan və sənətkarın "gününü qara" edən buludlar bir anın içində parçalandı, havaya sovruldu. T.Kazımovu normal yaradıcı həyata qaytaran yenə də ulu öndərimiz Heydər Əliyev oldu. "Şəhərin yay günləri" tamaşasında pərdə axırıncı dəfə bağlanandan sonra Heydər Əliyev adəti üzrə səhnəyə

qalxdı: yaradıcı heyət onu alqışlarla qarşıladı, o da cavabında hamıya bir-bir əl çaldı. Yaranmış sükutu pozmağa heç kim cürət etmirdi. Sükutu Heydər Əliyev özü pozdu. Onu müşayiət edən rəsmilərə sarı döndü və konkret olaraq, heç kimə müraciət etmədən uca səslə dedi: "Bəs deyirdiniz Tofiq Kazımov bir rejissor kimi tükənib?! Mən isə gözəl rejissor işini gördüm".

Birinci katibin bu sözləri sürəkli alqışlar qopartdı. Amma o, əlini qaldırdı və sözünə davam etdi: "Şəhərin yay günləri" çox lazımlı, aktual olmaqla yanaşı, əsl bədii əsərdir. Hamınızı təbrik edirəm".

Beləliklə, "Şəhərin yay günləri" pyesinin tamaşasına baxdıqdan sonra yaradıcı heyətlə görüşən ölkə rəhbəri Anarın bu pyesini yüksək qiymətləndirmişdi, psixoloji realizm üslubunda yazılmış, ali məktəbə qəbul məsələsinə toxunan, rüşvətxorluğu, əliəyriliyi kəskin tənqid edən bu pyesin əhəmiyyətini vurğulamışdı. "Şəhərin yay günləri" tamaşasının quruluşçu rejissoru, ustad rejissorumuz Tofiq Kazımov, aktyorlardan Səməndər Rzayev və Şəfiqə Məmmədova 1978-ci ildə Respublika Dövlət mükafatına layiq görüldülər.

1979-cu ildə Naxçıvan Teatrının qocaman rejissoru və aktyoru xalq artisti İbrahim Həmzəyevin anadan olmasının 70, səhnə fəaliyyətinin 50 illiyi münasibətilə Naxçıvanda, Gəncədə və Bakıda – "Aktyor Evi"ndə təntənəli yubiley gecələri, bir sıra müəssisə və təşkilatlarda isə görüşlər keçirildi. Öz ustadını şəxsən təbrik etmiş Heydər Əliyevin bilavasitə təşəbbüsü ilə görkəmli sənətkar SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanına əsasən "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edilmişdir.

1970-ci illərdə Azərbaycanda dövlət teatrlarının şəbəkəsi genişləndirildi. Lənkəranda N.Vəzirov adına Dövlət Dram Teatrı (1973), Şəkidə S.Rəhman adına Dövlət Dram Teatrı (1975), Azərbaycan Teatr Cəmiyyətinin (indiki ATXİ) nəzdində "Dostluq" Teatrı (1978), Gəncədə "Nizami" Poeziya Teatrı (1979) açıldı.

Məhz bu illərdə və 80-ci illərin əvvəllərində Heydər Əliyev Azərbaycan Dövlət Akademik Dram Teatrının "Xəyyam", "İnsan", "Darıxma, ana!" "Dəli yığıncağı", "İblis" və s. tamaşalarına baxmış, yaradıcı heyətə öz dəyərli tövsiyələrini vermiş, onları yeni yaradıcılıq uğurlarına ruhlandırmışdı.

Heydər Əliyevin geniş erudisiyası, mükəmməl analiz bacarığı və incə bədii-estetik zövqü çox tez bir zamanda onu teatr çevrələrində də danılmaz bir avtoritetə çevirmişdi. Onun baxdığı tamaşalardan sonra yaradıcı heyətlə apardığı söhbətlər aktyor və rejissorlar üçün hər şeydən əvvəl əsl teatral ilə səmərəli ünsiyyət aktına çevrilirdi. Ancaq tamaşadan sonra səhnəyə qalxan və tamaşanın yaradıcı heyəti ilə söhbət edən yalnız dövlət başçısı deyil, ilk növbədə, sənət adamlarının çox sevdiyi, ehtiram bəslədiyi həssas, bilikli və səmimi teatr tamaşaçısı idi. Məhz buna görə, onun "səhnə söhbətləri" həm də teatr tarixinin faktlarına dönürdü.

Heydər Əliyevin "səhnə söhbətləri"nə konseptual prizmadan yanaşsaq, burada teatrşünaslığın təməli anlayışlarını aşkarlaya bilərik. Belə ki, Heydər Əliyev pyeslə – tamaşanın ədəbi əsası ilə zaman-məkan sənət növü olan tamaşanın köklü fərqini vurğulayır və əsərin "məzmununu, mənasını" tam dərk etməkdən ötrü onu "yaşamaq" şərtini önə çəkirdi. Səhnə əsərinin özünəməxsus təsir spektrini açıqlayan nitqlərində Heydər Əliyev teatrşünaslıq analizinin təməlində duran əsaslara arxalanırdı. Tamaşanın estetik, psixoloji və mənəvi təsirinin əhəmiyyətini alim dəqiqliyi ilə vurğulayan Heydər Əliyev istənilən tamaşanın başlıca məqsədini – emosional hasilini qeyd edirdi. Tamaşadan həyəcanlanmaq qabiliyyətini ömrü boyu itirməyən ulu öndər nəinki tarixi şəxsiyyətdir, həm də tarixi yaradan şəxsiyyətdir. Görünür elə buna görə də Heydər Əliyev mövzusu zaman-zaman bədii təfəkkürə güclü təsir göstərmiş və göstərməkdədir.

Ulu öndər bütün tamaşalara baxar, quruluş haqqında, rejissor işi, bədii tərtibat və aktyor ifası barədə öz fikirlərini söyləyər, hər şeyə diqqət və qayğı ilə yanaşar, teatrda hər bir tamaşanın, hər bir aktyorun, rejissorun, rəssamın, bəstəkarın layiq olduğu qiyməti almasına çalışardı. "Sənətdə hər kəsin öz yeri var. Heç kəs kiminsə yerini almır" deyən rəhbər qayğı ilə yanaşı, obyektiv olmağı da əsas

götürürdü. Azərbaycan Dövlət Akademik Dram Teatrında xalq yazıçısı İlyas Əfəndiyevin "Mahnı dağlarda qaldı" tamaşasının Dövlət mükafatı alması şəxsən böyük rəhbərin təşəbbüsü ilə baş tutub. Belə ki, Dövlət mükafatı üzrə komissiya üzvləri bir yerə yığışıb tamaşaya baxa bilməyiblərmiş. Sonra onlar baxmaq istəyəndə Böyük bəy rolunun ifaçısı İsmayıl Dağıstanlı xəstələnir. Tamaşa göstərilmir. Odur ki, dövlət komissiyasının yekun iclasında Heydər Əliyevə təqdim olunan siyahıda "Mahnı dağlarda qaldı" tamaşasının adı olmur. Ulu öndər bunun səbəbini soruşduqda komissiya üzvləri bir yerdə tamaşaya baxa bilmədiklərini söyləyiblər. O, üzünü komissiya üzvlərinə tutub deyir: "Mən tamaşanı görmüşəm. Çox bəyənmişəm. Mən tamaşaya baxanda sizin əksəriyyətiniz də teatrda idiniz. Tamaşaya baxırdınız. Kim tamaşanı görməyib, yaxud bəyənməyib, qoy sözünü desin". Heç kimin dinmədiyini görən Heydər Əliyev: "Niyə susursunuz? Kim "Mahnı dağlarda qaldı" tamaşasına Dövlət mükafatı verilməsinə razıdırsa, səs versin. Burada adları çəkilən artistlərə etirazınız yoxdursa, gəlin səsə qoyaq".

1981-ci ilin aprelində S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrının 60 illik yubileyinə həsr olunmuş təntənəli yığıncaqda iştirak edən Heydər Əliyev bu sənət ocağının keçdiyi yaradıcılıq yolu haqqında zəngin və dərin məzmunlu, təhlil xarakterli geniş nitq söyləmişdir.

Elə həmin ildə Azərbaycan Dövlət Akademik Dram Teatrında İlyas Əfəndiyevin "Xurşidbanu Natəvan" pyesinin tamaşasına Azərbaycan KP MK-nın büro üzvlərilə birlikdə baxan ulu öndər əsərin və tamaşanın müfəssəl təhlilini vermiş, ifaçılara öz fikirlərini söyləmişdi. O, tamaşaya baxandan sonra İ.Əfəndiyevə demişdi: "Siz ilk növbədə Natəvan – bu şairə haqqındakı şayiələrə son qoydunuz. Natəvanı gözəl Azərbaycan qadını kimi bizə təqdim elədiniz, bununla yanaşı, gözəl xan qızının timsalında bizim Şərq qadınlarının obrazını yarada bildiniz. Mən buna görə sizə sağ ol deyirəm. Həm də son monoloqunuza görə sağ ol deyirəm".

Hüseyn Cavid yaradıcılığına və şəxsiyyətinə pərəstiş edən Heydər Əliyevin rəhbərliyilə Azərbaycan KP MK bürosu 1981-ci ildə dahi şair və dramaturqun 100 illiyini təntənəli keçirmək barədə qərar qəbul etdi. Həmin qərara əsasən, bir sıra tədbirlərin həyata keçirilməsi ilə yanaşı Naxçıvan Dövlət Musiqili Dram Teatrının nəzdində "Cavid" Poeziya Teatrı yaradıldı.

"Teatrın açılışından düz bir ay əvvəl Naxçıvanda səfərdə olan Heydər Əliyev oğlu İlham Əliyevlə birlikdə vaxt ayırıb özünün yaratdığı "Cavid" Poeziya Teatrının təntənəli açılışında iştirak etmiş, elə burada Naxçıvan Teatrının yaradıcı heyətilə yarım saatlıq səmimi görüş keçirmişdir" [2, s. 12].

Böyük Heydər Əliyevin ozamankı Sovet İttifaqında sensasiyalı təşəbbüsü, qətiyyəti və himayədarlığı sayəsində Sibirin uzaq meşələrindən tapılan H.Cavidin cənazəsi Bakıya, bir gün sonra isə Naxçıvan şəhərinə gətirildi. Dahi sənətkarın doğma torpağa tapşırıldığı günün axşamı, 1982-ci il noyabrın 3-də şair-dramaturq Kəmalə Ağayevanın Cavid ömrünü və yaradıcılığını əks etdirən "Mənim tanrım gözəllikdir, sevgidir" tamaşası ilə poeziya teatrı ilk tamaşaçılarını qəbul etdi.

1982-ci ilin dekabrından siyasi fəaliyyətini Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini kimi davam etdirən Heydər Əliyev 1983-cü il oktyabrın 15-də Zərifə xanımla birlikdə Moskvada, Kremlin Qurultaylar Sarayında SSRİ xalq artisti F.Əmirovun "Min bir gecə" baletinə baxmış, sonra tamaşada iştirak edən Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, SSRİ-nin mədəniyyət naziri P.N.Demiçevlə bərabər səhnəyə keçərək müəllifi, quruluşçu baletmeysteri, quruluşçu rəssamı, dirijoru, baş rolların ifaçılarını və bütün yaradıcı heyəti təbrik etmiş, Azərbaycan bəstəkarının məşhur "Min bir gecə" nağıllarından qaynaqlanmış eyniadlı, gözəl bir əsəri əsasında yüksək zövqlə və peşəkarlıqla hazırlanmış bu tamaşanın Moskvada, məhz bu sarayın səhnəsində göstərilməsini böyük mədəni və tarixi hadisə kimi dəyərləndirmişdir.

8 ildən sonra Moskvadan doğma Naxçıvana dönən Heydər Əliyevi şəhərin Azadlıq meydanında – Dövlət Musiqili Dram Teatrının qarşısında 80 minlik izdiham gözləyirdi. 1990-cı il iyul ayının 22-də

axşamüstü buraya, xalqla görüşə gələn ulu öndər yolüstü Hüseyn Cavidin Naxçıvan Teatrının yaxınlığında olan məzarını ziyarət etdi. Buradan meydana qədər olan yolu qohumlarının və yaxınlarının müşayiəti ilə piyada gedən Heydər Əliyev teatrın yanından keçərkən binanı seyr etdi, dərin köks ötürüb qəhərləndi.

Günəşin qürub çağı idi. Bu zaman sanki meydanda yeni bir günəş doğdu. Ulu öndərin ziyası meydanı birə on hərarətləndirdi. Müdrik rəhbər teatrın binası qarşısında görünəndən meydanın mərkəzinə çatıncaya qədər gurultulu alqışlar, “Yaşasın Heydər Əliyev!” nidaları ara vermədi. El atası mikrofonla müraciət edərək xalqı salamladı və hamıya bu görüş üçün minnətdarlıq edərək bildirdi ki, o, Vətənin bu ağır günlərində xalqı ilə birlikdə olmaq üçün qayıtmışdır.

Həmin əlamətdar gündən təxminən bir ay sonra, avqustun son günlərində Heydər Əliyevi Naxçıvanda yaşadığı həyət evində yenidən ziyarət edərək ilk görüşümüz zamanı söz verdiyim dəvətnaməni ona təqdim etdim. Bu, bir il öncə yaradılan və 1990-cı ilin iyununda birinci tamaşası ilə fəaliyyətə başlayan Naxçıvan Dövlət Kukla Teatrının sentyabrın 1-də ilk mövsümünün açılışına dəvətnamə idi. Bundan iki həftə əvvəl gerçəkləşən tanışlıq xarakterli görüşümüzdə ulu öndər kukla teatrının rəhbəri kimi məni təbrik edərək demişdi: “Mənim bu barədə hələ ilin əvvəlindən məlumatım var idi. Çox gözəl və lazımlı bir iş görmüşsünüz. Naxçıvanda indi ikinci dövlət teatrının açılması böyük mədəni və tarixi hadisədir. Müvəffəqiyyət arzulayıram”.

Dəvətnaməni alarkən isə belə dedi: “Bu münasibətlə səni və kollektivinizi bir daha ürəkdən təbrik edirəm. Mən elə-belə söz verməyi xoşlamıram. Görürsən də bu deputat görüşlərinə görə indi məni ora-bura aparırlar. Ancaq həmin gün şəhərdə olsam, mütləq iştirak edəcəyəm. Uğurlar olsun!”

Təəssüf ki, məhz həmin gün deputatlığa namizəd kimi seçicilərlə görüşə getdiyindən şəhərdə olmayan Heydər Əliyev bizim mərasimdə iştirak edə bilmədi. Onun salamlarını, təbriklərini və xeyir-duasını mərasim iştirakçılarına və kollektivə mən çatdırmalı oldum.

1990-cı ildən fəaliyyətini dayandırmaq təhlükəsi ilə üzləşmiş qədim Naxçıvan Dövlət Musiqili Dram Teatrı və kövrək addımların atan Dövlət Kukla Teatrı Muxtar Respublika Ali Məclisinin Sədri seçildikdən sonra daim Heydər Əliyevin diqqət və qayğısını hiss etmişdir. Bir faktı misal çəkim. 1992-ci ildə şəhər rəhbərliyi Dövlət Kukla Teatrının binasını Türkiyənin Naxçıvanda yenicə yaradılmış Baş Konsulluğuna vermək istəyirdi. Ali Məclisdə keçirilən növbəti müşavirədə Heydər Əliyevə bu barədə məlumat verildikdə möhtərəm Sədr hiddətlənmiş və bir növ Naxçıvan Dövlət Kukla Teatrının müdafiəsində duraraq qeyd etmişdir ki, bu teatrı harasa uyğunsuz bir yerə köçürmək, ona laqeyd yanaşmaq, yaxud “bu gün kukla teatrı nəyimizə lazımdır?” ifadəsini işlətmək teatr sənətimizə, ümumiyyətlə milli mədəniyyətimizə qarşı biganəlik deməkdir. Heç bilirsinizmi Naxçıvanda Dövlət Kukla Teatrının açılması necə siyasi əhəmiyyət kəsb edir? Hələ 90-cı ilin əvvəllərində bu xəbər Moskvada, sonra da SSRİ-nin müxtəlif bölgələrində böyük rezonans doğurmuşdu. Məhz 90-cı ilin yanvarında – Naxçıvana erməni təcavüzü başlayan bir vaxtda burada fədakar sənət adamları tərəfindən kukla teatrının təşkil olunması onu sübut etdi ki, bu xalq məğrur və döyüşkən olmaqla bərabər, eyni zamanda nikbin bir xalqdır. Naxçıvanlılar bu qədim və doğma torpaqlarını qoyub qaçmaq fikrindən tamamilə uzaq olmuş, qəhrəmancasına döyüşmüş, təcavüzkar düşməni geri oturtmuş, gələcək nəsil barədə düşünərək mədəni quruculuq işlərini də davam etdirmişlər.

Mən 1990-cı ildə Naxçıvana gəldikdən sonra, avqust ayında bu teatrın rəhbərliyilə görüşəndə daha müfəssəl məlumat aldım, mövcud olan çətin və ağır bir şəraitdə çox böyük bir iş gördükləri üçün onları təbrik etdim, gələcək fəaliyyətlərində uğurlar arzulayaraq qeyd etdim ki, bu gün burada bir daha təkrar edirəm – Naxçıvanda Dövlət Kukla Teatrının açılması böyük mədəni, tarixi hadisə, bu gün isə əlavə edirəm ki, həm də siyasi hadisə olmuşdur”.

Həmin müşavirədən bir gün sonra konsulluq üçün şəhərin mərkəzində xüsusi ərazi ayrılaraq

yeni binanın tikintisinə başlanıldı. Muxtar Respublika Ali Məclisi Sədrinin qonşu dövlətlərlə bağladığı müqavilələr əsasında 1992-ci ildən Naxçıvan Dövlət Musiqili Dram Teatrının 1994-cü ildən isə Naxçıvan Dövlət Kukla Teatrının Türkiyə və İrana qastrol səfərləri təşkil olundu.

1992-ci il oktyabrın 24-də AXC Naxçıvan Şöbəsinin dövlət çevrilişinə cəhd edəcəyini bilən Heydər Əliyev bunun fərqinə varmadan ayın 23-də, axşam Naxçıvan Dövlət Musiqili Dram Teatrına gəldi və Hüseyn Cavidin 110 illik yubiley gecəsində iştirak edərək geniş nitq söylədi. O, dərin məzmunlu çıxışında dahi dramaturqun Naxçıvan Teatrı dövlət statusu aldıqdan sonra – son 70 il ərzində bu qocaman sənət ocağının səhnəsində tamaşaya qoyulmuş əsərlərindən, onları ərsəyə gətirən rejissorlardan, rəssamlardan, həmçinin Cavid personajlarını canlandıran unudulmaz aktyorlardan da söz açmışdır. Ulu öndər daha sonra əlavə etmişdir ki, Hüseyn Cavidin 100 illik yubileyi ərəfəsində bilavasitə onun öz təşəbbüsü ilə Naxçıvan Teatrının ikinci səhnəsi olaraq yaradılmış “Cavid” Poeziya Teatrı da səmərəli fəaliyyət göstərmiş, burada unudulmaz sənətkarın əsərlərilə yanaşı, hətta Cavidin canlı obrazını da səhnəyə gətirən tamaşa hazırlanmışdır.

1993-cü il iyunun 15-də Heydər Əliyevin Azərbaycanın ali rəhbərliyinə tarixi qayıdışı baş verdi. Həmin ilin oktyabrında ölkə Prezidenti seçilən ümummilli lider Vətənini cəmi 10 il içərisində qüdrətli dövlətə çevirib güclü iqtisadiyyata, rəşadətli orduya, çiçəklənən elmə və mədəniyyətə sahib olan bir ölkə kimi bütün dünyada tanıtdı.

Bu illər ərzində respublikanın bütün teatrları da inkişaf etdi, onların maddi-texniki bazası yaxşılaşdırıldı, sənətkarlara qayğı artırıldı, onlarla teatr fədaisinin əməyi layiqincə qiymətləndirildi.

Onun müstəqillik illərində baxdığı tamaşalar “Mirzə Şəfi”, “Fərhad və Şirin”, “Aydın”, “Hökmdar və qızı”, “Özümüzü kəsən qılınc”, “Burla xatun”, “Hamlet”, həmçinin “Sevil” operası, “Arşın malalan” və “O olmasın, bu olsun” operettaları olubdur.

Heydər Əliyev İlyas Əfəndiyevin “Hökmdar və qızı” tamaşasına o vaxt respublikamızda qonaq olan görkəmli alim İhsan Doğramacı ilə birlikdə gəlmişdi. Tamaşadan sonra Heydər Əliyev qonaqla birgə səhnə arxasına gəlib yaradıcı heyəti təbrik etdi. Həmin görüşdə Heydər Əliyev İlyas Əfəndiyev haqqında belə dedi: “İlyas Əfəndiyev Azərbaycan teatrına çox böyük töhfələr veribdir, böyük xidmətlər göstəribdir. Çox dəyərli əsərlər yaradıbdır. İlyas Əfəndiyevin yaradıcılığı başqa cəhətlərlə yanaşı bir də ona görə əhəmiyyətlidir ki, o, öz əsərlərində həm Azərbaycan xalqının tarixinin çox mühüm səhifələrini ədəbiyyat, teatr vasitəsilə bugünkü nəsillərə çatdırıbdır, həm də öz əsərlərində müasir həyatımızın müsbət və mənfi cəhətlərini çox gözəl təsvir edibdir”.

1998-ci il oktyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Dövlət Musiqili Komediya Teatrının açılış mərasimində öz mövqeyini bir daha səsləndirmişdi: “Bəlkə, kimsə deyə bilər ki, biz ağır vəziyyətdə olduğumuz bir zamanda nə üçün teatr binasının tikintisinə bu qədər xərc qoyulubdur. Ancaq yox, biz Azərbaycan xalqının mədəniyyətinin inkişafını heç vaxt dayandıra bilmərik. Bizim xalqımız öz mədəniyyəti, elmi ilə yüksəlibdir. Biz mədəniyyətə nə qədər diqqət yetirsək, qayğı göstərsək, mədəniyyət xadimlərinin yaradıcılığı üçün imkanlar yaratsaq, xalqımızı da o qədər yüksəldəcəyik, xalqımızın mənəviyyatını daha da yüksəklərə qaldıracağıq. Müstəqil Azərbaycan dövlətinin Azərbaycan Prezidenti kimi mənim siyasətimin böyük bir qolu bundan ibarətdir. Əmin ola bilərsiz ki, bu siyasəti mən bundan sonra da davam etdirəcəyəm”.

Heydər Əliyev Akademik Dram Teatrda son dəfə 2002-ci ildə Şekspirin “Hamlet” faciəsinə tamaşa etmişdir. Bu günlərdə dünyasını dəyişmiş görkəmli rejissorumuz, xalq artisti Azərpaşa Nemətovun quruluşunda təqdim olunan “Hamlet” tamaşasına baxdıqdan sonra səhnəyə keçən Prezident yaradıcı heyəti gözəl tamaşa münasibətilə təbrik etmişdir. O, keçmişdə “Hamlet” tamaşasında zəngin dekorasiyaların olduğunu söylədikdən sonra, bugünkü “Hamlet”in dekorasiyasız təsvirini məqbul saymış, ayrı-ayrı rollarda çıxış edən aktyorların işini qiymətləndirmiş, səhnə danışığı və səhnə

mədəniyyəti barədə fikirlərini söyləyərək demişdir: “Dünyada ola bilər yüzə qədər quruluşda “Hamlet” tamaşası olsun. Hər rejissor, hər aktyor onu özünün bildiyi kimi göstərir. Amma bunun əsası Şekspirin yaradıcılığıdır, onun fəlsəfəsidir. Bu, böyük bir fəlsəfədir. Şekspir həmişə ona görə yaşayır ki, onun hər bir əsəri özündə fəlsəfi fikirlər daşıyır. Ona görə də mən çox məmnunam ki, siz bu əsəri səhnəyə qoymuşunuz. Əgər siz gələcəkdə də belə əsərləri unutmasanız, yaxşı olar. Çünki hansısa günə aid olan əsərlər gəldi-gedər əsərlərdir. Mən demirəm ki, siz onlardan imtina edəsiniz. Hər günün tələbini də ödəmək lazımdır. Ancaq teatr – teatrdır. Bilirsiniz, teatr gərək öz yüksək simasını həmişə saxlasın” [3].

Heydər Əliyev 1990-cı illərdə – Naxçıvanda yaşadığı zaman söhbətlərinin birində belə demişdi: “**Sənət inkişaf etməlidir. Bunu unutmaq olmaz. Mən mədəniyyətin, o cümlədən teatrın inkişafı üçün daxili bir məhəbbətlə çalışdığım kimi, həm də güclü məsuliyyət hiss edərdim. Oğlum da teatr azarkeşi idi. Sənətkarlıq, aktyorluq Allah vergisi olduğu kimi, ona obyektiv, prinsipial qiymət verməyi, xeyirxahlıqla yanaşmağı bacarmaq da Allah vergisidir**” [1, s. 158].

Çox fərəhli haldır ki, belə bir Allah vergisi möhtərəm Prezidentimiz İlham Əliyevin şəxsində də özünü göstərməkdədir.

## ƏDƏBİYYAT

1. Kərimov İ.S. Heydər Əliyev. Sənət, sənətkarlar və sənətkarlıq haqqında. Bakı: Ulu, 2005, 228 s.
2. Qasımov Ə.M. “Cavid” Poeziya Teatrı. Bakı: AfpoliqrAF, 2017, 84 s.
3. “Azərbaycan” qəz., 2002, 10 dekabr.
4. “Ədəbiyyat” qəz., 1998, 11 dekabr.
5. “Xalq” qəz., 2007, 19 iyul.
6. “Kommunist” qəz., 1974, 1 iyun.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: elekberqasimov@mail.ru***

**Alakbar Gasimov**

## HEYDAR ALIYEV AND AZERBAIJAN’S THEATERS

The article deals with Heydar Aliyev’s interest and love for theatrical art and its reasons. It also emphasizes the role played by the Nakhchivan theater environment in his formation and expansion of the worldview.

The development and progress of our national theater art during the years of the great leader’s leadership in the Republic during the Soviet period, its promotion on a union scale, increasing the number of state theaters and care for artists are thoroughly studied and analyzed.

The attention shown by the national leader to the theaters and theater figures of Azerbaijan as the president of the country in the first years of independence was also investigated and reflected in the facts. The article also highlights Heydar Aliyev’s personal participation in the premieres of a number of performances in theaters, his meetings and exchange of views with his creative team after each performance.

**Keywords:** *Heydar Aliyev, President, national leader, great leader, theater, performance, director, actor, premiere.*

**Алекпер Гасымов**

## ГЕЙДАР АЛИЕВ И ТЕАТРЫ АЗЕРБАЙДЖАНА

В статье говорится об интересе и любви Гейдара Алиева к театральному искусству и причинах этого. Здесь подчеркивается роль театральной среды Нахчывана в его формировании и расширении мировоззрения.

Всесторонне изучается и анализируется развитие и прогресс нашего национального театрального искусства в годы, когда великий вождь руководил республикой в советское время, продвижение театрального искусства на уровне союза, увеличение числа государственных театров и забота обартистах.

Исследовано и подтверждено фактами внимание, которое общенациональный лидер уделял театрам и театральным деятелям Азербайджана в первые годы независимости на посту президента страны. В статье широко освещается личное участие Гейдара Алиева в премьерах ряда театральных спектаклей, его встречи с творческим коллективом после каждого спектакля, обмен идеями.

**Ключевые слова:** *Гейдар Алиев, президент, общенациональный лидер, великий вождь, театр, спектакль, режиссер, актер, премьера.*

ƏLİ QƏHRƏMANOV

# MİLLİ VƏ MƏNƏVİ VARLIĞIMIZIN BÖYÜK HİMAYƏDARI

*Məqalədə ulu öndər Heydər Əliyevin milli və mənəvi varlığımız və mədəniyyət sahəsindəki siyasətinin əsas prioritetlərindən danışılır. Həmçinin onun yüksək liderlik qabiliyyətinə malik tarixi şəxsiyyət kimi respublikamıza rəhbərlik etdiyi 1969-1982-ci illərdəki və ölkəmiz müstəqillik əldə etdiyi dövrdəki fəaliyyətindən söz açılır. Çoxsaylı faktlar əsasında respublikamızda qazanılan uğurlar vurğulanır. Bunlarla yanaşı, məqalədə ümummilli liderin siyasi kursunu müvəffəqiyyətlə davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mənəvi-mədəni sərvətlərimizin qorunması və beynəlxalq miqyasda təbliği sahəsindəki nailiyyətləri daha parlaq uğurların təməli kimi qiymətləndirilir.*

**Açar sözlər:** *ulu öndər Heydər Əliyev, milli-mənəvi sərvət, incəsənət, mədəniyyət.*

Azərbaycan xalqının milli-mənəvi dəyərləri çox-çox qədim zamanlarla bağlı olduğu üçün, öz mədəniyyəti, incəsənəti, milli-mənəvi dəyərləri ilə dünyada tanınmışdır. XX əsrdə isə xalqımızın mədəni həyatında yeni bir dövr başlanmışdır ki, bu, ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər hakimiyyətdə olduğu bütün dövrdə xalqın mədəniyyətinin inkişafını diqqət mərkəzində saxlamışdır. O, deyirdi: “Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir... Xalqımızın incəsənət, mədəniyyət sahəsində nailiyyətləri Vətənini, millətini sevən hər bir azərbaycanlı üçün iftixar mənbəyidir” [1, s. 158].

Milli öndərimiz Heydər Əliyevin müəyyənləşdirdiyi siyasət milli və mənəvi varlığımızın inkişafı tarixində yeni bir era yaratdı. Milli və mənəvi varlığımızı, mədəniyyətimizi xalqımızın iftixar, qürur mənbəyi kimi dəyərləndirən bu dahi şəxsiyyət qədim və zəngin irsin təməli üzərində milli özünüdərk və milli özünüifadənin mükəmməl sistemini formalaşdırdı.

Ulu öndər Heydər Əliyevin uşaqlıq və gənclik illəri onun həmişə fəxrlə xatırladığı, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan qədim Naxçıvanda keçmişdir. Heydər Əliyev hələ kiçik yaşlarından özünün hazırcavablığı və iti zehni ilə yaşıdlarından seçilmiş, Naxçıvan şəhərində texnikumda təhsil aldığı illərdə müəllimlərinin sevimli tələbələrindən biri olmuşdur. Riyaziyyat müəllimi gənc Heydərin gələcəyin böyük riyaziyyatçısı, Azərbaycan dili müəllimi dilçi alim, təsviri sənət müəllimi böyük rəssam, tarix müəllimi böyük siyasətçi və digər müəllimlər isə bütün sahələrdə böyük mütəxəssis olacağını söyləyirdilər. Özünün iti zehni, xüsusi natiqlik qabiliyyəti və bacarığı ilə yaşıdlarından fərqlənən Heydər Əliyevin peşə seçimində doğulub boya-başa çatdığı əsrarəngiz qədim Naxçıvan təbiətinin, ab-havasının da müstəsna rolu olmuşdur desək yanılmarıq.

Heydər Əliyevin bir lider kimi bütün elmləri mükəmməl bildiyindən siyasi-ictimai fəaliyyətində həmişə yüksək yaradıcılıq əzmi, qurub-yaratmaq eşqi, vətəninə-xalqına bağlılıq mühüm rol oynayırdı. Ulu öndərin istənilən məsələ barədə nitqini dinləyən həmin sahənin mütəxəssisləri belə onun əhatəli biliyinə heyran qaldıqlarını dilə gətirirdilər. Heydər Əliyev bütün həyatı boyu daim ümumxalq mənafeyindən çıxış etmiş, hakimiyyətdə olduğu hər iki mərhələdə eyni əzmlə çalışmışdır. 1993-cü ilin iyunundan etibarən ölkədə ictimai-siyasi sabitliyi təmin edən böyük fenomen özünün zəngin bilik və təcrübəsi əsasında Azərbaycanın yeni dövr üçün iqtisadi inkişaf prioritetlərini müəyyənləşdirmiş, bu sahədə mövcud problemlərin həlli yollarını göstərmişdir. Məhz onun inkişaf strategiyası nəticəsində Azərbaycan dünyanın siyasi xəritəsində öz mövqeyini möhkəmləndirmişdir. “Heydər Əliyevin ölçüyəgəlməz siyasi-ictimai fəaliyyətini, müstəqil Azərbaycan Respublikasının Prezidenti kimi uğurla öhdəsindən gəldiyi dövlət işlərini bir cəhətdən aysberqə bənzətmək olar” [6, s. 8]. Onun yüksək liderlik

qabiliyyətinə malik tarixi şəxsiyyət kimi respublikamıza rəhbərlik etdiyi 1969-1982-ci illəri və müstəqilliyimizin 1993-cü ilin yayından sonrakı dövrünü xatırlamaq kifayətdir.

Ulu öndərin tale yolu olduqca şərəfli, mürəkkəb və çətinliklərlə dolu olmuşdur. Onun sovet dönəmində sadə bir işçidən generala, generaldan ən nüfuzlu dövlət xadimi vəzifəsinə qədər yüksəlməsi, sonralar isə, özünün ifadəsi ilə söyləmiş olsaq, "canı qədər sevdiyi Azərbaycan"ın prezidenti olması ağır məşəqqətlər hesabına başa gəlmişdir. O, SSRİ dövründə sırf milli maraqlar baxımından fəaliyyət göstərdiyinə görə daim təzyiqlərlə üzləşirdi. Heydər Əliyev sovet imperiyası dövründə türk xalqlarının qüdrətli müdafiəçisi kimi çıxış edir və bədxahlarının fitnə-fəsadları ilə tez-tez rastlaşırdı. Ümummilli lider Türk dövlət və toplularının 5-ci dostluq, qardaşlıq və işbirliyi qurultayında demişdir: "Eyni etnik kökə, ortaq tarixi keçmişə və milli mədəni ənənələrə malik türk xalqları tarix səhnəsinə çıxdığı gündən yüz illər boyu bəşəri mədəniyyətlərin şərqdən qərbə, qərbdən şərqə daşıyıcısı kimi dünya tarixində misilsiz rol oynamış, bəşər sivilizasiyasına silinməz, şərəfli səhifələr həkk etmişdir... Əminəm ki, türk dünyasının bugünkü nəsilləri, fikir adamları, dövlət və siyasət xadimləri öz şərəfli tarixi keçmişinə layiqli olduğunu sübut edərək işdə, əməkdə, fikirdə birlik kimi möhtəşəm ümumtale işimizin dirçəlməsi naminə var qüvvə ilə çalışacaqlar" [2, s. 47]. Görkəmli dövlət xadimi Heydər Əliyev türk dövlətlərinin, ümumən türk dünyasının birliyinə heç zaman sadəcə etnik köklərin ümumiliyinə əsaslanan mədəni-etnoqrafik birlik kimi baxmaqla kifayətlənməmiş, bu birliyin siyasi perspektivlərinə xüsusi diqqət yetirmişdir. Heydər Əliyev uzaqgörən, qətiyyətli, eyni zamanda səbirli, hadisəni mahiyyətindən, təsadüfi zərurətdən ayıran görkəmli dövlət xadimi kimi türk dövlətlərinin, ümumən türk dünyasının birliyinə, siyasi perspektivlərinə xüsusi diqqət yetirmişdir.

Ulu öndər Heydər Əliyevin 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə yenidən qayıdışından sonra Azərbaycanda əldə edilmiş milli birlik respublikamızın ən qiymətli mənəvi-ideoloji sərvətlərindəndir. "Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesləri başladı" [3, s. 11]. Heydər Əliyev bütün həyatı boyu daim ümumxalq mənafeyindən çıxış etmiş, hakimiyyətdə olduğu hər iki mərhələdə eyni əzmlə çalışmış, qarşıya qoyduğu hədəflərə yetişmək üçün bütün gücünü və siyasi nüfuzunu səfərbər etmişdir. 1993-cü ilin iyunundan etibarən ölkədə ictimai-siyasi sabitliyi təmin edən böyük fenomen Heydər Əliyev özünün zəngin iqtisadi bilik və təcrübəsi əsasında Azərbaycanın yeni dövr üçün iqtisadi inkişaf prioritetlərini müəyyənləşdirdi, bu sahədə mövcud problemlərin həlli yollarını göstərdi. Məhz onun inkişaf strategiyası nəticəsində Azərbaycan dünyanın siyasi xəritəsində öz mövqeyini möhkəmləndirdi, zaman-zaman qlobal məkanda gedən proseslərin istiqamətverici subyektinə çevrilməyə nail oldu. Gənc müstəqil Azərbaycanın dövlət müstəqilliyini əbədiləşdirmək üçün nümayiş etdirdiyi qətiyyətə görə onun həyatına dəfələrlə sui-qəsdlər təşkil edildi, uca tanrının iradəsi ilə son andaca həmin qəsdlərin qarşısı alındı. Bu qəbildən olan bir neçə xəyanətin üstünün açılması, milli dövlətçiliyimizin bədxahlarının ifşa edilməsi yəqin ki, bütün oxucuların xatirindədir.

Müasir Azərbaycan dövlətinin memarı, türk dünyasının ünlü ictimai-siyasi xadimlərindən biri olan ulu öndər Heydər Əliyev "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" müdrik ifadəsi ilə hər bir soydaşımızın qəlbində əbədi, silinməz iz buraxmışdır. Bu dahi şəxsiyyət haqqında fikir söyləmək və ya yazı hazırlamaq məsuliyyətli olduğu qədər də çətindir. Heydər Əliyevin təkcə müstəqillik illərində incəsənət sahəsi ilə bağlı imzaladığı fərman və sərəncamları toplasaq, incəsənətimizin inkişafı və tərəqqisi tarixinə təsir göstərmiş böyük bir sənədlər toplusu yaranar. Təsdiq etdiyi tarixi sənədlərlə öz imzasını əbədiyyətə qovuşduran ulu öndər Azərbaycanın mədəniyyət siyasətinin əsas prioritetlərini özündə əks etdirən çoxsaylı qərar və qanunların müəllifidir. "Mədəniyyət haqqında qanunun təsdiq edilməsi haqqında" Sərəncam, mədəniyyət aləminin müxtəlif

sahələrinin fəaliyyətini tənzimləyən digər qanunların təsdiq edilməsi, eləcə də hüquqi dövlət quruculuğu prosesində mədəniyyət siyasətinə önəm verilməsi böyük əhəmiyyət kəsb edirdi. Bu sahənin daha təkmil üsullarla inkişafının sürətləndirilməsi məqsədi ilə xüsusi dövlət proqramlarının hazırlanaraq həyata keçirilməsi artıq özünün uğurlu bəhrələrini bu gün də verməkdədir. Azərbaycan mədəniyyətinin beynəlxalq aləmdə tanıdılması və təbliği istiqamətində xüsusi addımlar da məhz onun siyasi hakimiyyətə qayıdışından sonra atıldı. BMT-nin mədəniyyət sahəsində ixtisaslaşmış qurumu olan YUNESKO ilə əməkdaşlıq və bu qurumda Azərbaycanın daimi nümayəndəliyinin fəaliyyəti sadalananları bir daha təsdiq edir. Onun çoxşaxəli fəaliyyətində elə bir sahə tapmaq olmaz ki, Azərbaycan üçün taleyüklü məsələlərin hamısını əhatə etməmiş olsun. Bu ali keyfiyyət ilk növbədə dahi şəxsiyyətin təbiətindən – ona ilahidən verilən fitri istedaddan irəli gəlirdi.

Ulu öndər yaxşı bilirdi ki, milli dövlətçilik dəyərlərinin əsasını sağlam düşüncəli mədəniyyət təşkil edir. Gələcək uğurlara yeganə təminat isə sağlam cəmiyyət quruculuğuna diqqət artırmaq, köklü mənəvi dəyərləri yeni nəslə və bütün cəmiyyətə daha dərindən və əzmlə aşılamaqdır. Heydər Əliyev mədəniyyəti xalqın böyük milli sərvəti hesab edirdi. Elə ona görə də mədəni-mənəvi dəyərlərin qorunması, təbliği və yeni estetik düşüncəyə məxsus əsərlərin yaradılması üçün mümkün olan hər şeyi edirdi.

Mədəniyyətimizin elə bir sahəsi yoxdur ki, Heydər Əliyev qayğısından bəhrələnməsin. Musiqimiz də, teatrımız da, kino sənətimiz də, heykəltəraşlıq və rəssamlığımız da, xalça sənətimiz də bugünkü inkişafında ulu öndərin çox dəyərli ideyalarından bəhrələnib. Heydər Əliyev Azərbaycan mədəniyyətinin inkişafında yeni bir dövrün əsasını qoydu. Mədəniyyətimiz, milli-mənəvi dəyərlərimiz beynəlxalq aləmdə tanındı. Fəxrlə demək lazımdır ki, Azərbaycan mədəniyyətinin görkəmli xadimləri Heydər Əliyev dövründə olduğu qədər heç zaman tanınmamışlar. Heydər Əliyev mədəniyyətimizi yaradan, onu inkişaf etdirən insanların əməyini yüksək qiymətləndirir, onların daim qayğısını çəkirdi. Onların adlarını sadalamaqla qurtaran deyil. Azərbaycanın görkəmli sənətkarları sovet dövründə məhz Heydər Əliyevin qayğısı sayəsində Sosialist Əməyi Qəhrəmanı kimi SSRİ-nin yüksək fəxri adını almışlar. Heydər Əliyev bəstəkarların, kinematoqrafçıların, teatr xadimlərinin, rəssamların qurultay və konfranslarında iştirak edir, dərin məzmunlu nitqi iştirakçıların alqışları ilə qarşılanardı. Onun hər çıxışı mədəniyyətin bir sahəsinin gələcək inkişaf proqramı idi. O, hansı sahədən danışırdısa, elə hiss edirdin ki, bu sahənin mütəxəssisi, bilicisidir. Heydər Əliyev özü də incəsənət meylli şəxsiyyət idi. Elə gəncliyində də incəsənətə gəlmək, memar olmaq istəyirdi. Amma zaman ulu öndəri siyasət memarına çevirdi. Çünki bu xalqın belə bir siyasət xadiminə çox böyük ehtiyacı var idi.

Hələ sovetlər dövründə Heydər Əliyev Azərbaycanda mədəniyyətin maddi-texniki bazasının möhkəmlənməsinə xüsusi diqqət yetirirdi. Nə qədər kinoteatrlar, teatr binaları, muzeylər inşa olundu, mədəniyyətimizin kadr potensialı gücləndirildi. Xalqın mənəvi dəyərlərinə diqqət artırıldı. “Görkəmli dövlət xadimi dövlətçilik fəaliyyəti prosesində millilik amilini, tarixilik anlayışını və müasirlik prinsiplərini ardıcıl olaraq həyata keçirmək yollarındakı mübarizəsində ədəbiyyatda dərin iz salmış, köklü ənənələrə malik olan həmin amillərdən yerli-yerində, əsaslı şəkildə faydalanmaqla özünün ali məqsədlərinə nail olmağa çalışmışdır. Bu yüksək ali qayə isə hələ sovet rejimi çərçivəsində olsa belə Azərbaycanda möhkəm milli əsaslara malik olan, davamlı tarixi ənənələri qoruyub saxlayan və müasir inkişafın önündə gedən dövlət hakimiyyəti formalaşdırmaqdan ibarət olmuşdur. Müşahidələr və təhlillər göstərir ki, sovet hakimiyyəti illərində Heydər Əliyevin bu istiqamətdə apardığı ardıcıl və düşünülmüş siyasəti özünün ilkin bəhrələrini vermişdir” [4, s. 4].

Nizami, Nəsimi, Əcəmi, Tusi, Füzuli, Vaqif, Aşıq Ələsgər, Hüseyn Cavid, Üzeyir Hacıbəyov, Müslim Maqomayev kimi görkəmli elm, ədəbiyyat və incəsənət xadimlərinin yubileyləri, Azərbaycan teatrının 100 illiyi dahi şəxsiyyətin təşəbbüsü ilə təntənəli şəkildə qeyd olundu. Azərbaycan varlığının

ensiklopediyası sayılan "Dədə Qorqud" eposunun 1300 illiyi dünya miqyasında qeyd edildi. Azərbaycan tarixinə və Azərbaycan dilinə aid qiymətli araşdırmalar yüksək dövlət mükafatlarına layiq görüldü. 1977-ci ildə Nizami irsinin yenidən öyrənilməsi haqqında qərar qəbul olundu, bu sahədə səmərəli işlər görüldü. Cənubi Azərbaycanla bağlı mövzuların ədəbiyyatda inikası üçün geniş imkanlar açıldı. 1979-cu ildə Azərbaycan yazıçılar İttifaqının Cənubi Azərbaycan üzrə katibi vəzifəsi təsis edildi. Vaxtilə "pantürkist" kimi damğalanmış Hüseyn Cavidin cənazəsinin qalıqları 1982-ci ildə İrkutsk vilayətindən gətirilərək Naxçıvanda dəfn edildi. SSRİ-nin ən nüfuzlu incəsənət yönlü ali məktəblərində Azərbaycan gəncləri təhsil alıb Bakıya dönürdülər. Sankt-Peterburqun, Moskvanın teatr, rəssamlıq, musiqi üzrə ali təhsil ocaqlarını bitirmiş gənclər bu gün Azərbaycan mədəniyyətinin aparıcı sənətkarlarıdır. Heydər Əliyev bu kadrların hazırlanmasında ona görə maraqlı idi ki, gələcək müstəqil Azərbaycanımız üçün onlar fayda verəcəkdilər və verdilər də.

Azərbaycan müstəqillik qazandıqdan sonra bir müddət məlum səbəblərdən mədəniyyətimiz böyük çətinliklər qarşısında qalsa da, Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışı sanki Azərbaycan mədəniyyətinin də tərəqqisinə yeni təkan verdi. Sosial problemlər ucbatından xarici ölkələrə üz tutan sənət adamları Vətənə döndülər, onlara xüsusi qayğı göstərilməyə başlandı. Bağlanmış teatrlar, kitabxanalar, muzeylər öz qapılarını yenidən tamaşaçıların üzünə açdı. Azərbaycanda yüzlərlə mədəniyyət müəssisələri təmir olundu və xalqın ixtiyarına verildi. Musiqi sənətimizin inkişafına xüsusi qayğı ilə yanaşan ulu öndərin Sərəncamı ilə incəsənət işçilərinə Prezident təqaüdü verildi. Onların bir çoxu "Şöhrət" ordeninə layiq görüldü, "İstiqlal" ordeni ilə təltif olundu.

Teatrlarımız öz fəaliyyətini genişləndirdi. Heydər Əliyev teatrı çox sevirdi. O, həmişə baxdığı tamaşadan sonra yaradıcı kollektivlə görüşür, onlara öz tövsiyə və tapşırıqlarını verirdi. Bu görüşlər sənət adamlarının məsuliyyətini artırır, onları öz qüvvələrini səfərbər etməyə istiqamətləndirirdi.

Azərbaycan kinosunun böyük bir inkişaf dövrü Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyevin hakimiyyətə gəlişi ilə dondurulmuş kino istehsalı bərpa edildi. Kino xadimləri yenidən fəaliyyətə başladılar. Ümummilli liderin təşəbbüsü ilə yeni filmlər – "İstintaq", "Bir cənub şəhərində", "Nəsimi", "Babək" filmləri istehsal edildi. Azərbaycanda beynəlxalq səviyyəli kinofestivallar keçirildi, filmlərimiz beynəlxalq festivallarda nümayiş etdirilməyə başladı. Ən əhəmiyyətli fakt bu idi ki, Heydər Əliyevin Sərəncamı ilə Azərbaycanda ilk film nümayiş etdirildiyi 2 avqust (1898) tarixi kino işçilərinin peşə bayramı kimi qeyd olunmağa başladı.

Ulu öndərin hakimiyyəti illərində muzey və kitabxana işi, rəssamlıq, heykəltəraşlıq və memarlıq sənəti sürətlə inkişaf etdi. Bakıda və eləcə də bölgələrdə ucaldılmış çox dəyərli heykəllər, inşa edilmiş müasir və klassik ənənələri birləşdirən əzəmətli binalar xalqımızın milli sərvətinə çevrildi. Paytaxtımız Bakı gözəlləşdi və yeni görünüş aldı. Qürur hissi ilə demək lazımdır ki, regionlarımızda da mədəniyyətin inkişafı geniş vüsət aldı.

Azərbaycan mədəniyyətinin təbliğini həmişə diqqət mərkəzində saxlayan ulu öndərin hakimiyyəti illərində çox səmərəli tədbirlər reallaşdırılıb. Ümummilli lider Azərbaycanın sivil dünya ilə inteqrasiyasına, xalqların iqtisadi-siyasi, humanitar yaxınlaşmasına dövlətçiliyi möhkəmləndirən, xalqı inkişaf etdirən ən vacib vasitələrdən biri kimi baxırdı. Və bu zaman dünya ilə dil tapmağın ən sınanmış və optimal yollarından biri olaraq, mədəni dəyərlərin qarşılıqlı dərkini və təbliğini əsas götürürdü. Bu mənada xarici ölkələrdə keçirilən Azərbaycan mədəniyyət və incəsənət günləri, eyni zamanda Azərbaycanda keçirilən belə tədbirlər mədəniyyətlərarası dialoqun inkişafına çox gözəl yol açırdı.

Heydər Əliyevin incəsənətimizin inkişafı və tərəqqisi naminə atdığı səmərəli addımlar onun apardığı uğurlu siyasətin tərkib hissələrindən olan mədəniyyət siyasəti bu gün Azərbaycan mədəniyyətinə və incəsənətinə özünün intibah mərhələsini yaşatmaqdadır. Biz sadəcə ulu öndərin sayı yüzlərlə hesablanan mədəniyyət obyektlərinin – teatr, konsert, qalereya, sərgi salonlarının, mədəniyyət evləri-

nin, kinoklub və bu kimi digər ocaqların tikintisinə, yenidən qurulmasına və əsaslı təmirinə ayırdığı diqqəti nəzərdə tutmuruq. Eyni zamanda onun ölkəmizdəki yaradıcılıq ittifaqlarının maddi-texniki bazalarının yaxşılaşdırılmasına, sənət adamlarının – şair, yazıçı, bəstəkar, rəssam, rejissor və aktyorların Prezident təqaüdlərinə, yüksək orden və medallara layiq görülməsinə, onların yubileylərinin keçirilməsinə, incəsənət xadimlərinin xatirələrinin əbədiləşdirilməsinə dair imzaladığı Sərəncamları yada salmaq kifayətdir. Ulu öndərin bu sahədəki fəaliyyəti bütövlüklə qələmə alınsa, o zaman yüzlərlə şərəfli və yaddaqalan səhifələr yaranar. Təkcə ulu öndərin siyasətinin bəzi nüanslarını vurğulamaqla fikrimizi təsdiq edə bilərik.

Sovet hakimiyyəti illərində Azərbaycanın tanınmış sənət adamlarına göstərdiyi diqqət və qayğı, yaradıcı şəxslərlə yaxın dostluq əlaqələri Heydər Əliyevə böyük sənət adamları arasında dərin hörmət və nüfuz qazandırmışdı. Azərbaycanın tanınmış ziyalıları ilə şəxsən görüşərək onların yaradıcılıqları ilə yaxından maraqlanan, ünsiyyət yaradan ümummilli lider bu addımıyla milli mədəniyyətimizin daha da inkişaf etməsi üçün stimul yaradırdı. Onun sənət adamlarına göstərdiyi diqqət və qayğı dünya siyasətində nadir dövlət başçılarının nümayiş etdirdiyi keyfiyyət idi. Bəlkə də yaradıcı adamlara bu qədər isti münasibətin göstərilməsi Heydər Əliyevin bütün sənət sahələrinin özünəməxsus incəliklərindən praktiki xəbərdar olmasından irəli gəlirdi.

Bu böyük siyasət memarının hakimiyyətə yeni qayıdışı xalqımız üçün çox ağır bir dövrə təsadüf etdi. Lakin bu polad iradəli dahi şəxsiyyət böyük sərkərdə dühası ilə gənc müstəqil Azərbaycanı xaos və anarxiyadan, vətəndaş müharibəsi təhlükəsindən ustalıqla çıxararaq tərəqqiyə, yüksəlişə, davamlı sabitliyə, hüquqi-demokratik dövlətə doğru apara bildi və həyatının son məqamında belə yaratdığı Müstəqil Azərbaycan Respublikasını öz sədaqətli və dəyanətli silahdaşına etibar etməklə yeni möhtəşəm bir xidmətə imza atdı.

Heydər Əliyevin mədəniyyət siyasəti bu gün hörmətli Prezidentimiz Cənab İlham Əliyev tərəfindən çox ləyaqətlə davam etdirilir. 2003-cü ildən sonra Azərbaycanda Heydər Əliyevin mədəniyyətimizin inkişafı ilə bağlı ideyaları davamlı olaraq həyata keçirilir. Azərbaycan mədəniyyətinin müxtəlif sahələri o cümlədən – teatr, kino, kitabxana və muzey işinin inkişafı ilə bağlı qəbul olunan dövlət proqramları ölkəmizdə mədəniyyətin tərəqqisinə yeni stimul yaratmışdır.

Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin 2007-ci il 19 fevral tarixli "Azərbaycan teatr sənətinin inkişaf etdirilməsi haqqında" Sərəncamı teatrlarımıza göstərilən diqqət və qayğının bariz nümunəsidir. Ölkə Prezidentinin teatr sənətinin inkişafı ilə bağlı 2009-cu il 18 may tarixli Sərəncamı əsasında "Azərbaycan teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramı hazırlandı. Bu proqramda Azərbaycan xalqının ictimai-siyasi həyatında, milli mədəniyyətimizin inkişafında əhəmiyyətli rol oynayan Azərbaycan teatrının maddi-texniki bazasının möhkəmləndirilməsi və yaradıcılıq imkanlarının inkişaf etdirilməsi, habelə teatr sisteminin daha da yaxşılaşdırılması məqsədilə tədbirlərin hazırlanıb həyata keçirilməsi nəzərdə tutulmuşdur. Proqram Azərbaycan teatrının zəngin yaradıcılıq ənənələrinin qorunmasını, milli-mədəni dəyərlərin təbliği və dünya mədəniyyətinə inteqrasiyasını təmin etmək, milli teatr sənətinin davamlı inkişafını dəstəkləmək məqsədi daşıyır və Azərbaycan teatr sənətinin yaxın 10 il ərzində inkişaf perspektivlərini müəyyənləşdirir, həmçinin milli mədəniyyətimizin ayrılmaz tərkib hissəsi olan Azərbaycan teatrlarının repertuarının günün tələblərinə uyğun formalaşması məqsədinə xidmət edir. Bu gün mədəniyyət obyektləri təmir olunur, yeniləri inşa edilir. Bakıda təmir olunmamış teatr binası qalmamışdır. Bakının 2009-cu ildə İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi də Azərbaycan mədəniyyətinin dünyaya inteqrasiyası istiqamətində çox önəmli bir hadisə idi.

Dövlət Proqramı çərçivəsində Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən teatrlarda da xeyli sayda layihələr gerçəkləşdirildi, əhəmiyyətli işlər görüldü. Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının binası əsaslı surətdə yenidən qurularaq ictimaiyyətin istifadəsinə verildi.

Məmnuniyyətlə qeyd edək ki, mədəniyyət tariximizin parlaq səhifələrini yazan Naxçıvan teatrı ümummilli lider Heydər Əliyevin 1991-ci il sentyabrın 3-də Muxtar Respublikanın Ali Məclisinə Sədr seçilməsi ilə Naxçıvanda bir çox sahələr kimi mədəni mühitdə də bir canlanma yarandı. Bağlanma, ləğvedilmə, binası isə özəlləşmə təhlükəsi ilə üzləşmiş Naxçıvan Dövlət Musiqili Dram Teatrına da diqqət və qayğı yönəldi. Bu qədim sənət ocağına xüsusi rəğbət bəsləyən ulu öndər Naxçıvan teatrını da düşdüyü burulğandan xilas edib onun dirçəlməsi və inkişafı qayğısına qalaraq hər cür şəraitin təmin olunmasına çalışırdı. Məhz bunun nəticəsində 1992-1993-cü illərdə teatr bir sıra maraqlı tamaşalar hazırlayaraq sənətsevərlərə təqdim etdi və qonşu Türkiyə Respublikasının şəhərlərində qastrolda oldu.

Ulu öndərin yenidən Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra Naxçıvan teatrı öz inkişafının yeni mərhələsinə qədəm qoydu. Teatrda yenidən milli ruh, milli düşüncə hökm sürməyə başladı. Bu qədim sənət məbədində tariximiz, milli qan yaddaşımız və soy-kökümüzlə bağlı tamaşalara üstünlük verildiyinin şahidi olduq [5, s. 525]. H.Cavidin "Topal Teymur", "İblis", "Səyavuş", C.Məmmədquluzadənin "Dəli yığıncağı", N.Nərimanovun "Nadir şah", İ.Əfəndiyevin "Hökmdar və qızı", N.Xəzrinin "Atillanın atlıları", Elçinin "Mənim ərim dəlidir", N.Həsənzadənin "Atabəylər", Kəmalənin "Məhsəti", H.Arzulunun "Əlincə qalası", H.Eyvazlının "Araz sahilində doğan günəş", A.Babayevin "Koroğlunun Çənlibelə qayıdışı" kimi əsərləri qədim sənət ocağında uğurla tamaşaya qoyuldu.

Həyatımızın bütün sahələrində olduğu kimi, mədəniyyət və incəsənət sahələrini yenidən öyrənmək, obyektiv tədqiq etmək sahəsində də geniş imkan və şərait yaradıldı. Qürurla öyünə bilərik ki, Heydər Əliyev siyasətinin nəticəsidir ki, bu gün muxtar respublikanın tarixinin, mədəniyyətinin, ədəbiyyat və incəsənətinin öyrənilməsi elmi əsaslara söykənir. Bütün bu müsbət keyfiyyətlər ölkəmizdə bərqərar olan sağlam iqlimin, sosial ictimai sabitliyin nəticəsi kimi qiymətləndirilir. Bu uğurlar müstəqil Azərbaycan dövlətinin yaradıcısı, xalqımızın ümummilli lideri, əvəzolunmaz dahi şəxsiyyət Heydər Əliyevin apardığı prinsipial fəaliyyətin, onun siyasi kursunun ən layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin əməli işlərinin nəticəsidir.

"Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının 125 illik yubileyi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 31 yanvar tarixli Sərəncamı ilə Naxçıvan teatrının 125 illik yubileyi 2008-ci ilin sentyabr ayının 27-də təntənə ilə keçirildi. Yubiley ərəfəsində ölkə Prezidentinin imzaladığı tarixi əhəmiyyətli sərəncamlarla teatr əməkdaşlarının Prezident təqaüdü və mükafatına, fəxri adlara və medallara layiq görülməsi teatra dövlət qayğısının növbəti bariz nümunəsi oldu.

Naxçıvanın teatr-sənət ictimaiyyəti 2022-ci ilin aprelində fərəh və qürur doğuran bir xəbər aldı. Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrına milli mədəniyyətin təbliği sahəsində müstəsna xidmətlərinə, uzun illər səmərəli fəaliyyətinə, ölkə daxilində və xaricdə əldə etdiyi nailiyyətlərə görə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 26 aprel tarixli qərarı ilə "milli" statusu verildi. Bu qərar qocaman sənət ocağının uzunillik fəaliyyətinə (140 illik yubileyi ərəfəsində) göstərilən yüksək diqqətin, özünəməxsus ənənələri ilə Azərbaycan səhnə sənəti tarixində oynadığı rola verilən dəyərin təzahürüdür. Teatr 2022-ci ildə Türkiyə Respublikasının Ərzurum şəhərində Karel Çapekin "Ana" tamaşasını təqdim edir. Eləcə də yaz və payız mövsümlərində muxtar respublikanın bütün rayonlarına qastrollar təşkil olunur. Həmin qastrol səfərlərində Karel Çapekin "Ana", Elçinin "Teleskop", Nikolay Qoqolun "Müfəttiş", Hüseyn Cavidin "Topal Teymur", İlyas Əfəndiyevin "Xurşidbanu Natəvan" əsərləri uğurlu səhnə həlli ilə tamaşaçılara yüksək ovqat bəxş edir. Naxçıvan teatrı 140-cı teatr mövsümünü İlyas Əfəndiyevin "Xurşidbanu Natəvan" tamaşası ilə açdı.

Müstəqillik tariximizdə Heydər Əliyevin siyasi kursunun uğurlu davamçısı Cənab Prezident İlham Əliyev Azərbaycanı bölgənin liderinə, dünyada söz sahibinə çevirdi, milli maraqların dövlət

siyasəti səviyyəsində daha geniş şəkildə həyata keçirilməsini davam etdirdi. Bu maraqlar həm ölkə daxilində siyasi, iqtisadi, həm də Azərbaycan üçün xüsusi önəm daşıyan xarici siyasət sahəsində düşünülmüş və olduqca dəqiq hazırlanmış konsepsiyalar əsasında təmin edildi. Mənfur qonşularımızın işğal etdiyi ərazilərimizi 44 günlük müharibədə azad etdi. Zaman göstərdi ki, ulu öndər Heydər Əliyevin göstərdiyi bu yol xalqımızın taleyində misilsiz rol oynadı. Onun siyasi məktəbinin layiqli davamçısı Cənab İlham Əliyevin hazırladığı çox çevik strateji planlar xalqla sarsılmaz birliyi sayəsində uğurla davam etdirilir, bütün sahələrində inanılmaz dərəcədə mühüm nailiyyətlər əldə olunur və respublikamız qısa bir dövrdə inkişaf etmiş ölkələr səviyyəsinə yüksəlmişdir.

Heydər Əliyevin mədəniyyət siyasətinin reallaşması işində bu gün ulu öndərin adını şərəflə daşıyan Fondun böyük xidmətləri vardır. Milli-mənəvi dəyərlərimizə qayğı, onların qorunması və təbliğində Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Respublikasının Birinci Vitse-Prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın xidmətləri əvəzsizdir. Onun muğam sənətimizin inkişafına, Azərbaycan mədəniyyətinin dünyada tanınmasına, milli-mənəvi dəyərlərimizin təbliğinə həsr etdiyi davamlı tədbirlər olduqca mühüm və əhəmiyyətlidir. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə YUNESKO-nun dünya irs siyahısına Qobustan qaya rəsmləri, Azərbaycan muğamları, Azərbaycan aşıq sənəti, Azərbaycan xalçaları, "Kitabi-Dədə Qorqud" dastanı, Azərbaycan klassikləri və ölkəmizin digər maddi və mənəvi sərvətləri də daxil edilmişdir. Bu faktlar Mehriban Əliyevanın xalqımız qarşısında milli-mənəvi irsimizin dünya irs siyahısına salınmasında mühüm xidmətlərindəndir. Bunlar görülən işlərin hamısı deyil, bu istiqamətdə ardıcıl siyasət davam etdirilir.

Mədəniyyət hər bir xalqın mənəvi dünyasının, milli mövcudluğunun əsas atributlarından biridir. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra hər sahədə olduğu kimi, mədəniyyət sahəsində də böyük işlər görülmüşdür. Hazırda müstəqillik və demokratiya yolunda inamla irəlilədiyimiz bir vaxtda cəmiyyət həyatında insanların potensial qüvvələrinin, fərdi qabiliyyətinin işə salınması həyati tələbata çevrilmişdir. Mədəni həyatın demokratikləşdirilməsi, gənclərin, yeniyetmələrin, əmək qabiliyyətli insanların bu prosesdə yaxından iştirakı, əhalinin mədəni həyat səviyyəsinin daha da gücləndirilməsi yolunda böyük addımlar atılmışdır.

Mədəni irsimizin qorunub saxlanması, inkişaf və tərəqqisində, onun geniş təbliğində, dünya miqyasında şöhrət tapmasında, müstəqil Azərbaycan dövlətinin memarı, ulu öndərin diqqət və qayğısının nəticəsində mümkün olmuşdur. Bu baxımdan qədim, zəngin maddi və mənəvi mədəniyyətə malik xalqımız məhz Ümummilli liderimiz Heydər Əliyevin mədəniyyət siyasəti nəticəsində öz varlığı, mənəvi irsi, tarixi keçmişi ilə fəxr edə bilər. Bu gün müstəqil Azərbaycan onun memarı və qurucusu Heydər Əliyevin anadan olmasının 100 illiyini bayram etməklə, onu unutmur, ideyalarına daim böyük sədaqət nümayiş etdirir, abidəsi xalqımız tərəfindən daim ziyarət edilir, önünə tər çiçək dəstələri qoyulur.

Müstəqil Azərbaycan dövlətinin memarının uğurlu siyasəti sübut edir ki, qədim Şərq mədəniyyətinin əsas varislərindən biri olan məmləkətimiz və əbədi Azərbaycan Respublikamız özünün qədim və zəngin mədəniyyəti ilə hər zaman dünya ölkələri arasında layiqli yerini saxlayacaqdır. Bu işdə xüsusi xidmətləri olan ulu öndər Heydər Əliyevin işıqlı xatirəsi və uca əməlləri isə Müstəqil Azərbaycan Respublikası tarixində və onun xalqının yaddaşında əbədi yaşayacaqdır.

**ƏDƏBİYYAT**

1. Əliyev H. Müstəqilliyimiz əbədidir. III c., Bakı: Azərnəşr, 2000, 488 s.
2. Əliyev H. Müstəqilliyimiz əbədidir. IX c., Bakı: Azərnəşr, 2000, 466 s.

3. Hacıyev İ. Heydər Əliyevin həyat və fəaliyyətinin Naxçıvan dövrləri // Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası, Naxçıvan: Tusi, 2006, № 4, s. 5-13.
4. Həbibbəyli İ. Heydər Əliyevin dövlətçilik təlimində ədəbiyyat siyasəti və müasir dövr // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri. Humanitar elmlər seriyası, Naxçıvan: Qeyrət, 2013, № 1, s. 3-9.
5. Naxçıvan teatrının salnaməsi. Naxçıvan: Əcəmi, 2008, 739 s.
6. Nəbiyev B. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı / Heydər Əliyev (Prezident haqqında etüdlər). Bakı: Elm, 1998, 178 s.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: a.qehreman@yahoo.com***

**Ali Gahramanov**

## THE GREAT PATRON OF OUR NATIONAL AND SPIRITUAL BEING

The article talks about the main priorities of the great leader Heydar Aliyev's policy in the field of our national and spiritual existence and culture. It is also mentioned about his activities in 1969-1982 and during the period when our country gained independence, when he led our republic as a historical figure with high leadership ability. The successes achieved in our republic are confirmed by numerous facts. In addition to these, the article evaluates the achievements of the President of the Republic of Azerbaijan Ilham Aliyev, who successfully continued the political course of the national leader, in the field of protection of our spiritual and cultural resources and promotion on the international scale, as the foundation of brighter successes.

**Keywords:** *great leader Heydar Aliyev, national-spiritual wealth, art, culture.*

**Али Гахраманов**

## ВЕЛИКИЙ ПОКРОВИТЕЛЬ НАШЕГО НАЦИОНАЛЬНОГО И ДУХОВНОГО БЫТИЯ

В статье говорится об основных приоритетах политики великого лидера Гейдара Алиева в области нашего национально-духовного бытия и культуры. Упоминается также о его деятельности в 1969-1982 годах и в период обретения нашей страной независимости, когда он руководил нашей республикой как историческая личность с высокими лидерскими способностями. Успехи, достигнутые в нашей республике, подтверждены многочисленными фактами. Помимо этого, в статье оцениваются достижения Президента Азербайджанской Республики Ильхама Алиева, успешно продолжившего политический курс общенационального лидера, в области защиты наших духовных и культурных богатств и продвижения в международном масштабе, как фундамент более ярких успехов.

**Ключевые слова:** *великий лидер Гейдар Алиев, национально-духовное богатство, искусство, культура.*

NURAY ƏLİYEVA

# HEYDƏR ƏLİYEV VƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZ

*Məqalədə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin fəaliyyəti milli-mənəvi dəyərlər kontekstində araşdırılmışdır. Göstərilir ki, milli-mənəvi dəyərlər xalqın milli kimliyidir. Onların unudulması xalqın öz soy-kökündən uzaqlaşmasına və məhvinə gətirib çıxara bilər. Bu baxımdan Heydər Əliyev daim milli-mənəvi dəyərlərimizə qayğı ilə yanaşmış, onların yaşadılması, təbliği, inkişafı uğrunda yorulmadan çalışmışdır. Məhz Heydər Əliyev siyasətinin təntənəsidir ki, Azərbaycan xalqı dünya xalqları içərisində öz layiqli yerini tuta bilmiş, milli dəyərlərimizin əhatəsində vətənpərvər gənc nəsil yetişmişdir. Məqalədə qeyd olunur ki, Heydər Əliyevin yürütdüyü məqsədyönlü siyasət dilimiz, bayrağımız, dinimiz, tolerantlıq, zəngin və qədim irsimiz, milli musiqimiz, ədəbiyyatımızın inkişafına öz töhfəsini verdi və onun sayəsində Azərbaycan xalqı öz milli dəyərlərini qoruyaraq gələcək nəsillərə ötürməkdədir.*

**Açar sözlər**: *Heydər Əliyev, milli-mənəvi dəyərlər, dilimiz, dinimiz, bayrağımız, milli musiqimiz, ədəbiyyatımız.*

Müasir dünyamızda gedən proseslər, dövlətlərin və xalqların bir-birinə yaxınlaşması, qloballaşma bütün cəmiyyətlərdə olduğu kimi Azərbaycan cəmiyyətindədə bəzi mənfi nəticələr doğurur. Qərbə inteqrasiya müəyyən mənada müasirləşməyə, inkişafa xidmət etsə də, xalqların milli-mənəvi dəyərlərini təhlükə altına salır. Bu dəyərlər, adət-ənənələr hər bir xalqın milli kimliyidir. Onlar yaşadıqca biz var ola bilərik. Əks halda başqa xalqların içərisində ərimək, məhv olmaq təhlükəsi ilə üz-üzə qalmaq qaçılmazdır. Ona görə də milli-mənəvi dəyərləri unutmaq, onların assimilyasiyaya məruz buraxılması yolverilməzdir.

Milli-mənəvi dəyərlərin qorunması təkcə insanların yox, həm də dövlətlərin qarşısında duran vacib məsələdir. Bu baxımdan Azərbaycan dövləti də öz milli-mənəvi dəyərlərini uca tutan, onları himayə edən bir siyasət yeridir. Bu siyasətin əsası müstəqil Azərbaycan dövlətinin memarı, ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur və bu gün də onun fəaliyyətinin davamı olaraq təməlini qoyduğu işlərin uğurla həyata keçirildiyini ölkə Prezidenti İlham Əliyevin fikirlərindən aydın görürük: "Milli-mənəvi dəyərlər dövlətimizin əsasını təşkil edir və mən dəfələrlə demişəm ki, müasir müstəqil Azərbaycan dövləti milli dəyərlər üzərində qurulub. Əminəm ki, biz bu dəyərləri qoruyub saxladıqca, dövlətimiz daha da qüdrətli olacaq, xalqımız da əbədi azad, müstəqil xalq kimi yaşayacaq".

Milli-mənəvi dəyərlərimizin mühafizəsində dahi rəhbər Heydər Əliyevin müstəsna rolu olmuşdur. Görkəmli siyasətçi, dünya miqyasında tanınan və qəbul olunan bir dövlət xadimi kimi o, yaşayıb fəaliyyət göstərdiyi qarışıq tarixi dövr ərzində, həm hakimiyyətinin ilk mərhələsində, həm də ikinci mərhələsində milli-mənəvi dəyərlərimizin əsl himayədarı, qoruyucusu kimi çıxış edirdi. Halbuki sovet dövründə bu məsələlər hakimiyyətin ideologiyasına o qədər də uyğun gəlmirdi və xalqların milli özünüdərkinə xidmət edən bu dəyərlər unudulmağa çalışılırdı. Çünki onların təbliği həm də gənclərin vətənpərvərlik ruhunda yetişməsinə xidmət edirdi. Bu isə sovet dövlətinin maraqlarına cavab vermirdi. Ona görə də ulu öndərimiz Heydər Əliyev bu məsələləri xüsusilə diqqət mərkəzində saxlayır, qarşısına çıxan bütün maneələrə baxmayaraq daim onların təbliği, öyrənilməsi üçün çalışırdı. Sovet dövlətinin milli təhlükəsizlik məsələsi kimi qəbul edərək xalqlara qadağan etdiyi bir çox milli-mənəvi dəyərlərimiz – bayramlarımız, dini məsələlər, millətçilikdə günahlandırılan ziyalılarımız, qədim tarixi olan yazılı və şifahi irsimiz, adət-ənənələrimiz, milli mədəniyyətimiz Heydər Əliyevin səyləri sayəsində qorunaraq günümüzə qədər daşınmışdır.

Milli-mənəvi dəyərlərimizin əsas tərkib hissələrindən biri, şübhəsiz, dilimizdir. Çünki dil hər bir xalqın varlığının göstəricisidir. Dil insanlar arasında ən mühüm və qədim ünsiyyət vasitəsidir. İnsan

cəmiyyəti yaranandan bir-biri ilə ünsiyyətə ehtiyac duyur və bunu müxtəlif şəkillərdə, müxtəlif yollarla həyata keçirir. Bu ehtiyacın nəticəsi olaraq da tədricən dil meydana çıxır. Azərbaycan dili çox zəngin və geniş ifadə imkanlarına malik dildir. Bu geniş imkanları bilmək və onlardan yerli-yerində istifadə etmək hər birimizin ən vacib vəzifəsidir. Heydər Əliyev insanlara çox güclü təsir gücünə malik, onları öz arxasınca aparmağı bacaran, onlara düzgün yön verən bir dahidir. O, buna bütün fenomenal xüsusiyyətləri ilə yanaşı, təbii ki, ilk növbədə nitqi vasitəsilə nail olmuşdur. Dilimizi çox yaxşı bilən, ondan düzgün, öz məqsədinə uyğun istifadə etməyi bacaran, öz nitqini düşdüyü mühitə asanlıqla uyğunlaşdıran, auditoriyanın nəbzini tuta bilən bu böyük şəxsiyyət dilin təsir gücündən uğurla yararlanır və istənilən məqamda, istənilən təbəqəyə xitab etməyi bacarırdı. Dildən bu cür məharətlə istifadə edə bilmək qabiliyyətinin nəticəsidir ki, ulu öndərimiz uzun əsrlər yad dillərin təsiri, təzyiqi altında əzilən dilimizi yüksək kürsülərin dilinə çevirə bildi, dünyanın ən ali platformalarında uğurla istifadə edərək onu ucaltdı, inkişaf etdirdi, həmçinin də insanlara sevdirdi. Heydər Əliyevin yüksək natiqlik istedadı bir dövlət başçısı üçün ən vacib xüsusiyyətdir. Ona malik olmaq rəhbərin siyasi sanbalını, xarizmasını, beynəlxalq aləmdə təsir gücünü artırır. Çünki nitq şəxsiyyətin həm də müəyyən sahələrlə bağlı bilik və bacarıqlarını ortaya qoyur, onun düşüncə tərzi, zəkası, hadisələrə münasibəti haqqında dinləyicidə müəyyən rəy formalaşdırır. Dilin ən yaxşı istifadəçisi olmaqla yanaşı Heydər Əliyev dil məsələsini öz dövlət siyasətinin mühüm bir hissəsinə çevirmişdi və dilimizin qorunması, inkişafı uğrunda yorulmadan fəaliyyət göstərmişdir. Onun hələ sovet dövründən başlayaraq bu sahədə apardığı məqsədyönlü siyasət, dil haqqında imzaladığı müxtəlif sənədlər dilimizin inkişafına öz töhfəsini verdi. “Bununla da Heydər Əliyev istənilən şəraitdə hər bir rəhbərin öz imkanlarını ilk növbədə xalqın rifahının yüksəlməsi və milli-mənəvi dəyərlərinin qorunması naminə səfərbər etmək bacarığını milli mənliyin formalaşmasına təsir göstərən ciddi amil kimi dəyərləndirmişdir” [6].

Öz ana dilini ürəkdən sevən, geniş kütlələrə də sevdirməyi bacaran, daim öz dilinin azadlığı uğrunda yorulmadan fəaliyyət göstərən ümummilli lider deyirdi: “Hər bir millətin dili onun üçün çox əzizdir. Bizim üçün Azərbaycan dili, ana dilimiz həddindən artıq əzizdir. Çünki çox illər ana dilimiz, Azərbaycan dili həyatımızda geniş yer ala bilməmişdir. Amma buna baxmayaraq hər bir azərbaycanlı dilin qorunub saxlanılmasında az da olsa, çox da olsa, xidmətlərini göstərmişdir. Xüsusən bizim yazıçılarımız, ədəbiyyatşünaslarımız, şairlərimiz o ağır dövrdə Azərbaycan dilinin yaşamasında böyük xidmətlər göstərmişlər”. Tarixin ağır sınaqlarından çıxan dilimizin yaşayaraq günümüzə çatmasını yüksək qiymətləndirən Heydər Əliyev onun inkişafını, gələcək nəsillərə ərməğan edilməsini bir dövlət başçısı kimi özünün ən vacib vəzifəsi hesab edirdi və bütün fəaliyyətini buna yönəltmişdi.

Ölkəmiz müstəqillik qazandıqdan sonra da bu sahədəki uğurlu siyasət davam etdirildi, bir-birinin ardınca imzalanan fərman və sərəncamlar, həmçinin “Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında” 9 avqust 2001-ci il tarixli fərman dilimizin dünya dilləri içərisində öz mövqeyini möhkəmlətməsinə, onun istifadə dairəsinin genişlənməsinə və inkişafına təkan verdi.

Milli-mənəvi dəyərlərimizin ən böyük himayədarı olan Heydər Əliyev hər bir xalqın ən əsas dəyəri olan bayrağımıza da çox böyük məhəbbət və hörmətlə yanaşmışdır. 1990-cı il noyabrın 17-də Naxçıvanda öz fəaliyyətini davam etdirən ulu öndər 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin dövlət bayrağı kimi qəbul olunmuş üçrəngli bayrağımızı Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi təsdiq etdirdi. Daha sonra 1991-ci ildə isə bu bayraq Azərbaycan Respublikasının Dövlət bayrağı elan edildi. Öz xalqına, dövlətinə olduğu kimi öz bayrağına da qəlbən bağlı olan Heydər Əliyev həmişə onu diqqət mərkəzində saxlayır, bayrağımızın, o cümlədən digər dövlət atributlarımızın təbliği üçün daim iş aparmağın zərurətini vurğulayaraq deyirdi: “Azərbaycanın bayrağı sadəcə bayraq deyil. O bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir. Gərək hər bir evdə Azərbaycan dövlətinin bayrağı olsun, hər bir ailə Azərbaycan bayrağına itaət etsin. Bu bayraq gərək hər bir ailənin həyatının

əziz bir hissəsi olsun”. Heydər Əliyevin milli-mənəvi dəyərlərimizə nə qədər bağlı olduğu həm də müstəqilliyimizin, bütövlüyümüzün rəmzi olan bayrağımıza münasibətdə özünü aydın göstərir.

Ulu öndərimiz Heydər Əliyevin xüsusi diqqət yetirdiyi məsələlərdən biri də xalqımızın milli-mənəvi sərvəti olan dinimizdir. İslam dininə yüksək əxlaqi dəyərlər sistemi kimi həmişə yüksək qiymət verən Heydər Əliyev onu ən qiymətli sərvətimiz kimi qiymətləndirərək deyirdi: “Biz öz milli-mənəvi dəyərlərimizlə fəxr etməliyik. Bizim milli-mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında, xalqımızın fəaliyyətində formalaşıbdır. Milli-mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz. Bizim üstünlüyümüz ondan ibarətdir ki, gənc və güclü dövlətimiz möhkəm təməl üzərində qurulub. Çoxəsrlik tarix, mədəniyyət üzərində qurulub. Milli-mənəvi dəyərlər bizim üçün ən vacib məsələdir. Biz təbii ki, ümumbəşəri dəyərləri bölüşürük. Ancaq bizim üçün başlıca dəyərlər öz milli Azərbaycan dəyərlərimizdir”. Ümummilli lider özünün bütün fəaliyyəti boyu dini abidələrimizin qorunması, bərpası, yeni dini ibadətgahların tikilməsini diqqət mərkəzində saxlamışdır. Həmçinin Azərbaycanda digər dinlərə də hörmətlə yanaşılmış, onların ibadətgahlarının sərbəst fəaliyyət göstərməsi üçün hər cür şərait yaradılmış, kilsələr, sinaqoqlar da bərpa olunmuşdur. Heydər Əliyev İslami dəyərlərin yaxşı öyrənilməsinə, xurafatın qarşısının alınaraq, dinin insanları düzgün şəkildə istiqamətləndirməsinə də həssas münasibət bəsləmişdir. Ulu öndər dini bayramlarımızın geniş şəkildə qeyd olunması üçün hər cür şərait yaratmış, özü də bu bayramlarda xalqa müraciət edərək təbriklərində deyirdi: “Müsəlmanların böyük bir təntənə ilə həmrəylik və qardaşlıq rəmzi kimi qeyd etdikləri Qurban bayramı insanlar üçün yüksək bəşəri-mənəvi dəyərlərdən faydalanmaq imkanları yaradır. İslamın insanpərvərlik, mehribanlıq və mərhəmət prinsiplərinə həmişə sadiq qalmış Azərbaycan xalqı tarixinin çətin dövrlərində belə, Qurban bayramını özünün ən əziz günlərindən biri kimi qeyd etmişdir. Dövlət müstəqilliyimizin bərpasından sonra bu günün rəsmi şəkildə bayram edilməsi xalqımızın öz milli və dini ənənələrinə sədaqətinin parlaq ifadəsidir”. Ümumiyyətlə, Heydər Əliyev dərindən bələd olduğu dinimizə yüksək mənəvi və əxlaqi dəyər sistemi kimi yüksək ehtiramla yanaşır, həmçinin İslamın sülh və əmin-amanlığa çağırışlarını tez-tez xatırladırdı.

Tarixin ən təcrübəli dövlət xadimlərindən olan Heydər Əliyevin milli-mənəvi dəyər kimi qoruyub saxladığı, bizə miras buraxdığı tolerantlıq ənənələrini də xüsusi qeyd etmək lazımdır. Məlumdur ki, Azərbaycan uzun əsrlər boyu müxtəlif dinlərə etiqad edən insanların çiyin-çiyinə yaşadığı, mübarizə apardığı, sivilizasiyaların qovuşduğu bir dövlətdir. Əhalinin əsas hissəsi İslam dininə mənsub olsa da, digər dinlərin və millətlərin nümayəndələri də tarixin bütün dövrlərində burada eyni hüquqlar çərçivəsində yaşamışlar və onlar arasında heç bir ayrı-seçkilik olmamışdır. Bu insanların hamısı Azərbaycanın bərabərhüquqlu vətəndaşlarıdır. Heydər Əliyevin tolerantlıq ənənələrinin qorunmasında, Azərbaycanın, sözün əsl mənasında, tolerant bir ölkəyə çevrilməsində gördüyü işlərin miqyası çox böyükdür. Məsələnin həssaslığını da nəzər alaraq ulu öndərimiz öz dərin zəkası və qətiyyəti ilə ölkədə hər millətdən və dindən olan insanların mehriban şəraitdə yaşamasına şərait yarada bilmiş, tolerantlığın Azərbaycan modelini yaratmış, onun qoyduğu möhkəm təməlin əsasında bu gün də həmin şərait qorunub saxlanmaqdadır. Bunu biz 44 günlük Vətən Müharibəsi dövründə öz torpağı uğrunda döyüşərək, canını qurban verən müxtəlif dinlərdən və millətlərdən olan qəhrəmanlarımızın timsalında bir daha gördük.

Böyük lider, dahi şəxsiyyət Heydər Əliyev xalqımızın milli irsinə də çox böyük diqqətlə yanaşmış, milli-mənəvi dəyərlərin böyük himayədarı bu irsin qorunması, gələcək nəsillərə çatdırılması yolunda yorulmadan mübarizə aparmışdır. İnsanların öz kökünə bağlılığında folklor nümunələrinin çox böyük rolu var. Bunu yaxşı bilən ulu öndərimiz “Kitabi-Dədə Qorqud” dastanının 1300 illik yubileyinin keçirilməsi ilə bağlı fərman imzalamış, sovet dövründə repressiyalara məruz qalan, “xalq eposu deyil, başdan-başa soyğunçuluq və qırğın məqsədilə Azərbaycan gələn oğuz köçəri tayfalarının

hakim yuxarı təbəqəsini tərifləməyə həsr edilmiş bir kitab" [8, s. 10] olaraq dəyərləndirilən xalqımızın "ana kitabı"nın yenidən, hərtərəfli öyrənilməsinə və təbliğinə nail ola bildi. "ulu öndərimizin folklor haqqında heyrətamiz bələdliklə mülahizələr yürütməsi, məsələnin kökünə nüfuz etməsi, onun fitri istedadından və milli-mənənvi dəyərlərimizə tükənməz məhəbbətindən qaynaqlanırdı... Şifahi xalq ədəbiyyatımızın zirvəsi, şifahi və yazılı ədəbiyyatımızın başlanğıcı və tükənməz enerji mənbəyi "Kitabi-Dədə Qorqud" o dahi şəxsiyyətin sayəsində layiqli yerini tutdu" [7]. "Kitabi-Dədə Qorqud"u "əxlaq kodeksimiz", dünya xalqlarının mənəvi sərvəti adlandıran Heydər Əliyev onun tədqiqinin nəinki yubiley ərəfəsində, bütün dövrlərdə çox aktual olduğu qənaətində idi və deyirdi: "Bizim zəngin tariximiz, qədim mədəniyyətimiz və milli mənəvi dəyərlərimiz "Kitabi-Dədə Qorqud" eposunda öz əksini tapmışdır. Bu epos bizim ümumi sərvətimizdir və hər bir azərbaycanlı onunla haqlı olaraq fəxr edə bilər. Dastanın məzmununu, mənasını, onun hər kəlməsini hər bir azərbaycanlı məktəbdən başlayaraq bilməlidir. Bu, bizim ana kitabımızdır və gənclik bu kitabı nə qədər dərindən bilsə, millətini, xalqını, vətənini, müstəqil Azərbaycanı bir o qədər də çox sevəcəkdir". "Heydər Əliyev "Kitabi-Dədə Qorqud" dastanlarına həm də dünya eposu miqyasında, xüsusən də türk dünyasının zəngin şifahi xalq ədəbiyyatı səviyyəsində yüksək qiymət vermişdir" [3, s. 11]. Ona görə də onun səyləri nəticəsində xalqımızın milli-mənəvi dəyəri olan bu dastan geniş şəkildə öyrənildi və bu gün də araşdırmalar davam etməkdədir. "Heydər Əliyevin yanaşmasında dastanın hər sözü, hər cümləsi milli dövlətçilik tarixinin əməli təcrübəsi və fəlsəfəsi ilə yoğurulmuş eposdur" [5 s.11]. Ümumiyyətlə, ulu öndər Heydər Əliyev "Kitabi-Dədə Qorqud"un yenidən xalqa tanıdılmasında, sevdirilməsində, onun dünya xalqlarına təqdim olunmasında, xalqımızın milli-mənəvi dəyəri kimi təbliğində müstəsna xidmətlər göstərmişdir ki, bu xidmətlər onun dəyərlərimizə diqqət və qayğısının ən bariz nümunəsi hesab oluna bilər.

Milli-mənəvi dəyərlərin himayəçisi kimi Heydər Əliyev milli musiqimizin, ədəbiyyatımızın, mədəniyyətimizin tədqiqi və təbliği, dünyaya nümayiş edilməsi istiqamətində də müstəsna rol oynamışdır. Bu sahələrə yaxşı bələd olan ulu öndər onların nümayəndələri ilə tez-tez görüşmüş, onlara qayğı göstərmiş, əməklərini yüksək dəyərləndirmişdir. Azərbaycanda musiqi sənətinin inkişafında onun dövründə bütün bölgələrdə açılmış musiqi məktəblərinin, müxtəlif yaradıcılıq mərkəzlərinin mühüm rolu olmuşdur. Həmçinin xalqımızın milli kimliyi olan muğam və aşıq sənəti də onun diqqətindən kənarda qalmamışdır. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin müvafiq Qərarı ilə 2000-ci ildə yaradılan Azərbaycan Milli Konservatoriyası milli musiqimizin inkişafında tamamilə yeni bir mərhələ açdı. Görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun doğum gününün Heydər Əliyevin təşəbbüsü ilə Milli Musiqi Günü kimi qeyd olunması da onun musiqimizə və onun ən görkəmli nümayəndəsi Ü.Hacıbəyov yaradıcılığına verdiyi dəyərin nəticəsi idi. Heydər Əliyevin milli musiqimizə olan sonsuz sevgi və heyranlığını biz onun mədəniyyət xadimləri ilə görüşlərinin hər birində bariz şəkildə görürdük. Onun həm də öz müasiri olan Azərbaycan musiqi sənətinin nümayəndələrinə səmimi münasibəti, onların yaradıcılığına verdiyi yüksək qiymət, həmçinin milli musiqi nümunələrimizə qarşı olan həssaslığı, onları heyranlıqla dinləməsi, bəzən onları hətta özünün də ifa etməsi bu dahi şəxsiyyətin musiqi sənətinə məhəbbətini bariz ifadə edir, onun incə musiqi zövqündən, duyumundan xəbər verirdi. Heydər Əliyevin bu sahədə apardığı məqsədyönlü işin məntiqi davamı kimi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın da milli musiqimizə xüsusi diqqətlə yanaşması, keçirilən muğam müsabiqələri, muğam sənətinin YUNESKO-nun "Bəşəriyyətin şifahi irsinin şah əsərləri" siyahısına daxil edilməsi bu bənzərsiz sənətin inkişafına təkan verdi. Çox qədim tarixi olan, nəsillərdən-nəsillərə keçərək xalqımızın mənəvi aləminin güzgüsünə çevrilən muğam sənəti bütün dünyada təbliğ olundu və sevildi.

Görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycan ədəbiyyatına olan münasibəti də digər milli-mənəvi dəyərlərimizdən fərqli deyildir. Xalqımızın dəyərlər sistemini, düşüncə tərzini özündə

yaşadan bütün sahələrə olduğu kimi bu sahəyə də xüsusi diqqət və qayğı ilə yanaşan ulu öndərimiz Azərbaycan ədəbiyyatının inkişafında müstəsna xidmətlər göstərmişdir. Məhz onun bu diqqətinin sayəsində onun hakimiyyət dövrlərində Azərbaycan ədəbiyyatı yüksələn xətlə inkişaf etmiş, görkəmli ədəbi şəxsiyyətlər yetirmişdir. Həmçinin ədəbiyyatımız ideya, mövzu və sənətkarlıq baxımından zənginləşmiş, yetkinləşmiş, sürətlə inkişaf etmişdir. "Heydər Əliyevin geniş həcmə malik olan şeirləri, poemalardan böyük parçaları, dramlarda əsas obrazların sözlərini əzbər bilməsi və bütün bunları uzun illər yaddaşında qoruyub saxlaması onun hərtərəfli inkişaf etmiş şəxsiyyət kimi qeyri-adi üstünlüyünün əsas göstəricilərindən biri idi. Siyasi-tarixi baxımdan möhtəşəm xəzinə kimi qabarıq şəkildə diqqəti cəlb edən Heydər Əliyevin bənzərsiz ədəbiyyat yaddaşına malik olması onun görkəmli dövlət xadimi obrazını əlavə cizgilərlə tamamlamış və zənginləşdirmişdir" [4]. Azərbaycan milli-mənəvi dəyərlər sisteminin hər bir halqası kimi Azərbaycan ədəbiyyatı da Heydər Əliyevin diqqətindən kənarda qalmamış, həm klassik irsimiz, həm də müasir ədəbiyyatımız öz layiqli qiymətini almışdır. Heydər Əliyevin təşəbbüsü ilə bütün türk dünyasında 500 illiyi təntənəli şəkildə qeyd olunan Məhəmməd Füzuli yaradıcılığı məhz bu sayədə sanki yenidən türk dünyasına qazandırıldı. Ulu öndərimizin Füzulini türk xalqlarını birləşdirən bir şəxsiyyət kimi dəyərləndirməsi onun zəngin yaradıcılığının layiq olduğu qiyməti almasına imkan verdi. Bununla da ümummilli lider həm Füzulini bir daha, yenidən, müasir baxış bucağından dünyaya tanıtdı, dərin fəlsəfəsinin mahiyyətini aça bildi, həm də onun Azərbaycan şairi olduğunu bir daha sübut etdi.

Heydər Əliyevin Azərbaycan ədəbiyyatına münasibətindən danışarkən onun Hüseyn Cavid irsinə olan diqqət və qayğısından danışmamaq mümkün deyil. XX əsr Azərbaycan ədəbiyyatının zirvəsi, filosof, romantik, taleyin ağır sınaqlarından keçərək öz vətənindən ayrı düşən, öz məfkurəsinin qurbanı olaraq qürbətdə həyata gözlərini yuman şairin cənazəsinin doğma torpağa qovuşdurulması üçün Heydər Əliyevin səyləri, nəhayət, 1982-ci ildə öz bəhrəsini verdi. H.Cavid uzaq Sibirdən gətirilərək doğma Naxçıvanda torpağa tapşırıldı. 1996-cı ildə isə Hüseyn Cavidin irsini Azərbaycan xalqının milli sərvəti hesab edən ulu öndərimizin tapşırığı ilə onun məzarı üzərində möhtəşəm bir abidə ucaldıldı.

Azərbaycan ədəbiyyatını sevən, ona dərindən bələd olan Heydər Əliyevin bu sahəyə diqqət və qayğısı ədəbiyyatımızın inkişafında, ədəbi şəxsiyyətlərimizin dünya miqyasında tanınmasında misilsiz rol oynadı. Ədəbiyyatı insan ruhunun mənəvi qidası hesab edən ulu öndər deyirdi: "Şəxsən mən ədəbiyyatı çox sevən adamam və gənc vaxtlarımdan, hətta uşaqlıqdan, məktəbdə ilk ədəbiyyat nümunələrini oxuyandan ədəbiyyatı sevmişəm... Mənim bir insan kimi formalaşmağımda, təhsilimdə, əxlaqımda, mənəviyyatımda ədəbiyyatın, mədəniyyətin çox böyük rolu olmuşdur. Mən orta məktəbdə oxuyarkən Azərbaycan şairlərinin, yazıçılarının bütün əsərlərini sevə-sevə oxumuşdum... O illərdə, o uşaqlıq və gənclik illərində onlar mənə o qədər təsir edib ki, mən onları unutmamışam. Bu "oxumuşam, unutmamışam" sözləri sadəcə bir fikir deyil. Yəni onlar mənə təsir edib, mən onlardan bəhrələnmişəm, mənəvi qida almışam". Təkcə M.Füzuli, H.Cavid deyil, bütövlükdə ədəbiyyatımızı milli sərvətimiz kimi dəyərləndirən Heydər Əliyev bir çox yazıçı və şairlərimizin abidələrinin qoyulmasına, onların yubileylərinin keçirilməsinə, fəxri adlar, mükafatlar almasına şərait yaradaraq ədəbiyyatımızın inkişafına, təbliğinə təkan vermiş, onun ümumbəşəri ideyalarla zənginləşməsində misilsiz xidmətlər göstərmişdir.

Ən çətin dövrlərdə dövlət idarəçiliyi ilə məşğul olan, ölkəmizi düşdüyü ağır vəziyyətdən çıxaran Heydər Əliyevin belə məsələlərə də diqqət və zaman ayıra bilməsi onun, doğurdan da fenomenal bir şəxsiyyət, hərtərəfli lider, daim öz xalqının gələcəyini düşünən vətənpərvər bir insan olduğunu bir daha göstərir.

Milli-mənəvi dəyərlərimiz Heydər Əliyevin azərbaycanşünaslıq fəlsəfəsinin əsas mənbəyidir. O, milli-mənəvi dəyərlərə sistemli yanaşmış, onları kompleks şəkildə dəyərləndirmişdir. Xalqın gələcəyini düşünən, bunun üçün bütün həyatını sərf edən ümummilli lider yaxşı başa düşürdü ki, dövləti

inkişaf etdirməyin yolu təkcə iqtisadiyyatın gücləndirilməsi, maddi cəhətdən insanların rifah halının yaxşılaşdırılması ilə mümkün deyil. İnkişaf etmək, dünya xalqları içərisində öz yerini tutmaq üçün mədəni cəhətdən də inkişaf etmək lazımdır.

Milli-mənəvi dəyərlərimiz xalqın milli özünüdərkində müstəsna rol oynayır. Hər bir xalq dünya xalqları sırasında öz yerini məhz bu dəyərlərlə tutmalıdır. Öz milli kimliyindən uzaqlaşmaq, "müasirləşmək" adı altında digər xalqları təqlid etmək bizi kökümüzdən uzaqlaşdırar. Ona görə də biz qloballaşan dünyada öz mövqeyimizi yalnız öz xalqımıza məxsus, digər xalqlarda olmayan, orijinal dəyərlərimizi qorumaq və yaşatmaqla, ənənələrimizə bağlılıqla mühafizə edə bilərik. Bu baxımdan dilimizin, dinimizin, mədəniyyətimizin, ədəbiyyatımızın, incəsənətimizin intibahının memarı olan ulu öndərimiz Heydər Əliyevin xalqımızın milli-mənəvi dəyərlər sisteminin qorunaraq gələcək nəsillərə ötürülməsində rolu əvəzsizdir və təkrarolunmazdır.

## ƏDƏBİYYAT

1. Əfəndiyev T. Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz. Bakı: Zərdabi LTD, 2011, 270 s.
2. Əl-Fəlah A.A. Heydər Əliyev və milli-mənəvi dəyərlər. Bakı: Qismət, 2007, 108 s.
3. Həbibbəyli İ. Qorqudşünaslıq elminin genişlənən imkanları. "525-ci qəzet", 2015, 7 mart, s. 14-15.
4. Həbibbəyli İ. Heydər Əliyevin dövlətçilik təlimində ədəbiyyat siyasəti və müasir dövr. "Azərbaycan" qəz., 2010, 27 aprel.
5. Qasımov C. "Dədə Qorqud Kitabı"na Mir Cəfər Bağırov və Heydər Əliyevin münasibəti // Dədə Qorqud: Elmi-ədəbi toplu, Bakı: Nurlan, 2013, № 3, s. 3-24.
6. Muradova B. Heydər Əliyev ideologiyası milli-mənəvi dəyərlər və milli özünüdərk müstəvisində. "Azərbaycan" qəz., 2022, 8 may.
7. Paşayev Q. Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz. "525-ci qəzet", 2017, 16 dekabr.
8. Tahirzadə Ə. "Kitabi-Dədə Qorqud"un faciəsi. Bakı: Kür, 2002, 32 s.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: naliyeva22@mail.ru***

**Nuray Aliyeva**

## HEYDAR ALIYEV AND OUR NATIONAL AND SPIRITUAL VALUES

In the article, the activities of the national leader of the Azerbaijani people, Heydar Aliyev, were examined in the context of national and moral values. It is shown that national-moral values are the national identity of the people. Forgetting them can lead to the alienation and destruction of the people. In this regard, Heydar Aliyev always took care of our national and moral values and worked tirelessly for their survival, propagation and development. It is the celebration of Heydar Aliyev's policy that the people of Azerbaijan were able to take their rightful place among the nations of the world, and a patriotic young generation grew up surrounded by our national values. It is noted in the article that Heydar Aliyev's purposeful policy contributed to the development of our language, flag, religion, tolerance, rich and ancient heritage, national music, and literature and thanks to him, the people of Azerbaijan are protecting their national values and passing them on to future generations.

**Keywords:** *Heydar Aliyev, national and moral values, our language, religion, flag, national music, literature.*

**Нурай Алиева**

## ГЕЙДАР АЛИЕВ И НАШИ НАЦИОНАЛЬНО-ДУХОВНЫЕ ЦЕННОСТИ

В статье деятельность общенационального лидера азербайджанского народа Гейдара Алиева рассматривается в контексте национально-нравственных ценностей. Показано, что национально-нравственные ценности составляют национальную идентичность народа. Забвение их может привести к отчуждению и уничтожению народа. В связи с этим Гейдар Алиев всегда заботился о наших национальных и нравственных ценностях и неустанно работал для их сохранения, распространения и развития. Это торжество политики Гейдара Алиева, что азербайджанский народ смог занять достойное место среди народов мира, и в окружении наших национальных ценностей выросло патриотически настроенное молодое поколение. В статье отмечается, что целенаправленная политика Гейдара Алиева способствовала развитию нашего языка, флага, религии, толерантности, богатого и древнего наследия, национальной музыки и литературы, и благодаря ему азербайджанский народ защищает свои национальные ценности и передает их будущим поколениям.

**Ключевые слова:** *Гейдар Алиев, национально-нравственные ценности, наш язык, религия, флаг, национальная музыка, литература.*

**AYTƏN CƏFƏROVA**

# HEYDƏR ƏLİYEV VƏ MİLLİ FOLKLORUMUZ

*Şifahi xalq yaradıcılığı xalqın milli düşüncəsini özündə açıq-aydın ehtiva edən söz sənətidir. Bu sənətin bəşər aləminin mövcud olduğu hər dönəmdə var olması onu yaşadan xalqın dərin kökə, milli dəyərlərə, qədim təsəvvürlərə malik olması deməkdir. Və çox zaman ağız ədəbiyyatı, sözlü sənət, xalq yaradıcılığı, şifahi ədəbiyyat və s. kimi titullar qazanmış folklor xalqın qədim etik-estetik dünyagörüşünü, psixoloji aləmini ifadə etmiş, insani dəyərlər aşılayan görüşlərin təməl olduğu bir ortamda yaranıb möhkəmlənmiş, mükəmməlləşmişdir. Belə olan halda həmin folklor dünyasına məxsus örnəkləri daimiləşdirmək, uzunömürlü etmək, gələcək nəsillərə ötürmək üçün onları yaddaşlardan sətirlərə köçürmək çox vacib məsələlər olaraq özünü büruzə verir. Bu işlərin gerçəkləşməsində təkbaşına – yalnız mütəxəssis və alimlərin fəaliyyəti kifayət etmir. Bu işdə dövlətin, rəhbərliyin qayğısı mütləqdir.*

*Azərbaycan folklorşünaslığının inkişafı, folklor örnəklərimizin yaşlı informatorların yaddaşından toplanılıb əsil variantda nəşrə alınması, ən əsası da, onlardakı qədim estetik düşüncəyə, milli psixologiyaya xələl gətirmədən toplayıb, nəşrə alınması, gələcək nəslə ötürülməsi sovetlərin ölkəmizdə hakim olduqları vaxtlarda da icra olunub. Lakin bu məsələlər, ulu öndər Heydər Əliyevin 1969-cu ildə ölkəmizə rəhbərlik etdiyi dövrdə və bir də 1993-cü ildə ikinci dəfə hakimiyyətə qayıtdığı zamandan etibarən həyata keçirilib. Çünki lider xalqının kökünü, soyunu, qədimliyini ifadə edən şifahi yaradıcılıq sənətinə dərindən bələd olan, milli psixologiyanı özündə ehtiva edən folklorumuza dərin sevgi və rəğbət bəsləyən dahi şəxsiyyət idi. Odur ki, ulu öndərin Azərbaycana rəhbərlik etdiyi tarixi dönəmlərdə bütünlükdə elm və mədəniyyət sahəsində inkişaf müşahidə olunduğu kimi milli folklorumuzun yazıya alınması, tədqiq edilməsi kimi vacib işlərin həyata keçirilməsinə də böyük qayğı göstərilib.*

**Açar sözlər:** *lider, folklor, milli-mənəvi dəyərlər, şifahi söz sənəti, milli psixologiya, örnək, xalq.*

Hər bir xalqın tarixi keçmişi onun milli-mənəvi dəyərlərində əks olunur. Milli-mənəvi dəyərlər isə xalqın dili, ənənəsi, tarixi və s. kimi faktorlardır. Xalqın milliliyinin qorunması onun gələcəyə doğru inkişafını da təmin edir. Millətin qədim təsəvvürlərinin əks olunduğu adət-ənənələrinin müasir dövrlərdə də icrası heç də həmişə mümkün olmur. Bu mümkünsüzlük ya xalqın özünün biganəliyi, ya da o xalqın həmin dövrdə rəhbərliyində olan insanların sözügedən məsələlərə kortəbii yanaşmasından irəli gəlir. Belə olan zamanda da xalq öz milliyini, dəyərlərini mühafizə edə bilmir. Əgər rəhbər mövqedə duran insan milliyyətçiliyin qorunmasını, siyasətin millilik konsepsiyasını özünə şüar etsə, onda xalq da öz uğurlu gələcəyinin təminatını mövcud dövrdə tənzimləyə bilər.

Azərbaycan xalqı əsrlər boyu öz torpağı, vətəni, milli kimliyi uğrunda mübarizə aparıb. Tarixdə elə şəxsiyyətlər olub ki, Vətəninin və xalqının mənafeyi naminə bütün ömrünü həsr edib. Türk millətinin dahisi Atatürkün fəaliyyəti və türkçülük dövlətinin istiqbalı uğrundakı tarixi əhəmiyyətli mücadiləsi kökü qədim dövrlərə gedən türk xalqının gələcəyini də qarant altına aldı. Bu fəaliyyət türk millətinə böyük özünəinam bəxş etdi. Və türk milləti də bu dahi şəxsiyyətin dövlətin tərəqqi və yüksəlişindəki müstəsna rolu və fəaliyyətinin sayəsində xoşbəxt gələcəyə doğru addımladı.

Azərbaycan xalqı zaman-zaman dərin mücadilələrlə üzləşib. İstər sərhədlərinin müdafiəsində, istər daxili sabitliyinin qorunmasında, istər yadellilərin hücumundan və yad münasibətlərdən qorunmaq üçün Azərbaycan dövləti və Azərbaycan xalqı, demək mümkündür ki, hər tarixi dövrdə böyük mübarizələrdən üzüağ çıxıb. Təbiidir ki, uğursuzluqlar da istisna deyildir və uğursuzluğun olduğu kimi uğurlu nəticələrin də səbəbkarları olmuşdur. Uzun zamanlar ərzində başı olmazın bəlalarını çəkmiş xalqımız ağlasığmaz mübarizələrdən çox vaxt üzüağ çıxmışdır. Bu mübarizələrdə xalqın önündə gedənlərin – rəhbər mövqedə dayananların böyük rolu olub. Belə insanlar mənsub olduğu xalqın

kökünə, soyuna dərindən bələd olanlardır. Onlar tarixi köklərə bələd olduqlarından məhz tarixin təhrif olunması, millətinin bəsit tarixlə üz-üzə qalmasını qəbul edə bilməyib canlarını fəda edəcək qədər mübarizəyə atılıblar. Məhz belə şəxsiyyətlərdən biri də dahi siyasətçi, ümummilli lider, Azərbaycan xalqının ulu öndəri Heydər Əliyevdir.

Azərbaycan tarixində öz vətənpərvər mübarizəsi ilə xalqın taleyinin xoşbəxt gələcəyini təmin edən ulu öndər titulunu xalqdan qazanmış Heydər Əliyev milliliyə elə yüksək mövqedə dəyər verirdi ki, bunun ölçüyəgəlməzliyini ifadə etmək üçün bəzən sözlər kifayət etmir.

Milli-mənəvi dəyərlərimizə çox böyük hörmətlə yanaşan, milli düşüncələrin azca da olsa qabardığı maddi-mənəvi dəyərləri qoruyan və mühafizə edən liderin düşüncəsi yalnız və yalnız Azərbaycançılıq ideyalarını ön planda saxlamaq idi. 1969-cu ildə dövlət başçısı kimi fəaliyyəti zamanında da sovetlərin qılıncının sağının və solunun kəsdiyi bir dövrdə o, milli düşüncəsindən qaynaqlanan fəaliyyətini də gerçəkləşdirirdi. Olduqca yüksək səviyyəli idarəetmə və siyasət düşüncəsindən irəli gələrək fəaliyyətində nöqsan aramağa cəhd edən irticaçıları da lider mədəni şəkildə susdururdu. Ümummilli liderin hakimiyyətdə olduğu kəskin sovet rejimi illəri ərzində onun fəaliyyətində prioritet məsələ Azərbaycançılıqla bağlı olan məqamlar idi, hansı ki, lider bu məqamları çox böyük səriştə və siyasi ustalıqla mövcud işlərin məğzinin alt qatında yerləşdirərək həyata keçirirdi.

Ümummilli liderin hakimiyyətdə olduğu həmin dönəmlərdə Azərbaycanın bir çox regionlarında icra olunan milli bayramların keçirilməsi canlanmağa başlandı. Məlumdur ki, sovet rejiminin millilik ideyalarını parladan atributlarımızın məhv olunması yönündəki siyasəti həmin dönəmlərdə ən yüksək aktivlikdə idi. Rejim milli və dini dəyərlərimizin tamamilə sıradan çıxarılmasına yön almış iyrənc siyasətini həyata keçirməkdə ikən liderin bu siyasəti tam imkan daxilində zərərsizləşdirməyə çalışması və həm də belə bir antimilli siyasət yeridilən respublikada əsas fəaliyyətini – türkçülük ideyalarının qorunmasını həyata keçirtməsi ölçüyəgəlməz vətənpərvərlik hissləri, duyğularına malik olmağın təcəssümüdür. Heydər Əliyev məhz belə bir dövrdə dilimizin qorunması uğrunda da öz fəaliyyəti çərçivəsində mübarizə aparmışdır. Liderin mübarizəsinin əyani sübutu onun dövlət tədbirləri və yığıncaqlarında ana dilində danışmağa üstünlük verməsi idi. Azərbaycan dilinin möhtəşəmliyini sovet carçılarının nəzərinə ürəklə çatdırmağa nail olan liderin nitqində bu dil xüsusi gözəllik qazanırdı. O, dilimizin dərinliklərinə o qədər mükəmməl şəkildə bələd idi ki, hər sözün, kəlmənin tarixini az qala əhatəli və təfərrüatlı söyləmək iqtidarında idi. Lakin sovetlərin kəskin siyasi rejimi dönəmində lider bu fəaliyyətini də olduqca ehtiyatla həyata keçirirdi. O çox yaxşı bilirdi ki, nə qədər bu yolda fədakarlıq edən ziyalıları, şair və yazıçıları irtica məhv etmişdir. Onların məhvi təkcə özlərinin, ailələrinin, yaxın qohum-əqrəbalarının deyil, həm də Azərbaycançılıq ideyasının hakim olduğu Azərbaycan gələcəyinə böyük zərbə idi. Odur ki, dahi siyasətçi bu yolda həddən artıq ehtiyatlı üsullarla davranırdı. Bilirdi ki, hər hansı kiçik ehtiyatsızlıq onun millilik ideyalarının gerçəkləşdirilməsi uğrundakı üstüörtülü fəaliyyətini lazımsız vaxtda önə çıxara bilər. Bilirdi ki, kəskin sovet rejiminin apardığı antimilli siyasətin qarşısını almaq birdən-birə mümkün deyildi. O icra etdiyi işlərin daxilində millilik ideyalarının qorunmasına çalışırdı. Heydər Əliyev Azərbaycan fəallarının ön cərgələrdə yer alması üçün var qüvvəsi ilə fəaliyyət göstərirdi. Mədəniyyət işçilərinin, elm mütəxəssislərinin, təsərrüfat sahəsindəki fəalların əməyinin qiymətləndirilməsini o zamankı qanun içərisində o qədər mükəmməl şəkildə əridirdi ki, bəzən irticaçıların özləri belə bu məqamlar qarşısında çaşqınlıq içərisində qalırdılar. Bəli, Heydər Əliyev elə daimi siyasətçi idi ki, ağır şəraitdə belə yenilməyərək, öz amalı və məqsədi uğrunda var qüvvəsi ilə çalışaraq "Azad Azərbaycan" arzusunu gerçəkləşdirmək ideyaları ilə yaşayırdı və ömrünü də, özünün dediyi kimi, bu yolda həsr etdi.

Heydər Əliyev milli ideyaların və qədim milli düşüncəmizin var olduğu adət-ənənələrimizin yaşaması və qorunması, gələcək nəslə ötürülməsi məsələlərinin vacibliyini prioritet məqsəd olaraq

qarşısına qoymuşdu. Amma bunun icrasında təkcə Azərbaycan daxilində deyil, ümumtürk kontekstində həyata keçirməyin daha faydalı olduğunu gözəl bilirdi. Çünki türkün ümumkökü onun müasir dönəmdəki törənlərində də öz əksini tapmaqdadır. Əgər türk xalqlarına məxsus olanları qabardıb ortalığa çıxarmaq mümkün olarsa, irtica ümumtürk istəyinə nümayişkaranə şəkildə etiraz edə bilməzdi. Təbii ki, tədricən həyata keçiriləcək fəlakətlər gözlənilirdi. Lakin ümumtürk xalqlarının təqdir etdiyi və türklərə məxsus dünyagörüşü yaşadan adətlərin, bayramların keçirilməsi türk xalqlarının hamısı tərəfindən qəbul olunmasını ən ümdə şərt kimi önə çəkirdi. Bu da irticanın müəyyən qədər susqunluğunun təmin edilməsi demək idi.

Heydər Əliyevin elmə, mədəniyyətə, incəsənətə, ədəbiyyata verdiyi dəyər Azərbaycançılıq ideyaları uğrunda aparılan siyasət idi. O, "Kitabi-Dədə Qorqud" kimi xalqın qəhrəmanlıq dastanının dəyərləndirilməsi və gələcək nəslə ötürülməsində olduqca böyük xidmət göstərdi. Belə ki, dastanın 1300 illik yaşının keçirilməsi ulu öndərin milli ruha, qədim etnik düşüncəyə, ulu söy-kökə bağlılığını və bu kökə sədaqətinin açıq etiraf etdi. Və bu barədə, yəni dastanın 1300 illik yaşının keçirilməsi haqqında saysız-hesabsız məqalələr yazıldı, fikirlər söylənildi. Bu, insanlarımızın öz ulu soykökünə olan dəyərdən aldığı sevinc və minnətdarlıq dolu fikirləri idi. O cümlədən, ulu öndərin "Kitabi-Dədə Qorqud" dastanına göstərdiyi qayğı mərhum professor Cəlal Qasımovu da həddən artıq sevindirmişdi. Cəlal müəllim yazırdı ki: "ulu öndər Heydər Əliyev, hər şeydən əvvəl, müasir Azərbaycan cəmiyyətinə onun tarixinin ən kəşməkəşli dövrlərində rəhbərlik etmiş, bu cəmiyyəti beynəlxalq oyun və tələlərdən, daxili və xarici təcavüzlərdən qorumuş rəhbər, dövlət başçısıdır. Bu baxımdan, o, "Dədə Qorqud" eposuna hamıdan fərqli gözlə - yalnız alim-tarixçi, filosof kimi deyil, həm də dövlət rəhbəri, siyasi xadim gözü ilə baxa bilmişdir. Heydər Əliyevin yanaşmasında dastanın hər sözü, hər cümləsi milli dövlətçilik tarixinin əməli təcrübəsi və fəlsəfəsi ilə yoğurulmuş eposdur..." [3, s. 69].

Milli dəyərləri dövlət siyasətinin əsaslarında qoruyub saxlayan ulu öndər çox gözəl bilirdi və bütün dünyaya da çatdırırdı ki, Azərbaycan mədəniyyətinin kökü qədimdir. Mədəniyyətimiz milli köklər üzərində yaranıb və formalaşıb. Bunları mövcud zamanda da yaşatmaq mütləqdir ki, gələcək nəsil öz kökünə şüurlu şəkildə sahib çıxa bilsin. Odur ki, milli dövlətçiliyimizin formalaşması və yaşamasında şifahi ənənəmizin çox böyük rolu və əhəmiyyəti olduğundan ulu öndər bu sahədəki görülən işləri təqdir edir, qarşıda duran problemlərin həll olunmasında mütəxəssislərə əsl rəhbər qayğısı göstərirdi.

Qeyd edək ki, AMEA M.Füzuli adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən "Folklor" sarayı Bakı şəhərində – İçəri şəhərdə yerləşirdi. Sarayın kiçik kollektivi hələ sovet rejimindən folklorun toplanması işlərində yorulmaz fəaliyyət göstərirdi. Xalqın milli-mənəvi sərvəti olan folklorun toplanması milli mədəniyyət və tariximizə olduqca gərəkli idi. Bunu özünə prioritet məsələ kimi qəbul etmiş ziyalılar – qanında əsl türk qanı axan alimlərimiz folklorun toplanmasına xüsusi diqqət göstərirdilər. Yaşlı nəslin yaddaşında yaşayan elə dəyərli örnəklər mövcud olur ki, onların zamanında toplanması bəzən bir çox tarixi həqiqətlərin açılmasına böyük töhfə verə bilir. Mədəniyyətimizi və milliliyimizi formalaşdıran folklor örnəklərini elmi müstəviyə çıxararaq araşdırıb tədqiq etmək folklorçuların ən ümdə borcudur. Lakin burada bütün yük təkcə alimlərin – folklorçuların üzərinə düşə bilməzdi. Onların fəaliyyətinin uğurlu şəkildə gerçəkləşməsi fəaliyyətlərinin ümumdünya elmi auditoriyaya tanıtdırılması üçün dövlətin qayğısına çox böyük ehtiyac var idi. Məhz ümummilli liderin təşəbbüsü ilə bu qayğının folklor elminə göstərilməsi bugünkü Folklor İnstitutunun yaranmasını şərtləndirdi. 2003-cü ilədək yalnız digər institutun tərkibində – Ədəbiyyat İnstitutunun kiçik bir şöbəsi olaraq fəaliyyət göstərən "Folklor" sarayı "İnstitut" statusu aldı. Ulu öndər Heydər Əliyev 2003-cü il sarayın müstəqil "İnstitut" kimi fəaliyyət göstərməsi üçün sərəncam imzaladı. Və elə o gündən etibarən institutda Azərbaycan folklorşünaslıq elminin yaşaması və inkişafı naminə saysız-hesabsız təqdirəlayiq

işlər görülməkdədir: cild-cild kitablar çap olunur, folklor elmimizə xidmət edən elmi məqalələr yazılır, seminarlar, elmi konfrans və simpoziyumlar təşkil olunur, folklor ekspedisiyaları həyata keçirilir, peşəkar kadrlar yetişdirilir və s. bu kimi böyük əhəmiyyət kəsb edən işlər həyata keçirilir. İnstitutun əməkdaşları folklorumuzun öyrənilməsində təkcə yerli təcrübələrlə kifayətlənməyərək dünyada qəbul olunmuş prinsiplər üzrə də fəaliyyət göstərirlər.

Məlum və aydındır ki, Heydər Əliyevin milli kimliyimizə verdiyi çox böyük töhfələrdən biri də milli mərasim düşüncəmizin bərpası məsələsidir. Bunu təkcə Novruz bayramı üzərində təqdim etsək, ulu öndərin milli düşüncəmizin bərpası yönündəki fəaliyyətinin mahiyyətini açıqca görmüş olarıq. Bilirik ki, sovetlər dönəmində milli və dini bayramlarımızın, mərasimlərimizin keçirilməsində kəskin qadağalar mövcud idi. Biz bu bayram və mərasimlərimizi gizlin şəkildə qeyd edirdik. Toy mərasimlərimizdə milli düşüncəmizi təbliğ edən aşıqlarımızın ifasına çox vaxt qadağalar qoyulub. Aşıq el atasıdır, deyərlər. Xalqın dərd-sərini, ağrı-acısını, daxili iztirablarını ifadə etməkdə aşıqlarımız çox vaxt cəsarət nümayiş etdiriblər. Sovetlər dönəmində aşıqların toylarda iştirakına qoyulan qadağalar da xalqın daxili dünyasını cəsarətlə ifadə edən aşıqların tədricən məhv olmasına yönəlmiş məqsəddən doğurdu. Və bütün bunları rəhbər mövqedən çox ehtiyatla müşahidə edən ulu öndər milliyyətçilik siyasəti içərisində mədəniyyətimizin faktlarından olan aşıq yaradıcılığının inkişafına qayğı göstərirdi. Bu qayğını dahi şəxsiyyət aşıqların dövrün tələblərini ifadə edən bayram və tədbirlərdə iştirakını təmin etməklə, onları mənəvi dəyərlərin inkişafına xidmət edən, millətlərin mədəniyyətləri arasında əlaqə yaradan el sənətkarı kimi fəxri adlarla təltif etməklə, Azərbaycan aşıq sənətinin sütunlarından olan görkəmli aşıqların yubiley tədbirləri və yaradıcılıq gecələrinin keçirilməsinə şərait yaratmaqla, aşıqların sözügedən dövrdə Azərbaycana qapısı açılan xarici dövlətlərdə qastrol səfərlərində iştirak etməsini təmin etməklə həyata keçirirdi. Bütün bunlar isə milli kökümüzü ifadə edən aşıq sənətinin sovetin məhvedici siyasətinin qurbanı olmasının qarşısını kəskin şəkildə alırdı. Və ulu öndərin yığıncaqlardakı, tədbirlərdəki nitqlərindən aydın olur ki, bu dahi şəxsiyyətin yürütdüyü siyasətin təməlində sırf Azərbaycançılıq qayəsi dayanır. Lakin dahi siyasətçi belə bir rejimin qarşısında milliyyətçilik ideyalarının olduqca ehtiyatlı və ehmallı tərzdə ictimai həyatın bütün sahələrində bərpa etməyi qarşısına məqsəd qoymuşdu. Milli düşüncəmizin carçıları olan dastanlarımızın, xalq yaradıcılığı örnəklərimizin yaddaşlardan toplanılaraq yazıya alınmasına xüsusi həssaslıqla yanaşırdı. Bu barədəki verdiyi sərəncam və tapşırıqlardan irəli gələrək görülən işlər millilik düşüncəmizə böyük töhfə idi. Heydər Əliyev bunları bəzi real olan məqamların fonunda da icra edirdi. Belə ki, Azərbaycan mədəniyyəti və milli-mənəvi dəyərləri ümumbəşəri ideyaların təbliği baxımından da təqdirəlayiqdir. Lider məhz bu məqamdan yola çıxaraq Azərbaycan mədəniyyətinin inkişafına çalışırdı. O deyirdi ki, Azərbaycan mədəniyyəti dünya xalqlarının mədəniyyətinə daim qapılarını açmış mədəniyyətdir. O heç də öz içərisində stabil şəkildə qalmır. Bu mədəniyyət köklü dəyərlər kəsb etdiyindən onun inkişafı da ümumbəşəri amillərlə çulğaşır.

Folklorşünas A.Xəlil də Heydər Əliyevin milli düşüncəmizin dayağı olan mərasimlərimizin keçirilməsinə göstərdiyi qayğıdan bəhs edərkən ulu öndərin mərasim mədəniyyətimizlə bağlı geniş və strateji fəaliyyətinin dörd istiqamətini qeyd edir. O yazır ki: "...müstəqilliyimizi itirdiyimiz dövrdə mərasim mədəniyyətimiz ağır itkilərə məruz qalmışdır. Müstəqil dövlət olmayanda rəsmi təsisatlar və rəsmi mədəni institutlar da olmur. Çünki bu idarə olunan bir mexanizmdir. Adətlər şəklində icra olunan mərasimlər isə öz miqyasına və təntənəsinə görə məhdud çevrəni əhatə edir. Başqa deyilişlə, el bayramları ev bayramları şəklində qeyd olunur. Bunları biz yaxın keçmişimizdə görmüşük. Heydər Əliyevin mərasim mədəniyyətimizə verdiyi töhfələrdən biri də milli mərasimlərin bərpasıdır. Əlbəttə, bu bərpa məsələsi kifayət qədər mürəkkəbdir və uzun bir prosesi əhatə edir. Amma dövlət rəhbərinin təqvimi və rəqəmləri rəsmiləşdirməsi bu prosesin başlanması üçün vacib olan yaşıl işığı yandırmış

olur. Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrlərdə milli mərasim və bayramlar maneəsiz olaraq keçirilib. 1970-1980-ci illərdə toylar aşıqsız, yaslar mollasız olmayıb. Milli və dini bayramlar dünyəvi bayramlarla eyni mütəşəkkillikdə qeyd olunub" [1, s. 94]. Həqiqətən də, Heydər Əliyev Respublika rəhbəri kimi milli və dini mərasimlərin təşkilinə xüsusi diqqət göstərirdi. Novruz bayramının Azərbaycan xalqının milli mərasim faktoru olaraq ölkə miqyasında geniş şəkildə qeyd olunması məhz ulu öndərin qayğısı və diqqətindən qaynaqlanırdı. Baxmayaraq ki, bayramı kəskin sovet rejimi millətlərarası ayrıseçkiliyi təbliğ edən bayram qismində təqdim edərək qeyd olunmasını qadağan etməyə çox dəfələr səy göstərib, amma liderin bu bayram haqqındakı auditoriyalardakı mülahizələri qarşısında aciz qalan rejim icraçıları faktı inkaredici söz tapa bilmirdilər.

Milli-mənəvi kimliyimizi ifadə edən sözlü yaradıcılığımızın zaman keçdikcə yaddaşlardan silinməsi real faktdır. Düzdür, bu, olduqca böyük təəssüf hissi doğurur, amma gerçəklik də budur ki, milli düşüncəmizi özündə qoruyub saxlayan sözlü yaradıcılıq örnəklərimizi zamanında toplamadıqda, təbiidir ki, itib-batacaq. Və kəskin sovet rejiminin də ən ümdə vəzifələrindən biri də bu idi ki, hökmranlıq etdiyi dövlətlərdə xalqların kökünə, milliliyinə işıq salan faktları tamamilə itirib yoxa çıxarsın. Və xalqın folklor yaddaşı da müəyyən zaman daxilində qoruna bilər. Onları yazıya alıb gələcəyə ötürmədən onlardan rejim "can qurtarırdı". Xalqın qəhrəmanlıq düşüncəsini özündə təcəssüm etdirən dastanlarımızın yazıya alınıb, tədqiqata cəlb olunmasına isə, çox hallarda icazə verilmirdi. Bu da açıq-aydın millilik və vətənsevərlik düşüncəsinin silinməsinə xidmət edən iyrənc siyasət idi. Belə bir siyasətin obyektlərindən biri də qəhrəmanlıq dastanımız olan "Kitabi-Dədə Qorqud" dastanına qarşı aparılan antitəbliğat idi. İrtica yaxşı bilirdi ki, "Kitabi-Dədə Qorqud" dünya epos mədəniyyətinin əvəzsiz nümunələrindən olub, həm də Azərbaycanda bu mədəniyyətin parlaq örnəyidir. Akademik İsa Həbibbəyli dastanın Azərbaycan elmi və mədəniyyətinə yenidən qayıtmasında ulu öndərin ölçüyəgəlməz fəaliyyəti haqqında yazır: "Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra "Kitabi-Dədə Qorqud" dastanlarının ölkəmizdə milli təfəkkürün və azərbaycançılıq məfkurəsinin daha da inkişaf etdirilməsində mühüm rolu olmuşdur. Bu mənada Azərbaycan xalqının Ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin 20 aprel 1997-ci il tarixli Fərmanı ilə "Kitabi-Dədə Qorqud" dastanlarının 1300 illik yubileyinin ölkəmizdə 9 aprel 2000-ci ildə dövlət səviyyəsində təntənə ilə qeyd edilməsi böyük sənət abidəsinin layiqli şəkildə qiymətləndirilməsi ilə bərabər, həm də milli düşüncənin, müstəqil dövlətçilik təfəkkürünün, azərbaycançılıq ideyasının daha da qüvvətləndirilib möhkəmləndirilməsinə xidmətin ifadəsidir. Eyni zamanda, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Kitabi-Dədə Qorqud"un alman dilinə ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi haqqında" 20 fevral 2015-ci il tarixli Sərəncamı ilə "Kitabi-Dədə Qorqud"un alman şərqşünası Henrix Fridrix fon Dits tərəfindən tapılıb üzə çıxarılmasının və elmi dövriyyəyə daxil edilməsi hadisəsinin yubiley səviyyəsində geniş miqyasda keçirilməsi, 2013-cü ildə Bakı şəhərində Dədə Qorqud parkının yaradılması, Dədə Qorquda və dastan boylarının qəhrəmanlarına abidə ucaldılması həm Azərbaycan xalqının bu möhtəşəm ədəbiyyat abidəsinin dünya miqyasında təbliğinə, həm də daha dərindən tədqiq edilib öyrənilməsinə böyük imkanlar açmışdır" [2, s. 17]. Göründüyü kimi, akademik İsa Həbibbəyli ulu öndər Heydər Əliyevin "Kitabi-Dədə Qorqud" dastanına göstərdiyi bu möhtəşəm qayğını türkçülük düşüncəmizin bərpası ilə bağlı olan ən qiymətli fəaliyyətlərdən hesab edir. Təbiidir ki, ulu öndərin bu fəaliyyəti heç də təəccüb doğurmur. Ona görədir ki, bu dahi siyasətçinin devizi, şüarı türkçülük və onun mühafizəsi ideyalarıdır. Lakin rejimin gözü önündə bunu açıq-aydın şəkildə gerçəkləşdirməyin mümkünsüz olduğunu çox yaxşı bildiyindən, bu siyasəti mövcud siyasətin daxilinə qataraq idarə edirdi. Bu da ulu öndərin uzaqgörən və tədbirli siyasətçi olduğunu bir daha təsdiq edir.

Beləliklə, dahi şəxsiyyət, ümummilli lider, Azərbaycan xalqının Ona əbədi sevgisini ifadə edən

"ulu öndər" titulunu qazanmış Heydər Əliyev Müstəqil Azərbaycanımızın bərpası, yaşaması, daim var olması üçün, özünün də dediyi kimi, ömrünü bu yola həsr etdi. Və O, bütün fəaliyyətinin əsasında dayanan türkçülük düşüncəsinin yaşaması və qorunması ideyasını kəskin irtica rejimində üstüörtülü, müstəqillik dövründə isə vüqarla, əzmlə açıq-aşkar nümayiş etdirərək gerşəkləşdirdi. Bu gün Azərbaycan xalqı milli-mənəvi dəyərlərinin qorunduğu və yaşadığı Müstəqil Azərbaycanın vətəndaşıdır. Bunu biz ulu öndərə borcluyuq. Odur ki, nə qədər Azərbaycan var, Heydər Əliyev yaşayacaqdır.

## ƏDƏBİYYAT

1. Ağaverdi X. Heydər Əliyev və mərasim mədəniyyətimiz / Heydər Əliyev irsi və Azərbaycan folklorşünaslığının aktual problemləri. Bakı: Nurlan, 2013, 192 s.
2. Həbibbəyli İ. "Kitabi-Dədə Qorqud": yazılı epos və ya epopeya. Bakı: Elm, 2020, 280 s.
3. Qasımov C. Heydər Əliyev və "Kitabi-Dədə Qorqud" / Heydər Əliyev irsi və Azərbaycan folklorşünaslığının aktual problemləri. Bakı: Nurlan, 2013, 192 s.

**Aytan Jafarova**

## HEYDAR ALIYEV AND OUR NATIONAL FOLKLORE

Oral folk art is the art of the word, in which the national thought of the people is clearly expressed. The existence of this art in every era of the existence of the human world means that people who live it have deep roots, national values, ancient ideas. And folklore, which received such titles as oral literature, verbal art, folk art, oral literature, etc., expressed the ancient ethical and aesthetic worldview and the psychological world of the people, was born, strengthened and improved in an environment where the basis is meetings that instill human values. In this case, it is significant to perpetuate the samples belonging to the world of folklore, make them long-lived, transfer them from memory to lines to pass them on to future generations. The activity of specialists and scientists alone is not enough to carry out these works. In this case, the care of the state and leadership is simply necessary. The development of Azerbaijani folklore, the collection and publication of samples of our folklore from the memoirs of older bearers in their original form, and most importantly, the collection, publication and transmission to the next generation without prejudice to ancient aesthetic thought and national psychology in them, were carried out in our country even under Soviet rule. However, these issues have been put into practice since the great leader Heydar Aliyev took over the leadership of our country in 1969 and again in 1993, when he returned to power for the second time. Because the leader was a genius who deeply knew the art of oral creativity, expressing the roots, origin and antiquity of his people, and who deeply loved and sympathized with our folklore, which includes national psychology. Therefore, during the historical periods when the great leader ruled Azerbaijan, the development in the field of science and culture accelerated, much attention was paid to the implementation of such important works as the recording and research of our national folklore.

**Keywords:** *leader, folklore, national and moral values, art of oral word, national psychology, example, people.*

**Айтен Джафарова**

## ГЕЙДАР АЛИЕВ И НАШ НАЦИОНАЛЬНЫЙ ФОЛЬКЛОР

Устное народное творчество – это искусство слова, в котором отчетливо выражена национальная мысль народа. Существование этого искусства в каждую эпоху существования человеческого мира означает, что люди, живущие им, имеют глубокие корни, национальные ценности, древние представления. А фольклор, получивший такие титулы, как устная литература, словесное искусство, народное творчество, устная словесность и т. п., выражал древнее этико-эстетическое мировоззрение и психологический мир народа, рождался, укреплялся и совершенствовался в среде, где основой являются встречи, прививающие человеческие ценности. В таком случае очень важно увековечить образцы, принадлежащие миру фольклора, сделать их долгоживущими, перенести их из памяти в строки, чтобы передать будущим поколениям. Одной деятельности специалистов и ученых недостаточно для осуществления этих работ. В этом случае забота государства и руководства просто необходима.

Развитие азербайджанской фольклористики, сбор и публикация образцов нашего фольклора из воспоминаний старших носителей в их первоначальном варианте, а главное, сбор, публикация и передача следующему поколению без ущерба для древней эстетической мысли и национальной психологии в них, проводились в нашей стране еще при советской власти. Однако эти вопросы претворялись в жизнь с тех пор, как великий лидер Гейдар Алиев возглавил нашу страну в 1969 году и вновь в 1993 году, когда он во второй раз вернулся к власти. Потому что вождь был гением, глубоко познавшим искусство устного творчества, выражающего корни, происхождение и древность его народа, и глубоко любившим и сочувствовавшим нашему фольклору, включающему в себя национальную психологию. Поэтому в исторические периоды, когда великий лидер руководил Азербайджаном, ускорялось развитие в области науки и культуры, большое внимание уделялось осуществлению таких важных работ, как запись и исследование нашего национального фольклора.

**Ключевые слова:** *лидер, фольклор, национально-нравственные ценности, искусство устного слова, национальная психология, пример, народ.*

**AYGÜN ORUCOVA**

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN TƏHLİLLƏRİNDƏ CƏLİL MƏMMƏDQULUZADƏ

*Məqalə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin görkəmli ədib Cəlil Məmmədquluzadənin xatirəsinin əbədiləşdirilməsi ilə bağlı gördüyü tədbirlərdən, onun şəxsiyyəti və yaradıcılığı haqqındakı fikirlərindən bəhs edir. Ulu öndər Azərbaycan ədəbiyyatının digər klassikləri kimi Mirzə Cəlilin də yaradıcılığını, "Ölülər", "Anamın kitabı" əsərlərini, "Molla Nəsrəddin" jurnalındakı məqalə və felyetonlarını çox yüksək qiymətləndirmişdir. Onun fikrincə, bu əsərlərin Azərbaycan xalqının milli şüurunun, müstəqillik ideyalarının formalaşmasında mühüm rolu vardır. Onun əsərləri Heydər Əliyevin fikrincə, bu gün də öz aktuallığını qoruyub saxlamışdır.*

**Açar sözlər:** *milli şüur, müstəqillik ideyaları, siyasi xadim, yazıçı, publisist.*

Azərbaycan xalqını çıxılmaz vəziyyətdən, parçalanma, məhv olma təhlükəsindən qoruyaraq onu müstəqil, iqtisadi cəhətdən güclü dövlətlərin sırasına daxil edən, bütün dünyanın ən böyük, uzaqgörən siyasətçi kimi qəbul etdiyi ümummilli liderimiz Heydər Əlirza oğlu Əliyev elmin müxtəlif sahələrində o sahə üzrə ixtisaslaşmış alim qədər zəngin "bilik ehtiyatına, yüksək erudisiyaya, fenomenal yaddaşa, heyrətamiz təhlil qabiliyyətinə, hər bir mövzuya yaradıcı münasibətinə" [2, s. 38] görə elə bir ensiklopedist şəxsiyyətdir ki, əminik ki, Azərbaycan xalqı yaşadığı müddətdə onun adı daim böyük qürur və iftixar hissilə çəkiləcəkdir. Xalqımızın xilaskarının hələ Azərbaycan SSRİ-nin tərkibində olarkən böyük cəsarət tələb edən fikirləri, siyasi fəaliyyəti, dövlət idarəçiliyi cildliklərə sığa bilməyəcək yüzlərlə tədqiqatın obyektidir. Onun təkcə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri, onların yubileylərinin keçirilməsi, ev-muzeylərinin təşkili, əsərlərinin akademik nəşrlərinin hazırlanması, onların dünya dillərinə tərcümə olunub yayılması, ədəbiyyat xadimlərinin hərtərəfli dövlət qayğısı ilə əhatə olunması ilə bağlı gördüyü tədbirlərdən bəhs edən onlarla kitab və monoqrafiyalar yazılmışdır və şübhəsiz ki, bundan sonra da yüzlərlə belə sanballı əsərlər yazılacaqdır. "Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı [1], "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı" [2], "Almaz Ülvi. Ədəbiyyat ömrü yaşayan ədəbiyyat memarı" [5], "Tərlan Novruzov. Heydər Əliyev və ədəbiyyat məsələləri" [3] kitabları belə əsərlərin bariz nümunələridir. İmadəddin Nəsiminin 600 illiyinin YUNESKO-nun tədbirlər planına salınması, Molla Pənah Vaqifin Şuşada məzarının üstündə əzəmətli məqbərənin ucaldılması, Gürcüstanda Mirzə Fətəli Axundovun, Mirzə Şəfi Vazehin məzarlarının abadlaşdırılması və büstlərinin qoyulması, Nəriman Nərimanovun mənzilinin satın alınaraq ev-muzeyə çevrilməsi, 1970-ci ildə 100 illik yubileyinin qeyd edilməsi, 1979-cu ildə "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq haqqında" qərarı, Nizami Gəncəvinin 840 illik yubileyinin qeyd edilməsi ilə bağlı qərarı, Bakıda Cəlil Məmmədquluzadənin ev-muzeyinin yaradılması, 1994-cü ildə onun 125 illik yubileyinin keçirilməsi, həmin ildə Bakı şəhərində, 1999-cu ildə isə Naxçıvanda ev-muzeyinin açılışı, Hüseyn Cavidin anadan olmasının 100 illiyinin keçirilməsi, Məhəmməd Füzulinin 500 illik yubileyinin dünya miqyasında qeyd olunması, 1996-cı ildə Naxçıvanda Hüseyn Cavid məqbərəsinin açılışı və s. tədbirlər ulu öndərimizin Azərbaycan ədəbiyyatına, mədəniyyətinə olan diqqət və qayğısının, hörmət və ehtiramının, vətənpərvərliyinin nəticələri hesab olunmalıdır.

Ulu öndərimizin ədəbiyyata olan tükənməz sevgisi, bağlılığı və marağı, onu həyatının tərkib hissəsi, mənəvi qidası hesab etməsi, dəfələrlə çıxışlarında özünün də qeyd etdiyi kimi, sübut olunmağa ehtiyacı olmayan bir aksiomdur. Bunun səbəbi isə ondadır ki, "sənət həyat üçündür" prinsipinə sadiq

qalan qədim və zəngin Azərbaycan yazılı və şifahi xalq ədəbiyyatı tarixin bütün dönəmlərində ümumxalq mənafeyini müdafiə etmiş, xalqın arzu və istəklərini əks etdirmiş, bədii əsərlərdə vətənpərvərlik ruhu aşılamağı ən ali və müqəddəs vəzifəsi və məqsədi kimi qəbul etmişdir. XX əsrin əvvəllərində xalqımızın milli oyanış və özünüdərk ideyalarına ardıcıl xidmət göstərən görkəmli sənətkarlarımızdan biri də Heydər Əliyevin "ədəbiyyatımızın və mədəniyyətimizin klassiki" adlandırdığı, vətən, millət, dil kimi milli dəyərlər uğrunda mübarizə aparan Cəlil Məmmədquluzadədir. Ədəbiyyatımızın hamisi Heydər Əliyev 1994-cü ildə Cəlil Məmmədquluzadənin ev-muzeyinin fəxri qonaqlar kitabına yazdığı ürək sözlərində bu muzeyin açılışını "Cəlil Məmmədquluzadənin yaradıcılığına, onun ədəbi-mədəni irsinə, xalqımızın tarixinə əvəzsiz xidmətlərinə verilən yüksək qiymətin rəmzi" [2, s. 86] hesab etmişdir. Böyük ədibin öz xalqı qarşısındakı xidmətlərini dövlət səviyyəsində yüksək qiymətləndirən də, xatirəsinin əbədiləşdirilməsi üçün mümkün olan bütün tədbirləri həyata keçirən də, hələ gənc yaşlarından o zaman SSRİ-nin deputatı olan qızı Münəvvər xanımla görüşərək Mirzə Cəlil haqqında ətraflı maraqlanan da Heydər Əliyev olmuşdur. Naxçıvan Muxtar Respublikasının Nehrəm kəndinin ulu öndərimizə doğma və əziz olmasının səbəblərindən birincisi məhz bu kəndin Cəlil Məmmədquluzadə kimi bənzərsiz bir şəxsiyyət yetirməsidir: "Elə Cəlil Məmmədquluzadə kimi bir şəxsiyyət dünyaya gətirdiyinə görə bu Nehrəm kəndi xüsusi hörmətə layiqdir" [3, s. 254]. Ulu öndər üçün Cəlil Məmmədquluzadə təkcə bizim keçmişimiz, ədəbiyyat tariximizin bir dövrü, mərhələsi deyil, o həm də bizim bu günümüz, canlı müasirimizdir. Onun şəxsiyyəti çox az sayda ədiblərə qismət olan həmişəyaşarlıq qazanmışdır, yaradıcılığı isə öz aktuallığı, müasir dövrümüzlə səsləşməyi baxımından diqqəti cəlb edir. Heydər Əliyev Cəlil Məmmədquluzadənin nə özündən əvvəl, nə də sonra yaşamış görkəmli şəxsiyyətlərdən heç kimə bənzəmədiyini xüsusi olaraq vurğulamışdır: "Cəlil Məmmədquluzadə çoxşaxəli yaradıcılığı ilə, əsərləri, maarifçiliyi ilə, elə o dövrdə "Molla Nəsrəddin" jurnalı ilə və başqa fəaliyyəti ilə təkrarolunmaz şəxsiyyətdir. Ümumiyyətlə, ədəbiyyatda, elmdə tarix boyu insanların iki-üç əsrdən sonra bir-birinə bənzərliyi var. Amma Cəlil Məmmədquluzadəyə nə ondan əvvəlki, nə də ondan sonrakı dahi insanlar bənzəyiblər. Onun öz siması var. Onun öz siması da Azərbaycan xalqının inkişafı üçün dəyərli xidmətlər göstərmişdir [3, s. 250]. Maraqlı məqam budur ki, ümummilli liderimiz Mirzə Cəlilin fəaliyyətinin bütün sahələrini eyni dərəcədə qiymətləndirmiş, bunların hamısının bir bütöv, tam halında xalqın azadlıq uğrundakı mübarizəsinə xidmət etdiyini, mədəniyyətimizi zənginləşdirdiyini qeyd etmişdir. Milli şüurun və müstəqillik ideyalarının formalaşdırılmasında Cəlil Məmmədquluzadənin bədii yaradıcılığı, hər birindən qan iyi gələn səhnə əsərləri nə qədər mühüm əhəmiyyət kəsb edirsə, "Molla Nəsrəddin" jurnalı, onun felyeton və məqalələri də bir o qədər əhəmiyyətlidir. Mirzə Cəlilin "Ölülər" tragikomediyası haqqında hələ o illərdə müxtəlif mətbuat orqanlarında S.M.Qənizadə, H.Cavid, N.Nərimanov, N.Vəzirov, Ü.Hacıbəyov və başqalarının çox müxtəlif məzmunlu müsbət fikirləri dərc olunmuşdur. Bu əsəri bəziləri N.Qoqolun "Revizor", bəziləri Viktor Hüqonun "Səfillər" əsərlərilə müqayisə etmişlər. Ümummilli lider isə "Ölülər"i hətta V.Şekspirin əsərlərilə də müqayisə etməyi düzgün hesab etməyərək onu dünya ədəbiyyatında analoqu olmayan bir əsər adlandırmış, bu əsərin öz müəllifinin həm nə qədər filosof, psixoloq olduğunu, həm də yalnız özünəməxsus yaradıcılığa, fitri istedada malik olduğunu əks etdirdiyini bildirmişdir. Onun fikrincə, əsərin ən mütərəqqi cəhəti isə müasir dövrümüzün insanlarına da lazım olmağıdır. Çünki tarixin istənilən dövründə mövhumata inanan insanlar qrupu olmuşdur: "Ölülər əsəri ölməz əsərdir. O, yazıldığı vaxt da lazım idi, o, bizə bu gün də lazımdır" [2, s. 92]. Eyni zamanda əsl ziyalı kimi Heydər Əliyev bu əsərin ədəbiyyatşünaslıqda sosialist ideologiyası ilə ateizm təbliğ edən bir əsər kimi qələmə verilməsinə də qarşı çıxaraq, əsərin dini deyil, dini mövhumatı, dinə qazanc mənbəyi kimi baxanları, onu öz çirkin əməllərinə uyğun şəkildə təhrif edərək yozanları tənqid hədəfi seçdiyini, islami dəyərlərin isə bizim bütün klassik ədəbiyyatımızdan qırmızı xətlə keçdiyini xüsusi olaraq vurğulamışdır.

Ulu öndərimizin fikrincə, Cəlil Məmmədquluzadənin doğma xalqı qarşısındakı ən mühüm xidmətlərindən biri də onun XX əsrin əvvəllərində ana dilimizi ərəb-fars, rus-Avropa və Osmanlı dilinin yad ünsürlərindən qoruyaraq ümumxalq danışıq dilinə əsaslanan bir ədəbi dil nümunəsi təqdim etməyində və dilimizin saflaşdırılması üçün ən kəsərli vasitələrdən istifadə etməyindədir. Hörmətli akademik İsa Həbibbəylinin və digər ədəbiyyatşünasların "Azərbaycanın kitabı", "Azərbaycannamə" hesab etdikləri "Anamın kitabı" dramını ümummilli liderimiz "Azərbaycan üçün çox dahiyanə əsər" hesab edərək onun aktuallığından da söz açmışdır: "1918-ci ildə olduğu kimi əsrin sonunda ikinci dəfə müstəqilliyinə qovuşan Azərbaycan da Cənubdan, Şimaldan və Qərbdən gələn təzyiqlərə və təsirlərə sinə gərməli olmuşdur" [2, s. 92]. Biz müdrik siyasətçimiz Heydər Əliyevin fəaliyyətində dilimizə böyük diqqət və qayğının, sonsuz sevginin ən yüksək təzahürünün dəfələrlə şahidi olmuşuq. Hələ 1978-ci ildə, totalitar ideologiyanın təzyiqi altında Heydər Əliyev böyük cəsarət göstərərək Azərbaycan dilini dövlət dili kimi Azərbaycan SSR-in yeni Konstitusiyasına daxil etmişdi. "Onun "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli fərmanı və "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 9 avqust 2001-ci il tarixli fərmanı böyük tarixi-siyasi əhəmiyyətə malikdir" [4].

Cəlil Məmmədquluzadəni Heydər Əliyevə yaxınlaşdıran ən mühüm cəhətlərdən biri, daha doğrusu, birincisi onun xalqın taleyilə bağlı məsələlərdə xüsusi fəallıq göstərməsi, ictimai-siyasi proseslərə fəal vətəndaş, demokratiya tərəfdarı olan bir ziyalı kimi hər kəsdən öncə münasibət bildirməsi, müstəqillik ideyalarının formalaşmasında çox mühüm xidmət göstərməyidir. Ümummilli liderimiz Azərbaycan xalqının öz azadlığı, müstəqilliyi uğrunda apardığı mübarizəni Mirzə Cəlilsiz təsəvvür etməyin mümkün olmadığını, buna görə ona ancaq bir ədəbiyyatçı, yazıçı, publisist kimi yox, həm də böyük siyasətçi kimi yanaşmaq lazım olduğunu bildirmişdir: "Cəlil Məmmədquluzadə öz yaradıcılığı ilə, əsərləri ilə, publisistikası ilə, mətbuatçılıq fəaliyyəti ilə Azərbaycan xalqının milli oyanışında, milli dirçəlişində əvəzsiz rol oynamışdır. Xalqımızın milli şüurunun formalaşmasında məhz "Molla Nəsrəddin" jurnalının və Mirzə Cəlilin fəaliyyətinin rolu misilsizdir" [2, s. 88]. Ulu öndər müstəqillik ideyalarının ifadə olunması baxımından Mirzə Cəlilin "Cümhuriyyət" məqaləsinin xüsusi dəyərə malik olduğunu qeyd edərək bu məqalənin müəllifini Azərbaycanın çağdaş tarixindəki böyük demokratlardan biri adlandırmışdır.

Azərbaycan ədəbiyyatşünaslığında həmişə yüksək qiymətləndirilən Cəlil Məmmədquluzadənin yaradıcılığına dəyişən zaman və şərait daxilində yenidən müraciətin zəruri olduğunu da ilk dəfə böyük uzaqgörən şəxsiyyət olan Heydər Əliyev vurğulamışdır. Əgər vaxtilə böyük satirik şairimiz Mirzə Ələkbər Sabir özünü dəryada qərar tutan bir qocaman dağa bənzədirdisə, ümummilli liderimiz Cəlil Məmmədquluzadə yaradıcılığını elə o dibi görünməyən dəryanın özünə bənzətmişdir: "Doğrudur, Cəlil Məmmədquluzadə yaradıcılığı elə bir dəryadır ki, o dəryanın dibinə gedib çatmaq, hamısını əhatə etmək mümkün deyildir. Güman edirəm ki, hələ bir neçə nəsil Azərbaycan tarixçisi, ədəbiyyatşünası, sənətşünası, siyasətşünası, alimi Cəlil Məmmədquluzadə xəzinəsini araşdıracaq, onu tədqiq edərək yeni kəşflər edəcəkdir" [2, s. 87]. Xalqımızın xilaskarı, ədəbiyyatımızın hamisi Heydər Əliyevin söylədiyi bu sözlər mirzəcəlilşünaslıqda çox mühüm addımların atılmasına və alimlərimizin dəyərli elmi-tədqiqat əsərlərinin meydana gəlməsinə səbəb olmuşdur. Cəlil Məmmədquluzadənin Naxçıvan şəhərində ev muzeyi Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1998-ci il 31 dekabr tarixli sərəncamı ilə yaradılmış, 13 oktyabr 1999-cu ildə baş tutmuş muzeyin açılış mərasimində şəxsən iştirak edən Heydər Əliyev nitq söyləmişdir. Çıxışının sonunda o, Mirzə Cəlil irsinin, şəxsiyyəti və xidmətlərinin Azərbaycan xalqının qəlbində yaşayacağını bildirmişdir. Bu gün ümummilli liderimizin siyasi kursu onun layiqli davamçısı İlham Əliyev tərəfindən həyata keçirilir. Onun 23 yanvar 2006-cı il tarixli sərəncamına əsasən "Molla Nəsrəddin" jurnalının 100 illik yubileyi respublikamızda layiqincə

qeyd olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamlarına uyğun olaraq görkəmli yazıçı Cəlil Məmmədquluzadənin 140, 150 illik yubileylərinin qeyd olunması fikrimizi bir daha təsdiqləyir.

Sonda onu qeyd etmək istərdim ki, ulu öndər Heydər Əliyevin Cəlil Məmmədquluzadə şəxsiyyətinə, yaradıcılığına və fəaliyyətinə verdiyi yüksək dəyər təkcə mirzəcəlilşünaslıq, ədəbiyyatşünaslıq elmində deyil, həm də azərbaycanşünaslıq tarixində mühüm əhəmiyyətə malikdir. Heydər Əliyev Azərbaycan ədəbiyyatının klassiklərinə təkcə büst və heykəllər ucaltmaqla qalmamış, eyni zamanda haqqındakı dəyərli və heç bir dəyişikliyə uğraya bilməyəcək fikirlərilə onlara ən nəhəng mənəvi abidəni də ucaltmışdır. Əvəzolunmaz ümummilli liderimizin xalqımızın qəlbində və fikirlərində əbədi yaşayacağına əminik!

## ƏDƏBİYYAT


1. Əliyev H. Ədəbiyyatın yüksək borcu və amalı: Nitqlər, məruzələr, çıxışlar. Bakı: Ozan, 1999, 496 s.
2. Quliyev V. Heydər Əliyev və klassik ədəbi irsimiz / Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı: Elm, 1998, 178 s.
3. Novruzov T. Heydər Əliyev və ədəbiyyat məsələləri. Bakı: ADPU Nəşriyyatı, 2007, 400 s.
4. Şəmsizadə N. Heydər Əliyev və azərbaycançılıq // http://www.anl.az/
5. Ülvi A. Ədəbiyyat ömrü yaşayan ədəbiyyat memarı. Bakı: Nurlan, 2004, 80 s.



***AMEA Naxçıvan Bölməsi***
***E-mail: orujovaaygun82@gmail.com***

**Aygun Orujova**


## JALIL MAMMADGULUZADEH IN CONSIDERATION OF THE NATIONAL LEADER HEYDAR ALIYEV


The article studies national leader Heydar Aliyev's reflections on literary activity and personality of the famous writer Jalil Mammadguluzadeh. It also deals with Heydar Aliyev's taking some measures to immortalize Jalil Mammadguluzadeh's memory. The national leader of Azerbaijan highly values his literary activity, especially his works "The deads", "My mother's book". Great leader appreciates articles and feuilletons in "Molla Nasreddin" journal. Heydar Aliyev thinks that these works play a great role in the formation of national consciousness and formation of idea about independence of Azerbaijan people. His works, as Heydar Aliyev notes, steel keep their actuality today.



**Keywords:** *national consciousness, idea of independence, politician, writer, publicist.*



**Айгюн Оруджева**


## АНАЛИЗ ТВОРЧЕСТВА ДЖАЛИЛА МАМЕДГУЛУЗАДЕ ОБЩЕНАЦИОНАЛЬНЫМ ЛИДЕРОМ ГЕЙДАРОМ АЛИЕВЫМ


В статье рассказывается о мерах по увековечиванию памяти выдающегося писателя Джалила Мамедгулузаде, предпринятых общенациональным лидером азербайджанского народа

Гейдаром Алиевым, его размышлениях о личности и творчестве писателя. Великий лидер высоко оценивал творчество Мирзы Джалиля, как и других классиков азербайджанской литературы, в особенности его произведения «Мертвые», «Книга моей матери», статьи и фельетоны в журнале «Молла Насреддин». По его словам, эти произведения играют важную роль в формировании национального самосознания азербайджанского народа и идеи независимости. По словам Гейдара Алиева, его произведения сохранили свою актуальность и сегодня.

**Ключевые слова:** *национальное самосознание, идея независимости, политический деятель, писатель, публицист.*

**TEHRANƏ XUDAVERDİYEVA**

# ULU ÖNDƏR HEYDƏR ƏLIYEV VƏ NAXÇIVAN (1990-1993)

*Müstəqilliyimizin bərpası, Azərbaycançılıq ideyaları uğrunda yorulmadan mübarizə aparan ulu öndər Heydər Əliyevin ictimai-siyasi fəaliyyətinin araşdırılması H.Əliyev şəxsiyyətinin dəyərini ortaya çıxarır. Azərbaycan Respublikasının müstəqilliyinin təmin edilməsində və möhkəmləndirilməsində müstəsna fəaliyyət göstərmiş siyasi xadim Heydər Əliyevin gördüyü işlər, həyata keçirdiyi ideyalar məqalədə diqqət mərkəzində saxlanılır.*

*Məqalə yenidən qazanılmış müstəqilliyin qorunmasında əvəzsiz xidmətlər göstərmiş ümummilli lider Heydər Əliyev şəxsiyyəti və onun hakimiyyətinin Naxçıvan dövrünü tədqiq edir. 1990-1993-cü illərdə Naxçıvanla bağlı qəbul edilən tarixi qərarlar, həyata keçirilən tədbirlər, habelə Naxçıvanda daxili və xarici siyasətin həyata keçirilməsində yerinə yetirilən işlər, ümummilli liderin Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında gördüyü işlər, Naxçıvanın muxtariyyət statusunun qorunması, bölgənin erməni təcavüzündən xilası yolunda atılan addımlar, muxtar respublikada elmin, təhsilin, mədəniyyətin inkişafı, ordu quruculuğu sahəsində həyata keçirilən işlər məqalədə əhatəli şəkildə araşdırılır.*

*Məqalədə 1990-1993-cu illərdə ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasındakı siyasi fəaliyyəti dövründə muxtar respublikanı geniş tərəqqi yoluna çıxarması məsələləri, blokada şəraitində yaşayan Naxçıvanın və naxçıvanlıların öz dövlətinə və rəhbərinə sonsuz inamı sayəsində xalqımızın əldə etdiyi nailiyyətlər xüsusi olaraq vurğulanır. Dövlət müstəqilliyinin bərpasının ölkəmizin hər bir vətəndaşı üçün ən böyük sərvət hesab olunması, onun bərpasında əvəzsiz xidmətlər göstərmiş ümummilli liderinin həyatında müstəsna əhəmiyyət daşıyan hakimiyyətinin Naxçıvan dövrü və müstəqillik illərində zəngin inkişaf yolunda qazanılan parlaq nailiyyətlər, ulu öndərin çoxcəhətli siyasi fəaliyyəti, müstəqilliyə aparan yolda Azərbaycanın inkişafı naminə gördüyü işlər də məqalədə öz əksini tapır.*

**Açar sözlər:** *ümummilli lider, müstəqillik, xarici siyasət, iqtisadi-siyasi məsələlər, ulu öndər, muxtariyyət statusu, dövlətçilik ənənələri, Azərbaycançılıq, şəxsiyyət.*

Hər bir xalqın dəyəri onun öz müstəqilliyinə nə qədər can atması və onu necə qorumağa çalışması ilə ölçülür. Azərbaycan xalqı da öz müstəqilliyini, milli dəyərlərini daim yüksək tutan və öz milliliyini qorumağı bacaran bir xalq kimi zaman-zaman mübarizə aparmış, istər sərhədlərinin qorunmasında, istərsə də ölkədə daxili sabitliyin qorunmasında böyük əzm nümayiş etdirərək tarixin hər bir sınağından üzüağ çıxmışdır. Bunun əsas səbəbi Azərbaycan torpağının tarix boyu yetişdirdiyi şəxsiyyətlərin Azərbaycan üçün etdikləri əməllərdir. Bu tarixi şəxsiyyətlər xalqın əvəzsiz sərvətidir. Belə tarixi şəxsiyyətlərdən biri də Heydər Əliyevdir. O, ictimai-siyasi fəaliyyətinin bütün dövrlərində Azərbaycan xalqına ləyaqətlə xidmət göstərmiş şəxsiyyətlərdəndir. Ümummilli lider titulu qazanmış Heydər Əliyevin siyasi fəaliyyətini aşağıdakı kimi qruplaşdırmaq olar:

1. 1969-1982-ci illərdə Azərbaycana rəhbərliyinin I dövrü
2. 1982- 1987-ci illərdə fəaliyyətinin Moskva dövrü
3. 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə rəhbərliyi dövrü
4. 1993-2003-cü illərdə müstəqil Azərbaycan Respublikasına rəhbərliyi dövrü

1969-cu ilin iyulunda hakimiyyətə gələn Heydər Əliyev Azərbaycanın, o cümlədən, Naxçıvanın həm sosial-iqtisadi, həm də mədəni baxımdan inkişaf etdirilməsinə xüsusi diqqət ayırmış və Azərbaycanı geridə qalmış bölgədən inkişaf etmiş sənaye, kənd təsərrüfatı, elm, təhsil və mədəniyyət mərkəzinə çevrilməsinə nail olmuşdur. Heydər Əliyevin Azərbaycanda, eləcə də, doğulub boya-başa çatdığı Naxçıvan torpağında apardığı dövlət siyasəti, həyata keçirdiyi məqsədyönlü işlər bu gün müstəqil ölkənin müstəqil vətəndaşlarının ürəyini qürur hissi ilə doldurur.

Məlum olduğu kimi, ümummilli liderin siyasi fəaliyyətinin Naxçıvan dövrü 1990-1993-cü illəri əhatə edir. Bu dövr ərzində Naxçıvan Muxtar Respublikası özünəməxsus inkişaf yolu keçmişdir. Ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəlləri Azərbaycanın hər bir bölgəsində, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi hadisələrin qızğın dövrü hesab olunur. Məhz bu dövrdə sovet imperiyası Azərbaycanın maraqlarına zidd siyasət aparır, ermənilərin Naxçıvana saxta ərazi iddiaları və sərhədlərdə baş verən hərbi toqquşmalar muxtar respublikanın həyatına da öz ciddi təsirini göstərirdi. Bu dövrdə bütün Azərbaycanda, o cümlədən, Naxçıvanda xalqın azadlıq uğrunda apardığı mübarizəyə rəhbərlik edəcək, hərtərəfli siyasi təcrübəyə və xüsusi diplomatik qabiliyyətə malik rəhbər lazım idi. Belə bir rəhbər Azərbaycanın görkəmli dövlət xadimi Heydər Əliyev idi və o, bu dövrdə muxtar respublikanın sosial, iqtisadi və siyasi həyatında dönüş yaradan bir sıra işlərə rəhbərlik etməklə Naxçıvanı qorumağa və irəli aparmağa müvəffəq olmuşdur. Heydər Əliyev atdığı hər addımda azərbaycançılıq ideyalarını əldə rəhbər tutaraq xalqın milli-mənəvi dəyərlərinin qorunmasına və inkişaf etdirilməsinə xüsusi diqqət yetirmişdir.

1990-cı il iyulun 20-də Moskvadan Bakıya, iyulun 22-də isə doğulduğu Naxçıvana gələn Heydər Əliyev boya-başa çatdığı doğma Naxçıvanda sevgi və məhəbbətlə qarşılanmış və beləliklə də ümummilli liderin hakimiyyətinin Naxçıvan dövrü başlamışdır. Heydər Əliyev Moskvadan qayıtdıqdan sonra 21 avqust 1990-cı ildə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının (MSSR) Ali Sovetinin Rəyasət heyəti H. Əliyevin muxtar respublika vətəndaşlığı haqqında qərar qəbul etmiş və o 30 sentyabr seçkilərində Nehrəm seçki dairəsindən Azərbaycan SSR-nin xalq deputatlığına, Naxçıvan Alt Trikotaj fabriki kollektivi tərəfindən isə Naxçıvan MSSR-in xalq deputatlığına seçilmişdir.

Heydər Əliyevin həyat və fəaliyyəti naxçıvanlı tədqiqatçıların da daim diqqət mərkəzində olmuş, alimlərimiz bu istiqamətdə müntəzəm olaraq geniş tədqiqatlar aparmışlar. İ.Hacıyev, İ.Həbibbəyli, M.Rzayev, F.Səfərli, E.Cəfərli, M.Şabanov və başqaları ümummilli liderin Azərbaycan gənclərinə nümunə olacaq həyat yolu, dövlətçilik tariximizdəki fəaliyyəti haqqında qiymətli əsərlər yaratmaqla bu dövrü daha ətraflı təhlil etmişlər. Bu əsərlər ulu öndərin Naxçıvandakı fəaliyyətini hərtərəfli şəkildə əks etdirən dəyərli mənbələrdir. Bu mənbələrdə qeyd olunur ki,1990-cı ilin noyabr ayının 17-də 12-ci çağırış Naxçıvan MSSR-in Ali Məclisinin ilk sessiyası Heydər Əliyevin sədrliyi ilə keçirilmiş və bu sessiyada çox mühüm tarixi əhəmiyyətli qərarlar qəbul olunmuşdur. Bu qərarlardan biri də Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilərək Naxçıvan Muxtar Respublikası adlandırılması qərarı idi. Naxçıvan MSSR Ali Sovetinin adının dəyişdirilərək Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılması, Azərbaycan Respublikasının milli istiqlal rəmzi olan üçrəngli dövlət bayrağının bərpası, onun Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərarlar tarixi əhəmiyyətli qərarlardır və bu qərarların qəbulu Heydər Əliyev hakimiyyətinin Naxçıvan dövrünə təsadüf edir. Bu qərarların davamı kimi Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan SSR Ali Sovetinin qarşısında həmin bayrağın bütünlükdə Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırması 90 cı illər Naxçıvanında Heydər Əliyev siyasətinin aparıcı xəttini təşkil edirdi.

Heydər Əliyev Naxçıvanda hakimiyyətdə olduğu illərdə belə Azərbaycanda baş verən heç bir hadisəyə biganə qalmırdı. Məhz onun təklifi ilə Naxçıvan MR Ali Məclisinin birinci sessiyasında müzakirə olunan ən mühüm məsələlərdən biri də 1990-cı il 20 yanvar faciəsinə siyasi qiymət verilməsi məsələsi olmuşdur. 1990-cı il noyabrın 21-də Naxçıvan MR Ali Məclisi Heydər Əliyevin işləyib hazırladığı "1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" qərar qəbul etməsi qüdrətli siyasətçinin dünya ictimaiyyətinə bu soyqırıma laqeyd qalmamasına çağırışı idi.1990-cı il dekabr ayının 14-də Naxçıvan MR Ali Məclisi deputat Heydər Əliyevin hazırladığı "Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində, Şaumyan rayonunda və Xanlar rayonunun Çaykənd

kəndində yaranmış vəziyyətə münasibət haqqında" qərar qəbul etməsi buna başqa bir əyani sübutdur.

Heydər Əliyevin siyasi bacarığına, dühasına, siyasi təcrübəsinə təkcə xalq deyil, eləcə də səlahiyyətli şəxslərin dərin inamı 1991-ci il 3 sentyabrda Naxçıvan MR Ali Məclisinin fövqəladə sessiyasında Heydər Əliyevin yekdilliklə Ali Məclisin sədri seçilməsi ilə nəticələnmişdir. Bu vəzifəyə seçilən ulu öndər Naxçıvanın o ağır illərdə xilası və irəli getməsi üçün səylə, yorulmadan, usanmadan çalışmış və öz məqsədinə nail olmuşdur. O, blokada şəraitində yaşayan Naxçıvanı qorumaqla yanaşı, onun inkişafı üçün də gecə-gündüz səylə çalışırdı.

Azərbaycanın ən kütləvi siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyasının təsis edilməsi, qısa müddət ərzində böyük nüfuz qazanması da ümummilli liderin fəaliyyətinin Naxçıvan dövrünə təsadüf edir. Bu gün bu partiyanın nüfuzu və yürütdüyü uğurlu siyasət Heydər Əliyev uzaqgörənliyinin nəticəsidir.

Ümummilli lider Heydər Əliyev üçün milli-mənəvi dəyərlərin qorunması həmişə ön planda olmuşdur. Oktyabrın 26-da keçirilən Naxçıvan Muxtar Respublikası Ali məclisinin sessiyasında Naxçıvanda 7 noyabr bayramının (keçmiş SSRİ-də keçirilən Oktyabr inqilabı günü) ləğv edilməsi haqqında qəbul olunan qərar buna parlaq misaldır. Bu qərar xalqı öz kökünə daha çox bağlanmağa və milli dəyərlərimizi qorumağa yönəlmiş bir qərar idi. Milli-mənəvi dəyərlərimizə dərin hörmət və ehtiramla yanaşan ulu öndər gənclərin milli ruhda tərbiyə olunması üçün öz tarixini, ədəbiyyatını, musiqisini, dərindən öyrənmələrini diqqət mərkəzində saxlamağı tövsiyə edirdi.

H.Əliyevin Naxçıvandakı fəaliyyətində ən uğurlu qərarlardan biri də Dünya Azərbaycanlılarının həmrəylik və birlik günü haqında fərman verməsi olmuşdur. Bu fərmanla o müstəqilliyini ikinci dəfə qazanmış bir dövlətə bütün Dünya Azərbaycanlılarının birlik olması üçün yerindəcə göndərilmiş bir mesaj idi.

Heydər Əliyev hakimiyyətinin Naxçıvan dövrünü vərəqlədikcə 1991-ci il 29 oktyabrda H. Əliyevin ciddi səyi ilə başa gəlmiş Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunda Azərbaycanla Türkiyə arasında Araz çayı üzərindən salınmış müvəqqəti körpünün rəsmi açılış mərasiminin misilsiz əhəmiyyətini qeyd etməmək qeyri-mümkündür. Məlumdur ki, 1992-ci il 22-25 martda Türkiyədə Baş nazir Süleyman Dəmirəllə Türkiyə Cümhuriyyəti tərəfindən Naxçıvan Muxtar Respublikasına maliyyə, iqtisadi və texniki yardım göstərilməsi barədə, 100 milyon dollar məbləğində kredit ayrılması və hər il 100 tələbənin Türkiyədə təhsil almasını nəzərdə tutan birgə Əməkdaşlıq Protokolu imzalanması bu işlərin uğurlu davamı idi. 1992-ci il may ayının 28 -də Naxçıvanla Türkiyə arasında Araz çayı üzərində tikilmiş "Ümid" körpüsünün açılışı " Bir millət iki dövlət" arasındakı siyasi, iqtisadi və mədəni əlaqələrin bərpasının təməli idi.

Heydər Əliyev Naxçıvanda işlədiyi dövrdə təksə Türkiyə ilə deyil, həmçinin İran İslam Respublikası ilə də sıx əməkdaşlıq etmişdir. Belə ki, 1992-ci il 22-26 avqustda H.Əliyev İran İslam Respublikasına səfər etmiş, ali dini lider Ayətulla Xameneyi və İran İslam Respublikasının prezidenti Əli Əkbər Rəfsəncani və digər rəsmi şəxslərlə görüşmüş və bu səfərin nəticəsi kimi Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında müxtəlif sahələrdə əməkdaşlığa dair protokollar imzalanmışdır. Məhz bu dövrdə -1992-ci ildə İran və Türkiyə ilə bağlanmış əməkdaşlıq müqavilələri əsasında, Sədərək, Culfa və Şahtaxtı keçid məntəqələri yaradılmış, eləcə də, Naxçıvan şəhəri yaxınlığında İstilik-Elektrik Stansiyası inşa edilmişdir.

H.Əliyevin yürütdüyü xarici siyasətin nəticəsi kimi İran İslam Respublikasından Culfa rayonuna, Türkiyə Respublikasının İqdır vilayətindən isə 92 kilometrlik bir məsafədən yüksək gərginlikli elektrik xətlərinin Naxçıvana çəkilməsi Naxçıvanın elektrik enerjisinə olan ehtiyacını qismən ödəməklə blokada şəraitində yaşayan Naxçıvanın inkişafına təkan verdi. Görkəmli dövlət xadimi Heydər Əliyevin 1990-cı ildə yenidən siyasi hakimiyyətə qayıdışı ölkə ərazisində ictimai-siyasi sabitliyin yaradılmasına, sosial-iqtisadi inkişafın təminatı üçün mühüm işlərin həyata keçirilməsinə, eləcə də, digər sahələrin inkişafına şərait yarandı.

Respublikanın rəhbəri kimi Heydər Əliyev hakimiyyətinin ilk illərində milli-mənəvi dəyərlərin qorunmasına, Azərbaycanın elmi potensialının inkişafına böyük diqqət göstərmişdir. Məhz həmin dövrdən Azərbaycan, azərbaycanlılar məfhumu ittifaq miqyasında daha geniş şəkildə işlənməsi diqqəti cəlb edir. Heydər Əliyevin milli-mənəvi dəyərlər sahəsindəki davamlı siyasəti nəticəsində Azərbaycan tarixi, mədəniyyəti kompleks şəkildə araşdırılmış, tarixən formalaşmış milli mədəniyyətimizə dövlət səviyyəsində münasibət göstərilmişdi. Heydər Əliyevin siyasi hakimiyyətinin Naxçıvan dövründə həyata keçirdiyi geniş miqyaslı siyasi-ideoloji, iqtisadi-mədəni, ədəbi-tarixi tədbirlər gələcəkdə qurulacaq milli dövlətimizin möhkəm təməlini, etibarlı bünövrəsini təşkil etmişdir [5, s. 3-7].

İtirilmiş dövlətçilik ənənələrinin yenidən dirçəldilməsi, Azərbaycan xalqının ən böyük milli dəyəri olan müstəqil Azərbaycan dövlətinin yaradılması yolundakı atdığı mühüm addımlar Heydər Əliyev siyasətinin başlıca qayəsi idi. Bu dövrdə Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının həyatında böyük tarixi qərarlar qəbul edilmişdir. Naxçıvan Muxtar Respublikasının, onun ali hakimiyyət orqanının adları dəyişdirilmiş, Azərbaycan Xalq Cümhuriyyətinin üç rəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı, kimi qəbul olunmuşdu. Heydər Əliyevin Naxçıvanın muxtariyyət statusunun qorunub saxlanılması yolunda da misilsiz xidmətləri olmuşdur. Belə ki, 1991-ci il yanvarın 11-də onun təşəbbüsü ilə Naxçıvan MR Ali Məclisi Moskva və Qars müqavilələrinin iştirakçısı olan dövlətlərə bəyanat verərək onları muxtar respublikanın ərazi bütövlüyünün erməni təcavüzü nəticəsində pozulması faktına münasibət bildirməyə çağırmışdır [2, s. 37-42].

Heydər Əliyev hakimiyyətinin Naxçıvan dövründə Naxçıvan muxtariyyətinin beynəlxalq müqavilələrlə, muxtar respublikanı hərbi müdaxilə təhlükəsindən diplomatik yolla qorumaq istiqamətində mühüm səylər göstərmiş, milli-mənəvi dəyərlərimizdən olan dövlətçiliyimizin qorunmasına nail olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1991-ci ilin dekabrın 16-da keçirilmiş sessiyasında Ali Məclisin Sədri Heydər Əliyev milli birlik və həmrəyliyin milli-mənəvi dəyərlərimizdən olmasını ön plana çəkərək dünyadakı Azərbaycan türklərinin Milli Həmrəylik və Birlik Günü haqqında məsələnin müzakirə olunmasını gündəlikdə duran məsələlər sırasına daxil etmiş və 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik və Birlik Gününün elan olunması, hər il onun bayram kimi qeyd edilməsi qeyri-iş günü hesab edilməsi haqqında tarixi qərarın qəbul olunmasına nail olmuşdur [ 8, s. 290].

Azərbaycan mədəniyyətinin, elminin inkişafına bütün həyatı boyu layiqli töhfələr vermiş Heydər Əliyev Naxçıvanın çətin, dözülməz şəraitdə yaşamasına baxmayaraq naxçıvanlı gənclərin yüksək səviyyədə təhsil almaları sahəsində xeyli işlər görmüşdür. Ulu öndər elmin, təhsilin, mədəniyyətin inkişafına mühüm milli strateji məsələ kimi baxaraq, o dövrün mürəkkəb və çətin şəraitində muxtar respublikanın təhsil və mədəniyyət sistemini, ziyalı potensialını qoruyub saxlamaqla, təhsilin kəmiyyət və keyfiyyət göstəricilərinin aşağı düşməsinin qarşısını almağa, təhsil müəssisələrini siyasi proseslərdən kənarda saxlamağa çalışmışdır və Naxçıvan Dövlət Universitetinin də inkişafı üçün yeni ixtisasların açılmasına müvəffəq olmuşdur. Həmin dövr üçün böyük əhəmiyyət kəsb edən hərbi hazırlıq ixtisasının açılması bu işlərin davamı idi. İndi qürurla və həvəslə işlədiyim Xarici Dillər fakültəsində ingilis dili ixtisasının açılması üçün müraciət etmiş gənclərdən biri kimi ulu öndərin bu ixtisasın Naxçıvanda yaxın gələcəkdə açılması ilə bağlı cavab məktubu 90cı illər gənclərinin qaranlıq dünyasına açılan bir pəncərə idi. İllər sonra 1998-ci ildə Naxçıvan Dövlət Universitetində ingilis dili ixtisasının açılması, bu ixtisasın ilk məzunu olmasam da, ilk müəllimlərindən olmağım ulu öndərin öz sözündəki qətiyyətliliyinin göstəricisidir.

Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisin Sədri vəzifəsində işlədiyi illərdə milli-mənəvi dəyərlərimizin inkişafındakı ən əhəmiyyətli xidmətlərindən birinin də teatrlarımıza yeni həyat verilməsi sahəsindəki verdiyi qərarlar idi [6, s. 21].

Hər bir xalqın tarixində müstəsna xidmətləri olan böyük şəxsiyyətlərin elm və təhsilə münasibəti, bu sahələrin inkişafına verdikləri töhfələr onların əbədiyaşarlığını təmin edən başlıca amillərdən biridir. Müasir Azərbaycan dövlətinin qurucusu ümummilli lider Heydər Əliyev də belə şəxsiyyətlərdəndir. O, idarəçiliyinin bütün mərhələlərində elm və təhsilin inkişafına xüsusi qayğı ilə yanaşmış və xalqın intellektual səviyyəsinin inkişafı qətiyyətli dövlət xadimini həmişə düşündürmüşdür. Heydər Əliyev elm və təhsil sahəsində qazanılan nailiyyətləri dövlət quruculuğu prosesinin vacib şərti hesab etmiş və milli təhsil sisteminin mütərəqqi prinsiplər əsasında inkişafı naminə bütün zəruri addımları həyata keçirmişdir.

Məlumdur ki, hər bir xalqın tarixi yetkinləşmə və təkamül prosesinin əsas qayəsini dövlətçilik ənənələri ilə yanaşı, həm də onun milli-mənəvi irsi, məfkurəsi və düşüncə sistemi təşkil edir. Zəngin milli-mənəvi dəyərlərə malik olan Azərbaycan xalqının dünya siyasi arenasında öz sözünü demiş bir siyasətçi yetişdirməsi xalqın sağlam milli-mənəvi dəyərlərə malik olmasından xəbər verir. Azərbaycan tarixinə nəzər salarkən aydın olur ki, Heydər Əliyev əsrlərin görəcəyi bir işi – Azərbaycanın öz müstəqilliyinə yenidən qovuşması işini bir əsrin illərinə sığdırmış bir dünya lideridir.

Ümummilli lider dövrün tələblərinə cavab verən fəal maarifçilik kursunun həyata keçirilməsi, mütərəqqi yeniliklərin tətbiqi yolu ilə milli təhsil sisteminin müasirləşdirilməsi, dövlət idarəçiliyi üçün yüksək mənəvi-əxlaqi keyfiyyətləri, intellekti, savadı ilə fərqlənən ixtisaslı kadrların yetişdirilməsi kimi təxirəsalınmaz məsələləri fəaliyyətinin bütün mərhələlərində prioritet məsələlər kimi ön plana çəkmişdir.

Heydər Əliyev şəxsiyyətinin kamilliyi onun mənəvi tərbiyə ilə bağlı ifadə etdiyi fikirdə daha aydın ifadə olunmuşdur: "Müstəqilliyimizi daimi etmək, ərazilərimizi bütün təcavüzlərdən – bugünkü və gələcək təcavüzlərdən qorumaq üçün cəmiyyətimizə, xalqımıza, ölkəmizə milli birlik, mənəvi həmrəylik, vətəndaş həmrəyliyi lazımdır" [4, s. 78].

Ümummilli lider təhsilə xüsusi önəm verərək deyirdi: "Təhsil millətin gələcəyidir". Azərbaycan dövlətinin qurucusunun elm və təhsil sistemində yaratdığı möhkəm bünövrə çağdaş tariximizdə bu sahəyə dövlət qurucusunun gərgin daim diqqət və qayğı göstərməsinin nəticəsidir. Məhz bu dövrdə muxtar respublikamızda da Ali təhsil müəssisələrində yeni ixtisasların təşkili, ixtisaslı kadrlar hazırlayan yeni Ali məktəblərin açılması, fundamental və humanitar elmlərin inkişafı, əldə olunan kəşflərin, ixtiraların elmin bütün sahələrində tətbiqi ulu öndərin təhsil siyasətinin əsasını təşkil etmişdir.

Zaman keçdikcə ümummilli liderin, dünya şöhrətli siyasətçi Heydər Əliyevin Naxçıvan üçün gördüyü işləri araşdırdıqda, 90-cı illərdə onun Naxçıvanda olması və yaşaması Muxtar Respublikanı gözləyən təhlükələrdən xilas etməsinin səbəbkarı olmasını qeyd etməyə bilmərik. Belə ki, uzaqgörən siyasətçinin müdrikliyi, xalqımızın ona sarsılmaz inamı Naxçıvanın və naxçıvanlıların xilasının əsas səbəbi idi.

Ulu öndər Heydər Əliyev Naxçıvan Muxtar Respublikasında Ali Məclisin sədri olduqdan sonra ictimai-siyasi həyatın bir sıra sahələrində, eləcə də, elm və təhsil sahəsində mühüm və əhəmiyyətli işlər həyata keçirilmişdir. Hələ 90-cı illərdə respublikamızda həyata keçirilən tədbirlər, demokratik dəyişikliklər, milli dövlətçiliklə bağlı qəbul edilən qərarlar Azərbaycanın müstəqilliyini möhkəmləndirirməsinə təkan verir və ağır blokada şəraitində yaşamasına baxmayaraq naxçıvanlılar elm və təhsil sahəsindəki yeniliklərin davamlı olmasına çalışırdı.

Ulu öndər Heydər Əliyev bütün fəaliyyəti boyu muxtar respublikanın düşdüyü ağır vəziyyətdən çıxarmağa, sərhəd kəndlərinin və muxtar respublikanın təhlükəsizliyinin təmin etməyə, sosial vəziyyətlərinin yaxşılaşdırmağa, iqtisadi islahatların həyata keçirilməsinə, Milli Ordunun formalaşdırmağa, Naxçıvanın blokadadan çıxarılmasına və beynəlxalq əlaqələrin yaradılmasına, qanunsuz silahlı dəstələrin ləğv edilməsinə və digər vacib məsələlərin həll etməyə çalışırdı.

Müstəqilliyimizin bərpasının ilk illərində belə bütün sahələrdəki məsələlər Heydər Əliyevin

uzaqgörənliyi, cəsarət və qətiyyəti sayəsində həll edilirdi və Naxçıvan öz imkanları hesabına iqtisadiyyatını dirçəltməklə yanaşı mədəni sahələri də inkişaf etdirmək üçün bütün səylərini birləşdirirdi. "Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır" – deyən ümummilli liderimiz Naxçıvanın hər bir uğuruna körpə uşaq kimi sevinir və bu sevincini gözlərindəki təbəssüm və səsindəki qətiyyətlə büruzə verirdi. Onun bu səmimiliyi onu xalqın gözündə həmişə ucaldırdı.

Ulu öndər Heydər Əliyev hər zaman müəllim peşəsinə böyük dəyər verir, "Müəllim adı ən yüksək addır. Mən yer üzündə müəllimdən yüksək ad tanımıram" deməklə müəllimləri yüksək qiymətləndirirdi. O, müəllimlərin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı davamlı qərarlar qəbul edirdi. Heydər Əliyevin özünəməxsus xüsusiyyətlərindən biri o idi ki, o hər yeni tədris ilinin ilk günündə məktəblərdə olur, müəllim və şagirdlərlə görüşür, onları dinləyir və öz müdrik tövsiyələrini verirdi.

Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ən əhəmiyyətli nəticələrindən biri də azərbaycançılıq məfkurəsinin və milli ruhun yüksəlişi, xalqın tarixi yaddaşının özünə qaytarılması, vətənpərvərlik hisslərinin gücləndirilməsi olmuşdur. Öz vətənini və xalqını son dərəcə böyük məhəbbətlə sevən, Azərbaycan dövləti və milləti üçün sonsuz qürur hissi keçirən Heydər Əliyev "Mən fəxr edirəm ki, mən azərbaycanlıyam" söyləməklə, əslində, ölkəmizdə milli tərbiyə konsepsiyasını bəyan etmişdir. "Müstəqil Azərbaycanın əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyəti ilə fəxr etməlidir, biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli mənəvi dəyərlərini, adət və ənənələrini inkişaf etdirməliyik" deməklə Heydər Əliyev "azərbaycançılığı" milli ideologiyanın əsası kimi müəyyənləşdirmiş və xalqı bu prinsiplərin ardınca getməyə səsləyirdi.

Heydər Əliyevlə saysız-hesabsız insanların görüşü müdrik rəhbərə xalq sevgisinin, el məhəbbətinin təzahürü idi. Xalq Heydər Əliyevin ağır blokada şəraitinə baxmayaraq, muxtar respublikanın müdafiəsini yüksək səviyyədə təşkil etməsinin, onu təcavüzkarlardan qorumağa nail olmaq üçün bütün səyləri birləşdirdiyinin şahidi olurdu və bu da xalqın sevgisini birə beş artırırdı. Təsadüfi deyil ki, onun hakimiyyəti illərində bircə kənd də düşmən əlinə keçmədi, baxmayaraq ki, həmin dövrdə yenicə müstəqillik əldə etmiş bir dövlətin möhkəm ordusundan danışmaq absurd olardı. O ağır və məşəqqətli günlərdə dediyi sözlərin səmimiyyətinə hər bir naxçıvanlı adı qədər əmin idi: "Doğma vətən torpağına heç də yenidən hakimiyyətə qalxmaq üçün yox, ancaq və ancaq respublikanın bu ağır və çətin dövrlərində xalqın dərdinə şərik olmaqla vətəndaşlıq borcunu yerinə yetirməyə, azadlıq uğrunda mübarizəyə qoşulmağa gəlmişəm... Mənim əsas məqsədim Azərbaycanın ərazi bütövlüyünü və Azərbaycan hakimiyyətini respublikanın bütün ərazisində bərqərar etməkdən ibarətdir".

Naxçıvanın o ağır dövrdə Heydər Əliyevin nüfuzu sayəsində qurduğu beynəlxalq əlaqələri muxtar respublikanın mövcudluğu üçün bəlkə də yeganə vasitə idi. Türkiyə ilə əlaqələrin inkişafında Sədərək-Dilucu körpüsü mühüm rol oynamışdır. Körpünün açılış mərasimində çıxış edən Heydər Əliyev demişdir: "Biz azərbaycanlılar, türklər əsrlər boyu Araz çayının o sahilində, bu sahilində dost, qardaş kimi yaşamışıq. Ancaq 70 il bir-birimizlə görüşmək üçün, əlaqə saxlamaq üçün həsrət çəkmişik. 70 il biz bu görüşü həsrətlə gözləmişik". Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəl isə cavabında "Bu gün burada cərəyan edən hadisə tək bir körpünün açılışı deyildir. Cərəyan edən əsas hadisə 70 il bir-biri ilə qürbətdə, həsrətdə qalmış qardaşlarımızın yenidən görüşməsidir. Bu, bir birlik, milli coşqunluqdur..." söyləmişdir. Bu tarixi çıxış hər iki ölkənin əsrlərlə mövcud olan qardaşlıq münasibətlərini yenidən bərpa etdi.

Heydər Əliyevin qonşu dövlətlərlə apardığı diplomatik görüşlər nəticəsində 1992-ci ildə Sədərək, Culfa və Şahtaxtı keçid məntəqələrinin yaradılması blokada şəraitində yaşayan Naxçıvan üçün son dərəcə əhəmiyyətli idi. Enerji tələbatını ödəmək üçün Naxçıvan şəhəri yaxınlığında tikilmiş İran İslam Respublikasının İstilik Elektrik stansiyasından Culfa rayonuna, Türkiyə Respublikasının İqdır vila-

yətindən isə 92 kilometrlik bir məsafədən yüksək gərginlikli elektrik xətlərinin Naxçıvana çəkilməsi də Heydər Əliyevin əməyinin nəticəsi idi ki, bu da həmin dövrdə Naxçıvanın enerji tələbatını qismən də olsa ödəyirdi. Ağır blokada şəraitində yaşamasına baxmayaraq Naxçıvanda həyat öz axarı ilə davam edir və hər bir sahədə inkişaf hiss olunurdu. Xalq öz rəhbərinin əzmini, mübarizliyini muxtar respublikanın müdafiəsini yüksək səviyyədə təşkil etməsində görürdü, xalqın ağır günündə xalqın dərdinə şərik olmaqla öz vətəndaşlıq borcunu yerinə yetirdiyini və xalqın azadlıq uğrunda apardığı mübarizəyə qoşulmağa gəldiyini bəyan edirdi. Dövlət müstəqilliyimizin bərpası istiqamətində apardığı işlər, verdiyi taleyüklü qərarlar hər bir naxçıvanlının yaddaşında əbədi yaşayacaq. Heydər Əliyevin yürütdüyü siyasət sayəsində Naxçıvan təkcə öz ərazisini qorumadı, o, həmçinin digər sahələrdə də nəzərəçarpacaq inkişafa yol açdı.

H.Əliyev siyasi məktəbinin layiqli davamçısı İlham Əliyevin Heydər Əliyev haqqında haqlı olaraq belə deyirdi: ulu öndər Heydər Əliyevin əzmkarlığı, qətiyyəti və siyasi bacarığı Naxçıvanı böyük bəlalardan qurtardı. Azərbaycana edilmiş hərbi təcavüzdən – 1990-cı ilin 20 Yanvar faciəsindən sonra Heydər Əliyev sovet rəhbərliyini kəskin şəkildə ittiham etdi və Sovet İttifaqı Kommunist Partiyası sıralarından çıxdı. Bundan sonra ona qarşı böyük təzyiqlər başlandı. O, məcbur olub Moskvadan Bakıya qayıtdı. Ancaq Bakıda o vaxtkı rəhbərlik təzyiqləri davam etdirirdi və Heydər Əliyev öz Vətəninə, doğulduğu yerə – Naxçıvana gəldi. Onun gəlişi Naxçıvanı böyük bəlalardan qurtardı. Naxçıvanlılar Heydər Əliyevi qorudular, Heydər Əliyev isə Naxçıvanı qorudu.

Dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan dövləti və milləti qarşısında misilsiz xidmətləri unudulmazdır. Naxçıvan üçün, bütövlükdə Azərbaycan üçün gördükləri işlər onu hər bir azərbaycanlının, naxçıvanlının qəlbində özünəməxsus yer tutmuşdur. İllər ötəcək, nəsillər bir-birini əvəz edəcək, lakin Azərbaycan xalqının iftixarı olan Heydər Əliyevin uzaqgörən strategiyası uğurlu gələcəyə gedən yollarımızı əbədi məşəl kimi daim işıqlandırmaqda davam edəcək. Ümummilli liderimizin nəsillərə nümunə olan şərəfli həyatında Naxçıvana bağlılığı, Azərbaycanın bu qədim diyarına tükənməz məhəbbəti bütün həyatı boyu davam etmişdir. Müdrik rəhbərin xalqa, Vətənə misilsiz xidmət nümunəsi olan möhtəşəm fəaliyyəti Heydər Əliyev şəxsiyyətinin dəyərini bildirir. Ulu öndər Heydər Əliyev hansı vəzifədə işləməsindən, harada yaşamasından asılı olmayaraq, daim Vətən və xalq üçün çalışmış, son dərəcə böyük, taleyüklü məsələlərin öhdəsindən məharətlə gəlmiş siyasi xadimdir. Beləliklə, 1990-1993-cu illər arasında, yəni konkret desək 1il 9 ay ərzində ümummilli lider Heydər Əliyev öz yorulmaz əməyi, qətiyyəti və yüksək intellekti sayəsində Muxtar Respublikanı geniş tərəqqi yoluna çıxarmağı bacaran rəhbər kimi daim xatırlanır.

Sevindirici haldır ki, ulu öndər Heydər Əliyevin Azərbaycan, Naxçıvan haqqında arzuları həyata keçmişdir. Onun təbirincə desək, "Mən istəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım yerinə yetirilsin". Bu gün qürurla deyə bilərik ki, onun istər Azərbaycan, istərsə də Naxçıvan haqqındakı arzuları sözün əsl mənasında tam şəkildə reallaşmışdır. Onun layiqli davamçısının yerinə yetirdiyi düzgün siyasət nəticəsində bu gün əldə olunan qələbələr və bütöv, müstəqil Azərbaycan dövlətinin müstəqil vətəndaşlarının İlham Əliyevin ətrafında daim sıx birlik olması ulu öndərin ruhunu şad edir, təkcə naxçıvanlılar deyil bütün Azərbaycan xalqı onu həmişə qürurla yad edirik. Nə qədər ki, Azərbaycan var, Heydər Əliyev ideyaları yaşayacaq.

Biz inanırıq ki, əsası Heydər Əliyev tərəfindən qoyulan və möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi altında aparılan islahatlar nəticəsində bütün mövcud problemlər öz uğurlu həllini həmişə tapmışdır və gələcəkdə də tapacaqdır. Bu gün Heydər Əliyev siyasi kursunun davam etdirilməsi ictimai zərurət olmaqla, respublikanın müstəqilliyinə əbədi təminatdır.

Sonda fikrimi filologiya elmləri doktoru, əməkdar elm xadimi mərhum Hüseyn Həşimlinin bu

sözləri ilə yekunlaşdırıram: Azərbaycanın özü kimi əbədi olan Heydər Əliyev ideyaları yolumuzu işıqlandıran sönməz məşəldir. Bu məşəlin hərarəti isə dünya durduqca bütün azərbaycanlıların ürəyini isidəcək.

## ƏDƏBİYYAT

1. Axundova E.H. Heydər Əliyev. Şəxsiyyət və Zaman. Həyat və fəaliyyətinin xronikası. IV hissə: 1969-1989, Bakı: Ozan, 2008, 328 s.
2. Cəfərli E. Müstəqillik illərində Naxçıvanın muxtariyyətinin möhkəmləndirilməsi // Təhsil ocağı, 2008 № 3-4, s. 37-42.
3. Əkbərov Q.I. Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasında milli-mənəvi dəyərlər məsələsi. 2016.
4. Əliyev H.Ə. Müstəqillik yolu. Seçilmiş fikirlər. Bakı: Azərbaycan Universiteti, 997, s. 78.
5. Həbibbəyli İ.Ə. Heydər Əliyevin dövlətçilik təlimində Azərbaycançılıq. Heydər Əliyev dövlətçilik təliminin işıqları // Naxçıvan Dövlət Universitetinin Elmi əsərlərinin xüsusi buraxılışı, 2013, № 1, s. 3.
6. Qəhrəmanov Ə. Naxçıvan teatrı müstəqillik illərində (1991-2008). Bakı: MBM, 2008, s. 21.
7. Mahmudov Y. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı: Təhsil, 2002, 328 s.
8. Naxçıvan tarixi: 3 clddə. III c., Naxçıvan: Əcəmi, 2015, s. 290.
9. Qayıdış (1990-1993): Sənədlər toplusu. Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr, Bakı: Azərbaycan, 2008, 840 s.

***Naxçıvan Dövlət Universiteti***
***E-mail: t.xudaverdiyeva@ndu.edu.az***

**Tehrana Khudaverdiyeva**

## GREAT LEADER HEYDAR ALIYEV AND NAKHCHIVAN (1990-1993)

The study of the sociopolitical activities of the great leader Heydar Aliyev, who fought tirelessly for the restoration of our independence and the ideas of Azerbaijanism, indicates the value of H.Aliyev's personality. The article highlights the work and ideas implemented by the political figure Heydar Aliyev, who performed exceptional activities in ensuring and strengthening the independence of the Republic of Azerbaijan.

The article studies the personality of national leader Heydar Aliyev, who rendered invaluable services in the protection of regaining our independence, and the period of his rule in Nakhchivan. The article comprehensively investigates the historical decisions made regarding Nakhchivan, the measures implemented, the works performed in the implementation of domestic and foreign policy in Nakhchivan, the works done by the national leader in the Nakhchivan Autonomous Republic, an integral part of Azerbaijan, the protection of the autonomous status of Nakhchivan, the steps taken on the way of salvation of the region from the Armenian aggression, as well as, the works carried out in the field of science, education, cultural development, army building in the autonomous republic in 1990-1993.

The article specially emphasizes the national leader Heydar Aliyev's political activity in the Nakhchivan Autonomous Republic during the period of 1990-1993, the works done by him for bringing the autonomous republic to the broad path of progress, the achievements of our people living in

blockade conditions thanks to the unlimited faith of their state and leader. The article also reflects the restoration of state independence considering the greatest wealth for every citizen of our country, the bright achievements of the Nakhchivan period and the years of independence, which were of exceptional importance in the life of the national leader who rendered invaluable services in its restoration, the multifaceted political activities of the great leader, the works done by him for the development of Azerbaijan on the way to independence.

**Keywords:** *national leader, independence, foreign policy, economic and political issues, great leader, autonomy status, traditions of statehood, Azerbaijanism, personality.*

**Техране Худавердиева**

## ВЕЛИКИЙ ЛИДЕР ГЕЙДАР АЛИЕВ И НАХЧЫВАН (1990-1993)

Исследование общественно-политической деятельности великого лидера Гейдара Алиева, неустанно боровшегося за восстановление нашей независимости и идеи азербайджанства, раскрывает ценность личности Г.Алиева. В статье освещаются работа и идеи, реализованные политическим деятелем Гейдаром Алиевым, проделавшим исключительную работу по обеспечению и укреплению независимости Азербайджанской Республики.

В статье рассматривается личность общенационального лидера Гейдара Алиева, оказавшего неоценимые услуги в деле защиты вновь обретенной независимости, и период его правления в Нахчыване. Исторические решения, принятые в 1990-1993 годах в отношении Нахчывана, реализованные меры, а также работа, проделанная общенациональным лидером в Нахчыванской Автономной Республике по реализации внутренней и внешней политики в Нахчыване, который является неотъемлемой частью Азербайджана, защита автономного статуса Нахчыванской области от армянской агрессии. В статье всесторонне рассматриваются шаги, предпринятые для спасения, развития науки, образования, культуры, строительства армии в автономной республике.

В статье рассмотрены политическая деятельность общенационального лидера Гейдара Алиева в Нахчыванской Автономной Республике в период 1990-1993 годов, вопросы вывода Автономной Республики на широкий путь прогресса, особо подчеркнуты достижения нашего народа благодаря безграничной вере нахчыванцев, живущих в условиях блокады, в свое государство и лидера. Восстановление государственной независимости считается величайшим богатством для каждого гражданина нашей страны. Также в статье отражены блестящие достижения общенационального лидера, оказавшего неоценимые услуги в ее восстановлении в эпоху Нахчывана и в годы независимости, успехи на пути всестороннего развития, многогранная политическая деятельность великого лидера, работа, проделанная им для развития Азербайджана на пути к независимости.

**Ключевые слова:** *общенациональный лидер, независимость, внешняя политика, экономические и политические вопросы, великий лидер, статус автономии, традиции государственности, азербайджанство, личность.*

**RƏSUL BAĞIROV**

# HEYDƏR ƏLİYEV VƏ NAXÇIVANIN MÜDAFİƏSİ

*Məqalədə ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisin Sədri seçildikdən sonra bölgənin erməni təcavüzündən müdafiəsi ilə bağlı, əhalinin təhlükəsizliyini təmin etmək məqsədi ilə bağlı bir sıra əhəmiyyətli müdafiə məsələləri müzakirə olunmuş və müvafiq qərarlar qəbul edilmişdir.*

*Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə 1991-1993-cü illərdə Naxçıvanda müdafiə və hərbi quruculuq sahəsində həyata keçirilmiş tədbirlər bölgənin düşmən əlinə keçməsinin qarşısını almışdır.*

**Açar sözlər:** *hərbi quruculuq, müdafiə, milli ordu, sərhəd xidməti, sabitlik, lider.*

Ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisin Sədri seçilməsi Muxtar Respublikanın və Azərbaycanın mürəkkəb, eyni zamanda ağır dövrünə təsadüf edirdi. Muxtar Respublikanın rəhbəri seçildikdən sonra ulu öndər bölgənin erməni təcavüzündən müdafiəsi ilə bilavasitə məşğul olmağa başladı, bu məsələ onun əsas fəaliyyət istiqamətinə çevrildi.

Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasını Ermənistan hərbi təcavüzündən qorumaq, əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Ali Məclisin 7 sentyabr 1991-ci il tarixli qərarı ilə Naxçıvan Muxtar Respublikası Dövlət Milli Müdafiə Komitəsi yaradıldı [2, s. 479-380].

1991-ci il oktyabrın 2-də Ali məclisin sessiyasında Ali Məclis Sədrinin təşəbbüsü ilə müdafiə məsələləri qapalı iclasda müzakirə olunmuş və müvafiq qərar qəbul edilmişdir.

1991-ci il oktyabrın 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında SSRİ Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən hissələrinin statusu haqqında məsələ müzakirə olundu. Bu məsələnin müzakirəsinin zəruriliyi ondan irəli gəlirdi ki, son vaxtlar hərbi hissələr yerli hakimiyyət orqanları ilə kifayət qədər əlaqə saxlamır, əhali ilə münaqişələrə gətirib çıxaran hərəkətlərə yol verirdilər. Hərbi hissələr tərəfindən hərbi texnikanın və silahların respublikadan kənara aparılması yerli əhali arasında böyük narazılığa səbəb olmuşdu. Sessiyada Naxçıvan Muxtar Respublikasında qulluq edən hərbiçilərin erməni quldurları ilə Azərbaycanın əleyhinə pozuculuq əlaqələri haqqında çoxlu faktlar göstərildi. Belə bir narahatlıq doğuran məqama da diqqət yetirildi ki, Naxçıvan Muxtar Respublikasındakı Sədərək və Ordubad zastavaları gizli şəkildə Ermənistan Respublikasındakı sərhəd dəstəsinə tabe etmişdir. Ali Məclisin Sədri Heydər Əliyev məsələnin üç gün ərzində həll edilməsi və qeyd olunan zastavaların Naxçıvan sərhəd dəstəsinə tabe edilmişdir haqqında 41-ci sərhəd dəstəsinin komandiri V.Yukova tapşırıq vermişdir. Heydər Əliyevin qətiyyətli mövqeyi sayəsində bu məsələ öz müsbət həllini tapmışdır.

26 oktyabr 1991-ci il tarixli sessiyada "Naxçıvan Muxtar Respublikasında yerləşən silahlı qüvvələrin hissələrinin statusu haqqında" məsələ də müzakirə olunmuş və bu haqda qərar qəbul edilmişdir. Qəbul olunmuş həmin qərarla Muxtar Respublika ərazisində yerləşən SSRİ Silahlı Qüvvələrinin statusu ilə bağlı bütün məsələləri hərtərəfli öyrənmək və təhlil etmək, onlarla yerli hakimiyyət orqanlarının qarşılıqlı fəaliyyətini təkmilləşdirmək, hərbi qulluqçularla yerli əhali arasında münaqişəli halların qarşısını almaq məqsədilə birgə tədbirlər hazırlanması üçün xüsusi komissiya yaradılmışdır.

1991-ci ilin dekabr ayında SSRİ-nin dağılması vahid silahlı qüvvələrin bölünməsi məsələsini ortaya çıxardı. Azərbaycan Respublikası Ali Sovetinin "Azərbaycan Silahlı Qüvvələrinin yaradılması haqqında" 9 oktyabr 1991-ci il tarixli qərarı, Azərbaycan hökumətinin "Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında" 225№-li sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə və yerli XDS İK-ə tapşırıldı ki, Azərbaycan ərazisində xüsusi icazə olmadan hərbi texnika,

silah, avadanlıq və digər hərbi əmlakın öz bölgəsinin hüdudlarından kənara çıxarılmasını qadağan etsinlər.

Yaranmış yeni şərait Naxçıvan Muxtar Respublikasının ərazisində yerləşən hərbi hissələrin statusunun dəqiqləşdirilməsini, həmin hissələrin Naxçıvan Muxtar Respublikasında qalmalarının məqsədəuyğunluğunu zəruri edirdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 14-16 dekabr 1991-ci il tarixli sessiyasında hərbi hissələrin statusu məsələsi bir daha müzakirəyə çıxarılmış, bu məsələləri ilə bağlı yaradılmış, xüsusi komissiyaya hərbi hissələrin komandirləri ilə birgə on gün müddətinə konkret təkliflər hazırlayıb Naxçıvan Muxtar Respublikası Ali Məclisinə təqdim etmək tapşırılmışdır [2, s. 514-516].

1992-ci ilin may ayı Azərbaycanın, o cümlədən Naxçıvan Muxtar Respublikasının müasir tarixinin ən mürəkkəb və gərgin dövrünə təşkil edir. Ermənilər yaranmış şəraitdən istifadə edərək Naxçıvanı ələ keçirmək üçün mayın 1-də Naxçıvan Muxtar Respublikasına qarşı hərbi təcavüzə başladılar. Bu təcavüz bir neçə gün davam etmiş olsa da, belə mürəkkəb şəraitində Heydər Əliyevin fenomenal siyasətçi və diplomat dühası Naxçıvanı real işğal təhlükəsindən xilas etdi.

Ümummilli lider Heydər Əliyev Naxçıvan Muxtar Respublikasında hərbi quruculuq məsələlərinə xüsusi diqqət yetirirdi. Onun birbaşa rəhbərliyi və nəzarəti altında Rusiyanın Zaqafqaziya Sərhəd dairəsinin Naxçıvandakı hərbi hissələrinin komandanlıqları ilə aparılan danışıqlar nəticəsində 75-ci motoatıcı diviziyanın ləğv edilməsi və diviziyanın bütün hərbi və təsərrüfat əmlakının Azərbaycan Respublikasının sərəncamına verilməsi haqqında razılıq əldə edilmişdir.

1992-ci il iyulun 25-də Ali Məclisin Rəyasət Heyətinin iclasında Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə komitəsinin yenidən təşkil olunması və onun bazasında Azərbaycan Müdafiə Nazirliyinin tərkibində müvafiq hərbi strukturun yaradılması zəruri hesab edildi. İki gündən sonra, yəni iyulun 22-də 75-ci diviziyanın əmlakının, silah-sursatının Azərbaycan Milli Ordusuna təhvil verilməsi prosesinə başlanıldı və bu proses avqust ayının 15-də başa çatdırıldı. Azərbaycan Müdafiə Nazirliyinin Naxçıvanda 5-ci əlahiddə motoatıcı briqadası yaradıldı.

1992-ci il avqustun 18-də keçmiş Sovet Ordusunun 75-ci diviziyasının şəxsi heyətinin son dəstəsi Naxçıvan Muxtar Respublikasını tərk etdi. Həmin gün diviziyanın əmlakının, silahlarının və sursatının Azərbaycan Milli Ordusunun 5-ci əlahiddə motoatıcı briqadasına təhvil verilməsi haqqında sənədlərin imzalanması və diviziyanın Naxçıvandan yola salınması mərasimi keçirilmiş, mərasimdə Ali Məclisin Sədri Heydər Əliyev çıxış etmişdir [3, s. 84].

Milli Ordunun Naxçıvandakı 5-ci əlahiddə briqadasının zabit və əsgərləri qarşısında çıxış edən Heydər Əliyev əmin olduğunu bildirmişdi ki, Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvanda yerləşən hissəsi Azərbaycan Dövləti qarşısında öz məsuliyyətini dərk edəcək, briqadanın komandanlığı, bütün zabit və əsgər heyəti sərəncamlarına keçən hərbi əmlakın, texnikanın saxlanılmasına, ondan səmərəli istifadə edilməsinə böyük səy göstərəcəklər [1, s. 5].

Aparılan danışıqlar nəticəsində Naxçıvan Muxtar Respublikası ərazisində İİR və Türkiyə ilə sərhədləri qoruyan 41-ci sərhəd qoşunları dəstəsinin ləğv olunması və onun sərəncamındakı bütün silahların, sursatların, texnikanın və mülki əmlakın Azərbaycan tərəfinə verilməsi haqqında da razılıq əldə edilmişdir.

1992-ci il iyulun 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin təklifi ilə Azərbaycan Respublikası Sərhəd Qoşunlarının Naxçıvan ərazisində 1-ci sərhəd qoşunları dəstəsi yaradılmışdır.

Bununla da, Azərbaycan Respublikası ilə qonşu dövlətlər – İran və Türkiyə arasında Naxçıvan Muxtar Respublikası ərazisindəki 215 km-lik dövlət sərhədinin mühafizəsi Azərbaycan Respublikası Sərhəd Qoşunları tərəfindən həyata keçirilməyə başlanıldı.

Beləliklə, 1992-ci il sentyabrın 29-da Naxçıvan Muxtar Respublikası ərazisində digər dövlətin

– Rusiyanın heç bir hərbi hissəsi və hərbi qulluqçusu qalmışdı. Naxçıvan Muxtar Respublikasında təxminən iki əsr müddətində mövcud olmuş əcnəbi ölkənin hərbi iştirakına son qoyuldu.

Naxçıvan Muxtar Respublikasının müdafiəsinin və sərhədlərinin qorunmasının təşkilində Muxtar Respublika Ali Məclisi Rəyasət Heyətinin 19 sentyabr 1992-ci il tarixli iclası və həmin iclasda qəbul edilmiş qərarlar mühüm rol oynadı.

Həmin qərarlara əsasən Naxçıvan Muxtar Respublikasının Dövlət Müdafiə Komitəsinin bazası əsasında Azərbaycan Müdafiə Nazirliyinin yeni hərbi hissəsinin təşkil edilməsi ilə əlaqədar olaraq Naxçıvan Muxtar Respublikasının Dövlət Müdafiə Komitəsi ləğv edildi [3, s. 87].

Heydər Əliyev Naxçıvan torpağını cəsarətlə qorumuş bütün vətənpərvər Naxçıvan oğullarına, bütün könüllü dəstələrə minnətdarlıq hisslərini bildirərək onu da bəyan etmişdir ki, Naxçıvandakı Azərbaycan milli ordusunun hissələri lazımi gücə malikdir və Naxçıvan torpaqlarını müdafiə etməyə qadirdir.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə 1991-1993-cü illərdə Naxçıvanda müdafiə və hərbi qulluqçuluq sahəsində həyata keçirilmiş tədbirlər bölgənin düşmən əlinə keçməsinin qarşısını aldı, sabitlik və əmin-amanlığın möhkəm təməlini qoydu.

Müasir Azərbaycan dövlət müstəqilliyinə 1991-ci ildə nail olsa da, vahid komandanlığa əsaslanan nizami və mütəşəkkil, ən əsası müstəqilliyimizə və dövlətçiliyimizə qarşı yarana biləcək hər hansı təhdidin qarşısını almağa qadir ordunun yaradılması ümummilli lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra mümkün oldu. Başlanğıcını 1993-cü il noyabrın 2-dən ulu öndərin xalqa müraciətindən götürən və tarixə Heydər Əliyevin ordu quruculuğu kimi düşən bu dönəmin ilkin çağlarında yeni yaradılan və mərkəzi komandanlığa tabe olan hərbi birləşmələr nəinki Ermənistanın güclənən hücumlarının qarşısını böyük mətinliklə aldılar, 1993-cü ilin sonu, 1994-cü ilin əvvəllərində Füzuli istiqamətində, Murovda yüksək peşəkarlıqla uğurlu hərbi əməliyyatlar keçirərək çoxsaylı yaşayış məntəqələrini, strateji əhəmiyyət kəsb edən yüksəklikləri düşməndən azad etdilər.

Heydər Əliyevin 1994-cü il yanvarın 24-də cəbhəyə yola düşən yeni hərbi hissənin şəxsi heyətinə xitabən dediyi "Bilin ki, sizin hər birinizin arxasında böyük Azərbaycan ölkəsi durmuşdur. Bilin ki, hər biriniz öz doğma Vətəninizi, öz ananızı, atanızı, bacınızı, qardaşınızı müdafiə etmək üçün ordu sıralarına gəlmisiniz. Bilin ki, sizin hər bir uğurlu addımınız Azərbaycan Respublikasının müstəqilliyinə və ərazi bütövlüyünə kömək edəcəkdir. Bilin ki, ümumi qələbəmiz sizin hər birinizin fəaliyyətindən, qəhrəmanlığından asılıdır". Sözlərini unutmayan, ulu öndərin bu xeyir-duasından ruhlanan zabitlərimiz, əsgərlərimiz, gizirlərimiz və çavuşlarımız o dövrdə sinələrini düşmən pulemyotunun qarşısına verməklə, əldə qumbara düşmən tankının altına atılmaqla əsil qəhrəmanlıq nümunələri göstərdilər.

1994-cü il mayın 12-də atəşkəsin elan edilməsindən sonra ordu quruculuğu ilə bağlı genişmiqyaslı islahatlara start verildi. Tezliklə hərbi hissələrin ayrı-ayrı qoşun növlərinin formalaşdırılması tam başa çatdırıldı. Orduya çağırış, fərarilik halları ilə bağlı bütün problemlər həll edildi. Dövlətçiliyi və hərbi andı bir şeydən uca tutan, hərbiçi olmağı şərəf bilən, mənəvi baxımdan sağlam zabitlər hərbi hissələrin rəhbərliyinə cəlb olundular. Şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı, hərbi vətənpərvərlik işi gücləndirildi.

Ordunun mərkəzləşdirilmiş maddi-texniki təminatı əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı, maliyyə-təsərrüfat fəaliyyəti nizama salındı. Ordu quruculuğunun ən müxtəlif sahələri ilə bağlı zəruri olan qanunlar qəbul edildi, silahlı qüvvələrin mükəmməl qanunvericilik bazası yaradıldı. Silahlı Qüvvələrin döyüş hazırlığının səviyyəsi tək hərbi texnika ilə deyil, bu texnikanı idarə edə biləcək savadlı zabit korpusundan əhəmiyyətli dərəcədə asılıdır. Bu baxımdan Azərbaycanda beynəlxalq standartlara cavab

verən hərbi təhsil sisteminin formalaşdırılması ordu quruculuğunda vacib və tarixi əhəmiyyətli bir mərhələdir [4, s. 2].

Heydər Əliyevin təşəbbüsü və Türkiyə ilə imzalanmış protokola əsasən 1997-ci ildən ulu öndərin adını daşıyan indiki Azərbaycan Ali Hərbi Məktəbi yaradılmış və burada hərb elminin dünyanın ən qabaqcıl standartları tətbiq edilməklə tədris olunmasına başlanılmışdır. 2001-ci ildən bu məktəb Azərbaycan Ordusunu müasir standartlara uyğun yeni proqram əsasında hazırlanmış zabitlərlə təmin edir. Silahlı Qüvvələrimizin strukturuna daxil olan müxtəlif qoşun növlərini peşəkar hərbi kadrlarla təmin etmək üçün Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbi, Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzi, Hərbi tibb fakültəsi də yaradılmışdır. Bu hərbi təhsil müəssisələri ordumuza ehtiyac duyulan bütün hərbi mütəxəssisləri hazırlamaq imkanına malikdir. Hərbi təhsildən danışanda yada düşən məktəblərdən biri də əsası ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1971-ci ildə qoyulmuş Cəmşid Naxçıvanski adına hərbi liseydir. Heydər Əliyevin səyi nəticəsində bu məktəbin yaradılması Azərbaycanın hərbi təhsil tarixində yeni bir səhifə açmışdır. İndi hərbi lisey kimi fəaliyyət göstərən bu məktəbin o zaman təsis edilməsi respublikamızda milli zabit kadrları hazırlığının yüksəlməsinə, azərbaycanlıların hərbi sənətinə marağının artmasına təkan vermişdir. Hazırda liseyin məzunları arasında yetişən generallar, onlarla yüksək rütbəli zabit respublikamızın Silahlı Qüvvələrində, daxili Qoşunlarında, milli təhlükəsizlik orqanlarında vətənə xidmət edirlər.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ordu quruculuğu, eləcə də milli təhlükəsizlik siyasəti ilə bağlı başladığı işlər onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

## ƏDƏBİYYAT

1. Qafarov T.B. Heydər Əliyevin Naxçıvandan Azərbaycan xalqının qurtuluş hərəkatına rəhbərliyi / Naxçıvan Muxtar Respublikası: Məqalələr toplusu. Azərbaycan EA-nın Tarix İnstitutu. Bakı: Elm, 1999
2. Qayıdış (1990-1993): Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996.
3. Məmmədov M. Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslər (1988-2005-ci illər). Bakı: Şirvannəşr, 2005.
4. "Şərq qapısı" qəz., 1991.

***Naxçıvan Dövlət Universiteti***
***E-mail: bagirovresul11@gmail.com***

**Rasul Bagirov**

## HEYDAR ALIYEV AND THE DEFENSE OF NAKHCHIVAN

The article deals with a number of important defense issues related to the protection of the region from Armenian aggression after the election of the national leader Heydar Aliyev as Chairman of the Supreme Assembly of the Nakhchivan Autonomous Republic and the adoption of relevant decisions.

The measures taken in the field of defense and military construction in Nakhchivan in 1991-1993 under the leadership of national leader Heydar Aliyev prevented the region from falling into the hands of the enemy.

**Keywords:** *military construction, defense, national army, border service, stability, leader.*

**Расул Багиров**

## ГЕЙДАР АЛИЕВ И ОБОРОНА НАХЧЫВАНА

В статье рассмотрен ряд важных оборонных вопросов, связанных с защитой региона от армянской агрессии после избрания общенационального лидера Гейдара Алиева Председателем Верховного Собрания Нахчыванской Автономной Республики и принятия соответствующих решений.

Меры, осуществленные в области обороны и военного строительства в Нахчыване в 1991-1993 годах под руководством общенационального лидера Гейдара Алиева, предотвратили попадание региона в руки врага.

**Ключевые слова:** *военное строительство, оборона, национальная армия, пограничная служба, устойчивость, лидер.*

**AMİL ƏSGƏROV**

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEV NAXÇIVANIN MADDİ VƏ MƏNƏVİ MƏDƏNİYYƏTİ HAQQINDA

*Məqalədə ümummilli lider Heydər Əliyevin Azərbaycan mədəniyyəti, o cümlədən Naxçıvan mədəniyyəti ilə bağlı fikirlərindən, bu sahədə həyata keçirdiyi tədbirlərdən, tövsiyə və tapşırıqlarından bəhs edilir. Göstərilir ki, qədim tarixə malik Naxçıvanın musiqi mədəniyyəti ümummilli lider Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə həyata keçirdiyi mədəniyyət siyasəti nəticəsində özünün ən kəşməkəşli dövrünə və yüksək inkişaf mərhələsinə qədəm qoyub.*

*Ümummilli lider Heydər Əliyev Azərbaycan mədəniyyətinin, o cümlədən Naxçıvanın mədəni-mənəvi sərvətlərinin inkişafında böyük tarixi xidmətlər göstərmişdir. Heydər Əliyevin həyata keçirdiyi mədəniyyət siyasəti Azərbaycan xalqının milli birliyinə yönəlib. Bu fəaliyyətin əsas məqsədi olan azərbaycançılıq ideologiyası Heydər Əliyevin xalqımızın milli birliyi yolunda qazandığı ən mühüm tarixi nailiyyətlərdən biridir. Ulu öndər qeyd edirdi ki, "Azərbaycançılıq müstəqil Azərbaycan dövlətinin əsas ideyasıdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyəti ilə fəxr etməli, biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini qoruyub saxlamalıyıq".*

*Bu ali prinsiplərə əsaslanaraq, Naxçıvan diyarının musiqi folkloru baxımından çox zəngin ənənələrə malik olduğunu göstərməliyik. Bu ölkənin demək olar ki, hər bir bölgəsi folklor janrları və folklor ifaçılıq ənənələri ilə seçilir. Naxçıvanın qədim yallı janrının ən çox yayıldığı bölgə olması artıq elmi məlumatlarla təsdiqlənib.*

*Müstəqillik illərində ümummilli liderimiz Heydər Əliyevin tövsiyəsi, Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin tapşırığı və bilavasitə nəzarəti ilə tarix, mədəniyyətlə bağlı mühüm işlər görülüb və Naxçıvanın nailiyyətləri, xalq yaradıcılığı ilə bağlı müxtəlif tədbirlər keçirilmişdir.*

*Ömrü boyu Vətənini sevən, xalqının bütün sahələrdə inkişafına xidmət edən Heydər Əliyev Naxçıvan mədəniyyətinin inkişafı, öyrənilməsi, qiymətləndirilməsi və populyarlaşdırılması istiqamətində çox mühüm və real tədbirlər həyata keçirmişdir.*

*Heydər Əliyev Naxçıvan Muxtar Respublikasına səfərlərində, söhbətlərində, elm, mədəniyyət, təhsil və incəsənət xadimləri ilə görüşlərində yerli əhali ilə mehriban münasibət bəsləyir, Naxçıvan mədəniyyəti ilə bağlı bir çox dəyərli və tarixi əhəmiyyətli fikirlər irəli sürürdü. Ulu öndərin Naxçıvanın tarixinə və mədəniyyətinə Azərbaycan tarixinin və mədəniyyətinin tərkib hissəsi kimi yanaşması onun bir çox çıxışlarında ifadə olunub.*

**Açar sözlər:** *ümummilli lider Heydər Əliyev, Naxçıvan, musiqi mədəniyyəti, tövsiyələr, məsləhətlər, sərəncamlar.*

Ulu öndər Heydər Əliyev Azərbaycan mədəniyyətinin inkişafına böyük tarixi xidmətlər göstərmişdir. Azərbaycan maddi və mənəvi mədəniyyətinin, elm və təhsilinin, mədəni sərvətlərinin inkişafında, qorunmasında və dünya miqyasında təbliğ olunmasında ulu öndərin misilsiz xidmətləri vardır. Azərbaycan mədəniyyətinin hamisi Heydər Əliyev milli mədəniyyətimizin hərtərəfli inkişafından və yüksəlişindən öz diqqət və qayğısını bir an belə əsrigəməmişdir. "Azərbaycan mədəniyyətinin yaranması və mənəvi rolunun yüksək dəyərləndirilməsində tarix boyu bir çox şəxsiyyətlərin xidməti olmuşdur ki, yeni dövrün də belə bir nəhəng şəxsiyyəti məhz Heydər Əliyevdir. Azərbaycan mədəniyyətinin hərtərəfli inkişafında və onun zəngin mənəvi-mədəni irsinin dünya mədəni aləminə çatdırılmasında Heydər Əliyev çox böyük rol oynamışdır və bu fəaliyyət respublikanın gələcək mənəvi-siyasi həyatı üçün örnək və irsə münasibətdə siyasətin konsepsiyasının yaranması baxımından mühüm əhəmiyyətə malikdir" [6, s. 25].

Heydər Əliyev tərəfindən həyata keçirilən mədəniyyət siyasəti Azərbaycan xalqının milli birliyinə yönəlmişdir. Bu fəaliyyətin başlıca məqsədi olan azərbaycançılıq ideologiyası Heydər Əliyevin xalqımızın milli birliyi yolunda ən mühüm tarixi nailiyyətlərindən biridir. O, Dünya Azər-

baycanlılarının I qurultayındakı nitqində azərbaycançılıq ideologiyası haqqında yüksək fikirlərini belə ifadə etmişdir: "Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq" [6, s. 14].

Azərbaycan tarixinin tədqiq edilməsinə, milli soy-kökümüzün və mədəniyyətimizin elmi şəkildə öyrənilməsinə ulu öndərimiz çox böyük əhəmiyyət verirdi. Heydər Əliyev tarixi varlığımızı müasir dövlətçilik maraqlarımız və vətəndaşlığımız ilə əlaqələndirirdi, başlıcası isə bu məsələdə milli-mədəni dəyərlərin rolunu önə çəkirdi. "O, həm bir dövlət rəhbəri, həm də Azərbaycanı qəlbən sevən, öz vətəni ilə qürur duyan vətəndaş kimi xalqımızın əsrlərlə yaşadıb yaratdığı mənəvi-əxlaqi dəyərlərə yüksək önəm verirdi. Tarixi varlığımızı müasirlik müstəvisinə gətirməsi və onun Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsi işinə xidmət etməsi Heydər Əliyevin mədəniyyət konsepsiyasında başlıca yer tuturdu." [6, s. 15].

Heydər Əliyev teatrı çox sevir, klassik və müasir dram tamaşaları, rejissor və aktyor işi haqqında maraqlı fikirlərini bölüşürdü. Tamaşadan sonra pərdə arxasında aktyorlar ilə görüşür, onlara səmimi ürək sözlərini bildirir, təşəkkür edir, tövsiyələr verirdi. O deyirdi: "Mən həmişə teatra bağlı və yaxın olmuşam. Bu, ötəri hiss deyil, içimdən gələn bir məhəbbətdir. Teatrı çox sevirəm. Teatra məhəbbət mənim içimdədir. İncəsənətin, o cümlədən kino və teatrın təsiri və tərbiyə qüvvəsi çox böyükdür. Bu qüvvədən bacarıqla istifadə etmək həmişə vacibdir. Teatr və incəsənət sahəsində çalışanlar çox fədakar insanlardır. Səhnədə onlara baxdıqda çox vaxt hər biri qayğısız, xoşbəxt insan kimi görünür, həmişə şəndirlər. Ancaq onların həyatının səhnə arxasında necə olmasını çoxları bilmir, heç təsəvvürlərinə də gətirmir. Mən bunları bilirəm. Ona görə də incəsənət adamlarını cəmiyyətdə çox yüksək tuturam" [6, s. 19].

Heydər Əliyevin mədəniyyətlə bağlı tarixi xidmətlərində musiqiyə olan sevgisi və qayğısı da mühüm yer tutur. "Heydər Əliyevin xalqı və Vətəni qarşısında ən böyük xidmətlərindən biri də milli mədəniyyəti, o sıradan musiqi mədəniyyətini inkişaf etdirməkdən ibarət olmuşdur... Heydər Əliyevin zəngin və çoxşaxəli irsinin, onun çoxillik siyasi fəaliyyətinin öyrənilməsi belə nəticəyə əsas verir ki, bu tarixi şəxsiyyətin zəngin siyasi fəaliyyəti Azərbaycan musiqi mədəniyyəti və incəsənəti ilə sıx bağlı olmuş, milli musiqi mədəniyyətinin davamlı tərəqqisi və onun istedadlı təmsilçilərinin həyat-yaradıcılığı həmişə Ümummilli Liderin diqqəti və qayğısı ilə əhatələnmişdir" [1, s. 4]. Heydər Əliyevin Azərbaycan musiqi mədəniyyəti və incəsənətindəki tarixi rolunu, onun bu sahədəki inkişaf və təbliğat yönümlü fəaliyyətini tədqiq edən musiqişünas-tədqiqatçı A.Abduləliyev haqlı olaraq qeyd edir ki, "Heydər Əliyev və Azərbaycan musiqi mədəniyyəti" mövzusu geniş, əhatəli araşdırmalar tələb edən aktual elmi-tədqiqat mövzusudur. Bu mövzuda ciddi elmi araşdırmaların müəllifinin fikrincə, "Heydər Əliyev çoxillik, zəngin siyasi və dövlətçilik fəaliyyəti ərzində Azərbaycan musiqi mədəniyyətinə dair özünün çox dəyərli, maraqlı irsini yaratmışdır. Bu irs XX-XXI əsr Azərbaycan musiqi mədəniyyətinin demək olar ki, yarım əsrlik dövrünü əhatə edərək, bu dövr ərzində Azərbaycan musiqisinin bütün sahələrini, məsələlərini, yeniliklərini və nailiyyətlərini özündə cəmləşdirir" [1, s. 5].

Azərbaycan bəstəkarlarının yaradıcılığı, onların musiqi əsərlərinin ifası və təbliği, müxtəlif respublikalarda tanınması, milli bəstəkarlıq məktəbinin inkişaf məsələləri və yeni yaradıcılıq yolları ulu öndərin daim diqqət mərkəzində olmuşdur. "Heydər Əliyev Azərbaycan Bəstəkarlar İttifaqı ilə də sıx əlaqə saxlamış, bu qurumun fəaliyyəti ilə daim maraqlanmış, onun plenum, qurultay və konsertlərində. yaxından iştirak etmiş, bəstəkarlar ittifaqının rəhbərləri ilə, üzvləri ilə mütəmadi görüşlər keçirmiş, onları dinləmiş, musiqi incəsənətinin, ifaçılıq sənətinin və musiqi təhsilinin, gənc kadrların

tərbiyəsinin müxtəlif məsələlərini birlikdə müzakirə etmiş və çox dəyərli təkliflərini, tənqidi fikir və tövsiyələrini bildirmişdir" [2, s. 11]. Yeri gəlmişkən, 1979-ci il sentyabr-oktyabr aylarında Azərbaycan Bəstəkarlar İttifaqının V qurultayında iştirak edən ulu öndər, oktyabrın 1-də bu yaradıcılıq qurumunun yeni İdarə Heyəti ilə görüşmüş və özünün "Bəstəkarın yüksək vəzifəsi və amalı" adlı tarixi nitqini söyləmişdir. Bu nitq mətbuatda dərc olunmuş və kitabça şəklində ayrıca nəşr edilmişdir. Heydər Əliyev öz məruzəsində V qurultayı "mühüm ictimai-siyasi" hadisə adlandıraraq demişdir: "Bəstəkarların qurultayı respublikanın həyatında mühüm ictimai-siyasi hadisə olmuşdur. Yalnız mədəniyyət xadimlərinin deyil, bütün ictimaiyyətin, Azərbaycan zəhmətkeşlərinin diqqəti bu qurultaya cəlb edilmişdir. Fərəhli haldır ki, qurultay yüksək ideya-siyasi səviyyədə keçmiş, öz işini müvəffəqiyyətlə başa vurmuş, deməli, Azərbaycan Bəstəkarlar İttifaqının təşkilati cəhətdən daha da möhkəmləndirilməsində yeni bir addım atılmışdır" [3, s. 9]. Ulu öndərin bu qiymətli nitqində bəstəkarlar ittifaqının 5 illik hesabat dövründəki fəaliyyəti müsbət qiymətləndirilmiş, nailiyyətlər sadalanmış, yeni əsərlərin forma, məzmun xüsusiyyətləri və uğurlar qazanması vurğulanmış, bəstəkarlar "fəal və səmərəli yaradıcı qüvvə", yeni əsər isə "böyük hadisə" adlandırılmışdır. Heydər Əliyev bu məsələlər haqqında belə demişdir: "Bu müddət ərzində bəstəkarlar ittifaqının həm sıraları artmış, həm də işinin keyfiyyəti yüksəlmişdir. İttifaq bu gün respublikamızın yaradıcı ziyalılarının fəal və səmərəli işləyən bir dəstəsidir. Xüsusilə fərəhli haldır ki, bəstəkarlarımızın yaradıcılığı inkişaf edir, onların professional səviyyəsi qurultaydan-qurultaya yüksəlir. Budur, hesabat dövründə də qazandığımız nailiyyətlərə dəlalət edən yeni operalar, baletlər, simfonik əsərlər, operettalar, mahnılar, yəni musiqi sənətinin bütün janrlarında əsərlər meydana gəlmişdir. Qurultayda bu barədə ətraflı danışılmışdır. Amma mən bir tamaşaçı və partiya işçisi mövqeyindən demək istəyirəm ki, F.Əmirovun "Min bir gecə" baleti, C.Cahangirovun "Xanəndənin taleyi" operası, bir çox simfonik əsərlər respublikanın həyatında böyük hadisədir. Q.Qarayevin "Çılğın qaskoniyalı" adlı yeni operettası Moskvanın musiqi ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilmişdir. Hamımıza xoşdur ki, SSR İttifaqı Böyük Teatrı ABŞ-dakı son qastrolları zamanı ən yaxşı tamaşaları sırasında A.Məlikovun "Məhəbbət əfsanəsi" baletini də göstərmişdir" [4, s. 9].

Heydər Əliyev Azərbaycan bəstəkarlarının V qurultayının yekunlarına həsr etdiyi görüşdə məruzəsində respublikanın musiqi həyatında hər bir janrın – mahnı, xor, simfonik, opera, balet, musiqi komediya janrlarının, ifaçılıq sənətinin vəziyyətini təhlil etdi, mövcud vəziyyətə münasibətini bildirdi, nöqsanlar haqqında tənqidi fikirlərini irəli sürdü. "Heydər Əliyev bəstəkarları formalizmdən uzaq olmağa, müasir dövrün və zamanın tələblərini və ruhunu duymağa, yeni və müasir mövzuları, həyat gerçəkliklərini tərənnüm etməyə, Ü.Hacıbəylinin bəstəkarlıq məktəbinin gözəl ənənələrini yaşatmağa, müasir musiqinin nailiyyətlərini təbliğ etməyə və eyni zamanda milli forma və məzmun axtarışlarına dəvət etdi. Millilik və müasirlik, ənənə və novatorluq mövzusunda maraqlı fikir və tövsiyələrini bildirdi, hər bir janrın durumu və vəziyətinə münasibətini açıqladı" [1, s. 12].

Ulu öndərin V qurultayın və hesabat dövrünün yekunları haqqında bu nitqində irəli sürülən məsələlərdən biri də gənc professional bəstəkar kadrlarının yetişdirilməsi və yaradıcılıq ənənələrinin inkişaf etdirilməsi ilə bağlı idi. Üzeyir Hacıbəylini bu işdə ən yaxşı örnək göstərən Heydər Əliyev belə demişdir: "Biz belə hesab edirik ki, hər bir görkəmli bəstəkarın öz ardıcılları, öz məktəbi olmalıdır. Axı bugünkü professional musiqimiz Ü.Hacıbəyova təkcə ona görə minnətdar deyildir ki, o, musiqi sənətinin şah əsərlərini yaratmışdır. Həm də ona görə ki, o, bir çox sənətkarlar yetişdirmişdir, işə məsuliyyətli, vicdanlı münasibətilə onları düzgün yola yönəltmişdir..." [5, s. 12]. Heydər Əliyev bəstəkarlar ittifaqında sağlam yaradıcılıq mühitinin vacibliyini önə çəkmiş, xalq arasında estetik tərbiyə haqqında tövsiyələrini vermişdir: "Gərək bəstəkarlar ittifaqında xeyirxahlıq, qarşılıqlı hörmət, bir-birinin xidmətlərini qiymətləndirmək, qarşılıqlı yardım şəraiti, əsl yaradıcılıq şəraiti daha möhkəm bərqərar olsun. Lakin, sirr deyil ki, elə faktlar var ki, bir bəstəkar digəri ilə danışmır, biri digərini bəyənmir... Biz

sizi çox yüksək qiymətləndiririk. Siz respublikamız üçün qiymətli adamlarsınız. Sizin aranızda müasir musiqi sənətimizin sütunları vardır: Q.Qarayev, F.Əmirov, Niyazi və başqaları. Xalq onları bəyənmiş və qiymətləndirmişdir. Biz sizin daha yaxşı yaşayıb-yaratmağınız üçün nə lazımsa edəcəyik. Siz öz səylərinizi daha artıq birləşdirməli, ayrı-ayrı şəxsi inciklərinizi kənara atıb daha monolit bir kollektiv olmalısınız...

Musiqini hər yerdə dinləyirlər, kəndli də, fəhlə də, zehni əmək adamı da, təqaüdçü də, uşaq da dinləyir, yaşından asılı olmayaraq, hamı dinləyir. Buna görə də insanların şüurunun yüksəlməsinə musiqinin təsirini artırmaq, mənəvi, estetik tərbiyə problemlərinin həllinə onun təsirini gücləndirmək, musiqinin geniş kütlələrə emosional təsirini qüvvətləndirmək sizin borcunuzdur. Biz əmin olmaq istəyirik ki, ayrılıqda hər bir bəstəkar və bizim hamımız bütün yaradıcılıq fəaliyyətinizlə Azərbaycan musiqisini daha da inkişaf etdirməyə çalışacaqsınız" [5, s. 12].

Azərbaycan bəstəkarlarının yubileylərinin təşkili, onların yaradıcılığının təbliği, əsərlərinin nəşri, problemlərinin həlli də ulu öndərin həmişə diqqət mərkəzində olmuşdur. Xüsusilə, 1975 və 1976-cı illərdə Üzeyir Hacıbəylinin, 1978-ci ildə Qara Qarayevin yubiley tədbirləri geniş miqyasda təşkil olnaraq, keçmiş SSRİ-də əsl sənət bayramı səviyyəsində keçirildi. Heydər Əliyevin səyi ilə Q.Qarayev, F.Əmirov, Niyazi, A.Məlikov SSRİ-nin ən yüksək fəxri adı – Sosialist Əməyi Qəhrəmanı adı ilə təltif olundular, ən ali dövlət mükafatlarına, orden və medallarına layiq görüldülər. Ü.Hacıbəylinin, Bülbülün və Niyazinin ev-muzeylərinin yaradılmasında da ulu öndərin rəsmi qərarları əsas rol oynamışdır. Bu muzeylərin yaradılması isə görkəmli bəstəkarların zəngin irsinin qorunmasında və təbliğində mühüm əhəmiyyət kəsb etmişdir.

Azərbaycanda muğam və aşıq sənət də Heydər Əliyev tərəfindən sevilir və layiqincə qiymətləndirilirdi. ulu öndər muğam və aşıq irsinin qorunmasında, ifaçılıq ənənələrinin yaşamasında, xalq sənətkarlarının xidmətlərinin qiymətləndirilməsində, milli-mədəni dəyərlərin qorunmasında və təbliğində böyük ictimai və mədəni tədbirlər həyata keçirmiş və uğurlara imza atmışdır. Heydər Əliyevin Azərbaycan mədəniyyətinin, incəsənət sahələrinin inkişafı ilə bağlı fəaliyyətində Naxçıvan mədəniyyəti, elm və təhsili də mühüm yer tutur. Heydər Əliyev qəlbən, ruhən, əməldə və amalda vətəninə, xalqına bağlı dahi şəxsiyyət və dövlət xadimi olaraq, Naxçıvan diyarını, onun insanlarını, təbiətini, mədəniyyətini, adət-ənənələrini sevirdi. Xalqın tarixinə, söy-kökünə, mədəniyyətinə, dilinə, ənənələrinə çox bağlı olan, onu dərindən sevən bir dahi siyasət xadimi kimi Heydər Əliyev Naxçıvan torpağını Azərbaycan tarixinin və mədəniyyətinin ayrılmaz bir parçası kimi qiymətləndirirdi. Heydər Əliyevin "Naxçıvan Muxtar Respublikasının 75-illiyi haqqında" Sərəncamı və təbirləri bu diyarın tarixinə, mədəniyyətinə, zəhmətsevər və yaradıcı insanların əməyinə, Naxçıvan iqtisadi, sosial və mədəni inkişafına yönəltdiyi dövlət siyasətinin tərənnümü idi. Bundan əlavə, bu sərəncamlar eyni zamanda Heydər Əliyevin öz böyük əməllərində, məqsədlərində və nailiyyətlərində ehtiva etdiyi Naxçıvan sevgisinin nəticəsi idi. Həyatı boyu Vətənini sevən, xalqının bütün sahələrdə inkişafına xidmət edən Heydər Əliyev Naxçıvan mədəniyyətinin də inkişafı, öyrənilməsi, qiymətləndirilməsi və təbliği üçün çox mühüm və real tədbirlər həyata keçirmişdir.

Heydər Əliyev Naxçıvan Muxtar Respublikasına səfərlərində, burada insanlarla səmimi söhbətlərində, elm, mədəniyyət, təhsil və incəsənət işçiləri ilə görüşlərində Naxçıvanın mədəniyyəti haqqında çox qiymətli və tarixi əhəmiyyətli fikirlər irəli sürmüşdür. Ulu öndərin Naxçıvan tarixinə və mədəniyyətinə Azərbaycan tarixi və mədəniyyətinin ayrılmaz hissəsi kimi yanaşması onun bir çox nitqlərindən öz ifadəsini tapmışdır. Məsələn, Naxçıvan MR yaranmasının 75-illiyi münasibətilə təntənəli yubiley iclasındakı nitqini ulu öndər bu sözlərlə başlamışdır: "Naxçıvan Muxtar Respublikası müstəqil Azərbaycanın, müstəqil Azərbaycan dövlətinin ayrılmaz hissəsidir, gözəl guşələrindən, diyarlarından biridir. Naxçıvan Muxtar Respublikasının 75-ci ildönümü bayramı bütün Azərbaycan xalqının, vətən-

daşlarının, müstəqil Azərbaycan dövlətinin bayramıdır" [7]. Naxcıvandakı mədəni quruculuq işlərinə dair fikirləri də bu baxımdan maraq doğurur: "...Fəxr edirəm ki, Azərbaycanın hər yerində olduğu kimi, mən burada da öz əsərlərimi görürəm. Mənim əsərlərim şer deyil, roman deyil, elmi kitab deyil, musiqi əsəri deyildir. Mənim əsərlərim xalqım üçün qurduğum, yaratdığım binalar, saraylar, yaşayış evləri, universitet, məktəb binalarıdır, yollardır, körpülərdir, su hövzələri, su kəmərləridir və sair və sair və sairdir. Mən bu gün fəxr edirəm ki, 1970-ci ildə Bakıda indi bizim müstəqil dövlətimiz üçün çox mötəbər olan bir sarayı - Respublika sarayını yaradandan sonra belə bir sarayı da Naxçıvanda yaratmağa çalışdım. Çalışdım və bu sarayı da mən yaratdım" [7].

## ƏDƏBİYYAT

1. Abduləliyev A.Ə. Heydər Əliyev və Azərbaycan musiqi mədəniyyəti // Musiqi dünyası, 2008, № 1-2/35, s. 4-17.
2. Abduləliyev A.Ə. Heydər Əliyev və Azərbaycan Respublikasında musiqi təhsilinin inkişafı // Musiqi dünyası, 2012, № 2 (51), s. 8-17.
3. Abduləliyev A.Ə. Heydər Əliyev: Bəstəkarın vəzifəsi və amalı // Mədəni həyat, № 6, 2012, s. 8-11.
4. Abduləliyev A.Ə. Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycan musiqi incəsənətinin inkişaf mərhələləri / Heydər Əliyev və Azərbaycan mədəniyyəti: Elmi-praktik konfransın materialları. Bakı: ADMİU-nun mətbəəsi, 2016, s. 58-66.
5. Abduləliyev A.Ə. Heydər Əliyevin mədəniyyət siyasətində istedadlı gənclərə dövlət qayğısı // Müasir mədəniyyətşünaslıq, 2012, № 1 (9), s. 41-44.
6. Əfəndiyev T.İ. Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz. Bakı, 2011, 270 s.
7. Naxçıvan MR-in təşkil olunmasının 75-illiyinə həsr edilmiş təntənəli yubiley iclasında Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi, 1999, 12 oktyabr // www.lib.aliyev-heritage.org/az/2472262.html

***Naxçıvan Dövlət Universiteti***

**Amil Asgarov**

## GREAT LEADER HEYDAR ALIYEV ABOUT THE MATERIAL AND SPIRITUAL CULTURE OF NAKHCHIVAN

National leader Heydar Aliyev's views on the culture of Azerbaijan, including the culture of Nakhchivan, the measures, recommendations, and advice he took in this field were discussed in the article. The musical culture of Nakhchivan, which has an ancient history, has entered its most exuberant age and high development stage as a result of the cultural policy conducted by the national leader Heydar Aliyev during his leadership.

National leader Heydar Aliyev has rendered great historical services to the development of Azerbaijani culture, including the cultural and spiritual resources of Nakhchivan. The cultural policy implemented by Heydar Aliyev is aimed at the national unity of the Azerbaijani people. The ideology of Azerbaijaniism, which is the main goal of this activity, is one of the most important historical achievements of Heydar Aliyev on the way to the national unity of our people. The great leader pointed out that "the main idea of the independent state of Azerbaijan is Azerbaijaniism. Every Azerbaijani should feel proud of his nationality, and we should preserve Azerbaijaniism – Azerbaijani language, culture, national-spiritual values, and traditions."

Proceeding from these higher principles, we must show that the land of Nakhchivan has wealthy traditions in terms of musical folklore. Almost every region of this country is distinguished by its own folklore genres and folklore-performance traditions. The fact that Nakhchivan is the region where the ancient yally genre is most widespread has already been confirmed by scientific evidence.

Our national leader Heydar Aliyev's recommendations led to the task and direct leadership of the President of the Republic of Azerbaijan, the Honorable Ilham Aliyev, during our years of independence. Significant works related to the history, culture, and achievements of Nakhchivan were executed under the direction of various activities related to national creativity.

Heydar Aliyev, who loved his homeland and served the development of his people in all fields throughout his life, carried out essential and real measures for the development, study, evaluation, and promotion of the culture of Nakhchivan.

Heydar Aliyev's visits to the Nakhchivan Autonomous Republic have made him friendly with the locals, he's chatting with people here, and he's chatting with people in the fields of science, culture, education, and art. He's also shared some really cool ideas about the culture of Nakhchivan. The Great Leader's approach to the history and culture of Nakhchivan as an integral part of the history and culture of Azerbaijan was expressed in many of his speeches.

**Keywords:** *national leader Heydar Aliyev, Nakhchivan, music culture, recommendations, tips, orders.*

**Амил Аскеров**

## ВЕЛИКИЙ ЛИДЕР ГЕЙДАР АЛИЕВ О МАТЕРИАЛЬНОЙ И ДУХОВНОЙ КУЛЬТУРЕ НАХЧЫВАНА

В статье рассказывается о представлениях общенационального лидера Гейдара Алиева о культуре Азербайджана, в том числе о культуре Нахчывана, мерах, которые он осуществлял в этой области, рекомендациях и советах. Показано, что музыкальная культура Нахчывана, имеющая древнюю историю, вступила в свой самый волнующий период и высокую стадию развития в результате культурной политики, проводимой общенациональным лидером Гейдаром Алиевым в период управления республикой.

Общенациональный лидер Гейдар Алиев оказал большие исторические услуги в развитии азербайджанской культуры, в том числе культурного и духовного богатства Нахчывана. Культурная политика, проводимая Гейдаром Алиевым, направлена на национальное единство азербайджанского народа. Идеология азербайджанства, являющаяся основной целью этой деятельности, является одним из важнейших исторических достижений Гейдара Алиева на пути к национальному единству нашего народа. Великий лидер отметил, что «азербайджанство является основной идеей независимого Азербайджанского государства». Каждый азербайджанец должен гордиться своей национальностью, мы должны сохранять азербайджанство – азербайджанский язык, культуру, национально-духовные ценности и традиции».

Основываясь на этих высших принципах, мы должны показать, что земля Нахчывана имеет очень богатые традиции в плане музыкального фольклора. Практически каждый регион этой страны отличается фольклорными жанрами и традициями фольклорного исполнения. Научными данными уже подтверждено, что Нахчыван является регионом, где наиболее распространен древний жанр ялла.

За годы независимости по рекомендации нашего общенационального лидера Гейдара

Алиева, по заданию и под непосредственным руководством Президента Азербайджанской Республики, Достопочтенного Ильхама Алиева были проведены важные работы, связанные с историей и культурой, и различные мероприятия, связанные с достижениями Нахчывана и народным творчеством.

Гейдар Алиев, всю жизнь любивший свою Родину и служивший развитию своего народа во всех сферах, осуществил очень важные и реальные мероприятия в направлении развития, изучения, оценки и популяризации нахчыванской культуры.

Во время своих визитов в Нахчыванскую Автономную Республику Гейдар Алиев поддерживал дружеские отношения с местным населением, в ходе бесед и встреч с деятелями науки, культуры, образования и искусства выдвинул много ценных и исторически важных идей о культуре Нахчыванской Автономной Республики. Подход великого лидера к истории и культуре Нахчывана как неотъемлемой части истории и культуры Азербайджана выразился во многих его выступлениях.

**Ключевые слова:** *общенациональный лидер Гейдар Алиев, Нахчыван, музыкальная культура, рекомендации, советы, распоряжения.*

**MİRSƏLİM EMİNOV**

# HEYDƏR ƏLİYEV VƏ NAXÇIVANDA TƏSVİRİ İNCƏSƏNƏT

*Müasir Azərbaycanın memarı, qurucusu ulu öndər Heydər Əliyev elə nadir liderdəndir ki, o dövlətin, elmin, mədəniyyətin bütün sahələrini bir peşəkar kimi bələd olub, o sahənin əhəmiyyətini, gələcək fəaliyyətini ən yüksək səviyyədə müəyyənləşdirməyə qadirdir. Ümummilli liderimiz daim mədəniyyətə, incəsənətə, elmə diqqət və qayğı ilə yanaşmışdır. Hələ siyasi hakimiyyətə gəldiyi ilk illərdən Naxçıvanda təsviri incəsənətin inkişafına xidmət edəcək Naxçıvan Rəssamlar Təşkilatının yaradılması barədə göstəriş vermişdir. Ümummilli lider daim təsviri incəsənət nümayəndələrinə qayğı göstərmiş, onların sərgilərində mütəmadi iştirak etmişdir. Azərbaycan rəssamlığında realist üslubunun banisi, görkəmli rəssam Bəhruz Kəngərlinin Naxçıvanda xatirəsinin, irsinin əbədiləşdirilməsində, əsərlərinin qorunmasında ulu öndərin göstərişinə əsasən rəssamın muzeyi yaradılmışdır. Və muzeyin açılışda iştirak edən ümummilli lider Bəhruz Kəngərliyə ən yüksək qiyməti vermişdir. Naxçıvanda təsviri incəsənətin inkişafında olduğu qədər bu diyarın qədim və zəngin sənətin tarixinin öyrənilməsidə ulu öndərin diqqətində olmuşdur.*

**Açar sözlər:** *ümummilli lider Heydər Əliyev, Naxçıvan, təsviri incəsənət.*

Müasir Azərbaycanın memarı, qurucusu ümummilli lider Heydər Əliyev elə bir sahə yoxdur ki, ona bələd olmasın, o sahəyə lazımi dəyəri, məsləhəti verməmiş olsun və ya onun diqqətindən kənarda qalmış olsun. Ümummilli lider Azərbaycanın qədim və zəngin mədəniyyətinə, incəsənətinə daim diqqət və qayğı göstərmiş, ən böyük qiyməti verərək demişdi: "Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir" [4]. Azərbaycan incəsənətinin mühüm sahələrindən biri də rəssamlıq sənətidir və bu sənətin tərəqqisi üçün də ümummilli liderimiz çox böyük işlər görmüşdür. Ümummilli lider Azərbaycanda təsviri incəsənətin inkişafına, onun nümayəndələrinə göstərdiyi qayğından saatlarla danışmaq olar. Biz isə onun Naxçıvanda təsviri incəsənətin inkişafı, təbliği və tədqiqində göstərdiyi əvəzsiz xidmətlərinə diqqət yetirəcəyik.

Ulu öndər hələ siyasi hakimiyyətə gəldiyi ilk illərdən Naxçıvanda təsviri sənətin inkişafına diqqət verirdi. Bu diyarda yaşayıb fəaliyyət göstərən rəssamları birləşdirməyin, Naxçıvan rəssamlıq məktəbinin yaranmasının vacibliyini, əhəmiyyətini uzaqgörən lider 1971-ci ildə bu birliyin təməlini qoydu. 1971-ci ilin iyun ayında qədim diyarda Naxçıvan Rəssamlar Təşkilatının yaradılması üçün lazımi işlərin yekunlaşması barədə dövlət strukturlarına və Rəssamlar ittifaqına göstəriş verir və özünün Naxçıvanda işlədiyi illərdə tanıdığı istedadlı teatr rəssamı Məmməd Qasımovu məsləhət bilmişdi. 1971-ci ilin iyul ayının 5-də Bakıda Azərbaycan Rəssamlar İttifaqı İdarə Heyətinin və ictimaiyyət nümayəndələrinin Naxçıvan rəssamları ilə birlikdə təsis yığıncağı keçirilmişdir. İlk olaraq 8 üzvlə fəaliyyətə başlayan bu təşkilatın qısa müddət sonra idarə binası və sərgi salonu üçün yer müəyyənləşdirilmiş, daha sonra muxtar respublika rəssamlarının sərgisi keçirilmiş, onların kataloqları hazırlanmış, gənc rəssamların ixtisas təhsilinə diqqət artırılmış, təşkilatın üzvləri yaradıcılıq ezamiyyətlərinə gördərilmişdir. Bu gün Naxçıvan Rəssamlar Birliyi adlanan həmin təşkilat muxtar respublikanın mədəni, ictimai həyatında xüsusi yer tutur, gənc rəssamların yetişməsi, beynəlxalq və yerli sərgilərin təşkili, kitabların, albomların çap olunması və s. işləri uğurla yerinə yetirir.

1970 və 1980-ci illəri də Azərbaycanın bir çox sahədə olduğu kimi təsviri sənət sahəsində inkişafın olması faktdır. Məhz bu illərdə respublikanın müxtəlif rayonlarında yerli heykəltəraşların müəllifi olduğu xalqımızın dahi şairlərinin, yazıçılarının, dövlət xadimlərinin, milli qəhrəmanlarının heykəllərinin ucaldılmasında Heydər Əliyevin böyük rolu olmuşdur. Heydər Əliyev XX əsr rəssamlıq sənəti

haqqında "Azərbaycan rəssamlıq məktəbi çox yüksək səviyyəyə malikdir. Mədəniyyətimizin böyük nailiyyətlərindən biri də XX əsrdə Azərbaycanda böyük rəssamlıq məktəbinin yaranması, çox görkəmli rəssamlarımızın, heykəltəraşlarımızın, memarlarımızın yetişməsi və onların yaratdıqları əsərlərdir" fikrini söyləmişdir [3].

Ulu öndərimiz deyirdi: "Mədəniyyət başqa aləmdir. Mədəniyyət uşaq kimidir, həmişə tumar və qayğı istəyir. O, həssasdır. Əlinin tumarı, ürəyinin qayğısı azca azalan kimi, o, hiss edir, küsür, inciyir. Siyasi rəhbər, dövlət xadimi bunu bilməlidir, bir an yadından çıxarmamalıdır". Heydər Əliyev özü məhz belə həssas, qayğıkeş, incəsənət və mədəniyyətin inkişaf proseslərinin istedadlı təşkilatçısı, incəsənət xadimlərinin yaxın dostu olan dövlət başçısı idi. Ümummilli liderimizin Tahir Salahovun, Mikayıl Abdullayevin, Səttar Bəhlulzadənin, Maral Rəhmanzadənin və başqa rəssamlarımızın fərdi sərgilərində müntəzəm iştirakı sənətsevərlərin yadındadır.

Ümummilli liderimiz Heydər Əliyev Naxçıvanda mədəniyyətə, incəsənətə və onun nümayəndələrinə daim böyük qayğı göstərib. Azərbaycan təsviri sənətində realist üslubunun banisi, ilk ali təhsilli rəssamı, XX əsr erməni vəhşiliklərinin acı nəticəsini əbədiləşdirən Bəhruz Kəngərliyə göstərdiyi diqqət, onun adının, sənətinin, irsinin yaşadılmasındakı xidmətləri ümummilli liderimizin Naxçıvanda təsviri sənətə göstərdiyi əvəzsiz işlərdən biridir. Naxçıvan şəhərində Heydər Əliyevin göstərişi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sərəncamına əsasən Bəhruz Kəngərli muzeyi yaradıldı. 2002-ci il 18 iyun tarixində bu muzeyin açılış mərasimində ulu öndərin şəxsən iştirakı yuxarıda deyilən fikirləri bir daha təsdiq edir. Heydər Əliyev muzeyin açılış mərasimində Bəhruz Kəngərliyə ən yüksək dəyəri verərək demişdi: *"Bəhruz Kəngərlinin əsərləri Azərbaycan rəssamlıq sənətinin, mədəniyyətinin ən görkəmli nümunələrindəndir. Biz bununla fəxr etməliyik. Fəxr etməliyik ki, Azərbaycan xalqının belə böyük istedada malik insanları olubdur"* [2, s. 211]. Dövlət İncəsənət Muzeyi fondunda saxlanılan və ictimaiyyətin gözündən kənarda qalan Bəhruz Kəngərliyə məxsus əsərlər məhz Heydər Əliyevin göstərişinə əsasən muzeyə təhvil verilmiş, sənətsevərlərə təqdim olunmuşdur və bu gün də həmin əsərlər muzeydə mühafizə olunmaqdadır [1, s. 263].

Ulu öndər Naxçıvanda vəzifədə işlədiyi zamanda Naxçıvan Rəssamlar Təşkilatında keçirilən sərgilərdə iştirak edir, rəssamlarla söhbət edir, onların qayğıları ilə maraqlanır, öz məsləhətlərini verirdi. Ulu öndərin incəsənət nümayəndələrinə olan qayğısı təkcə Azərbaycanda deyil, ondan kənarda olan incəsənət nümayəndələrin də rəğbətini qazanmışdır. Məşhur rus rəssamı Nikas Safronov Heydər Əliyev şəxsiyyətinə qiymət verərək yazırdı: "Heydər Əliyev dahi bir insandır. Heydər Əliyev kimi tarixi şəxsiyyətlər min ildə bir dəfə doğulur. Belə insanlar dünyanın ləl-cavahiridir. Onları qorumaq, hifz etmək gərəkdir. Çünki onlar bütün varlığını, həyatını əmin-amanlığın, səadətin bərqərar olmasına həsr edir, özlərini isə düşünmür, qorumurlar" (3).

Ulu öndərimiz Naxçıvanda təkcə təsviri incəsənətin inkişafında, təbliğində əvəzsiz xidmətlər göstərməmişdir. Eyni zamanda qədimliyi və zəngin irsi ilə seçilən bu diyarın təsviri incəsənət tarixinin öyrənilməsində də ən böyük diqqət və qayğını göstərmişdir. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin təşkili və formalaşdırılması ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisində ulu öndərin rəhbərliyi ilə 2002-ci il avqustun 12-də keçirilmiş müşavirədə bölmənin yaradılmasının zəruriliyindən bəhs edən ümummilli lider Heydər Əliyev demişdir: "Mən bununla Naxçıvan Muxtar Respublikasının indiyə qədər çox az öyrənilmiş qədim tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının yenidən dərindən araşdırılması və onlar haqqında elmi əsərlərin, populyar kitabların, yaxud başqa nəşrlərin hazırlanması məqsədi daşıyıram". Naxçıvan Bölməsinin tərkibində Təsviri və dekorativ-tətbiqi sənətlər şöbəsinin yaradılması Naxçıvanda təsviri incəsənətin sistemli, ardıcıl, geniş, dəqiq şəkildə öyrənilməsinə xidmət edir. Qeyd olunan vaxta kimi Naxçıvanda qədim və zəngin tarixi olan təsviri incəsənət səhifələri öyrənilməmişdir. Məhz bu dövrdən sonra Naxçıvanın

təsviri incəsənətinin nümayəndələri, onların əsərləri, bu diyarın dekorativ-tətbiqi sənət sahələri öyrənilmiş, təbliğ edilmiş və bu gündə davam edir.

## ƏDƏBİYYAT


1. Əliyev H. Müstəqilliyimiz əbədidir. Bakı: Azərnəşr, 2012, 480 s.
2. Əliyev Z., Alıyev N. Bəhruz bəy Kəngərli taleyi. Naxçıvan: Əcəmi, 2017, 512 s.
3. Mədəniyyət və incəsənətimizin Heydər Əliyev zirvəsi http://www.anl.az/down/meqale/edebiyyat /2013/aprel/305917.htm
4. https://525.az/news/91065-heyder-eliyev-fenomeni-ve-milli-medeniyyetimiz



***AMEA Naxçıvan Bölməsi***
***E-mail: m.selimeminov@mail.ru***

**Mirsalim Eminov**


## HEYDAR ALIYEV AND FINE ARTS IN NAKHCHIVAN


The architect and founder of modern Azerbaijan, the great leader Heydar Aliyev was a unique leader who was familiar with all fields of the state, science and culture as a professional and was able to determine the importance and future activity of these fields at the highest level. Our national leader had always paid attention and care to culture, art, and science. From the first years of his coming to political power, he ordered the establishment of the Nakhchivan Artists Organization, which would serve the development of fine arts in Nakhchivan. The national leader constantly took care of the representatives of the fine arts and regularly participated in their exhibitions. To perpetuate the memory and heritage of the outstanding artist Bahruz Kangarli, the founder of the realist style in Azerbaijani painting, the museum of the artist was established in Nakhchivan according to the instructions of the great leader. And the national leader, who attended the opening of the museum, had a high opinion of Bahruz Kengerli. As much as the development of fine arts in Nakhchivan, the study of the history of the ancient and rich art of this land was in the attention of the great leader.



**Keywords:** *national leader Heydar Aliyev, Nakhchivan, Fine Arts.*



**Мирсалим Эминов**


## ГЕЙДАР АЛИЕВ И ИЗОБРАЗИТЕЛЬНОЕ ИСКУССТВО В НАХЧЫВАНЕ


Гейдар Алиев, великий лидер, архитектор и основатель современного Азербайджана, является одним из тех редких руководителей, кто знает как профессионал все области государства, науки и культуры и способен определить будущее значение деятельности в любой сфере на высшем уровне. Наш общенациональный лидер всегда уделял внимание и заботу культуре, искусству и науке. С первых лет своего прихода к политической власти он распорядился о создании Нахчыванской организации художников, которая послужит развитию изобразительного искусства в Нахчыване. Общенациональный лидер всегда заботился о представителях изобразительного искусства и регулярно участвовал в их выставках. В целях увековечения памяти и

наследия выдающегося художника Бахруза Кенгерли, основоположника реалистического стиля в азербайджанской живописи, по указанию великого лидера в Нахчыване был создан музей художника. Общенациональный лидер, принимавший участие в открытии музея, дал Бахрузу Кенгерли самую высокую оценку. Помимо развития изобразительного искусства в Нахчыване великий лидер уделял внимание изучению истории древнего и богатого искусства этой земли.

**Ключевые слова:** *общенациональный лидер Гейдар Алиев, Нахчыван, изобразительное искусство.*

# MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ

1. Jurnalın əsas məqsədi elmi keyfiyyət meyarlarına cavab verən orijinal elmi məqalələrin dərc edilməsindən ibarətdir.
2. Jurnalda başqa nəşrlərə təqdim edilməmiş yeni tədqiqatların nəticələri olan yığcam və mükəmməl redaktə olunmuş elmi məqalələr dərc edilir.
3. Məqalənin həmmüəlliflərinin sayının üç nəfərdən artıq olması arzuolunmazdır.
4. Məqalələrin keyfiyyətinə, orada gostərilən faktların səhihliyinə müəllif birbaşa cavabdehdir.
5. Məqalələr AMEA-nın həqiqi və müxbir üzvləri və ya redaksiya heyətinin üzvlərindən biri tərəfindən təqdim edilməlidir.
6. Məqalələr iki dildə – Azərbaycan və rus dillərində çap oluna bilər. Məqalənin yazıldığı dildən əlavə digər 2 dildə xülasəsi və hər xülasədə açar sözlər verilməlidir.
7. Məqalənin mətni jurnalın redaksiyasına fərdi kompyuterdə, A4 formatlı ağ kağızda, “12” ölçülü hərflərlə, səhifənin parametrləri yuxarıdan 2 sm, aşağıdan 2 sm; soldan 3 sm, sağdan 1 sm məsafə ilə, sətirdən-sətrə “defislə” keçmədən, sətir aralığı 1,5 interval olmaq şərti ilə rus və Azərbaycan dilində Times New Roman şriftində yazılaraq, 1 nüsxədə çap edilərək, CD-də jurnalın məsul katibinə təqdim edilir. Mətnin daxilində olan şəkil və cədvəllərin parametri soldan və sağdan 3,7 sm olmalıdır.
8. Səhifənin ortasında “12” ölçülü qalın və böyük hərflərlə müəllifin (müəlliflərin) adı və soyadı yazılır.
9. 1 sətir boş buraxılmaqla aşağıda “12” ölçülü böyük hərflərlə məqalənin adı çap edilir. Sonra məqalənin yazıldığı dildə “10” ölçülü hərflərlə, kursivlə xülasə və açar sözlər yazılır. Daha sonra müəllifin işlədiyi təşkilatın adı, elmi dərəcəsi və e-mail ünvanı, “12” ölçülü kiçik hərflərlə qalın və kursivlə ədəbiyyat siyahısından sonra sağdan yazılır. (məs.: AMEA Naxçıvan Bölməsi; e-mail: tusi-nesr@gmail.com).
10. Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır və istifadə olunmuş ədəbiyyat xülasələrdən əvvəl “12” ölçülü hərflərlə, kodlaşdırma üsulu və əlifba sırası ilə göstərilməlidir. “Ədəbiyyat” sözü səhifənin ortasında qalın və böyük hərflərlə yazılır. Ədəbiyyat siyahısı yazıldığı dildə adi hərflərlə verilir. İstifadə edilən mənbələrin sayı 15-dən çox olmamalıdır. Məs.:
Kitablar: Qasımov V.İ. Qədim abidələr. Bakı: İşıq, 1992, 321 s.
Kitab məqalələri: Həbibbəyli İ.Ə. Naxçıvanda elm və mədəniyyət / Azərbaycan tarixində Naxçıvan, Bakı: Elm, 1996, s. 73-91.
Jurnal məqalələri: Baxşəliyev V.B., Quliyev Ə.A. Gəmiqaya təsvirlərində yazı elementləri // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2005, № 1, s. 74-79.
11. Məqalənin xülasəsində müəllifin adı və soyadı “12” ölçülü kiçik, qalın hərflərlə; mövzunun adı böyük, qalın hərflərlə; xülasənin özü isə adi hərflərlə yazılır. Xülasə məqalənin məzmununu tam əhatə etməli, əldə olunan nəticələr ətraflı verilməlidir.
12. Məqalədəki istinadlar mətnin icərisində verilməlidir. Məs.: [4, s. 15]
13. Məqalələrin ümumi həcmi, qrafik materiallar, fotolar, cədvəllər, düsturlar, ədəbiyyat siyahısı və xülasələr də daxil olmaqla 5-8 səhifədən çox olmamalıdır.
14. Məqaləyə müəlliflər haqqında məlumat (soyadı, adı və atasının adı, iş yeri, vəzifəsi, alimlik dərəcəsi və elmi adı, ünvanı, e-mail adresi, əlaqə telefonu) mütləq əlavə olunmalıdır.
15. Məqalənin məzmununa əsaslanan UOT kodu yuxarı sol tərəfdən mütləq qeyd olunmalıdır.
16. Təqdim olunan məqalə üçün müəlliflər antiplagiat arayışı təqdim etməlidirlər.

***QEYD:*** *AMEA Naxçıvan Bölməsinin “Elmi əsərlər” jurnalına təqdim olunan məqalələrin sayının çoxluğunu və “Tusi” nəşriyyatının imkanlarının məhdudluğunu nəzərə alaraq bir nömrədə hər müəllifin yalnız bir məqaləsinin çap edilməsi nəzərdə tutulur.*

## INFORMATION FOR AUTHORS

1. The primary purpose of this journal is to publish original scientific papers that meet scientific criteria.
2. The journal publishes compact and perfectly edited scientific papers, which are the results of new research and have not been published in other publications previously.
3. The number of collaborators exceeding three is undesirable.
4. The author is directly responsible for the quality of papers and the accuracy of the facts presented.
5. The papers must be submitted by full members and corresponding members of ANAS or one of the Editorial Board members.
6. The papers can be published in two languages – Azerbaijani and Russian. In addition to the language of a paper, an abstract should be provided in two other languages; keywords should be pointed.
7. A paper text is submitted to the editor-in-chief of the journal along with an electronic copy, it must be printed on a personal computer, on white A4 paper, in Times New Roman font, font size "12", page parameters 2 cm above, 2 cm below, 3 cm on the left, 1 cm on the right, without hyphenation, the interval of 1.5, and in one of the languages mentioned above. Margins for figures and tables inside the text should be 3.7 cm left and right.
8. The name and surname of the author (authors) are indicated in bold and capital letters in the center of the page, font size "12".
9. Below, after one blank line, the title of the paper is indicated in capital letters, font size "12". Then there is abstract including keywords in the language of the paper, font size "10", italics. The organization name, the author's scientific degree, the email address should be written below the references in lowercase letters, font size "12", bold italics (for example, Nakhchivan branch of ANAS; Email: tusinesr@gmail.com).
10. Reference should be made to scientific sources on the subject, the list of references should be given before the abstract, following the encoding rules, in alphabetical order, the font size "12'. The word "references" in the middle of the page is highlighted in bold and in capital letters. References are in lowercase letters in the language in which this edition has been published. The used sources must not be more than 15. Eg.:
Books: Gasymov V.I. Ancient monuments. Baku: Light, 1992, 321 p.
Book papers: Habibbeyli I.A. Science and culture in Nakhchivan / Nakhchivan in the history of Azerbaijan. Baku: Science, 1996, p. 73-91.
Journal papers: Bakhshaliev V.B., Guliev A.A. Writing elements in the drawings of Gemigaya // Proceedings of the Nakhchivan Branch of ANAS, 2005, № 1, p. 74-79.
11. In the abstract, the author's name and surname are indicated in lowercase letters in bold font, size "12"; the title of the paper is capitalized in bold; the abstract itself is in lowercase letters. The abstract should correspond to the full content of the paper; the results should be reported in detail.
12. The links in the paper should be in the text. Eg.: [4, p. 415].
13. The total amount of a paper, including graphic materials, photographs, tables, formulas, references, and reviews, should not exceed 5-8 pages.
14. Authors' data must be specified additionally (last name, first name, patronymic, place of work, position, degree, academic title, address, email address, work, and home phone numbers).
15. A paper's code based on UDC should be indicated on the left.
16. Authors must provide Antiplagiat certificates for submitted papers.

***NOTE:*** *Considering the large number of papers submitted to the "Scientific works" journal of the Nakhchivan Brunch of ANAS, and the limited capabilities of the "Tusi" Publishing house, it is assumed that only one paper of each author can be published in one issue.*

# К СВЕДЕНИЮ АВТОРОВ

1. Основной целью журнала является публикация оригинальных научных статей, соответствующих критериям научного качества.
2. Журнал публикует компактные и в совершенстве отредактированные научные статьи, являющиеся результатами новых исследований и не опубликованные ранее в других изданиях.
3. Желательно, чтобы число соавторов не превышало трех.
4. Автор несет прямую ответственность за качество статей, достоверность представленных в них фактов.
5. Статьи должны быть представлены действительными членами и членами-корреспондентами НАНА или одним из членов Редколлегии.
6. Статьи могут быть представлены на двух языках – азербайджанском и русском. Резюме и ключевые слова необходимо представить на двух других языках.
7. Статьи представляют в редакцию журнала в печатном виде, в электронной форме (CD), на бумаге формата А4, шрифт Times New Roman, кегль шрифта 12 пт, параметры страницы: верхнее поле – 2 см, нижнее – 2 см левое – 3 см, правое – 1 см, без переносов, межстрочный интервал – 1,5. Поля страниц для рисунков и таблиц внутри текста слева и справа должны быть по 3,7 см.
8. По центру страницы, кеглем 12 пт, жирным шрифтом и заглавными буквами указывается имя и фамилия автора (авторов).
9. После одной пустой строки указывается название статьи заглавными буквами, кегль шрифта 12 пт. Затем приводится аннотация с ключевыми словами на языке статьи (кегль шрифта – 10 пт, курсив). Название организации, ученая степень и адрес электронной почты автора указываются обычными строчными буквами, жирным курсивом, кегль шрифта 12 пт, справа после списка источников (например: Нахчыванское отделение НАНА; E-mail: tusinesr@gmail.com)
10. Следует указать ссылки на научные источники по данному предмету. Список использованной литературы указывается перед резюме, в соответствии с правилами кодировки, в алфавитном порядке, кегль шрифта 12 пт. Слово “Литература” пишется посередине страницы, заглавными буквами и жирным шрифтом. Список литературы приводится строчными буквами на языке публикации приведенного издания, в количестве не более 15. Напр.:
Книги: Гасымов В.И. Древние памятники. Баку: Ишыг, 1992, 321 с.
Книжные статьи: Хабиббейли И.А. Наука и культура в Нахчыване / Нахчыван в итории Азербайджана. Баку: Наука, 1996, с. 73-91.
Журнальные статьи: Бахшалиев В.Б., Гулиев А.А. Элементы письменности в рисунках Гемикая // Известия Нахчыванского отделения НАНА, 2005, № 1, с. 74-79.
11. В резюме имя и фамилия автора указываются строчными буквами жирным шрифтом кеглем 12 пт, название статьи – заглавными буквами жирным шрифтом, само резюме строчными буквами. Резюме должно соответствовать полному содержанию статьи с подробным представлением полученных результатов.
12. Ссылки должны быть представлены в тексте в виде [4, с. 15].
13. Общий объем статьи, включая графические материалы, фотографии, таблицы, формулы, список литературы и отзывы, не должен превышать 5-8 страниц.
14. Обязательно указываются данные об авторах (фамилия, имя, отчество, место работы, должность, ученая степень и звание, адрес, адрес электронной почты, контактный номер).
15. Необходимо указать УДК статьи слева в верхней части.
16. Авторы должны предоставить сертификат Антиплагиат на присланную статью.

***ПРИМЕЧАНИЕ:*** *Принимая во внимание большое количество статей, представленных в журнал “Научные труды” Нахчыванского отделения НАНА и ограниченные возможности издательства “Туси”, в одном номере может быть опубликована только одна статья каждого автора.*

**“HEYDƏR ƏLİYEV İDEYALARI VƏ MÜASİR DÖVR” RESPUBLİKA ELMİ KONFRANSININ MATERİALLARI.**

**II HİSSƏ**


| | |
|---|---|
| Nəşriyyatın müdiri | – Qafar Qərib |
| Baş redaktor | – Zülfiyyə Məmmədli |
| Redaktor | – Sara Cəfərova |
| Korrektor | – Yelena Muxtarova |
| Operatorlar | – İlhamə Əliyeva, |
| | – Aynur Təhməzova, |
| | – Taleh Maxsudov |

Yığılmağa verilmişdir: 23.06.2023
Çapa imzalanmışdır: 21.07.2023
Kağız formatı: 70 x 108 1/16
12,8 çap vərəqi. 192 səhifə
Sifariş № 179. Tiraj: 100

AMEA Naxçıvan Bölməsinin “Tusi” nəşriyyatında çap edilmişdir.
Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, 35.
E-mail: tusinesr@gmail.com